**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Qərb Universiteti**

**Q.Y.Əbdülsəlimzadə**

# İqtisadi nəzəriyyə – *Economics*
# (Dərs vəsaiti)

Bakı – 2012

Dərs vəsaiti iqtisad elmləri doktoru, professor ***Q.Y.Əbdülsəlimzadə*** tərəfindən hazırlanmışdır

Redaktor: «İqtisadiyyat, marketinq və menecment» kafedrasının müdiri, iqtisad elmləri namizədi, dosent ***P.Ə.Qurbanov***

Rəyçilər: İqtisad elmləri doktoru, professor ***İ.V.Əlibəyov***

İqtisad elmləri namizədi, dosent ***X.Ş.Kərimov***

*Dərs vəsaiti Azərbaycan Respublikası Təhsil Nazirliyinin 4 avqust 2006-cı il tarixli 639 saylı əmrinə əlavə kimi «Ali ixtisas təhsilinin Dövlət Standartı bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələbləri»nə uyğun olaraq, «II 010000 – Ümumi iqtisadiyyat» istiqaməti üzrə ali baza təhsil proqramına daxil edilmiş «İqtisadi nəzəriyyə» kursunun (kod İÜ HF B 04) tədrisinə dair tövsiyyələrinə, metodik göstərişlərinə uyğun hazırlanmışdır.*

Dərs vəsaitində tarixi və məntiqi ardıcıllıqla iqtisadi biliklərin formalaşmasının ilk dövrlərindən başlayaraq, cəmiyyətin mürəkkəb sosial-iqtisadi problemləri – tələb-təklif, istehsal-bölgü, mübadilə-istehlak, qiymət-rəqabət, pul-kredit, daxili-xarici bazar, ölkələrin iqtisadi-ticarərət əlaqələri, milli iqtisadiyyatların təhlükəsizliyi, əhalinin həyat səviyyəsi, müasir iqtisadi inteqrasiya və qloballaşma problemləri şəhr olunmuşdur.

© *Q.Y.Əbdülsəlimzadə*
© Qərb Universiteti
Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2012

# Ön söz

Müasir inteqrasiya, qloballaüma və vahid dünya təsərrüfat sisteminin aşkar çətinliklərə tədricən formalaşdığı qeyri-sabit bir inkişaf mərhələsində, qədim yunan müdriklərinin «hər şey axır hər şey dəyişir» fikri təsdiq edir ki, yaşadığımız cəmiyyət həyatının ictimai-siyasi, mədəni-əxlaqi problemləri ilə yanaşı onun sosial-iqtisadi sahələrində də baş verən ziddiyyətli mürəkkəb dəyişikliklər, həmin dinamik proseslərin hərtərəfli dərk olunmasından daha surətlə gedir.

XXI əsr cəmiyyətinin çoxcəhətli qayğı və problemlərinin elmi-nəzəri tədqiqi, eyni zamanda obyektiv mövqelərdən tədrisi, yetişməkdə olan yeni gənc nəsl mütəxəssislərindən tələb edir ki, onlar «bugünü keçmişin işığında gələcək məqsədlər naminə öyrənməli, kimlərinsə əhval-ruhiyyəsinə uyğun dəyişməməli, əsl peşəkar sənət sahibi kimi yüksəkdə dayanmalı, saf-səmimi olmalı, real iqtisadi prosesləri təhlil etdikdə tədqiqatçı alim kimi hərəkət etməli, həmin məqsədlərin həyata keçirilməsində isə siyasətçi mövqeyində durmalıdırlar.» (C.Keyns)

Bu ciddi meyarlar baxımından konkret tarixi şəraitdə «cəmiyyətin iqtisadi münasibətlərinin qanunauyğunluqlarını» (A.Smit); «maddi nemətlərin istehsal, bölgü, mübadilə, istehlakını idarə edən qanunları» (K.Marks); «iqtisadi resursların məhdudluğu və cəmiyyətin tələbatlarının sonsuzluğu» (D.Robinson) reallığında; «insan cəmiyyətinin normal həyat fəaliyyətinin öyrənilməsi» (A.Marşall); «nə, necə və kim üçün istehsal etməli» (P.Samuelson) prinsiplərinə uyğun istiqamətdə daha səmərəli son iqtisadi-sosial nəticələrə nail olmağın sintetik elmi təhlili kimi müxtəlif məktəblər, istiqamətlər tərəfindən səciyyələndirilən iqtisadi nəzəriyyə (siyasi iqtisad, ekonomiks, iqtisadiyyat) – ictimai elmlərin mühüm tərkib hissələrindən birini təşkil edir.

Böyük Azərbaycan mütəfəkkiri Nəsrəddin Tusinin (XIII əsr) yazdığı kimi «bu elm hamının xeyrinə olan birgə əməyin həqiqi və ümumi inkişaf qanunları haqqında nəzəriyyədir».

Qərb Universitetinin hazırladığı «İqtisadi nəzəriyyə – *Economics*» adlı dərs vəsaitinin – iqtisadiyyata giriş, mikroiqtisadiyyat, makroiqtisadiyyat və müasir beynəlxalq iqtisadi problemlər kimi 4 ümumi bölməsi məntiqi bir ardıcıllıqla 32 mövzunu əhatə edir.

Dərs vəsaitinin fərqləndirici xüsusiyyətləri kimi – Azərbaycan Respublikası Təhsil Nazirliyinin «İqtisadi nəzəriyyə» kursunun tədrisinə dair tövsiyyələrinə əsaslandığını, müasir standartlara uyğun hazırlandığını; yeri gəldikcə iqtisadi təlimlər tarixi və iqtisadi tarixlə əlaqələndirildiyini; müxtəlif dillərdə nəşr olunmuş dərslik, kitab, monoqrafiyalara

istinadla yazıldığını; real həyat faktları, statistika materialları, bədii ədəbiyyat nümunələrinə yer verildiyini; Qərb Universitetinin özəl tədris cəhətlərinin nəzərə alındığını; bir sıra qrafik təsvir, sxem və cədvəllərdən istifadə olunduğunu; öyrənilən mövzuların respublikanın iqtisadi – sosial problemləri ilə bağlı şərhi səylərini qeyd etmək lazımdır.

Hər ümumi bölmə üçün test imtahan sualları, dərs saatları bölgüsü, axırda isə ədəbiyyat siyahısı və iqtisadi terminlərin izahlı lüğətinin verilməsi, şübhəsiz tələbələrin bu kursu müstəqil sürətdə öyrənməsinə kömək edəcəkdir.

Dərs vəsaitinin ayrı-ayri bölmələr üzrə nəşr olunmuş ilk variantı ilə tanış olaraq, öz tənqidi qeydlərini bildirmiş, arzu və təkliflərini irəli sürmüş həmkarlarımıza, professor – müəllim heyətinə, tələbələrə dərin təşəkkürümüzü bildirməklə yanaşı, gələcəkdə kitabın daha da təkmilləşdirilməsi istiqamətindəki işgüzar məsləhətlər böyük razılıq, habelə minnətdarlıqla nəzərə alınacaqdır.

# İqtisadiyyata giriş

*(birinci bölmə)*

# Mövzu 1. Kursun məqsədi, vəzifələri və əsas prinsipləri

**1.1** İqtisadi biliklərin meydana çıxması, formalaşması mərhələləri və müasir istiqamətləri
**1.2** Elmlər sistemində iqtisadi nəzəriyyənin (*Economics*in) yeri
**1.3** Cəmiyyətin təsərrüfat həyatının mikroiqtisadi, mezoiqtisadi, makroiqtisadi və meqaiqtisadi səviyyətlərdə öyrənilməsi
**1.4** *Economics*in 10 prinsipi

**1.1.** İctimai elimlərin tərkib hissəsi sayılan iqtisad elminin tarixi minillikləri əhatə edərək, bəsit və ibtidai şəkildə olsa da, ilk ünsürləri qədim Babilistan, Misir, Çin, Hindistan,Yunanistan kimi sivilizasiya ocaqlarında meydana çıxmişdir.

Qədim Hind və Çin mənbələrində, Misirin papirus yazılarında, şumerlərin daş və kərpic üzərində həkk olunmuş kitabələrində, Babilistan hökümdarı Xammurapinin qanunlarında, Şərq və Qərb müəlliflərinin, xüsusilə də Yunanistan, Roma müdrik filosoflarının, tarixçilərinin əsərlərində, natiqlərinin çıxışlarında o dövrün təsərrüfat həyati, əkinçilik, sənətkarlıq peşələri, gəmiçilik, sələmçilik, ticarət əlaqələri haqqında bir sıra qiymətli məlumatlar öz əksini tapmışdır.

Elm tarixində iqtisadiyyat-oykonomiya anlayışı ilk dəfə qədim yunan filosofu Ksenofont (e.ə.450-355) tərəfindən onun «Ev təsərrüffat», yaxud «Ev iqtisadiyyatı» adlı kitabında işlədilmişdir.Sonralar yunan filosofu Aristotel (e.ə.384-322) bu sözü daha geniş mənada işlədərək, şərh etmişdir.

«Oykonomiya» sözü 2 hissədən ibarət olub, «oykos» (ev təsərrüfatı) və «nomos» (qanun, qayda) söz birləşməsindən əmələ gələrək, «ev təsərrüfatı qaydaları», yaxud «ev təsərrüfatının idarə olunması qaydaları-qanunları» anlamını verir. Bu mənada qədim Yunanıstan iqtisadi biliklərin vətəni, qədim yunan müəllifləri isə onun yaradıcıları sayıla bilərlər.

IV-XVIII əsirləri əhatə etmiş orta əsrlərdə, qədim və antik dövrlərə nisbətən iqtisadi fikirlərin ardıcıllıqla inkişaf etməməsinin səbəbi, istər Şərq aləmində, istərsə də Qərb ölkələrində dini-mövhumat mühitinin hökm sürməsi olmuşdu. Doğrudur, buddizm-xristian-islam dininin müqəddəs kitabları və qaydalarında ölkənin təsərrüfat həyatı, xüsusi mülkiyyət, ədalətli bölgü, əmək haqqı, vergilər, qənaət, sadə həyat tərzi, sələmçiliyin pislənməsi haqqında müəyyən fikirlər irəli sürülmüşdür. Lakin bu dini təlimlərdə zülmə qarşı səbirli olmaq, cəmiyyətdəki ictimai və iqtisadi haqsızlıqlarla barışmaq cəhdləri, hər işi Tanrının hökmü ilə bağlamaq meylləri üstünlük təşkil etmişdir.

Orta əsrlərdə ərəb mütəfəkkiri İbn Xəldun (1332-1406) dünya iqtisadi təlimlər tarixində xüsusilə seçilmişdir. O, bəşər cəmiyyətinin keçdiyi inkişaf yolunu köçərilik, oturaq həyat və mədəniyyət mərhələləri kimi səciyyələndirmiş, eyni zamanda həmin dövrlərin tarixi ardicilliqla bir-birini əvəz etməsini əmək bölgüsü, habelə məhsuldar qüvvələrin ümumi yüksəlişi ilə əlaqələndirmişdir. İnsanların tədricən cəmiyyət halında birləşməsinin zəruriliyini irəli sürmüş müəllif göstərmişdir ki, bəşəriyyətin yaşaması və təhlükəsizliyi üçün təbiətin bəxş etdiyi müxtəlif təyinatlı nemətlərdən səmərəli faydalanmaq tələb olunur.

Orta əsr gerçəkliyi şəraitində İbn Xəldunun sərbəst bazar, əmtəə, dəyər, qiymət, rəqabət, tələb, təklif, ticarət, pul, sərvət, dövlət idarəçiliyi haqqındakı elmi-nəzəri ideyaları, iqtisadi təlimlər tarixinin dəyərli səhifələrini təşkil edir.

Qərbi Avropa ölkələrində və Rusiyada orta əsirlərin iqtisadi təlimləri müxtəlif mənbə, habelə müəlliflərin əsərlərində bu ya digər formada əks olunsa da, lakin öz dolğun ifadəsini italyalı din xadimi Foma Akvinskinin (1225-1274) ziddiyyətli iqtisadi görüşlərində tapmışdır. O, cəmiyyətin iqtisadi problemlərini, insanların müxtəlif təbəqələrə mənsub olmasını ilahi qanunlarla bağlamış, mülkiyyəti insanın ilk günahının cəzası saymışdır. Tacirlərin müəyyən gəlir əldə etməsilə razılaşan müəllif, ölkəyə onun ehtiyaclarını ödəmək üçün deyil, yalnız qazanc naminə mal gətirənləri «nifrətə layiq olan alçaq peşə» sahibləri adlandırmışdı. O, Aristotelin iqtisadi təliminə əsaslanaraq «ədalətli qiymət» prinsipini irəli sürmüş, mübadiləni ekvivalentlik hesab etmiş, öz növbəsində ekvivalentliyi isə əmək məsrəfləri (xərcləri) ilə əlaqələndirmiş, lakin qiymətin rəqabətdən asılı olmadığını göstərmişdir.

Feodalizm cəmiyyətini son dövrü, Qərbi Avropada iqtisadi təlimlər tarixində Tomas Mor (1478-1532) və Tommazo Kampanella (1568-1639) kimi utopik sosialistlərin adları ilə bağlıdır. Onların «Utopiya» və «Günəş şəhəri» adlı əsərlərində, yaşadıqları dövrün iqtisadi-ictimai nöqsanları tənqid olunmaqla yanaşı, qurmaq istədikləri utopik cəmiyyətin üstünlükləri göstərilmişdir. Həmin gələcək utopik cəmiyyətdə xüsusi mülkiyyət olmamalı, hamı işləməli, insanların ehtiyacları tam ödənilməli, iş günü 4-6 saat təşkil etməli, uşaqların və yeniyetmələrin tərbiyəsi ictimai nəzarət altında aparılmalı idi.

XVI əsrin sonu və XVII əsrin əvvəlləri dünya təsərrüfat həyatında böyük coğrafi kəşflər, əmtəə-pul münasibətlərinin inkişafı, iqtisadi əlaqələrin genişlənməsi, ilkin kapital yığımı prosesi, müstəmləkə sisteminin yaranması, dünya bazarının formalaşması kimi yeni hadisələrlə əlamətdar olmuşdu. Nəticədə xüsusi mülkiyyətin müxtəlif formaları geniş yayılmağa başlamış, azad sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar açılmış, rəqabət mübarizəsi gündəlik təsərrüfat həyatına daxil olmuşdu.

Ona görə də əvvəllər müxtəlif elmlərin tərkibində inkişaf etmiş iqtisadi təlimlər, fikirlər, baxışlar tədricən müstəqil bir elm sahəsi kimi formalaşmağa başlamışdı. Bu elmin ilk məktəbi merkantilizm adlanmışdı.

***Merkantilistlər*** iqtisadi məktəbinin U.Stafford, T.Men, Q.Skaruffi, A.Serra, A.Monkretyen kimi müxtəlif ölkələrinin nümayəndələri, ölkənin iqtisadi həyatında pula (qızıla, gümüşə) və bunun əsas mənbəyi saydıqları ticarətə, xüsuslilə də xarici ticarət əlaqələrinə əsas diqqət yetirmişlər. Onlar iqtisadiyyatı bir sistem kimi deyil, onun yalnız əmtəə tədavülü dairəsini, alqı-satqı əlaqələrini öyrənərək belə bir prinsip irəli sürmüşlər ki, qızıl-gümüş əsl sərvət olduğundan ölkə «çox şey satmalı və az məhsul idxal etməlidir».

***Fiziokratlar*** iqtisadi məktəbi Fransada formalaşmış və onun banisi Fransua Kene (1694-1781) sayılır. «Taxıl», «Fermer», «İqtisadi cədvəl» əsərlərində göstərilmişdir ki, ölkənin iqtisadi həyatını, onun sərvətinin əsl mənbəyini ticarət deyil, torpaq və kənd təsərrüfatı təşkil edir. Bu məktəbin ən mühüm xidməti ondan ibarətdir ki, onlar merkantilistlərdən fərqli olaraq öz iqtisadi təlimlərini tədavül dərəcəsindən (ticarətdən) istehsal (kənd təsərrüfatı, aqrar) bölməsinə yönəltmişlər. Fiziokratlar göstərirdilər ki, təsərrüfatın digər sahələrində təbiətin və torpağın verdiyi məsulların yalnız forması dəyişdirilir, amma mahiyyət etibarilə yeni bir şey yaradılmır. Ona görə də bütün diqqət

«məhsuldar təbəqə» hesab etdikləri əkinçilərə və onların becərdikləri torpağa, habelə ümumiyyətlə kənd təsərrüfatının inkişafına yönəldilməlidir.

***Klassik siyasi iqtisad məktəbi*** U.Petti, A.Smit və D.Rikardonun adları ilə bağlıdır. Kapitalist münasibətlərinin sürətlə inkişaf etdiyi İngiltərədə formalaşmış bu məktəbin baniləri və sonrakı nümayəndələri kapitalist, yaxud azad sahibkarlıq cəmiyyətinin təsərrüfat həyatını bütöv bir tam (system) halında təhlil etmişlər. Onlar sərbəst bazar münasibətləri iqtisadi nəzəriyyəsini yaratmışdılar. U.Pettinin «sərvətin atası əmək, anası isə torpaqdır» fikri, bu məktəbin ən mühüm xidməti sayılan əmək dəyər nəzəriyyəsinin yığcam ifadəsidir.

A.Smit «Xalqlar sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat» (1776) əsasrində insanların iqtisadi marağı, onların sərbəstliyi, bazarda rəqabətə geniş yol verilməsi prinsiplərini irəli sürərək yazırdı ki, bazarı «görünməz əl» (tələb, təklif, qiymət, rəqabət mənasında) idarə edir. Çunki insan öz ətrafındakıların daimi yardımına ehtiyac duyduğu halda, bu yardımı yalnız onların xeyirxahlığında axtarması əbəsdir. A.Smitin fikrincə, bizim naharımız qəssabın və ya çörəkçinin xeyirxahlığından deyil, onların öz maraqlarına uyğun peşə-sənət məşğuliyyətləri (əmək fəaliyyətləri) ilə bağlıdır. Doğrudur, «hər bir fərd ictimai mənafeyi qorumaq niyyətində olmadığı kimi, onu nə dərəcədə güddüyünü də bilmir. O yalnız öz mənfəətini düşünür və bunu edərkən, arzulamadığı (nəzərdə tutmadığı) məqsədlərə doğru bazarın «gözəgörünməz əli» tərəfindən idarə olunur». Ona görə də dövlətin vəzifəsi bazarın işinə qarışmaq yox, onun normal təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaratmaq, ölkə vətandaşlarının həyatını, azadlığını və iqtisadi sərbəstliyini qorumaqdır. A.Smit ölkənin sərvətinin və milli gəlirinin artırılmasını, istehsalda çalışmaların sayı, habelə onların əmək məhsuldarlığı, peşə-sənət bacarığı qabiliyyəti kimi iki əsas amillə əlaqələndirmişdi.

D.Rikardonun «Siyasi iqtisadın və vergi qoyulmasının əsasları» (1817) əsərində A.Smitin insanların şəxsi maraq, fayda əldə etmək, bazarda sərbəst rəqabət haqqında fikirləri daha da genişləndirilib inkişaf etdirilmişdir. O, iqtisadi nəzəriyyənin pul, onun tədavülü, kredit münasibətləri, vergi məsələlərinə dair elmi-nəzəri, habelə konkret əməli fikirlər söyləmiş, beynəlxalq əmək bölgüsü və dünya ticarət əlaqələrinə, xüsuslið bu münasibətlərdə A.Simitin «mütləq üstünlüklər» nəzəriyyəsinin davamı kimi özünün «müqayisəli üstünlüklər» konsepsiyasını işləyib hazırlamışdır.

***Marksist məktəb*** K.Marks (1818-1883) və F.Engelsin (1820-1895) adı, habelə dünyanın müxtəlif ölkələrində bu təlimin davamçılarının inqilabı fəaliyyətləri ilə bağlıdır. Ümumiyyətlə marksizim nəzəriyyəsinin və onun iqtisadi ideyalarının yaranması, XIX əsrin 30-40-ci illərindən başlayaraq Qərbi Avropa ölkələrində, ilk növbədə isə İngiltərədə iri maşınlı sənayenin inkişafı, cəmiyyətin kapitalistlərə və proletariata (fəhlələrə) bölünməsi, bu siniflər arasında iqtisadı-siyasi mübarizəsinin kəskinləşməsi, gələcəkdə daha ədalətli bir quruluş (sosializm-komminizm cəmiyyəti) formalaşması zəruriliyinə əsaslanmışdı.

Marksist məktəbin nümayəndələri yeni formalaşan fəhlə sinifini «kapitalizmin qəbirqazanı» adlandıraraq, onun tez-gec cəmiyyətdə hakimiyyəti əlinə alacağını elmi-nəzəri cəhətdən əsaslandırıb, sübut etməyə calışmışlar. Onların fikrincə, yeni qurulacaq cəmiyyətdə xüsusi mülkiyyət ləğv ediləcək, istehsal vasitələri üzərində ictimai mülkiyyət bərqərar olacaq, rəqabət mübarizəsi aradan qaldırılacaq, işsizlik olmayacaq, ədalətli bölgü prinsipi həyata keciriləcəkdir.

K.Marks və F.Engelsin «Kapital», «Anti-Düring», «Təbiətin dialektikası», «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi», «İngiltərədə fəhlə sinifinin vəziyyəti» kimi

əsərlərində, kapitalizm cəmiyyətinin əsas iqtisadi qanununun izafi dəyər olduğu ideyası irəli sürülmüşdü. Bu qanun marksist iqtisadi təlimin «təməl daşı» adlandırılaraq, kapitalistlərin bütün sərvətinin mənbəyinin fəhlənin haqqı ödənilməmiş izafi əməyinin olduğu ideyası əsaslandırılmışdı.

Rusiyada 1917-ci ildə maksizim ideyaları əsasında qurulan bolşevik rejiminin 74 il davam etdikdən sonra dağılması, marksist iqtisadi təlimin müasir dövrün tələblərinə uyğun gəlmədiyini sübut etdi.

Müxtəlif iqtisadi nəzəriyyə məktəblərinin elmi təhlili, tənqidi qiymətləndirilməsi və sintezi təməlində, onun aşağıdakı **müasir istiqamətləri** formalaşmışdır: a) neoklassik; b) keynsçilik; c) institusional-sosioloji.

***Neoklassik istiqamət,*** iqtisadi təlimlər tarixində XIX əsrdə meydana çıxaraq, marksist ideyalarin əleyhinə çevrilmişdir. Bu istiqamətin tərafdarları bazar sərbəstliyinə üstünlük vermiş, cəmiyyətin təsərrüfat həyatında rast gəlinən tələblə təklifin hər cür təsadüfləri tədricən tarazlaya biləcəyini əsaslandırmağa çalışmışlar. Onlar dövlətin ölkənin təsərüfat həyatında rolunun məhdudlaşdırılmasına tərəfdar olmuşlar.

Bu yeni iqtisadi nəzəri istiqamətin formalaşmasinda marjinalist (faydalılıq) ideyası və bu mövqeyin C.Hossen, K.Menger, S.Cevons, F.Vizer, L.Valras, V.Pareto kimi nümayəndələri mühüm rol oynamışlar. Klassik və marksist iqtisadi məktəblərdən fərqli olaraq, marjinstlər əmtəə-xidmətlərin dəyərinin (qiymətinin) onların istehsalına sərf olunmuş əməklə deyil, həmin məhsulun-xidmətin alıcı (istehlakçı) üçün faydalılığı ilə ölçüldüyünü irəli sürmüşlər.

Neoklassik istiqamətin formalaşmasında ingilis iqtisadçısı Alfred Marşall (1842-1924) həlledici rol oynamışdır. O, 1890-cı ildə nəşr olunmuş «İqtisad eliminin – *economicsin* prinsipləri» əsərində, iqtisad elmindəki müxtəlif mövqeləri əlaqələndirərək vahid bir konsepsiya yaratmağa çalışmış və «siyasi iqtisad» terminini, «iqtisad (*economics*)» kimi işlətmişdir. A.Marşall elastiklik, tarazlı qiymət anlayışını elmi-nəzəri dövriyəyə daxil etmiş, təklif qiymətini klassik mövqedən, tələb qiymətini isə marjinalist mövqedən müəyyənləşdirməyi irəli sürmüşdü. Tələbin qiymətlə tərs, təklifin isə düz nisbətdə olduğunu qeyd edən müəllif, dövlətin bazar mexanizmi (tələb, təklif, qiymət, rəqabət) fəaliyyətinə yersiz qarışmasının əlehinə olmuşdu.

Bu istiqamətin *neoliberalizm* cərəyanı L.Mizens, F.Hayek, J.Şumpeter, V.Oyken, C.Klark, A.Rostau; *monetarism* cərəyanı M.Fridmen və onun tərəfdarlarının adları ilə baglıdır.

***Keyniscilik istiqaməti*** iqtisadi elmdə XX əsrin 30-cu illərində, 1929-1933-cü illərdəki dünya iqtisadi böhranı şəraitində meydana çıxmış elmi-nəzəri təlim olub, ingilis iqtisadçısı Con Meynard Keynsin (1883-1946) adı ilə bağlıdır. O illərdə sərbəst bazar münasibətləri iqtisadi sisteminin «özünü tənzimləyə bilməsi» haqqında neoklassik ideyalar yaranmış böhranın əsl səbəblərini izah edə bilmir və ən başlıcası isə ondan çıxış yollarını tapa bilmirdi.

Belə bir tarixi şəraitdə C.M.Keyns «iqtisadiyyatın dövlət tənzimlənməsi» konsepsiyasını irəli sürüb əsaslandırmışdı. İqtisadiyyatda baş verən yeni proseslər və perspektiv meyillərə dair keynsçi ideyalar, onun «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» (1936) kitabında hərtərəfli təhlil olunmuşdur. O göstərirdi ki, daxili-xarici təsərrüfat əlaqələrinin mürəkkəbləşdiyi bir şəraitdə sərbəst bazar vasitəsiylə məşqulluq, maliyyə resurslarından səmərəli istifadə, iqtisadiyyatın dinamik inkişafını təmin etmək

mümkün deyildir. Ona görə də iqtisadiyyatda bazar münasibətləri prinsiplərini saxlamaqla yanaşı, bu münasibətlər sistemini hökmən tənzimləmək lazımdır. Keynisin iqtisadi təlimi bu mənada, dövlət tənzimlənməsi sisteminə əsaslanan *makroiqtisadi nəzəriyyədir*.

Keynisin iqtisadi təlimində – məcmu tələb, əhalinin alıcılıq qabiliyyətini artırmaq, insanların istehlaka və yığıma meyillik, səmərəli tələbi müəyyən edən xərclər-gəlirlər arasındakı nisbətləri tənzimləmək məsələlərinə ciddi diqqət yetirilmişdir. Onun A.Hansen, R.Xarrod, E.Domar, C.Robinson kimi davamçıları, neokeynsçilik adı altında bu təlimi təkmilləşdirərək daha da inkişaf etdirmiş, yeni ideya və orjinal fikirlərlə zənginləşdirmişlər.

***İnstitusional-sosialoji istiqamət***, iqtisadi təlimlər tarixində XIX əsrin sonları və XX əsrin əvvəllərində meydana çıxmış, sonralar xüsusilə ABŞ-da, habelə digər ölkələrdə geniş yayılmağa başlamışdır. Ölkənin iqtisadi-sosial problemlərinin həllini dövlətin ümumi siyasəti və rəsmi, habelə qeyri-rəsmi təşkilatların fəaliyyəti ilə əlaqələndirən bu istqamətin T.Veblen, E.Helbreyt, Y.Tinbergen kimi görkəmli nümayəndələri olmuşdur. Onlar cəmiyyətin sırf iqtisadi problemləri ilə yanaşı onun sosioloji münasibətlərini də hərtərəfli öyrənməyi zəruri hesab etmişlər.

Bu istiqamətin tərəfdarları iqtisadi nəzəriyənin (*economics*in) predmetinə siyasi və texniki amilləri də daxil etmiş, təsərrüfat subyektlərinin ayrı-ayrılıqda fərdi fəaliyyətlərini deyil, kollektiv institutların (dövlətin, həmkarlar təşkilatlarının, iri korporasiyaların, inhisarların) işinin təhlil olunmasını irəli sürmüşlər. Onların fikrincə, müasir mərhələdə cəmiyyətin təsərrüfat həyatında sərbəst bazar rəqabətinin yerini iri inhisar birliklərinin və transmilli korporasiyaların (TMK) tutduğu bir şəraitdə ölkənin təkcə iqtisadi problemləri ilə məşğul olmaqla ciddi səmərəli nəticələr əldə etmək mümkün deyildir. Deməli cəmiyyətin problemlərinə kompleksli yanaşılmalı, onun *siyasi, mənəvi, social, təşkilatı* problemləri iqtisadi məsələlərlə qarşılıqlı əlaqə müstəvisində birlikdə həll edilməlidir. Bu istiqamətə mənsub iqtisadcılar kapitalizmin təkamül yolu ilə tədricən təkmilləşməsi, yaxud «xalq kapitalizmi» konsepsiyası əsasında cəmiyyətin postsənaye daha sonra isə informasiya, texnotron inkişaf mərhələləri keçəcəyi ideyasını irəli sürərək, müdafiə etmişlər.

***Azərbaycanda yeni iqtisadi fikrin formalaşması və inkişaf mərhələləri***

Azərbaycanın yerləşdiyi mühüm strateji əhəmiyyətli əlverişli mövqeyi, rəngarəng coğrafı-iqlim şəraiti, zəngin yerüstü və yeraltı sərvətləri, əməksevər əhalisinin təsərrüfatın müxtəlif sahələrində səylə çalışması, sənətkarlıqla məşğul olması, yaxın-uzaq ölkələrlə ticarət əlaqələri qurması, bu torpaqlarda tədricən qaynar iqtisadi həyatın formalaşmasına, ölkənin məhsuldar qüvvələrinin inkişafına, müəyyən real imkanlar yaratmışdı.

Minillikləri əhatə etmiş qanlı qadalı tarix boyunca müxtəlif basqın və hücumlara, təzyiq və təsirlərə məruz qalmış Odalar Yurdu həmişə özündə daxili bir inam mənbəyi, tükənməz həyat gücü taparaq yenidən dirçəlmiş, soykökünü, əzəli varlığını, şərəf-ləyaqətini sərt mübarizə sınaqlarında zaman-zaman qeyrətli iradə əzmi ilə təsdiq etmişdir.

Qədim zamanlardan başlayaraq, Azərbaycan xalqının yaşadığı cəmiyyətin iqtisadi həyat və onun müxtəlif cəhətlərinə dair düşüncələri, fikirləri formalaşaraq, müəyyən tarixi mərhələləri əhatə edən uzun bir inkişaf yolu keçmişdir.

Hələ eramızdan əvvəlki minilliklərdə, o dövrün təsərrüfat həyatı, yaşayış tərzi, mülkiyyət, istehsal, bölgü münasibətlərinə dair müəyyən fikirlər öz ifadəsini şifahi xalq ədəbiyyatı nümunəbrində – laylalarda, bayatılarda, qoşmalarda, atalar sözlərində, nağıllarda, dastanlarda tapmışdır. Atəşpərəstlik dövründə Azərbaycan ərazisində geniş yayılmış

zərdüştlük ideyalarında cəmiyyətin iqtisadi quruluşu, ailə-məişət qayğıları, təsərrüfat münasibətləri, bölgü, təchizat məsələlərinə diqqət yetirilmişdir. «Avesta», «Qurani-Kərim», «Kitabi Dədə Qorqud» kimi yazılı mənbələrdə xalqımızm əmək və təsərrüfat fəaliyyəti ilə bağlı əkinçilik, maldarlıq, bağçılıq-meyvəçilik habelə ticarət, sələmçilik və vergilərə dair zəngin materiallar vardır.

Orta əsrlər dövründə Azərbaycanda iqtisadi fikrin inkisafında Nizamülmülk (XI əsr), Nizami Gəncəvi (XII əsr), Nəsrəddin Tusi (XIII əsr), İmaməddin Nəsimi (XIV əsr), Şah İsmayıl Xətai (XVI əsr). Məhəmməd Fizuli (XVI əsr), Molla Pənah Vaqif müəyyən rol oynamışlar. Şair, dövlət xadimi, alimi kimi tanınmış bu görkəmli şəxsiyyətlər yaşadıqları cəmiyyətin iqtisadi-sosial məsələlərinə toxunaraq, maraqlı fikirlər söyləmişlər.

Şərq və Qərb mənbələri ilə tanışlıq nəticəsində onların «Siyasətnamə», «Xəmsə», «Maliyyə haqqında traktat», «Əxlaqi Nasiri» kimi əsərlərində, qəzəl və şerlərində yaşadıqları cəmiyyətin ictimai-iqtisadi məsələlərinə dair baxışları, tənqidi mülahizələri; haqsızlığa, ədalətsizliyə qarşı etirazları; ailə (ev təsərrüfatları), torpaq, mülkiyyət, mübadilə, bölgü, büdcə, idarəetmə, məmur məsuliyyəti haqqında fikirləri; insan zəhmətinə, əməк bölgüsünə, qənaətçilliyə, qarşılıqlı faydalı ticarət əlaqələrinə, ölkənin abadlığına, əhalinin peşə-sənət bacarığına, elm-təhsil işlərinə verdikləri yüksək qiymət; əmtəə-dəyər, pul-sərvət, borc-sələm anlayışına, yığım-xəzinə məsələlərinə, vergi-dövlət xərclərinə xüsusi diqqət yetirilmələri; israfçılığa, möhtəkirliyə, haram qazanca qarşı sərt mövqeləri; hakimiyyətin ilk qayğısının insanların gələcəyi və rifahının yaxşılaşdırılması olduğu barəsindəki işıqlı düşüncələri, bizim günlərimizdə də aktual səslənir.

N.Tusinin təbirincə iqtisad elminin də daxil olduğu ictimaiyyət elmləri (ictimai elmlər) – «insan cəmiyyətində olan münasibətlər sistemidir» və hamının öyrənməyə səy etməli olduğu bir sahədir. Onun fikrincə, cəmiyyətdə elə şərait yaradılmalıdır ki, hərə öz imkanı və bacarığı dairəsində zaman və məkanın tələbindən asılı olaraq, «ədalətlə öz borcunu yerinə yetirsin, hərənin haqqı özünə çatsın».

Nizamülmülk isə yazırdı ki, yalnız təsərrüfat həyatının ciddi qayda-qanunlarla əməl olunan məmləkətdə «dövlət güclənər ölkədə bolluq olar». Müəllifin fikrincə, ölkədə halal-harama fikir verilməsə, möhtəkirlik və saxtakarlıq olarsa əhali xüsusilə də «yoxsullar acınacaqlı vəziyyətə düşərlər». Ölkədə hakimin sayğısızlığı və qazının insafsızlığı üzündən yarana bibcək sosial narazılıq belə qiymətləndirilmişdir: «Atalar yaxşı deyiblər: Ət iylənəndə ona duz vurarlar, bəs duz iylənsə onun çarəsi nədir?» Ölkənin və dövlətin həqiqi vəziyyətinin biliyin və yaxşı ənənələrinin səviyyəsi ilə ölçüldüyünü qeyd edən Nizamümülk hakimləri, dövlət xadimlərini elm adamları ilə oturub-durmağa, işbilənlərlə məsləhətləşməyə, ağsaqqalların tövsiyələrinə qulaq asmağa çağırmışdı.

Bu mənada Nizami Gəncəvinin şah və xəlifələrin hökmranlıq etdiyi feodalizm dövründə özünüidarəyə, ədalətə, qarşılıqlı hörmət münasibətlərinə əsaslanan ideal-utopik cəmiyyət ideyasını irəli sürməsi, elmi uzaqgörənlik, habelə zəngin yaradıcılıq təxəyyülü kimi qiymətləndirilməlidir.

Belə bir cəhət də maraqlıdır ki, ümumbəşəri dəyərlərin varisləri olmuş müdriklərimiz, müasir inteqrasiya və qloballaşma prosesbrini də öz fəhmləri ilə dərk edərək , inamla yazmışlar: «tədricən bir birinə kömək edən bütün insanları birləşdirən quruluşun yaranması zərurəti meydana çıxar, çünki insanlar öz təbiəti etibarilə inkişafa meyl edən bir varlıq kimi yaranışından məhz belə birləşməyə möhtacdır» (N.Tusi).

XIX əsrin əvvəllərində Azərbaycan parçalanaraq Rusiya tərəfindən işğalından başlayaraq, XX əsrin ilk iyirminci illərinə qədər olan dövrdə burda gedən ictimai-siyasi, iqtisadi-sosial, mədəni-mənəvi proseslər xalqımızın M.F.Axundov, A.Bakıxanov, Q.B.Zakır, H.B.Zərdabi, N.B.Vəzirov, C.Məmmədquluzadə, M.Ə.Sabir, M.Ə.Rəsulzadə, N.Nərimanov kimi görkəmli simalarının yaradıcılığında tapmışdır. Onların bədii əsərlərində, mətbuatdakı yazılarında, publisist məqalələrində, müsahibələrində, çıxışlarında və əməli fəaliyyətbrində çar Rusiyasının müstəmləkə siyasəti, xalqın hüquqsuz vəziyyəti, rəsmi məmurlann rüşvətxorluğu, cəmiyyətin sosial təbəqələşməsi, zəhmət adamı – fəhlənin, kəndlinin, sənətkarın ağır həyati, pulun ağalığı, insanların haqq və hüquqlarının tapdalandığı, sələmçiliyin yaratdığı bəlalar, ölkənin şəristəsizliklə idarə olunması, əhalinin savadsızlığı, dini-xürafat mühitinin formalaşdırdığı həyat tərzinin nəticələri, milli qeyrət, vətəndaşlıq məsuliyyəti mövqeyindən tənqid edilmişdir. Eyni zamanda onlar Azərbaycanın təsərrüfat həyatındakı canlanmanı, yeni iqtisadi münasibətlərin özünə yol açmasmı, ölkənin daxili-xarici iqtisadi əlaqəbrinin genişlənməsini, xalqın iqtisadi-sosial vəziyyətindəki dəyişiklikləri və ümumi inkişaf, habelə milli şüurun formalaşması istiqamətindəki obyektiv meylləri düzgün dəyərləndirmişlər.

Bütün Şərqdə ilk parlamentli demokratik respublika kimi tarixə daxil olmuş Azərbaycan Xalq Cümhuriyyətinin 1918-1920-ci illəri əhatə etmiş 23 aylıq hakimiyyəti dövrü, onun M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, F.X.Xoyski, H.B.Ağayev, N.B.Usubbəyov və digər xadimbrin iqtisadi-sosial görüşləri, Musavat hökümətinin hazırladığı iqtisadi siyasət tədbirləri platforması bu xəttin özünəməxsus xüsusiyyətləri, həyata keçirilən ilk uğurlu addımlar, xalqımızın iqtisadi fikir, habelə təfəkkürünün formalaşması prosesində mühüm mərhələ olmuşdur.

Hökumətin mülkiyyət münasibətlərindəki Şərq ölkələrinin xüsusiyyətlərini nəzərə alan çevik iqtisadi siyasət taktikası, bir neçə variantda hazırlanmış aqrar proqramı, sənayenin inkişaf yolları xətti, maliyyə valyuta siyasəti, inflyasiyaya qarşı mübarizə üsulları, xarici ticarət əlaqələrinin genişləndirməsi səyləri, iqtisadiyyatın dövlət tənzimlənməsi istiqamətindəki addımları, əhalinin həyat səviyyəsini yaxınlaşdırmaq, təhsil, səhiyyə və digər sahəbrdəki dünya təcrübəsinə əsaslanan düşünülmüş tədbirlər sistemi, Azərbaycan Xalq Cümhuriyyətinin lideri M.Ə.Rəsulzadənin «fikri, milli və siyasi istiqlalın kökü iqtisadi istiqlaldır» ideyasına söykənmişdir.

71 il (1920-1991) davam etmiş işğalçı bolşevik rejimi şəraitində müəyyən istisnalarla Azərbaycanda iqtisad elmi və iqtisadi fikrin inkişafı, hakim ideologiya olmuş marksist-leninçi nəzəriyyənin doqmatik-sxolastik ehkamçı iqtisadi müddəalarının öyrənilib tədqiq, habeb tədris olunmasına tabe edilmişdi. Lakin həyat sübut etdi ki, xüsusi mülkiyyət hüququnu qadağan edən, sahibkarlıq-biznes fəaliyyətinə yol verməyən, insanların iqtisadi maraq və təşəbbüslərini boğan, rəqabət prinsiplərinə əməl etməyən bir təsərrüfat sistemi məhvə məhkumdur.

Sovet hakimiyyəti illərinin obyektiv çətinlik və məhdudiyyətlərinə baxmayaraq, Azərbaycanda iqtisad elminin nəzəri-praktik məsələlərinə dair Məmmədhəsən Vəlili (Baharlı), Bəkir Həsənbəyov, Həsən Dadaşov, Əliqulu Fərəcov, Bəhmən Axundov, Əlisöhbət Sumbatzadə, Əhməd Mahmudov, Mədət Allahverdiyev Muxtar Mustafayev, Ələsgər Qasımov, Mahmud Tağıyev, Yusif Məmmədov, Mirağa Musayev, Balaca Əbdürrəhmanov, Əbdülqafür Zərgərov, Ərəstun Axundov, Fərid Fərəcov, Teymur Vəliyev,

Ağayar Həsənov, habelə başqaları müxtəlif istiqamətlərdə tədqiqatlar aparmış, monoqrafiyalar, dərsliklər, kitablar, məqalələr nəşr etdirmiş, iqtisadçı kadrların hazırlanmasına xidmət gostərmişlər.

XX əsrin 90-cı illərində keçmiş Sovet İttifaqının siyasi-ictimai və iqtisadi-sosial sistem kimi ifasından sonra imperiya ərazisində formalaşmış müstəqil dövlətlərdən biri olan Azərbaycan Respublikasında iqtisad elminin, o cümlədən də onun tərkib hissəsi sayılan iqtisadi nəzəriyyənin, habelə təlimlər (fikir) tarixinin obyektiv sürətdə öyrənilib tədris olunmasına geniş imkanlar açılmışdır.

Sinfi mübarizə zəruriliyi, ideoloji təzyiq, inqilabi çevrilişlərin labüdlüyü konsepsiyalarından, mərkəzləşdirilmiş totalitar planlı sosialist sistemindən keçən bir ölkədə, müasir mərhələdə qarşıya çıxan mürəkkəb və ziddiyyətli problemləri, nisbətən qısa müddət ərzində daha az itkilərlə, yüksək sosial-iqtisadi səmərəlilik meyarları ilə həll etmək üçün iqtisad elminin həm elmi-nəzəri, həm də əməli-praktik axtarışlarına, tövsiyələrinə ciddi ehtiyac vardır.

Müstəqil Azərbaycan Respublikasının rastlaşdığı gündəlik cari qayğılar ilə hökmən məşğul olmaqla yanaşı, müasir dünya təcrübəsi və iqtisad elminin son nailiyyətlərindən yaradıcılıqla faydalanmaq əsasında milli iqtisadiyyatımızın gələcək uzunmüddətli inkişaf perspektivlərini işləyib hazırlamaq, iqtisadçılar qarşısında zəruri bir vəzifə kimi durmaqdadır.

İqtisadi inteqrasiya və qloballaşma şəraitində, ölkənin yaxın, orta, uzun-müddətli inkişaf perspektivlərinin daxili-xarici bazarın tələblərinə uyğun prioritet istiqamətlərini milli təhlükəsizlik, beynəlxalq iqtisadi-ticarət əlaqələri, istehsal-xidmət dairələrinin son səmərəliliyi baxımından yalnız iqtisad elminin müxtəlif sahələrinin ahəngdar inkişafı, alim-mütəxəssislərin peşəkar məsləhətləri təməlində aparmaq mümkündür.

**1.2.** Biz yaşadığımız cəmiyyəti, onun ümumdünya anlayışının tərkib hissəsi kimi keçdiyi böyük inkişaf yolunu, çətinlikləri və ziddiyyətlərini, gəlib çatdığı müasir dövrün mürəkkəb problemlərini, həmin problemlərin həlli yollarını, habelə iqtisadi-sosial yüksəlişin perspektivlərini elmi biliklər əsasında öyrənirik.

Ümumiyyətlə elm dedikdə, – təbiət, cəmiyyət və insan təfəkkürünün inkişaf qanunları haqqında tam biliklər sistemi başa düşülür.

Hələ qədim dövrlərdə elm öz tədqiqat və öyrənmə sahələrinə görə təbiət elmlərinə və cəmiyyət elmlərinə ayrılmışdır. Müasir dövrdə elm-ictimai (sosial), təbiət və texniki elmlərə bölünür.

Öyrənməyə başladığımız iqtisad elmi, yaxud iqtisadi nəzəriyyə fənni, ictimai elmlər qrupna daxil blub, onun mühüm tərkib hissələrindən birini təşkil edir.

Bu geniş əhatəli və bir sıra sahələri özündə birləşdirən iqtisad elmini, onun müxtəlif səpgili məsələlərini bilmək, qarşıya çıxan gündəlik, habelə gələcək problemləri səriştəli həll etmək dövlət xadimlərinə də, siyasətçilərə də, diplomatlara da, sahibkarlara da, işgüzar biznes adamlarına da, sadə insanlara da lazımdır.

Təsadüfi deyildir ki, tanınmış iqtisadçı N.Qreqori Mənkyü (ABŞ) özünün «Economicsin prinsipləri» adlı əsərində yazır ki, iqtisad elmi insanlara şirkətlərin, bankların, mehmanxanaların işini idarə edəndə də, televiziya verilişlərinə baxanda da, ölkənin ən məsuliyyətli vəzifələrini tutanda da lazımdır. Çünki, bu sahələrdə qarşıya çıxan problemləri

həll edərkən, «iqtisad elminin sərt qayda-qanunlarına bələd olmağınız» sizə köməkçi, yardımçı rolunu oynayacaqdır.

Mütəxəssislər qeyd edirlər ki, iqtisad elmi özünün uzunömürlülüyü ilə öyünə bilməz. Çünki, həyat inkişaf edib irəlilədikcə, iqtisadi sistemlər bir-birini əvəz etdikcə, elm-texnika sahəsində yeni nailiyyətlər qazanıldıqca, təzə materiallar və resurslar meydana çıxdıqca, istehsalın və insanların tələbatlan, zövqləri dəyişdikcə, şübhəsiz iqtisad elminin (nəzəriyyənin) qarşısında duran problemlər də yeniləşir. Lakin iqtisadiyyatın əsas vəzifəsi – insanların müxtəlif təyinatlı tələbatlarını ödəmək üçün maddi (mənəvi) nemətlər istehsal etmək və müxtəlif təyinatlı xidmətlər (servis dairəsi) göstərməkdir.

Bu iqtisadi vəzifə isə təbii resursların müəyyən məhdudluğu və insanların maddi, habelə mənəvi tələblərinin artması, hətta sonsuzluğu ilə bağlıdır.

Müasir anlamda iqtisad elmi mövcud resursların məhdudluğu və tələblərin sonsuzluğu şəraitində, maddi nemətlərin (xidmətlərin) istehsalı, bölgüsü, mübadiləsi, istehlakı prosesində insanların iqtisadi fəaliyyətinin təhlilidir.

Cəmiyyətdə baş verən geniş əhatəli iqtisadi proseslər təbiidir ki, ümumi tələblə təklifin qarşılıqlı əlaqəsi, qiymətlər mexanizmi vasitəsiylə, bazar rəqabəti şəraitində müəyyən enib-qalxmalarla həyata keçirilir.

Ona görə də, müxtəlif istiqamətli iqtisadi nəzəriyyələrin qarşısında belə bir cəmiyyət üçün son dərəcədə vacib əhəmiyyətə malik olan suala ən səmərəli cavab tapmaq durur: «nə istehsal etməli, necə istehsal etməli, kim üçün istehsal etməli?» Deməli, iqtisad elmi və nəzəriyyəsi qısa şəkildə «kim, nə, necə?» sualına cəmiyyət miqyasında optimal cavab axtanr. bu isə o qədər də asan bir məsələ deyildir.

Müxtətif istehsalçılardan, çoxsaylı alıcılardan, ümumi və fərdi maraqlardan, daxili və xarici amillərdən asılı olaraq, iqtisadi nəzəriyyə öz qarşısında duran vəzifələri uğurla həll etmək üçün, şübhəsiz bir çox səbəblərlə, subyektiv-obyektiv maneələrlə, ciddi əngəllərlə rastlaşır. Lakin iqtisad elmi, bəşəriyyətin inkişafının müxtəlif mərhələlərində həmişə bu problemlərə cavab axtarmışdır.

Cəmiyyətin təsərrüfat həyatı problemlərinə yanaşıb, onları konkret şəraitə uyğun həll etmək yolunda iqtisad elminin rolunu yüksək qiymətləndirən amerika iqtisadçısı P.Samuelson, iqtisadi nəzəriyyəni elmlərin şahı adlandırmışdı. Başqa bir Nobel mükafatı laureatı M.Fridmen (ABŞ) iqtisadi nəzəriyyəni insanı heyran edən maraqlı elm adlandırmışdı.

Riyazi məntiqin banilərindən biri B.Rassel (İngiltərə) iqtisad elmini xeyli asan hesab edərək, bu sahədə məşğul olmaq istəməmişdi. Əksinə, alman fiziki M.Plank iqtisad elminin çətin olduğunu söyləyərək, fizika-riyaziyat sahəsinə keçmişdi.

İqtisadçı A.Heylbronner bu peşə üçün «dəvə dözümü və müqəddəs adamlara xas səbr» lazım olduğunu qeyd etmişdi. Belə bir fikir də vardır ki, iqtisadçı daim öyrənməli və öz üzərində çalışmalıdır. Belə olmasa, iqtisadçı musiqi əsərini qiymətləndirən kar adama oxşayacaqdır.

Müasir mərhələdə, planlı sosialist inzibati amirlik iqtisadi sisteminin dağılıb, bazar münasibətlərinin formalaşdığı postsosialist və postsovet ölkələrində, o cümlədən də Azərbaycan Respublikasında iqtisad elmi, habelə onun ayrı-ayrı sahələri qarşısında mühüm vəzifələr durur.

Bütövlükdə bir sistem halında iqtisad elminin həm nəzəri, həm də əməli (təcrübi) istiqamətləri vardır.

İqtisadi nəzəriyyə ***pozitiv*** və ***normativ*** kimi hissələrə ayrılır.

İqtisadi nəzəriyyə əksər hallarda cəmiyyətin başlıca iqtisadi problmlərinin həlli və bunun üçün necə fəaliyyət göstərildiyi ilə məşğul olub, izah edir. İqtisadi nəzəriyyə bir elm kimi ilk növbədə cəmiyyət həyatında gedən prosesləri hərtərəfli təhlil edir, faktları izah edir və yaranmış vəziyyətin dolğun mənzərəsini yaradır. Lakin obyektiv yaxud subyektiv səbəblər üzündən apardığı təhlil əsasında öz məsləhət və tövsiyyələrini vermır. Cəmiyyət həyatında baş verən iqtisadi proseslərə belə yanaşma üsuluna pozitiv mövqe deyilir və bu cür təhlil pozitiv nəzəriyyəyə aid edilir. Məsələn pozitiv iqtisadi nəzəriyyə konkret bir ölkənin timsalında istehsalın azalması, işsizlik səviyyəsinin artmasını gostərə bilər, lakin bu mənfi proseslərin necə aradan qaldrılması yolları haqqında öz tövsiyyələrini vermir.

Pozitiv nəzəriyyədən fərqli olaraq, normativ iqtisadi nəzərıyyə yaranmış vəzıyyətı təsvır etməklə yanaşı, ondan çıxış yollarını da göstərir. Normativ nəzəriyyə iqtisadi hadisə və proseslərin gələcək meyllərini, inkişaf istiqamətlərini görərək, öz konkret məsləhətlərini, tövsiyyələrini verir.

Təbiidir ki, normativ iqtisadi nəzəriyyə pozitiv iqtisadi nəzəriyyəyə nisbətən iqtisadçilar və mütəxəssislər arasında daha çox mübahisələrə səbəb ölur. Çünki həmin proseslər (iqtisadi artım, yığım norması, yeni iş yerləri açılması) birmənalı qarşılanmır, müxtəlif qrupların yaxud şəxslərin maraqlarına toxunur.

Tarixən bəşəriyyətin keçdiyi inkişaf yolu boyunca mövcud olmuş cəmiyyətlərin həyatı, ictimai-siyasi, iqtisadi-sosial və mədəni-əxlaqi sahələrin vəhdəti kimi səciyyələnir.

Doğrudur, qarşılıqlı əlaqə və təsir nəticəsində tam bir sistem kimi fəaliyyət göstərən cəmiyyət həyatında bu cəhətlərin hansınınsa çatışmaması, yaxud nöqsanı, bütövlükdə cəmiyyət həyatına öz mənəvi təsirini gostərəcəkdir. Deməli, bütün cəhətlərin normal və ahəngdar fəaliyyəti sahəsində iqtisadi sistem yaşayıb inkişaf edə bilər.

Lakin bu da danılmaz faktdır ki, cəmiyyət həyatının sahələri arasında iqtisadiyyat, həyatın davamı və insanların yaşayıb inkişaf etməsi üçün həqiqətən həlledicidir.

İqtisadiyyat anlayışı geniş mənada cəmiyyət həyatının təməlini təşkil etdiyindən, iqtisad elmi də bütün iqtisadi bilik dairələrini əhatə edir.

İlk mərhələdə təsərrüfat və onun idarə olumnası qanunları mənasını daşıyan bu anlayış, hazırda mürəkkəb, habelə çoxcəhətli bir fəaliyyət dairəsini, yəni bütövlükdə iqtisadiyyatı əhatə edir.

Məlumdur ki, insan cəmiyyəti formalaşdığı ilk addımlarından başlayaraq indiyədək həmişə iqtisadiyyatla, təsərrüfatla bağlı olmuşdur. Vaxtilə yalnız təbiətin hazır məhsullarından, təbii nemətlərindən istifadə etməklə kifayətlənmiş insanlar, tədricən əkinçilik və maldarlıqla məşğul olmuş, sənətkarlıq şeyləri hazırlamış, müxtəlif emalatxanalar təşkil etmiş, fabrik və zavodlar tikmiş, nəqliyyat vasitələrini təkmilləşdirmiş, elektrik və atom enerjisindən istifadə etməyi öyrənmiş, kosmosu fəth etməyə başlamışlar.

İnsan cəmiyyəti və onun yaşayışının əsası sayılan təsərrüfat həyatı sahələri genişləndikcə, iqtisadiyyatı daha səmərəli yollarla inkişaf etdirmək üçün elmi-nəzəri biliklərə ehtiyac artmışdır. Həyat irəliləyib inkişaf etdikcə, insanların təsərrüfat əlaqələri genişləndikcə, ayrı-aurı ölkələr arasında ticarət münasibətləri yeni sahələri əhatə etdikcə, şübhəsiz bu proseslər haqqında olan iqtisadi nəzəriyyələr də dəyişmişdir.

Müxtəlif məqsəd və istiqamətlərindən asılı olmayaraq, ölkənin və dünyanın təsərrüfat həyatında baş verən iqtisadi artım, yığım və istehlak, rəqabət, tələb və təklif, vergilər, büdcə, inflyasiya, işsizlik, xarici borclar, inteqrasiya prosesləri, valyuta-kredit sistemi, başqa ölkələrlə iqtisadi əlaqələr kimi problemlər həmişə iqtisadi nəzəriyyənin diqqət mərkəzində olmuşdur.

Müasir mərhələdə də dünyada, o cümlədən müstəqil Azərbaycan Respublikasında cəmiyyət həyatının əsası olan iqtisadiyyatın inkişafının səmərəli yollarının tapılmasında iqtisadi nəzəriyyənin rolu böyükdür.

**1.3.** Mürəkkəb və çoxsahəli vahid sistem kimi formalaşan iqtisadiyyatı müxtəlif səviyyələrdə öyrənmək mümkündür. İngilis iqtisadçısı A.Marşall yazmışdır ki, iqtisad elmi normal insan cəmiyyətinin həyat fəaliyyətini öyrənir. Cəmiyyətin iqtisadi həyatı isə canlı bir orqanizmi xatırlatdığından, burada həmişə dəyişikliklər, bəzən isə hətta ən gözlənilməz proseslər baş verir. P.Samuelson və V.Nordhaus «*Economics*» kitabında qeyd edirlər: «Dünyada baş verən iqtisadi proseslər (iqtisadi sistemlərin dağılması, böhranlar inflyasiyalar, inteqrasiya meylləri, iqtisadi-ticarət əlaqələrinin genişlənməsi, elmi-texniki tərəqqi) bəşəriyyətin yaşadığı bir tamaşa və dramadır». Bu həyati tamaşanın müəllifi də, rejissoru da, aktyoru da təbiətlə, istehsalla, bir-birləri ilə mürəkkəb əlaqələr sistemi qurmuş insanlardır. Doğrudan da «insan amili», onun təsiri və marağı, tələbi və təklifi, ideya və əməlləri olmadan heç bir iqtisadiyyat formalaşıb inkişaf edə bilməz.

Cəmiyyət miqyasında iqtisadiyyatı hərtərəfli öyrənib dərk etmək baxımından, onu – mikroiqtisadiyyat, mezoiqtisadiyyat, makroiqtisadiyyat və meqoiqtisadiyyat (interiqtisadiyyat) səviyyələrində öyrənmək mümkündür. Müəyyən qeyd-şərtlərlə bu bölgü, demək olar ki, bütün dünyada qəbul olunmuşdur.

**Mikroiqtisadiyyat** istehsal və xidmət dairəsi müəssisələrinin, şirkətlərinin fəaliyyətinin öyrənilməsi, təhlil olunması, təşkili və idarəedilməsi məsələləri ilə məşğul olur.

İstehsalın və xidmət dairəsinin ən aşağı, ilkin səviyyədə öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki konkret müəssisə timsalında istehsal və xidmət dairəsinin özünəməxsus cəhətlərini öyrənib təhlil etmədən, sahə və iqtisadi sistem miqyasında müxtəlif problemləri həll etmək çətindir.

Hər hansı bir ölkə iqtisadiyyatının özəyini təşkil edən müəssisə, şirkət, bankların timsalında istehsal, habelə xidmət dairəsi obyektləri daha az xərclərlə yüksək keyfiyyətli, bazarın dəyişən tələblərinə cavab verən məhsul buraxılışına çalışırlar. Ona görə də mikroiqtisadi səciyyədə tələb, təklif, istehsal xərcləri, qiymət, rəqabət, mənfəət, əmək haqqı, investisiya problemlərinə ciddi diqqət yetirilərək, bu proseslərin daha səmərəli variantları axtarılır.

**Mezoiqtisadiyyat** – ölkənin təsərrüfat həyatının bir-biriylə qarşılıqlı, yaxud üzvi surətdə bağlı sahələrinin kompleksidir. Mezoiqtisadiyyatın maddi əsasını ictimai əmək bölgüsü və istehsalın kooperativləşdirilməsi təşkil edir.

Aqrar-sənaye kompleksi (aqro-biznes), hərbi-sənaye kompleksi, infrastruktura (xidmət dairəsi) buna misal ola bilər. Həmin sahələrin fəaliyyət xüsusiyyətləri elədir ki, aqrar-sənaye kompleksində kənd təsərrüfatı ilə emal sənaye sahələrinin və bəzi istehsal vasitələri istehsal edən sənaye sahələrinin üzvi əlaqəliliyi nəzərdə tutulur. Hərbi-sənaye kompleksində həm hərbi, həm də mülki istehsal sahələrinin, infrastruktura (servis) dairəsində isə müxtəlif təyinatlı xidmətlərin qarşılıqlı əlaqəsi bir-birini tamamlamalıdır.

**Makroiqtisadiyyat** – ölkənin milli iqtisadiyyatını bütövlükdə təhlil etmək və bunun əsasında ümumiləşdirici iqtisadi göstəricilərin müəyyənləşdirilməsidir. Makroiqtisadi səviyyədə cəmiyyətin və milli iqtisadiyyatın ümumi daxili məhsulunun (UDM) həcmi, onun artım tempi, məşğulluğun təmin edilməsi, pul-kredit siyasətinin tənzimlənməsi, inflyasiya problemi, dövlətin iqtisadiyyatı idarə etməsi, ölkənin təbii sərvətlərinin qorunub saxlanması, əmtəələr istehsalı və əhaliyə müxtəlif xidmətlər göstərilməsinin optimal nisbətinin gözlənilməsi kimi məsələlər araşdırılıb həll edilir.

**Meqoiqtisadiyyat** dedikdə, bu anlayış altında bütövlükdə dünya təsərrüfat sistemi və milli iqtisadiyyatların qarışıqlı əlaqəsi, habelə inteqrasiyası əsasında beynəlxalq miqyasda (interiqtisadiyyat) başa düşülür. İqtisad elminin bir hissəsi kimi meqoiqtisadiyyat dünya təsərrüfat həyatının ümumi inkişaf meylləri, dünya ticarəti, kapitalın beynəlxalq hərəkəti, iş qüvvəsinin axını, beynəlxalq valyuta sistemi, tədiyyə (ödəniş) balansı, iqtisadi inteqrasiya ilə bağlı problemlərlə məşğul olur. Müasir dövrdə vahid dünya təsərrüfat sisteminin formalaşdığı bir şəraitdə, iqtisad elminin bu hissələri arasında daha sıx və qarşılıqlı təsir əlaqəsi vardır.

**1.4.** Tanınmış ingilis iqtisadçısı C.M.Keyns vaxtilə yazmışdı ki, «iqtisadiyyatın öyrənilməsi yüksək səviyyəli xüsusi qabiliyyətin olmasını tələb etməsə də, lakin çox az adam bu sahədəki əla biliyi ilə fərqlənə bilər. Buna səbəb, iqtisadçıda bir neçə qabiliyyətin nadir sürətdə birləşməsi zəruriliyidir. İqtisadçı müəyyən qədər riyaziyyatçı, tarixçi, filosof və dövlət adamı olmalıdır. O, simvolları başa düşməli və öz fikirlərini sözlə ifadə etməyi bacarmalıdır. İqtisadçı detallara ümumi cəhətdən yanaşmalı və eyni bir məsələyə həm abstrakt (mücərrəd), həm də konkret tərəfdən toxunmalıdır. O, bugünu keçmişin işığında gələcək məqsədlər üçün öyrənməli, nəzərindən heç nəyi qaçırmamalıdır. İqtisadçı məqsədyönlü olmalıdır və kimlərinsə əhval-ruhiyyəsinə uyğun olaraq dəyişməməlidir. O, əsl sənətkar kimi yüksəkdə dayanmalı, təmiz olmalıdır. İqtisadçı cəmiyyətin problemlərini təhlil etdikdə alim kimi hərəkət etməli, həmin məsələlərin həyata kecirilməsində isə siyasətçi olmalıdır.»

Bu müdrik məsləhətlər və yüksək məsuliyyət baxımından, müasir inteqrasiya, qloballaşma prosesləri, eyni zamanda vahid dünya təsərüffat sisteminin formalaşdığı bir şəraitdə bəşəriyyətin (cəmiyyətin) sərvətlərinin mədudluğu, təlabatların isə sonsuzluğu realığında son iqtisadi-sosial effektliyə (faydalılığa, səmərəliliyə) nail olmaq üçün iqtisadi nəzəriyyənin (*Economics*in) 10 prinsipinə əməl olunmasını irəli sürür. Həmin prinsiplər aşağıdakılardan ibarətdir;

A. İnsanlar qərarları necə qəbul edirlər:
- I. İnsanlar seçimlərlə üzləşillər.
- II. Bir şeyin dəyəri, onu əldə etmək üçün imtina olunmalarla ölçülür.
- III. Rasional insanlar marjinal faydanı düşünürlər.
- IV. İnsanlar stimullara cavab verirlər.

B. İnsanlar arasındakı münasibətlər:
- V. Ticarət hər kəs ücün faydalı ola bilər.
- VI. Bazarlar iqtisadi fəaliyyətin təşkili üçün yaxşı vasitədir.
- VII. Dövlətlər bazar fəaliyyətinin nəticələrini yaxşılaşdıra bilərlər.

C. Bütövlükdə iqtisadiyyat necə dəyişir.

VIII. Ölkə əhalisinin həyat səviyyəsi, onun hər nəfərinə düşən əmtəə və xidmətlər istehsal etmək qabiliyyətindən aslıdır.

IX. Dövlət həddən artıq pul cap etdikdə və dövriyyəyə buraxdıqda qiymətlər qalxır, inflyasiya baş verir.

X. İşsizlik problemi və cəmiyyətin infilyasiya ilə işsizlik arasında qısa müddətli seçimlə üzləşməsi prosesi gedir

Bu 10 prinsipin mahiyyətini qisaca belə izah etmək olar. ***Birinci prinsip***, insanların həyatda və gündəlik əmək fəaliyyətlərində müxtəlif iqtisadi seçimlərlə rastlaşmalari ilə bağlıdır. Biz daha çox xoşlayib bəyəndiyimiz hər hansi bir şeyi (məhsulu-xidməti) əldə etmək üçün, əvəzində konkret halda başqa şeylərdən (maddi-mənəvi nemətlərdən) istər-istəməz imtina etməli oluruq. Necə deyərlər, pulsuz nahar olmur, xərcsiz və itgisiz nəsə əldə etmək çətindir, nəhayət eyni vaxtda bir əldə iki qarpız tutmaq mümkün deyildir. Məsələn, tələbənin öz vaxtini dərslərə hazırlaşmaq və əyləncə (idman məşqləri), ailənin gəlirlərini ərzaq və paltar (təmir işləri), cəmiyyətin resurslarını əhalinin rifahı və hərbi-müdafiə xərcləri arasında bölüşdürülməsi, onları həmişə müəyyən seçim etmək məcburiyyəti qarşısında qoyur. Ayri-ayri fərdlərin, ailənin, bütövlükdə cəmiyyətin səmərəliliklə ədalətlilik arasındakı seçimi nə qədər çətin və riskli olsa da, hökmən baş verməlidir. Ona görə də həm insanlar, həm ailə təsərrüfatlari, həm korporasiyalar (şirkətlər), həm də cəmiyyət belə bir seçimin zəruriliyini dərk edərək, həmin variantlar arasında ən optimalını seçərək, uyğun qərarlar qəbul etmək məsuliyyətinə hazır olmalıdırlar.

***İkinci prinsip***, bir şeyin (əmtəənin-xidmətin) dəyərinin, onu əldə etmək üçün imtina olunan başqa şeylərin (maddi-mənəvi nemətlərin) dəyəri ilə ölçülməsini aydinlaşdırır. İnsanlar əvəzləyici seçimlərlə rastlaşdıqları halda, son söz demək üçün bir necə alternativ (əks) qərarın gətirə biləcəyi fayda və xərclərin müqayisəsini aparmağa məcburdurlar. Hər hansı bir nəticənin, yaxud məhsul və xidmətin alternativ dəyəri, onu əldə etmək üçün imtina olunan digər şeylərin (əşyaların, xidmətlərin) dəyəri ilə ölçülür. Məsələn, hər bir gənc ali təhsil almaq, yaxud peşə-sənət sahibi olamq, yaxud da tanınmış idmançı kimi yetişmək şanslarını intelektual, iş imkanları, şöhrət, ad-san qazanmaq imkanlarını xərc və gəlirlərini müqayisəli sürətdə hesablayaraq, şübhəsiz öz gələcəyi üçün daha əlverişli saydığı alternativ variant haqqında qərar qəbul edəcəkdir.

***Üçüncü prinsip***, rasional insanların marjinal, yəni son faydanı düşünərək öz fəaliyyətlərində müəyyən dəyişikliklər, kiçik düzəlişlər aparmasını nəzərdə tutur. Həyatda insanlar və şirkətlər elə konkret vəziyyətlərlə rastlaşirlar ki, onlar qərar verərkən öz marjinal faydalari ilə marjinal xərclərini müqayisə edərək, daha rasional (səmərəli) varianta üstünlük verirlər. Məsələn uçuşa hazirlaşan 200 yerlik və hər biletin qiymətinin 500 dollara (avroya, manata) olan sərnişin təyyarəsində yerlərin bir neçəsi boşdursa, həmin reys üçün 300 dollar ödəyib səyahətə çıxan adama imkan yaratmaq, güzəştə getmək (orjinal dəyişiklər etmək, kiçik düzəlişlər aparmaq) mümkündür. İmtahanlara hazirlaşan tələbənin bu işə istirahəti hesabına bir-iki saat əlavə vaxt ayırmasına, fermerin müəyyən səbəblər üzündən məhsulunun bir hissəsini nisbətən aşağı qiymətə satmasına haqq qazandırıla bilər. Şübhəsiz, ağıllı, rasional qərar verən şəxs və şirkət rəhbərliyi konkret halda öz iqtisadi hərəkətini (fəaliyyətini, davranışını, əməliyyatını) bu işin marjinal (son) faydalılığının, yalnız onun xərclərini (maya dəyərini) üstələdiyi halda həyata keçirəcəkdir.

***Dördüncü prinsip***, ondan ibarətdir ki, insanların gündəlik yaşayış tərzi və iqtisadi fəaliyyəti ilə bağlı müəyyən stimullar, həvəsləndirici amillər, bir sira şərtlər dəyişdikdə onlarin davranişlari, düşüncə tərzləri, yaranmış yeni vəziyyətlə bağlı qəbul etdikləri qərarlar da hökmən dəyişəcəkdir. Əlbəttə, bu hal təkcə iqtisadi tədbirlərdə deyil, eyni zamanda hakimiyyətin siyasi iradəsi ilə məcburi qaydalarda həyata keçirilən rəsmi tədbirlərdə də özünü göstərir. Məsələn, vergi dərəcələrinin dəyişdirilməsi və benzinin qiymətinin artırılması, avtomobil sürücülərinin və sərnişinlərin təhlükəsizlik kəmərlərindən istifadə olunması zəruriliyi, bazar qiymətlərinin vaxtaşırı enib-qalxması prosesi, bank faizlərinin əmlak və mülkiyyətin sığortalanmasındakı yeniliklər, nisyə (kredit) mal satışında daha əlverişli şərtlərin tətbiqi, – ilk vaxtlar əhalinin ayrı-ayrı təbəqələri tərəflərindən birmənalı qarşılanmayıb, müxtəlif rəylər doğursa da, lakin zaman keçdikcə insanlar həqiqətən onların mənafeyinə, maraqlarına uyğun saydıqları stimullara münasibətlərini yaxşılığa doğru dəyişirlər.

***Beşinci prinsip***, iqtisadi ticarət əlaqələrinin müxtəlif ölkələr və xalqlar üçün faydalı ola bilməsi fikrini əsaslandırır. Doğrudur, ölkələr və insanlar arasında fasiləsiz surətdə davam edən iqtisadi-ticarət münasibətləri, habelə bu əlaqələrin müxtəlif formaları bazarda kəskin, rəqabət mübarizəsi şəklində getsə də, bir sıra ziddiyətli çətinliklər yaransa da, lakin son nəticə etibarilə bu alış-verişlərin istər dövlətlər, istərsə hər birimiz üçün faydalı olduğu, hamılıqla qəbul edilir. Ticarət əlaqələrinin xalqlar arasında etimad körpüsü olması, onları yaxınlaşdırılması meyli, qədim Şərq müdriklərinin belə bir hökmünü təsdiqləyir: «Hakim siyasətsiz, elm mübahisəsiz, ölkə ticarətsiz yaşaya bilməz». Belə bir faktı qeyd etmək zəruridir ki, XXI əsrin birinci oniliyində dünyada 60 trilyon dollardan artıq istehsal olunan məhsul-xidmətlərini 28 trilyon dolları müxtəlif təyinatlı tələbləri ödəmək üçün, beynəlxalq bazara (ixrac və idxal malları-xidmətləri şəklində) çıxarılaraq, satılıb-alınmışdır.

***Altıncı prinsip***, buna əsaslanır ki, bazarlar cəmiyyətin iqtisadi fəaliyyətinin, təşkili üçün yaxşı, əlverişli bir üsuldur. Tarixi təcrübədə özünü doğrultmayaraq, iflasa uğramış sosialist planlı tərüffat sisteminin əksi olan bazar iqtisadiyyatı şərtində mərkəzi planlaşdırıcı orqanların, əmr xarakterli göstərişləri, sərbəst bazar münasibətləri reallğında milyonlarla ailələrin və istehsal-xidmət təyinatlı şirkətlərinin tələb-təklif qanunu əsasında formalaşan qərarları (arzu, hökmü) ilə əvəz olunur. Müəyyən qanunlar və bazar rəqabəti şəraitində fəaliyyət, göstərmək, çoxsaylı ev təsərüfatları, şirkətlər, korparasiyalar nə istehsal etməkdə, kimi işə qəbul etməkdə, satış bazarları seçməkdə sərbəstdirlər. Bu mənada bazar münasibətləri iqtisadi sistemində mürrəkkəb qarşılıqlı əlaqələrdə olan ev təsərüfatları və şirkətlər sanki A.Simitin adı ilə bağlı «gözəgörünməz əl» tərəfindən idarə olunaraq, tədricən onların fəaliyyətini arzu etdikləri nəticələrə doğru yönəldilir. Həmin prosesdə qiymət amili çox mühüm bir rol oynadığından dövlətin, müxtəlif iqtisadi, inzibati yollarla bu işə müdaxiləsi, şübhəsiz bazar iqtisadiyyatının normal fəailiyyətiniə müəyyən əngəllər törədir. Çünki bazar iqtisadiyyatı, coxsaylı ailə təsərüfatları və şirkətlərin verdikləri müstəqil qərar əsasında fəaliyyət göstərən, eyni zamanda mövcud sərvətləri (iqtisadi resusları) bölüşdürən bir sistemdir. Lakin müasir daxili-xarici əlaqələr sisteminin mürəkələşdiyi, iqtisadi inteqrasiya proseslərinin genişlənib-dərinləşdiyi, qloballaşma istiqamətində vahid dünya təsərrüfat sisteminin formalaşdığı bir şəraitdə hakimiyyət orqanlarının dövlət tənzimlənməsinin müxtəlif formalarından müəyyən hüdudlar çərçivəsində istifadə etməsi tamamilə təbii və zəruridir.

***Yeddinci prinsip***, müəyyən hallarda dövlətlərin bazar fəaliyyətinin nəticələrini yaxşılaşdıra biləcəyini nəzərdə tutur. Sərbəst bazar münasibətlərinin inkişafı üçün əlverişli imkanlar yaradan «gözəgörünməz əl» prinsipinin fəaliyyəti şəraitində də dövlətə müəyyən ehtiyac olduğunu irəli sürənlər vardır. Onların fikrincə bazarda alıcıların və satıcıların təhlükəsizliyini qorumaq, sahibkarların və fermerlərin rahatlığı naminə dövlət orqanlarının, polisin, məhkəmələrin olması zəruridir. Eyni zamanda dövlət orqanlarının iqtisadiyyata müdaxilə etməsi, cəmiyyətin təsərüffat həyatında səmərəliyin, ictimayi-siyasi həyatında isə sosial ədalətin təmin olunması ilə bağlıdır. Dünya ölkələrinin təcrübəsi göstərir ki, dövlətin simasında bazarın və iqtisadiyyatın fəaliyyətinə kənar müdaxilə olmadan, bazar gücü öz təsirini qiymətlərin artmasında, inhisarçılıq meyillərində, elm və incəsənət sahələrinə biganəlikdə, ətraf mühitin çirkləndirilməsi, ekalogiya problemlərində hökmən göstərəcəkdir. Ona görə də dövlətin həyata keçirdiyi gəlir vergisi, gömrük rüsumları, əhalinin sosial müdafiə tədbirləri, iqtisadi resursların və maddi-mənəvi nemətlərin daha ədalətli bölüşdürülməsinə yönəldilməlidir. Əlbəttə, ayrı-ayrı müəlliflərin haqlı olaraq qeyd etdikləri kimi dövlətin bu sahədəki fəaliyyəti, hec də həmişə gözlənilən nəticəni vermir. Çünki «dövlət siyasətini həyata keçirənlər mələklər deyildir, əslində mükəmməl olmayan siyasi prosesin iştirakçılarıdırlar». Belə vəziyyətdə isə obyektiv-subyektiv xarakterli nöqsanlara, «güclü olanların mükafatlandırılmasına», tam məlumata malik olmayan liderlərin iradi «xoş niyyətlərinə» rast gəlinir ki, bunların qətiyyətlə aradan qaldırılması, cəmiyyətin gələcək demokratik inkişafına, daha yüksək templərlə irəliləməsinə təminat verir.

***Səkkizinci prinsip***, ölkə əhalisinin həyat səviyyəsinin orada məhsullar istehsali və xidmətlər göstərilməsi qabilliyyəti ilə qarşılıqlı əlaqəsini aydinlaşdırır. Bu məsələ hər hansı bir ölkədə ümumi daxili məhsulun (ÜDM) həcmi, əhalinin gəlir səviyyəsi, onun artım templəri, ölkədə demoqrafik vəziyyət, məşğulluq və inflyasiya səviyyəsi ilə bilavastə yaxud dolayı yollarla bağlıdır. Təsadüfü deyildir ki, müxtəlif ölkələrin keçdikləri iqtisadi-sosial inkişaf yolunun nəticəsi sayilan əhalinin həyat səviyyəsi göstəriciləri biri-birindən kəsgin surətdə fərqlənir. Planetin əhalisinin hər bir nəfərinə hazida orta hesabla təxminən 10.000 dollar həcmində məhsullar istehsal olunur və müxtəlif təyinatli xidmətlər göstərilirsə, bu rəqəm ayrı-ayrı ölkələrdə bir neçə yüz dollardan 50-60 min dollara qədər fərqlənir. Azərbaycan Resbuplikasinda isə bu ümumiləşdirici göstərici 5-6 min dollardır.

Ölkə əhalisinin real həyat səviyyəsinin tədricən və davamli sürətdə yüksəldilməsinin ən sınanmış yolu – əmək məhsuldarliğini, yəni hər bir işçinin müəyyən vaxt (saat, gün) ərzində məhsul-xidmətlər istehsalını artırmasından, yaxud həmin məhsul-xidmətlər istehsalına sərf olunmuş vaxtın (başqa şərtlər dəyişməz qalmaqla) azaldılmasından ibarətdir.

Əmək məhsuldarlığının yüksəldilməsi ilə əhalinin həyat səviyyəsi arasındakı qarşılıqlı əlaqə, hər bir dövlətin daxili və xarici, xüsusilə də sosial siyasəti üçün mühüm rol oynadığından, elm və texnikanın, qabaqcıl texnologiyaların istehsal-xidmət sferalarında tətbiqinə, işçilərin peşə-ixtisaslarının təkmilləşdirilməsinə, yeni yaradılacaq elmtutumlu sahələrin hazırlıqlı gənc kadrlarla təmin olunmasına ciddi diqqət yetiliəməsi zəruridir.

***Doqquzuncu prinsip*** izah edir ki, dövlət həddən artıq pul çap edib dövriyyəyə buraxdıqda ölkədə qiymətlər qalxır və inflyasiya baş verir. Ölkədə qiymətlərin ümumi səviyyəsinin artımı ilə bağlı olan inflyasiya hadisəsi kağız pulların öz qızıl tərkibindən ayrılması, bank-kredit şəbəkəsinin çoxşaxəli fəaliyyəti, ölkələr arasındakı iqtisadi-ticarət əlaqələrinin durmadan genişlənməsi, beynəlxalq turizmin sürətlə inkişafı və dövlətlərin

iqtisadi-sosial siyasət xəttindəki obyektiv-subyektiv əyintilərlə bağlıdır. Ötən əsrin əvvəllərindən başlayaraq dünyanın Almaniya, Meksika, Fransa, ABŞ, İtaliya, Cənubi Amerika ölkələri vaxtaşırı olaraq bu problemlərə rastlamışlar. Keçmiş Sovet İttifaqı dağıldıqdan sonra onun ərazisində formalaşmış müstəqil dövlətlərdə, o cümlədən Azərbaycan Respublikasında da inflyasiya, habelə onun tənzimlənməsi məsələsi aktual bir əhəmiyyət kəsb edir.

Mütəxəsislərin və iqtisadçıların fikrincə, ölkə iqtisadiyyatında illik inflyasiya səviyyəsinin 3-5% hüdudlarında olması mümkün, hətta təsərrüfat həyatın canlanmasına bir təkan amili kimi lazımdır. Bəzi hallarda ölkənin iniqtisadi-sosial inkişaf xüsusiyyətləri və həll etdiyi problemlərin xarakterindən asılı olaraq, inflyasiyanın təkrəqəmli (8-9%) səviyyədə saxlanmasına haqq qazandırılır. Lakin tədricən bu səviyyənin artması iqtisadiyyatın sturukturunda, onun sahələrdaxili və sahələrarası nisbətlərində, xarici ticarətin quruluşunda, dövlət büdcəsinin formalaşmasında, tədiyyə balansında, nəhayət ölkənin iqtisadi siyasətinin strategiyası, habelə taktikasındakı müəyyən nöqsanlar, düzgün nəzərə alınmamış cəhətlərlə əlaqədardır. Ona görə də müasir mərhələdə dünyanın müxtəlif ölkələrinin iqtisadi siyasətində, inflyasiya prosesinin tənzimlənməsi tədbirlərinə ciddi diqqət yetirilir.

***Onuncu prinsip*** cəmiyyət həyatında inflyasiya ilə işsizlik (əhalinin məşğulluq səviyyəsi) arasındakı qısa müddətli və uzunmüddətli dövrdə (perspektivdə) olan seçim əlaqəsini özündə əks etdirir. İnflyasiya ilə işsizlik səviyyəsi arasındakı qarşılıqlı əlaqəni 1958-ci ildə iqtisadçı Artur Fillips tədqiq edərək, Fillips əyrisi adlanan qrafik sxemdə əks etdirmişdir. Həmin sxemə görə inflyasiya artdıqda, işsizlik azalmağa doğru meyl edir və əksinə iflyasiya azaldıqda isə cəmiyyətdə iş qüvvəsinə olan tələb aşağı düşdüyündən əhalinin məşğulluq səviyyəsi azalır, işsizlərin sayı çoxalır. Bu mənada inflyasiya və işsizlik təsərrüfat həyatının əks prosesləri kimi fəaliyyət göstərir.

Lakin ötən əsrin 70-80-ci illərindən başlayaraq dünya ölkələrində və xüsusilə keçid mərhələsində olan dövlətlərdə baş verən proseslər göstərdi ki, inflyasiya ilə işsizlik arasındakı qarşılıqlı təsir əlaqəsi nisbətən «qısamüddətli» dövr üçün düzgün sayılsa da, lakin «uzunmüddətli» dövr üçün özünü doğrultmur. Müxtəlif ölkələrin təsərrüfat həyatında *staqflyasiya* dövrü həm inflyasiya, həm də işsizlik hadisələrinin eyni bir vaxtda baş verməsi ilə səciyyələnir. Deməli, Fillips əyrisi qisa müddətdə inflyasiya ilə işsizlik arasındakı əlaqəni düzgün əks etdirdiyindən, dövlət öz iqtisadi siyasətində, büdcə xərclərində, vergilərdə, bank faizlərində, gömrük rusumlarında müəyyən dəyişiklər etməklə, həmin prosesləri tənzimləyə bilər.

Şübhəsiz, yuxarıda qeyd etdiyimiz 10 prinsipin konkret şəraitdən asılı olaraq, seçilib təsərrüfat həyatında istifadə olunması ilk mərhələdə müsbət nəticələr versə də, lakin onların son səmərəliliyi birgə, kompleksli surətdə hərtərəfli düşünülüb tədbiq edilməsi ilə bağlıdır. Unudulmamalıdır ki, cəmiyyət həyatının ən mürəkkəb iqtisadi-sosial problemlərinin təhlili və onların optimal həlli yolları məhz bu prinsiplərə əsaslanır.

# Mövzu 2. İqtisadi nəzəriyyənin predmeti və metodları

**2.1** İqtisadi nəzəriyyənin predmeti
**2.2** İqtisadi nəzəriyyənin metodları
**2.3** İqtisadi anlayışlar, kateqoriyalar
**2.4** İqtisadi qanunlar və onların fəaliyyəti

**2.1.** Müxtəlif elm sahələri öyrəndiyi obyektinə və predmetinə görə biri – birindən fərqlənirlər. Məlumdur ki, fizika elminin öz predmeti, biologiyanın digər, riyaziyyatın isə tamamilə başqa bir obyekt kimi özünəməxsus predmeti vardir.

«İqtisadi nəzəriyyə» fənninin öyrənib araşdırdığı obyekt, yaxud sahə-iqtisadiyyatdır, təsərrüfat həyatıdır. İqtisadiyyat isə cəmiyyətin yaşayıb inkişaf etməsi üçün mühüm bir sahə olmaqla yanaşı, eyni zamanda mürəkkəb, dəyişən, yeni meyllərlə səciyyələnən geniş əhatəli obyektdir.

Qarşılıqlı əlaqəli vahid bir sistem kimi iqtisadiyyat, insan fəaliyyətinin istehsal, xidmət, mənəvi sahələri ilə bilavasitə, yaxud dolayı yollarla bağlıdır. Cəmiyyətin və insanların müxtəlif təyinatlı tələbləri əsasında formalaşıb inkişaf edən iqtisadiyyat, öz tərəqqisində ciddi uğurlarla yanaşı, xeyli çətinliklərlə də rastlaşır. Həmin problemlərin və qayğıların aradan qaldırılmasnın səmərəli yollarının axtarışında iqtisadi nəzəriyyə (*economics*) mühüm əhəmiyyətə malikdir.

İctimai (sosial) elmlərin bir sahəsi kimi iqtisadi nəzəriyyənin predmetinin müəyyənləşdirilməsi və ona tərif verilərək, məzmununun açılması yolunda müxtəlif dövrlərdə səylər göstərilmişdir. Xüsusilə, XVII-XVIII əsrdən başlayaraq iqtisad elminin müstəqil bir sahə kimi formalaşması prosesi, alim və mütəxəssislərin bu məsələyə diqqətini xeyli artırmışdır.

İqtisadi nəzəriyyənin predmetinə dair A.Smit və D.Rikardo, marksistlər, keyneçilər, habelə digərləri müxtəlif fikirlər söyləmişlər. İqtisad elminin klassiklərinin mövqeyinə görə iqtisadi nəzəriyyə cəmiyyətin iqtisadi münasibətlərini və onların inkişaf qanunauyğunluqlarını öyrənən elmdir.

Marksistlərin fikrincə, iqtisadi nəzəriyyənin predmetini «bəşər cəmiyyətinin maddi həyat nemətlərinin istehsal və mübadiləsini idarə edən qanunlar haqqında elm» kimi səciyyələndirmək lazımdır.

İngilis iqtisadçısı A.Marşall iqtisadi nəzəriyyənin predmetini «insan cəmiyyətinin normal həyat fəaliyyətinin öyrənilməsi»ndə görmüşdür.

Amerika iqtisadçısı L.Robbinson göstərir ki, iqtisadi nəzəriyyənin predmetinə «məhdud vasitələr şəraitində insanların qarşıya qoyduqlan iqtisadi məqsədlərinə çatmaq səyləri» daxildir.

Nobel mükafatı laureatı P.Samuelson «*Economics*» dərsliyində qeyd edir ki, iqtisadi həyatda başlıca məsələ «nə istehsal etmək, nə qədər istehsal etmək, kimin üçün və hansı vasitələrlə istehsal etməkdən ibarətdir». Deməli, iqtisadi nəzəriyyənin predmetinə «məhdud resurslardan seçib istifadə etmək, istehsal olunan məhsulları cəmiyyət üzvləri arasında bölmək və alıcıların istehlakını öyrənmək» daxildir.

K.Makkonnell və S.Bryu (ABŞ) iqtisadi nəzəriyyənin predmetini belə müəyyənləşdirirlər: bu elm «insanın maddi tələbatlarının ən yüksək səviyyədə ödənilməsi

məqsədi ilə məhdud istehsal ehtiyatlarından səmərəli istifadə olunması, yaxud onların idarə edilməsi problemlərini tədqiq edir». Həmin müəlliflər eyni zamanda yazırlar ki, iqtisad elmi «məhdud ehtiyatlar şəraitində maddi nemətlərin və xidmətlərin istehsal, bölgüsü və istehlakı prosesində insanların davranışının (münasibətlərinin) təhlilidir».

Türk iqtisadçısı Orxan Oğuz «Ümumi iqtisadi nəzəriyyə» kitabında yazır: «İqtisad elminin mövzusu (predmeti) insanların iqtisadi fəaliyyətidir».

«İqtisadi nəzəriyyə» dərsliyinin müəllifləri qeyd edirlər ki, bu elm «bütövlükdə iqtisadiyyatın inkişafının başlıca qanunauyğunluqlarını və prinsiplərini müəyyənləşdirir»

Umumıləşdirilmiş şəkildə iqtisadi nəzəriyyənin (*economics*in) predmetinə belə tərif vermək olar: *iqtisadi nəzəriyyə müəyyən dövr ərzində, konkret tarixi şəraitdə, iqtisadi resursların məhdudluğu və cəmiyyətin tələblərinin sonsuzluğu reallığında daha yüksək mənfəət əldə etmək məqsədiylə insan fəaliyyətinin elmi təhlilidir.*

İqtisadi nəzəriyyə elminin tədqiq edib ümumiləşdirdiyi qanunauyğunluq və prinsiplərdən faydalanan konkret iqtisad elmləri istehsala, habelə xidmət dairəsinə öz təkliflərini, məsləhətlərini, tövsiyyələrini verə bilirlər.

**2.2.** Hər bir elm öz predmetini və əhatə etdiyi müxtəlif problemlər dairəsini müəyyən metodların vasitəsiylə tədqiq edib, hərtərəfli öyrənir. İqtisadi nəzəriyyə elmi də cəmiyyət həyatında və insanların iqtisadi münasibətlərində baş verən prosesləri aydınlaşdırıb izah etmək üçün bir sıra metodlardan istifadə edir.

Elmin predmeti ilə onun metodları arasında üzvi bir əlaqə, qarşılıqlı təsir və daxili vəhdət vardır. Beləki, əgər elmin predmeti onun məzmunu, problemləri, əhatə etdiyi məsələləri haqqında bizə məlumat verirsə, elmin metodu həmin araşdırmaların dərk olunması yollarını, vasitələrini, üsullarını göstərir.

«Metod» anlayışı, yunanca «methodos» sözündən götürülmüşdür və axtarış, tədqiqat yolu mənasını verir. Bu baxımdan metod, iqtisad elminin müxtəlif məsələlərinin öyrənilməsinin açarıdır. Təsadüfi deyildir ki, məşhur ingilis alimi F.Bekon metodu – tətqiqat yolunu işıqlandıran fanara bənzətmişdi.

Bir sıra başqa elmlərdən fərqli olaraq, iqtisadi nəzəriyyə elminin predmetinin xüsusiyyəti elədir ki, onun problemlərini laboratoriya və texniki vasitələrlə öyrənmək mümkün deyildir. İqtisadi nəzəriyyənin araşdırıb, təhlil etdiyi problemləri ilk növbədə elmi-nəzəri təfəkkür tərzi və onun əsaslandığı müəyyən metodlar vasitəsiylə səmərəli surətdə həll etmək olar.

İqtisadi nəzəriyyənin metodları aşağıdakılardır:

a) ***Elmi abstraksiya metodu.*** Bu metod vasitəsiylə cəmiyyətin iqtisadi həyatında və insanların münasibətlərində müşahidə olunan hadisələrin mühüm cəhətləri aşkara çıxarılaraq ümumiləşdirilir. Eyni zamanda, bu proseslərdə təsadüfi xarakter daşıyan və ikinci dərəcəli əhəmiyyət kəsb edən cəhətlər nəzərə alınmır. Əsas diqqət, iqtisadi hadisə və proseslərə xas olan ümumi, habelə mühüm cəhətlərin aşkara çıxanlmasına verilir.

Qeyd etmək lazımdır ki, abstrakt (mücərrəd) metod vasitəsilə hər hansı bir cəmiyyətin, yaxud iqtisadi hadisənin mahiyyəti üzə çıxarılır. Lakin aydındır ki, iqtisadi proseslərin tam dərk edilməsi yalnız bununla başa çata bilməz. Abstrakt təfəkkür metodu, konkret iqtisadi proseslərin mahiyyətini açmağa kömək etməlidir.

Alman filosofiı Hegelin dediyi kimi «canlı müşahidədən (seyrdən) abstrakt təfəkkürə və oradan da praktikaya (təcrübəyə), – həqiqəti dərk etməyin yolu belədir». Doğrudan da,

abstrakt ümumiləşdirmələr o zaman qiymətlidir ki, onun qanunauyğunluq və prinsipləri real həyatda tətbiq olunaraq, həm cəmiyyətə, həm də onun üzvlərinə fayda gətirsin.

b) ***Analiz və sintez metodu.*** Analiz metodu vasitəsilə tam halda götürülən iqtisadi hadisələr, proseslər, münasibətlər sistemi aurı-aurı hissələrə, müəyyən cəhətlərə, müxtəlif parçalara bölünərək təhlil edilir. Məsələn, vahid bir kompleks kimi fəaliyyət göstərən xalq təsərrüfatı sənaye, kənd təsərrüfatı, nəqliyyat və rabitə, xidmət dairələrinə bölünərək öyrənilir. Öz növbəsində sənaye müxtəlif sahələrə, aqrar-sənaye kompleksi müxtəlif istehsal bölmələrinə ayrılaraq, öyrənilə bilər.

Sintez metodu aurı-aurı hissələrin və müxtəlif cəhətlərin birləşərək, tam vahid halında, yaxud ümumi şəkildə təhlilinə xidmət edir. Məsələn, kənd təsərriifatının əkinçilik, heyvandarlıq, meyvə-tərəvəzçilik kimi sahələrinin təhlili əsasında ölkənin aqrar bölməsi haqqında ümumi təsəvvür əldə etmək mümkündür.

c) ***Tarixi müqayisəlik metodu.*** İqtisadi hadisə və proseslər müəyyən zaman və məkan daxilində baş verdiyindən, bunları əvvəlki dövrlə müqayisə edərək, daha düzgün qərarlar qəbul etmək vacibdir. İqtisadi nəzəriyyə bu metodla iqtisadi proseslərin törəməsi, dəyişməsi və inkişafı prosesini obyektiv qiymətləndirə bilər. Məsələn, başqa ölkələrin tarixi nümunəsi əsasında sənaye və kənd təsərrüfatının inkişaf yolunu izləməklə, yaxud ekologiya problemlərinə diqqət yetirməklə, bir sıra mənfi meyllərin qarşısını almaq mümkündür. Çünki tarixi müqayisələr təkcə xatırlamaq üçün deyil, həm də bu proseslərdən lazımi nəticələr çıxarmaq üçündür.

ç) ***Məntiqi ardıcıllıq metodu.*** Bu metod tələb edir ki, tarixi ardıcıllıq prinsipi ilə nəzərdən keçirilən iqtisadi proseslər, məntiqi təfəkkürlə təhlil olunsun və həmin hadisələrin baş verdiyi konkret şərait nəzərə alınsın.

İqtisadi nəzəriyyənin irəli sürdüyü ümumi müddəalar ardıcıl məntiqi mərhələlərlə həyata keçirilməlidir. Məsələn, ümumi daxili məhsulun (UDM) optimal artım templərini təmin etmək üçün uyğun maddi-texniki baza, kifayət qədər hazırlıqlı kadrlar yetişməlidir. Yaxud əhalinin iqtisadi-sosial vəziyyətini yaxşılaşdırmaq, işsizlik problemini həll etmək üçün nəzərdə tutulan tədbirlər sistemi məntiqi bir ardıcıllıqla həyata keçirilməlidir. Bu mənada, tarixi metodla məntiqi metod bir-birini tamamlayaraq, vəhdət təşkil edir.

d) ***İnduksiya və deduksiya metodu***. Bu metodun tətbiqi vasitəsilə müxtəlif səpgili iqtisadi problem və məsələlərə dair faktlar toplanılır, seçilir, ümumiləşdirilir. Həmin materiallar əsasında meydana çıxan elmi-nəzəri müddəalar bazasında, əməli fəaliyyət üçün konkret tövsiyyələr hazırlanır. Deməli bu metod, ayrı-ayrı iqtisadi faktların toplanaraq ümumiləşdirilməsini nəzərdə tutur.

Deduksiya metodu isə ümumi nəzəri müddəaların konkret əməli tətbiqini şərtləndirir. Bu metod ümumi nəzəri baxışlardan, konkret əməli fəaliyyətə gedən yolu göstərir. Real həyatda induksiya və deduksiya metodlarının birlikdə tətbiqi və qarşılıqlı əlaqədə təsiri daha səmərəli nəticələr verir.

e) ***Qrafik təsvirlər metodu.*** İqtisadi hadisə və prosesləri daha yaxşı qavrayıb təsəvvür etmək üçün müxtəlif cədvəl, diaqram, əyri və şəkillərdən istifadə olunur. Məsələn, tələblə təklifin dəyişməsini əmək haqqı ilə əhalinin iqtisadi-sosial vəziyyətinin asılılığını, inflyasiya prosesləri ilə əhalinin məşğulluğu arasındakı əlaqəni, ümumi daxili məhsulun (UDM) artım dinamikasını qrafik üsullarla aydınlaşdırmaq mümkündür.

ə) ***Riyazi modelləşdirmə metodu.*** Bu metod iqtisadi prosesləri riyazi düsturlar, tənliklər, qeyri-bərabər kəmiyyətlər vasitəsilə ifadə etməyə imkan verir. Məsələn, hər hansı bir ölkədə tədavüldə nə qədər pulun lazım olduğunu, torpaq sahəsinin qiymətini, həyat səviyyəsi indeksini, xarici ticarət əlaqələrinin səmərəliliyini məhz bu metodla hesablayırlar. Riyazi modelləşdirmə metodu ilə aparılan hesablamalar, iqtisadi prosesləri sadəcə qeydə almaqla kifayətlənməyib, eyni zamanda həmin hadisələrin özünəməxsus xüsusiyyətlərini, habelə gələcək inkişaf meyllərini müəyyənləşdirməyə imkan verir. Həmin metod vasitəsi ilə iqtisadi modellər yaradılır.

Cəmiyyətdə baş verən mürəkkəb və çoxcəhətli iqtisadi proseslərin aydınlaşdırılaraq təhlil olunmasında, habelə perspektiv təsərrüfat həyatı məsələlərinin həllində mühüm vasitə olan iqtisadi metodlar, konkret şəraitə görə tətbiq olunduqda, habelə biri-biriylə əlaqəli öyrənildikdə, şübhəsiz daha faydalı nəticələr əldə edilir.

Qlobal və milli iqtisadiyyat çərçivəsində baş verən ziddiyyətli proseslərin müxtəlif metodlar vasitəsiylə üyrənilməsi iqtisadi nəzəriyyənin *metodologiyası* adlanır. Deməli iqtisadi nəzəriyyənin metodologiyası – təsərrüfat həyatındakı hadisələri tədqiq edən metodlar haqqında elmdir. Metodologiya iqtisadi proseslərin öyrənilib dərk edilməsinə ümumi mövqe, yaxud vahid fəlsəfi yanaşma zəmini ilə səciyyələnir.

İqtisadi nəzəriyyənin ümumi metodologiyasında bir-neçə əsas yanaşmanı, o cümlədən: *subyektiv (idealist), pozitiv-empirik (neopozitiv empirik və skeptizm), rasional, dialektik (materialist)* baxışları göstərmək olar.

***Subyektiv yanaşma***, iqtisadi proseslərin təhlilinin çıxış nöqtəsi kimi subyekti («mən», «homoekonomiksi») götürür və onun fəaliyyətinin (davranışının) ətraf mühitə münasibətini nəzərdə tutur.

***Pozitiv-empirik yanaşma***, iqtisadi hadisələrin konkret nəticələrinin öyrənilməsinə, gələcəkdə elmi-texniki nailiyyətlər əsasında yeni iqtisadi modellərin tətbiqinə üstünlük verir.

***Rasional yanaşma***, bütövlükdə cəmiyyətin iqtisadi sisteminin inkişafının hərtərəfli qiymətləndirilməsini irəli sürür.

***Dialektik yanaşma***, İqtisadi prosesləri daimi hərəkət və dəyişmə halında götürərək, onların gələcək inkişaf meyllərini araşdırır.

**2.3.** İqtisadi nəzəriyyə bir elm kimi cəmiyyətin təsərrüfat həyatında gedən prosesləri izləyib təhlil etmək və öz mülahizələrini bildirmək üçün həmişə iqtisadi kateqoriyalara, yaxud anlayışlara, terminlərə müraciət edir.

İqtisadi kateqoriyalar, iqtisadi hadisələrin və təsərrüfat həyatının müxtəlif proseslərinin ən mühüm tərəflərini ifadə edən nəzəri anlayışlardır. Bu anlayış və kateqoriyalar, iqtisad elminin ayrı-ayrı cəhətlərini ümumiləşdirilmiş şəkildə ifadə edən simvollar, rəmzlər kimi iqtisadi nəzəriyyənin əlifbası rolunu oynayır. İqtisadi kateqoriya və anlayışları öyrənib dərk etmədən, onların mahiyyətini və təzahür formalarını, dəyişilmə xüsusiyyətlərini və transformasiya gedişini bilmədən, təsərrüfat həyatının mürəkkəb proseslərindən baş çıxarıb onları izah etmək mümkün deyildir. Müqayisə üçün qeyd etmək olar ki, bədii ədəbiyyatın obrazları müxtəlif insanlardırsa, iqtisadi nəzəriyyə elminin «obrazları və surətləri» məhz kateqoriyalardır.

Məsələn, mülkiyyət, torpaq, bazar, əmtəə, pul, istehsal, bölgü, mübadilə, istehlak, ticarət, kapital, əmək, gəlir, iş qüvvəsi, faiz, bank, renta, dəyər, qiymət, əmək haqqı,

ümumi daxili məhsul, həyat səviyyəsi, kapitalist, sahibkar, istehsal xərcləri, kredit, investisiya, büdcə kəsiri, mənfəət, rəqabət, tələb, təklif, inhisar iqtisadi kateqoriyalardır. Bu iqtisadi anlayışlar vasitəsiylə həyatda rastlaşdığımız təsərrüfat problemləri aydınlaşdırılır.

**2.4.** İqtisadi nəzəriyyə fənnini öyrənmə gedişində müxtəlif iqtisadi qanunların adı çəkilir və onların mahiyyəti, təzahür formaları, habelə fəaliyyət mexanizmi təhlil edilir.

İqtisadi qanunlar – cəmiyyət həyatının iqtisadi hadisə və prosesləri arasında baş verən, daimi təkrar olunan, sabit, möhkəm, mahiyyəti təşkil edən ən mühüm səbəb-nəticə əlaqələrini ifadə edir. Başqa sözlə, iqtisadi qanunlar hadisələrin və proseslərin əsl mənasını, məntiqi ardıcıllığını, onların arasındakı zəruri daxili asılılıq əlaqələrini ifadə edir.

İqtisadi qanunlardan tələb və təklif qanununu, əmək məhsuldarlığının yüksəldilməsi qanununu, son faydalılığın azalması qanununu, yığım qanununu, pul tədavülü qanununu, dəyər qanununu, rəqabət qanununu, tələbatın artması qanununu, torpağın münbitliyinin azalması qanununu göstərmək olar. Bu qanunlar iqtisadiyyatın və bütövlükdə təsərrüfat həyatının obyektiv inkişaf meyllərini əks etdirərək, uzun müddətli dövr ərzində məntiqi ardıcıllıqla, habelə qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər.

Eyni zamanda müxtəlif tədqiqatçıların adları ilə bağlı olub, iqtisadi proseslərin mahiyyət əlaqələrini aydınlaşdırmağa çalışan Sey qanununu, Qossen qanununu, Engel qanununu, Oyken qanununu qeyd etmək lazımdır.

Təbiətdə olduğu kimi cəmiyyət həyatının da obyektiv qanunları vardır. Lakin təbiətin mütləq mənada insan şüurundan və iradəsindən asılı olmayan qanunlarından (planetin hərəkəti, okeanların qabarıb-çəkilməsi, cazibə qüvvəsi) fərqli fəaliyyət göstərən iqtisadi qanunları tənzimləmək mümkündür. Bu tənzimləmə prosesi insanların şüurlu və məqsədyönlü fəaliyyəti, habelə dövlətin düşünülmüş iqtisadi siyasəti ilə həyata keçirilə bilər.

İqtisadi qanunlar cəmiyyət həyatında bir-biri ilə qarşılıqlı əlaqə və təsir şəraitində sistem kimi fəaliyyət göstərirlər. Bu qanunları dərk etməyin başlıca şərti, onların fəaliyyət göstərdiyi konkret şəraiti, mühiti, ölkəni nəzərə almaqdır. İqtisadi qanunların normal fəaliyyət göstərməsi üçün müəyyən ilkin zəruri şərtlər olmalıdır. Məsələn, hər hansı bir ölkədə, yaxud istehsal sahəsində rəqabət qanununun normal fəaliyyət göstərməsi üçün sərbəst sahibkarlığın, mülkiyyət və investisiya hüququnun, sərbəst bazar qiymətlərinin mövcudluğu tələb olunur.

Dövlətin ölkənin təsərrüfat həyatını özünün sərt və ciddi nəzarəti altında saxlaması, şübhəsiz iqtisadi qanunların fəaliyyət, habelə təsir dairəsini məhdudlaşdırır.

Müasir mərhələdə ölkənin təsərrüfat həyatını uğurla və səmərəli idarə etmək üçün dövlət tərəfindən tənzimləyici hüquqi qanunlar qəbul edilməsinə ehtiyac vardır. Bu qanumlar isə yalnız o zaman «işləyə» bilər ki, onların fəaliyyəti üçün əlverişli şərait yaradılsın. Aydındır ki, hüquqi qanunlarla iqtisadi qanunları eyniləşdirmək olmaz. Zaman keçdikcə və zərurət yarandıqca, hüquqi qanunları təkmilləşdirmək, yeniləşdirmək, hətta ləğv etmək mümkündür. Lakin tələb və təklif, rəqabət, qiymət kimi qanunları ləğv etmək olmaz. Ona görə də hüquqi qanunlar, normativ aktlarla obyektiv iqtisadi qanunlar arasında hökmən müəyyən bir uyarlıq, tarazlıq və ahəngdarlıq olmalıdır.

# Mövzu 3. İqtisadi problemlərə giriş

**3.1** İqtisadi nəzəriyyənin (*economics*in) əsasları.Tələbatların sonsuzluğu və resursların məhdudluğu
**3.2** İqtisadi resurslar və onların bölgüsü (təsnifatı, dərəcələri, kateqoriyaları)
**3.3** Resurslardan səmərəli istifadə olunması
**3.4** İstehsal imkanları və alternativ xərclər
**3.5** İstifadə edilməmiş resurslar və iqtisadi artım

**3.1.** Müasir iqtisadi nəzəriyyənin (*economics*in, iqtisadiyyatın, siyasi iqtisadın) əsasında, şübhəsiz müəyyən fərqlərə baxmayaraq, bir-biri ilə sıx və dialektik vəhdət təşkil edən 2 amil fakt, reallıq durur. Bu iki qarşılıqlı əlaqədə olan cəhət, *economics*in bütün əsas problemlərini və müxtəlif cəmiyyətlərin iqtisadi proseslərini özündə birləşdirir.

***Birincisi***, insan cəmiyyəti yarandığı dövrdən bizim günlərimizə qədər onun ayrı-ayrı üzvlərinin, müxtəlif təsisatlarının, nəhayət bütövlükdə məcmu maddi-mənəvi tələbatları artmağa doğru getmiş və bu meyl indi də davam etməkdədir. Təsadüfi deyildir ki, iqtisadi ədəbiyyatda belə bir fikir xüsusi vurğulanır: tarixən cəmiyyətin maddi-mənəvi tələbatları sonsuzdur, hüdudsuzdur və görünür heç vaxt tam ödənilməyəndir. Çünki planet miqyasında əhalinin sayının son 200 ildə 6-7 dəfə artması, insanların zövq, seçim, tələblərinin dəyişməsi, «arzunun özündən doğan arzular» kimi elmi-texniki kəşflər, yeni mütərəqqi texnologiyalar bazasında əvvəllər məlum olmayan xüsusi keyfiyyətlərə malik materiallardan hazırlanmış əmtəələr istehsalı, habelə müxtəlif təyinatlı xidmətlərin göstərilməsi, bu prosesə istər mütləq, istərsə də nisbi mənada həqiqətən müəyyən bir sonsuzluq xarakteri verir. Son 100 il ərzində cəmiyyətin iqtisadi-sosial həyatına, gündəlik məişətinə, mənəviyyatına daxil olmuş saysız-hesabsız məhsullar, xidmətlər, dəyərlər, habelə bunların durmadan artması gözlərimiz önündə baş verir. Hesablamalar göstərir ki, hazırda dünyada 40 milyon adda, necə deyərlər iynədən tutmuş hərbi raketlərə qədər və ərzaq məhsullarından başlamış qiymətli zinyət əşyalarına kimi məhsullar istehsal olunur, habelə xidmətlər göstərilir. Həmin məhsul-xidmətlərin illik ümumi dəyəri 60 trilyon dolları ötür.

***İkincisi***, cəmiyyətin iqtisadi resursları, onun sərancamında olan istehsal vasitələri (maddi-texniki imkanları), ayrı-ayrı növ və çeşidləri ilə seçilən, habelə müxtəlif təyinatlı xidmətlər göstərmək üçün tələb olunan xammal, yanacaq, materialları isə qismən, yaxud tamamilə məhduddur. Məsələn, Qərbi Avropa ölkələrinin, Yaponiyanın, Ukraynanın, Baltikyanı dövlətlərin yanacaq ehtiyatları çox azdır. Dəmir, mis, qalay, daş kömür, qızıl ehtiyatları da ölkələr arasında qeyri-bərabər surətdə yerləşmişdir. Aqrar bölmənin bir sıra məhsullarını da iqlim-torpaq xüsusiyyətləri ilə bağlı ehtiyac olsa belə, dünyanın müxtəlif ölkələrində yetişdirmək mümkün deyildir yaxud iqtisadi səmərəlilik baxımından məqsədəuyğun sayılmır.

Deməli, ölkədə iqtisadi resursların (ehtiyatların, sərvətlərin) məhdudluğu, yaxud obyektiv-subyektiv səbəblər üzündən bunlardan cəmiyyətin tələbatlarını ödəməyin çətinliyi, ya mövcud imkanlardan son dərəcə qənaətlə (effektli) istifadə olunmasını, ya da həmin məhsul-xidmətlərə olan tələblərin başqa dövlətlərdən (beynəlxalq bazardan) idxal edilməsi vasitəsilə yerinə yetirilməsini irəli sürür.

Zaman keçdikcə bütövlükdə cəmiyyətin və ailələrin, nəhayət hər birimizin tələbatlarının tədricən artması, habelə dəyişkən zövq müxtəlifliyi reallığında iqtisadiyyatın başlıca vəzifəsi, bu çoxsaylı tələblərin ödənilməsindən ibarətdir. Həmin fasiləsiz əmtəə-xidmətlərin istehsal prosesini isə ölkənin imkanlarını nəzərə almaq, istehsalın optimal strukturunu formalaşdırmaq, daxili-xarici iqtisadi əlaqələrin tarazlı nisbətini gözləmək yolu ilə həyata keçirmək mümkündür.

**3.2.** İqtisadi resurslar (ehtiyatlar) dedikdə, əmtəələrin istehsalı və xidmətlərin göstərilməsi üçün istifadə olunan bütün təbii, əmək və insan tərəfindən yaradılmış obyektlər, fabrik və zavodları, sənaye və kənd təsərrüfatı məhsulları istehsalında istifadə olunan avadanlıq, alətlər, mexanizmlər, müxtəlif rabitə və nəqliyyat vasitələri, saysız-hesabsız əmək növləri, torpaq və faydalı qazıntılar nəzərdə tutulur. İqtisadi nəzəriyyədə bu resurslar maddi yəni torpaq, xammal və kapital kimi maddi resurslara, insan resurslarına, yəni əmək və sahibkarlıq qabiliyyətinə bölünür. İqtisadi resurslar 4 kateqoriyaya ayrılır:

***Torpaq*** anlayışı (kateqoriyası) bütün təbii ehtiyatları, istehsal prosesində tətbiq oluna bilən və təbiətin insanlara bəxş etdiyi nemətləri əhatə edir. İqtisadi resurs kimi torpaq kateqoriyasına becərilən torpaqlar, meşələr, su ehtiyatları, müxtəlif mədən və yataqlar daxildir. Tanınmış ingilis iqtisadçısı Uilyam Petti, torpağı bütün sərvətlərin anası adlandırmışdı.

***Kapital***, yaxud «investisiya ehtiyatları» bütün mövcud olan istehsal vasitələrini, əmtəələrin və xidmətlərin hazırlanıb son istehlakçıya çatdırılması üçün istifadə olunan avadanlıqları, maşınları, alətləri, nəqliyyat vasitələrini, satış şəbəkəsini əhatə edir. Həmin zəruri vasitələrin istehsalı və toplanması prosesi investisiya adlanır.

Bu prosesdə 2 cəhəti fərqləndirmək lazımdır. Əvvələn, investisiya əmtəələri (istehsal vasitələri) istehlak məhsullarından onunla fərqlənir ki, sonuncular tələbatı birbaşa, birincilər isə bilavasitə istehlak mallarının istehsalını təmin etməklə ödəyirlər. Sonra isə burada işlədilən mənada «kapital» termini pulu nəzərdə tutmur. Menecer və iqtisadçılar çox vaxt maşın, avadanlıq və digər istehsal vasitələrinin alınması üçün istifadə edilən məbləği «pul kapitalı» kimi qələmə verirlər. Amma qeyd etmək zəruridir ki, pul özlüyündə, yəni tətbiq olunmadığı və heç nə istehsal etmədiyi halda, əslində iqtisadi ehtiyat (resurs) sayıla bilməz. Bu mənada, real kapital istehsal avadanlıqları, dəzgahlar, maşınlar, mexanizmlər olub, iqtisadi resurslara (ehtiyatlara) aid edilir. Pul və maliyyə ehtiyatları isə nə qədər vacib olsa da, iqtisadi resurslara daxil edilmir, hətta bəzən «saxta kapital» kimi səciyyələndirilir.

***Əmək***, bütün sərvətlərin yaradıcısı (atası) kimi, hər bir istehsal prosesinin həlledici amillərindəndir. Əmək, insanın fiziki-əqli-mənəvi qüvvələrinin toplusu olub, maddi məhsulların və mənəvi sərvətlərin yaradılması işinə xidmət edir. Fəhlənin və fermerin, alimin və sürücünün, müəllimin və həkimin, aktyorun və qulluqçunun fəaliyyəti, onun əməyinin, zəhmətinin nəticəsidir. Elm və texnika nə qədər inkişaf etsə də, istehsal-xidmət prosesləri getdikcə mexanikləşdirilib avtomatlaşdırılsa da, şübhəsiz insan əməyi, yaxud «insan kapitalı» həmişə öz mühüm rolunu oynayacaqdır. Təsadüfi deyilməmişdir ki, ən yeni texnika və mükəmməl dəzgahlar da onlara insan əli, əməyi toxunmadan hərəkətə gətirilə bilmədiyindən, sanki «ölüdür». Müasir dövr insan əməyinə, onun işgüzar peşakarlıq qabiliyyətinə daha yüksək tələblər irəli sürdüyündən, aydındır ki, yalnız texniki nailiyyətlərin ixtisaslı kadrların peşə fəaliyyəti ilə üzvü surətdə bir-birini tamamlaması,

şübhəsiz ən optimal səmərəli iqtisadi-sosial nəticələr əldə edilməsinə real şərait yarada bilər.

***Sahibkarlıq*** fəaliyyəti (qabiliyyəti, bacarığı) xüsusi bir insan resursu kimi istehsal-xidmət dairəsində müxtəlif iqtisadi resursların (iqtisadi amillər kimi) fərqli surətdə əlaqələndirilərək (birləşdirilərək), keyfiyyətcə yeni təyinatlı məhsulların hazırlanması, yaxud xidmətlərin göstərilməsi işinin səmərəli təşkilidir. Orkestrə drijor lazım olduğu kimi mürəkkəb və özünəməxsus fərqli cəhətləri ilə seçilən ayrı-ayrı istehsal, habelə xidmət sahələrinin ahəngdar işinin fasiləsiz davamı üçün xüsusi istedad, habelə təşkilatçılıq mədəniyyəti tələb edən sahibkarlıq fəaliyyəti zəruridir. Mütəxəssislərin fikrincə, nadir bir məharət sayılan sahibkarlıq qabiliyyəti, hər 100 adamdan yalnız 5-7nəfərdə olur.

Bazar münasibətləri iqtisadi sistemi şəraitində sahibkarlıq bacarığı həm istehsal, həm təchizat, həm də satış mərhələlərinin normal fəaliyyətinin davamlı surətdə təşkil olunub həyata keçirilməsində mühüm rol oynayır. Çətin və riskli bir peşə seçmiş əsl sahibkar, öz gündəlik fəaliyyətində üzərinə müəyyən vəzifələr götürərək, onların reallaşmasına çalışır.

1. Sahibkar əmtəə-xidmətlərin istehsalının vahid prosesini təşkil etmək üçün müxtəlif amillərin – torpağın, kapitalın və əməyin birləşdirilməsi təşəbbüsünü öz üzərinə götürür.
2. Sahibkar işgüzar biznesinin aparılması prosesində bütün əsas qərarların qəbul edilməsi, şirkətin fəaliyyət istiqamətini müəyyənləşdirən şərtlərin həyata keçirilməsinə məsuliyyət daşıyır.
3. Sahibkar həmişə yenilikçi olub, istər məhsulların istər istehsal texnologiyalarının, istərsə də biznesin təşkili işinin ən yeni formalarının kommersiya prinsipləri əsasında tətbiq olunmasına təşəbbüs göstərir.
4. Sahibkar – riskə gedən adamdır. Bazar münasibətləri iqtisadi sistemində sahibkara əvvəlcədən mənfəət təminatı verilmir. Onun biznes fəaliyyətinə sərf etdiyi vaxtın, səylərin, qabiliyyətin son nəticəsi mənfəət yaxud ziyan, hətta müflisləşmə ola bilər. Sahibkar fəaliyyəti ilə təkcə öz vaxtı, zəhməti, işgüzar bir adam kimi nüfuzu ilə deyil, eyni zamanda şəriklərinin, səhmdarların vəsaitləri, habelə ona olan inamları ilə də «iqtisadi oyun» iştirakçısı kimi məsuliyyət daşıyır .

**3.3.** Bazar münasibətləri iqtisadi sistemində bütün təsərrüfat və işgüzar biznes fəaliyyətinin son nəticəsi gəlirlə (mənfəətlə) ölçülür. İqtisadi nəzəriyyədə torpaqdan istifadə ilə əldə olunan gəlir venta adlanır. Müəyyən bir sahədə çalışan işçilərin və qulluqçuların gəlirləri, onlara əmək haqqı formasında çatır. Müxtəlif istiqamətli sahibkarlıq fəaliyyəti ilə məşğul olanların gəliri mənfəət adlanır. Əhalinin ayrı-ayrı təbəqələrinin, şirkətlərin banklarda saxladıqları əmanətlər, əldə etdikləri səhmlər, aldıqları dövlət istiqrazlarının müəyyən faiz şəklində onlara gətirdiyi gəlir (uduşlar) isə dividend adlanır.

Ona görə də bazar iqtisadiyyatı şəraitində istər bütövlükdə cəmiyyət miqyasında, istərsə kiçik-orta sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar, istərsə də iri şirkətlər, inhisar birlikləri, trans milli korporasiyalar (TMK-lar) öz işlərini elə qurmağa çalışırlar ki, mövcud, məhdud resurslardan daha səmərəli istifadə etmək yolu ilə ən yüksək (maksimum) gəlir əldə edə bilsinlər. Bunun üçün isə aşağıdakı şərtlərə əməl olunması tələb olunur: a) ölkənin əmək ehtiyatlarından dolğun istifadə olunmalı və işsizlik səviyyəsi ən aşağı həddə saxlanmalıdır; b) istehsal proseslərində və xidmət sahələrində xərclər (məsrəflər) minumum səviyyəyə endirilməlidir; c) müxtəlif təsərrüfat sahələri arasında məhdud resursların bölgüsü elə aparılmalıdır ki, onlardan hazırlanan məhsullar-xidmətlər

istehsalın ümumi həcmini artırmaqla yanaşı, bütövlükdə cəmiyyətin, o cümlədən də ailələrin, habelə ayrı-ayrı fərdlərin (şəxslərin) tələbləri daha dolğun surətdə ödənilə bilsin.

**3.4.** İqtisadi resursların, maddi-texniki bazanın və texnologiyaların nisbi məhdudluğu üzündən cəmiyyətin getdikcə artan tələbatlarının tam ödənilməsi həmişə mümkün olmur. Konkret bir ölkənin timsalında, onun istehsal imkanları daxilində hansı məhsullardan və nə qədər hazırlamasının daha səmərəli variantının müəyyənləşdirilməsini sadələşdirmək üçün aşağıdakı şərtlər nəzərə alınmalıdır:

- həmin ölkədə əhalinin işlə optimal məşğulluğu təmin edilmişdir;
- istehsal və xidmət sahələrində istifadə edilən iqtisadi resursların həcmi sabitdir (dəyişməzdir);
- istehsal proseslərində və xidmət dairəsində tətbiq olunan texnika-texnalogiya dəyişmir;
- ölkədə yalnız 2 adda məhsul, məsələn geniş mənada istehsal vasitələri və istehlak şeyləri, dar mənada isə silah-ərzaq, yaxud P.Samuelsonun «İqtisadiyyat (*Economics*)» kitabında aydınlıq naminə yazdığı kimi top və yağ hazırlanır.

Deməli, ölkənin mövcud iqtisadi resursları bazasında cəmiyyətdə ya istehsal vasitələri hazırlamalıdır ki, bunların köməyi ilə onun tələbatları ödənilsin; yaxud da təkcə istehlak şeyləri (ərzaq, paltar, mebel və sair) hazırlanaraq, insanların gündəlik ehtiyacları təmin olunsun. Başqa sözlə, təlabatların sonsuzluğu və iqtisadi resursların məhdudluğu şəraitində həm cəmiyyət, həm də insanlar müəyyən (konkret) seçim qarşısında durduqlarından, təbii olaraq onlar nəyə üstünlük vermələri barəsində qərara gəlməlidirlər. Bu isə o deməkdir ki, hər hansı bir məhsulun (məhsul qrupunun) hazırlanmasına sərf olunmuş iqtisadi resurslar, hökmən digər bir məhsulun (məhsul qrupunun) hazırlanması imkanlarını məhdudlaşdıracaq, bəzi hallarda isə hətta bunun qarşısını tamamilə alacaqdır. Bu reallığı, yəni iqtisadi resurslardan alternativ (əks) istiqamətlərdə istifadə olunması nisbətinin müxtəlif variantlarını aşağıdakı cədvəldən görmək olar:

**İqtisadi sistemin istehsal imkanları hüdudlarının altrnativ variantları**

| ***Alternativ variantlar*** / ***Məhsul növü*** | ***A*** | ***B*** | ***C*** | ***D*** | ***E*** | ***F*** |
|---|---|---|---|---|---|---|
| Silah (robot, dəzgah) min ədəd | 15 | 14 | 12 | 9 | 5 | 0 |
| Yağ (ərzaq, taxıl) mln ton | 0 | 1 | 2 | 3 | 4 | 5 |




Alternativ istehsal imkanları cədvəlini qrafik sxem, yaxud istehsal imkanları əyrisi kimi belə göstərmək olar.

Sxemdən aydın olur ki, məhdud iqtisadi resurslar və sabit texnika – texnalogiya bazasında istehsal imkanlarından ən səmərəli istifadə edilməsi yalnız ABCDEF əyrisi boyunca konkret bir nöqtədə (məsələn CDE əyri hissəsi üzərindəki hər hansı İ nöqtəsində) mümkündür. Deməli, bu əyridən kənarda iqtisadi resursların məhdudluğu nəticəsində istehsal ümumiyyətlə həyata keçirilə bilmədiyi kimi, əyrinin içərisində istehsal

mümkün olsa da, səmərəli sayılmayacaqdır.

**3.5.** Müxtəlif ölkələrin təsərrüfat həyatı təcrübəsi göstərir ki, ictimai-siyasi quruluşundan və ideoloji-dini baxışlarından asılı olmayaraq, hər hansı bir cəmiyyət malik olduğu iqtisadi resurslarından səmərəli istifadə etməyi bacarsa, iqtisadi-sosial inkişaf istiqamətində daha uğurlu nəticələr qazana bilər. Bu mənada müxtəlif ictimai-siyasi quruluşlara mənsub olub və bazar münasibətləri iqtisadi sisteminin müxtəlif modelləri üzərində qurulmuş ABŞ, Norveç, İsveç, Yaponiya, Çin, Hindistan, Türkiyə, habelə başqa ölkələrin inkişaf yolu belə bir müdrik Şərq fikrinin həyatiliyini təsdiq edir ki, «pişiyin dərisinin rənginin qara, yaxud sarı olması vacib deyildir, təki o siçan tuta bilsin».

Təsadüfi deyildir ki, vaxtilə F.Engels xatırlatmışdı: «Hakimiyyətin fəaliyyətinin iqtisadi inkişafına təsirinin 3 istiqaməti mümkündür. ***Birinci halda*** hakimiyyət iqtisadi inkişafla eyni istiqamətdə fəaliyyət göstərə bilər, – onda iş sürətlənər; ***ikinci halda*** hakimiyyət iqtisadi inkişafa əks-təsir edə bilər, – onda həmin hakimiyyət müəyyən vaxt keçdikdən sonra dağılmış olur; ***üçüncü halda*** dövlət hakimiyyəti iqtisadi inkişafa müəyyən istiqamətlərdə maneəçilik göstərib, onu başqa istiqamətlərdə irəllədə bilər».

Ona görə də, müasir mərhələdə iqtisadiyyatın sərbəst bazar prinsipləri əsasında, daxili-xarici bazarın tələblərinə uyğun tarazlı surətdə irəliləyişi üçün aşağıdakı şərtlərə əməl olunmalıdır: *əvvələn*, istehsalın inkişafına yönəldilən iqtisadi resursların həcmi tədricən artırılmalıdır; *sonra*, resursların təkcə kəmiyyəti deyil, eyni zamanda kefiyyəti də yüksək olub, müəyyən standartlara cavab verməlidir; *daha sonra*, texniki tərəqqinin nailiyyətləri və mütərəqqi texnologiyanın üstünlükləri istehsal-xidmət sahələrində tətbiq olunmalıdır; *nəhayət,* indiki iqtisadi intiqrasiya və qloballaşma şəraitində ölkənin istehsal-xidmət sahələrinin beynəlxalq əmək bölgüsü, ixtisaslaşma meyllərinə uyğunlaşması əsasında, xarici ticarət dövriyyəsinin, xüsusilə ixrac məhsullarının artımı təmin olunmalıdır.

Qeyd etmək zəruridir ki, ayrı-ayrı ölkələrin iqtisadi-sosial inkişafı gedişində elə hallar, obyektiv-subyektiv xarakterli müxtəlif səbəblər meydana çıxa bilir ki, bu amillər ümumi yüksəliş, artım templəri üçün müəyyən çətinliklər yaradır. Həmin mənfi cəhətlər sırasında aşağıdakıları göstərmək olar:

a) hökumətin ölkənin real imkanlarını, daxili-xarici bazarın tələbini, əhalinin ehtiyaclarını, habelə həyat səviyyəsi göstəricilərini düzgün nəzərə alıb qiymətləndirməyən iqtisadi-sosial siyasət xətti;
b) müharibə, təbii fəlakətlər, inqilabi hadisələr və sosial sarsıntıların baş verməsi;
c) iqtisadi böhran, işsizlik və inflyasiya prosesləri;
d) əhalinin məşğulluğu və işlə təmin olunmasında onların Konstitusiya hüquqlarının, insan haqqlarının pozularaq, insanların yaş, cins, irq, siyasi-dini əqidə, milli mənsubiyyət, yerliçilik əlamətlərinə görə ayrı-seçgiliyinə (diskriminasiyasına) yol verilməsi, yaxud bu tipli qeyri sivil, antidemokratik üsullardan istifadə edilməsi.

# Mövzu 4. Xalis kapitalizm və gəlirlərin dövr etməsi

**4.1** İqtisadi sistem, onun mahiyyəti və formaları
**4.2** Bazar münasibətləri iqtisadi sistem
   a. Xalis (sərbəst) kapitalizm
   b. İnhisarçı kapitalizm
**4.3** Qeyri-bazar iqtisadi sistemi
   a. Ənənəvi sistem
   b. İnzibati-amirlik sistemi
**4.4** Qarışıq iqtisadi sistem
**4.5** Bazar iqtisadi sisteminin modelləri
**4.6** Resursların və gəlirlərin dövr etməsi

**4.1.** Sistem (system) sözünün yunan dilindən tərcüməsi müxtəlif hissələrdən ibarət olan tam, yaxud bütöv mənasının verir. İqtisadi sistem dedikdə təbiətin, cəmiyyətin və insan fəaliyyətinin qarşılıqlı əlaqəsi, habelə kompleksli surətdə inkişafı başa düşülür. Deməli, iqtisadi sistem təsərrüfat həyatı hadisələrinini və prinsiplərinin inkişafı gedişini özündə əks etdirir. Bu baxımdan iqtisadi sistem konkret hər hansı bir cəmiyyətin istehsal imkanlarına, ölkənin və əhalinin maddi-mənəvi ehtiyaclarının ödənilməsi səviyyəsinə uyğun olmalıdır. Başqa sözlə iqtisadi sistem – cəmiyyət miqyasında iqtisadi əlaqələrin və insanların çoxcəhətli təsərrüfat fəaliyyətinin ümumi nəticəsi olub, bütövlükdə ölkənin, onun əhasilinin maddi-mənəvi tələbatarının dolğun ödənilməsi məqsədinə xidmət edir. Nobel mükafatı laureatı Vasili Leontiyev (ABŞ) iqtisadi sistem anlayışını belə müəyyənləşdirmişdir: «Hər bir ölkənin iqtisadiyyatı – qarşılıqlı əlaqə və asılılıqda çoxsaylı fəaliyyət növlərindən ibarətdir. Bu vahid sistemin hər bir həlqəsi başqasına nə isə (məhsul-xidmət) verməklə, eyni zamanda digərlərindən nə isə almaqla yaşaya bilər». Başqa bir fikrə görə, iqtisadi sistem – cəmiyyətdə baş verən iqtisadi proseslərin, mülkiyyət münasibətləri və hüquqi-təşkilat formaları əsasında həyata keçirilməsidir. İlk baxışda mürəkkəb və qarışıq görünən cəmiyyətin təsərrüfat həyatı, ölkənin iqtisadi sistemi, şübhəsiz müəyyən qaydalar, prinsiplər əsasında təşkil olunaraq idarə edilir. İqtisadi sistem cəmiyyət miqyasında istehsalla istehlakçılar arasındakı əlaqələri müxtəlif formalarda nizamlayıb reallaşdıraraq, ölkənin iqtisadi-sosial inkişafını təmin edir.

Eyni zamanda iqtisadi nəzəriyyədə iqtisadi sistem anlayışına qısa və geniş təriflər də verilir. Qısa tərifə əsasən «cəmiyyətdə başlıca iqtisadi münasibətlər (mülkiyyət) və istehsalın (müəssisələrin, şirkətlərin, birliklərin) təşkilati-hüquqi formaları bazasında yaranmış prosesə *iqtisadi sistem* deyilir. «Geniş tərifə görə «*iqtisadi sistem* – iqtisadiyyatın əsas problemlərinin həllinin təşkili və idarə olunmasına görə mövcud resurslardan (torpaq, kapital, əmək, sahibkarlıq qabiliyyəti) istifadə edərək cəmiyyətin, habelə onun üzvlərinin tələbatlarının ödənilməsi prosesinə deyilir»

Aydındır ki, müxtəlif tarixi dövrlərdə cəmiyyətin ehtiyaclarını və insanların tələbatlarını ödəmək üçün ölkənin iqtisadi resursları, oradakı mülkəyyət (icma, xüsusi, dövlət, korporativ, bələdiyyə, qarışıq) formaları, konkret daxili-xarici vəziyyətin mühüm əhəmiyyəti vardır. Lakin ən qədim dövrlərdən başlayaraq bizim günlərə qədər müxtəlif ictismai-iqtisadi quruluş mərhələləri keçmiş insan cəmiyyəti yaşayıb inkişaf etmək üçün

hökmən müxtəlif təyinatlı məhsul və xidmətləri istehsal etmiş, bunların bölgüsünü həyata keçirmiş, mübadilə etmiş, nəhayət istehlak məqsədi ilə sərf olunmuşdur.

Deməli, bütün iqtisadi sistemlər həmişə «nə istehsal etməli, necə istehsal etməli və kim üçün isitehsal etməli?» problemi ilə bu və ya digər formada qarşılışmışlar. Bu həyatı suallara cavab isə məhdud iqtisadi resurslara cəmiyyətin artan tələbatlarını necə ödəməyin optial yollarını tapmaq istiqamətində axtarılmışdır. Müxtəlif iqtisadi sistemlər bu məqsədi, məhdud iqtisadi resurslardan səmərəli istifadə etməklə, cəmiyyətin və onun üzvlərinin tələbatlarını daha dolğun ödəməklə reallaşdırmağa çalışmışlar.

Hər hansı bir iqtisadi sistemdə – torpaq, əmək, kapital, sahibkarlıq qabiliyyəti kimi istehsal amillərinin qarqşılıqlı əlaqəsi və bir-birini tamamlayan fəaliyyəti əsas şərtdir. İqtisadi sistemin strukturunun (quruluşunun) tərkib hissələri kimi səciyyəldəndirilən bu istehsal amillərinin fasiləsiz hərəkəti və fəaliyyəti, şübhəsiz müəyyən qanunlar, qanunauyğunluqlar, prinsiplər, modellər, (variantlar) əəsasında baş verir. İqtisadi sistemin mahiyyətindən və məqsədindən irəli gələn vəzifəsi, bütövlükdə ölkənin təsərrüfat həyatının normal fəaliyyətinə xidmət göstərmək, əhalinin yaşayış səviyyəsini yüksəltməkdir.

İqtisadi nəzəriyyə (*economics*) elmi, indiyədək bəşər cəmiyyəti tarixində mövcud olmuş iqtisadi sistemləri (onların müxtəlif forma, model, variantları, da daxil edilməklə) 2 böyük qrupa ayrılır. ***Birincisi***, bazar iqtisadi sistemi olub, özündə bu sistemin *xalis bazar* (sərbəst bazar, rəqabət bazarı) və *müasir bazar* (inhisarçı, korporasiya) formalarını, yaxud tiplərini birləşdirir. ***İkinçisi***, qeyri-bazar iqtisadi sistemi adlanıb, özündə *ənənəvi* və *əmrlə idarə ounan inzibati-amirlik* iqtisadi sistemlərini birləşdirir. Törəmə bir forma kimi qarışıq iqtisadi sistemi göstərmək olar.

Ölkənin iqtisadi resursları və siyasi-ictimai quruluşundan asılı olaraq, həm bazar, həm də qeyri-bazar iqtisadi sistemlərinin müxtəlif modelləri mümkündür. Tarixi ardıcıllıq cəhətdən qeyri-bazar iqtisadi sisteminin qədimliyinə baxmayaraq,bazar münasibətləri iqtisadi sisteminin müasir dövr üçün əhəmiyyətini nəzərə alaraq, ilk növbədə onun formalarını nəzərdən keçirmək məqsədəuyğundur.

**4.2.(a)** Xalis (sərbəst rəqabət) bazarı forması XVIII əsrdən meydana çıxaraq, XX yüzilliyin əvvəllərinə qədər davam etmişdir. Bu bazarın fəaliyyətinin səciyyəvi cəhətləri onun tələb-təklif, çoxsaylı alıcıların-satıcıların iştirakı, azad rəqabət, məlumat toplamaq imkanları, qiymətlərin sərbəst formalaşması, dövlətin bazarın işinə qarışmaması, inhisarçılığın olmamasıdır. Sərbəst rəqabət bazarı öz-özünü tənzimləmək mexanizmi əsasında fəaliyyət göstərir, alıcı tələbatlarının ödənilməsinə yönəlmişdir, iqtisadi resursların səmərəli bölgüsünü təmin edir, əmtəə-xidmətlərin, kapitalın, əməyin (iş qüvvəsinin) bir sahədən digərinə hərəkətinə (axınına) şərait yaradır.

Xalis rəqabət bazarının çatışmayan cəhətləri sırasında əhalinin həyat səviyyəfsindəki fərqləri, insanların sosial müdafiəsinin olmamasını, işsizliyi, müflis olmaq hallarını, tədavüldə kifayət qədər pul kütləsinin olmamasını qeyd etmək olar.

Əlbəttə, sözün əsl mənasında sərbəst bazar anlayışı bir qədər mücərrəd səslənir. Çünki əvvəlki dövrlərdə də, xüsusilə müasir şəraitdə bazarın tam sərbəstliyindən və onun fəaliyyətinə dövlətin müdaxilə edib tənzimləməməsindən danışmaq mümkün deyildir. Tənzimlənən bazar, sivil və humanist bir cəmiyyətin inkişafının nəticəsi kimi onun iştirakçısı olan subyektlərin (həm alıcılarn, həm satıcıların) ölkənin ümumi milli mənafeyinə uyğun maraqlarının ifadəçisi, habelə müdafiəçisi vəzifəsini yerinə yetirir.

Dünya ölkələrinin təsərrüfat həyatı təcrübəsi göstərir ki, bu real prosesdə başlıca şərt – konkret vəziyyətin tələblərindən çıxaraq, bazar sərbəstliyi ilə dövlət tənzimlənməsinin hüdudları arasında optimal nisbətlərin müəyyənləşdirilməsidir.

**4.2.(b)** İnhisarçı kapitalizm, yaxud müasir bazar iqtisadiyyat forması XX əsrint əvvəllərindən başlayaraq tədricən azad rəqabəti əvəz edərək, müxtəlif ölkələrin təsərrüfat həyatında mühüm yer tutmuşdur. Bu dəyişiklik və yeni bir mərhələyə keçid, müxtəlif mülkiyyət formalarının istehsal-xidmət dairələrində geniş fəaliyyəti, elmi-texniki tərəqqinin güclü irəliləyişi, istehsal və sosial təyinatlı infrastrukuturunun əhəmiyyətli dərəcədə inkişafı, dünya ölkələri arasında iqtisadi-ticarət əlaqələrinin sürətlə artması ilə bağlı olmuşdur.

İqtisadi-sosial inkişaf sahəsində baş verən köklü kəmiyyət və keyfiyyət dəyişiklikləri bazasında sərbəst rəqabətdən inhisarçı kapitalizm mərhələsinə keçid prossesi, iqtisadiyyatın dövlət tərfəindən tənzimlənməsini bir zərurət kimi irəli sürmüşdür. Çünki yeni şəraitdə bazarda iri kapital və şirkət sahibləri meydana çıxır, bazar tarazlığı pozulur, iqtisadi böhranlar baş verir, inflyasiya prossesləri güclənir. Sərbəst bazar rəqabəti prinsiplərini iri şirkətlərin, korporasiyaların və böyük kapital sahiblərinin «yeni oyun qaydaları» əvəz etdiyindən, iqtisadiyyatın tənzimlənməsi prossesi bu mərhələdə qanunauyğun bir xarakter daşıyır.

Xüsusi mülkiyyətin kiçik fərdi formalarından başlayaraq, onun müxtəlif orta tipli səhmdar cəmiyyətləri, şərikli şirkətlər və ən iri korporativ birliklər, habelə trans milli korporasiya (TMK) formalarına qədər rəngarənglik əsasında fəaliyyət göstərən müasir bazar iqtisadiyyatı (inhisarçı kapitalizm), tədricən öz təsir dairəsini genişləndirməkdədir.

**4.3.(a)** Qeyri-bazar iqtisadi sisteminin ənənəvi formasının mahiyyəti birgə (icma) mülkiyyəti əsasında dini etiqadlara, etik normalara söykənərək təsərrüfat həyatının inkişafıdır. Ənənəvi iqtisadi sistemin səciyyəvi cəhətləri onun ibtidai texniki üsullarla aparılması, əl əməyinin üstünlüyü əsasında təbiətin verdiyi nemətlərin toplanması və qismən emal olunaraq, insanlar tərəfindən istehlak edilməsi idi. Bu sistemdə bütün həlledici iqtisadi problemlər əsrlər boyu davam etmiş icma və tayfaların ənənəvi «dədə-baba» qaydaları ilə həll edilmişdir. Ənənəvi iqtisadi sistemdə təsərrüfat həyatının təşkili və idarəsi məsələləri ağsaqqallar şurasının razılığı, habelə başçıların, rəhbərlərin iradəsi ilə yerinə yetirilmişdir.

Ənənəvi iqtisadi sistem qədim dövrlərdən başlayaraq bəşəriyyətin inkişafının sonrakı mərhələlərində də müəyyən rol oynamışdır. Müasir dövrpdə Asiya, Afrika qitəsinin, Cənubi Amerikanın, Cənub-Şərqi Asiyanın bir sıra ölkələrinin, uzaq dəniz adalarının, hələ də geridə qalmış xalqların təsərrüfat həyatının müəyyən sahələrində ənənəvi iqtisadi sistemin ayrı-ayrı ünsürləri qalmaqdadır. İnkişaf etməkdə olan dövlətlərin, xüsusilə neftlə zəngin olan Ərəb Şərqi ölkələrinin iqtisadi-sosial inkişafında müasir texnika və texnologiyanın nailiyyətlərindən geniş istifadə olunsa da, lakin iqtisadiyyata rəhbərlik vərəsəlik prinsiplərinə tabe edilir, resursların və gəlirlərin bölgüsü səmərəlilik meyarları ilə deyil, ənənələrin tələb etdiyi «sosial ədalət» qaydalarına uyğun həyata keçirilir. Bazar münasibətləri iqtisadi sisteminin formalaşmasından (XVIII əsr) sonra ənənəvi sistemin öz fəaliyyət dairəsini məhdudlaşdırması prossesi davam etməkdədir.

**4.3.(b)** İnzibat-amirlik, yaxud əmrlə idarə olunan iqtisadi sistem keçmiş Sovet İttifaqında, Şərqi Avropa və Asiya qitəsinin bir sıra ölkələrində hökm sürmüşdür. Azərbaycan Respublikası da zorakı işğalçılıq siyasəti nəticəsində 70 il müddətində (1920-1991) Sovet İttifaqının tərkibində inzibati amirlik sistemində olmuşdur. Hazırda Çin Xalq Respublikaı, Şimali Koreya, Kuba Respublikasının təsərrüfat həyatında inzibati-amirlik sisteminin müəyyən üsul və metodlarından qismən istifadə olunmaqdadır.

Bu iqtisadi sistemin ən mühüm cəhəti, onun formal baxımdan ictimai, əslində isə mərkəzləşdirilmiş qaydada dövlət mülkiyyəti üzərində qurulub fəaliyyət göstərməsidir. Qeyd etmək lazımdır ki, inzibati-amirlik sisteminin meydana çıxması, cəmiyyətin təbii-tarixi gedişinin deyil, XX əsrin əvvəllərində bütütn dünyada qərarlaşmağa başlayan bazar iqtisadi münasibətlərinin təkamül yolu ilə inkişafının zoraki vasitələrlə qarşısının alınması ilə bağlı olmuşdur. Hamının bərabərliyi və əhalinin həyat səviyyəsini yüksəltməyi özünün əsas məqsədi, eyni zamanda vəzifəsi elan etmiş inzibati-amirlik sistemi, gündəlik fəaliyyəti, iqtisadi siyasəti, totalitar rejimi, vahid ideologiyası, təkpartiyallılığı ilə həmin prinsipləri mahiyyətcə pozmuşdu.

Vahid mərkəzdən istehsalın planlı sosialist idarəçiliyinə, direktiv göstərişlərlə bölgü prinsiplərinə, istehsalçıların iqtisadi maraq və müstəqilliyinin boğulmasına, ölkənin resurslarından səmərəsiz istifadə olunaraq dünyada kommunizm ideyalarının ağalığına yönəldilməsinə, hərbi sənaye kompleksinin üstün inkişafına əsaslanan bu sistem, dünya kapitalizm aləmi, habelə beynəlxalq bazarın rəqabət mübarizəsinə davam gətirə bilməyərək, 1991-ci ildə iflasa uğradı.

**4.4.** Qarışıq iqtisadi sistem dövlətin və xüsusi bölmənin (şirkətlərin, ev təsərrüfatlarının) ölkənin resurslarından səmərəli istfadə olunması əsasında, istehsal xidmət, bölgü, mübadilə, istehlak mərhələlərində onların əlaqələndirilmiş qarşılıqlı fəaliyyətini əhatə edir. Son dövrlərdə ayrı-ayrı ölkələrin milli iqtisadiyyatında dövlət və xüsusi bölmə ilə yanaşı, eyni zamanda xarici kapital, habelə beynəlxalq işgüzar biznes dairələri də fəal iştirak edirlər.

Bu iqtisadi sistemin ən səciyyəvi cəhəti oundan ibarətdir ki, xüsusi bölmənin istehsal-xidmət dairəsində üstünlüyü şəraitində, dövlətin simasında ölkənin təsərrüfat həyatının bir sıra strateji əhəmiyyət kəsb edən sahələrində inzibati (məcburi) ünsürlərindən istifadə olunur. Belə bir qarışıq iqtisadi fəaliyyət şübhəsiz, müəyyən fərq və nisbət daxilində özünü həm yüksək inkişaf etmiş (ABŞ, İngiltərə, İsveç, Almaniya, Yaponiya), həm inkişaf etməkdə olan (Çin, Hindistan, Birma, Misir), həm də keçid dövrünü yaşayan (Rusiya, Belorus, Ukrayna, Azərbaycan, Özbəkistan) ölkələr qrupunda göstərir. Dünya ölkələrinin keçdiyi iqtisadi-sosial inkişaf yolu, onların resurs imkanları və gələcək yüksəliş perspektivləri qarışıq iqtisadi sistemin formalaşması səviyyəsinə, dövlətin təsərrüfat həyatının inzibati üsullarla tənzimlənməsi prossesinin hüdudlarını müəyyənləşdirir.

Mütəxəsislərin fikrincə, yaxın və uzaq perspektivdə müxtəlif ölkələrdə mülkiyyət rəngarəngliyi təməlində fəaliyyət göstərən qarışıq iqtisadi sistem daha mühüm bir rol oynayacaqdır. Sosial yönümlü bazar iqtisadiyyatı modelinin formalaşmasına real imkanlar yaradan qarışıq iqtisadi sistem, cəmiyyətin sabitliyi, istehsalın səmərəliliyi, əhalinin gəlirlərinin artırılması, xalqın həyat səviyyəsinin yüksəldilməsi istiqamətində daha əlverişli imkanlar açır.

**4.5.** Xüsusi mülkiyyət, tələb-təklif, iqtisadi sərbəstlik, rəqabət mübarizəsi, bazar qiymətlərinin dəyişkənliyi kimi prinsiplər əsasında formalaşıb inkişaf edən bazar münasibətləri iqtisadi sistemi, ayrı-ayrı ölkələrdə müəyyən fərqli xüsusiyyətlər daşıyır. Bu özünəməxsus xüsusiyyətlər isə ölkənin yeraltı-yerüstü təbii sərvətlərindən, iqtisadi resurslarından (torpaq, əmək, kapital, sahibukarlıq qabiliyyəti), coğrafi-strateji mövqeyindən, tarixi inkişaf yolundan, çatdığı sosial-iqtisadi yüksəliş səviyyəsindən, nəhayət əhalinin milli-psixoloji mentalitetindən asılıdır.

Bazar münasibətlərinin, – *liberal, sosisal yönümlü, sosial-demokrat* kimi 3 əsas istiqaməti (meyli, xətti, tipi) dünyanın müxtəlif ölkələrinin təsərrüfat həyatında fəaliyyətidir.

***Liberal istiqamət***, ölkə iqtisadiyyatında xüsusi mülkiyyətin üstün mövqe tutması; bazar iştirakçılarının (subyektlərinin) sərbəstliyinin qanunvericiliklə qorunması; dövlət tənzimlənməsinin məhdud xarakter daşıması; əhalinin bir sıra gündəlik yaşayış problemlərinin həllindən dövlətin təcrid edilməsi; sosial məqsədlərə ayrılan vəsaitin ilk növbədə işsizlərə və əhalinin aztəmintlı təbəqəsinin ehtiyaclarının ödnəilməsinə yönəldilməsi; büdcədən dövlət xətti ilə ayrılan investisiyaların, habelə müxtəlif təyinatlı dövlət orqanları xərclərinin xüsusi çəkisinin aşağı olması meyli ilə səciyyələnir. Bu istiqamətdən və onun müxtəlif ünsürlərindən ayrı-ayrı dövlətlərdə, xüsusilə də yüksək inkişaf etmiş ölkələrdə, o cümlədən də ABŞ, İngiltərə, Fransa, Kanada da istifadə olununr.

***Sosial yönümlü istiqamət***, ölkənin təsərrüfat həyatında dövlət bölməsinin payı az olan qarışıq iqtisadiyyatın geniş fəaliyyəti; dövlət tənzimləməsinin əhatəliliyi; əhalinin bütün təbəqələrinin sosial müdafiəsi və onların pulsuz, yaxud güzəştli şərtlərlə təhsil alması, tibbi xidmətlərdən istifadə etməsi ilə xarakterizə olunur. Bu istiqamət II Dünya müharibəsindən sonra Almaniya Federativ Respublikasında tətbiq edilərək, dağılmış bir ölkənin təsərrüfat həyatının bərpasında və nisbətən qısa müddətdə əhalinin həyat səviyyəsinin əhəmiyyətil dərəcədə yüksəldilməsində mühüm rol oynamışdır. Tanınmış iqtisadiçı və dövlət xadimi L.Erhardın adı ilə bağlı olan sosial yönümlü istiqamət eyni zamanda alman, yaxud neoliberal model adlanır. Bu modelin müxtəlif prinsip və ünsürlərindən ayrı-ayrı ölkələrdə, xüsusilə bazar münasibətləri iqtisadi sisteminə keçid mərhələsində olan ölkələrdə, o cümlədən də Azərbaycan Respublikasında istifadə olunmuşdur.

***Sosial-demokrat istiqamət*** öz mahiyyəti və prinsipləri etibarilə sosial yönümlü bazar iqtisadiyyatına oxşar olsa da, lakin bu modelin özünəməxsus cəhətləri vardır. Həmin xüsusiyyətlərdən ölkənin təsərrüfat həyatında dövlət bölməsinin (mülkiyyətinin) mühüm yer tutmasını; dövlət büdcəsinin əhəmiyyətli rol oynamasını; əmək münasibətlərinin ümummilli və dövlət maraqları səviyyəsində tənzimlənməsini; hökumətin sosial siyasətinin əhalinin bütün təbəqələrinin mənafeyinin nəzərə alınmasını; işsizliyin azaldılması və işçilərin peşə-sənət ixtisaslarının təkmilləşdirilməsi istiqamətindəki tədbirlərin həyata keçirilməsini qeyd etmək olar. Müxtəlif ölkələrin tarixi inkişaf mərhələlərində, məsələn əsasən Skandinaviya dövlətlərində, habelə İspaniya, Yunanıstan, Portuqaliyada bu yoldan istfadə olunsa da, bütün dünyada İsveç modeli kimi məhşurlaşmışdır. Çünki İsveç iqtisadiyyatı bu modelin tətbiqi nəticəsində daha çox uğurlar qazanaraq, sosial-iqtisadi inkişaf səviyyəsinə (iqtisadi inkişaf indeksinə) görə hazırda dünyada ən öndə gedən dövlətlər sırasındadır.

Qeyd etmək lazımdır ki, bazar münasibətləri iqtisadi sisteminin, ayrı-ayrı ölkələrin milli inkişaf xüsusiyyətlərini əks etdirən konkret modelləri (variantları) vardır. Həmin model və variantlar bir-birindən istehsalın təşkilinə, onun maddi-texniki bazasına, təbii sərvətlərinə, iqtisadi resurs imkanlarına, qarşılaşdıqları sosial-iqtisadi problemlərə, əhalinin psixoloji durumuna, ümumi mədəni inkişaf səviyyəsinə görə fərqlənir. Bu konkret iqtisadi-sosial modellərinin bir neçəsini nəzərdən keçirək:

***Amerika modeli,*** ölkədə işgüzar sahibkarlıq meyllərinin gücləndirilməsi, onun müxtəlif vasitələrlə həvəsləndirilməsi, əhalinin daha fəal, təşəbbüskar təbəqəsinin varlanması üçün real imkanlar yaradılması prinsipinə əsaslanır. ABŞ-da belə bir qayda hökm sürür ki, «özün yaşa və başqalarının da yaşamasına imkan yarat». Ölkə əhalisinin aztəminatlı hissəsinin (təxminən 8-12%) müəyyən güzəştlər almasına baxmayaraq, bütövlükdə onların sosial bərabərliyi məsələsi bir məqsəd kimi qarşıya qoyulmur. Bu modelin əsasını, dövlətin iqtisadiyyatı düşünülmüş tənzimləməsi və ölkənin təsərrüfat həyatının sərbəst sahibkarlıq fəaliyyəti təməlində qurulması, əmək məhsuldarlığının yüksəldilməsinə, insanların şəxsi uğur qazanmaq yolunda çalışqanlıq səylərinin artırılmasına əlverişli şərait yaratması təşkil edir. Son 100 il ərzində ABŞ iqtisadiyyatının qazandığı uğurlar onun nəhəng təsərrüfat həyatının ayrı-ayrı bölmələrində müəyyən çətinlik və nöqsanların meydana çıxmasına baxmayaraq, bazar iqtisadi sisteminin konkret milli timsalı olan Amerika modelinin optimallığını təsdiq edir.

***İsveç modeli,*** ilk növbədə ölkənin milli gəlirinin əhalinin aztəminatlı təbəqəsinin xeyrinə yenidən bölgüsü hesabına həyata keçirilən güclü sosial siyasət ilə fərqlənir. İsveçdə əsas fondların cəmi 4%-nin dövlətin əlində olmasına baxmayaraq, dövlətin büdcə və digər xərcləri onun ümumidaxili məhsulunun (ÜDM) həcminin yarıdan çoxunu ötür. Əsasən əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəldilən bu vəsait, başqa ölkələrlə müqayisədə burada vergilərin daha böyük rol oynaması və sanballı həcmi ilə bağlıdır. İsveç modelinə əsasən, butövlükdə cəmiyyətin istehsal-xidmət təyinatlı müxtəlif vəzifələrini bazar prinsiplərinə uyğun fəaliyyət göstərən xüsusi müəssisələr (şirkətlər, iri birliklər), sosial vəzifələrini isə dövlət və onun müvafiq orqanları yerinə yetirməlidirlər.

***Alman modeli,*** xırda və orta sahibkarlığa, bu tipli şirkətlərə, onların inkişafına hərtərəfli dövlət qayğısı göstərməklə seçilir. Bu model Almaniyada XX əsrin 30-cu illərindən başlayaraq, iri inhisarların fəaliyyətinin məhdudlaşdırılmasından sonra ölkənin sabit inkişafını təmin etmək üçün xırda və orta sahibkarlığa daha əlverişli şərait yaratmaq siyasəti ilə bağlı olmuşdur. Dövlət qiymət və gömrük tarifləri siyasəti vasitəsilə ölkədəki iqtisadi tarazlığı tənzimləmək, orta-xırda müəssisələrə-şirkətlərə (mittelştandlara) öz təsərrüfat fəaliyyətlərini daha əlverişli bir iqtisadi mühitdə aparmağa imkan yaratmışdır. II dünya müharibəsindən sonra daha da təkmilləşdirilərək, sosial yönümlü inkişafa istiqamətləndirilmiş alman modeli, məğlub bir ölkənin təsərrüfat həyatını tezliklə bərpa edərək, dünyanın yüksək inkişaf etmiş dövlətləri sırasına çıxarmışdır.

***Avstriya modeli,*** xüsusi sahibkarlığa və işgüzar biznes fəaliyyətinə geniş imkanlar yaratmaq, habelə xarici investorlara əlverişli fəaliyyət mühiti təmin etməklə səciyyələnir. Ölkənin təbii sərvətlərinin və iqtisadi resurslarının məhdudluğu, onun keçdiyi tarixi inkişaf yolunun özünəməxsus xüsusiyyətləri burada geniş beynəlxalq turizm şəbəkəsinin, istirahət-müalicə ocaqlarının yaradılmasını şərtləndirmişdir. Dövlətin başlıca vəzifəsi isə xüsusi sahibkarlıq əsasında fəaliyyət göstərən ölkənin təsərrüfat həyatının iqtisadi tənzimlənməsi

proseslərinə nəzarəti həyata keçirməkdir. Ümumiyyətlə Qərbi Avropa ölkələrinin iqtisadi sistemi «sosial yönümlü bazar» kimi səciyyələndiyindən, ABŞ vəYaponiyada özünü daha qabarıq formalarda göstərən şəxsi fərdiyyətçilik prinsiplərini. Avropa dövlətlərində fərdiyyətçiliklə yanaşı, eyni zamanda həmrəyliyin (iş birliyinin, birgə fəaliyyətin) optimal tarazlı nisbəti əvəz etmişdir.

***Yapon modeli,*** vaxtilə «qapalı» xarakter daşıyan təssərüfat həyatının tədricən liberallaşdırılması və «açıq iqtisadiyyat» yolu ilə irəliləyərək, müasir dünya təsərrüfatına qovuşması, onun tərkib hissəsinə çevrilməsi ilə səciyyələnir. Ölkənin təsərrüfat modelinin ən mühüm cəhətlərindən biri, onun uzunmüddətli və şərikli iqtisadi əlaqələr əsasında formalaşaraq, qarşılıqlı inam prinsiplərinə uyğun fəaliyyət göstərməsidir. Qərbi Avropa ölkələrindən fərqli olaraq, Yaponiya iqtisadiyyatında dövlət bölməsiini rolunun məhdudluğu və hərbi xərclərin onun ümumi daxili məhsulunda (ÜDM) 1%-i ötməməsi, əhalinin gəlirlərinin 18-20%-nin yığım kimi banklarda toplanması, şübhəsiz ölkə iqtisadiyyatının davamlı inkişafını təmin edən amillərdir. Eyni zamanda bu model, yüksək əmək məhsuldarlığına, strateji planlaşdırma ünsürlərindən istifadəyə, milli iqtisadiyyatın ümumi inkişaf göstəricilərinin əlaqələndirilməsinə əsaslanır. Ölkədə əmək haqqının artım tempinin əmək məhsuldarlığının artım sürətindən aşağı olması və bu göstəricəyə görə Yaponiyanın digər yüksək inkişaf etmiş dövlətlərindən geri qalması düşünülmüş bir addım olub, obyektiv-subyektiv səbəblərlə bağlıdır. Yaponiyanın təbii sərvətlərinin, xüsusilə yanacaq-enerji mənbələrinin son dərəcə məhdud olmasına baxmayaraq, dünya bazarında rəqabət qabiliyyətini qoruyub saxlamaq üçün ixrac olunan müxtəlif təyinatlı məhsulların qiymətinin nisbətən ucuz olması, zərurətdən irəli gəlir. Belə bir taktika isə yeni dizayn və zövq xüsusiyyətlərinə malik yapon məhsullarının ixracını getdikcə artırır, onların dünya bazarında mövqeyini gücləndirir. Bu mənada yapon modeli müəyyən qurbanlar tələb edərək, olkənin ümumi strateji və milli mənafeyini daha üstün tutumaq prinsipinə əsaslanır. Yapon dövləti özünün vergi, gömrük, büdcə siyasəti ilə iqtisadiyyatın tənzimlənməsi, xüsusilə onun ən yeni texnika və texnologiyalar əsasında qurulmasının başlanğıc mərhələsində, olduqca fəal bir rol oynayır.

***Çin modeli,*** ölkədə ardıcıl mərhələlərələ aparılan sistemli iqtisadi islahatların uğurlu nəticəsi kimi formalaşmışdır. Ölkənin keçdiyi özünəməxsus tarixi inkişaf yolunun xüsusiyyətlərini, xalqın mənəvi-psixoloji mentalitet dəyərlərini hərtərəfli nəzərə alan Çin modeli, bütün dünyada öz tarazlığı ilə böyük maraq doğurur. Ölkənin siyasi sisteminin, ideoloji kursunun, Kommunist Partiyasının rəhbər rolunun, sosializm cəmiyyəti qurmağın son məqsəd olduğunun əslində dəyişmədiyi bir şəraitdə, təsərrüfat həyatının bazar münasibətləri iqtisadi sisteminin prinsiplərinə uyğunlaşdırılması yolunda ciddi addımlar atılmış və sanballı nailiyyətlər qazanılmışdır.

Çin Xalq Respublikasının iqtisadiyyatında aparılmış təkamül xarakterli struktur (quruluş) dəyişiklikləri, qiymət mexanizminin, xarici ticarətin, inflyasiyanın, bank sisteminin tənzimlənməsi və təkmilləşdilməsi tədbirləri imkan vermişdir ki, ölkə keçid dövrünün bir sıra ağrılı problemlərindən, o cümlədən istehsalın sürətlə aşağa düşməsindən yan keçə bilsin. Çin modeli, bazar iqtisadi sisteminin müxtəlif təsərrüfatçılıq formalarından istifadə etmək üçün geniş imkanlar yaratmaqla yanaşı, eyni zamanda bu formalar özünü real həyatda doğrultmadıqda, onların başqaları ilə əvəz olunmasını həvəsləndirir, hətta əvvəlki formalara qayıtmağa yol verir. Yeni təsərrüfatçılıq formaları ilk növbədə ayrı-ayrı

müəssisələrdə sınaqdan keçirilir, onların səmərəliliyi təcrübədə təsdiq olunduqdan sonra, bu formaların tədricən qrup müəssisələrdə, sahələrdə, regionlarda reallaşdırılır.

Ölkənin təsərrüfat həyatında dövlət mülkiyyətinin aparıcı rolu və dövlət tənzimlənməsi prinsiplərindən geniş istifadə olunmaqla yanaşı, eyni zamanda xırda-orta sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara, xüsusilə xarici iş adamlarına, başqa ölkələrdən, habelə beynəlxalq bank-maliyyə təşkilatlarından iri həcmli investisiyaların müxtəlif istehsal xidmət sahələrinə cəlb olunmasına maksimum əlverişli şərait yaradılmışdır.

Çin modelində, dünya təcrübəsində geniş yayılmış sərbəst iqtisadi zonaların ölkənin tələblərinə və özünəməxsus xüsusiyyətlərinə daha uyğun formalarının yaradılıb fəaliyyət göstərməsinə böyük diqqət yetirilmişdir. Çinin dəniz sahili boyu yerləşən ərazilərdə sərbəst (xüsusi) iqtisadi zonaların təşkili, bu yerlərdə ixrac istiqamətli kənd təsərrüfatının, sənayevnin, maliyyə-bank qurumlarının, turizmin inkişafına güclü təkan vermiş və ölkənin valyuta ehtiyatlarının artmasına səbəb olmuşdur. Güzəştli şərtlər əsasında bu zonalarda xarici investorların işgüzar fəaliyyəti, sonralar ölkənin digər rayonlarında uğurla davam etdirilmişdir. Nisbətən qısa tarixli bir dövr ərzində təsərufat həyatının müxtəlif sahələrində qazanılmış nailiyyətlər, Çin modelinin ölkənin özünəməxsus cəhətləri ilə seçilən reallığı üçün əhəmiyyəti ilə yanaşı, eyni zamanda başqa ölkələrə, xüsusilə də Şərq dövlətlərinə müəyyən mənada nümunə ola biləcəyi şübəsizdir.

***Cənubi Kareya modeli,*** mahiyyət etibarilə Yapon modelinin bir variantı olsa da, burada bazar münasibətlərinin nisbətən zəif inkişafı, höküməti məqsədyönlü surətdə «Çebol» adlanan iri korporasiyalar təşkil etməyə istiqamətlənmişdir. Bu korporasiyalar ölkədə formalaşmış maliyyə-sənaye quruplarının bazası kimi bazar iqtisadiyyatının daha da inkişaf etdirilməsində mühüm rol oynamalıdırlar.

Bu model əhalinin milli-psixoloji xususiyyətlərinə, insanların intizam hissi və zəhmətsevərlik səylərinə, tapşırılan işə ciddi məsuliyyətlə yanaşmaları ilə fərqlənir. Dini, milli ənənələrin müasir iş üsulları ilə uğurlu əlaqələndirilməsi, şübhəsiz modelin daha səmərəli nəticələr verməsini təmin edir. Eyni zamanda Cənubi Koreya modeli iqtisadiyyatın yeniləşdirilməsi, ixrac edilən muxtəlif məhsulların rəqabət qabliyyətinin yüksəldilməsi, vergi, gömrük, valyuta siyasəti, xırda-orta biznesin fəliyyətinin tənzimlənməsini nəzərdə tutur.

**4.6.** Müasir dünyanın təsərufat sistemi, əsasən bazar iqtisadi münasibətləri (mülkiyyət, şəxsi maraq, azad sahibkarlıq fəaliyyəti, bazar rəqabəti, sərbəst qiymətələr) və «nə istehsal etməli, nə qədər və necə istehsal etməli, kim üçün istehsal etməli» prinsipləri üzərində qurulduğundan, onun iştirakçılarının (subyektlərin) qarşılıqlı əlaqəli fəliyyətlərini aydınlaşdırmaq zəruridir.

Bazar iqtisadi münasibətləri sistemində dövlətin xarici ticarət əlaqələrində rolunu unutmamaq şərtiylə burada 2 əsas qrup – *ev təsərrüfatları və şirkətlər* həlledici qərarlar qəbul edirlər. Ona görə də burada iki bazar. iqtisadi resurslar (torpaq, əmək, kapital, sahibkarlvq qabiliyyəti) və məhsullar-xidmətlər bazarı fəaliyyət göstərir. Başqa sözlə ev təsərrüfatları istehsal amillərini sataraq, özləri üçün lazım olan məhsulları və xidmətləri alırlar. Şirkətlər isə istehsal etdikləri məhsulları-xidmətləri reallaşdıraraq, öz fəaliyyətləri üçün lazım olan şeyləri alırlar.

Bazar iqtisadiyyatı şəraitində ölkənin təsərrüfat həyatının bir tərəfində onu iqtisadi resurslara təmin edənlər – ev təsərrüfatları (istehsal amilləri isehsalçıları, ailələr, insanlar)

durur. Digər tərəfdə isə bu iqtisadi resurslar əsasında müxtəlif təyinatlı məhsullar istehsal edən və xidmətlər göstərən şirkətlər, birliklər, korporasiyalar, transmilli korporasiyalar (TMK-lar) dayanır. Deməli resurslar bazarında həmin resursların sahibləri (ev təsərrüfatları) satıcı rolunda çıxış edirlər, şirkətlər isə alıcı rolunu oynayırlar. Hazır məhsullar bazarında əks prosseslər baş verir: şirkətlər istehsal etdikləri əmtəələri-xidmətləri satırlar; ev təsərrüfatları isə həmin məhsulları alır və xidmətlərdən faydalanırlar. Deməli, resurslar şirkətlərə keçir və pul isə şirkətlərdən resursların sahiblərinə çatır.

Bəs sonra nə baş verir? Aydındır ki, müəyyən məbləğ pul əldə etmiş bazar iştirvkçıları, yəni fasiləsiz surətdə gah alıcı, gah da satıcı rolunu oynayan ev təsərrüfatları və şirkətlər bu pulu həm istehsal, həm də istehlak məqsədlərinə sərf edəcəklər.

Bu mənada, cəmiyyətin çoxsahəli təsərrüfat həyatında *resursların, hazır məhsulların və onların reallaşdırılmasından əldə olunmuş pul gəlirlərinin (kapitalın) hərəkəti, dövr etməsi baş verir*. Dövlətin iqtisadi tənzimlənməsi tədbirləri və xarici ticarət əlaqələrinin təsiri altında davam edən bu mürəkkəb qarşılıqlı hərəkəti ev təsərrüfatları ilə şirkətlərin timsalında, – resursların və hazır məhsulların, habelə onların pul gəlirlərinin dövr etməsi prosesini, qrafik sxem şəkilində aşağıdakı kimi təsvir etmək olar:

***Resursların, hazır məhsulların və pul gəlirlərinin dövr etməsi***




İqtisadi resursların, istehsal olunmuş məhsulların, göstərilmiş xidmətlərin və əldə edilmiş pul gəlirlərinin fasiləsiz hərəkət axını, dövr etməsini əks etdirən bu sxemdən aydın olur ki, ölkənin çoxsahəli təsərrüfat həyatında iqtisadi resursların hərəkəti saat əqrəbinin əksi istiqamətində pul gəlirləri, habelə istehlakçıların xərclərinin hərəkəti isə saat əqrəbi istiqamətində davam edir.

Müasir bazar iqtisadi münasibətləri şəraitində, təsərrüfat həyatının subyektlərindən (iştirakçılarından) biri kimi *ailə* yaxud ümumiləşdirilmiş şəkildə *ev təsərrüfatının* milli iqtisadiyyatda rolu xeyli artmışdır. Ailə (ev təsərrüfatı) «xüsusi şirkət» olub, həm məhsul-xidmətlərin, iş qüvvəsinin və kapitalın istehsal, habelə təkrar istehsalçısı; həm də iqtisadi resursları sərf edən və xərclər çəkən bir **təsərrüfat vahididir**. Bu şoxsaylı təsərrüfatlar bazarda fasiləsiz surətdə gah *alıcı*, gah da *satıcı* rolunda çıxış edərək, özlərinin konkret

tələblərini daha dolğun surətdə ödəməklə yanaşı, eyni zamanda müxtəlif istehsal amillərinin (əsas iş qüvvəsinin, yaxud «insan kapilanın») sahibidirlər.

Bazar münasibətləri iqtisadi sistemi subyektlərinin, yəni ev təsərrüfatlarının, müəssisələrin (şirkətlərin), bankların (maliyyə-kredit qurumlarının), dəvlət orqanlarının 4 qrupa ayrılmış iştirakçıları timsalında, onların qarşılıqlı münasibət və əlaqələrini aşağıdakı sxemdən görmək olar:

**Bazar təsərrüfatının subyektləri**




Bu sxemdən göründüyü kimi 4 əsas bazar subyektinin qarşılıqlı əlaqələri, bir-biri ilə bağlılığı və təsiiri bütövlükdə bazar münasibətlərinin müxtəlif çətinlik, vaxtaşırı ziddiyyətlərlə rastlaşmasına baxmayaraq, hələlik iqtisadi sistemin fəaliyyətini təmin edir.

# Mövzu 5. Fərdi bazarların təhlilli: tələb və təklif

**5.1** Bazarın mahiyyəti və formaları
**5.2** Tələb və tələb qanunu
**5.3** Təklif və təklif qanunu
**5.4** Tələb və təklifin bazar tarazlığı
**5.5** Tələb və təklifin dəyişmə meylləri dinamikası (elastikliyi)

**5.1.** Bazar bəşəriyyətin od, çörək, təqvim, kompas, pul, əlifba, kitab nəşri kimi kəşflərdən biri olub, alıcılarla satıcıların görüş yeri, mübadilə məkanı və rəqabət meydanı kimi formalaşmışdır. Təxminən 10 min illik bir tarixi olan bazarın yaranıb təkmilləşməsi, cəmiyyətdə ictimai əmək bölgüsünün genişlənməsi, əmtəə-pul münasibətlərinin inkişaf etməsi, insanların tələbatlarının getdikcə artması ilə bağlıdır. Bazar və onun fəaliyyət mexanizmi, cəmiyyətin müxtəlif təyinatlı əmtəələrə – xidmətlərə olan ehtiyaclarının «nə istehsal etməli, kim üçün istehsal etməli» prinsipi, habelə səmərəlik meyarları əsasında ödənilməsunə yönəldilmişdir. Bazar məlumat, vasitəçi, qiymət yaranma, tənzimləyici və təmizləyici kimi vəzifələri yerinə yetirir.

Bazarın ***obyektlərinə*** əmtəə-xidmətlər bazarı, əmək bazarı, kapital bazarı, qiymətli kağızlar bazarı və sairə daxildir. Bazarın ***subyektlərinə*** (iştirakçılarına) isə sahibkarlar, şirkətlər, inhisarlar, alıcılar, satıcılar, orada çalışan işçilər, xidmətçilər, müxtəlif dövlət idarətmə orqanları aid edilir.

İctimai əmək bölgüsünə görə yerli (lokal), regional, milli, dünya (beynılxalq) bazarlar vardır. Əmtəə və xidmətlərin mübadiləsinə görə topdansatış, pərakəndə, ixrac, idxal bazarları fəaliyyət göstərir. Qanunvericilik normalarına uyğun olaraq müxtəlif ölkələrdə leqal (açıq, icazə verilmiş) bazarla yanaşı, eyni zamanda qeyri-leqal («qara», «boz») bazara da rast gəlinir.

Bazar anlayışının tarixi inkişafı və təkamülu yolu onun aşağıdakı formaları (tipləri) olduğunu göstərir:

**a)** ***İnkişaf etməmiş bazar,*** ilk elə bir formadır ki, burada alıcılarla satıcılar arasındakı iqtisadi münasibətlər təsadüfi xarakter daşıyır. Bu tipli bazarda məhsulların birinin digərinə dəyişdirilməsinə, barter əlaqələrinə, natural mübadiləyə daha çox üstünlük verilir. Cəmiyyətdə əmək bölgüsünün geniş yayılmadığı, əmtəə-pul münasibətlərinin zəif inkişaf etdiyi, xarici ticarət əlaqələrinin məhdud xarakter daşıdığı şəraitdə, inkişaf etməmiş bazar forması, o dövrün tələbərinə uyğun olaraq, öz tarixi rolunu əsrlər boyu uğurla yerinə yetirmişdir. Hazırda da bir sıra zəif inkişaf etmiş ölkələrdə, ucqar ərazilərdə, uzaq adalarda, yaxud müharibə, iqtisadi blokada vəziyyətində olan dövlətlərdə inkişaf etməmiş bazar formasından istifadə olunur.

**b)** ***Azad (klassik, sərbəst, rəqabət)*** bazarının səciyyəvi xüsusiyyəti, həmin formada istər satıcıların, istərsə də alıcıların sayı qeyri-məhduddur. Bu tip bazarda tələb və təklifin hərəkətverici qüvvəsi sayılan rəqabət mübarizəsi hökm sürdüyündən, həmin amil məhsulların istehsal həcminə, keyfiyyət göstəricilərinə, qiymətinə, ticarət xidməti səviyyəsinə müsbət təsir göstərir. Azad rəqabət bazarı formasında inhisarçılığa, inzibati əngəllərə, iqtisadi maneələrə prinsip etibarilə yer yoxdur.

**c)** ***Tənzimlənən bazar forması,*** müasir bazar münasibətləri iqtisadi sisteminin bərqərar olduğu yüksək inkişaf etmiş, qanun və səmərəlilik prinsiplərinin ali sayıldığı sivil cəmiyyətlərdə fəaliyyət göstərir. Dövlət və onun müxtəlif idarəetmə orqanları konkret vəziyyətin hərtərəfli təhlilinə əsaslanaraq, elə düşünülmüş tədbirlər sistemi işləyib hazırlayırlar ki, bunların tətbiqi ölkənin təsərrüfat həyatını tənzimləyir. Bu kompleks iqtisadi-inzibati tədbirlər sistemi ölkənin vergi gömrük, pul-kredit, xarici ticarət siyasətinin ümummilli mənafe və təhlükəsizlik baxımından qoruyub tənzimləyir. Aydındır ki, dövlətin iqtisadiyyatı tənzimlənməsi siyasəti müəyyən optimal hüdudlar və uyğun ədalət-səmərəlilik müstəvisində həyata keçirilərək, istehsalçıların sərbəstliyini, istehlakçıların isə seçim qərarını pozmamalıdır. Dövlət orqanlarının ölkənin təsərrüfat həyatını təmizləməsi prosesi son nəticə etibarilə bütövlükdə iqtisadiiyyatın yüksəlişinə xidmət etməlidir və heç vaxt unudulmamalıdır ki, «bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da» (Nizami).

**ç)** ***Mərkəzləşdirilmiş*** (əmrlə idarə olunan, inzibati-amirlik, dövlətin iqtisadiyyata hədsiz müdaxiləsi) bazar formasının acınacaqlı sosial-iqtisadi nəticələrini, keçmiş Sovet İttifaqı və sosialist ölkələrinin nümunəsi aydın göstərir. Bu tipli iqtisadiyyatın son dərəcədə mərkəzləşdirilərək, dövlət mülkiyyəti əsasında qurulması; xüsusi mülkiyyət əsasında sərbəst sahibkarlıq – biznes fəaliyyətinə yol verilməməsi; iqtisadi inkişafın əsasən ekstensiv yollarla aparılması; əhalinin həyat səviyyəsinin dünya standartlarından kəsgin surətdə geridə qalması; ölkənin iqtisadi resurslarının hərbi xərclərə, kommunizm ideyalarının təbliğinə yönəldilməsi; planlı sosialist iqtisadiyyatının qapalı xarakter daşıması və dünya bazarında kəsginləşən rəqabət mübarizəsinə davam gətirə bilməməsi, onun iflasına səbəb oldu.

**d)** ***Qarışıq bazar,*** xüsusi mülkiyyət əsasında sahibkarların, işgüzar biznes adamlarının, dövlət bölməsinin, xarici kapitalın optimal nisbətlər və maksimum səmərəlilik prinsipləri əsasında fəaliyyət formasıdır. Dünya təsərrüfat həyatı təcrübəsi göstərir ki, tədricən bu forma aparıcı rol oynayır.

Alim və mütəxəssislərin fikrincə, dövlət bölməsi ilə xüsusi (özəl) bölmənin ölkənin təsərrüfat həyatının müxtəlif istiqamətlərində birgə səyləri «güclü iqtisadiyyat yaradır, insanlara rahatlıq gətirir, onların ləyaqətini qoruyur və şəxsi azadlıqlarını təmin edir». Eyni zamanda «tam sərbəst bazar əslində bir növ xaos, qarışıqlıq, nizamsızlıq yaradır... Bazar münasibətlərinə dövlətin həddsiz qarışması da istənilən nəticələri vermir». Ona görə də xüsusi və dövlət, habelə xarici kapitalın optimal nisbətlərinə əsaslanan qarışıq iqtisadiyyat, bu təməldə formalaşan qarışıq bazar, müasir dövrdə özünü daha çox doğruldur.

Təbii olaraq belə bir sual qarşıya çıxa bilər ki, bazar iqtisadiyyatının üstün və nöqsan, çatışmayan cəhətləri hansılardır?

Cəmiyyətdə bazar münasibətlərinin formalaşması sırf iqtisadi məsələ olmayıb, həm də ictimai, siyasi, əxlaqi dəyərlərlə bağlı mürəkkəb bir prosesdir. Onun üstün cəhətləri kimi xüsusi mülkiyyətə, sərbəst sahibkarlıq fəaliyyətinə, insanların təşəbbüskarlığına geniş imkanlar açdığını, bazarda rəqabət yaratdığını, məhsul və xidmətlərin keyfiyyətini yüksəltdiyini, iqtisadi artımı təmin etdiyini göstərmək olur.

Eyni zamanda bazar münasibətləri iqtisadi sisteminə xas olan sosial ədalətsizlik, işsizlik, inflyasiya, yoxsulluq, əxlaq və milli mentalitetə uyğun olmayan meyllər, ictimai əhəmiyyət kəsb edən sahələrə – elmə, təhsilə, səhiyyəyə, mədəniyyətə, incəsənətə lazımı

qayğı göstərilməməsi kimi faktlar danılmazdır. Lakin bütün bu çatışmayan cəhətlərə baxmayaraq, bazar münasibətləri iqtisadi sistemi, hələlik bəşəriyyətin kəşf etdiyi və təcrübədə sınaqdan keçirərək, yaşayıb fəaliyyət göstərdiyi ən optimal bir modeldir.

**5.2.** İnsanlar həmişə və müxtəlif cəmiyyətlərdə müəyyən tələblər, ehtiyaclar dairəsində yaşamışlar. İqtisadi kateqoriya kimi tələb – bazar mexanizminin əsas ünsürlərindən biri olub, alıcının müəyyən dövr ərzində hər hansı bir əmtəədən, xidmətdən müəyyən qiymətə və miqdarda əldə etmək imkanıdır. Həmin tələblər fiziki (yemək, paltar, mənzil), sosial (iş, təqaüd, pensiya), ictimai (vəzifə, mövqe), mədəni (tamaşa, əyləncə, konsert), intelektual (təhsil, dünyagörüşü) istiqamətlərdə öz ifadəsini taparaq, ödənilməsini irəli sürür.

Şübhəsiz ayrı-ayrı şəxslərin, ailələrin, kollektivlərin, nəhayət bütövlükdə cəmiyyətin ***tələbləri*** ilə ***tələbatlarını*** fərqləndirmək lazımdır. Tələbat kateqoriyası daha geniş və əhatəli, həm də çoxcəhətli bir anlayışdır. İnsanların və cəmiyyətin tələbatları durmadan artdığından, həmin tələbatlar təbii olaraq sonsuzdur.

Tələbə gəldikdə isə o iqtisadi kateqoriya kimi real imkanlarla bağlı olub, pulla ifadə olunan və pulla da məhdudlaşan konkret tələbatdır. Əgər tələbatı dairə kimi təsəvvür etsək, onda tələb bu dairənin yalnız müəyyən bir hissəsini əhatə edəcəkdir. Tələbin arxasında pul, maddi imkan dayanmırsa, o xəyal və boş arzu olaraq qalacaqdır. Buna görə də, iqtisadi nəzəriyyədə ödəniş qabiliyyətili yaxud tədiyə qabiliyyətili tələb anlayışından geniş istifadə olunur. Ödəniş qabiliyyətli tələb əmtəələrin alınmasına və xidmətlərin göstərilməsinə sərf olunmuş müəyyən pul məbləğidir. Faydalılıq, səmərəlilik, seçim, xərclər kimi cəhətləri özündə birləşdirən tələb – istehsalın canı və bazar iqtisadiyyatının qanunudur.

Tələb qanununa əsasən, başqa şərtlər dəyişməz qaldıqda, bazarda qiymətlərin aşağı düşməsi tələbi artırır. Əksinə, digər şərtlər (gəlirlər, məhsulun keyfiyyəti, alıcıların zövqü, ailənin tərkibi və sair) dəyişməz qaldıqda, bazarda qiymətlərin artması, uyğun surətdə tələbin aşağı düşməsinə səbəb olacaqdır. Başqa sözlə, müxtəlif təyinatlı məhsulların və göstərilən xidmətlərin qiymətləri ucuzlaşdıqda, onlara olan tələbat çoxalır, satış həcmi artır. Əmtəə və xidmətlərin qiymətlərinin artması meyli, onlara olan tələbi nisbətən zəiflədəcək, satış həcmi aşağı düşəcəkdir. Deməli əmtəələrin – xidmətlərin qiymətləri ilə onlara yaranan tələb arasında tərs mütanasiblik (nisbət) vardır. Məsələn, bazarda müxtəlif məhsullara, konkret olaraq balıq məhsullarına olan tələblə qiymət arasındakı asılılığı aşağıdakı cədvəldən görmək olar.

| Balıq məhsullarının 1kq-nın qiyməti (manatla, dollarla) | Alıcı tələbi həcmi (tonla) |
|---|---|
| 0,5 | 15 |
| 1 | 12 |
| 2 | 9 |
| 3 | 6 |
| 4 | 3 |
| 5 | 0 |

Cədvəldən aydın olur ki, bazarda balıq məhsullarına formalaşan qiymətlərin təsiri altında alıcı tələbi və satış həcmi xeyli dəyişəcəkdir. Bu qanun öz təsirini taxıl, neft, avtomobil bazarında da göstərəcəkdir.

Qiymət amilindən asılı olaraq, tələbin necə dəyişdiyini qrafik şəkildə aşağıdakı sxemdən görmək mümkündür. Bu qrafikdən aydın olur ki, qiymətdən asılı olaraq tələb xətti, yaxud əyrisi tərs mütanasiblik əsasında dəyişəcəkdir.




**5.3.** Təklif dedikdə, müəyyən bir vaxt ərzində bazarda olan, yaxud bazara çıxarıla bilən hazır əmtəələrin – xidmətlərin həm miqdar (kəmiyyət), həm də pul (dəyər) ifadəsində həcmi nəzərdə tutulur. Təklif bazarın maddi əsası olub, istehlakçıların (alıcıların) müxtəlif təyinatlı maddi və mənəvi tələbatlarının ödənilməsinin mənbəyidir. Təklif eyni zamanda istehsala, onun maddi-texniki bazasının yenidən qurulmasına, məhsul buraxılışı həcminin genişlənməsinə, alıcıların zövqünün formalaşmasına güclü təsir göstərir.

Təklif qanunu, iqtisadi resursların istehlakçılarının müəyyən bir vaxt ərzində, müəyyən qiymətə bazara müəyyən məhsulları çıxarmaq arzusu və imkanıdır. Deməli, təklif qanunu müəyyən bir dövr ərzində, əmtəələrin-xidmətlərin miqdarı (həcmi) ilə onların qiymətləri arasında düz mütanasiblik (nisbət) olduğunu göstərir. Nümunə kimi dünya taxıl, ərzaq, yanacaq bazarında formalaşan qiymətlərin onun təklifinə (satışına) necə təsir etdiyini aşağıdakı cədvəldən görmək olar.

Cədvəldən aydın olur ki, bazarda taxıl məhsullarına olan qiymət yüksəldikcə, istehlakçılar bazara daha çox məhsul çıxarmaqda maraqlı olacaqlar.

| 1 ton taxıl qiyməti (dollarla) | Təklifin həcmi (min ton) |
|---|---|
| 200 | 600 |
| 150 | 500 |
| 100 | 350 |
| 80 | 200 |
| 60 | 50 |

Əmtəə-xidmətlərin qiymətləri ilə onların təklifi arasında olan düz mütanasibliyi (asılılığı) qrafik şəkildə aşağıdakı kimi göstərmək olar:

Bu qrafikdən aydın olur ki, bazarda taxıl məhsullarının, eyni zamanda digər əmtəə-xidmətlərin qiymətlərinin artması meyli, istehsalçıların maraqlarına cavab verdiyindən, onları həvəsləndirərək, öz fəaliyyətlərini daha da genişləndirməyə real şərait yaradacaqdır.

Bazarda tələb və tıklifin formalaşmasına 2 qrup amil təsir göstərir. Bunlardan ***birincisi*** qiymət, ***ikincisi*** isə qeyri-qiymət, yəni bilavasitə qiymətlə bağlı olmayan amillərdir. Qiymət amili həm tələbə, həm də təklifə əsas təsir göstərir. Lakin tələb və




təklifə başqa amillər də müəyyən dərəcədə təsir edirlər. Məsələn, tələbə əhalinin gəlir səviyyəsi; bazarda əvəzedici məhsulların (müxtəlif meyvələrin, paltaryuyucu tozların, bitgi və heyvan yağlarının) olması; qiymətlərin enib-qalxması ehtimalı; mövsüm xarakterli dəyişikliklər; əhalinin zövq və istəyi; ailə tərkibi; reklam təbliğatı təsir göstərə bilir.

Təklif də qiymət amili ilə yanaşı, istehsalın müxtəlif sahələrində texnika və texnologiyanın təkmilləşdirilməsi; bazara yeni əvəzedici məhsulların çıxarılması; rəqabət mübarizəsinin kəsginləşməsi; bazarda məhsulun bolluğu yaxud qıtlığı; inhisarçılıq meylləri də bəzən müsbət, bəzən də mənfi təsir göstərir.

**5.4.** Bazara çıxarılan əmtəə-xidmətlər tələb və təklifin təsiri altında formalaşan müəyyən bir qiymətə satılır. Bazar münasibətləri iqtisadi stemində onun fəaliyyət mexanizminin tərkib hissəsi sayılan qiymətin düzgün formalaşması, sağlam iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Çünki qiymət vasitəsiylə istehsalçılarla istehlakçılar, şirkətlərlə dövlət, əhali ilə dövlət arasındakı münasibətlər tənzimlənir. Qiymət-istehsal və istehlak proseslərinin son nəticələrini özündə yekunlaşdıran, onun nə dərəcədə səmərəli aparıldığını özündə əks etdirən ölçü meyarıdır. Bazar qiyməti isə orada reallaşdırılan hər hansı bir əmtəənin-xidmətin konkret ifadəsidir.

Bazarda yaranmış vəziyyətlə bağlı, bu və ya digər məhsul öz qiymətindən (dəyərindən) baha satıla bilər. Buna səbəb, həmin məhsula (xidmətə) bazarda tələbin təklifdən çox olmasıdır. Bu halda üstünlük istehsalçının və satıcının tərəfində olduğundan, həmin yüksək qiymət – ***təklif qiyməti*** adlanır.

Eyni zamanda mümkündür ki, müxtəlif səbəblərlə bağlı, bazarda alıcılara təklif olunan ayrı-ayrı məhsulların yaxud xidmətlərin həcmi (miqdarı), alıcıların tələbindən xeyli çoxdur. Təbiidir ki, bu halda (əlbəttə, müəyyən istisnalarla) tələb qiyməti, həmin əmtəələrin-xidmətlərin bazar qiymətindən aşağı olacaqdır. Belə bir vəziyyətdə bazarda formalaşan qiymətə – ***tələb qiyməti*** deyilir.

Bazar qiymətinin formalaşmasına ilk növbədə tələb və təklif, istehsal xərcləri, əmtəənin keyfiyyəti, dizayn xüsusiyyətləri, əhalinin gəlirləri, onların alıcılıq qabiliyyəti, mövsümülük, reklam kimi amillər bilavasitə, habelə dolayı yollarla təsir göstərir.

Lakin, adətən bazar üçün səciyyəvi olan müəyyən qiymət enib-qalxmalarını nəzərə almasaq, orada tələblə təklifin səviyyəsinin şərti nisbi sabitliyi (bərabərliyi) prinsipini əsas götürsək, bazarda tarazlıq qiyməti əmələ gəlir. Bazarda tarazlıq qiyməti dedikdə, müəyyən bir vaxt (ay, rüb, il) ərzində mövcud qiymətlər şəraitində məhsullar-xidmətlər təklifinin ümumi həcmi ilə həmin mallara alıcı tələbi arasında müəyyən uyğunluq başa düşülür. Həmin asılılığı sxem (qrafik) şəkildə belə göstərmək olar:




Bazarda yaranmış tələblə təklifin tarazlıq səviyyəsi və buna uyğun formalaşan müvafiq tarazlıq qiyməti, vahid bir prosesin əks tərəfləri kimi çıxış edən tələblə təklifin konkret vaxtlığa üst-üstə düşə biləcəyini göstərir. Amma qeyd etmək zəruridir ki, bu hal bazar münasibətləri iqtisadi sistemi şəraitində ötəri və dəyişkən bir xarakter daşıyır. Bazarda baş verən müxtəlif proseslər rəqabət, qiymət, vergilər, habelə digər daxili və xarici amillərin təsiri altında həmin tarazlıq vaxtaşırı pozulur. Çünki bazar dəyişkən və dalğalanan dənizi xatırlatdığından, burada tarazıq vəziyyəti müvəqqəti, qeyri-sabitlik isə daimidir.

**5.5.** Təsərrüfat həyatı təcrübəsi göstərir ki, bazarda əmtəə-xidmətlərin qiymətinin dəyişməsi, bahalaşması yaxud ucuzlaşması, şübhəsiz tələb və təklifin həcmində müəyyən dəyişikliklər yaradır. Məhsulun qiyməti ilə onun satış həcmi arasında olan bu dəyişkən asılılıq, *tələb və təklifin elastikliyi* (həssaslığı) adlanır.

Elastiklik – bir dəyişən kəmiyyətin (tələbin, təklifin, qiymətin, gəlirin) digər dəyişən kəmiyyətə, habelə başqalarına təsirini güstərir.

Bazar münasibətləri iqtisadi sistemində, diqqəti ən çox cəlb edən tələbin qiymətə və gəlirlərə görə elastikliyidir. Bu halda müxtəlif variantların olması mümkündür:

a) tələb artarsa, təklif isə dəyişməz qalarsa, qiymət yüksələcəkdir.

b) tələb azalarsa, təklif isə dəyişməz qalarsa, qiymət aşağı düşəcəkdir.

c) təklif artarsa, tələb isə dəyişməz qalarsa, qiymət aşağı düşəcəkdir.

ç) təklif azalarsa, tələb isə dəyişməz qalarsa, qiymət yüksələcəkdir.

Qiymət amilindən asılı olaraq, tələb və təklifin elastikliyi aşağıdakı kimi ifadə olunur:

Tələbin elastikliyi – $E_d^p = \frac{\Delta Q}{Q} : \frac{\Delta P}{P}$

Burada $E_d^p$ – tələbin qiymətlə bağlı elastiklik səviyyəsini göstərir.

$\Delta Q$ – tələb olunan məhsulun həcmindəki dəyişiklikdir.

Q – tələbin əvvəlki həcmidir.

$\Delta P$ – qiymətin dəyişmiş səviyyəsidir.

P – qiymətin əvvəlki səviyyəsidir.

Təklifin elastikliyi – $E_s^p = \frac{\Delta Q}{Q} : \frac{\Delta P}{P}$

Burada $E_s^p$ – təklifn qiymətlə bağlı elastiklik səviyyəsini göstərir.

Göründüyü kimi qiymətlə bağlı *tələb və təklifin elastikliyi* arasında oxşarlıq vardır. Lakin bu formal və zahiri bir oxşarlıqdır. Əslində mahiyyətcə fərq bundadır ki, tələbin elastikliyinin müəyyənləşdirildiyi halda $\Delta Q$ göstəricisi alıcı tərəfindən tələb olunan

məhsulun həcmindəki dəyişikliyi əks etdirir. Təklifin elastikliyi müəyyənləşdirildikdə isə $\Delta$Q göstəricisi satıcı tərəfindən təklif olunan məhsulun həcmindəki dəyişikliyi əks etdirir.

Elastiklik səviyyəsini aydınlaşdırmaq üçün elastiklik vahidindən istifadə olunur. Elastiklik vahidi dedikdə, qiymətin azalıb-artmasının tələb və təklifin səviyyəsindəki dəyişikliyə uyğunluğu, yaxud bərabərliyi başa düşülür. Məsələn, məhsul və xidmətlərin qiyməti 2 dəfə aşağı düşmüşsə, eyni zamanda həmin məhsul-xidmətlərin satış həcminin 2 dəfə artması nəticəsində əldə olunmuş pul məbləği dəyişməmişsə, bu halda elastiklik vahidə, yəni E=1 olacaqdır. Əksinə, əmtəə-xidmətlərin qiymətlərinin 2 dəfə bahalaşması, tələbin həcminin 2 dəfə aşağı düşməsi ilə nəticələnmişsə, bu halda da satışdan əldə olunmuş məbləğ dəyişmədiyindən elastiklik vahidə, yəni E=1 olacaqdır. Elastiklik vahidi (əmsalı) belə müəyyənləşdirilir:

$$E_ə = \frac{\text{Tələb} - təklifin\ dəyişmə\ kəmiyyəti\ (\%-lə)}{\text{Qiymə}tin\ dəyişmə\ kəmiyyəti\ (\%-lə)} = \frac{10\%}{10\%} = 1$$

Qiymət amilindən asılı olaraq, tələb və təklifin bu əmsaldan kənarlaşma halları, yəni E>1 olduqda həmin kəmiyyətlər elastik, E<1 olduqda isə qeyri-elastik sayılacaqdır.

Nəzərə alsaq ki, satışdan əldə edilmiş məbləğ (R) məhsulun – xidmətin qiyməti (P) ilə onun bazara çıxarılan və reallaşdırılmış kəmiyyəti (Q) hasilinə bərabərdir, o zaman: R=P·Q olacaqdır. Bu halda E=1 kimi qəbul edilir. Əgər qiymətin azalması nəticəsində satışın artmasından əldə edilmiş məbləğ, qiymətin azalmasından itirilən məbləğdən çox olarsa, bu halda elastiklik təmin ediləcək və E>1 kimi işarə olunacaqdır. Əksinə, qiymətin aşağı düşməsindən itirilmiş məbləğ, bunun nəticəsində əldə edilmiş məbləğdən artıq olarsa, bu hal qeyri – elastiklik kimi səciyyələndirilərək, E<1 kimi işarə olunacaqdır.

Bunu aydınlaşdırmaq üçün fərz edək ki, taxıl satışı ilə məşğul olan şirkət hər gün bazara 200 sentner məhsul çıxarır və 1 sentnerini 15 dollara reallaşdırır.

Bu halda:

200 sentner x 15 dollar = 3.000 dollar (E=1)

Həmin şirkət bu qiyməti 14 dollara endirsə, burada iki vəziyyət yarana bilər: birinci halda, taxıl satışı 50 sentner, ikinci halda isə cəmisi 10 sentner arta bilər.

Deməli, birinci halda:

250 sentner x 14 dollar = 3.500 dollar (E>1)

İkinci halda isə:

210 sentner x 14 dollar = 2.940 dollar (E< 1)

İqtisadi nəzəriyyəyə A.Marşall tərəfindən bir kateqoriya kimi daxil edilmiş elastiklik – qiymət, tələb və təklifin ayrı-ayrılıqda hər birində baş verən dəyişikliyin digərlərinə necə təsir etdiyini göstərir. Qiymətin dəyişməsindən tələb və təklifdə baş verən proseslər daxili (endogen) xarakterli asılılıq kimi səciyyələndirilir. Əgər baş verən dəyişikliklər digər səbəblərlə bağlı olarsa, bu hal xarici (ekzogen) asılılıq kimi qiymətləndirilir.

Qeyd etmək zəruridir ki, elastiklik alıcıların satışda olan əmtəələrin və göstərilən xidmətlərin qiymətlərin enib-qalxmasına münasibəti, habelə konkret reaksiyasıdır. Aydındır ki, bazar qiymətlərinin formalaşması və səviyyəsi alıcıların tələblərinə az-çox öz müsbət, yaxud mənfi təsirini göstərir.

Lakin həyatda elə hallar ola bilir ki, qiymətin kəsgin surətdə qalxması, yaxud da aşağı düşməsi tələbi çox az dəyişir, bəzən isə ona heç bir təsir göstərmir. Belə bir vəziyyət, tam mənada qeyri-elastik tələb adlanır. Məsələn, bir sıra zəruri ərzaq məhsullarına,

dərmanlara, yanacağa qiymətlərin artmasına baxmayaraq, onlara olan tələbat bəzi hallarda az dəyişəcək, əksər hallarda isə heç dəyişməyəcəkdir.

Bunun əksinə olaraq, satışdakı teleskopların, mikroskopların xüsusi təyinatlı cihazların qiymətlərinin əhəmiyyətli dərəcədə endirilməsi, yəqin ki, alıcılarda onları əldə etmək həvəsini artırmayacaqdır. Gündəlik zəruri istehlak məhsulları, paltar, ayaqqabı, sabun, ətriyyat, meyvə satışında qiymətlərin ucuzlaşması, onlara tələbi xeyli artıraraq, həmin tələbi elastik edəcəkdir. Tələbin elastiklik səviyyəsinin dəyişməsi zəif, orta və kəsgin formalarda ola bilər.

***Zəif elastiklik*** o deməkdir ki, qiymətin artmasına baxmayaraq, əmtəə və xidmətlərin satış həcmi az dəyişir. Buna çörək, şəkər, duz kimi gündəlik tələbat mallarını göstərmək olar. Eyni zamanda ağır yük maşınlarının, geniş ekranlı televizorların, çox bahalı mebel dəstlərinin qiymətinin müəyyən qədər aşağı salınması, şübhəsiz onların satış həcminə əhəmiyyətli təsir göstərməyəcəkdir.

***Orta elastiklik***, bir qrup məhsullara aid edilir ki, həmn şeylərin əvəzləyiciləri olduğundan, elastiklik səviyyəsi özünü aralıq həddə göstərir. Buna misal kimi ət, süd, yağ, qab-qacaq, ayaqqabı, paltar, yuyucu toz, sabun, ətriyyat məmulatlarını göstərmək olar.

***Kəsgin elastiklik*** dedikdə, müəyyən növ məhsulların qiymətlərinin sürətlə artması nəticəsində, onlara olan tələb əhəmiyyətli dərəcədə azalır. Bu ilk növbədə ölkəyə xaricdən idxal olunan və bəzən də yerli məhsullara aid edilə bilər.

Zəif, orta (aralıq) və kəsgin (şiddətli) elastiklik hallarını qrafik-sxem halında belə göstərmək olar:



# Mövzu 6. Bazar münasibətləri iqtisadi sistemi

**6.1** Mülkiyyətin mahiyyəti və formaları
**6.2** Xüsusi mülkiyyət və sahibkarlıq fəaliyyəti
**6.3** Rəqabət və onun formaları
**6.4** Bazarlar və qiymət
**6.5** Bazar iqtisadiyyatı şəraitində dövlətin rolunun məhdudlaşdırılması
**6.6** İxtisaslaşma və istehsalın səmərəliliyi
**6.7** Pul və ondan istifadə edilməsi
**6.8** İqtisadi sistemin 5 əsas məsələsi
**6.9** Bazar iqtisadi sisteminin fəaliyyəti
**6.10**İstehsalın təşkili prinsipləri

**6.1.** Bütövlükdə cəmiyyətdə və xüsusilə də onun iqtisadi həyatında baş verən mürəkkəb prosesləri, qarşıya çıxan müxtəlif problemləri dərk edib, həlli yollarını müəyyənləşdirmək üçün mülkiyyət münasibətləri həlledici rol oynayır.

Dərin elmi-nəzəri əhəmiyyətə malik olan mülkiyyət anlayışı, maddi-mənəvi sərvətlərə, əmtəə-xidmətlərə, kapitala, torpağa, istehsal vasitələrinə sahib olmaq, onun mülkiyyətçisi sayılmaq və ondan necə faydalanmaq yolunda yaranmış münasibətləri nəzərdə tutur. Həmin münasibətlərin bir tərəfində mülkiyyətçilər, sahibkarlar, işgüzar iş adamları, bizneslə məşğul olanlar; digər tərəfində isə icraçılar, işləyənlər, təsərrüfat həyatı və xidmət dairəsinin müxtəlif sahələrində konkret tapşırığı, vəzifəni yerinə yetirən adamlar, qulluqçular, menecerlər, məmurlar dururlar.

Mülkiyyət anlayışına hüquqi, tarixi, iqtisadi, fəlsəfi mövqelərdən yanaşıb qiymətləndirmək mümkündür. Böyük alman filosofu Hegelin yazdığı kimi mülkiyyətə adi əşya, sadəcə maddi bir şey kimi deyil, insanlar arasında formalaşmış ictimai (sosial) münasibətlərin ifadəçisi (əksi) kimi baxmaq lazımdır. Qədim Roma hüququnda mülkiyyət müqəddəs və toxunulmaz elan olunmuşdur. Fransız iqtisadçısı Prudon isə mülkiyyəti oğurluq kimi qimətləndirmişdir. Fransada Napaleon dövrünün qanunlarında (kodeksində) mülkiyyət hər hansı bir əmlaka mütləq mənada sahib olmaq hüququ kimi təsbit olunmuşdur.

Mülkiyyətin tarixi tipləri kimi, – *icma, quldar, feodal, kapitalist (xüsusi, özəl), ictimai (ümumi, sosialist), dövlət* formalarını göstərmək olar. Bu mülkiyyət tipləri yaranmış, fəaliyyət göstərmiş, formalarını dəyişmiş, məhv olub getmişlər.

Mülkiyyətin əsas formaları, – *dövlət, xüsusi, bələdiyyə* mülkiyyəti sayılır. Mülkiyyətin törəmə (alınma) formalarına isə *kollektiv, korporativ, ictimai-dini təşkilatların, səhmdar cəmiyyətlərin, habelə insanların şəxsi və fərdi mülkiyyətləri* daxildir.

**6.2.** Kapitalist, yaxud sərbəst sahibkarlıq sisteminin əsasını, – *torpaq və kapitalist* (istehsal vasitələri) kimi iqtisadi resurslar üzərində xüsusi mülkiyyətin olması təşkil edir. Normal bazar iqtisadiyyatı, – *xüsusi mülkiyyət, sahibkarın iqtisadi sərbəstliyi, tələb-təklif və rəqabət* prinsipləri üzərində qurularaq fəaliyyət göstərir. Şəxsi maraq və öz fəaliyyətinin gələcəyinə inam hissi, xüsusi mülkiyyətə əsaslanan cəmiyyətin yüksəlişinə təminat yaradır.

Bazar münasibətləri iqtisadi sistemi şəraitində hər bir mülkiyyət və kapital sahibi ölkə qanunlarına əməl etmək, habelə başqalarının hüquqlarını pozmamaq şərtiylə sahibkarlıq (əmək) fəaliyyəti ilə məşğul ola bilər. Mülkiyyət təkcə maddi əmlak şəklində deyil, həm də intelektual, ağıl, kəşflər formasında da ola bilər. Mülkiyyət və onun sahibi, biznes-sahibkarlıq

fəaliyyəti qanuni əsaslar üzərində qurulduqda, dövlətin müvafiq qanunları ilə qorunur. Mülkiyyətçi və sahibkar öz əmlakını, hazırladığı məhsulları müəyyən qiymətə sata, bağışlaya və vəsiyyət edə bilər.

Sahibkarlıq fəaliyyəti bazar subyektləri arasında formalaşan qarşılıqlı münasibətləri əks etdirir; əməklə istehsal resurslarının birləşərək müxtəlif təyinatlı məhsullar hazırlanmasını, xidmətlər göstərilməsini təşkil edir; xüsusi mülkiyyətin reallaşdırma forması kimi çıxış edir; əmtəə-xidmətlər bolluğu yaradır; mənfəət əldə edir; yeni iş yerləri açır; dövlət büdcəsinə müvafiq məbləğdə vergi ödəyir.

Sahibkarlıq fəaliyyəti, bu işlə məşğul olan adamdan yüksək təşkilatçılıq qabiliyyəti, riskə getmək bacarığı, bazarda baş verən prosesləri təhlil edib, rəqabət mübarizəsi mühitində hansı optimal qərarları qəbul etmək zərurəti məsuliyyətini dərk edib, cəsarətlə daşımağı tələb edir. Bu mənada biznes-sahibkarlıq, işgüzar fəaliyyət meydanı peşəkar, bilikli, uzaqgörən, mədəniyyətli və istedadlı, milli mənafeyə sadiq adamlar üçündür.

**6.3.** Latın dilindən götürülmüş «konkurent» sözü, «toqquşma» mənasını verərək, rəqabət anlamında bazar iştirakçıları arasında daha yaxşı istehsal şəraiti (mühiti), əmtəələrin-xidmətlərin reallaşdırılması uğrunda, müxtəlif üsullarla aparılan iqtisadi mübarizədir.

Rəqabət bazar iqtisadiyyatının həlledici və aparıcı amillərindən olub, fəaliyyət göstərən mürəkkəb bazar mexanizminin tələb-təklif, qiymətlə yanaşı tərkib hissəsidir. Məhz rəqabət bazarda alqı-satqı münasibətlərini tənzimləyir, məhsul və xidmətlərin bolluğunu yaradır, habelə bazarda tarazlaşdırılmış qiymətlər sistemini formalaşdırır.

Tarixən rəqabəti başqa üsullarla əvəz etmək, yaxud onu inzibati qadağan üsulları ilə aradan qaldırmaq yolundakı müxtəlif cəhdlər, həmişə uğursuzluqla nəticələnmişdir. Ona görə ki, bəşəriyyətin çoxəsrlik təsərüfat həyatı təcrübəsi sübut etmişdir ki, bazar yalnız normal və müəyyən qayda-qanunlara əsaslanan rəqabət mübarizəsi nəticəsində inkişaf edib təkmilləşərək, cəmiyyətə xidmət göstərə bilər.

Rəqabətin əsasında bazar subyektlərinin açıq, sərbəst, qanunlara əməl etmək əsasında, eyni zamanda daha yüksək mənfəət əldə etmək prinsipi durur. Bazar rəqabəti mahiyyət etibarilə aşağıdakıları nəzərdə tutur:

- bazarda kifayət qədər məhsullar və xidmətlər vardır;
- bazarda çox sayda alıcılar və satıcılar iştirak edir;
- bazar iştirakçıları sərbəst surətdə bir-biri ilə iqtisadi münasibətlərə, alqı-satqı sövdələşmələrinə girməkdə heç bir məhdudiyyətlə rastlaşmırlar.
- bazarda satıcı əmtəə və xidmətə qiymət qoymaqda alıcı isə öz sözünü, son qiymətini verməkdə qərarlıdır.
- sərbəst rəqabət sövdələşməsi nəticəsində satıcı pula, alıcı isə arzuladığı məhsula-xidmətə sahib olur.

İqtisadi nəzəriyyə elmi bazar münasibətləri şəraitində rəqabətin aşağıdakı 4 *tipi, modeli, variantı, forması, növü* olduğunu qəbul edir. Bunlar aşağıdakılardır:

***Kamil rəqabət,***
***İnhisarçı rəqabət,***
***Oliqopoliya rəqabəti,***
***Xalis rəqabət.***

Qeyd edək ki, kamil rəqabət sərbəst, yaxud azad rəqabət kimi xarakterizə olunub səciyyələndirilsə də, digər 3 rəqabət, yəni inhisarçı, oliqopoliya və xalis rəqabət qeyri-kamil rəqabət kimi qiymətləndirilir.

***Kamil*** (mükəmməl, sərbəst, azad, halal) ***rəqabət*** şəraitində, bazarda istehsalçılarla (satıcılarla) istehlakçılar (alıcılar) arasında normal, hamı tərəfindən qəbul olunmuş qaydalar əsasında halal, düzgün rəqabət aparılır. Kamil rəqabət, azad rəqabət mühitində bazarda çoxlu xırda və orta şirkətlər (sahibkarlar) iştirak edərək, eyni, yaxud oxşar adlı məhsullar (çörək, qab-qacaq, mebel, paltar, ayaqqabı) hazırlayır, habelə satırlar. Bu prinsip əsasında fəaliyyət göstərən bazara həm satıcıların, həm də alıcıların daxil olması və ya çıxması məsələsində heç bir problem, çətinlik, əngəl yoxdur. Eyni zamanda kamil (mükəmməl) bazar haqqında ətraflı məlumat almaq, informasiya toplamaq imkanarı, burada iştirak etmək istəyən insanlar üçün açıqdır.

***İnhisarçı rəqabət*** bazarında, xeyli iri şirkət (sahibkar, kapitalist) iştirak edir. Bu şirkət və birliklər müxtəlif təyinatlı (oxşar) məhsullar istehsal edib satır, yaxud xidmətlər göstərirlər. İnhisarçı rəqabət bazarına daxil olmaq və orada tələblə-təklifin dəyişkənliyi ilə bağlı müəyyən məlumatlar toplamaq, şübhəsiz çətinliklərlə bağlı olsa da, prinsip etibarilə mümkündür. İnhisarçı rəqabət mühitində, bazarda qiymətlərdə müəyyən yaxınlıq, oxşarlıq ola bilər.

***Oliqopoliya rəqabəti*** şəraitində, bazarda əsasən bir neçə iri istehsalçı şirkət; oliqopsoniya rəqabəti şəraitində isə bazarda bir neçə alıcı şirkət fəaliyyət göstərir. Bir neçə iri və tanınmış şirkətin ağalıq etdiyi bazara daxil olmaq, həmin bazar haqqında məlumat toplamaq, xüsusilə də bu bazarda möhkəmlənib, güclü mövqe tutmaq şübhəsiz bir sıra çətinliklərlə bağlıdır.

***Xalis inhisar*** (monopoliya, yaxud monopolist) rəqabəti reallığında fəaliyyət göstərən bazarda tək bir istehsalçı (satıcı) şirkət; monopsoniya şəraitində isə yalnız tək bir istehlakçı (alıcı) şirkət olur. Belə şəraitdə işləyən inhisarlar nadir və az tapılan məhsullar (uran, qızıl, kondisioner, lüks avtomobillər) üzrə ixtisaslaşırlar.

Qeyd etmək zəruridir ki, bazar iqtisadi münasibətləri sistemində rəqabət mübarizəsi iqtisadi və qeyri-iqtisadi yollarla, vasitələrlə, metodlarla həyata keçirilə bilər.

İqtisadi yollarla həyata keçirilən rəqabət mübarizəsinin əsas vasitəsi – qiymətdir. Bu halda bazardakı rəqibə qalib gəlmək üçün istehsal xərclərinin azaldılması (yeni texnika, qabaqcıl texnologiya, əmək məhsuldarlığının yüksəldilməsi) sayəsində, satış qiymətləri aşağı salınır və beləliklə də rəqiblərin fəaliyyəti məhdudlaşdırılır, yaxud onlar sıxışdırılaraq bazardan çıxarılırlar.

Qeyri-qiymət metodları isə bilavasitə bazarda formalaşan qiymətlərlə bağlı olmayıb, hazırlanan məhsulun texniki üstünlükləri, onun keyfiyyət göstəriciləri, dizayn xüsusiyyətləri ilə bağlıdır. Reklam, xidmət, kreditə satış da bu işdə mühüm rol oynayır.

Real həyatda qayda-qanunlara və ticarət ənənələrinə zidd olan üsullara da, məsələn haqsız rəqabət adlanan rəqibi gözdən salmaq, qərəzli hərəkətlərə yol vermək, alıcıları çaşdırmaq, saxta məhsul buraxmaq, başqasının adından, markasından istifadəyə rast gəlinir. Bəzən isə bazarda əmtəə-xidmətlərin hədsiz ucuz qiymətə satışı halları baş verir ki, məqsəd rəqibi sıradan çıxarmaqdır. Bazarda satıcılar öz əmtəə və xidmətlərini daha baha qiymətə satmaq yolu ilə yüksək mənfəət əldə etməyə çalışdıqları kimi, alıcılar da rəqabət mübarizəsinin müxtəlif formalarından faydalanaraq, əldə etdikləri məhsullari-xidmətləri nisbətən ucuz qiymətə almağa cəhd göstərirlər.

Təsadüfi deyildir ki, tanınmış iqtisadçı Jozef Şumpeter (Avstriya) yazmışdı ki, rəqabət köhnə ilə yeninin, tələbatların ödənilməsinin ənənəvi mənbələri ilə təzələrinin, işin təşkilinin vaxtı keçmiş formaları ilə daha mütərəqqi üsulları arasında mübarizədir. Nobel mükafatı laureatı Fridrix fon Hayek (Avstriya) isə gəstərmişdir ki,rəqabətə əsaslanan cəmiyyətlər, öz qarşısına qoyduqları məqsədlərə daha tez nail olmaq imkanı qazanırlar.

Eyni zamanda rəqabət mübarizəsi təkcə öz sərvətlərini artıran qaliblər deyil, həm də uduzanlar, yaxud məğlub olanlar deməkdir. A.Smitin fikrincə istehsalçıların və satıcıların rəqabət mübarizəsinin mahiyyəti «qiymət vasitəsilə rəqiblərinə təzyiq göstərmək» olmuşdur.

Bazar rəqabətinin 4 forması (tipi) və onların özünəməxsus xarakterik xüsusiyyətləri aşağıdakı cədvəldə verilmişdir (səh.59).

Qeyd etmək lazımdır ki, bazarda ***inhisar (monopoliya) rəqabəti*** dedikdə, orada bir sıra iri istehsalçı-satıcının olduğu nəzərdə tutulur. ***Monopsoniya rəqabəti*** dedikdə, bazarda bir alıcının olduğu nəzərdə tutulur. ***Oliqopoliya rəqabəti*** dedikdə, bazarda bir neçə iri istehsalçı-satıcı nəzərdə tutulur. ***Oliqopsoniya rəqabəti*** dedikdə, bazarda bir neçə iri alıcının olduğu nəzərdə tutulur.

**6.4.** Bazar münasibətləri iqtisadi sistemində satışa çıxarılan resurslar, hazır məhsullar, göstərilən xidmətlər orada yaranmış tələb və təklifə uyğun olaraq, müəyyən qiymətə satılır. Bazarda hər şey qiymətlə başlayır (neçəyədir?) və qiymətlə də (hansı qiymətə alındı) başa çatır. Qiymət amili bazar mexanizminin bütövlükdə formalaşması və fəaliyyətində xüsusi bir rol oynayır. Tələbatın sonsuzluğu və iqtisadi resursların məhdudluğu şəraitində, qiymətin elmi əsaslar üzərində qurulması, ölkənin təsərrüfat həyatının, habelə sosial problemlərinin həllinə öz təsirini göstərir. Aydındır ki, əmtəələrin və xidmətlərin qiymətində, onların istehsalına, habelə satışına sərf olunmuş müxtəlif xərclər, vaxt amili, faydalılıq dərəcəsi, resursların məhdudluğu kimi mühüm amillər öz əksini tapmalıdır. Bu mənada, A.Smitin vaxtilə dediyi kimi əgər bazarı «gözəgörünməyən əl» idarə edirsə, onda qiymətlər həmin iqtisadi sistemi, obrazlı ifadə etsək, böyük orkestri idarə edən dirijorun «sehirli çubuğu» (Q.Mənkyü) rolunu oynayır.

Bazar münasibətləri iqtisadi sisteminin iştirakçıları (subyektləri) olan çoxsaylı satıcıların və alıcıların mürəkkəb qarşılıqlı əlaqələrini istiqamətləndirən qiymət amili, əmtəə-xidmətlərin dəyərinin ifadəçisi kimi tələblə təklifin həm tənzimlənməsi, həm də həvəsləndirilməsi (stimullaşdırılması) proseslərinə xidmət edir.

Təcrübə göstərir ki, obyektiv və subyektiv səbəblərlə bağlı əmtəə-xidmətlər öz dəyərindən aşağı, habelə yüksək qiymətə reallaşdırıla bilər. Belə bir vəziyyət, konkret əmtəə-xidmətlər qrupu üzrə bazarda yaranmış tələb və təklifdən asılıdır. Lakin bu qiymət dəyişiklikləri nəzərə alınmazsa, tələblə təklifin nisbi uyğunluğu prinsipinə əsasən müəyyən bir ***bazar tarazlığı*** və ***tarazlıq qiyməti*** formalaşır.

**6.5.** Bazar münasibətləri iqtisadi sistemində xüsusi mülkiyyətin, tələb-təklif əsasında formalaşan rəqabətin, şəxsi marağın olması, istehsal-xidmət dairəsinin ehtiyacları üçün resurslardan daha səmərəli istifadə edilməsi zəruriliyi, şübhəsiz dövlətin tədricən ölkənin təsərrüfat həyatına qarışmasını, hədsiz müdaxiləsini təbii olaraq, xeyli məhdudlaşdırılır.

Klassik iqtisadi nəzəriyyənin banilərindən sayılan A.Smit, 1776-cı ildə nəşr olunmuş «Xalqlar sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat» kitabında yazmışdı ki, bazarı sanki «görünməz əllər» (tələb-təklif, qiymət, maraq, rəqabət) idarə etdiyindən onun işi dövlət müdaxiləsi olmadan da, özü-özünü tənzimlənə bilir. Doğrudan da dövlətin iqtisadiyyata hədsiz qarışması sahibkarlıq fəaliyyətini məhdudlaşdırır, rəqabət mübarizəsini zəiflədir, şəxsi marağı

və təşəbbüskarlıq səylərini boğur. Bunu keçmiş Sovet İttifaqı və sosialist sistemi ölkələrinin mərkəzləşdirilmiş, habelə inzibati-amirlik metodları ilə idarə olunan təsərrüfat həyatı («dövlət kapitalizmi») nümunəsi öz iflası ilə sübut etdi.

Lakin nəzəri fikrin və real həyatın konkret inkişaf məntiqi göstərir ki, iqtisadiyyatın ***hərbi-müdafiə kompleksi, yanacaq-energetika, nəqliyyat sistemi, atom-nüvə tədqiqatları, əsaslı (fundamental) elmlərin inkişafı, kosmosun, okeanların, atmosferin, qlobal iqlim dəyişikliklərinin, ekologiya problemlərinin öyrənilməsi*** kimi iri həcmli sərmayə qoyuluşları, habelə məqsədyönlü əlaqələndirici fəaliyyət tələb olunan sahələrdə dövlətin iştirakı zəruridir. Ümumiyyətlə dövlət iqtisadiyyatının bazar prinsipləri əsasında inkişafı üçün əlverişli hüquqi, iqtisadi, inzibati-təşkilatı şərait yaratmalıdır.

Təsadüfi deyildir ki, Dünya Bankının hesabatında, «Dövlət – dəyişən dünyada» adlı xüsusi bir bölmədə, son 50 ildə iqtisadiyyatın dövlət tənzimlənməsinin uğurlu və nöqsan cəhətləri hərtərəfli təhlil edilmişdir. Hesabatda qeyd olunur ki, ümumi iqtisadi tərəqqi, elm, təhsil, səhiyyə, sosial ədalətin tarazlaşdırılması sahəsində dövlətin səmərəli rolu cəmiyyət üçün həyatı əhəmiyyətə malikdir. Lakin Dünya Bankı mütəxəssislərinin fikrincə «Con Keynsin nəzəri iqtisadi müddəalarından və 30-40-cı illərdə (XX əsr) ABŞ prezidenti Franklin Ruzveltin iqtisadi sahədə «yeni xətt»-indən fərqli olaraq, ***dövlət ölkənin təsərrüfat həyatının iştirakçısı (subyekti) yox, iqtisadi inkişafın (artımın) təminatçısı, qarantı*** rolunu oynamalıdır.
Dövlətin ölkə iqtisadiyyatında iştirakçı deyil, cəmiyyətin ümumi iqtisadi-sosial tərəqqisinin əsl təminatçısı rolunu uğurla yerinə yetirə bilməsi üçün aşağıdakı şərtlərə əməl olunmalıdır:

- dövlət qanunçuluğun əsasıdır;
- dövlət ölkədə siyasi sabitliyin və makroiqtisadi tarazlığın təməlidir;
- dövlət ətraf mühitin və ekoloji tarazlığın qorunmasına cavabdehdir;
- dövlət müasir qloballaşma və inteqrasiya şəraitində ölkənin milli iqtisadiyyatının təhlükəsizliyinin qayğısına qalmalıdır;
- dövlət ölkə vətəndaşlarının təkcə siyasi hüquqlarının deyil, eyni zamanda iqtisadi maraq, habelə hüquqlarının qarantıdır.

**6.6.** Bazar iqtisadiyyatına xas olan ən mühüm xüsusiyyətlərdən biri, bu mürəkkəb münasibətlər sistemində yeni texnika və qabaqcıl texnologiyadan səmərəli istifadə olunması əsasında istehsalın ixtisaslaşdırılmasıdır.
İstehsalın ixtisaslaşdırılması, ictimai əmək bölgüsünün forması olub, texniki tərəqqi nəticəsində, köhnə sahələrlə yanaşı, yeni sahələrin meydana çıxıb formalaşmasını nəzərdə tutur. Bu proses, öz mahiyyəti etibarilə təbii zəruri bir xarakter daşımaqla yanaşı, eyni zamanda öz formaları, habelə istiqamətləri etibarilə sonsuzdur. İnkişaf edib təkmilləşən cəmiyyətin istehsal və istehlak təyinatlı tələbatları artdıqca, iqtisadiyyatın sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət, xidmət-servis dairəsində yeni-yeni sahələr meydana çıxıb inkişaf edir. Son 100 ildə hasilat, yanacaq, maşınqayırma, kimya, metallurgiya, avtomobil, məişət texnikası, rabitə-məlumat-informasiya, energetika, elektronika istiqamətlərində baş verən ixtisaslaşma prosesləri bunu təsdiq edir.

İstehsalın ixtisaslaşdırılmasının 3 əsas növü vardır:

a) predmet (avtomobil, paltar, mebel, soyuducu, ayaqqabı) üzrə ixtisaslaşma; b) detal (ehtiyat hissələr, çiplər, birləşdirici hissələr) üzrə ixtisaslaşdırma; c) texnoloji (metal əridilməsi, yeni keyfiyyətlərə malik dərmanlar hazırlanması və s.) üzrə ixtisaslaşma.

**Bazar rəqabətinin 4 forması (tipi) və onun xüsusiyyətləri**

| **Rəqabətin formaları (tipləri)** | **Şirkətlərin sayı** | **İstehsal olunan məhsulların xüsusiyyəti** | **Bazara daxil olmaq və oradan çıxmaq problemi** | **Bazar haqqında məlumat-informasiya almaq imkanı** |
|---|---|---|---|---|
| Kamil (sərbəst) rəqabət | Çoxlu sayda xırda-orta şirkətlər fəaliyyət göstərir | Eyni adlı, yaxud oxşar məhsullar istehsal olunur | Heç bir çətinlik yoxdur | Məlumat-informasiya əldə etmək üçün heç bir çətinlik yoxdur |
| İnhisarçı (monopoliya) rəqabət | Xeyli sayda (15-dən 80-ə qədər) iri şirkət fəaliyyət göstərir | Müxtəlif məhsullar istehsal olunur | Müəyyən çətinliklər var | Məlumat almaq üçün müəyyən əngəllər, problemlər var |
| Oliqopoliya rəqabəti | Şirkətlərin sayı (3-7) çox deyildir və onların arasında bir neçə irisi, hətta lider rolu oynayanı var | Eyni, oxşar və müxtəlif təyinatlı məhsullar istehsal olunur | xeyli çətinliklər və maneələr var | Məlumat-informasiya toplamaq üçün xeyli çətinliklər var |
| Xalis inhisar (monopoliya) rəqabəti | Tək bir şirkət fəaliyyət göstərir | Az tapılan və nadir məhsullar (əmtəələr) istehsal olunur | Sərt texniki, texnoloji, təbii-psixoloji çətinliklər, problemlər vardır | Məlumat-informasiya əldə etmək üçün çox ciddi çətinliklər vardır |

Müasir iqtisadi inteqrasiya və qloballaşma şəraitində istehsalın ixtisaslaşdırılması və kooperasiyası, təkcə ölkə daxilindəki sahələrarası əlaqələrdə deyil, eyni zamanda beynəlxalq iqtisadi-ticarət, elmi-texniki, mədəni-turizm münasibətlərinin də genişlənib dərinləşməsində mühüm rol oynayır

**6.7.** Bütün iqtisadi sistemlərdə pul xüsusi növ əmtəə və ümumi ekvivalent kimi mühüm rol oynamışdır. Pul istehsal olunmuş əmtəələrin və göstərilən xidmətlərin dəyərinin ifadə formasıdır. İnsan əməyinin və zəkasının məhsulu olan müxtəlif təyinatlı əmtəələr-xidmətlər pul vasitəsilə dəyərləndirilib-hesablanır, mübadilə edilir, reallaşdırılaraq satıcıdan alıcıya keçir.

Pulun meydana çıxması və keçdiyi inkişaf yolu göstərir ki, tarixən bəşəriyyətin müxtəlif dövrlərində bu vəzifəni ilk vaxtlar ayrı-ayrı yerlərdə mal-qara, xəz, duz, çay; sonralar mis, dəmir, gümüş, qızıl; müasir mərhələlərdə isə kağız pullar, səhmlər, qiymətli kağızlar, plastik lövhələr, bankomatlar yerinə yetirir. Pulun mahiyyəti və təsərrüfat həyatında oynadığı mühüm rol öz ifadəsini, tarixən onun yerinə yetirdiyi 5 vəzifədə (funksiyada) tapmışdır. Həmin vəzifələr bunlardır: dəyər ölçüsü, tədavül (alqı-satqı), yığım (xəzinə yaratmaq), borc-kredit (tədiyə), dünya pulu. Son iqtisadi ədəbiyyatlarda pulun dəyər ölçüsü, tədavül və yığım vasitəsi roluna daha çox diqqət yetirilir. Eyni zamanda qeyd olunur ki, ümumiyyətlə pulun dəyər ölçüsü və tədavül vasitəsi olması vəzifələri əsas, başqaları isə onlardan törəmədir.

Bazar münasibətləri iqtisadi sistemində pulun ümumi bir ekvivalent kimi alqı-satqı (tədavül, mübadilə) vasitəsi rolu özünü daha qabarıq surətdə göstərir. Hər şey alınıb-satıldığından, iqtisadi resursların, əmtəələrin, xidmətlərin reallaşdırılması prosesində pul və onun vasitəsilə həyata keçirilən əməliyyatlar həlledici bir əhəmiyyət kəsb edir. Bu mənada pul bəşəriyyətin kəşflərindən biri kimi qiymətləndirilə bilər. Pul adi kağız deyildir, o dövlətin rəmzi və zəmanəti, ölkənin sərvətinin ifadəsi, millətin iqtisadi inkişafının, habelə beynəlxalq aləmdə nüfuzunun əlamətlərindən biridir.

**6.8.** Hər bir iqtisadi sistemin, o cümlədən də bazar münasibətləri iqtisadi sisteminin konkret olaraq necə fəaliyyət göstərdiyini, aşağıdakı 5 əsas (fundamental) məsələ, cəhət aydınlaşdırılır. Həmin məsələlər aşağıdakılardır:

1. Tələbin sonsuzluğu və resursların məhdudluğu şəraitində, nə qədər müxtəlif təyinatlı məhsullar hazırlamaq, habelə hansı xidmətlər göstərmək məsələsi, sırf kəmiyyət (miqdar, həcm) baxımından öz həllini tapmalıdır. Başqa sözlə, tələblə-təklifin optimal variantı tapılmalıdır.
2. Nə istehsal etmək, yaxud istehsalın yalnız kəmiyyət, həcm cəhəti deyil, eyni zamanda keyfiyyət cəhəti də nəzərə alınmalıdır ki, cəmiyyətin və insanların hansı məhsullara, xidmətlərə ehtiyacları olduğu düzgün aydınlaşdırılıb, daha dolğun təmin olunsun.
3. İstehsal olunan məhsulların və göstərilən xidmətlərin maddi-texniki bazası, habelə texnologiyası necə olmalı, nəhayət bunların istehsal prosesi hansı prinsiplər əsasında aparılmalıdır. Məlumdur ki, istehsal 2 tipdə (istiqamətdə), yəni ekstensiv (köhnə texniki baza) və intensiv (ən yeni texnika-texnologiya) əsaslar üzərində qurula bilər.
4. İstehsal olunmuş məhsullar, göstəriləcək xidmətlər kim üçün nəzərdə tutulmuşdur və bu məhsullar-xidmətlər kimə təklif olunacaqdır. Başqa sözlə, bazar iqtisadi sistemi anbar üçün deyil, satış üçün fəaliyyət göstərdiyindən, məhsulun və xidmətin konkret alıcısı, ünvanı olmasını irəli sürür.

5. İqtisadi sistem bazarın tələb-təklif dəyişkənliyinə hazır olmalı, həm maddi-texniki, həm texnoloji, həm də təşkilatı cəhətdən çevik, yarana və baş verə biləcək proseslərə hazır olub, qarşıya çıxan problemlərə optimal variantda cavab tapmalıdır.

**6.9.** Bazar münasibətləri iqtisadi sistemi öz inkişafında böyük təkamül yolu keçərək, daim təkmilləşmə sayəsində müasir səviyyəyə çatmışdır. Mürəkkəb bir quruluşa malik olub, çoxsahəli sistem kimi fəaliyyət göstərən müasir bazar, onu təşkil edən müxtəlif hissələrin (seqmentlərin) qarşılıqlı əlaqəsini tələb edir. Bu isə ilk növbədə bazar sistemində əmtəələrin-xidmətlərin, kapitalın (iqtisadi resursların) və əməyin (iş qüvvəsinin) fasiləsiz hərəkəti, birinin digərinə çevrilməsi, bir-birini qarşılıqlı surətdə əvəz etməsidir. Həmin fasiləsiz hərəkət, axın isə iqtisadiyyatda müxtəlif mülkiyyətçilərin (xüsusi, dövlət, bələdiyyə, qarışıq, xarici, korporativ, səhmdar, şərikli), tələblə təklifin, bazarda formalaşan qiymətlərin, rəqabət mübarizəsinin aparılmasına əsaslanır.

Eyni zamanda bazar sisteminin normal fəaliyyəti üçün ona xidmət göstərən bir sıra sahələr, yaxud bazar infrastrukturu olmalıdır. Deməli, bazar infrastrukturu, bütövlükdə iqtisadiyyatın səmərəli fəaliyyətini təmin edən şərtlər olmaqla yanaşı, eyni zamanda vahid sistemin tərkib hissələridir. Müasir iqtisadi ədəbiyyatda ***infrastruktura istehsal*** (yollar, körpülər, nəqliyyat, boru kəmərləri, elektrik suvarma xəttləri və sair), eyni zamanda ***sosial infrastruktura*** (xəstəxanalar, sağlamlıq ocaqları, məktəblər, kitabxanalar, muzeylər, tamaşa-əyləncə mərkəzləri və sair) ayrılır. İnfrastrukturanın fərqləndirici xüsusiyyətlərindən biri, onun fərdi, şəxsi deyil, ictimai və cəmiyyətin kollektiv tələbatlarını ödəməsidir.

**6.10**. Bazar iqtisadiyyatı infrastrukturunun fəaliyyət göstərən vacib tərkib hissələri kimi əmtəə, fond, (qiymətli kağızlar), valyuta və əmək birjaları, bankları, hərracları, lizinq kampaniyaları, yarmarkalar, sərgi-satışları, hüquq və audit xidmətini, vergi, sığorta, gömrük idarələrini, rabitə-məlumat təşkilatlarını, məşğulluq idarələrini (mərkəzlərini), antiinhisar qurumlarını, kadr hazırlığını göstərmək olar.

Bazar iqtisadi sisteminin təşkili məsələlərinə aşağıdakılar daxildir:

a) Cəmiyyətin malik olduğu iqtisadi resursları istehsal-xidmət dairəsinin müxtəlif sahələri arasında elə bölüşdürmək tələb olunur ki, ən az (minimum, lakin məhsulun keyfiyyətinə xələl gətirmədən) xərclərlə lazım olan əmtəələr-xidmətlər hazırlansın və müəyyən (normal) mənfəət əldə edilsin.

b) Ayrı-ayrı istehsal-xidmət sahələrində fəaliyyət göstərən şirkətlər, müəssisələr, birliklər müəyyən təyinatlı məhsullar hazırlamaq, xidmətlər göstərmək istiqamətində elə ixtisaslaşmalıdırlar ki, onlar yeni texnikadan, qabaqcıl texnologiyadan, mütərəqqi iş üsullarından istifadə etməklə, tədricən daha mükəmməl, eyni zamanda nisbətən ucuz məhsullar buraxmağa, xidmətlər göstərməyə nail olsunlar.

c) Hər bir şirkət, birlik elə iqtisadi resurslardan, yaxud həmin resursların əvəzləyicilərindən məqsədyönlü şəkildə istifadə eyməyi bacarmalıdır ki, iqtisadi fəaliyyətin son məqsədi sayılan optimal səmərəlilik səviyyəsi təmin olunsun.

d) Şirkətlər və müəssisələr, istehsal və peşə yönümündə perspektivdə baş verə biləcək dəyişikliklərə hazır olmalı, gələcəyi görməyi bacarmalıdır. Bu strateji uzaqgörənlik isə tələb edir ki, istehsalın alternativ (əks) variantları hazırlansın, diversifikasiya imkanları araşdırılsın, nəhayət müxtəlif variantlar arasından konkret şəraitə uyğun olan ən optimalı seçilsin.

# Mövzu 7. Dövlətin iqtisadi vəzifələri (funksiyaları)

**7.1** Dövlətin iqtisadi siyasətinin zəruriliyi və mahiyyəti
**7.2** İqtisadi siyasətin məqsəd və vəzifələri
**7.3** Dövlətin iqtisadi siyasətinin istiqamətləri və yolları
**7.4** Azərbaycan Respublikasının iqtisadi siyasətinin uğurları və perspektivləri

**7.1.** Dövlətin cəmiyyətin çoxsahəli təsərrüfat həyatında rolu və onun reallaşdırdığı iqtisadi siyasət xətti, həmin siyasətin zəruriliyi, mahiyyəti, məqsədi, vəzifələri, fəaliyyət mexanizmi iqtisadi nəzəriyyənin mühüm problemlərdən sayılır. Dövlətin iqtisadi siyasətinin əsasında, cəmiyyətin sosial-iqtisadi həyatında baş verən mürəkkəb prosesləri konkret faktlarla öyrənib ümumiləşdirən iqtisadi nəzəriyyə elmi durur. Elmi əsaslar üzərində işlənib hazırlanan iqtisadi siyasət xətti, təkcə bu məsələlərin həlli yollarını göstərməklə kifayətlənməyərək, eyni zamanda gözlənilə biləcək – işsizlik, inflyasiya, istehsalın aşağı düşməsi, yoxsulluğun səviyyəsi kimi proseslərin qarşısını almaq, yaxud bunların təsirini zəiflətmək istiqamətində konkret çıxış yollarını müəyyənləşdirə bilər.

Qeyd etmək lazımdır ki, dövlət siyasi-iqtisadi təsisat (qurum) kimi həmişə olmamışdır və onun meydana çıxaraq, ayrı-ayrı ölkələrdə formalaşması bir sıra ciddi səbəblərlə bağlı olmuşdur. Bu səbəblər sırasında ictimai əmək bölgüsünün dərinləşməsini, təsərrüfat həyatının inkişafını, cəmiyyətin təbəqələşməsini, müxtəlif ölkələrlə ticarət əlaqələrinin genişlənməsini, insanların tələbatlarının artmasını, onların hüquq və təhlükəsizliyinin qorunmasını göstərmək olar.

Dövlətin özünün iqtisadi siyasəti ilə ölkənin təsərrüfat həyatında bilavasitə iştirak etməsinə, yaxud onun iqtisadiyyatı tənzimləməsinə dair mövqelərin müxtəlifliyinə və fərqli cəhətlərinə baxmayaraq, həmin fikirləri 3 qrupa ayırmaq mümkündür. Bir qrup alim və mütəxəssislərin (A.Smit, A.Marşall, L.Mizens, F.Hayek və başqalarının) fikrincə, ümumiyyətlə dövlət iqtisadiyyata qarışmamalı, onun işinə müdaxilə etməməlidir. Digər qrupa daxil olanların (V.Zombart, B.Hildebrant, C.Keyns və onun davamçıları) fikrincə, dövlət yaranmış yeni şəraitin tələblərinə uyğun olaraq, habelə sərbəst bazarın nöqsanlarını aradan qaldırıb tənzimləmək üçün hökmən iqtisadiyyatın işlərinə qarışmalı, yeri gəldikcə ölkənin təsərrüfatı problemlərinə müdaxilə etməlidir. Üçüncü qrupun (P.Samuelson, V.Leontyev, L.Erxad, C.Helbreyt, K.Makkonnell, C.Soros və başqaları) fikrincə müəyyən hüdudlar daxilində, habelə ictimai əhəmiyyət daşıyan təsərrüfat sahələrində dövlətin iqtisadiyyatın fəaliyyətinə müdaxiləsi (tənzimləməsi) şübhəsiz məqsədəuyğun, hətta zəruridir.

Nobel mükafatı laureatı Vasili Leontyev (ABŞ) yazmışdı: «Bazar münasibətləri maraq küləyi ilə iqtisadiyyat gəmisinin yelkənlərini hərəkətə gətirir, dövlət tənzimlənməsi isə gəminin sükanı rolunu oynayır... Küləksiz yelkənli gəmi yerindən tərpənməyəcək, sükansız isə gəmini uğurla idarə etmək mümkün deyildir». Xeyriyyəçi və biznes adamı Cors Soros göstərir ki, dövlətin iqtisadi proseslərə qoşulmaması özbaşınalıq, hədsiz qarışması isə hökm, əmr, inzibatçılıq sistemi yaradır. Onun fikrincə, «bazar ağalığı (market fundamentalist) meylləri müasir iqtisadiyyat üçün doğru sayıla bilməz. Ona görə də elə yollar axtarılıb tapılmalıdır ki, bazar və dövlətdə olan dağıdıcı (mənfi) cəhətlər birləşərək, iqtisadi inkişaf üçün yaradıcı (müsbət) qüvvəyə çevrilsin».

Doğrudan da bir tərəfdən bazar münasibətləri iqtisadi sistemi ona xas olan inhisarçılıq meylləri, sosial ədalətsizlik, işsizlik, inflyasiya kimi nöqsanlar, digər tərəfdən isə inteqrasiya və qloballaşma prosesləri, beynəlxalq bazarda rəqabət mübarizəsi, milli təhlükəsizlik problemləri, informasiya-məlumat toplamaq zəruriliyi, iqtisadiyyatın dövlət tənzimlənməsini irəli sürür. Eyni zamanda dünya ölkələrinin təsərrüfat təcrübəsi sübut etmişdir ki, dövlətin iqtisadiyyata zəif (biganə) təsiri ölkənin normal təsərrüfat həyatında hərc-mərclik (xaos) vəziyyəti yaratdığı kimi onun güclü müdaxiləsi (həddsiz qarışması) da yolverilməz olub, cəmiyyətdə insanların iqtisadi sərbəstliyinə, təşəbbüskarlığına, işgüzar sahibkarlıq-biznes fəaliyyətinə aşkar əngəllar törədir. Ona görə də dövlət öz iqtisadi siyasəti ilə ölkənin təsərrüfat həyatının «oyun qaydalarını» müəyyənləşdirir və bu qayda-qanunlara əməl olunmasına müvafiq orqanları vasitəsilə nəzarət edir. Dövlətin iqtisadi siyasəti, ölkənin təsərrüfat həyatında fəaliyyət göstərən subyektlər (iştirakçılar, agentlər) tərəfindən könüllü (şüurlu), yaxud qanunvericilikdə nəzərdə tutulan müvafiq məcburi (icbari) qaydalarla həyata keçirilir.

Deməli, iqtisadiyyatın dövlət siyasəti səviyyəsində tənzimlənməsinin mahiyyəti – bazar münasibətləri şəraitində qanunverici, icraedici və nəzarət xarakterli tədbirlər vasitəsilə, müxtəlif dövlət orqanlarının, təşkilatlarının ölkənin təsərrüfat həyatı problemlərinin həllinə təsir göstərməsi, nizamlamasıdır. Bu proses dünya miqyasında tarixən 3 iri mərhələ keçmişdir.

***Birinci mərhələ,*** dövlətin hələ iqtisadi məsələlərə və ölkənin təsərrüfat həyatına qarışmamaq dövrünü əhatə edir. Son 250-300 ili əhatə edən bu mərhələ XIX əsrin sonu XX əsrin əvvəllərinə qədər davam etmişdir. Bu mərhələnin təsərrüfat həyatının əsas prinsipi iqtisadi sərbəstlik və bazarda formalaşan qiymətlər hər şeyi həll edir ideyası olmuşdur. Dövlətin iqtisadiyyatın gedişi prosesinə qarışmamaq siyasəti xətti, « faissez-faire» (fransızca «necə gedirsə qoy elə də getsin», yaxud « bizi sakit buraxın» deməkdir) kimi ifadə olunaraq, ilk mərhələdə dünyanın əksər ölkələrinin, xüsusilə də Avropa və Şimali Amerika dövlətlərinin iqtisadi fəlsəfəsi olmuşdur.

***İkinci mərhələ,*** dövlətin iqtisadi siyasəti və ölkənin təsərrüfat həyatının tənzimlənməsinə dair C.M.Keynisin adı ilə bağlı keynsçilik ideyaları dövrü kimi səciyyələnərək, XX əsrin 30-cu illərindən 70-ci illərinə qədər olan müddəti əhatə edir. Birinci dünya müharibəsinin ağır sosial-iqtisadi nəticələri, xüsusilə 1929-1933-cü illərdə bütün dünya iqtisadiyyatını sarsıtmış böhran göstərdi ki, bazar münasibətləri sistemində iqtisadiyyatın kortəbii surətdə öz-özünü tənzimləməsi yolunda aşkar çətinliklər meydana çıxdığından, dövlətin iqtisadi proseslərə qarışması zəruridir.

***Üçüncü mərhələ,*** ötən əsrin 70-ci illərindən başlayaraq XXI əsrin əvvəllərinə qədər olan dövrü əhatə edir. Vaxtilə iqtisadi nəzəriyyədə və dövlətin ölkənin təsərrüfat həyatının tənzimlənməsində çevriliş yaratmış keynsçilik ideyaları, artıq XX əsrin ikinci yarısının yaratdığı mürəkkəb problemləri həll edə bilmirdi. Dövlətin iqtisadiyyata getdikcə güclənən təsir və müdaxiləsi isə onun iqtisadi-sosial səmərəliliyi baxımından istənilən, habelə gözlənilən nəticələri vermirdi. Bu mərhələdə ABŞ iqtisadçısı, Nobel mükafatı laureatı Milton Fridmenin belə bir nəzəriyyəsi geniş yayılmağa başladı ki, dövlət yalnız ölkənin tədavül dairəsində olan pul kütləsini nizamlamalı, başqa məsələlərdə isə istehsalçıların işinə qarışmamalı və təsərrüfat həyatına müdaxilə etməməlidir. *Monetarizm* adlanan bu nəzəriyyənin tərəfdarları iqtisadiyyatın qiymət, inflyasiya, işsizlik, gəlirlərin formalaşması

kimi problemlərinə ölkədə pul kütləsinin tədavül dairəsindəki hərəkəti nöqteyi-nəzərindən yanaşaraq, dövlətin əsas bu məsələni həll etməsini irəli sürmüşlər.

Müasir mərhələdə dünyada gedən inteqrasiya prosesləri və vahid, qlobal təsərrüfat sisteminin formalaşması, dövlət siyasəti, habelə iqtisadiyyatın tənzimlənməsi problemlərinə yeni mövqelərdən yanaşaraq, konkret şəraitə uyğun yaradıcılıqla tədbirlər hazırlamağı tələb edir.

Son 100 il ərzində iqtisadiyyata dövlət müdaxiləsinin miqyaslarını təsəvvür etmək üçün ayrı-ayrı ölkələrin büdcələrinin dinamikasına diqqət yetirmək kifayətdir. Aşağıda verilən cədvəldən bir qrup yüksək inkişaf etmiş ölkələrin büdcə xərclərinin, onların ümumi daxili məhsuluna (ÜDM) nisbətinin necə dəyişdiyini görmək olar (%-lə):

| İllər / Ölkələr | 1900 | 1950 | XXI əsrin əvvəlləri |
|---|---|---|---|
| ABŞ | 7,7 | 22,3 | 32,2 |
| Yaponiya | 15,4 | 25,5 | 43,7 |
| İngiltərə | 14,2 | 34,2 | 41,1 |
| Almaniya | 14,9 | 30,2 | 46,8 |
| Fransa | 10,8 | 28,3 | 53,6 |
| İtaliya | 11,0 | 16,3 | 48,5 |
| Bu ölkələr üzrə yekun | 11,9 | 25,0 | 43,7 |

Cədvəldəki rəqəmlərdən aydın olur ki, dövlətlərin ölkənin təsərrüfat həyatına müdaxiləsinin mənfi meyllər yaratmasına baxmayaraq, hələlik bu prosesin davam etdiyini görürük.

Hər bir dövlətin iqtisadi siyasət xəttinin hazırlanıb həyata keçirilməsi müxtəlif mərhələləri əhatə edir. *Əvvələn* dövlətin iqtisadi məqsədlərinin müəyyənləşdirilməsi və bunların bəyan edilməsi; *sonra*, dövlətin iqtisadi siyasətinin mümkün və alternativ variantlarının hazırlanması; *daha sonra* hazırlanmış iqtisadi siyasətin həyata keçirilməsi; nəhayət, reallaşdırılmış iqtisadi siyasət xəttinin yekunlarının tənqidi təhlili və gələcək inkişaf yollarının müəyyənləşdirilməsi. Yalnız belə kompleskli yanaşma sayəsində, dövlətin iqtisadi siyasətinin uğurlarını təmin etmək mümkündür.

**7.2.** Hər bir dövlətin iqtisadi siyasətinin məqsəd və vəzifələri öz aydın ifadəsini, onun strategiyası və taktikasında tapır. ***İqtisadi strategiya*** – uzunmüddətli iqtisadi siyasət xətti olub, perspektiv üçün irimiqyaslı vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur. İqtisadi strategiya anlayışına iqtisadi siyasətin məqsədi ilə yanaşı, eyni zamanda həmin siyasətin reallaşdırılması istiqamətləri, yolları da daxildir. ***İqtisadi taktika*** isə iqtisadi strategiyada bir məqsəd kimi irəli sürülüb, elmi cəhətdən əsalandırılmşş vəzifələrin konkret surətdə hansı vasitələrlə və necə həyata keçirilməsini nəzərdə tutur. Ümumiyyətlə cəmiyyət həyatında dövlətin iqtisadi siyasətinin ***strategiyası və taktikası*** qarşılıqlı surətdə bir-birini tamamlayaraq, vahid inkişaf konsepsiyasının tərkib hissələrini təşkil edirlər.

Dövlətin iqtisadi siyasətinin son məqsədi, istehsal və xidmət dairəsinin düşünülmüş, tarazlı inkişafı əsasında insana hərtərəfli qayğı göstərmək, onun iqtisadi fəaliyyətinin sərbəstliyini təmin etmək, yaşayış səviyyəsini yüksəltmək, sosial problemlərini həll etmək olmalıdır. Bu mənada siyasət, o cümlədən də dövlətin ümumi daxili və xarici siyasətinin

mühüm istiqamətlərindən, habelə tərkib hissələrindən sayılan iqtisadi siyasət, həqiqətən «bir elm və idarəetmə sənətidir» (Aristotel).

Nobel mükafatı laureatı Pol Samuelson ABŞ dövlətinin timsalında hökumətin iqtisadi siyasət vəzifələrinə aşağıdakıları daxil edir: a) ölkənin təsərrüfat həyatının iqtisadi səmələliyinin artırılması; b) əhalinin gəlirlərinin bölgüsündəki fərqlərin azaldılması və sosial ədalət prinsiplərinin qorunması; c) hökumətin makroiqtisadi göstəricilər (ÜDM, milli gəlir, məşğulluq, işsizlik, inflyasiya səviyyəsi) vasitəsiylə milli iqtisadiyyatın davamlı inkişafına nail olmaq; ç) ölkənin milli mənafeyinin və iqtisadi təhlükəsizliyinin qorunması. Dövlət bu iqtisadi vəzifələrini həyata keçirmək üçün bir sıra hüquqi, iqtisadi, inzibati vasitələrdən istifadə edir.

Dünya Bankının hesabatlarında, dövlətin ölkənin təsərrüfat həyatındakı rolunun beynəlxalq aləmdəki son 50 illik təcrübəsi ümumiləşdirilmişdir. Müasir iqtisadi inteqrasiya və dünya miqyasında qloballaşma nəticəsində vahid təsərrüfat sisteminin formalaşdığı bir şəraitdə mütəxəssislər dövlətin ölkənin çoxcəhətli təsərrüfat həyatındakı rolunu və vəzifələrini belə qiymətləndirirlər: «Dövlət ölkənin təsərrüfat həyatının subyekti yox, iştirakçısı yox, iqtisadi artım və inkişafın təminatçısı (qarantı) rolunu oynamalıdır». Dünya Bankının hesabatında dövlətin ölkə iqtisadiyyatının daha da yüksəlişi üçün tarazlı fəaliyyətinin başlıca istiqaməti və rolu belə müəyyənləşdirilmişdir: a) dövlət qanunçuluğun əsası və qoruyucu olmalıdır; b) dövlət siyasi sabitliyin və makroiqtisadi tarazlığın təminatçısı kimi bütövlükdə iqtisadiyyatın dayanaqlı (stabil), habelə səmərəli inkişafını təmin etməlidir; c) dövlət ətraf mühitin çirkləndirilməsi və korlanması qrşısını almaq üçün təsirli tədbirlər sistemi işləyib, ardıcıl mərhələlərlə həyata keçirməli, eyni zamanda tədricən gərginləşən ekologiya problemlərinə ciddi qayğı göstərməlidir; d) dövlət ölkə vətəndaşlarının təhsil, sağlamlıq, həyat səviyyəsinin yaxşılaşdırılması problemlərini diqqət mərkəzində saxlamalıdır; e) dövlət ölkə vətəndaşlarının iqtisadi hüquqlarının və azadlıqlarının qarantı olmalıdır.

**7.3.** Ümumiləşdirilmiş şəkildə dövlətin ölkə iqtisadiyyatının səmərəliliyinin yüksəldilməsi, sosial ədalətin təmin olunması, makroiqtisadi səviyyədə sabitlik yaradılması, beynəlxalq iqtisadi əməkdaşlıq əlaqələrinin həyata keçirilməsi, ətraf mühitin qorunması və ekologiya problemləri kimi mühüm istiqamətlərdəki geniş əhatəli fəaliyyəti, onun müxtəlif yollardan (formalardan, metodlardan, üsullardan, vasitələrdən) istifadə etməsini şərtləndirir.

Müasir bazar münasibətləri iqtisadi sistemi şəraitində dövlətin iqtisadi siyasəti-inzibati, hüquqi, iqtisadi yollarla həyata keçirilir. Real təsərrüfat həyatında dövlətin iqtisadi siyasətinin inzibati-hüquqi və iqtisadi üsulları əslində şərti bir məna daşıyır, çünki həmin vasitələr o zaman səmərəli olur ki, təcrid edilmiş surətdə deyil, kompleks halında tətbiq olunub fəaliyyət göstərsinlər.

Dövlətin iqtisadi siyasətinin inzibati vasitələri, yolları sırasında onun inhisarlara və inhisarçılığa qarşı antiinhisar tədbirlərini, müəyyən təsərrüfatçılıq fəaliyyəti ilə məşğul olmaq üçün lisenziyalar verməsini, qiymətlər məzənnəsini dəyişdirməsini göstərmək olar. Eyni zamanda dövlət məcburi qaydada məqsədəuyğun saymadığı tikinti obyektlərinin inşasını dayandırmaq, müəyyən qadağanlar qoymaq və icazələr vermək səlahiyyətinə də malikdir. Tədricən dövlətin inzibati metodlar vasitəsiylə iqtisadi həyata müdaxiləsi prosesi məhdudlaşsa da, lakin onun ətraf mühitin qorunması, ekologiya ilə bağlı qayğıları, əhalinin sosial təminatı məsələləri, müasir dövrdə getdikcə daha aktual bir əhəmiyyət qazanır.

Dövlətin öz iqtisadi siyasətinin reallaşdırılmasının hüquqi vasitələrinə gəldikdə, bu dövlətin istehsalçılar (şirkətlər, birliklər, inhisarlar, korporasiyalar) və istehlakçılar (alıcılar) üçün qanunvericilik aktları ilə müəyyənləşdirilmiş «oyun qaydalarına» əməl etmələrini nəzərdə tutur. Bu qanun və aktlar, ölkədə mülkiyyət hüququ və onun formalarını, şirkətlərin fəaliyyət qaydalarını, habelə sazişlər bağlanması şərtlərini, həmkarlar təşkilatları ilə iş verənlərin (sahibkarların) əmək münasibətləri sahəsindəki qarşılıqlı öhdəliklərini müəyyənləşdirir.

Dövlət siyasətinin iqtisadi vasitələri daha geniş olub, pul-kredit, vergi-gömrük, sosial və xarici iqtisadi-ticarət sahələrini əhatə edir. Dövlətin həyata keçirdiyi iqtisadi siyasətin vasitələrindən sayılan ***fiskal siyasət*** həmişə mühüm yer tutmuşdur. Bu siyasət büdcə vəsaitlərinin yaranması və istifadəsi ilə bağlı, dövlətin həyata keçirdiyi maliyyə tədbirlərini nəzərdə tutur. Fiskal siyasətin xarakteri, ilk növbədə dövlət idarəetmə orqanlarının saxlanması xərcləri və onların quruluşu, habelə dinamikası ilə bağlıdır. Dövlətin pul-kredit siyasəti, ölkədəki investisiya mühitinin istiqamətlərini dəyişərək, maliyyə resurslarını daha vacib sayıln istehsal-xidmət dairələrinə yönəldə bilər. Eyni zamanda dövlət özünün qiymət siyasəti ilə inflyasiya proseslərinə qarşı mübarizə aparır, beynəlxalq bazarda milli məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinə, istehsalın modernləşdirilməsinə, onun strukturunun təkmilləşdirilməsinə səy göstərir. Dövlətin sosial siyasətinin reallaşdırılması əhalinin həyat səviyyəsinin yüksəldilməsi, müxtəlif sosial qruplar arasında fərqlərin tənzimlənməsi, yoxsulluğun azaldılması problemlərinin həllinə yönəldilir.

**7.4.** Azərbaycan müstəqillik əldə etdikdən sonra (18 oktyabr 1991) onun keçid mərhələsində həyata keçirdiyi iqtisadi siyasət xəttini bir neçə mərhələyə bölmək olar:

1. Keçid mərhələsi ərəfəsindəki iqtisadi siyasət(1988-1990)
2. Bazar münasibətləri iqtisadi sisteminə keçidin ilk dövrünün iqtisadi siyasəti (1991-1992)
3. 1993-1995-ci illərin iqtisadi siyasət xətti
4. İqtisadi dirçəliş və inkişaf dövrünün iqtisadi siyasəti (1996-cı ildən başlayaraq bizim günlərimizə qədər olan dövr)
5. Dövlətin iqtisadi siyasətinin perspektiv istiqamətləri

Azərbaycanda bazar münasibətlərinə keçid ərəfəsi, keçmiş Sovet İttifaqının vahid təsərrüfat kompleksinin tərkib hissəsi sayılan bir respublikanın mərkəzin əlavəsinə çevrilmiş asılı vəziyyətdəki iqtisadiyyatının tədricən zəifləməsi, ölkənin digər əraziləri ilə əvvəlki çoxcəhətli əlaqələrinin məhdudlaşması, əmtəə-mal qıtlığı ilə səciyyələnmişdi. Belə bir vəziyyət ölkənin təsərrüfat həyatı göstəricilərinin aşağı düşməsinə, formalaşmış iqtisadi əlaqələr sisteminin pozulmasına, əhalinin alıcılıq qabiliyyətinin zəifləməsinə, cəmiyyətin müxtəlif təbəqələrinin sosial-iqtisadi vəziyyətinin pisləşməsinə gətirib çıxarmışdı.

Sovet İttifaqının planlı sosialist təsərrüfat sistemi dağıldıqdan sonra müxtəlif çətinliklərə baxmayaraq, tədricən yeni bazar münasibətləri iqtisadi sisteminə keçid dövrü, xüsusi bir mərhələ kimi mühüm iqtisadi-sosial vəzifələr irəli sürdü. XX əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq təsərrüfat həyatının tədricən bərpası, dövlət mülkiyyətinin özəlləşdirilməsi, aqrar islahatlar aparılması, biznes-sahibkarlıq fəaliyyətinə əlverişli şərait yaradılması, istehsal-xidmət dairəsinin dirçəldilməsi və bütövlükdə ölkə iqtisadiyyatının müxtəlif sahələrinin artım templərinin yüksəlişi ilə səciyyələnir.

Həmin dövrdə neft strategiyasından irəli gələn irimiqyaslı vəzifələrin reallaşdırılması, ölkənin təsərrüfat həyatına xarici investisiyaların cəlb olunması, neft və onunla bağlı

sahələrlə yanaşı, qeyri-neft bölməsinin inkişafı məsələlərinə diqqətin artırılması, ayrı-ayrı regionların sosial-iqtisadi yüksəlişinə dair konkret Dövlət Proqramlarının ardıcıllıqla həyata keçirilməsi, Azərbaycan Respublikasının qloballaşan dünyanın inteqrasiya proseslərinə qoşulması xəttinin genişlənib-dərinləşməsi, xarici iqtisadi-ticarət əlaqələrinin artan dinamikası, ümumi daxili məhsulun (ÜDM) orta illik artım templərinin əvvəllər 5-6%, sonralar 12-15%, 2005-2007-ci illərdə isə 30% artması, eyni zamanda bu inkişaf əsasında əhalinin həyat səviyyəsinin yaxşılaşması meyli, müstəqillik yolunun ciddi uğurlarıdır. Bu dövr ərzində ölkənin ümumi daxili məhsulun, büdcəsinin, xarici iqtisadi-ticarət əlaqələri dövriyyəsinin, sərmayə qoyuluşları həmçinin, minimum və orta aylıq əmək haqqlarının artması meyli, ölkənin sosial-iqtisadi inkişafının davamlı bir xarakter daşıdığını göstərir.

Bazar münasibətləri iqtisadi sisteminin formalaşdığı Azərbaycan Respublikasında iqtisadi-sosial sahələrdə qazanılmış uğurlar, şübhəsiz müasir inteqrasiya və qloballaşma şəraitində, daxili-xarici amillərin təsiri altında, yeniliklərlə səciyyələnən ölkənin təsərrüfat həyatının ayrı-ayrı istiqamətlərində müəyyən nöqsanların, habelə çatışmazlıqların olması təbiidir. Bu problemlər sırasında yoxsulluğun aradan qaldırılması, əhalinin normal məşğulluğun təmin olunması, inflyasiya prosesinin tənzimlənməsini qeyd etmək lazımdır. Eyni zamanda obyektiv-subyektiv səbəblərlə bağlı meydana çıxmış iqtisadiyyatın birtərəfli inkişaf meylləri, korrupsiya və inhisarçılıq halları, «gizli iqtisadiyyatın» fəaliyyəti, qanun çərçivəsində aparılan biznes-sahibkarlıq işlərinə əngəl törətmək cəhdləri dövlətin düşünülmüş iqtisadi siyasəti ilə, uyğun hüquqi, inzibati, iqtisadi tədbirlər kompleksi vasitəsiylə tənzimlənib, bacarıqla idarə olunmalıdır.

Bu problemləri gələcəkdə daha uğurla həll etmək üçün dövlətin cari və ortamüddətli inkişaf Proqramları ilə yanaşı, proqnoz xarakterli, uzunmüddətli iqtisadi-sosial yüksəliş perspektivlərini əhatə edən vahid milli inkişaf Konsepsiyasının işlənib hazırlanması məqsədəuyğundur. Dünya təsərrüfat həyatı təcrübəsində, müasir elmi-texniki inqilabın nailiyyətlərinə və milli iqtisadiyyatın xarici investorlarla qarşılıqlı faydalı əməkdaşlığı şəraitində ölkənin daxili iqtisadi resurslar potensialına əsaslanan bu tipli, 20-30 il üçün nəzərdə tutulan Konsepsiyalar vaxtilə ABŞ, Fransa, Almaniya, Yaponiya, son dövrlərdə isə Çin, Hindistan, habelə başqa ölkələrdə, o cümlədən də Rusiyada bu işə başlanması və həyata keçirilməsi, öz konkret müsbət nəticələrini vermiş, yaxud verməkdədir.

Bu istiqamətdə istehsal və xidmət sahələrinin dünya inteqrasiya proseslərinin dinamikasını nəzərə alan elə iqtisadi siyasət xətti formalaşmalıdır ki, bazar münasibətləri sisteminin «nə istehsal etməli, necə istehsal etməli, kimin üçün istehsal etməli» prinsiplərinə ölkənin maraqları, habelə onun iqtisadi təhlükəsizliyi baxımından milli iqtisadiyyatın səmərəliliyi təmin olunsun. Bu mənada neft strategiyasının reallaşdırılmasının uğurlu nəticələrinin yaratdığı böyük imkanlar, gələcəkdə hökmən «neft kapitalını insan kapitalına çevirək» ideyasının həyata keçirilməsinə yönəldilməlidir.

Tədricən formalaşan müasir vahid dünya təsərrüfat sistemi şəraitində, ayrı-ayrı milli iqtisadiyyatların qloballaşan planetin genişlənib-dərinləşən inteqrasiya proseslərində öz həqiqi mövqelərini müəyyənləşdirmələri zəruriliyi, Azərbaycan Respublikasının da elmi-nəzəri və praktik-əməli meyarlar baxımından hərtərəfli əsaslandırılmış uzunmüddətli milli iqtisadi-sosial inkişaf Konsepsiyasının hazırlanıb ardıcıl mərhələlərlə reallaşdırılması, şübhəsiz ölkəmizin gələcəkdə daha sanballı uğurlar qazanmasını təmin edəcəkdir.

# Mövzu 8. ABŞ iqtisadiyyatinda xüsusi (özəl) və dövlət bölmələrinin fəaliyyəti

**8.1** Xüsusi sahibkarlıq fəaliyyəti və onun formaları
**8.2** ABŞ iqtisadiyyatında dövlət bölməsi və hakimiyyət orqanları
**8.3** Maliyyə və vergi orqanlarının fəaliyyəti
**8.4** ABŞ-ın beynəlxalq iqtisadi-ticarət əlaqələri

**8.1.** Bazar münasibətləri iqtisadi sistemi sahibkarlıq fəaliyyəti ilə six bağlı olub, onun fərqləndirici xüsusiyyətlərindən biridir. Xüsusi mülkiyyətə, tələb-təklif prinsiplərinə, sərbəst iqtisadi fəaliyyətə, dəyişkən bazar qiymətlərinə, rəqabət mübarizəsinə əsaslanan bir iqtisadi sistemdə sahibkarliq fəaliyyəti, onun hüquqi bazasinin fomalaşması, təşkilat-quruluş müxtəlifliyi, habelə rastlaşdıqları ayrı-ayrı problemlərin hakimiyyət orqanları səviyyəsində həlli, mühüm əhəmiyyətə malikdir.

Elmi-nəzəri baxımdan ***sahibkar*** bazar rəqabəti mühitində yaradıcı iqtisadi, təşkilati, idarəetmə qabiliyyətlərinə malik, ən mürəkkəb və çətin vəziyyətlərdə belə düzgün qərarlar qəbul edən, ağıllı risk etməyi bacaran təşəbbüskar iş adamıdır. Cəmiyyətdə sahibkarlıq fəaliyyətini müəyyən cəhətlərinə hələ çox qədim vaxtlardan rast gəlinsə də, lakin insan fəaliyyətinin bu təsərrüfatçılıq növü (forması, tipi), bəşəriyyət tarixində üçüncü əmək bölgüsünün yaranmasi ilə bağlı olub, tacirlər təbəqəsinin meydana çıxmasıyla əlaqədardır. Bu mənada sahibkarlıq xüsusi bir iqtisadi fəaliyyət sahəsi kimi müxtəlif təyinatlı əmtəə-xidmətlər bazarında tələblə-təklif arasında tarazlıq yaradılması işinə xidmət edir.

Sahibkarlıq fəaliyyətinin ***obyekti*** – müxtəlif təyinatlı əmtəələrin istehsalı, xidmətlərin göstərilməsi və onların satışıdır. Bu geniş fəaliyyət növünün konkret obyekti avtomobil istehsalından başlamış meyvə-tərəvəz yetişdirilməsinə qədər və bank-sığorta xidmətindən, gözəllik salonuna, əyləncə mərkəzlarinə, internet klublarına kimi müxtəlif sahələr ola bilər.

Bazar münasibətləri sistemində insanların müxtəlif təsərrüfatçılıq fəaliyyəti ilə sərbəst məşğul olmaq hüququ təmin edildiyindən, rəsmi sürətdə müəyyənləşdirilmiş qayda-qanunlara («iqtisadi oyun» prinsiplərinə) əməl edən hər bir şəxs sahibkarlığın ***subyekti*** sayıla bilər. Şübhəsiz, bu hüquq müəyyən məsuliyyət, səriştə, bacarıq, maliyyə imkanları ilə birləşdikdə konkret səmərəli iqtisadi nəticələr verə bilər. Mütəxəssislərin fikrincə, hər 100 nəfərdən yalnız 5-7 nəfəri əsl biznes-sahibkarlıq fəaliyyəti qabiliyyətinə malik olurlar. Bu mənada sahibkarlıq fəaliyyəti də bir istedaddır.

Müasir dövrdə sahibkarlığın müxtəlif formaları vardır. Bu formalar ilk növbədə fəaliyyət növünə (istehsal, xidmət), mükiyyətə (xüsusi, dövlət, bələdiyyə, qarışıq), istehsal həcminə (kiçik, orta, iri, nəhəng) görə bir-birindən fərqlənirlər. Bu fərqlənmə meyarlarından asılı olmayaraq, sahibkalığın bütün formalarının təşkilati-iqtisadi forması müəssiələridir, şirkətlərdir, iri birliklərdir. Onların əsas məqsədi və fəaliyyətlərinin hərəkətverici qüvvəsi (motivi), yüksək mənfəət əldə etməkdir.

Ayrı-ayrı ölkələrin malik olduqları təbii sərvətlərdən, iqtisadi resurs imkanlarından, keçdikləri tarixi təkamül yolunun özünəməxsus xüsusiyyətlərindən, çatdıqları sosial-iqtisadi inkişaf səviyyəsindən, əhalisinin peşə-ixtisas istiqamətindən, adət-ənənələrindən, milli mentalitetindən asılı olaraq, təbiidir ki, çoxcəhətli sahibkalrlıq fəaliyyətinin növlərinin təsərrüfat həyatında tutduğu mövqe və oynadiğı rol xeyli fərqli formalaşmışdır.

Dünyanın yüksək inkişaf etmiş dövlətlərində iri və nəhəng biznes-sahibkarlıq fəaliyyəti ölkə iqtisadiyyatında öz istehsal həcmi göstəriciləri baxımdan həlledici sayılsa da, kiçik və orta sahibkarlığın inkişafı problemlərinə də ciddi qayğı göstərilir. İnkişaf etməkdə olan ölkələr qrupuna gəldikdə, kiçik və orta sahibkarlıq fəaliyyəti, dövlət bölməsi, xarici şirkətlərlə birgə (müştərək) qarşılıqlı əməkdaşlıq, habelə hakimiyyət orqanlarının nəzarəti altında inkişaf edir. Postsosialist və postsovet ölkələrində isə bazar münasibətləri iqtisadi sisteminin təməli sayılan xüsusi mülkiyyətin mürəkkəb, habelə ziddiyətli formalaşması prosesi getdiyindən, sahibkarlıq-biznes fəaliyyətinin kiçik, orta, iri istiqamətlərinin optimal nisbətləri hələ tam sabitləşməmiş, başa çatmamışdır.

ABŞ-da xüsusi (özəl) bölməyə ev təsərrüfatları və şirkətlər, dövlət (ictimai) bölməyə isə mərkəzi (federal), bölgə (region) və yerli (bələdiyyə) səviyyəsində hakimiyyət orqanlarının iqtisadi fəaliyyəti daxildir. XXI əsrin əvvəllərinə ABŞ iqtisadiyyatında xüsusi bölmənin payı 88-90%, dövlət bölməsinin payı isə 10-12% olmuşdur. Ölkənin bütün iqtisadi resurslarının (maddi-əmək-maliyyə) son təchizatçısı (göndərəni) və əsas istehlakçı sturkturlarından (qruplarından) sayılan ev təsərrüatları bir yaxud bir neçə nəfərdən ibarət təşkil olunaraq fəaliyyət göstərirlər. Əksər hallarda ailəvi xarakter daşıyan ev təsərrüfatlarının sayı hazırda ABŞ-da 110 milyona yaxındır. Bu təsərrüfat vahidləri əmək haqqı, mülkiyyət, əmanət, səhm sahibləri kimi əldə etdikləri gəlirin (mənfəətin) müəyyən hissəsini müxtəlif vergilər şəklində ödəyir, yerdə qalan hissəsini isə şəxsi istehlaka və yığıma yönəldirlər. XXI əsrin əvvəllərində ABŞ-da ev təsərrüfatlarının gəlirləri aşağıda verilmiş sxemdəki müxtəlif mənbələr hesabına formalaşmişdır.




ABŞ-da ev təsərrüfatları arasında onların ümumi (məcmu) gəlirlərinin bölüşdürülməsi öz qeyri-bərabərliyi ilə fərqlənmişdir. Ölkədə ev təsərrüfatlarının 20%-i gəlirlərin 50,2%-inə sahib olduğu halda, 80%-inə isə bu gəlirin 49,8%-i çatır. Həmin ev təsərrüfarlarının 4 qrupa bölsək belə bir mənzərə alınır:

a) birinci qrupa (20% ev təsərrüfatlarına) gəlirlərin 23%-i;

b) ikinci qrupa (20% ev təsərrüfatlarına) gəlirlərin 14,6%-i;

c) üçüncü qrupa(20% ev təsərrüfatlarına) gəlirin 8,7%-i;

ç) dördüncü qrupa (20% ev təsərrüfatlarına) gəlirin 3,5%-i düşür.

XXI əsrin birinci onilliyə ABŞ-ın ev təsərrüfatlarının gəlirlərinin orta hesabla 84%-i şəxsi istehlaka getmiş, 3%-i yığıma yönəldilmiş və 13%-i isə isə gəlir vergisi kimi ödənilmişdir. Qeyd etmək lazımdir ki, əgər XX əsrin 40-cı illərində ev təsərrüfatları öz gəlirlərinin cəmi 3-4%-ini, yaxud 3,3 milyard dollar həcmində gəlir vegisi ödəmişdilərsə, artıq XXI əsrin əvvəllərində bu məbləğ onların gəlirlərinin 14-16%-ini təşkil edərək, 1 trilyon dolları ötmüşdür.

Bütövlükdə ev təsərrüfatlarının yığımı – sığorta, investisiya, səhmlər əldə edilməsinə sərf olunur və onların gəlirlərinin bir-neçə faizini təşkil edir. Ev təsərrüfatları öz gəlirlərinin təxminən 30%-ini gündəlik tələlat mallarına, 10-12%-ini uzunmüddətli istehlak mallarına, 60%-ə qədərini isə müxtəlif təyinatlı xidmətlərə sərf edirlər.

ABŞ iqtisadiyyatinda ev təsərrüfatlarindan sonra, xüsusi (özəl) bölmənin quruluşunda (sturkturunda) müxtəlif təyinatlı müəssisələri, şirkətləri, sahələri əhatə edən biznes sahibkarlıq fəaliyyəti mühüm yer tutur. Qeyd edək ki, ***müəssisə*** – zavod, fabrik, şirkət, mədən, anbar, mağaza formasinda əmtəələrin-xidmətlərin istehsali və bölgüsü üzrə bir, yaxud bir neçə vəzifəni (funksiyani) yerinə yetirən obyektdir. ***Şirkət*** – bu müəssisələrə sahib olan və onları idarə edən bir qrumdur. Şirkətin bir və yaxud bir neçə müəssisəsi ola bilər. ***Sahə,*** eyni tipli yaxud oxşar məhsullar istehsal edən şirkətlər qrupudur.

İstehsal-satiş həcminə görə müəssisələr, şirkətlər və sahələr bir-birindən xeyli fərqlənirlər. Bunların arasında bir-iki nəfərin işlədiyi və gündəlik satış həcmi 200-300 dollar təşkil edən xırda, ailəvi tipli istehsal-xidmət obyektlərindən (vahidlərindən) başlayaraq, yüz minlərlə fəhlə-qulluqçunun çalışdığı, habelə illik məhsul satışı həcmi milyardlarla dollara çatan nəhəng korporasiyalar da vardır.

ABŞ-da bu tipli işgüzar biznes-sahibkarlıq fəaliyyətinin 3 əsas forması geniş yayılmışdır: a) fərdi xüsusi şirkətlər b) şərikli (müştətək, yoldaşlıq, əmədaşlıq) şirkətləri c) korporasiyalar. Onların say və satış həcmlərindəki xüsusi çəkisi aşağıdakı sxemdə verilmişdir.

**Biznes müəssisələrinin say və daxili məhsulda xüsusi çəkisi (%-lə)**

| Biznes formalarının saya görə bölgüsü | Biznes formalarının satiş məbləğinə görə bölgüsü |
|---|---|
| Fərdi xüsusi şirkətlər (72%) | Korporasiyalar (87%) |
| Korporasiyalar (20%) | Şərikli şirkətlər (9%) |
| Şərikli şirkətlər (8%) | Fərdi xüsusi şirkətlər (4%) |

***Fərdi xüsusi şirkət,*** bir nəfərin sahib olduğu və şəxsi mənafeyinə uyğun, müəyyən mənfəət əldə etmək məqsədiylə, öz nəzarəti, məsuliyyəti altında işgüzar biznes-sahibkarlıq fəaliyyətidir. Fərdi xüsusi sahibkarlıq fəaliyyətinə başlayan hər bir şəxs ilk növbədə maddi resurslar, xammal, avadanlıq, əldə etməlidir. Sahibkarlıq fəaliyyətinin fərdi təşkili, istehsal-xidmət sahəsinin ən sadə (bəsit) ilk forması kimi bir sıra üstünlüklərlə yanaşı, eyni zamanda nöqsan, habelə çatışmayan cəhətlərə də malikdir. Onun üstünlükləri sırasında, işin təşkili prosesində hüquqi və bürokratik əngəllərin olmamasını, müəyyən xərclərlə rastlaşmamasını, sahibkarın müstəqilliyini, onun təşəbbüskar fəaliyyət göstərmək imkanlarını qeyd etmək lazımdır. Bu işgüzar fəaliyyətin nöqsan cəhətlərinə gəldikdə, fərdi sahibkarın maliyyə imkanları məhdud, iş günü xeyli uzun, zəhməti çox, mənfəəti isə azdır. O, həm təchizatçı, həm nəzarətçi, həm də bilavasitə satıcı işlərini yerinə yetirir. Onun müflis olaraq nəinki mənfəətini, hətta illər boyu əldən etdiyi əmlakı, topladığı yığımını itirmək risqi böyükdür.

Fərdi xüsusi şirkətlərin inkişafı təbii olaraq ***şərikli*** (müştərək, yoldaşlıq, əməkdaşlıq) ***şirkətlrin*** sahibkarlıq fəaliyyətinə əlverişli imkanlar yaradır. Birgə sahibkarlıq fəaliyyətinin

təşkilinə əsas səbəb, fərdi şirkətlərə xas olan məhdudiyyət və nöqsanları aradan qaldıraraq, 2 və daha çox sahibkarın maliyyə imkanlarına, işguzar əlaqələrinə, bacarığına arxalanmaqla, yüksək mənfəət əldə etməkdir. Şərikli şirkətlərin fəaliyyəti onun müştərək sahibləri tərəfindən konkret vəziyyətdən asılı olaraq şifahi razılaşma və yazılı öhdəliklər əsasinda həyata keçirilə bilər. Qeyd etmək lazımdır ki, birgə şirkətlərin fəaliyyətində iştirak edənlərin rolu müxtəlif olur. Əməkdaşlıq edənlərin bəziləri şirkətin gündəlik fəaliyyətində fəal iştirak etdikləri halda, digərlər yalnız bir payçı kimi öz maliyyə resurslarını verərək, birgə şirkətin idarə olunmasi işlərinə qarışmırlar.

Bazar münasibətləri iqtisadi sistemində kifayət qədər geniş yayılmış şərikli sahibkarlıq formasınının həm müsbət, həm də mənfi cəhətləri vardır. Şərikli sirkətləri təşkil etmək çətin deyildirdir, onların birgə fəaliyyəti tam könüllük prinsipinə əsaslanır, ixtisaslaşmanı dərinləşdirir, bir neçə sahibkarların maliyyə imkanlarını birləşdirir, onların kredit əldə etməsi asanlaşır, banklar isə biznesin bu fəaliyyət formasını daha etibarlı sayaraq, onlarla həvəslə əməkdaşlıq edirlər. Birgə əməktaşlıq formasının ziddiyyətli və mənfi cəhətləri kimi bu fəaliyyət gedişində bir-birini başa düsməmək hallarını, müəyyən məsləhətlərə yanaşmalarda narazılıq olduğunu, maliyyə cətinliklərinin meydana cıxmasını, obyektiv-subyektiv səbəblərlə bağlı şəriklərdən birinin fəaliyyətini dayandırması ilə qarşıya çıxan çətinlikləri, nəhayət şəriklərdən hər birinin tək özünün işi üçün deyil, eyni zamanda bütövlükdə başqalarının da fəaliyyəti üçün məsuliyyət daşıdığını göstərmək olar. Amma bu neqativ cəhətlərə baxmayaraq, ayrı-ayrı ölkələrin çoxsahəli təsərrüfat həyatının müxtəlif istehsal-xidmət dairəsində geniş yayılmış şərikli sirkətlərin sahibkarlıq fəaliyyəti müəyyən problemlərlə qarşılaşsa da, onlar meydana çıxır, formalaşır, fəaliyyət göstərir, gah yüksəlir, gah dağılır, yenidən təşkil olunaraq fəaliyyətə başlayırlar.

***Korporasiya*** – biznes fəaliyyətinin təşkilatı-hüquqi formasi kimi yüksək inkişaf etmiş ölkələrin, xususilə də ABŞ-ın çoxsahəli təsərrüfat həyatında müasir mərhələdə aparıcı bir rol oynayır. Ölkə iqtisadiyyatında onların sayının şirkətlərin ümumi sayının 20%-ini təşkil etməsinə baxmayaraq, korporasiyalar əmtəə və xidmətlər satışının 87%-ini əllərində cəmləşdirmişlər. Korparasiyalarda onun sahibi sayılan konkret adamlar yoxdur. Burada şirkətlər ona sahib olan şəxslərdən aralanmışlar. Korporasiya onun səhimlərinin sahibləri, səhimdarlar tərəfindən seçilmiş İdarə Heyəti tərəfindən idarə olunur. Rəsmi qaydada «hüquqi səxs» statusu almış korporasiya müxtəlif təyinatli məhsulları istehsal edib satmaq üçün iqtisadi resuslar alır, banklardan borc götürür, kredit verir, məhkəmədə iddiaçi və ya cavabdeh kimi çıxış edir, habelə başqa tipli müəssisələrin (şirkətlərin) yerinə yetirdiyi vəzifələri həyata keçirir.

Korporasiylar biznesin digər formalarına nisbətən daha səmərəli sürətdə maliyyə kapitalını özünə cəlb edə bilir, başqa biznes formalarının istifadə edə bilmədiyi səhmlər satışından faydalanır və beləliklə əhalinin böyük hissəsinin maliyyə resuslarını ümumi bir fondda cəmləşdirməyi bacarır. Korporasiyaların səhmləri, onun mülkiyyətinin bir hissəsi kimi dəyərləndirilir, istiqrazları isə öz borcunu müəyyən faizlə ödəyəcəyi barəsində öhdəlik (vəd vermək) vəzifəsini yerinə yetirir.

Korporasiyanın səhmlərini alan çoxsaylı səhmdarlar qurupu, müəyyən məbləğdə gəlir əldə etmək naminə, korporasiyanın idarə olunmasında fəal iştirak etməyərək, bu işi başqalarının aparması ilə razılaşırlar. Səhm və istiqrarların alıcılarla satıcılar arasında

hərəkətinin sürətləndirilməsində qiymətli kağızlar, yaxud fond bijaları mühüm rol oynayırlar.

Deməli, korporasiyalarin üstünlükləri kimi onların daha səmərəli fəaliyyət imkanlarını; ölkə daxilində və xaricdə geniş əlaqələr qura bilmək bacarığını; elmi-texniki naliyyətlərdən dolğun və vaxtında istifadə etmələrini;onun səhmdarlarının məhdud çərçivədə məsuliyyət daşıdıqlarını; korporasiyaların hüquqi bir şəxs kimi əldən-ələ keçməsinə baxmayaraq, xeyli müddət fəaliyyət göstərmək qabiliyyətini; onu təşkil etmiş insanlardan, hətta korporisiyanın İdarə Heyyətindən mütləq mənada asılı olmamasını qeyd etmək lazımdır.

Eyni zamanda korporasiyanın nöqsanlarına gəldikdə, ilk növbədə orada mülkiyyətlə onun sahibinin (mülkiyyətçinin) və mülkiyyətlə onun idarə edilməsi vəzifələrinin bir-birindən ayrılmasıdır. Səhmdara çevrilmiş mülkiyyətçi, həm onun sahibidir, həm də əslində öz mülkiyyətindən «uzaqdır». Doğrudur, səhmdar hüquqi cəhətdən mülkiyyətçidir, sahibdir. Lakin faktiki sürətdə o öz mülkiyyətini idarə etmir və könüllü sürətdə müəyyən gəlir naminə bu hüququ başqalarına vermişdir. Bu mənada səhmdara çevrilmiş mülkiyyətçi, sanki virtual internet oyununun iştirakçısıdır.

Digər nöqsan cəhət, korporasiyanın gəlirlərindən (mənfəətindən) iki qat vergilərin tutulmasıdır. Birinci dəfə korporasiyalar biznes-sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxs kimi vergi ödəməyə məcburdurlar. İkinci dəfə isə korporasiyaların səhmlərinin sahibləri, onlara çatan gəlirlərin müəyyən faizini, fiziki şəxslərin gəlir vergisi qaydalarına uyğun olaraq ödəməlidirlər. Təsadüfi deyildir ki, ABŞ-da belə bir fikir geniş yayılmışdır: «Ölümdən və vergilərdən qaçıb yayınmaq mümkün deyildir».

Müasir dünya ölkələrinin, o cümlədən də ABŞ-ın təsərrüfat həyatında bir sıra korporasiyalar biznes-sahibkarlıq fəaliyyətinin nəhəng nümayəndələri kimi iştirak edirlər. XXI əsrin əvvəlinə müxtəlif dövlətlərdə yerləşən dünyanın ən iri 10 korporasiyanın illik gəlirlərinin ümumi həcmi aşağıdaki kimi olmuşdur:

Dünyanın 10 ən iri korporasiyasından 5-nin iqamətgahı ABŞ-da yerləşir və onların illik gəlirinin həcmi bir çox ölkələrin ümumi daxili məhsulundan (ÜDM) dəfələrlə çoxdur. Son məlumatlara görə ABŞ-da 90 korporasiyanın illik gəliri 20 milyard dolları və 187 şirkətin gəliri isə 10 milyard dolları ötür.

| | **Korporasiyanın adı və yerləşdiyi ölkə** | **Korporasiyanın illik gəliri (mlrd. dollar)** |
|---|---|---|
| | Wal-Mart (ABŞ) | 247 |
| | Ceneral-Motors (ABŞ) | 187 |
| | Exxson-Mobil (ABŞ) | 182 |
| | Shell (İngiltərə-Hollandiya) | 179 |
| | British Petroleum (İngiltərə) | 179 |
| | Ford-Motor (ABŞ) | 164 |
| | Daimler-Chrysler (Almaniya) | 141 |
| | Tayota (Yaponiya) | 132 |
| | Ceneral-Elektrik (ABŞ) | 132 |
| | Mitsubishi (Yaponiya) | 109 |

Korporasiya və iri şirkətlərin fəaliyyətlərindəki ciddi problemlərdən biri, *«pirinsipal-agenit»*, yeni səhmdarlarla (mülkiyyətçilərlə) menecerlər (mülkiyyəti idarə edənlər)

arasındakı münasibətlərdə meydana çıxan ziddiyyətli məqamlardır. Mülkiyyətçiləri ilk növbədə gəlirlərinin artması və səhmlərinin real satış-bazar qiymətlərinin yüksəlməsi maraqlandırdığı halda, menecerləri daha nüfuzlu vəzifələr tutmaq, habelə müxtəlif yollarla (hətta korporasiyanın, şirkətin ümumi mənafeyinə uyğun, səmərəli olmasa da) öz şəxsi mənfəətləri düşündürür. Bu meyllər özünü bahalı ofis binalarının inşasında, onun dəbdəbəli bəzədilməsində, əlavə israfçı xərclərə yol verilməsində göstərir. Bu məsələləri həll etmək və «pirinsipal-agent» münasibətlərini «yumuşaltmaq» yolunda müxtəlif variantlardan istifadə olunsa da, lakin təkcə iqtisadi deyil, eyni zamanda sosial-pisixolaji hallarla bağlı mürəkkəb problemin aradan qaldırıldığını söyləmək çətindir.

Müasir dövrdə iri istehsal və xidmət biznesilə məşğul olan korporosiyalar təkcə ölkə daxilində deyil, dünya miqyasında baş verən inteqrasiya, habelə qloballaşma proseslərinin məntiqi nəticəsi kimi trans milli korparasiyalar (TMK) formasında beynalxalq aləmdə fəaliyyət göstərməkdədirlər.

Birləşmiş Millətlər Təşkilatının məlumatlarına görə hazırda dünyada 70 min TMK və onların müxtəlif ölkələrdə çoxsaylı filialları fəliyyət göstərir. Onlar müasir dünyanın sənaye ticarət əlaqələrinin üçdə iki hissəsinə nəzarət edirlər. ABŞ, Qərbi Avropa, Yaponiya, Cənub-Şərqi Asiya, Afrika və Cənubi Amerikada yerləşən 500 ən iri TMK planetin istehsal, xidmət, investisiyalar, ticarət sahələrində aparici rol oynayırlar.

**8.2.** ABŞ iqtisadiyyatı əsasən xüsusi (özəl) mülkiyyət münasibətləri və bu təməldə sahibkarlıq-biznes fəaliyyətinin müxtəlif hüquqi-təşkilatı formaları üzərində qurulsa da, müasir mərhələdə ölkənin təsərrüfat həyatı qarışıq iqtisadiyyat (mixed economy), yəni dövlət, xüsusi, bələdiyyə, xarici investorların mülkiyyətlərinin qarşılıqlı birgə əməkdaşlığı kimi səciyyələndirilir.

Bununla yanaşı, hazırda ABŞ iqtisadiyyatında dövlət bölməsi (public sector) müəyyən yer tutur və onun tərkibində hərbi strateji, milli müdafiə, təhlükəsizlik xarakterli obyektlərlə yanaşı, istehsal-xidmət təyinatlı sahələr də fəliyyət göstərir. Son statistika məlumatlarına görə XXI əsrin əvvəllərinə ölkə iqtisadiyyatında dövlət mülkiyyətinin xüsusi çəkisi 16-18%, ümumi daxili məhsul istehsalında isə 7-9% təşkil edir. Dövlət orqanları ölkənin təsərrüfat həyatının iştirakçıları (subyektləri) olmaqla yanaşı, eyni zamanda müxtəlif səviyyələrdə iqtisadiyyatın tənzimlənməsi və idarə olunması işində fəal iştirak edirlər.

ABŞ-da dövlət hakimiyyət orqanlarının iqtisadi fəaliyyəti, federal (mərkəzi), regional (bölgə, stat) və yerli (bələdiyyə) səviyyəsində fəal surətdə həyata keçirilir. Ölkənin hakimiyyət orqanları və ilk növbədə ABŞ hökuməti, bazar münasibətləri iqtisadi sisteminin səmərəli fəaliyyət göstərməsi üçün zəruri hüquqi bazanın yaradılmasına ciddi diqqət yetirməklə yanaşı, eyni zamanda həmin qayda-qanunların həyata keçirilməsini təmin edir. Ölkədə yaradılaraq, zaman keçdikcə təkmilləşdirilən hüquqi baza, müxtəlif təyinatlı və həcmli (kiçik, orta, iri, nəhəng) biznes fəaliyyəti ilə məşğul olan şirkətlərin (müəssisələrin) statusunu müəyyənləşdirir; xüsusi mülkiyyət hüququna, habelə onun qorunmasına təminat verir; bağlanmış sazişlərin şərtlərinin vaxtında yerinə yetirilməsinə nəzarət edir.

Deməli, rəsmi hakimiyyət orqanları ölkənin təsərüfat həyatının «oyun qaydalarını» müəyənləşdirir, müxtəlif təyinatlı şirkətlərin çoxcəhətli əlaqələr sistemini qanunlar çərçivəsində tənzimləyib nəzarətdə saxlayır, təchizatçılarla (ev təsərrüfatları ilə) hazır

məhsullar hazırlayan, xammalı emal edən müəssisələr (şirkətlər) arasında, bazar rəqabəti prinsipləri əsasında ədalətli qarşılıqlı münasibərlərin formalaşmasına kömək göstərirlər.

Eyni zamanda hakimiyyətin müəyyən strukturları (orqanları), biznes və sahibkarlıq fəaliyyəti gedişində yaranan mübahisələr, anlaşılmazlıqlar, ziddiyyətlərin həllində konkret vəziyyəti nəzərə alaraq bəzən məsləhətçi, bəzən isə öz səlahiyyətləri daxilində cəzalandırıcı vəzifəsini yerinə yetirirlər. Bütün mübahisəli mülki, istehsal və xidmət satış məsələlərində qarşıya çıxan məsələlərin həllində son söz yalniz müstəqil fəaliyyət göstərən məhkəmə orqanlarına məxsusdur. Hakimiyyət orqanlarının bu istiqamətdəki səmərəli fəaliyyəti ölkədə iqtisadi resursların bölgüsünü yaxşılaşdırır, əmtəə dövriyyəsini sürətləndirir, ixtisaslaşmanı daha da dərinləşdirir, satışa çıxarılan məhsulların keyfiyətini yüksəldir, bağlanan ticarət müqavilələrinin, sazişlərinin iqtisadi təhlükəsizliyini xeyli artır.

Bazar münasibətləri iqtisadi sisteminin əsas tənzimləyici mexanizmi rəqabət olduğundan, məhz bu hərəkətverici qüvvə həm iqtisadi resursların təchizatçıları, həm də istehsalçıları alıcıların (istehlakçıların) tələblərinə uyğunlaşmağı irəli sürür. Rəqabət şəraitində alıcılar həlledici amil, yaxud bazarda «hakim qüvvə»; bazar-alıcılar üçün vasitəçi, səbəb (agent); şirkət isə onların xidmətçisidir. Lakin bazarda bir inhirsarçı şirkət ağalıq etdikdə, qiymətləri ozü müəyyənləşdirdikdə, şübhəsiz alıcıların suverenliyi pozulacaq və onlar zərər görəcəklər. Doğrudur, bəzi istehsal-xidmət sahələrinin fəaliyyət xüsusiyyətlərindən çıxaraq, ayrı-ayrı ölkələrdə təbii inhisarçılığa (yanacaq-energetika, nəqliyyat-rabitə, hərbi-müdafiə, su təchizatı sahələrində) dövlətin, yaxud xüsusi şirkətlərin timsalında icazə verilsə də, onların tənzimlənməsi, nəzarətdə saxlanması həyata keçirilir . Ona görə də hələ 1890-cı ildə ABŞ-da qəbul olunmuş inhisarların fəaliyyətini məhdudlaşdıran Şerman qanundan başlayaraq, sonrakı dövrdə əksər ölkələrdə geniş yayılmış bu istiqamətli tədbirlərin həyata keçirilməsi, şübhəsiz öz müsbət rolunu oynamışdır. Lakin dünya təcrübəsinin təsdiq etdiyi kimi inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması və onun üzərində dövlət, habelə ictimai nəzarətin həyata keçirilməsi, ilk növbədə hökümətin nüfuzu, iradəsi, qətiyyətindən asılıdır.

Bazar münasibətləri iqtisadi sistemi «ədalət» prinsipləri ilə deyil, «səmərəlilik» meyarları ilə fəaliyyət göstərdiyindən, dövlət orqanları cəmiyyətin müxtəlif tələbələrinin gəlir və həyat səviyyəsindəki fərqləri tənzimləmək üçün müxtəlif vasitə, habelə Proqlamlardan istifadə edirlər. Ölkənin ümumi gəlirinin yenidən bölünməsi hesabına həyata keçirilən sosial tədbirlər sırasında: a) transfer (ərzaq talonları paylanmasını, xeyriyyə cəmiyyətlərinin çeklərini, əlillərə və imkansız yaşlılara, işsizlərə yardımı) ödənişlərini; b) bazarda formalaşan qiymətlərə təsiri, femerlərə olunan güzəşt və subsidiyaları, yəni əvəzsiz yardımları; c) minimum əmək haqqının müəyyənləşdirilməsini; d) vergilərin ödənilməsindəki fərqli yanaşmanı göstərmək olar.

Dövlət hakimiyyəti orqanlarının bu istiqamətdəki fəaliyyəti və bu işin miqyasları ABŞ cəmiyyətində birmənalı qarşılanmayaraq, həmişə qızğın mübahisələr doğurmuşdur. Məlumdur ki, hakimiyyət orqanlarının gəlirlərin yenidən bölünməsi yolu ilə tənzimləməsinin həm müsbət, həm də mənfi cəhətləri vardır. Mütəxəssis və alimlərin bir hissəsi ölkənin təsərrüfat həyatının dövlət tərəfindən tənzimlənməsi prosesini «ədalətli və əsaslandırılmış iqtisadi addım» kimi qiymətləndirildikləri halda, digərləri isə dövlət orqanlarının bu istiqamətdəki addımlarını, insanların əməyə olan münasibətlərinin

zəifləməsi, qənaət rejiminin pozulması, investisiyaların azalması, ümumi daxili məhsulun (UDM) həcminin aşağı düşməsinə təsir göstərən amil kimi səciyyələndirirlər.

Hakimiyyət orqanları rəqabət mübarizəsi şəraitində satışa çıxarılan məhsulların, əhaliyə göstərilən xidmətlərin real tələb-təklif prinsiplərini pozan «artıqlığı» yaxud «çatışmazlığı» problemini aradan qaldırmaq və bu vəziyyətin ətraf mühitə, insanların sağlamlığına, onların istirahətinə zərərli nəticələrini nəzərə alaraq, müxtəlif tədbirlərdən istifadə edirlər. Həmin tənzimləyici dövlət iqtisadi tədbirləri sırasında müvafiq qanunvericilik aktlarını, xüsusi tətbiq olunan vergi növlərini, konkret şəraitdən aslı olaraq bəzən tələbin, bəzən də təklifin həvəsləndirilməsi hallarını, hakimiyyətin zəruri hesab etdikdə müəyyən sahələri maliyyələşdirdiyini və hətta öz mülkiyyətinə çevirərək, idarə etməsini göstərmək olar.

Başqa bir hal kimi ölkə əhalisinin ictimai (hamılıqla) istifadəsində olan məhsul və xidmətlərin tənzimlənməsini göstərmək olar. Məlumdur ki, hər hansı bir ölkədə elə məhsul və xidmətlər vardır ki, əhali bunlardan heç bir xərc çəkmədən faydalanır. Ölkənin müdafiyə sistemi, yaxud terrorizmə qarşı mübarizə tədbirləri əhalinin istifadə etdiyi və faydalandığı elə ümumi nemətlərdir ki,dövlət orqanları bunların saxlanması üçün müəyyən xərc çəkmədilər. Dövlət bu istiqamətdə olan xərcləri ödəmək üçün şirkətlərin və əhalinin vergi ödənişlərindən istifadə edir.

Dövlət hakimiyyəti orqanlarının ölkənin təsərüfat həyatına müdaxilə edərək, bazar münasibətləri iqtisadi sisteminin yaratdığı nöqsanları, onun sosial ədalətsizlikləri, ictimai təlabatlara qarşı biganəliyini aradan qaldırmaq üçün həyata keçirdiyi hüquqi, inzibati, iqtisadi tədbirlər kompleksi, işsizliyin azalmasına və inflasiya proseslərinin idarə edilməsinə geniş imkanlar yaradır.

**8.3.** ABŞ-ın maliyyə sisteminin əsasını ölkənin dövlət büdcəsi, büdcənin tərkib hissələri sayılan onun gəlirləri və xərcləri təşkil edir. Büdcənin gəlir hissənin 46%-i əhalidən tutulan vergilər və 8%-i isə korporasiyaların gəlirindən toplanan vergilər hesabına formalaşır. Bu rəqəmlərdən göründüyü kimi federal hökümətin büdcəsinin gəlir hissəsində əhalinin şəxsi gəlirləri əsas yer tutur. Mütərəqqi xarakter daşıyan şəxsi gəlir vergisi 10%-dən başlayaraq əhalinin gəlir səviyyəsindən aslı olaraq 25, 28, 33 və 35%-ə qədər arta bilər. Əmək haqqından tutulan vergilər 7-9% arasında dəyişir, korporasiyalardan tutulan vergilərin baza dərəcəsi isə 35% həddində müəyyənləşdirilmişdir. Satış və aksız vergi dərəcələri isə müxtəlif olub, əsasən yerli hakimiyyət (stat və bələdiyyə) orqanlarının gəlir mənbəyini təşkil edir.

Federal büdcənin xərcləri isə 4 əsas istiqamətə: a) penisiyaların ödənilməsinə və sosial təminata; b) milli müdafiəyə; c) səhiyyəyə; ç) dövlət borcu üzrə faizlərin ödənilməsinə yönəldilir. Son rəsmi məlumatlara görə ABŞ-ın federal büdcəsinin gəlirləri 3 trilyon dolları, xərcləri isə 3,5 trilyon dolları ötür.

XXI əsrin əvvəllərinə ABŞ hökümətinin federal gəlir və xərclərini aşağıdakı sxemlərdən görmək olar.

Ştatların və yerli hakimiyyətin (idarəetmə) orqanlarının gəlir mənbələri, xərcləri federal hökumətindən xeyli fərqlənir. Federal hökumət öz fəaliyyətini əsasən şəxsi gəlir vergisi, korparasiyaların mənfətindən vergilər və əmək haqqına qoyulan vergilər hesabına

həyata keçirdiyi halda, ştatlar və yerli idarətmə orqanları (bələdiyyələr) isə bu vəsaiti başlıca olaraq satışdan vergilər, habelə əmlak vergiləri hesabına formalaşdırırlar.

**XXI əsrin əvvəllərində ABŞ-da vergi ödənişləri və federal hökümətin xərcləri**

Ümumi xərclər (%-lə)




Ümumi gəlirlər (%-lə)




Bilavasitə ştatların gəlirinin təxminən yarısını (47%-ni) satışdan vergilər və aksiz vergiləri təşkil edir. Ştatların gəlirlərinin ikinci mənbəyi (36%) əhalinin şəxsi gəlirlərindən tutulan vergilərdir. Ştatların vergilərinin qalan hissəsinə (17%) korparasiyaların mənfətindən vergilər, əmlak vergisi, vərəsilik vergisi, müxtəlif lisenziyalar və icazələrə görə ödənilən rüsumlar daxildir.

Ştatların büdcə xərclərinin 36%-i təhsilə, 25%-i sosial təminata, 8%-i səhiyyə, 8%-i şosse yollarının tikintisi və istismarına, 5%-i əhalinin təhlükəsizliyinin təmin olunması tədbirlərinə, 18%-i isə digər məqsədlərə sərf olunur. Qeyd etmək zəruridir ki, ayrı-ayrı ştatlar toplanılan vergi dərəcələrinə, gəlirlərin həcminə, xərclərin yönəldiyi istiqamətlərə görə bir-birindən fərqlənirlər. Eyni zamanda bir sıra ştatlar federal hökumət büdcəsindən müəyyən qrant, habelə yardımlar alırlar. Federal hökumət təbii fəlakətlər, fövqəladə hadisələr zamanı da öz büdcəsindən xeyli vəsait ayırır.

ABŞ-ın yerli hakimiyyət orqanları (bələdiyyələr) ölkənin ictimai hayatında müxtəlif tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Ölkə regionlarının (bölgələrinin), rayonlarının (dairələrinin), ayrı-ayrı şəhərlərin, yaşayış məntəqələrinin rəhbərliyi yerli hakimiyyət orqanları hesab olunur. Yerli hakimiyyət orqanlarının budcəsinin 72%-ni əmlak vegisi, 17%-i satış və aksiz vergiləri təşkil edir. Onların büdcə gəlirlərinin təxminən 10-11% müxtəlif xeyriyyə fondları və müxtəlif şəxsi yardımla formalaşır. Bu orqanların xərclərinə gəldikdə isə əsas obyekt təhsil və onun müxtəlif sahələridir. Son məlumatlara görə ABŞ-ın yerli hakimiyyət orqanları öz büdcə xərclərinin 44%-ini məhz bu istiqamətə yönəldir. Yerli hakimiyyət orqanlarının xərclərinin təximinən 10-12%-ni sosial təminat və səhiyyə, 12%-ni mənzil tikintisi, parkların salınması, təmizləyici qurğuların inşası, ətraf mühitin qorunması, 5% küçələrə, yollara xidmət təşkil edir.

Ölkənin mühüm əhəmiyyət kəsb edən yerli qurumlarının gəlirlərinə əlavə olaraq, federal hökümət və ştatların hakimiyyət orqanları tərəfindən müəyyən məbləğdə subsidiyalar (əvəzsiz yardım) ayrılır ki, onların fəaliyyəti daha da səmərəli olsun.

**8.4.** Vaxtilə müxtəlif ölkələr, o cümlədən də ABŞ əsasən öz məhsulları ilə kifayətlənmiş və başqa yerlərdən gətirilmiş müxtəlif şeylərdən çox az hallarda istifadə

etmişdi. XIX əsrin sonu – XX əsrin əvvəllərində dünya bazarının formalaşması, ölkələr arasında iqtisadi-ticarət əlaqələrinin sürətlə inkşafına güclü təkan vermişdir. Müasir intiqrasiya və qloblaşma dövründə beynəlxalq iqtisadi-ticarət əlaqələri intensiv bir xarket alaraq, dünya miqyasında əmtəə-xidmətlərin, əməyin, kapitalın, məlumat texnologiyalarının fasiləsiz axını (hərəkəti) ilə səciyyələnir.

XXI əsrin ilk onilliyində dünya ticarət dövriyəsinin ümumi həcmi 28 tirliyon dollara yaxinlaşir ki, bunun da 52%-i ixracın və 48%-i idxalın payına düşür. Bu iqtisadi-ticarət əlaqələrinin ən xarakterik cəhəti ondan ibarətdir ki, əgər əvvəllər dünya bazarında ölkələr əksər hallarda xammalla ticarət edirdilərsə, hazırda beynəlxalq ticarətin 75-76%-ini emal olunmuş və hazır məhsullar, habelə yarım fabrikatlar təşkil edir.

Müasir dünyanın yüksək inkişaf etmiş bir qurup ölkəsi arasında ABŞ ümumi daxili məhsulunun həcminə (14 trliyon dollar) görə və xarici ticarət dovriyyəsinin həcminə (3 trilyon dollardan artıq) görə dünyada birinci yeri tutur. Başqa sözlə ABŞ hazırda dünya məhsulu və xidmətlərinin 16-18%-ini verir, beynəlxalq iqtisadi-ticari əlaqələrinin l0-12%-i onun payına düşür. Lakin ABŞ-ın dünya ticarət dövriyyəsindəki payı mütləq rəqəmlərlə dinamik sürətdə artsa da, xüsusi çəki etibarıilə aşağıya düşməyə doğru meyl edir. Eyni zamanda son dövürlərdə ABŞ-ın xarici ticarət dövriyyəsində idxal məhsulları ixrac məhsullarından çox olduğundan, xarici ticarət balansı kəsrlə (mənfi saldo) başa çatır. ABŞ-ın ixrac məhsulları arasında kimyəvi maddələr, yarımkeçiricilər, uzun müddətli mallar, kompüterlər, energetika avadanlıqları, təyyarələr və sair əsas yer tutur. Başqa ölkələrdən ABŞ-a gətirilən mallar içərisində neft məhsulları, avtomobillər, məişət cihazları, paltar, dəmir, polad üstünlük təşkil edir. ABŞ-ın iqtisadi-ticarət tərəfdaşları arasında Kanada, Qərbi Avropa dövlətləri, Yaponiya, Çin, Cənubi Amerika və Ərəb ölkələri mühüm yer tuturlar. Dünya sosializm sistemi dağıldıqdan sonra meydana çıxmış yeni müstəqil dövlətlər, o cümlədən Azərbaycan Respublikası ilə ABŞ-ın iqtisadi ticarət əlaqələri sürətlə inkişaf edib genişlənməkdədir. Müxəlif ölkələrin, o cümlədən də ABŞ-ın beynəlxalq əmək bölgüsünün səmərəliliyi əsasında xarici iqtisadi-ticarət əlaqələrinin ***mütləq və nisbi faydalılığı*** prinsipi aşağıdakı amillərlə şərtlənir.

- yerli təbii sərvətlərin məhdudluğu,
- coğrafi iqlim şəraitinin əlverişliliyi,
- əhalinin peşə ixtisas səviyyəsinin müxtəlifliyi;
- obyektiv-subyektiv səbəblərlə bağlı, konkret məhsul-xidmətlərin istehsal xərclərinin xeyli fərqli olması;
- insanların tələblərinin müxtəlifliyi, zövqlərinin dəyişkənliyi, imkanlarının fərqli və kifayət qədər yüksək olması.

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) üzvü olan və onun ölkələr arasında sərbəst iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi prinsiplərini qəbul etmiş ABŞ, lazım gəldikdə bu sahədə himayədarlıq, məhdudlaşdırıcı tədbirlər, hətta qadağan siyasətindən də istifadə edir. Dövlət orqanlarının ölkənin sərbəst (azad) ticarət əlaqələrinə qarışması, yaxud müdaxiləsi bir neçə istiqamətdə həyata keçirilir. *Əvvələn* himayədarlıq (proteksionizm) siyasəti yeridilərək, idxal olunan mallara yüksək gömrük rüsumları qoyulur və bu yolla onların daxili bazara gətirilməsi məhdudlaşdırılır ki, ölkə (yerli) istehsalçıları xarici rəqabət mübarizəsindən qorunsunlar. *Sonra*, idxal kvotası vasitəsilə ölkəyə gətirilən müxtəlif təyinatlı məhsullara miqdar (kəmiyyət) və qiymət (dəyər) baxımından müəyyən

hədd qoyulur. *Daha sonra*, qeyri-tarif maneələri tətbiq olunaraq, ölkəyə idxal edilən məhsulların keyfiyyətinə, standartlara uyğun gəlməsinə, qablaşdırılmasına dair bir sıra iradlar irəli sürülür və bəzən də sırf bürokratik əngəllər yaradılır. *Nəhayət*, dövlətin yerli istehsalçılara, məsələn müəyyən şirkətlərə, xüsusilə də fermerlərə əvəzi ödənilməyən yardımları (subsidiyaları) formasında ixrac köməyidir ki, ölkə məhsulları beynəlxalq bazarda daha rəqabət qabilliyyətli səviyyədə mübarizə apara bilsinlər. Bunun nəticəsi kimi, beynəlxalq bazarda öz yerini möhkəmlətmək, yaxud rəqibləri sıradan çıxartmaq üçün müəyyən hallarda bir sıra məhsulların daxili bazardakından daha ucuz qiymətə satılması yolundan istifadə olunur ki, buna ölkələrin xarici ticarət əlaqələrində ***dempiq*** siyasəti deyilir.

Dövlətin xarici iqtisadi siyasətini həyata keçirən müvafiq hökümət orqanlarının idxal-ixrac sahəsindəki tədbirləri, ölkənin daxili istehsal-xidmət dairələrinin imkanlarından, gücündən maksimum istifadə etməklə yanaşı, eyni zamanda beynəlxalq iqtisadi-ticarət əlaqələrindən milli iqtisadiyyatın daha da inkişafi naminə səmərəli faydalanmağa yönəlmişdir. Qeyd etmək lazımdır ki, ayrı-ayrı dövlətlərin, o cümlədən də ABŞ-ın vaxtilə Meksika, Çin, Yaponiya, hazirda isə İran, İraq, Kuba kimi ölkələrlə siyasi-diplomatik münasibətlərinin kəskinləşməsi, şübhəsiz onlar arasındakı iqtisadi-ticarət əlaqələri əməkdaşlığına da öz mənfi təsirini göstərmişdir, yaxud müasir mərhələdə göstərməkdədir.

ABŞ-ın hakimiyyət orqanları qanunvericilik normaları əsasında, bağlanmış ikitərəfli və çoxtərəfli müqavilələrə, sazişlərə uyğun olaraq, ayrı-ayrı ölkələrə iqtisadi-ticarət əlaqələrində müxtəlif güzəştlərə gedir, həmin ölkələrlə müxtəlif sahələrdə əməkdaşlıq münasibətlərində daha əlverişli rejim şərtləri tətbiq edir. ABŞ-ın uzun illərdən bəri Kanada, bir sıra Qərbi Avropa, Cənubi Amerika, Afrika və Ərəb ölkələri ilə olan iqtisadi-ticarət əlaqələri buna nümunə ola bilər. 1993-cü ildə ABŞ, Kanada və Meksikanın iştirakı ilə yaradılmış NAFTA (Azad Ticarət haqqında Şimali Amerika Sazişi) iqtisadi-ticarət birliyi, bütövlükdə regionun, o cümlədən də ABŞ-ın iqtisadi inkişafına, ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərir.

# «İqtisadi nəzəriyyə» – *Economics* kursu üzrə

## («İqtisadiyyata giriş» bölməsi) test imtahan sualları

1. İqtisadi nəzəriyyənin predmeti
2. İqtisadi nəzəriyyə nəyi öyrənir?
3. İqtisadi anlayışlar, kateqoriyalar
4. İqtisadi nəzəriyyənin metodları
5. İqtisadi nəzəriyyə və iqtisadi siyasət
6. Azərbaycanda iqtisad elminin inkişaf mərhələləri
7. Pozitiv iqtisadiyyat nə deməkdir?
8. Normativ iqtisadiyyat nə deməkdir?
9. İqtisadi qanunlar və onların mahiyyəti
10. İqtisadi nəzəriyyənin analiz və sintez metodu
11. İqtisadi nəzəriyyənin induksiya və deduksiya metodu
12. İqtisadiyyatda qrafik sxem və əyrilərdən istifadə
13. İqtisadi proseslərin səbəb-nəticə əlaqəsi
14. Cəmiyyətin və insanların tələbatlarının sonsuzluğu
15. İqtisadi resursların məhdudluğunu izah edin
16. Əhalinin məşğulluğu və iqtisadi səmərəlilik
17. Resurslardan səmərəli istifadənin istehsala təsiri
18. İstehsal imkanları və alternativ xərclər
19. İqtisadi sistem və onun formalaşması
20. İstehsal imkanları və iqtisadi seçim
21. Alternativ xərclər və onların artması meyli
22. Qeyri-məşğulluq və istehsalın səmərəliliyinin azalması
23. Xalis kopitalizm nə deməkdir
24. Əmrlə idarə olunan iqtisadi amirlik sistemi
25. Qarışıq iqtisadi sistem
26. Ənənəvi iqtsadi sistem
27. Resurslar və məhsullar – xidmətlər bazarı
28. Bazarın mahiyyəti və formaları
29. Tələb və tələb qanunu
30. Təklif və təklif qanunu
31. Tələb və təklifin bazar tarazlığı
32. Tələb və təklifin dəyişmə meyilləri dinamikası
33. Mülkiyyətin mahiyyəti və formaları
34. Xüsusi mülkiyyət və sahibkarlıq fəaliyyəti
35. Rəqabət və onun formaları
36. Bazarlar və qiymət
37. Bazar iqtisadiyyatı şəraitində dövlətin rolunun məhdudlaşması
38. İxtisaslaşma və istehsalın səmərəliliyi
39. Pul və ondan istifadə edilməsi
40. Bazar iqtisadiyyatı sisteminin fəaliyyəti
41. İqtisadi sistemin 5 əsaslı problemi hansıladır?
42. İstehsalın təşkili prinsipləri
43. Tələb və təklifin elastikliyi
44. Rəqabət və İdarəetmə (nəzarət)
45. «Görünməz əl» anlayışını izah edin
46. Bazar iqtisadiyyatı sisteminin üstünlükləri

**47.** Bazar iqtisadiyyatı sisteminin nöqsanları
**48.** Qarışıq iqtisadi sistemin perspektivləri
**49.** Dövlətin iqtisadi vəzifələri (funksiyaları)
**50.** İqtisadi siyasətin məqsəd və vəzifələri
**51.** Ev təsərrüfatları və onların mahiyyəti
**52.** Sahibkarlıq bölməsi və onun formaları
**53.** Beynəlxalq biznes fəaliyyəti
**54.** Dövlət maliyyə və vergi sistemi
**55.** Fərdi sahibkarlıq fəaliyyəti (şirkəti)
**56.** Şərikli (müştərək) sahibkarlıq fəaliyyəti
**57.** Korporasiyaların (birliklərin) təşkili
**58.** İri biznes və onun fəaliyyəti xüsusiyyətləri
**59.** Beynəlxalq iqtisadi əlaqələrin mahiyyəti
**60.** Beynəlxalq iqtisadi əlaqələrin daxili bazara təsiri
**61.** Federal maliyyə sistemi
**62.** Ştatların maliyyə orqanları
**63.** Yerli (bələdiyyə) maliyyə orqanları
**64.** Federal hökumətin gəlirləri və xərcləri
**65.** İqtisadiyyatın mikro və makroiqtisadiyyat səviyyəsində öyrənilməsi
**66.** Resursların və məhsulların dövranı
**67.** Bazarın obyektləri və subyektləri
**68.** Bazarın vəzifələri (funksiyaları)
**69.** Dövlətin iqtisadi siyasətinin mahiyyəti
**70.** İqtisadi resurslar və onların təsnifatı
**71.** Xalis kapitalizm və inhisarçı kapitalizm
**72.** Məhsulların və gəlirlərin dövranı modeli
**73.** Bazar iqtisadi sisteminin fəaliyyəti
**74.** ABŞ iqtisadiyyatında «ev təsərrüfatları» və onların mahiyyəti, rolu
**75.** Bazar tarazlığı qrafikini çəkin və izah edin

**«İqtisadi nəzəriyyə» – *Economics***
**«İqtisadiyyata giriş» (birinci bölmə) kursu üzrə saatların bölgüsü**

| ***S/s*** | ***Mövzuların adı*** | ***Saatların miqdarı*** | | |
|---|---|---|---|---|
| | | *Mühazirə* | *Məşğələ* | *Cəmi* |
| 1. | Kursun məqsədi, vəzifələri və əsas prinsipləri | 2 | 2 | 4 |
| 2. | İqtisadi nəzəriyyənin predmeti və metodları | 4 | 4 | 8 |
| 3. | İqtisadi problemlərə giriş | 4 | 4 | 8 |
| 4. | Xalis kapitalizm və gəlirlərin dövr etməsi | 4 | 4 | 8 |
| 5. | Fərdi bazarların təhlili: tələb və təklif | 4 | 4 | 8 |
| 6. | Bazar münasibətləri iqtisadi sistemi | 4 | 4 | 8 |
| 7. | Dövlətin iqtisadi vəzifələri | 4 | 4 | 8 |
| 8. | İqtisadiyyatda özəl (xüsusi)və dövlət bölmələrinin fəaliyyəti | 4 | 4 | 8 |
| | Cəmi | 30 | 30 | 60 |

# Mikroiqtisadiyyat

*(ikinci bölmə)*

# Mövzu 9. Kursun məqsədi, vəzifələri və quruluşu

**9.1** Mikroiqtisadiyyatın məqsədi və mahiyyəti
**9.2** Mikroiqtisadi nəzəriyyənin vəzifələri
**9.3** Mikroiqtisadiyyat kursunun quruluşu

**9.1. Mikroiqtisadiyyat** – müasir iqtisadi nəzəriyyənin (*economics*in) mühüm tərkib hissələrindən və bölmələrindən biridir. «Mikro» yunan dilindən götürülmüşdür və kiçik, xırda, ilkin mənasında işlədilir. Ayrı-ayrı şirkət, müəssisə, təsərrüfat birlikləri nə qədər iri, hətta nəhəg olsalar da, lakin ölkənin milli iqtisadiyyatı çərçivəsində onlar böyük bir təsərrüfat kompleksinin kiçik hissələri, sanki canlı orqanizmin «hüceyrələri» səviyyəsində fəaliyyət göstərirlər.

Mikroiqtisadiyyat, istehsal-xidmət dairəsinin müxtəlif təyinatlı təsərrüfat subyektlərinin timsalında, onların iqtisadi fəaliyyətinin öyrənilməsi, hərtərəfli təhlili, işin təşkilinin yaxşılaşdırılması və səmərəliliyinin yüksəldilməsi yollarının araşdırılması ilə məşğul olur.

İqtisadi fəaliyyətin başlanğıc nöqtəsi və özəyi sayılan ev təsərrüfatları, şirkətlər, müəssisələr, koporasiyalarda istehsalın səmərəli aparılması haqqında qərarlar qəbul olunması, nisbətən az xərclə yüksək keyfiyyətli məhsullar hazırlanması, xidmətlər göstərilməsi əsasında daha çox mənfəət əldə edilməsi, mikroiqtisadiyyatın mahiyyətini təşkil edir. Ona görə də mikroiqtisadi təhlildə tələb-təklif, istehsal xərcləri, qiymət, mənfəət, əmək haqqı, alıcı davranışı, bazar rəqabəti və onun müxtəlif formaları, ümumi tarazlıq, habelə iqtisadi sistemin konkret subyektlərinin-obyektlərinin fəaliyyəti ilə bağlı məsələlərə daha dərindən diqqət yetirilir.

Mikroiqtisadiyyat ilk növbədə bazar münasibətləri iqtisadi sistemi şəraitində, orada fəaliyyət göstərən təsərrüfat subyektləri arasında ***istehsal, bölgü, mübadilə və istehlak münasibətlərini*** öyrənir. Eyni zamanda mikroiqtisadiyyat dövlət və hakimiyyət orqanları ilə istehsalçılar, sahibkarlar, işgüzar-biznes fəaliyyətilə məşğul olanlar arasındakı münasibətləri öyrənir.

İqtisadi nəzəriyyənin tərkib hissəsi kimi mikroiqtisadiyyat da, insanlar arasında istehsal prosesində formalaşan və həyata keçirilən istehsal münasibətlərini öyrənir. Bununla yanaşı iqtisadi proseslərə və münasibətlərə yanaşmada, ***mikroiqtisadi təhlil, iqtisadi resursların məhdudluğu, habelə onlardan daha səmərəli istifadə olunması problemlərinə üstünlük verir***.

Bu mənada makroiqtisadiyyat, mülkiyyət hüququ (istifadəçisi) əsasında sahibkarlarla (prinsipal) işçilər (agent) arasındakı; rəqabət mübarizəsi əsasında sahibkarlıq fəaliyyəti ilə məşğul olanların özləri arasındakı; tələblə-təklifin dəyişkən nisbəti əsasında formalaşan bazar qiymətlərinə uyğun alıcılarla satıcılar arasındakı münasibətləri tədqiq edir; müəyyən ümumiləşdirmələr aparır; real vəziyyətin təkmilləşdirilməsi istiqamətində praktik məsləhətlər, əməli tövsiyyələr verir.

Mikroiqtisadiyyatın ayrı-ayrı problemləri vaxtilə A.Smit, D.Rikardo, J.Sey, C.Mill kimi klassik iqtisadi nəzəriyyə məktəbinin görkəmli nümayəndələrinin əsərlərində irəli sürülsə də, lakin onun müasir iqtisadi nəzəriyyənin tərkib hissəsi və mühüm bir bölməsi kimi formalaşması prosesi, şübhəsiz XIX əsrin ikinci yarısından başlayaraq, bu sahədə öz

tədqiqatları ilə seçilən T.Hossenin, K.Mengerin, A.Marşallin, L.Valrasın, V.Paretonun adları ilə bağlıdır.

İqtisadi nəzəriyyənin müşahidə, müqayisəlik, ümumiləşdirmə, pozitiv, normativ, qrafik təsvirlər, sxemlər, cədvəllər kimi metod və yanaşma üsullarından mikroiqtisadiyya-tın müxtəlif problemlərinin, konkret məsələlərinin izahı, habelə tədqiqində geniş istifadə olunur. Pozitiv analiz mikroiqtisadi proseslərin real təsvirini və onların ümumiləşdirilmə-sini öyrəndiyi halda, normativ analiz iqtisadi proseslərin, hadisələrin necə inkişaf etməli olması sualına cavab verir. Maraqlıdır ki, cəmiyyətin iqtisadi həyatında və müxtəlif təyinatlı şirkətlərin təsərrüfat fəaliyyətində baş verən proseslərin pozitiv mövqedən təhlili o qədər də ciddi mübahisələr doğurmasa da, lakin bu proseslərin necə davam etməli olacağı haqqındakı fikirlər həmişə bir-birindən xeyli fərqlənmişdir.

Məsələn, ölkədə enerji daşıyıcılarının yaxud taxıl məmulatlarının qiymətlərinin artırılması zərurəti meydana çıxdıqda, bu iqtisadi siyasət xətti tədbirinin yaradacağı müsbət və mənfi cəhətlər hərtərəfli düşünülməlidir. Çünki qiymətlər və vergi dərəcələrindəki enib-qalxmalar həmişə mikroiqtisadiyyatın obyektlərinin, subyektlərinin təsarrufat fəaliyyətinə öz təsirini bilavasitə, yaxud dolayı yollarla göstərmiş olur. Təsadüfi deyildir ki, bəzən ***mikroiqtisadiyyatı şirkətlər və qiymətlər nəzəriyyəsi*** kimi səciyyələndirirlər. Milli iqtisadiyyatın hər hansı bir sahəsində baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri, bu proseslərin qiymətlər vasitəsilə tələb-təklifdəki enib-qalxmaları, tez-gec öz təsirini iqtisadi sistemin başqa sahələrində də göstərəcəkdir. Ona görə də iqtisadi siyasət xəttinin, məsələn enerji daşıyıcılarının və *taxıl* məmulatlarının qiymətlərinin artırılması, həmin məhsulların ölkəyə idxalına qoyulmuş gömrük vergilərinin azaldılması tədbirləri ilə əlaqəli aparılmalıdır. Belə bir iqtisadi siyasət xətti isə cəmiyyət miqyasında iqtisadi səmərəliliklə sosial ədalətliliyin düzgün nisbətinin müəyyənləşdirilməsinin optimal variantı kimi qiymətləndirilə bilər.

Bu mənada məşhur ingilis iqtisadçısı Ç.K.Keynisin belə bir fikri olduqca aktual səslənir ki, iqtisadi nəzəriyyə və onun tərkib hissəsi sayılan mikroiqtisadı təhlil insanların iqtisadi təfəkkürünün formalaşmasına, onların məqsədyönlü təsərrüfat fəaliyyətlərinə, habelə konkret iqtisadi qərarlar qəbul etmələri ilə davranışlarına, şübhəsiz fəal təsir göstərir.

Lakin unutmaq olmaz ki, iqtisadi nəzəriyyənin istər mikro, istərsə də makro bölmələri istehsalın, xidmət dairəsinin, tələb-təklifin cari məsələlərinin həlli üçün hazır tövsiyyələr vermir. İqtisadi nəzəriyyə bu proseslərin ümumi inkişafının və səmərəliliyinin nəzəri əsaslarını işləyib hazırlayır. Deməli, «iqtisadi nəzəriyyə bilavasitə təsarrüfat siyasətində tətbiq olunmaq üçün hazır tövsiyyələr toplusu deyil, metodoloji bir elmdir, ... intelektual alətdir, təfəkkürün texnikasıdır.» Yalniz bu elmə mükəmməl yiyələnənlər, mürəkkəb iqtisadi-sosial problemlərə düzgün yanaşıb, onları həll edə bilərlər.

**9.2.** Mikroiqtisadiyyat, cəmiyyətin təsərrüfatı həyatının və insan fəaliyyətinin əməklə bağlı ilk tətbiq, habelə çıxış nöqtəsi sayılan ev təsərrüfatlarını, şirkətləri, müəssisələri korporasiyaları hərtərəfli öyrənib təhlil edərkən, əsasən aşağıdakı vəzifələri yerinə yetirir.

**Birincisi,** mikroiqtisadiyyat konkret təsərrüfat vahidlərinin iqtisadi fəaliyyətini, başqa sözlə makroiqtisadi mənada bütövlükdə iqtisadiyyatı (obrazlı desək – «meşəni») deyil, həmin sistemin ayrı-ayrı obyektlərini («ağaclarnı») öyrənir.

**İkincisi,** cəmiyyətin və insanların tələbatlarının sonsuzluğu, iqtisadi resursların isə nisbi məhdudluğu şəraitində, istehsal amillərindən (torpaq, əmək kapital, sahibkarlıq fəaliyyəti) daha səmərəli istifadə olunması yollarını müəyyənləşdirir.

**Üçüncüsü,** mikroiqtisadi təhlil insanların konkret şərait və vəziyyətdən, habelə onların maddi imkanlarından, gəlirlərindən asılı olaraq, hansı iqtisadi qərarlar qəbul etmələrinin səbəb-nəticə əlaqələrini aydınlaşdırır.

**Dördüncü,** bazarlarda qiymət enib-qalxmaları əsasında, tələb-təklifin dəyişkənliyi və qiymətlə bağlı həm tələbdə, həm də təklifdə baş verən elastiklik proseslərini tədqiq edir.

**Beşincisi,** istehsal xərclərinin minimum hədd səviyyəsində (məhsulun-xidmətin keyfiyyətinə xələl gətirmədən) saxlamaqla, təsərrüfat vahidinin fəaliyyətindən son məqsəd kimi maksimum (ən yüksək) mənfəət əldə olunmasının müxtəlif variantlarını araşdırır.

**Altıncısı,** bazarın quruluşu və orada gedən rəqabət mübarizəsinin strategiyası, habelə taktikasının müxtəlif formaları, qisamüddətli və uzunmüddətli rəqabət mübarizəsinin özünəməxsus cəhətləri, perspektivləri izah edilir.

**Yeddincisi,** ümumi tarazlıq modelinin müasir inhisarçı rəqabət, alıcı psixologiyası və davranışı, beynəlxalq iqtisadi-ticarət əlaqələri, iqtisadi inteqrasiya, habelə qloballaşma proseslərinin tədricən gücləndiyi bir şəraitdə, dəyişkən meylləri təhlil olunur.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən vəzifələrin həyata keçirilməsi gedişində bir sıra problemlərin meydana çıxması, mikroiqtisadi nəzəriyyənin hüdudlarını müəyyən qədər məhdudlaşdırır. Həmin məhdudiyyətlər sırasında: məlumat-informasiya bazasının fərqliliyini (asimmetrik informasiya), dövlətin iqtisadi siyasətinin nə dərəcədə səmərəli olmasını, obyektiv-subyektiv səbəblərlə bağlı insanların əvvəlki iqtisadi qərarlarını dəyişməsi, habelə öz alıcı davranışlarında ziddiyyətlərə yol vermələrini göstərmək olar.

**9.3.** Mikroiqtisadi nəzəriyyə kursunun əhatə etdiyi problemlərin geniş tədqiqat dairəsini, obyekt-subyektlərini, predmet-metodlarını, məqsəd və vəzifələrini nəzərə alaraq, onun öyrənilməsinin aşağıdakı quruluşda, məntiqi bir ardıcıllıqla tədrisi məqsədəuyğun sayılmışdır:

- Kursun məqsədi, vəzifələri və strukturu.
- Tələb, təklif, qiymət və elastiklik.
- İstehlakçı davranışı nəzəriyyəsi.
- İstehsal xərcləri və mənfəət.
- Sərbəst rəqabət və xalis inhisarçı rəqabət.
- İnhisarçı rəqabət və oliqopoliya rəqabəti.
- Əmək haqqı, renta, faiz və mənfəət.
- Ümumi tarazlıq nəzəriyyəsi və bazar iqtisadi sisteminin fəaliyyəti.

Bu ümumiləşdirilmiş mövzular üzrə mikroiqtisadiyyat kursunun tədrisi prosesində öyrənilən problemlərin təhlilində, həmin məsələlərin yeri gəldikcə makroiqtisadiyyatla və digər elm sahələri (iqtisadi tarix, iqtisadi təlimlər tarixi, hüquq, tarix, fəlsəfə) ilə qarşılıqlı əlaqələrinə diqqət yetirilmişdir. Xüsusilə mikroiqtisadiyyat kursunun iqtisadi nəzəriyyənin (economicsin) digər bölmələri (iqtisadiyyata giriş, makroiqtisadiyyat, müasir beynəlxalq iqtisadi problemlər) ilə vahid kompleks şəkildə əlaqəli izahı prinsipi gözlənilmişdir.

Aydındır ki, tarixən vahid bir elmi sistem kimi formalaşmış iqtisadi nəzəriyyənin sonralar ayrılmış müasir bölmələri arasında «Çin səddi» yoxdur və yalnız onların qarşılıqlı əlaqə, habelə bir-birinə təsiri müstəvisində öyrənilməsi prosesi, şübhəsiz mikroiqtisadiyyat kursunun tələbələr tərəfindən daha mükəmməl surətdə mənimsənilib dərk olunmasını təmin edə bilər.

# Mövzu 10. Tələb, təklif, qiymət və elastiklik

**10.1.** Tələb və tələb qanunu
**10.2.** Təklif və təklif qanunu
**10.3.** Tələblə təklifin tarazlığı və tarazlıq qiyməti
**10.4.** Elastiklik anlayışının mahiyyəti və elastiklik vahidi
**10.5.** Tələbin elastikliyi və formaları
**10.6.** Təklifin elastikliyi və onun xüsusiyyətləri

**10.1.** Bazar münasibətləri iqtisadi sistemində tələb istehsalın canı, onun pozulmaz, lakin dəyişkən qanunu və bazar mexanizmi fəaliyyətinin tərkib hissəsidir.

İqtisadi nəzəriyyə baxımından ***tələb*** – alıcının müəyyən vaxt ərzində, hər hansı bir əmtəə yaxud xidmətdən müəyyən qiymətə və müəyyən miqdarda əldə etmək imkanıdır. Şübhəsiz, tələb və tələbat anlayışlarını bir-birindən fərqləndirmək lazımdır. Cəmiyyətin, ailənin və hər bir insanın tələbatı sonsuzdur və bu arzu, istək, nəyi isə əldə etmək həvəsi təbiidir. Tələbə gəldikdə isə konkret imkan və nağd pulla məhdudlaşan konkret tələbatdır. Tələb yalnız sərəncamda mübadilə üçün müəyyən vəsait və imkanlar olduqda gerçəkləşə bilər. Eyni zamanda tələbatla tələb arasında dialektik bir asılılıq və səbəb-nəticə əlaqəsi vardır. Əgər tələbatı dairə yaxud çevrə kimi təsəvvür etsək, tələb onun bir hissəsi (seqmenti) olacaqdır.

İqtisadi nəzəriyyədə ödəniş qabiliyyətli tələb anlayışından istifadə olunur. ***Ödəniş qabiliyyətli tələb***, müştərilər tərəfindən müxtəlif təyinatlı əmtəələrin alınmasına və onlara göstərilən xidmətlərdən istifadə edib, faydalandıqlarına görə sərf olunmuş müəyyən pul məbləğidir. İnsanların ehtiyac və tələblərini isə ***fiziki, sosial, mədəni-mənəvi, intelektual*** kimi qruplara ayırmaq olar. Bu mənada insanlar həmişə müxtəlif tələblərin əhatəsində yaşayır və bunları ödəməyə çalışırlar.

Bazar münasibətləri iqtisadi sistemi şəraitində tələbin ödənilməsinin və dəyişməsinin əsas səbəbi, ölkədə qiymətlərin ümumi səviyyəsi, habelə əhalinin gəlirləridir. Bununla yanaşı, tələbə qeyri-qiymət amilləri də, məsələn istehlakçı zövqü, əvəzləyici əmtəə-xidmətlərin olması, ailə üzvlərinin sayı, reklam təbliğatı, müxtəlif şayələrin yayılması, müharibə vəziyyəti, təbii fəlakətlər, fövqəladə hallar da təsir göstərə bilir.

Təsərrüfat həyatının obyektiv inkişaf qanunları sayılan və insanların məqsədyönlü, şüurlu fəaliyyəti nəticəsində reallaşan iqtisadi qanunlar arasında ***tələb qanunu*** mühüm yer tutur. Tələb qanunu, başqa şərtlər dəyişməz qaldıqda, bazarda qiymətlərin enib-qalxması nəticəsində, tələbin həcminin dəyişkənliyi nisbətini göstərir. Başqa sözlə, qiymətlərin aşağı düşməsi tələbi artırır, əksinə qiymətlərin artması prosesi isə tələbin aşağı düşməsinə səbəb olur.

Deməli, əmtəələrin-xidmətlərin bazar qiyməti ilə onlara uyğun formalaşan tələb arasında tərs ***mütənasiblik*** (nisbət) vardır. Müxtəlif ölkələrin və iqtisadi sistemlərin təsərrüfatçılıq təcrübəsində tələblə qiymət arasındakı bu tip asılılıq, habelə dəyişmə meyli, iqtisadi nəzəriyyədə tələb qanunu adlanır.

Qiymətlərdəki enib-qalxma dəyişiklikləri, tələblə əlaqədar ***gəlir səmərəliliyi və əvəzetmə səmərəliliyi*** anlayışları ilə bağlıdır. Birinci halda qiymətlərin aşağı düşməsi meyli, əhalinin real gəlirlərini artıraraq, başqa məhsullardan imtina etməməklə yanaşı, ucuzlaşmış

əmtəə-xidmətlərdən daha çox əldə etməyə imkan yaradır. *İkinci halda*, qiymətlərin yüksəlməsi və bahalaşma şəraitində alıcılar daha ucuz olan əvəzedici əmtəə-xidmətlər əldə etməyə üstünlük verirlər.

**10.2.** İqtisadi nəzəriyyənin əsas anlayışlardan biri olan ***təklif,*** müəyyən dövr ərzində bazarda olan, yaxud bazara çıxarıla bilən (yolda olan, anbarlarda saxlanılan) əmtəələrin-xidmətlərin kəmiyyəti (həcmi, miqdarı), yaxud pul ifadəsində dəyəridir.

Bazarın tələbə əks qütbünü təşkil edən təklif anlayışı, öz məzmunu və xarakterinə görə dinamik hərəkətdə olur. İstehsal və xidmət dairəsi ilə sıx bağlı olan təklif, eyni zamanda onlardan xeyli dərəcədə fərqlənir. İstehsal prosesi maddi nemətlərin hazırlanması ilə bilavasitə bağlı olduğu halda, təklif əmtəə-xidmətlərinin mübadiləsi, satışı, reallaşdırılması münasibətlərini əks etdirir.

Qeyd etmək zəruridir ki, təklif öz həcmi etibarilə normal bazar münasibətləri şəraitində, adətən istehsal həcmindən aşağı olur. Buna səbəb, ölkədə istehsal olunmuş məhsulların təkcə daxili bazarda deyil, eyni zamanda xarici bazarda satışı yaxud digər dövlətlərə ixracıdır.

Təklif həmişə bazarın maddi əsası rolunu oynamışdır. Tarixən təklif öz təyinatına görə həm daxili, həm də beynəlxalq bazarın müxtəlif növ və çeşdli ***əmtəə-xidmətlərə*** artan tələblərinin mənbəyi hesab olunmuşdur. Eyni zamanda təklif, istehsalın ayrı-ayrı sahələrinin daha da inkişaf edib genişlənməsinə, yeni texnika və mütərəqqi texnologiyaların tətbiqinə, insanlarının zövqlərinin formalaşmasına güclü təsir göstərir. Məlumdur ki, cəmiyyətin müəyyən bir ehtiyacı, elmi-texniki tərəqqinin yüksəlişinə təkan verir və həmin nailiyyətlərin nəticəsində yaradılıb hazırlanmış əmtəə-xidmətlər alıcılara təklif olunur. Təklifin formalaşmasına 2 qrup amillər – ***qiymət və qeyri-qiymət amilləri*** təsir göstərir. Qeyri-qiymət amillərinə istehsalın texnika-texnologiyasındakı yeniliklər, məhsulun hazırlanmasına sərf olunan resursların qiymətinin enib-qalxması, dövlətin vergi-gömrük siyasəti, məhsul-xidmətlərin reallaşdırılmasında çalışanların sayı, məhsulun qiyməti ilə bağlı perspektiv gözləmələr aiddir. Bu qeyri-qiymət amillərinin hər biri ayrılıqda və müəyyən hallarda kompleks şəkildə, bazarda təklifin dəyişməsinə, bəzən onun artmasına, bəzən də azalmasına səbəb olur.

Təklif qanununa görə başqa şərtlər dəyişməz qaldıqda, bazarda əmtəə və xidmətlərin qiyməti artmağa doğru meyl edərsə, o zaman təklif çoxalacaqdır. Əksinə, istehsal və xidmət dairəsində digər şərtlər dəyişməz qaldıqda, qiymətlər aşağıya (enməyə) doğru meyl edərsə, o zaman təklif azalacaqdır. Deməli, bazarda qiymətlərin enib-qalxması prosesi ilə, əmtəə-xidmətlərin təklifi arasında düz mütənasiblik vardır. Qiymətlərin tədricən yüksəlməsi istehsalçıları həvəsləndirir, yeni iş yerləri açılır, əmtəə-xidmətlərinin həcmi əhəmiyyətli dərəcədə çoxalır. Bu mənada, ölkədə qiymətlərin səviyyəsi ilə əmtəə-xidmət dairəsinin inkişafı arasında düz mütənasiblik prinsipi fəaliyyət göstərir.

**10.3**. Bazar münasibətləri iqtisadi sistemində tələblə-təklifin bir-birinə nisbəti və qarşılıqlı səviyyəsi əks qüvvələri xatırladır. Maraqlıdır ki, qarşı-qarşıya duran bu qüvvələrin nisbəti obyektiv və subyektiv səbəblərlə bağlı həmişə dəyişir. Təbii olaraq qiymət, rəqabət, resurslar bazarındakı vəziyyət, beynəlxalq miqyasda cərəyan edən siyasi-ictimai proseslər, nəhayət müharibə və təbii fəlakətlər nəticəsində bazarda tələblə-təklifin nisbətinin dəyişkənliyi konkret reallıq kimi qəbul olunur. Lakin nəzəri və əməli cəhətdən mümkündür

ki, istehsalçıların bazarda satmaq (reallaşdırmaq) istədikləri əmtəə-xidmətlərin ***həcmi*** və ***qiyməti*** ilə alıcıların (istehlakçıların) əldə etmək istədikləri məhsul-xidmətlərin ***kəmiyyəti*** və ***qiyməti*** bir-birinə uyğun olsun. Şübhəsiz bu uyğunluq mütləq bərabərlik kimi deyil, tələblə-təklifin nisbi və mümkün tarazlığı mənasında başa düşülməlidir. Aydındır ki, belə bir tarazlıq şəraitində bir-birinə qarşı duran bütün kənar bazar amillərinin, qüvvələrinin təsiri sanki «heçə enir» və tələblə təklif arasında uyğunluq (tarazlıq) meydana çıxır. Belə bir vəziyyətdə əmtəələrin-xidmətlərin real bazar qiyməti, tarazlıq qiymətinə bərabər olur. Eyni zamanda bu nisbi tarazlığın hər an pozulması imkanı, XXI əsrin ilk onilliyində daxili və xarici bazarlarda neft-qaz, ərzaq məhsulları, qiymətli metalların timsalında özünü göstərməkdədir.

Bazar münasibətləri şəraitində hər şey dəyər-qiymət meyarları ilə ölçülməyə başlayır və satışla yekunlaşır. Ümumiyyətlə qiymət amilinin düzgün formalaşması və coxcəhətli bir hadisə kimi onun tələblərinə dəqiq əməl olunması, bütövlükdə sağlam iqtisadiyyatın normal fəaliyyəti, habelə dayanaqlı inkişafında mühüm rol oynayır. Bazar münasibətləri sistemində, alıcı ilə satıcı, sahibkarlarla (mülkiyyətçilərlə) icarədarlar, şirkətlərlə şirkətlər, dövlətlə müəssisələr, dövlətlə əhali, bankla müştərilər arasındakı çoxcəhətli əlaqələr, qiymətlərlə tənzimlənir.

Bazara çıxarılan hər bir əmtəə və göstərilən müxtəlif təyinatlı xidmətlər, müəyyən hallar istisna olmaqla, adətən tələb-təklifin təsiri altında formalaşan ***real bazar qiymətinə*** uyğun satılır. Bu mənada bazar qiyməti orada satılan hər hansı bir əmtəənin, yaxud göstərilən xidmətin, həmin konkret şərait üçün normal və optimal qiymətidir.

Obyektiv-subyektiv səbəblərlə bağlı əmtəə və xidmətlər öz həqiqi dəyərindən (qiymətindən) baha, yaxud ucuz satıla bilər. Əgər məhsul-xidmətlər bazarda yaranan tələb nəticəsində öz dəyərindən baha qiymətə (P+p) satılarsa, bu hal istehsalçının (satıcının) bazar üstünlüyünü göstərərək, ***təklif qiyməti*** adlanacaqdır. Bəzən buna ***«tavan» qiyməti*** də deyilir.




Bazarda təklif olunan əmtəə-xidmətlərin həcmi alıcıların real tələbindən çox olarsa, təbiidir ki, onların qiyməti bazardakı konkret tələb əsasında müəyyənləşəcəkdir. Bu isə alıcının üstünlüyünü göstərərək, ***tələb qiyməti*** kimi səciyyələnəcəkdir. Bəzən buna ***«döşəmə» qiyməti*** deyilir.

Bazar qiymətinin formalaşmasının başlıca amili, şübhəsiz tələb və təklif olsa da, lakin bu proses çoxamilli olub, istehsal xərcləri, əmtəə-xidmətlərin keyfiyyət göstəriciləri, əhalinin gəlirləri, alıcılıq qabiliyyəti, reklam təbliğatı, mövsümilik, müxtəlif gözləmələrlə də bağlıdır. Lakin bazarda müxtəlif səbəblərlə bilavasitə, yaxud dolayı yollarla bağlı ayrı-ayrı amillərin təsiri altında baş verən qiymət enib-qalxmaları nəzərə alınmazsa, orada tələblə-təklifin nisbi bərabərliyi prinsipi əsasında ***tarazlıq qiyməti*** formalaşır.

Tarazlıq qiyməti dedikdə, müəyyən bir vaxt (ay, rüb, il) ərzində, mövcud qiymətlər təməlində, əmtəə-xidmətlər təklifinin ümumi həcmi və konkret çeşidi ilə həmin məhsullara olan alıcı tələbi arasındakı müəyyən uyğunluq başa düşülür. Həmin asılılığı qrafik sxem şəklində belə göstərmək olar.

Bazar və qiymət tarazlığı səviyyəsi göstərir ki, əks tərəflər kimi səciyyələnən tələb və təklifin nisbi uyğunluğu mümkündür, lakin bu tarazlıq müvəqqəti xarakter daşıdığından hər an dəyişə bilər. Deməli, bazarda tələblə-təklifin nisbi tarazlığı keçici və ötəri, onların qiymətlə bağlı dəyişkənliyi isə əbədidir.

**10.4.** Tələblə təklifin tarazlıq nöqtəsində kəsişməsi anından sonra ***qiymət-gəlir, faydalılıq, vaxt amillərinin*** təsiri nəticəsində həm tələbdə, həm də təklifdə müxtəlif dəyişikliklər baş verir. Bu dəyişikliklərin dinamikası, tələb və təklif əyrilərinin istiqaməti, bazarda yaranan konkret vəziyyətdən asılı olaraq bəzən ***yüksələn,*** bəzən də ***enən*** xətt üzrə gedə bilər. Qrafik sxem şəklində bu dəyişikliyi belə təsvir etmək olar.




Bazarda formalaşan tələblə təklifin tarazlığının müvəqqəti, onların dəyişkənliyinin isə vaxtaşırı, fasiləsiz davam etdiyi nəzərə alınarsa, həmin dəyişikliklərin kəmiyyət göstəricilərini müəyyənləşdirmək lazım olur.

İqtisadi nəzəriyyədə bu məsələni aydınlaşdırmaq üçün elastiklik anlayışından istifadə olunur. «Elastiklik» iqtisadi nəzəriyyənin mühüm anlayışlarından biri olub, ilk dəfə məşhur ingilis iqtisadçısı **Alfred Marşall** (1842-1924) tərəfindən işlədilərək elmi dövriyyəyə daxil edilmişdir.

**Elastiklik** – bir dəyişən kəmiyyətin (tələbin, təklifin, qiymətin, gəlirin) , digər dəyişən kəmiyyətə təsiri deməkdir. Başqa sözlə elastiklik, bir-birindən asılı olan tələb, təklif, qiymət, gəlir amillərinin birində baş verən dəyişikliyin digərinə mütəq, yaxud nisbi mənada (faizlə) təsiridir. Bəzən bu kəmiyyətlərdən birindəki dəyişikliyin, digər kəmiyyətə təsiri həssaslıq yaxud cavab reaksiyası kimi səciyyələndirilir. Elastiklik anlayışı, bazarın orada baş verən proseslərə uyğunlaşması gedişini dərindən başa düşməyə kömək edir. Bəzən elə düşünürlər ki, hər hansı bir şirkət istehsal etdiyi məhsulların satış qiymətini yüksəltməklə, daha çox mənfəət əldə edə bilər. Formal məntiq baxımından bu fikirlə razılaşmaq mümkün olsa da, lakin iqtisadi reallıq və bazar münasibətləri prinsipləri mövqeyindən doğru deyildir. Çünki ayrı-ayrı şirkət və müəssisələr istehsal etdikləri məhsulların, yaxud göstərdikləri xidmətlərin qiymətlərini artırmaqda sərbəstdirlər. Lakin həmin məhsul və xidmətlərin reallaşdırılması, satışı taleyi onların iradəsindən deyil, bazar qanunlarından, habelə alıcı zövqü-imkanlarından asılı olduğundan, şübhəsiz qiymətlərin artması satış həcminin, eyni zamanda satışdan əldə olunan məbləğin aşağı düşməsi ilə nəticələnəcəkdir.

İqtisadi nəzəriyyədə tələb, təklif, qiymət, gəlir arasındakı elastikliyi müəyyənləşdirmək üçün ***elastiklik vahidi*** (əmsalı, indeksi, göstəricisi) anlayışından istifadə edilir. Elastiklik vahidi dedikdə, qiymətin dəyişməsi səviyyəsinin (miqdarının, həcminin, faizinin) tələbin, təklifin, satışdan əldə olunan məbləğin dəyişməsi səviyyəsinə nisbəti (bərabərliyi) nəzərdə tutulur. Məsələn; qiymətin 2 dəfə azalması (yaxud artması) ilə tələbin də 2 dəfə artması (yaxud azalması) faktı, müəyyən bir məhsulla (taxıl, neft, sement) bağlı, tələbin elastiklik vahidi – $E=1$ olacaqdır. Qiymətlə bağlı tələb və təklifdəki dəyişikliklər, elastiklik vahidinə öz təsirini göstərərək $E>1$ və $E<1$ olacaqdır.

**10.5.** Bazar münasibətləri şəraitində fəaliyyət göstərən şirkət ilk növbədə özü üçün müəyyənləşdirməlidir ki, onun rəqiblərinin istehsal etdikləri məhsulların və göstərdikləri xidmətlərin qiymətlərinin artıb-azalması istiqamətindəki dəyişikliyi tələbə, alıcıların gəlirlərinə necə təsir göstərəcəkdir. Bazarın subyektləri (iştirakçıları) olan ev təsərrüfatları, şirkətlər, müəssisələr burada gah alıcı, gah da satıcı rolunda çıxış etdiklərindən, onlar üçün əmtəə-xidmətlərin həcmi, qiyməti, tələb məsələləri həyatı bir əhəmiyyət kəsb edir.

Elastiklik bir dəyişən kəmiyyətin başqa dəyişən kəmiyyətə mütləq rəqəmlərlə, yaxud faiz etibarilə təsir dərəcəsini göstərdiyindən, onun əmsalı belə ifadə olunur:

$$E_p = \frac{\Delta Q}{\Delta P}$$

Burada ΔQ – tələbin dəyişkənliyini; ΔP – qiymətin dəyişkənliyini; «p» – elastikliyin qiymətə görə baxıldığını yaxud müəyyənləşdirildiyini nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə qiymətlə miqdar (kəmiyyət) arasında olan asılılıq, tələblə-təklifin elastikliyinin əsasını təşkil edir. Söhbət ondan gedir ki, qiymətin 1 faiz dəyişməsi (artıb-azalması), satışda olan əmtəələrin-xidmətlərin həcminin dəyişməsinə necə təsir göstərəcəkdir. Bu dəyişkən asılılığı, tələbin elastikliyi üçün belə ifadə etmək olar:

$$E_d^p = \frac{\Delta Q}{Q} : \frac{\Delta P}{P} = \frac{\Delta Q \cdot P}{Q \cdot \Delta P} \cdot 100\%$$

Burada ΔQ – tələb olunan məhsulun səviyyəsindəki (kəmiyyətindəki) dəyişiklikdir; Q – ilkin tələb səviyyəsidir; ΔP – qiymətin səviyyəsindəki dəyişiklikdir; P – qiymətin ilkin səviyyəsidir; $E_d^p$ – tələbin qimətlə bağlı elastiklik əmsalıdır (indeksidir).

Tələbin satışdan əldə olunan məbləğlə (gəlirlə) bağlı elastikliyinə gəldikdə, həmin gəlir (R), məhsul və xidmətlərin qiyməti ilə (P) bunların bazara çəxarılan kəmiyyətinin (Q) hasilinə bərabər olacaqdır:

$$R = P \cdot Q$$

Bu halda elastiklik səviyyəsi E=1 olacaqdır. Əgər qiymətin azalması nəticəsində satışın artmasından əldə olunan gəlir, qiymətin azalmasından itirilən gəlirdən çox olarsa, gəlir elastik hesab edilə bilər və E>1 kimi işarə olunur. Əksinə, qiymətin aşağı düşməsindən itirilən gəlir, bunun nəticəsində tələbin (satışın) artmasından əldə edilən gəlirdən çox olarsa, bu halda tələb qeyri-elastik hesab edilir və E<1 kimi işarə olunur.

Fikrimizi aydınlaşdırmaq üçün fərz edək ki, taxıl satışı ilə məşğul olan şirkət bazara, hər tonu 300 dollardan 200 ton məhsul çıxarır. Satış həcminin və bazarda qiymətlərin dəyişməsi ilə bağlı, elastiklik səviyyəsi də aşağıdakı kimi dəyişəcəkdir:

I halda – 200 ton×300 dollar=60000 dollar; E=1

II halda – 250 ton×280 dollar=62000 dollar; E>1

III halda – 210 ton×280 dollar=57800 dollar; E<1

Elastik tələbə başqa bir misal kimi göstərmik olar ki, əmtəə və xidmətlərin qiymətinin 2 dəfə ucuzlaşdığı şəraitdə, satışdan əldə olunan məbləğ 1,5 dəfə artmışsa yəni qiymətlə əldə edilən məbləğ əks istiqamətlərdə gedərsə, deməli tələb elastikdir, dəyişkəndir, həssasdır. Qrafik şəkildə tələbin elastiklik əyrisinin necə dəyişdiyini aşağıdakı sxemdən görmək olar:

Qeyri-elastik tələbə misal kimi göstərmək olar ki, əgər əmtəə-xidmətlərin qiyməti 3 dəfə aşağı düşmüş və bunun nəticəsində satışdan əldə olunmuş məbləğ cəmi 1/3 qədər (33,3 faiz) azalmışsa, onda tələb qeyri-elastik sayılmalıdır. Çünki, qiymətlərin kəsgin surətdə aşağı

düşdüyü halda, tələbin zəif artması, qiymət dəyişkənliyinə nisbi biganəliyi, yəni tələbin qeyri-elastikliyini göstərir.

Tələbin elastikliyi əmsalı ***qısamüddətli*** və ***uzunmüddətli*** dövrlər üçün eyni cür olmayıb, dəyişkən xarakter daşıyır. Çünki insanlar müxtəlif məhsulları istehlak etmək və xidmətlərdən faydalanmaq adətlərindən qısa müddət ərzində əl çəkə bilmirlər. Məsələn, çay və kofe ilə bağlı qiymət yaxud onun kəmiyyəti problemi meydana çıxdıqda, tələbin elastikliyini özünü göstərməsi üçün müəyyən vaxt lazımdır. Benzinlə bağlı tələbin elastikliyi, qısamüddətli dövrə nisbətən, uzunmüddətli dövr üçün daha səciyyəvidir. Deməli, müəyyən istisnalarla gündəlik tələbat malları ilə bağlı tələbin elastikliyi özünü qısamüddətli dövürdə deyil, nisbətən uzunmüddətli dövrdə gösətrir. Əksinə avtomobil, mebel, televizor, kompüter kimi məhsullar üzrə tələb elastikliyi qısamüddətli dövr üçün daha təsirli və həssasdır.







Gəlirlərlə bağlı tələbin elastiklik səviyyəsi də, qısamüddətli dövrlərdə fərqli xarakter daşıyır. Zəruri və gündəlik tələbat mallarının gəlirlər üzrə elastiklik səviyyəsi, qısamüddətli dövrə nisbətən uzunmüddətli dövr ərzində özünü daha dolğun şəkildə göstərəcəkdir. Əksinə, avtomobil, ziynət şeyləri, mənzil, əntiq əşyalarla bağlı tələbin elastikliyi, əhalinin gəlirlərindən asılı olaraq, uzunmüddətli dövrə nisbətən qısamüddıtli vaxt ərzində özünü daha aydın şəkildə göstərəcəkdir.

Bu adi və normal proseslərlə yanaşı, insanların həyatında toy, ad günü, yubiley, təhsil, xəstəlik, matəm kimi hadisələrlə bağlı elə anlar olur ki, qiymət, habelə gəlir səviyyəsindən asılı olmayaraq, həmin məsələləri hökmən həll etmək lazım gəlir. Bu halda tələbin elastiklik əmsalı sıfıra bərabər olur. Tələbin elastikliyinin əsas formaları aşağıdakı cədvəldə verilmişdir.

**Tələb elastikliyinin əsas formaları**

| Elastikliyin əsas formaları | Elastiklik dərəcəsi, səviyyəsi | Satışdan əldə olunan məbləğ | Əmtəə-xidmətlərinin qiyməti |
|---|---|---|---|
| Mütləq elastik tələb | $E_{tələb}$=X | Artır ↑ | Qiymət tələbdən asılı deyildir |
| Elastik tələb | $E_{tələb}$>1 | Artır ↑ | – |
| Vahid elastiklik | $E_{tələb}$=1 | Dəyişmir | Qiymət dəyişmir |
| Qeyri-elastik tələb | $E_{tələb}$<1 | Azalır ↓ | Qiymət aşağı düşür |
| Mütləq qeyri-elastik tələb | $E_{tələb}$=0 | Artır ↑ | Tələb qiymətdən asılı deyildir |

Tələbin elastikliyinin dəyişmə səviyyəsi özünü 3 istiqamətdə göstərə bilər:

a) ***Zəif elastiklik*** o deməkdir ki, əmtəə-xidmətlərin qiymətinin artmasına baxmayaraq, onların şatış həcmi az və zəif dəyişir. Məsələn, çörək, şəkər, duz və digər gündəlik tələbat məhsullarının qiymətinin bahalaşmasına baxmayaraq, insanlar həmin qrup məhsullarından yenə də əvvəlki həcmdə, yaxud az dəyişikliklərlə istifadə edəcəklərindən, bu halda tələbin elastik səviyyəsinin həssaslığı, reaksiyası zəif olacaqdır. Eyni zamanda soyuducunun, məişət texnikasının, xəz paltonun, billur qab-qacağın qiymətinin aşağı düşməsi heç də o demək deyildir ki, bunların satışı hökmən xeyli artacaqdır. Əlbəttə, müəyyən zəif artımın olması mümkün və gözləniləndir. Lakin əhalinin gəlirləri, həyat səviyyəsi, alıcılıq qabiliyyəti, zövqü kimi kompleks şərtlərlə bağlı olan bu məsələdə kəsgin dönüş, yaxud tələbin elastiklik səviyyəsində böyük dəyişikliklər baş verəcəyini gözləmək, şübhəsiz çətindir.

b) ***Orta, aralıq elastiklik*** elə əmtəə-xidmətlərə aid edilir ki, həmin məhsulların potensial əvəzləyiciləri olur. Məsələn, bazarda qiymətlərin enib-qalxmasından asılı olaraq, alıcıların kərə yağını bitgi mənşəli yağlarla, kofeni çayla, paltaryuyucu tozun bir növünü başqasıyla əvəzləməsi tamamilə mümkündür. Bu zaman tələbin elastik səviyyəsinin dəyişkənliyi və həssaslığı özünü orta, yaxud aralıq bir həddə göstərir.

c) ***Sürətli, kəsgin elastiklik,*** müəyyən qrup əmtəə-xidmətlərin (qara kürünün, qızılın, xəz məmulatlarının, dərmanların, bəzi içgi növlərinin, xaricdən gətirilən məhsulların) qiymətlərinin obyektiv-subyektiv səbəblərlə bağlı əhəmiyyətli dərəcədə yüksəlməsi, yaxud həmin məhsulların istehsalının ixtisarı nəticəsində çatışmazlığın (defisitin) yaranmasıdır. Təbiidir ki, daxili və beynəlxalq bazarda yaranan belə hallarda, satış qiymətlərində baş verən kəsgin dəyişikliklər təklifin elastiklik həssaslığına güclü təsir göstərir.

İqtisadi nəzəriyyədə tələbin qiymətlə bağlı elastikliyinin təhlilində, müəyyən bir nöqtədə kəsişmə və qövsvari əyri üsullarından istifadə olunur. ***Birinci halda,*** qiymətin zəif dəyişməsi qısa bir dövr ərzində onun tələblə müəyyən bir nöqtədə kəsişməsini nəzərdə tutur. ***İkinci halda*** isə qiymətin kəsgin dəyişməsi nəticəsində, tələbin nisbətən orta və uzunmüddətli dövr ərzində müəyyən qövs şəklində hərəkət istiqaməti nəzərdə tutulur.

Qiymətlə əlaqədar tələb-təklifdə baş verən enib-qalxmalar nəticəsində elastikliyin dəyişməsi ümumi daxili məhsulun həcmi, məşğulluq-işsizlik, inflyasiya kimi səbəblərə bağlıdırsa, bu ***endogen*** (daxili) asılılıq adlandırılır. Həmin dəyişikliklər müharibə, beynəlxalq aləmdəki siyasi-iqtisadi proseslər, inqilabi hadisələrlə bağlıdırsa, o zaman bu ***ekzogen*** (xarici) amillərlə bağlı asılılıq kimi qiymətləndinilir.

**10.6.** İqtisadi nəzəriyyənin mühüm anlayışlarından biri sayılan təklif də elastik olub, bazarda qiymətlərin vaxtaşırı enib-qalxmasına uyğun surətdə onun həcmi gah artır, gah da azalır. Doğrudur, iqtisadi inkişafın və müxtəlif təyinatlı şirkətlərin, ev təsərrüfatlarının, müəssisələrin, korporasiyaların məqsədi istehsal-xidmət sahələrinin yüksəlişi əsasında mənfəət əldə etmək olsa da, bazar mexanizminin tərkib hissələri sayılan tələb-təklif, qiymət, rəqabət mübarizəsi prinsiplərinin qarşılıqlı əlaqəsi və ziddiyyətli təsir gücü özünü həmişə göstərir.

Təklifin qiymətlə bağlı elastikliyi, yəni qiymətin artıb-azalması nəticəsində təklifin dəyişməsi prosesi, aşağıdakı kimi ifadə olunur:

$$E_s^p = \frac{\Delta Q}{Q} : \frac{\Delta P}{P} = \frac{\Delta Q \cdot P}{Q \cdot \Delta P} \cdot 100\%$$

Burada $\Delta Q$ – təklif olunan əmtəə-xidmətlərin səviyyəsindəki dəyişikliyi; Q – təklifin ilkin səviyyəsini; $\Delta P$ – qiymətin dəyişmiş səviyyəsini; P – qiymətin ilkin səviyyəsini; $E_s^p$ – təklifin qiymətlə bağlı elastiklik səviyyəsini göstərir. Bu formuldan aydın olur ki, təklifin elastikliyi ilə tələbin elastikliyi arasında zahiri bir oxşarlıq vardır. Lakin bu yalnız zahiri xarakter daşıyır, mahiyyət etibarilə həmin formullar tamamilə fərqlidirlər. Təsadüfü deyilməmişdir ki, əgər hadisələrin təzahürü ilə onların mahiyyəti üst-üstə düşüb, eyni olsaydı, o zaman heç bir elmi axtarış və təhlilə ehtiyac qalmazdı.

Bu mənada yuxarıdakı oxşarlıq və bənzəyişin mahiyyətinə diqqət yetirilsə, şübhəsiz fərq aydın olar. Həmin fərq isə bundan ibarətdir ki, $\Delta Q$ tələbin elastikliyi formulunda alıcı tərəfindən tələb olunan məhsulun dəyişkənliyi səviyyəsini göstərir. Təklifin elastikliyi formulunda isə $\Delta Q$ kəmiyyəti satıcı (istehsalçı) tərəfindən təklif olunan əmtəə və xidmətlərin həcm səviyyəsinin dəyişkənliyini göstərir.

Təklifin həcmi və miqdarı ilk növbədə satışa çıxarılan məhsulların, habelə göstərilən xidmətlərin bazar qiymətlərindən asılıdır. Aydındır ki, başqa şərtlər dəyişməz qaldıqda qiymətlərin yüksək olması, istehsalçıları daha çox əmtəə-xidmətlər hazırlayıb bazara çıxarmağa həvəsləndirəcəkdir. Əksinə bazarda qiymətlərin aşağı düşməsi meyli, istehsalçıların gəlirlərini azaltdığından, təbiidir ki, onlar tədricən bazara daha az əmtəə-xidmətlər çıxarmaqda maraqlı olacaqlar. Belə bir asılılıq və qarşılıqlı təsir nəticəsində, qiymətlə bağlı təklifin elastiklik səviyyəsi müəyyənləşdirilir. Məhz bu əsasda hesablamaq mümkündür ki, konkret vaxt, zaman kəsiyində ayrı-ayrı məhsulların və xidmətlərin istehsalı, bazar qiymətlərinin dəyişməsinə nə dərəcədə həssasdırlar.




Bazar qiymətlərində baş verən ucuzlaşma məhsulların istehsalını tədricən aşağı salırsa, yaxud bazarda qiymətlərin bahalaşması əmtəə-xidmətlərin həcminin artmasına səbəb olursa, deməli ***təklif elastikdir***. Əksinə, bazara çıxarılan məhsulların həcminin sabitliyi şəraitində, bunların hər hansı bir qiymətə satışı ***təklifin qeyri-elastik*** olduğunu göstərir.

Məsələn, özünün mövsüm ərzində yetişdirdiyi məhsulu (meyvə, taxıl, tütün) bazara çıxaran fermerin, nadir sənət əsərini hərraca çıxaran şirkətin; ata-baba mülkünü satan şəxsin təklifi, bunların satış qiymətindən asılı olmayaraq, qeyri-elastik xarakter daşıyacaqdır. Çünki, onların satışa çıxardıqları məhsul və obyektlərin kəmiyyəti (həcmi) sabitdir, dəyişməzdir. Əgər, müəyyən vaxt keçdikdən sonra fermerin mövsüm ərzində yetişdirdiyi məhsulun, nadir rəsm yaxud sənətkarlıq əsərinin qiyməti qalxıb-ensə də, bunların istehsalını qısa müddət ərzində təşkil etmək çətin, hətta mümkün olmadığından, təklif qeyri-elastikliyində qalacaqdır. Ona görə də elastiklik əyrisi, aşağıdakı sxemdə göstərilən kimi şaquli (vertikal) xətt vəziyyətində olacaqdır:

Burada Q – təklif olunan məhsulu; P – qiyməti; $Q_0$ – təklif olunan məhsulun konkret həcmini; $P_0$ – ilkin qiyməti; $P_m$ – sonrakı qiyməti; $D_1$ – ilkin tələbi; $D_2$ – sonrakı tələbi; $S_m$ – təklifi göstərəcəkdir.

Təklifin elastiklik səviyyəsi eyni zamanda vaxt amilindən həlledici dərəcədə asılıdır. Yuxarıda göstərilən cari bazar müddəti dövründə (bəzən bu qısamüddətli dövr adlandırılır) ***təklif qeyri-elastikdir*** və onun əyrisi ***şaquli xətt*** boyuncadır. Buna səbəb vaxt məhdudluğu üzündən təklifin həcminin artırılmasının mümkün olmamasıdır.

Lakin müəyyən vaxt keçdikdən sonra nisbi mənada ***qısa, orta, uzun zaman kəsiyində,*** bazarda yaranan tələb və qiymətlərin yüksəlməsi nəticəsində, istehsal-xidmət sahələrinin genişlənməsi, habelə təklifin artması qanunauyğun bir haldır.

Sonrakı orta yaxud qısamüddətli və nisbətən daha uzunmüddətli dövr ərzində istehsalın intensivləşdirilməsi, habelə istehsal güclərinin genişləndirilməsi hesabına, təklifin həcminin xeyli artırılması mümkündür. Belə vəziyyətdə təklifin elastikliyi xeyli artacaq və təklif əyrisi əvvəlkindən fərqlənərək sağa doğru meyl edəcəkdir. Bunu aşağıdakı qrafik təsvirlərdən görmək olar.




Qısamüddətli (ortamüddətli) dövr




Uzunmüddətli dövr

Tələb və təklifin elastikliyi məsələsi təkcə nəzəri deyil, eyni zamanda təsərrüfat fəaliyyəti üçün əməli əhəmiyyətə malikdir. Bazarda formalaşmış tələb və təklifin qiymət, habelə gəlirlə bağlı elastiklik səviyyəsi haqqında kifayət qədər məlumata malik olmadan ev təsərrüfatlarının, şirkətlərin, korporasiyaların işini səmərəli təşkil etmək, onların gələcək perspektivlərini müəyyənləşdirmək çətindir.

Xüsusilə istehsalın inkişafı sayəsində, bazara çıxarılan məhsulların-xidmətlərin təklifinin artması, ilk növbədə əlavə xərclərlə bağlı olduğundan, müasir dövrdə iqtisad elmi və nəzəriyyəsinin aktual problemlərindən birinə çevrilmişdir. Ona görə tələb-təklifin istehsal, satış, qiymət, xərclər, gəlirlə bağlı məsələləri böyük maraq doğurur. Bu mənada təklifin elastikliyi göstərir ki, bazarda əmtəələrin-xidmətlərin qiymətlərinin bahalaşması meylindən əldə edilən gəlir, təklif olunan məhsulların istehsalını artırmaq üçün çəkilmiş xərclərdən çox olarsa təklif elastik, az olarsa qeyri-elastik sayılacaqdır.

İqtisadi nəzəriyyədə təklifin elastikliyinin aşağıdakı müxtəlif variantları qrafik sxem şəklində belə təsvir olunur:

**Təklifin elastikliyinin müxtəlif variantları**




Bazar münasibətləri iqtisadi sistemində tələblə-təklifin elastik səviyyəsinin ***qiymətə, gəlirə vaxta*** görə müəyyənləşdirilməsi və mikroiqtisadi təhlili imkan verir ki:

a) müxtəlif təyinatlı əmtəələrin-xidmətlərin istehsal həcmi və kəmiyyəti, bazarın tələb-təklifinə uyğun olsun;

b) ayrı-ayrı alıcı qruplarının bazar davranış qaydaları, zövq və arzuları düzgün nəzərə alınsın;

c) bazarda yaranmış konkret vəziyyətin tələblərinə uyğun şirkətin və koporasiyanın qiymət siyasəti işlənib hazırlansın;

d) xərclərin azaldılması və gəlirin artırılması əsasında şirkətin qısa, orta, uzunmüddətli dövrlər üçün inkişaf strategiyası müəyyənləşdirilsin;

e) əmtəə-xidmətlərin qiymətlərindəki dəyişikliklərlə bağlı, istehlakçıların xərclərini və istehsalçıların gəlirlərini proqnozlaşdırsın.

Müasir mərhələdə elmi-texniki tərəqqi, mütərəqqi texnologiyaların tətbiqi, istehsal proseslərində istifadə olunan iqtisadi resursların kəmiyyət-keyfiyyət problemləri, həmin resursların məhdudluğu reallığı, tədricən təklifin elastikliyinin əhəmiyyətini əvvəllərə nisbətən xeyli dəyişərək, aşkar surətdə zəiflətmişdir.

# Mövzu 11. İstehlakçı davranışı nəzəriyyəsi

**11.1** İstehlakçı davranışı və faydalılıq həddi
**11.2** İstehlakçı üstünlüyü və seçimi
**11.3** Şəxsi gəlir, büdcə məhdudluğu və istehlakçı bitərəfliliyi (neytrallığı)
**11.4** Əvəzlənmə və gəlir effektləri
**11.5** İstehlakçı davranışının formalaşmasına təsir edən amillər
**11.6** Faydalılıq həddinin azalması qanunu

**11.1**. Bazar münasibətləri iqtisadi sistemi şəraitində fəaliyyət göstərən istehsalçıların (satıcıların) əsas məqsədi, cəmiyyətin ictimai və insanların fərdi tələbatlarını hərtərəfli ödəmək əsasında yüksək (maksimum) mənfəət əldə etməkdir. Alıcıların (istehlakçıların) məqsədi isə gəlirləri dairəsində, şəxsi zövq və istəklərinə uyğun olaraq, bazarda formalaşmış qiymətlər əsasında öz müxtəlif tələbatlarını, ehtiyaclarını ödəmək və bundan maksimum faydalanmaqdır.

Bazar münasibətləri şəraitində son söz alıcıya məxsusdur və o, öz seçimində sərbəstdir. Lakin arzu və imkanla, qiymət və gəlirlə, şəxsi zövq və müasir dəblə məhdudlaşan bu ziddiyyətli «nisbi sərbəstlik», alıcını tarixən həmişə seçim problemi, nəyə üstünlük vermək məsələsi, hansı məhsul-xidmətin nə dərəcədə faydalı olması sualı ilə qarşılaşdırmışdır.

İnsanlar təhsil alanda da, ailə quranda da, gün ərzində vaxtlarını böləndə də, gələcək inkişaf perspektivləri barəsində düşünəndə də, bir sözlə istəyib-istəməsələr də, ictimai və şəxsi həyatlarında, məişət və davranışlarında, sövdələşmə və alqı-satqı münasibətlərində seçimlə rastlaşır, müəyyən qərara gəlir, nəhayət fəaliyyətlərini davam etdirirlər.

Müasir şəraitdə elmi-praktik əhəmiyyət kəsb edən istehlakçı (alıcı) davranışı nəzəriyyəsi – insanların gəlirlərini xərclədikləri vaxt, onların konkret şəraitdə özləri üçün ən faydalı hesab etdikləri əmtəələrə-xidmətlərə üstünlük verdiklərini aydınlaşdırır.

Alıcı (istehlakçı) davranışı və rəftarı, onun cəmiyyətin iqtisadi həyatında baş verən mürəkkəb proseslərə münasibəti təkcə ayrı-ayrı şirkət və korporasiyalar üçün deyil, eyni zamanda hakimiyyət, dövlət orqanları üçün də əhəmiyyətlidir. Hər hansı bir şirkətin satışa çıxardığı yeni məhsulun, yaxud göstərdiyi xidmətin qiymətinin alıcılar tərəfindən necə qarşılanacağı, şübhəsiz müəyyən problemlərlə bağlıdır. Alıcının yeni məhsullardan istifadəsi, xidmətlərə alışması, bazar qiymətləri ilə razılaşaraq həmin əmtəə-xidmətləri seçməsi o qədər də asanlıqla getmir.

Eyni zamanda, ölkə əhalisinin gəlirlərinin artması və həyat səviyyəsinin yüksəldilməsi məqsədilə dövlət, habelə hakimiyyət orqanlarının həyat keçirdikləri sosial tədbirlərin, məsələn ünvanlı güzəştlərin, vergi dərəcələrinin aşağı salınmasının, yardımların, subsidiyaların elmi təhlilə, daha samballı əməli tövsiyyələr hazırlanmasına ehtiyac vardır.

Ümumiyyətlə alıcı davranışı yaxud istehlakçı rəftarı: a) alıcıya həmişə seçim üstünlüyü hüququ verilməsi; b) onun imkan və büdcə məhdudiyyətləri ilə qarşılaşması; c) seçim qərarı verməsi kimi 3 mərhələni əhatə edir.

Aparılmış sorğular, müxtəlif qrup insanların öz istehlak səbətlərində, ərzaq və paltarın timsalında hansı məhsullara üstünlük verdiklərini göstərir:

Alıcıların üstünlük verdikləri müxtəlif istehlak səbətləri

| Müxtəlif istehlak səbətləri | Ərzaq məhsullarının şərti ölçü vahidi | Paltar-geyim mallarının şərti ölçü vahidi |
|---|---|---|
| A | 20 | 30 |
| B | 10 | 50 |
| C | 40 | 20 |
| Ç | 30 | 40 |
| D | 25 | 45 |
| E | 35 | 35 |

Cədvəldəki rəqəmlərin təhlili alıcı zövq və mədəniyyətinin səviyyəsi ilə yanaşı, onların ərzaq məhsullarına, yoxsa paltar-geyim mallarına daha çox üstünlük verdiklərini təsdiq edir. Müxtəlif təyinatlı maddi nemətlərin və rəngarəng xidmətlərin seçimində hər bir istehlakçı öz davranışı ilə əmtəə-xidmətlərin onun üçün faydalılığını, qiyymətini, habelə imkanını kompleks şəklində həll etməyə çalışır. Obyektiv-subyektiv səbəblərlə bağlı alıcı bu məsələni bəzən tam, bəzən də qismən həll edə bilər. Bu mənada, ***istehlakçı davranışının məzmununu – faydalılıq, qiymət, gəlir problemləri təşkil edir.***

Bazar münasibətləri iqtisadi sistemində «ən yüksək və son hədd» sayılan alıcı-istehlakçı, öz pulu, gəlir-imkanı hesabına, təklif olunan əmtəə-xidmətləri bəyənib, yaxud rədd edə bilər. Cəmiyyətdə ayrı-ayrı istehlakçıların seçim və almaq qərarı, bütövlükdə bazar tələbini formalaşdırır. Müxtəlif ölkələrdə istehlaka və istehsal amillərinə sərf olunan xərclər, onun ümumi daxili məhsulunun böyük bir hissəsini təşkil edir. Məsələn, yüksək inkişaf etmiş ölkələrdə istehlak xərclərinin ÜDM-da payı 50-55 %, ABŞ-da, 65-70 faiz olduğu halda, inkişaf etməkdə olan ölkələrdə, postsosialist və postsovet məkanında formalaşmış müstəqil dövlətlərdə bu rəqəm xeyli aşağıdır. Deməli, istehlakçı davranışının tərkib hissəsi kimi xarakterizə olunan insanların, şirkətlərin xərcləri milli iqtisadiyyatın yüksəlişinin həlledici şərtlərindəndir.

Hər bir alıcı seçimi, davranışı və rəftarı, ilk növbədə onun aldığı əmtəənin yaxud istifadə etdiyi xidmətin faydalığı ilə ölçülür. İstehsalçı və alıcının son iqtisadi qərarının əsasında, məhz əmtəə-xidmətin faydalığı amili durur.

***Faydalılıq*** – hər hansı bir əmtəə-xidmətin istifadəsinin istehlakçıya gətirdiyi rahatləq və onu qane etmək xüsusiyyəti kimi başa düşülür. Son iqtisadi ədəbiyyatlarda, ***faydalılıq istehlak üstünlükləri*** kimi izah olunur.

Faydalılıq sırf fərdi və subyektiv bir anlayışdır. Bu anlayış forma etibarilə fərqli, məzmun və mahiyyət etibarilə ziddiyyətlidir. Babamız və bacımız üçün zəruri sayılıb, faydalı olan eynək, bizim üçün faydasız görünə bilər; birinə fayda və əhəmiyyət kəsb etməyən rəssamın, yaxud heykəltaraşın sənət əsəri, başqası üçün əvəzsiz dərəcədə qiymətli, faydalı ola bilər; xəstə üçün faydalı olan dərman, başqası üçün nəinki faydasız, hətta zərər gətirə bilər.

İqtisadi nəzəriyyədə fayda və faydalılıq anlayışlarından başqa, ***faydalılıq həddi*** anlayışı da vardır. Bu o deməkdir ki, alıcılar istehlak etdikləri əmtəə-xidmətlərin (çörəyin, ətin, meyvə-tərəvəzin, internetin, musiqi köçürülmüş diskin) hər sonrakı təkrar qəbulundan – istifadəsindən əlavə fayda götürürlər.

Lakin insanların tələbatları nə qədər müxtəlif və sonsuz olsa da, şübhəsiz bunun müəyyən nisbi bir həddi vardır. Həyat təcrübəsindən məlumdur ki, qızmar yay günündə 1-2 stəkan sərin suyun, ac adama bir qismət çörəyin, ürək çatışmazlığından əziyyət çəkən xəstəyə müvafiq dərmanın gətirdiyi rahatlıq və ruhi-psixoloji sakitliyin faydalılığı böyükdür, bəlkə də həlledicidir. Sonrakı, yəni əlavə su, qida dərman qəbulunun əvvəlki faydalılığı və istehlakçıya gətirdiyi rahatlıq, razılıq dərəcəsi (əmsalı) tədricən aşağı düşəcəkdir. Bu meyl, ***faydalığın azalması qanunu*** adlanır.

Deməli əmtəələrin-xidmətlərin faydalılığı ilə onların həcmi və miqdarı (kəmiyyəti) arasında ***tərs mütənasiblik*** vardır. Əmtəə və xidmətlərdən ardıcıl istifadə prosesində hər sonrakı, yəni əlavə istehlak kəmiyyəti, həmin əmtəə-xidmətlərin faydalılıq həddini aşağı salır. Nizami Gəncəvinin dediyi kimi insanın müəyyən bir nemətdən, əməldən fayda götürməsi üçün: **«*Hər qərar vaxında verilsin gərək*».**

Faydalılıq nəzəriyyəsi iqtisad elminin inkişafında mühüm rol oynamışdır. XVIII meydana çıxmış bu elmi-nəzəri istiqamətin müəyyən ideyaları **İ.Bentam** (1748-1832), **A.Smit** (1723-1790), **U.Cevons** (1835-1882) kimi görkəmli iqtisadçı və sosioloqların əsərlərində öz əksini tapsa da, onun əsl təhlili ***marjinalizm*** (faydalılıq) məktəbinin nümayəndələri sayılan **K.Menger** (1840-1921), **L.Valras** (1834-1910), **V.Pareto** (1848-1923) və başqaları tərəfindən yaradıcılıqla inkişaf etdirilmişdir.

Marjinalistlər faydalılıq həddi anlayışını izah edərkən, əmtəə-xidmətlərin qiymətini onlara sərf olunmuş ***əməyin kəmiyyəti və ümumi istehsal xərcləri ilə deyil, həmin məhsulun konkret alıcıya (fərdə, şəxsə, subyektə) gətirdiyi faydalılığa üstünlük vermişlər***. Başqa sözlə, ayrı-ayrı əmtəə və xidmətlərinin qiymətinin əsl meyarı, ölçüsü, dəyəri həmin məhsulun yaxud xidmətin konkret alıcı üçün faydalılığıdır. Deməli, faydalılıq həddi nəzəriyyəsi əmtəə-xidmətlərin qiymətinin əmələ gəlməsini istehsalın və istehsalçının fəaliyyəti, xərcləri, risqi baxımından deyil, satılan məhsulun, yaxud göstərilən xidmətin konkret alıcıya (istehlakçıya) faydalılığı baxımından təhlil edib öyrənir.

Marjinalist mövqeyə görə, müəyyən bir məhsulun yaxud xidmətin hər sonrakı kəmiyyətinin təkrar istehlakından (istifadəsindən) alınan ***əlavə fayda – faydalılıq həddi adlanır və əmtəə-xidmətlərin qiyməti, həmin ən aşağı, adiləşən zəruri tələbat səviyyəsindəki faydalılıqla müəyyən olunur.***

Onların fikrincə, ***faydalılıq və qiymət*** eyni anlayış deyildir. Bu iki anlayış arasında oxşarlıq əlaqəsi var, lakin bərabərlik və eyniyyət yoxdur. Təcrübədən aydındır ki, çörəyin qiyməti ac adamın, suyun qiyməti isə hədsiz susamış adamın ilkin «aclıq» və «susuzluq» halının-vəziyyətinin hökm etdiyi qiymətlə deyil, çörəyin və suyun normal zəruri tələbatı ödəyən sonuncu vahidinin (miqdarının, kəmiyyətinin) adiləşən faydalılığı ilə ölçülür.

İqtisad elmi tarixində faydalılıq (marjinalizm) nəzəriyyəsinin işlənib hazırlanmasında Avstriya iqtisadçısı Karl Menger mühüm rol oynamışdır. O, müxtəlif məhsulların konkret faydalılıq həddini aydınlaşdırmaq üçün aşağıda verilmiş cədvəli tərtib etmişdir:

**Müxtəlif məhsulların faydalılıq həddi**

| **İstehlak olunmuş məhsulların istifadə pillələri** | **Faydalılıq həddi ilə qiymətləndirmə** | | |
|---|---|---|---|
| | ***Çörək*** | ***Pendir*** | ***Banan*** |
| I | 10 | 9 | 8 |
| II | 9 | 8 | 7 |

| | | | |
|---|---|---|---|
| III | 8 | 7 | 6 |
| IV | 7 | 6 | 5 |
| V | 6 | 5 | 4 |
| VI | 5 | 4 | 3 |
| VII | 4 | 3 | 2 |
| VIII | 3 | 2 | 1 |

Cədvəldən bir daha aydın olur ki, istehlakçının sonrakı hər istifadəsi pilləsində məhsulun kəmiyyəti artsa da, lakin istehlakın faydalılıq səviyyəsi yaxud dərəcəsi aşağı düşür. Tərs mütənasiblik əsasında qurulan bu nisbət nəticəsində, istehlak olunmuş məhsulların miqdarı artsa da, faydalığı azalır.

K.Mengerin fikrincə, hələ lap qədim vaxtlardan, Aristoteldən başlayaraq – ***məhsulların mübadiləsinin əsasında onların bərabərliyinin, təxminən eyni dəyərliyinin durduğunu söyləmək doğru deyildir.*** Çünki, «insanların mübadilə (alqı-satqı) cəhdləri, səyləri o zaman baş tutur ki, bir subyektdə (nəfərdə) olan məhsul, həmin adam üçün başqa subyektdə (şəxsdə) olan məhsuldan daha az faydalıdır, yaxud arzu ediləndir». Sonralar A.Marşall əmtəə-xidmətlərin qiymətinin formalaşmasında həm istehsal xərcləri, həm faydalılıq, həm də digər amillərinin rolu olduğu konsepsiyasını irəli sürüb əsaslandırmışdır.

**11.2.** Cəmiyyətin, istehsal-xidmət dairəsinin, xüsusilə də insanların iqtisadi tələblərinin əhatə dairəsi geniş və məzmunu isə olduqca zəngin, habelə müxtəlifdir. Zaman keçdikcə, onların aldıqları təlim-tərbiyə, təhsil, peşə-sənət yönümü, zövq və mədəni səviyyəsi dəyişdikcə, təbiidir ki, bir istehlakçı kimi alıcıların tələbləri, faydalılıq haqqında təsəvvürləri, hansı əmtəə-xidmətlərə üstünlük vermək meylləri, nəhayət gəlirləri – imkanları daxilində seçimləri, hökmən dəyişir. İstehlakçının müəyyən əmtəə-xidmətlərə üstünlük verməsi onun gəliri ilə bağlı olduğu kimi, eyni zamanda imkanları xaricində də ola bilər. İstehlakçı daha rahat mənzildə yaşamağa, ailəsi ilə birlikdə səyahətə çıxmağa, son markalı avtomobilə sahib olmağa üstünlük versə də, lakin bu arzular onun real imkanlarına uyğun olmaya bilər. İstehlakçının imkan və qiymətlərdən asılı olmayan, alıcının real tələblərinə uyğun gəlməyən üstünlük davranışı meylləri ***saf, ideal, xəyal, yaxud təmiz üstünlük adlanır.***

Alıcının ona eyni təyinatlı əmtəə-xidmətlər arasında, öz seçimində nəyə üstünlük verəcəyini müəyyənləşdirmək, əlbəttə çətindir. Çünki, nəyə isə üstünlük vermək və son seçim etmək, istehlakçının «suveren hüququdur». Real həyatda, normal istehlakçı davranışı prinsipləri ilə hərəkət edən və yaşayan hər bir alıcı öz gəliri – imkanı daxilində, bəyənib üstünlük verdiyi, habelə faydalı hesab etdiyi, səmərəli saydığı əmtəə-xidmətlər seçimində tam sərbəstdir. Bu mənada istehlakçı, bazarın «baş qəhrəmanı» və alqı-satqı münasibətlərinin həlledici tərəfidir.

Nəzərə almaq lazımdır ki, müəyyən bir zərurət yarandıqda, məsələn müharibələr zamanı, təbii fəlakətlər baş verdikdə, fövqəladə vəziyyət elan olunduqda, ölkənin iqtisadi təhlükəsizliyi ilə bağlı tədbirlər həyata keçirildikdə, istehlakçıların hüquqları məhdudlaşdırıla, hətta qadağanlar tətbiq oluna bilər. Rəsmi dairələrin bu istiqamətdəki addımları insanların sağlamlığını qorumaq və milli adət-ənənələrə hörmətlə yanaşmaq arzusu, habelə tələbi ilə izah olunsa da, təssüf ki, cəmiyyətin müxtəlif təbəqələri tərəfindən birmənalı qəbul olunmur.

Dünyanın müxtəlif ölkələrində narkotik maddələrin yayılmasına, silah alverinə, ekoloji cəhətdən təhlükəli məhsulların istehsalı və satışına, uşaq və qadın əməyindən qanunsuz yollarla istifadəsinə qarşı mübarizə tədbirləri buna nümunə ola bilər. Xoş niyyətlərlə tətbiq olunan bu məhdudiyyət və qadağanlar, bəzən istehlakçı və şəxsiyyət hüquqlarının pozulması kimi qiymətləndirilir.

Ona görə də bir sıra Avropa, Amerika və Şərq ölkələrində müəyyən edilmiş qaydalar əsasında, istehlakçı tələbi, habelə onun hüquqları nəzərə alınmaqla, bəzi narkotik vasitələrdən, əyləncə evlərinin xidmətlərindən, özünü müdafiə məqsədilə müəyyən şərtlər daxilində silah satışından istifadəyə, kazinoların fəaliyyətinə icazə verilir.

Ayrı-ayrı ölkələrin təsərrüfat həyatı təcrübəsi göstərmişdir ki, alıcı hüquqlarının pozulması və məhdudlaşdırılması, çox vaxt gözlənilməz əks sosial-iqtisadi nəticələrə gətirib çıxarmışdı. Məsələn, ötən əsrin 20-ci illərində ABŞ-da və 80-ci illərində keçmiş Sovet İttifaqında alkoqollu-spirtli içgilərə qarşı rəsmi mübarizə tədbirləri uğursuzluqla nəticələnmişdi. Bu məhdudiyyət və qadağan tədbirlərindən sonra, həmin ölkələrdə şərab məhsullarının istehsalı, satışı üzrə qanunsuz gizli fəaliyyət geniş yayılmışdır.

Bu faktlar göstərir ki, bazar münasibətləri iqtisadi sistemi şəraitində istehlakçı davranışının tərkib hissələri sayılan alıcının üstünlük verdiyi meyllərə, həvəs göstərdiyi xidmətlərə həssaslıqla yanaşmaq və düşünülmüş tədbirlər sistemi vasitəsilə səmərəli mübarizə aparmaq mümkündür. İstehlakçı davranışını təkcə iqtisadi amillər deyil, həm də siyasi-ictimai səbəblər, mənəvi-əxlaqi dəyərlər, irsi-mədəni şərtlər, insanların yüksək intelektual səviyyəsi müəyyənləşdirir.

İstehlakçı üstünlüyü və seçimi özünün müxtəlif təzahür formaları, səmərəliliyi, sosial-iqtisadi nəticələri ilə fərqlənir. Məsələn, ***«yamsılamaq effekti»*** – qonşu getdi, mən qaldın prinsipinə yaxud başqasında var, nə üçün məndə olmasın psixologiyasına əsaslanır ki, bunun da həm müsbət, həm də mənfi nəticələri olur. Başqa bir forma ***«fərqlənmək effekti»*** adlanır. Bu formanın başlıca xüsusiyyəti, istehlakçının öz davranışı və zövqü ilə hamıdan fərqlənmək cəhtidir. Bir qrup insanın həddsiz qısa və uzun, dar yaxud gen paltara, hündür dabanlı ayaqqabılara, bənzərsiz saç düzümünə və rənginə üstünlük verməsi buna nümunə ola bilər. ***«Müstəsnalıq effekti»*** isə normal və sivil insan ehtiyacını, istehlakçı tələbini ödəmək üçün deyil, fərdin geniş imkanlarını göstərmək məqsədilə, nümayiş xarakteri daşıyır. Çox bahalı geyim, qiymətli daş-qaşla bəzənərək məclislərə çıxmaq, istehlakçı davranışının üstünlük meylinin kəsgin təzahür formalarından biridir.

**11.3.** Hər bir istehlakçının yaxud alıcının bazar münasibətləri iqtisadi sistemi şəraitində davranışı müxtəlif şərtlərlə yanaşı, ilk növbədə onun gəliri və maddi imkanları ilə bağlıdır. Ayrıca fərd və istehlakçının konkret gəliri, onun şəxsi gəliri adlanır. Eyni zamanda ev təsərrüfatlarının, şirkətlərin, müəssisələrin, korporasiyaların, milli gəlir formasında ölkənin də gəliri olur. İstehlakçının bazardakı davranışı və rəftarının, öz tələb və ehtiyaclarını hansı səviyyədə ödəyə bilməsinin maddi əsası, mənbəyi onun şəxsi gəliridir.

***Şəxsi gəlir*** (Personal inkome – Pİ) əldə edilmiş müəyyən məbləğ vəsaitdən vergi ödənişlərini çıxdıqdan, sonra xərclənən, yaxud əmanət kimi saxlanılan pulun miqdarı və kəmiyyətidir. Əhalinin və ayrı-ayrı şəxslərin gəlirləri ölkə iqtisadiyyatının ümumi inkişaf səviyyəsindən, istehsal-xidmət dairəsinin sahə quruluşundan, iqtisadi resurslarla təmin olunmasından, milli gəlirin bölgüsü və yenidən bölgüsündən, vergi dərəcələrindən,

minimum və orta əmək haqından, güzəşt və yardımlardan, pensiya təminatından, hökumətin sosial siyasətindən asılıdır.

Şəxsi gəlirlərin həcmindən və formalaşdığı mənbələrdən asılı olmayaraq, bu anlayış müəyyən bir kəmiyyət kimi məhduddur. Bazarda bu gün alıcı, sonra isə satıcı kimi iştirak edən subyektlərin gəlirləri sonsuz bir kəmiyyət olmayıb, zaman-məkan daxilində konkret məbləğdir. Bu mənada şəxsi gəlir, onun həcminin az-çoxluğundan asılı olmayaraq, qapalı bir dairənin məhdud sahəsini xatırladır. Gəlirlərin artıb-azalması prosesi, müəyyən hüdudlar daxilində baş verdiyindən, şəxsi gəlirin konkret nisbi dairə yaxud çevrə məhdudluğu həmişə reallıqdır.

Şəxsi gəlir, hər bir istehlakçının konkret büdcəsi, onun imkanları, xərcləri, yığımı, nəhayət büdcəsinin məhdudluğu ilə səciyyələnir. İqtisadi anlayış olan ***büdcə məhdudluğu*** dedikdə, istehlakçının alıcılıq qabiliyyətinin, onun gəlir imkanları ilə bağlı müəyyən hədd və hüdud daxilində olduğu başa düşülür.

Fərz edək ki, tələbənin-şagirdin həftə ərzində büdcəsi 14 manat (dollar) həcmindədirsə, o bu məbləği öz seçimi əsasında ərzaq məhsulları ilə digər xidmət və əyləncələr (tamaşa, idman yarışları, internet) arasında aşağıdakı variantlarda xərcləyə bilər:

| Variantlar | Ərzaq məhsulları vahidinin qiyməti (1 manat) | Xidmət və əyləncələrin qiyməti (2 manat) | Cəmi xərclər (manatla) |
|---|---|---|---|
| I | 14 | 0 | 14 |
| II | 12 | 1 | 14 |
| III | 10 | 2 | 14 |
| IV | 8 | 3 | 14 |
| V | 6 | 4 | 14 |
| VI | 4 | 5 | 14 |
| VII | 2 | 6 | 14 |

Tələbənin-şagirdin bir istehlakçı kimi həftəlik xərclərinin göstərilən variantlar üzrə bölüşdürülməsi, ***büdcə məhdudluğu*** anlayışı ilə bağlıdır. Bu anlayış göstərir ki, istehlakçının gəlirlərindən formalaşan büdcəsi müxtəlif variantlarda sərf olunsa da, son nəticə etibarilə onun xərclərinə bərabərdir.

İstehlakçı davranışını daha yaxşı başa düşmək üçün iqtisadi nəzəriyyədə ***büdcə xətti*** və ***etinasızlıq*** (bitərəflilik, laqeydlik) ***əyrisi*** anlayışlarından istifadə olunur. ***Büdcə xətti*** – istehlakçının müəyyən məbləğ pula, müxtəlif əmtəə-xidmətləri seçib almaq imkanıdır. Sadəlik naminə fərz etsək ki, konkret istehlakçı 600 manat həcmində olan aylıq gəlirini ərzaq məhsulları və paltar kimi 2 qrup məhsullara xərcləyirsə (ərzaq məhsulları səbəti 10 manat, paltar-kostyum 60 manat olmaqla) büdcə xətti aşağıdakı sxemdə göstərilən kimi olacaqdır:




Sxemdə **AB** xətti, büdcə xətti kimi istehlakçı (alıcı) imkanlarının real hüdudlarını və büdcə məhdudluğunu göstərir. **CC** xətti istehlakçının öz büdcə imkanlarından az xərcləyərək qənaət etdiyini; $\mathbf{C_1C_1}$ xətti isə

istehlakçının büdcə xəttini ötərək, borc aldığını yaxud şəxsi yığımından istifadə etdiyini göstərir.

Bazarda əmtəə və xidmətlərin qiymətlərinin enib-qalxması yaxud istehlakçının gəlirinin artması təbiidir ki, büdcə xəttinin kəsdiyi sahənin həcminə, habelə istiqamətinə təsir edəcəkdir.

İstehlakçı büdcəsi və onun məhdudluğu çərçivəsində, alıcının hansı məhsullara, yaxud onların kombinasiyasına, məsələn ərzaq məhsullarına və paltara, dönərə və pepsiyə, çörəyə və əyləncəyə üstünlük verdiyini aydınlaşdırmaq mümkündür. Bu kombinasiyaların seçilib istifadə olunması gedişində, elə bir vəziyyət yaranır ki, istehlakçının seçiminin hər iki variantı onu tamamilə razı salır və qane edir. Bu prosesin qrafik təsviri öz əksini bitərəflilik (neytrallıq, laqeydlilik) əyrisində tapır.







***Bitərəflilik əyrisi*** – konkret istehlakçını eyni dərəcədə razı salan məhsul və xidmətlərin konbinasiyasını göstərir. Məsələn, bir halda ərzaq məhsulları və paltar kombinasiyası, digər şəraitdə isə dönər və pepsi variantı seçiminin nisbətləri istehlakçını eyni dərəcədə qane edir. Subyektiv xarakter daşıyan və konkret şəxsin, istehlakçının seçiminin nəticəsi olan bitərəflilik əyrisi, bu əyrinin xəritəsi qrafik şəkildə aşağıdakı kimi təsvir olunur.

Bu qrafik bitərəflilik əyrisi və onun xəritəsindən istehlakçının müxtəlif məhsulların kombinasiyasından razılığı, eyni zamanda qiymət və gəlirlərlə bağlı baş verən dəyişikliklərin, kəmiyyət etibarilə bütün kombinasiyaya aid olması meyli özünü göstərir.

**11.4.** İstehlakçının alıcılıq qabiliyyətinə və bazarın subyekti kimi davranış səviyyəsinə ən çox orada formalaşan ***qiymətlərlə, əmtəə-xidmətlərin satışa çıxarılmış həcmi*** təsir göstərir.

İlk növdə alıcıların bazarda qiymətlərin aşağı düşməsinə münasibəti özünü ikili istiqamətdə təzahür etdirir. **Əvvələn,** ucuzlaşmış konkret bir ərzaq məhsulunun (ətin, meyvənin) yaxud paltar, elektronika mebel malları qrupunun qiymətlərinin ucuzlaşması, ilk vaxtlar həmin şeylərə olan istehlakçı tələbini artırır. Deməli, alıcı qiymətlərin aşağı düşməsi nəticəsində öz büdcəsində yaranmış əlavə pulu, əvvəllər almağa imkanı olmadığı məhsullara, bəzən həmin məhsulların miqdarını artırmağa sərf edir. İstehlakçının özünün və ailəsinin əvvəllər, büdcə məhdudluğu və qiymətlərin səviyyəsi ilə əlaqədar əldə edə bilmədiyi əmtəə-xidmətləri indi ala bilməsi prosesi, ***«əvəzləmə»*** yaxud ***«yerini doldurma»*** effekti (substituton effect) adlanır. **Sonra,** məhsul-xidmətlərin ucuzlaşması, istehlakçının

real gəlirinin, onun konkret büdcəsinin alıcılıq qabiliyyətinin nisbətən artmasına səbəb olur. Bazarda qiymətlərin aşağı düşməsinin istehlakçının real gəlirinə müsbət təsiri və onun tələbinin artması, ***«gəlir effekti»*** (income effect) adlanır.

Real həyatda əvəzləmə və gəlir effektləri bir-birini tamamlayaraq, istehlakçıda daha artan miqdarda əmtəə xidmətlər almağa təkcə həvəs, stimul deyil, həm də şərait yaradır. Belə bir şərait isə alıcıya tədricən öz tələbatlarını aşağı növ, ucuz məhsul-xidmətlərdən daha yüksək keyfiyyətli, normal məhsul-xidmətlər hesabına ödəmək imkanı verir.

Bununla yanaşı, gəlir və əvəzləmə effektləri aşağı növ məhsullarla bağlı, heç də həmişə eyni istiqamətdə fəaliyyət göstərmirlər. Doğrudur, bu vəziyyət normal bir hal kimi iqtisadçıların əksəriyyəti tərəfindən qəbul edilməsə də, lakin həyatda belə hadisələr nə qədər qəribə görünsə də olur və istehlakçı davranışına öz təsirini göstərir.

Məsələn, aşağı növ məhsul sayılan kartofa qiymətin artmasına baxmayaraq, ona tələbin azalması əvəzinə, iqtisadi qanunlara zidd olaraq artması meyli, XIX əsrdə ingilis alimi ***Robert Qiffen*** tərəfindən hərtərəfli öyrənilmişdir. O dövrdə, quraqlıq nəticəsində İrlandiyada əsas qida məhsullarından sayılan kartofun qıtlığı, bu məhsulun qiymətini xeyli bahalaşdırmışdı. Lakin buna baxmayaraq, kartofa olan istehlakçı tələbi nəinki azalmış, əksinə xeyli artmışdı.

İqtisadi nəzəriyyədə ***«Qiffen paradoksu»*** adlandırılan və ilk baxışda qəribə görünən bu hadisəyə səbəb, əhalinin əksəriyyətini təşkil edən yoxsul təbəqənin, digər istehlak şeylərindən qənaət, bəzən hətta imtina edərək, yaşayış üçün zəruri olan kartof kimi aşağı növ qida məhsullarına üstünlük verməsi olmuşdu.

Keçid mərhələsinin ilk dövrlərində postsovet və postsosialist ölkələrində, habelə başqa dövlətlərdə də yüksək inflyasiya ilə bağlı buna bənzər proseslərin təkrarı, yeni formalaşmaqda olan milli iqtisadiyyatın nöqsanları ilə yanaşı, eyni zamanda əhalinin həyat səviyyəsinin, sosial müdafiəsinin aşağı olmasının nəticəsi idi.

İstehlakçının gəliri ilə onun əldə etdiyi əmtəə-xidmətlərin kəmiyyəti arasındakı asılılıq əlaqəsi öz ifadəsini ***Engel əyrisində*** tapır. Alman statistiki və iqtisadçısı **Erist Engelin** (1821-1896) adı ilə bağlı olan bu anlayış, istehlakçının gəliri ilə onun aldığı məhsulların və istifadə etdiyi xidmətlərin miqdarı arasında uyğunluq olduğunu göstərir. Aşağıda verilən qrafik rəsmdə, qiymətlərin sabitliyi şəraitində istehlakçının gəlir səviyyəsinin artmasının, onun aldığı məhsulların həcminə təsiri göstərilmişdir.




Bu halda müxtəlif variantlar ola bilər:

a) istehlakçının gəlirlərinin artması, ilk növbədə onun ərzaq məhsullarına sərf olunan xərclərinin xüsusi çəkisini aşağı salır.

b) istehlakçının başqa əmtəə-xidmətlərə, xüsusilə də qeyri-ərzaq məhsullarına, xidmətlərə, zinyət əşyalarına, turizm və səyahətlərə sərf olunan xərclərini xeyli artırır.

E.Engelin müəyyənləşdirdiyi istehlakçının gəliri ilə onun əldə etdiyi əmtəə-xidmətlərin həcmi arasındakı qanunauyğunluq, bazar dəyişkənliyi və rəqabəti şəraitində tələblə-təklifin hərtərəfli öyrənilməsi əsasında,

hansı sahələrə (xidmət-turizm, zinyət əşyaları istehsalına) daha artıq diqqət yetirilməsi zəruriliyini irəli sürməyə imkan vermişdir.

**11.5.** Ümumiyyətlə istehlakçıların ödəniş qabiliyyətli alıcılıq səviyyəsinə, onların davranışına ən çox təsir göstərən gəlirləri və bazarda müxtəlif təyinatlı məhsulların-xidmətlərin qiymətləridir. Lakin, bu iki mühüm əhəmiyyət kəsb edib, istehlakçının davranış və rəftarına güclü təsir göstərən amillərlə yanaşı, ilk baxışda o qədər də nəzərə çarpmayan bir sıra elə cəhətlər də vardır ki, onları kənara atmaq mümkün deyildir.

İstehlakçıların yaşadıqları coğrafi mühit, ölkənin təbii iqlim şəraiti, milli adət-ənənə xüsusiyyətləri, ailə tərbiyyəsi, təhsili, yaşı, cinsi, hansı sosial təbəqəyə mənsub olması, şübhəsiz onların bazar subyekti və alqı-satqı münasibətlərinin iştirakçısı kimi davranış mədəniyyətlərinə, rəftarlarına , zövqlərinə təsir göstərir.

Mütəxəssislərin və iqtisadçıların fikrincə, müasir dövrdə istehlakçı zövqünün formalaşmasına bilavasitə, yaxud dolayı yollarla təsir göstərən amillər qrupu sırasında aşağıdakıları qeyd etmək zəruridir:

- əmtəə və xidmətlərin keyfiyyəti, ekoloji təmizliyi, insan orqanizmi üçün təhlükəsizliyi;
- dəb və yeni moda dəyişikliklərinə uyğunlaşmaq psixologiyasının təsiri;
- müxtəlif reklam vasitələrinin məqsədyönlü və fasiləsiz təbliğatı;
- istehlakçıların peşə-sənət və təhsil səviyyəsində baş verən dəyişikliklər;
- istehlakçıların dəyişən yaş və cins xüsusiyyətləri ilə bağlı problemlər;
- istehlakçıların ailə tərbiyyəsi, mədəni səviyyəsi və zövqlərinin formalaşması;
- yaşadığı ölkənin milli adət-ənənələri və mentaliteti;
- işləyib fəaliyyət göstərdiyi şirkət və təşkilatın psixoloji mühit xüsusiyyətləri;
- istehlakçının mənsub olduğu ictimai təbəqənin qayda və davranış qaydaları;
- ailə üzvlərinin, dost-tanışların, yaxın adamların rəy və məsləhətləri;
- kreditə mal satışının təşkili və onun istehlakçı üçün əlverişli şərtləri;
- istehlakçını həvəsləndirən rəğbətləndirici tədbirlər sistemindən geniş faydalanması.

Yuxarıda göstərilən amillərin kompleks şəkildə, yaxud qismən istehlakçının gəliri və bazardakı qiymətlərlə qarşılıqlı əlaqədə təsiri, alıcıların davranışı, habelə rəftarının formalaşmasının əsasında durur. Zaman, yaş, yeni dəb və modalar bu prosesdə müəyyən təbii, qanunauyğun dəyişikliklər yaratsa da, istehlakçı gəliri və qiymətlərin səviyyəsi, habelə insanların zövqü, mədəni yüksəlişi mühüm amillər kimi öz təsirini həmişə göstərir.

**11.6.** İnsanların tələbatları nə qədər müxtəlif və sonsuz sayılsa da, lakin hər halda normal insanların tələbatlarının müəyyən nisbi həddi vardır. Hər bir istehlakçı öz gəlir və imkanından asılı olmayaraq, istər gündəlik tələbat mallarının (çörək, yağ, meyvə, sabun), istərsə də uzunmüddətli istehlak mallarının (televizor, soyuducu, mebel, avtomobil) əldə edilməsində müəyyən bir hədd-hüdud gözləməlidir.

İstehlakçı rəftarının təhlili göstərir ki, onun yediyi qidanın, içdiyi suyun, baxdığı tamaşanın, dinlədiyi musiqinin təkrar mənasında kəmiyyətinin (miqdarının) artması, şübhəsiz ümumi fayda, rahatlıq, razılıq, məmunluq, hətta müəyyən ləzzət gətirsə də, lakin bu ***əmtəə-xidmətlərin hər sonrakı vahidinin istifadəsinin faydalılıq həddi (əmsalı, utili)*** aşağı düşməyə doğru meyl edir.

İqtisadi nəzəriyyədə bu hadisəyə əmtəələrin və xidmətlərin ***faydalılıq həddinin azalması, aşağı düşməsi prinsipi, yaxud qanunu*** deyilir. Deməli, istehlak olunan əmtəə-xidmətlərin qiyməti (dəyəri) ilə onların faydalılıq həddi, yəni hər sonrakı şərti miqdar vahidinin faydalılığı arasında ***tərs mütənasiblik*** əlaqəsi vardır. Bu mənada, əmtəə-xidmətlərdən istifadə prosesində hər sonrakı, təkrar və əlavə istehlak payı (vahidi), onların faydalılıq həddini, yaxud dərəcəsini, səviyyəsini aşağıya endirir.

Əmtəə-məhsulların faydalılıq həddinin tədricən azalması və aşağı düşməsi qanunu ilk dəfə alman iqtisadçısı **German Qossen** (1810-1858) tərəfindən müəyyənləşdirilmişdir.

Qossenin ***birinci qanununa*** görə nemətin hər sonrakı, əlavə payı (miqdarı, vahidi, şərti kəmiyyəti) onu istehlak edən fərd üçün daha az faydalıdır.

Qossenin ***ikinci qanununa*** görə hər fərdin (şəxsin, ailənin) istehlak etdiyi nemətlərin tərkibi elə qurulur ki, onların faydalılıq həddi son nəticə etibarilə eyni olur. Bu bərabərliyə, ***istehlakçının tarazlıq nöqtəsi*** deyilir və riyazi nisbət şəklində belə ifadə olunur:

$$\text{İstehlakçının tarazlıq nöqtəsi} = \frac{\text{«A»qrup məhsulunun faydalılıq həddi}}{\text{«A»qrup məhsulunun qiyməti}} =$$

$$= \frac{\text{«B»qrup məhsulunun faydalılıq həddi}}{\text{«B»qrup məhsulunun qiyməti}}$$

Əgər «A» qrup məhsulunun qiymətini 1 manat, dollar, avro və faydalılıq həddini 8 util; «B» qrup məhsulunun isə qiymətini 2 manat, dollar, avro və faydalılıq həddinin 16 util olduğunu nəzərə alsaq, o zaman bu nisbət belə alınacaqdır:

$$\frac{\text{8 util (əmsal)}}{\text{1 manat (dollar, avro)}} \times \frac{\text{16 util (əmsal)}}{\text{2 manat (dollar, avro)}} = \frac{16}{16} = 1$$

Deməli, istehlakçının müxtəlif kombinasiyalarda istifadə etdiyi məhsulların faydalılıq həddi vahidə bərabər olub eynidir yaxud dəyişməz qalır.

İqtisadi nəzəriyyədə əmtəə-xidmətlərin ümumi faydalılığı ilə bağlı, onların ***«həyat dövrü»*** yaxud ***«həyat tsikli»*** anlayışı vardır. İstehlakçıların müxtəlif tələbatlarını ödəyərək, onların faydalandıqları şeylərin hər birinin normal fəaliyyət dövrü və «öz ömrü» vardır. Gündəlik tələbat və uzunmüddətli istifadə üçün nəzərdə tutulan malların «həyat dövrü» anlayışı, onlardan istifadənin ilk anlarından başlayaraq, həmin məhsulların öz fiziki imkanlarını tam şəkildə başa vurana qədər davam edir. Bu ümumi proses, hər hansı bir məhsulun istehlakçıya ***normal istehlak dövrü*** ilə bağlıdır. Məsələn, orta hesabla minik avtomobili, televizor, soyuducu, mebel istehlakçıya illərlə xidmət göstərir. Lakin elə ərzaq-qida və xidmət məhsulları vardır ki, onların «həyat tsikli» bir neçə gün, hətta saatlarla ölçülür.

Əmtəə-xidmətlərin «həyat dövrü» anlayışı – onların layihələşdirilməsi və hazırlanması; istehsal və buraxılışına başlanması; bazara çıxarılması və satışının maksimum həddə çatması; bazarın həmin məhsula olan tələbinin tam ödənilməsi; həmin əmtəə-xidmətlərə olan tələbin azalması kimi pillələri əhatə edir.

Bu pillələrin hər birində, istehsal olunub satışa çıxarılan müxtəlif təyinatlı ərzaq və qeyri-ərzaq, qısa müddətli və uzunmüddətli əmtəələrin-xidmətlərin ***qiyməti, reklam təbliğatı, satış səviyyəsi*** fərqli olur. Eyni zamanda məhsulların ***faydalılığı*** və ***«həyat dövrü»*** anlayışları, onların ***fiziki,*** habelə ***mənəvi*** aşınması problemləri ilə də bağlıdır.

# Mövzu 12. İstehsal xərcləri və mənfəət

**12.1** İstehsal xərclərinin mahiyyəti
**12.2** İstehsal xərclərinin quruluşu, daxili və xarici xərclər
**12.3** İstehsal xərclərinin müxtəlif formaları
**12.4** Mənfəətin mahiyyəti, vəzifələri və formaları
**12.5** Kapitalın hərəkəti, əsas və dövriyyə kapitalı
**12.6** İstehsal xərcləri ilə mənfəətin qarşılıqlı əlaqəsi və onlara təsir göstərən amillər

**12.1.** İstehsalın harada, kimlər tərəfindən və hansı həcmdə təşkil edilib qurulmasından, fəaliyyət növündən asılı olmayaraq, bu mürəkkəb, həm də çətin proses hökmən müəyyən ***xərclərlə, əməklə, kapitalla, sahibkarlıq qabiliyyəti*** ilə bağlıdır. Müəyyən həcm daxilində istehsal xərcləri (C), əmək haqqı və ödənişləri (L), kapital sərfi və qoyuluşlarından (K) ibarət olub, belə işarə olunur:

$$C = L_x + K_y$$

Dünyanın «General Motors», «BP Amoco», «Microsoft», «Tayota», «Nestle», «Bayer» kimi iri avtomobil, neft, kimya, elektron, ərzaq məhsulları korporasiyalarından başlamış, müxtəlif istehsal-xidmət təyinatlı orta və xırda şirkətlərinə, müəssisələrinə, ev təsərrüfatlarına qədər hamısı istehsal xərclərinə, onun minimum həddə saxlanmasına ciddi diqqət yetirirlər. Çünki müasir bazar münasibətləri iqtisadi sistemi və kəsgin rəqabət mübarizəsi şəraitində, işgüzar biznes fəaliyyətinin son məqsədi sayılan mənfəətin formalaşmasında, əmtəə-xidmətlərin keyfiyyətinə xələl gətirmədən, istehsal xərclərinin aşağı salınması problemi, həlledici əhəmiyyətə malikdir.

İstehsal xərclərini artırmadan, istehsalı genişləndirib onun dinamik yüksəlişini təmin etmək çətindir. Cəmiyyətin və insanların tələblərinin artması təbii bir proses olduğundan, həmin ehtiyacların ödənilməsi xərclərin də artırılması irəli sürülür. Bu mənada istehsalın inkişafı ilə onun xərcləri arasında ziddiyyətli bir vəziyyət yaranır.

Təsadüfi deyildir ki, iqtisadçılar və mütəxəssislər haqlı olaraq qeyd edirlər ki, xərclər ***«istehsalın kölgəsi»*** kimi onu həmişə təqib edirlər. Məhz bu səbəbdən, hər bir konkret istehsalçı öz fəaliyyətini səmərəli aparmaq üçün istehsal xərclərinin ən optimal variantını seçmək zərurəti ilə üzləşir.

Bəs istehsal xərcləri nədir? Bu anlayış, əmtəə-xidmətlərin istehsalına sərf olunmuş iqtisadi resursların alınmasına yönəldilmiş xərclərin pulla ifadəsidir. Başqa sözlə, istehsal xərcləri istehsalçı şirkətin istifadə etdiyi istehsal amillərinin bazar qiymətləri ilə dəyəridir.

İqtisadi nəzəriyyədə böyük elmi və əməli əhəmiyyəti olan istehsal xərcləri məsələsinə həmişə diqqət yetirilmişdir. Klassik iqtisadi nəzəriyyə məktəbinin yaradıcıları A.Smit və D.Rikardo, ***istehsal xərclərinə istehsal qiyməti*** kimi baxmışlar. R.Torrens, C.Mill, C.Mak-Kullox kimi ingilis iqtisadçıları, ***əmtəənin dəyərinin*** gəlirlərin (əmək haqqı, mənfəət, renta) cəmindən ibarət olması haqqında A.Smitin mövqeyinə əsaslanaraq, istehsal xərclərini ***«toplanmış əmək məsrəfləri»*** adlandırmışlar. Avstriya iqtisadi məktəbinin nümayəndəsi F.Vizer istehsal xərclərini ***əmtəənin faydalılığı*** səviyyəsi ilə əlaqələndirmişdir. Marksist məktəbin iqtisadçıları istehsal xərclərini ***əmək-dəyər***

***nəzəriyyəsi*** baxımından izah edərək, bu anlayışı məhsul istehsalına sərf olunmuş canlı və maddiləşmiş (keçmiş) əməyin cəmi kimi səciyyələndirmişlər A.Marşall istehsal xərcləri nəzəriyyəsinin obyektiv və subyektiv variantlarını eyni bir «kəsən qayçının iki tərəfi» adlandıraraq, bunun ***fəhlələrin əməyinə, zəhmətinə, əziyyətinə; kapital sahiblərinin isə imtinasına, risqinə əsaslanan bir iqtisadi anlayış olduğunu göstərmişdir.***

Bu müxtəlif, mövqelər və elmi-nəzəri izahlar sübut edir ki, istehsal xərcləri hər bir təsərrüfat fəaliyyəti üçün aydın, sadə zərurət sayılmaqla yanaşı, eyni zamanda mürəkkəb, hətta ziddiyyətli iqtisadi anlayışdır. Məsələnin mürəkkəbliyi və ziddiyyətliliyi isə istehsal xərclərinin mahiyyətinə, kəmiyyət göstəricilərinə, təsnifatına, quruluşuna, formalarına yanaşmalarda fərqli mövqelərin olması, habelə indi də qalması ilə əlaqədardır.

Müasir iqtisadi nəzəriyyə istehsal xərclərinin şərhinə belə bir nöqteyi-nəzərdən yanaşır ki, əgər əvvəllər bu xərclərin əsas hissəsini bilavasitə istehsal proseslərində çalışanların əməyi təşkil edirdisə, indi bu xərclərin əksəriyyəti qeyri-istehsal dairəsi işçilərinin əməyinə-alimlərə, mütəxəssislərə, menecerlərə, marketinq fəaliyyəti, idarəetmə, reklam işilə məşğul olanlara sərf olunur. Deməli, istehsalın şəxsi amili sayılan insan əməyinin bilavasitə istehsal prosesindəki rolunun dəyişməsi, istehsal xərcləri anlayışının formalaşması və hesablanması mexanizminin üsullarına öz təsirini göstərmişdir.

Digər tərəfdən isə sahibkara və kapital sahibinə olan münasibətdə ciddi dəyişikliklər baş vermişdir. Prinsip etibarilə sosial ədalət çağırışları deyil, səmərəlilik və mənfəət üzərində qurulan bazar münasibətləri iqtisadi sistemində istehsalın təşkilatçısı, «orkestirin dirijoru» sayılan hər bir sahibkar, öz kapitalı, qabiliyyəti, bacarığı ilə istehsal xərclərinin fəal iştirakçısı kimi, təbiidir ki, istehsalın nəticələrindən də faydalanmalı və normal mənfəət götürməlidir.

**12.2.** İstehsal xərcləri öz quruluşuna görə 2 yerə – daxili (gizli, örtülü) və xarici (aşkar, görünən) xərclərə ayrılır.

İstehsalın daxili xərcləri dedikdə sahibkarın, fermerin, şirkətin, korporasiyanın mülkiyyətində olan iqtisadi resursların müəyyən pul ifadəsində dəyəri nəzərdə tutulur. Buraya sahibkarın, şirkətin, fermerin torpaq sahəsi, tikinti və istehsal binaları, avadanlıq və dəzgahlar, müxtəlif qurğular, texnika və mexanizmlər daxildir.

Eyni zamanda sahibkarın öz əmək və bacarığının yaxud konkret iş qüvvəsinin şirkət daxilindəki tətbiqi də daxili xərclərə aid edilir. Çünki hər bir sahibkar öz mülkiyyətində olan torpaq sahəsini, bina və tikintini, avadanlıq və dəzgahları başqasına icarəyə verərək, müəyyən məbləğdə gəlir əldə edə bilərdi. Bu mənada daxili xərclər, konkret istehsal prosesi gedişində, sahibkar yaxud şirkət tərəfindən pul sərf edilməsini tələb etməyən xərclər hesab olunur.

İstehsalın xarici xərcləri sahibkarın və şirkətin öz normal fəaliyyətini təmin etmək üçün əldə etdiyi iqtisadi resursların dəyərini pulla ödəməsidir. Bu xərclərə sahibkarın və şirkətin kənardan cəlb etdiyi iş qüvvəsinə, aldığı xammal, material və ehtiyat hissələrə, enerjiyə, nəqliyyata, təchizata, reklama, xeyriyyə tədbirlərinə, digər məqsədlərə sərf olunmuş pul məbləği daxildir.

**12.3.** İstehsal xərcləri: ümumi, orta, sabit və dəyişən xərclərə ayrılır. Buna bəzən istehsal xərclərinin təsnifatı deyilir və istehsal xərclərinin müxtəlif formaları kimi səciyyələndirilir.

Ümumi xərclər (Total costs – TC) – sahibkarın, şirkətin, müəssisənin, korporasiyanın məhsul istehsalı üçün zəruri olan bütün xərclərinin cəmidir.

Orta xərclər (Averaqe costs – AC) – istehsal olunmuş hər məhsul vahidinə sərf edilmiş xərclərdir.

Sabit xərclər (Fixed costs – FC) – istehsal olunmuş məhsulun həcmindən, kəmiyyətindən asılı olmayaraq, dəyişməz qalan xərclərdir. Buraya istehsal binalarına, avadanlıqlara, dəzgahlara, icarə haqqına, inzibati işçi heyətinə və sairəyə çəkilən xərclər daxildir.

Dəyişən xərclər (Varialle costs – VC) – istehsal olunmuş hazır məhsulun həcmindən asılı olaraq dəyişən kəmiyyətdir. Buraya xammal və yarımfabrikatlar, enerji daşıyıcıları, işçilərə verilən əmək haqqı və digər xərclər daxil edilir.

Ümumi və orta xərclərin necə formalaşdığını, bu prosesdə sabit və dəyişən xərclərin rolunu aşağıdakı cədvəldən görmək olar:

**Sabit, dəyişən, ümumi və orta xərclərin şirkətdə formalaşması**

| Məhsul buraxılışı (ədədlə) | Ümumi xərclər (min. manatla) | | | Orta xərclər (manatla) | | |
|---|---|---|---|---|---|---|
| | ***Sabit*** | ***Dəyişən*** | ***Ümumi*** | ***Sabit*** | ***Dəyişən*** | ***Ümumi*** |
| 0 | 100 | 0 | 100 | 100.000 | 0 | 100.000 |
| 100 | 100 | 120 | 220 | 1.000 | 1.200 | 2.200 |
| 200 | 100 | 240 | 340 | 500 | 1.200 | 1.700 |
| 300 | 100 | 360 | 460 | 333 | 1.200 | 1.533 |
| 400 | 100 | 490 | 590 | 250 | 1.225 | 1.475 |
| 500 | 100 | 640 | 740 | 200 | 1.280 | 1.480 |
| 600 | 100 | 810 | 910 | 167 | 1.350 | 1.517 |

Cədvəldən aydın olur ki, müəyyən bir məhsul (çörək, paltar, ayaqqabı, saat, parça, sement) istehsalı artdıqca, orta istehsal xərcləri, yəni hər məhsul vahidinə sərf olunmuş xərclər azalmağa doğru meyl edir. Rəqəmlərin təhlilindən görünür ki, orta istehsal xərcləri 200-300 ədəd mıhsul buraxılışı həcmində təxminən bir-birinə yaxındır. Lakin sonra məhsul istehsalı 400 ədədə çatdırıldıqda, orta xərclər ən optimal variantda olur. Daha sonrakı mərhələdə orta xərclər tədricən artmağa doğru gedir. Deməli, bu konkret misalda orta istehsal xərcləri baxımından ən əlverişli, səmərəli variant istehsal həcminin 400 ədəd hüdudunda olmasıdır.

İqtisadi nəzəriyyədə son hədd xərcləri, alternativ xərclər və transaksion xərclər anlayışlarına rast gəlirik.

Son hədd xərcləri – növbəti, əlavə məhsul istehsalı (məsələn 1.000 ədəddən çox paltar, 10 tondan artıq çörək, 50.000 metrdən əlavə parça) ilə bağlı şirkətin ümumi xərclərinin artan kəmiyyətini göstərir. Bu xərclərin öyrənilməsi, şirkətin və korporasiyanın təsərrüfat fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edərək, hər hansı bir istehsalın optimal variantını müəyyən edir.

Şirkətin konkret məhsul (şəkər, televizor, mobil telefon, mebel) buraxılışı və satışı ilə onun müxtəlif xərcləri arasındakı asılılığı, eyni zamanda şirkətin son hədd xərclərilə bazarda formalaşan qiymətlərin səviyyəsi elə olmalıdır ki, istehsalı həmin artan həcmdə davam etdirmək səmərəli olsun.

Deməli, son hədd xərcləri (SHX), ümumi xərclərin artımının məhsul buraxılışının kəmiyyətinə (həcminə) təsirini göstərir və belə ifadə olunur:

$$\text{SHX} = \frac{X_s - X_ə}{M_s - M_ə}$$

Burada: SHX – son hədd xərcləri; $X_s$ – son miqdarda məhsul ilə bağlı ümumi istehsal xərcləri; $X_ə$ – əvvəlki miqdarda məhsul istehsalı ilə əlaqədar ümumi istehsal xərcləri; $M_s$ – məhsul buraxılışının sonuncu həcmi; $M_ə$ – məhsul buraxılışının əvvəlki həcmidir. Bu asılılıq, başqa formada da ifadə oluna bilər:

$$\text{SHX (Marqinal costs)MC} == \frac{\text{Dəyişən xərclərin artımı } (\Delta VC)}{\text{Ümumi məhsulun (istehsalın) artımı } (\Delta Q)}$$

Şirkətin və koporasiyanın konkret məhsul buraxılışı ilə bağlı çəkdikləri müxtəlif xərclər arasındakı nisbətin (asılılığın) necə dəyişdiyini aşağıdakı cədvəldən görmək olar:

**Məhsul buraxılışı ilə müxtəlif xərclər arasındakı asılılıq**

| Məhsul buraxılışı (ədədlə) | Sabit xərclər | Dəyişən xərclər | Ümumi xərclər | Orta xərclər | Sabit orta xərclər | Dəyişən orta xərclər | Son hədd xərcləri | Qiymət |
|---|---|---|---|---|---|---|---|---|
| 0 | 6.000 | 0 | 6.000 | - | - | - | - | - |
| 100 | 6.000 | 4.000 | 10.000 | 100 | 60 | 40 | 40 | 40 |
| 200 | 6.000 | 7.000 | 13.000 | 65 | 30 | 35 | 30 | 40 |
| 300 | 6.000 | 9.000 | 15.000 | 50 | 20 | 30 | 20 | 40 |
| 400 | 6.000 | 10.000 | 16.000 | 40 | 15 | 25 | 10 | 40 |
| 500 | 6.000 | 14.000 | 20.000 | 40 | 12 | 28 | 40 | 40 |
| 600 | 6.000 | 18.000 | 24.000 | 40 | 10 | 30 | 40 | 40 |
| 700 | 6.000 | 23.400 | 29.400 | 42 | 8,6 | 33,4 | 54 | 40 |

Cədvəldəki rəqəmlərdən aydın olur ki, son hədd xərcləri, rəqabət şəraitində bazarda formalaşmış qiymətlərdən aşağı olduqda, şübhəsiz istehsalın həcmini artırmaq mümkündür, həm də səmərəlidir. Cədvəldə verilmiş misal nümunəsində bu hədd 400 ədəd (vahid) həcmindədir.

Əgər şirkətin son hədd xərcləri bazar qiymətindən yüksək olarsa, aydındır ki, mənfəət olmayacaq, deməli istehsal səmərəsiz işləyəcəkdir. Belə halda istehsalı davam etdirməyin iqtisadi baxımdan faydası olmayacaq və sahibkara, şirkətin təsisçilərinə zərər gətirəcəkdir.

İstehsal prosesinin davam etdirilməsi üçün zəruri olan amillərin - dəyişən xərclərin, hazır məhsulun həcminə nisbətən daha sürətlə artması, təbiidir ki, bir sıra problemlər yaradır. Bazar rəqabəti mühiti və istehsal amillərinin qiymətlərindəki dəyişikliklər, istehsal proseslərində yeni texnika-texnologiyalardan istifadə olunmasını, əmək məhsuldarılğının yüksəldilməsini, sahibkarlıq bacarığının təkmilləşdirilməsini, habelə daha bir sıra konkret şəraitlə bağlı tədbirlərin həyata keçirilməsini irəli sürür.

Bütün bu obyektiv-subyektiv amillər kompleksi hərtərəfli öyrənilib təhlil edilməli, şirkətə və koporasiyaya elə əməli məsləhətlər, işgüzar tövsiyyələr verilməlidir ki, ayrı-ayrı istehsal və xidmət dairəsi sahələrinin fəaliyyətinin səmərəliliyi təmin olunsun.

**İstehsalın alternativ xərcləri** – təsərrüfat həyatının hansı sahələrindən eyni xərclərlə daha çox iqtisadi səmərə götürülməsinin əlverişli seçimini, yaxud variantını müəyyənləşdirməyə imkan verir. Əgər 1 milyon manat (dollar, avro) gəliri 500 min manat xərc sərf etməklə maşınqayırma, yaxud daş kömür hasilatından və 300 min manat xərc sərf etməklə yüngül, yaxud kimya sənayesindən əldə etmək mümkündürsə, şübhəsiz kapitalın bir sahədən digərinə təbii axını baş verəcəkdir.

İstehsal fəaliyyəti təkcə iş prosesinin təkmilləşdirilməsi və məhsul buraxılışının artırılması ilə məhdudlaşmayıb, eyni zamanda bu xərclərin başqa sahələrlə müqayisəsini tələb edir. Bu müqayisə nəticəsində, alternativ (əks) istehsal xərcləri variantı meydana çıxır ki, hər bir sahibkar yaxud şirkət daha səmərəli seçim etməkdə sərbəstdir. İstehsalın strategiyasını dəyişən sahibkar və şirkət, bu mühüm addımı atmamış, vəziyyəti dəqiq faktlar, materiallar əsasında hərtərəfli təhlil edib müəyyən qərara gəlməlidir. İstehsal xərclərinin müqayisəli alternativ variantı seçilərkən, təkcə sırf iqtisadi gəlir məsələsi deyil, işin perspektivləri, sosial nəticələri, ekoloji problemləri də nəzərə alınmalıdır.

Alternativ xərclər yalnız istehsal-xidmət sahələrində deyil, insanların ailə-məişət, təhsil dairəsi və iş, gəlir və istirahət, vaxt və əyləncə seçimlərində də, mənəvi-psixoloji dəyərlərlə yanaşı, iqtisadi amil kimi mühüm əhəmiyyətə malikdir. Çünki, nəyi isə əldə etmək üçün, nədənsə imtina etmək lazım gəlir.

***Transaksion xərclər*** – bazar subyektləri (agentləri) arasındakı alqı-satqı sövdələşmələrinə sərf olunan xərclərin məbləğidir. Geniş mənada bu xərclər hər bir ***iqtisadi sistemin əlavə xərcləri,*** dar mənada isə ***iştirakçılarının öz aralarındakı münasibətləri tənzimləmək üçün çəkdikləri xərclərdir.***

Bu anlayış ilk dəfə 1937-ci ildə, sonralar Nobel mükafatı almış tanınmış iqtisadçı **Ronold Koyz** (İngiltərə – ABŞ) tərəfindən işlədilərək, elmi dövriyyəyə daxil edilmişdir. Şirkət və korporasiyaların transaksion xərcləri 3 mənbə hesabına formalaşır: a) onların xidmət bölməsinin xərcləri; b) daxili transaksion xərclər; c) bazar münasibətləri sisteminin qeyri-kamilliyi çətinlikləri və nöqsanları ilə bağlı xərclər.

Transaksion xərclərin aşağıdakı xarakterik cəhətlərini qeyd etmək zəruridir: ***əvvələn,*** şirkətin normal fəaliyyəti üçün lazım olan məlumatların və materialların toplanmasına çəkilən xərclər; ***sonra,*** əldə edilmiş məlumatların tam olmaması və şübhə doğurması ilə bağlı itgilər; ***sonra,*** razılaşma, saziş və müqavilələrin bağlanması ilə əlaqədar danışıqlara sərf olunan xərclər; ***daha sonra***, bağlanmış saziş və müqavilələrin yerinə yetirilməsi üzərində nəzarət işlərinə yönəldilən xərclər; ***nəhatət,*** mülkiyyətçinin, sahibkarın və şirkətin hüquqlarının qorunub müdafiə olunması proseslərinə sərf olunan xərclər. Bu xərclər, şirkətin son hədd xərclərinə aid edilir.

Müxtəlif şirkətlərin istehsal xərclərinin formalaşmasında, ***qısamüddətli*** və ***uzunmüddətli*** dövr anlayışları mühüm rol oynayır.

***Qısamüddətli dövr,*** istehsal prosesi amillərinin bir hissəsinin (əsasən dəyişən xərclərin), uzunmüddətli dövr isə həmin amillərin hamısının, yəni həm dəyişən, həm də sabit xərclərin kəmiyyət və keyfiyyətcə dəyişdirilməsini, təkmilləşdirilməsini, yenidən qurulmasını nəzərdə tutur.

Bu dövr ərzində baş verən dəyişikliklər isə ilk növbədə konkret şirkətin istehsal təyinatından, onun gücündən, məhsul buraxılışı həcmindən, texniki-texnoloji silahlanma səviyyəsindən asılıdır.

Məsələn, kiçik şirkət və məhdud torpaq sahəsində fəaliyyət göstərən fermerlə, iri maşınqayırma müəssisəsinin imkanları eyni deyildir. Lakin buna baxmayaraq, istər fermer, istərsə də iri şirkətlər, qısamüddətli dövr ərzində yalnız ***əmək (iş qüvvəsi), xammal-material, yanacaq*** kimi dəyişən xərclərin hesabına, habelə işin daha bacarıqla idarə olunması nəticəsində məhsul istehsalını artıra bilər.

Şübhəsiz, qısamüddətli dövr ərzində, istehsal prosesinin xüsusiyyətlərindən asılı olaraq, xərclərin quruluşunda (ümumi, orta, son hədd xərcləri) fərqli dəyişikliklər baş vermiş olsa da, lakin ümumi bir meyl kimi istehsalın həcminin artdığı şəraitində, ilk mərhələdə orta xərclər azalsa da, müəyyən mərhələdən sonra həm orta, həm də ümumi xərclər artacaqdır.

***Uzunmüddətli dövr*** ərzində bütün istehsal xərcləri, o cümlədən əmək, xammal və materiallar, habelə kapitalla (əsas fondlarla) bağlı məsrəflər artır. Bu dövrdə istehsal xərclərinin artım dinamikası, ilk növbədə konkret istehsal sahəsinin və müəyyən bir şirkətin məhsul buraxılışı həcmindən asılıdır.

Uzunmüddətli dövr xırda, orta və iri tipli şirkətlərə öz istehsallarını genişləndirməyə, yeni binalar tikməyə, istehsal güclərini artırmağa, mükəmməl texnika-texnologiyadan istifadə etməyə imkan yaradır. Bu prosesdə şirkət və müəssisənin təyinatı, məhsul həcmi, bazar konyukturası, qiymətlərin səviyyəsi, onun dəyişkənlik miqyasları mühüm rol oynayır.

Məsələn, gəmiqayırma və kimya sənayesi obyektlərinin tikintisi, yaxud yenidən qurulması işi xeyli vaxt, habelə vəsait tələb edirsə, kiçik bir kafenin, yaxud gözəllik salonunun genişləndirilib yenidən quruması, təbiidir ki, həmin obyektlərlə müqayisədə xeyli az vaxt aparacaqdır. Eyni zamanda şirkətin və müəssisənin miqyasları, hələ onun səmərəli fəaliyyəti üçün meyar sayıla bilməz. Həm də qısamüddət və uzun-müddət anlayışları, konkret sahələrin müqayisəli təhlili baxımından şərti xarakter daşıyır.

Uzunmüddətli dövrün belə bir xarakterik cəhətini qeyd etmək lazımdır ki, qısamüddətli dövrdə istehsalın – torpaq, şirkətin miqyası, onun avadanlıq – dəzgahları kimi müəyyən şərtləri sabit və dəyişməz kəmiyyət olduğu halda, uzunmüddətli dövrdə istehsal amillərinin hamısı, yaxud əksəriyyəti dəyişir.

**12.4.** ***Mənfəət*** – hər hansı bir sahibkarlıq və işgüzar biznes fəaliyyətinin son məqsədi, səmərəli nəticəsi, ümumiləşdirici yekunudur. Müxtəlif iqtisadi sistem və təsərrüfat sahələrində mənfəətin kəmiyyəti, məhsul-xidmətlərin reallaşdırılmasından əldə edilmiş müəyyən məbləğdə pul ilə, həmin məhsulların ümumi istehsal xərcləri arasındakı fərqə bərabərdir. Bu asılılığı belə ifadə etmək olar:

Mənfəət=Satış məbləği – Ümumi istehsal xərcləri

Mənfəət anlayışını xüsusi mülkiyyət və onun işçinin əməyinin istismarı nəticəsində yarandığını irəli sürmüş marksist iqtisadi mövqedən fərqli olaraq, müasir iqtisadi ədəbiyyatda bu anlayışın xüsusi mülkiyyətlə bilavasitə əlaqəsi tezisi düzgün sayılmır.

Bəs mənfəət nədir? Mənfəət, ilk növbədə sahibkarlıq, işgüzar-biznes fəaliyyəti ilə bağlı olub, istehsal amillərdən, yəni ***torpaq, əmək və kapitaldan*** səmərəli istifadə edilməsi şərtlərilə bağlıdır. Eyni zamanda mənfəət, sahibkarın istehsalı idarə etmək qabiliyyəti, təşkilatçılıq bacarığı, risqə getmək cəsarəti üçün aldığı haqq, yaxud mükafatdır. Belə bir fikir də vardır ki, mənfəət sahibkarlıq fəaliyyəti ilə məşğul olan insanların, bazarda yaranan

rəqabət mübarizəsinin, inhisarların işgüzar əməliyyatlarının məntiqi nəticəsidir. Mənfəətin nə demək olduğunu belə ifadə etmək mümkündür:

Satış məbləği – Ümumi istehsal xərcləri=Mənfəət

Bu üsulla hesablanmış mənfəətə statistik mənfəət deyilir.

İqtisadi nəzəriyyədə mənfəətin, – ***mühasibat mənfəəti, iqtisadi (xalis) mənfəət, normal mənfəət*** kimi müxtəlif formaları vardır. Həmin formalar bir-birindən öz tərkibi və hesablanma üsullarına görə fərqlənirlər.

***Mühasibat mənfəəti*** – məhsul satışından əldə olunmuş pul məbləğindən, xarici istehsal xərcləri çıxmaqla hesablanır:

Satış məbləği – Xarici xərclər=Mühasibat mənfəəti

yaxud: Mühasibat mənfəəti=Satış məbləği – Xarici xərclər

***İqtisadi (xalis) mənfəət*** – məhsul satışından əldə edilmiş pul məbləğindən, bütün istehsal xərclərini, yəni həm daxili, həm də xarici xərcləri çıxmaqla hesablanır:

Satış məbləği – (Daxili+Xarici xərclər)=İqtisadi (xalis) mənfəət

yaxud: İqtisadi (xalis) mənfəət=Satış məbləği – (Daxili+Xarici xərclər)

Təsərrüfat təcrübəsində sahibkarlıq və işgüzar biznes fəaliyyətini davam etdirmək üçün əsas mənbə iqtisadi (xalis) mənfəət sayılır.

***Normal mənfəət*** – hər bir sahibkar və iş adamının elə mənfəət kəmiyyətidir ki, həmin məbləğ istehsal-xidmət dairəsinin başqa sahələrinə yönəldilsəydi belə, yenə də öz sahibinə eyni səviyyə də mənfəət gətirə bilərdi. Deməli, normal mənfəət sahibkar, yaxud da şirkət tərəfindən istehsala qoyulmuş (sərf olunmuş, yönəldilmiş) daxili (gizli, görünməyən) xərclərə bərabər olan bir kəmiyyətdir.

**12.5.** İstehsal prosesinin torpaq, əmək, sahibkarlıq qabiliyyəti ilə yanaşı mühüm amillərindən biri sayılan ***kapital (K),*** iqtisadi resurs və məhsul kimi mənfəətin formalaşmasının əsas mənbəyidir.

Merkantristlərdən başlayaraq, müasir iqtisadi məktəblərin nümayəndələrinə qədər son 300 il ərzində kapitalın mahiyyəti, vəzifələri, hərəkəti haqqında müxtəlif fikirlər irəli sürülmüş və izahlar verilmişdir. Kapitalı ***pul, istehsal vasitələri, mülkiyyət, ictimai münasibət, toplanmış əmək, manevr etmək imkanı verən vasitə, investisiya imkanları, bilik, bacarıq, intelekt, ixtisas, vaxt*** kimi qiymətləndirilib səciyyələndirən fərqli və oxşar mövqelər vardır.

Ümumilşdirilmiş şəkildə ***kapital,*** istehsal fəaliyyəti nəticəsində yaradılmış və əmtəə-xidmətlərin istehsalı üçün istifadə olunan iqtisadi resurslardır, yaxud ***kapital*** əmtəə və xidmətləri istehsal etmək üçün istifadə olunan avadanlıq və qurğulardır.

Bu fikirlər konkretləşdirilərsə, ***kapital*** sahibkarın və şirkətin malik olduğu aktivlərdir, müəyyən vəsaitlərdir, iqtisadi resurslardır, imkanlardır. Həmin kapital ***real formada*** (məhsul, əşya, bina, tikinti, avadanlıq, dəzgah); ***pul-maliyyə formasında; hazır əmtəə-xidmətlər formasında*** ola bilər.

Real kapital həmişə hərəkətdə olub, istehsal prosesinin 3 ardıcıl mərhələsini təkrar-təkrar keçir. Bu mərhələlər, müəyyən məbləğdə pul kapitalının məhsuldar kapitala və onun da istehsal prosesi mərhələsindən keçərək, tədavül dairəsi vasitəsilə yenidən əvvəlki pul kapitalı formasına, yəni ilkin şəklə düşməsini əhatə edir.

Kapitalın məqsədi ilə bağlı, onun ardıcıl surətdə bir formadan digərinə çevrilməsi və 3 mərhələni əhatə edən hərəkəti, ***kapitalın dövranı*** adlanır. Kapitalın dövranı prosesi aşağıdakı sxem üzrə davam edir.

P – Ə < İş qüvvəsi (İQ) / İstehsal vasitələri (İV) ....İstehsal (İ)....$Ə^1$....$P^1$

Burada P – pul vəsaiti; Ə – əmtəə; İV – istehsal vəsaitləri; İQ – iş qüvvəsi; İ – istehsal prosesi; $Ə^1$ – satış çıxarılan məhsul; $P^1$ – satışdan əldə olunmuş pul məbləğidir.

Kapitalın dövranının hər 3 mərhələsi bir-biri ilə bağlı olub, istehsal və tədavül proseslərinin vəhdətindən ibarətdir. Bu proses fasiləsiz xarakter daşıyaraq, vaxtaşırı təkrar olunduğundan, ***kapitalın dövriyyəsi*** adlanır.

Pul kapitalının məhsuldar kapitala çevrilməsi, onun istehsal vasitələri və iş qüvvəsinə ayrılaraq istehsal prosesində iştirakı, onların hər birinin öz dəyərini məhsulun üzərinə keçirməsi üsullarının müxtəlifliyi ***əsas və dövriyyə kapitalı*** anlayışları ilə bağlıdır.

***Əsas kapital*** dedikdə, məhsuldar kapitalın istehsal prosesində bütünlüklə iştirak edən və öz dəyərini tədricən, ***fiziki-mənəvi cəhətdən*** aşındıqca hazır məhsulun üzərinə keçirən istehsal vasitələri nəzərdə tutulur. Bu anlayışa istehsalat binaları, texniki tikintilər, müxtəlif avadanlıqlar, dəzgahlar, maşınlar, qurğular, mexanizmlər daxildir. Əsas kapitalın fiziki cəhətdən aşınması dərəcəsi, istehsal vasitələrinin ***istifadə müddətindən, istehsal proseslərinin intensivliyindən, onların keyfiyyətindən və tətbiq edildikləri sahələrin konkret texniki-texnoloji xüsusiyyətlərindən, hətta xarici mühitin, ekoloji amillərin təsirindən də asılıdır.***

Əsas kapitalın aşınmasının qarşısını almaq üçün ***cari və əsaslı təmir*** işləri aparılmasının mənbəyi amortizasiya fondudur. Bu kapitalın fiziki aşınması dərəcəsinə uyğun olaraq, istehsal vasitələrinin dəyərinin pul formasında ödənilməsinə ***amortizasiya*** deyilir. Onun ***norması,*** amortizasiya ayırmaları məbləğinin əmək vasitələrinin dəyərinə olan faiz nisbətiylə ölçülür:

$$A^1 = \frac{A}{Q} \cdot 100\%$$

Burada $A^1$ – amortizasiya norması; A – amortizasiya fonduna ayırmalar; Q – əsas kapitalın (əmək vasitələrinin) dəyəridir. Müasir dövrdə dünyanın yüksək inkişaf etmiş ölkələrində maşın və avadanlıqların fiziki aşınması müddəti 5-7 il, istehsal binalarınkı isə 10-50 il arasındadır. Mənəvi aşınmanın müddəti isə elmi-texniki yeniliklərlə bağlıdır.

İstehsal prosesində iştirak edən ***dövriyyə kapitalı,*** məhsuldar kapitalın o hissəsinə deyilir ki, onun istehlakı prosesində dəyəri bütünlüklə hazır məhsulun üzərinə keçir və bir dövr ərzində pul formasında tamamilə sahibkara yaxud şirkətə qayıdır. Dövriyyə kapitalına xammal, yanacaq, materiallar, başa çatdırılmamış və ehtiyatda saxlanan məhsullar, iş qüvvəsi daxildir.

**12.6.** İstehsalın səmərəlilik səviyyəsinin iki əks son nöqtələri olan ***xərclər və mənfəət*** arasında dialektik həm də ziddiyyətli qarşılıqlı asılılıq münasibətləri əlaqəsi vardır. Şirkətin, sahibkarın, fermerin məhsul istehsalını artıraraq, öz mənfəətini yüksəltmək yolundakı səyləri, tez-gec istehsal xərclərinin də səviyyəsinin artması problemi ilə üzləşir. Bu ziddiyyətli vəziyyət isə iqtisadi nəzəriyyənin və ümumiyyətlə hər cür təsərrüfatçılıq

fəaliyyətinin optimal variant seçmək, yüksək səmərəliliyə nail olmaq, daha çox mənfəət əldə etmək yolundakı səylərinə aşkar əngəllər yaradır. Sahibkarlıq və işgüzar biznes fəaliyyəti ilə məşğul olan hər bir şəxsin mənfəətinin kəmiyyəti, onun bu sahədəki uğurlarının xarakterik göstəricisidir. Mənfəətin artması prosesi, məhsul-xidmətlərin keyfiyyətini aşağı salmadan, eyni zamanda istehsal xərcərinin minimum həddə qalması prinsipinə əməl etməklə həyata keçirilməlidir.

Deməli, ***istehsal xərcləri ilə şirkətin mənfəəti arasında tərs mütənasiblik vardır.*** İstehsal xərclərinin kəmiyyət baxımından, şübhəsiz keyfiyyətə xələl gətirmədən aşağı salınması, şirkətin yaxud sahibkarın mənfəətinin artmasını təmin edəcəkdir. Əksinə, şirkətin və sahibkarın xərclərinin artması meyli, onun mənfəətinin kəmiyyətinə mənfi təsir göstərəcəkdir.

Aydındır ki, konkret şəraitdən, ölkənin iqtisadi resurs imkanlarından, tələb-təklifdən, daxili-xarici bazarın vəziyyətindən, istehsal amillərinin bazar qiymətlərindən, əhalinin alıcılıq qabiliyyətindən, dövlətin iqtisadi siyasətindən asılı olaraq, şirkət və sahibkarların istehsal xərcləri ilə onların mənfəəti arasındakı asılılıq dəyişəcəkdir. Bu dəyişkən meyl özünü həm qısamüddətli, həm də uzunmüddətli dövrlər ərzində göstərir.

Müasir elmi-texniki tərəqqi və təkcə daxili bazarda deyil, eyni zamanda dərinləşən əmək bölgüsü nəticəsində beynəlxalq bazarda da kəsginləşən rəqabət mübarizəsi reallığında, istehsal-xidmət dairəsinin müxtəlif sahələrində ***xərclərlə mənfəətin*** qarşılıqlı nisbətinin elə optimal variantları tapılmalıdır ki, milli iqtisadiyyatın səmərəliliyi təmin olunsun.

Dünya təcrübəsi və müxtəlif istiqamətli şirkətlərin təsərrüfat fəaliyyətinin təhlili göstərir ki, şirkətlərin istehsal xərclərinin aşağı salınmasına, onların mənfəətinin artmasına, nəticə etibarilə məhsul-xidmətlərinin bolluğuna, habelə qiymətlərin aşağı düşməsi sayəsində əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsinə aşağıdakı amillər bilavasitə, yaxud dolayı yollarla təsir edir:

a) istehsal-xidmət şirkətlərinin (obyektlərinin) miqyası və istehsal həcmi;
b) müxtəlif təyinatlı istehsal-xidmət müəssisələrinə kapital qoyuluşları, habelə yönəldilməsi nəzərdə tutulan investisiyaların həcmi;
c) elmi-texniki nailiyyətlərin və mütərəqqi texnologiyaların tətbiqi səviyyəsi;
d) əməyin peşə-ixtisas səviyyəsi və onun təşkilinin təkmilləşdirilməsi;
e) sahibkarlıq və idarəetmə qabiliyyətinin yüksəldilməsi;
f) kapitalın məhsuldarlığının yüksəldilməsi və onun hansı sahələrə yönəldilməsinin müəyyənləşdirilməsi;
g) iqtisadi resurslardan və onların əvəzləyicilərindən istifadə etməklə, qənaət rejiminin ardıcıllıqla həyata keçirilməsi;
h) bazar qiymətləri və tələb-təklifin proqnozlaşdırılması zəruriliyi;
i) ekoloji cəhətdən təmiz və yüksək keyfiyyətli məhsulların istehsalının genişləndirilməsi;
j) rəqabət mübarizəsinin prinsiplərinə və antiinhisar qanunlarının tələblərinə əməl olunması.

Bazar münasibətləri iqtisadi sistemi və inteqrasiya prosesləri nəticəsində qloballaşan beynəlxalq aləmdə, bu amillərdən kompleks şəkildə istifadə etməklə, istehsalın səmərəliliyini optimal həddə çatdırmaq mümkündür.

# Mövzu 13. Sərbəst rəqabət və xalis inhisarçı rəqabət

**13.1** Rəqabətin mahiyyəti, tipləri və modelləri.
**13.2** Sərbəst (azad) rəqabət bazarı və onun xüsusiyyətləri
**13.3** Qısa və uzunmüddətli dövrlərdə şirkətlərin fəaliyyəti
**13.4** Xalis inhisar və onun fəaliyyəti xüsusiyyətləri
**13.5** Təbii inhisarlar və onların fəaliyyətinin tənzimlənməsi metodları

**13.1.** Latın dilindən götürülmüş «konkurent» sözü, «toqquşma», «yarış», «qarşıdurma» mənasını verərək, rəqabət anlamında bazar iştirakçıları arasında daha yaxşı istehsal şəraiti, əmtəə-xidmətlərin satışı, yüksək mənfəət əldə etmək uğrunda müxtəlif (qanuni və qanunsuz) üsullarla aparılan iqtisadi mübarizə formalarıdır.

Rəqabətin meydana çıxması, tarixən xüsusi mülkiyyətin formalaşması və cəmiyyətdə əmək bölgüsünün genişlənib-dərinləşməsi nəticəsində, əmtəə-pul münasibətlərinin inkişafı ilə bağlıdır. Rəqabət bazarın təbiətinə və ruhuna xas keyfiyyət kimi alqı-satqı sövdələşmələrinin reallaşdırılmasında həlledici rol oynayır. Rəqabət mübarizəsi prinsipləri bazarda qiymətləri, tələb-təklifi, istehsalın həcmini tənzimləyir, məhsul və xidmətlərin bolluğunu yaradır, alıcıların zövqünə, habelə alıcılıq qabiliyyətinə uyğun dəyişiklikləri çevikliklə nəzərə alır. Bazarda rəqabət mühitinin olması həm istehsalçılar arasında, həm istehsalçılarla istehlakçılar arasında, həm də istehlakçıların (alıcıların) özləri arasında gedən aşkar-gizli mübarizəni əks etdirir.

Rəqabət mübarizəsi bazar iştirakçılarını həmişə tələb-təklif dəyişikliklərini nəzərə almağa məcbur edir, istehsal-xidmət dairəsinin fəaliyyətini, işini təkmilləşdirməyə həvəsləndirir, istehsalın gələcək inkişafı üçün işgüzar maraq yaradır. Tanınmış iqtisadçı alim və mütəxəssislər rəqabəti «yeniliklə köhnəliyin mübarizə meydanı» (J.Şumpeter), «yeni imkanlar açan bir vasitə» (F.Xayek), «istehsalın strukturunun kəmiyyət və keyfiyyət təkmilləşdiricisi» (C.Robinson, E.Çemberlin) kimi qiymətləndirmişlər.

Rəqabət mübarizəsi mühitində bazar iştirakçılarının müəyyən uğurlar qazanmaq imkanları olduğu kimi eyni zamanda qazandıqlarını itirmək, hətta tamam müflis olmaq təhlükəsi, risqi də vardır. Ona görə də sahibkarlar və şirkətlər həmişə müxtəlif istehsal-xidmət məsələlərində bir-birini qabaqlamağa, texniki-iqtisadi göstəricilərini yaxşılaşdırmağa, reklam təbliğatından daha dolğun surətdə faydalanmağa çalışırlar.

Belə bir mürəkkəb və ziddiyyətli, çox vaxt son iqtisadi-sosial nəticələrini əvvəlcədən müəyyənləşdirmək çətin olan bazar münasibətləri şəraitində aparılan qeyri-bərabər rəqabət mübarizəsi bəzən zəifləyib, bəzən güclənsə də, lakin heç vaxt dayanmamış, həmişə olmuş, indi də var, şübhəsiz gələcəkdə də olacaqdır.

Görkəmli iqtisadçı, rəqabət problemi üzrə məşhur mütəxəssis **Maykl Porterin** (ABŞ) işləyib hazırladığı ideyaya görə rəqabət mübarizəsinin 5 gücü modelini aşağıdakı sxemdən görmək olar:

Həmin sxemdə rəqabət mübarizəsinin müxtəlif istiqamətlərini (əmtəə-xidmətlərin satıcıları arasında; əvəzləyici əmtəə-xidmətlərin satıcıları arasında; bazarı xammal və hazır məhsillarla təchiz edənlər arasında; alıcılar arasında) intensivləşdirən şərtlər öz əksini tapmışdır.

**Rəqabətin 5 gücü**




Eyni zamanda həmin sxemin təhlili, «rəqabətin hərəkətverici qüvvəsi» adlandırılan amillərin bu prosesin intensivləşdirilməsi gedişinə necə təsir etdiyini aydınlaşdırır. Həmin amillər sırasında aşağıdakıları göstərmək olar:

- uzunmüddətli artım templərinin aşağı düşməsi meyli, fəaliyyət göstərən şirkət və istehsal-xidmət sahələrinin sayının azalması ilə nəticələnir yaxud əks proses baş verir;
- alıcı tələbinin müəyyən əmtəə-xidmətlərə olan əvvəlki səviyyəsinin dəyişməsi, həmin şirkətlərin tədricən sıradan çıxmasına səbəb olur;
- yeni məhsullar istehsal edib, bazara çıxaran şirkətlərin fəaliyyətinin genişlənməsi və «mühafizəkar» (dəbdə olmayan) məhsullar, habelə alıcı zövqünü təmin etməyən mallar istehsal edən şirkətlərin isə sayının ixtisarı gedir;
- istehsalın texniki-texnoloji cəhətdən təkmilləşdirilməsi əsasında, onun həcmində və qiymətlərində səmərəliliyin dəyişməsi baş verir;
- əvvəlki rəqiblərin yeni texnika və texnologiyadan istifadəsinə dair məhdudiyyətlər aradan qaldırılır;
- iqtisadi islahatların həyata keçirilməsi və yeni hüquq – normativ aktların qəbul olunması nəticəsində, dövlətin iqtisadi siyasətində müəyyən dəyişikliklər nəzərdə tutulur;
- inteqrasiya və qloballaşma proseslərinin genişlənməsi, habelə «açıq iqtisadiyyat» prinsiplərinin tələbləri nəticəsində, daxili bazara beynəlxalq səviyyəli xarici rəqiblərin müdaxiləsi güclənir.

Bazar münasibətləri iqtisadi sistemi reallığında, sahibkarlıq və işgüzar biznes fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin əsas şərtlərindən sayılan rəqabət mübarizəsini başqa üsullarla əvəz etmək, yaxud onu inzibati yollarla məhdudlaşdırmaq, hətta qadağan etmək cəhdləri həmişə uğursuzluqla nəticələnmişdir. Çünki bəşəriyyətin çoxəsirlik təsərrüfat həyatı təcrübəsi sübut etmişdir ki, bazar yalnız rəqabət prinsipləri əsasında inkişaf edib təkmilləşərək, cəmiyyətə və sosial-iqtisadi inkişafa xidmət göstərə bilər. Rəqabətin aparılmasının başlıca məqsədi isə bazar subyektlərinin, yəni həm satıcılarının, həm də alıcıların ***azad, sərbəst, müəyyən olmuş qayda-qanunlara*** riayət etmək əsasında daha yüksək mənfəət əldə etməkdir.

İqtisadi nəzəriyyədə bazardakı rəqabətin mahiyyətindən asılı olaraq, bu rəqabətin ***2 tipi*** və ***4 modeli*** (forması) təhlil olunur. Rəqabətin tiplərinə – ***azad*** (sərbəst, mükəmməl,

halal) rəqabət bazarı və ***qeyri-sətbəst,*** yaxud qeyri-mükəmməl (inhisarçı, oliqopoliya, xalis inhisarçı) rəqabət bazarları daxildir.

**13.2.** ***Mükəmməl*** (azad, sərbəst) rəqabət bazarında, eyni adlı məhsul istehsalçıları – satıcıları ilə istehlakçılar arasında, hamı tərəfindən qəbul olunmuş «görünməz əl» (A.Smit) prinsipi əsasında normal, halal rəqabət mübarizəsi gedir. Bu rəqabətin məntiqi və mahiyyəti onunla izah olunur ki, bazarda eyni adlı, standart məhsul istehsal edib satışa çıxaran çoxsaylı şirkətlər, habelə saysız-hesabsız alıcılar iştirak edirlər.

Məhsul istehsalçıları əmtəə-xidmətlərin satış həcminin, miqdarının müəyyənləşdirilməsində, alıcılar isə öz konkret seçimlərində sərbəst olduqları halda, onlar qiymətlərə təsir göstərə, başqa istehsalçıların yaxud alıcıların işinə qarışa və digərlərinin bazara daxil olmasına mane ola bilməzlər.

Buna səbəb odur ki, həm çoxsaylı istehsalçılar, həm də alıcılar vahid rəqabət bazarının eyni hüquqlu iştirakçıları kimi ayrı-ayrılıqda hərəkət etdiklərindən, «dağınıq» olduqlarından, müstəqil sürətdə qərarlar qəbul etdiklərindən, onların bazarda baş verən proseslərə, xüsusilə qiymətlərin formalaşmasına təsirləri çox az olub, yox dərəcəsindədir.

Məsələn taxılçılıqla məşqul olan fermer, ayaqqabı istehsal edən şirkət, mebel istehsalçısı «böyük» rəqabət bazarının «kiçik» iştirakçısı olduğundan, istər istehsalın ümumi həcminə, istərsə də orada formalaşan qiymətlərə təsir göstərmək imkanlarından məhrumdur. Çünki azad rəqabət bazarında qiymətlər əvvəlcədən verilmiş, kənar (ekzogen) kəmiyyət olduğundan, bazarın hər bir iştirakçısı bu «oyun qaydasını» qəbul etməlidir. Rəqabət bazarının bu qaydalarını bəyənib-bəyənməmək olar, lakin onun «iqtisadi oyun qaydalarını» ləğv etmək mümkün deyildir. Bunun üçün cəmiyyətin təsərrüfat həyatı və iqtisadi münasibətlər sistemi dəyişməlidir.

Deməli, sərbəst rəqabət bazarının fərqləndirici xüsusiyyətləri kimi aşağıdakıları göstərmək olar:

1. Bazarda öz məhsul-əmtəə və xidmətləri ilə iştirak edən istehsalçıların (satıcıların), eyni zamanda istehlakçıların (alıcıların)sayı çoxdur.
2. Sərbəst rəqabət eyni adlı, çeşidli, standart əmtəə-məhsulları əhatə edir və onlara aiddir.
3. Bazarda qiymətlər üzərində nəzarət yoxdur, o tələb-təklif qanunu əsasında formalaşır.
4. Sərbəst rəqabət bazarına daxil olmaq, orada istehsalçı-satıcı və istehlakçı-alıcı kimi iştirak etmək, yaxud bu bazarı tərk etmək üçün heç bir ciddi maneə yoxdur.
5. Bu bazar haqqında məlumat toplamaq və orada gedən prosesləri izləmək, hamı üçün açıqdır.

Qeyd etmək lazımdır ki, sərbəst (azad) rəqabət bazarı anlayışı nəzəri, abstrakt bir model olub, real həyatda çox az, məsələn taxıl, qiymətli kağızlar, balıq, gül-çiçək, tez xarab olan məhsullar, valyuta bazarlarında təsadüf olunan haldır. Lakin bu sadə bazar vəziyyəti, bir çıxış nöqtəsi kimi başqa tip bazar modellərini təhlil etmək üçün nümunədir.

Tanınmış iqtisadçı J.Şumpeter (Avstriya) «Kapitalizm, sosializm və demokratiya» kitabında yazmışdır ki, keçmiş zamanın romantik alverçilik qaydaları artıq arxada qalmışdır. «İndi hər şeyi təkcə uzaqgörənlik deyil, həm də ciddi hesablamalar aparmaq bacarığı həll edir». Aydındır ki, ən ciddi haqq-hesab aparmaq bacarığı da, bazarda tam uğur qazanmaq üçün zəmanət verə bilməz. Çünki, biznes və sahibkarlıq fəaliyyəti sadə bir iş olmayıb, bazardakı qeyri-müəyyənlik, risqə getmək, qiymət dəyişkənliyi, tələblə-təklifin

səviyyəsi, istehsal xərcləri, hüquqi bazadakı boşluqlar, kapital həcminin məhdudluğu, bürokratik əngəllərlə bağlıdır.

Bu mənada sərbəst rəqabət bazarı şəraitində tələb-təklifin ümumi, orta və son hədd xərclərində baş verən dəyişikliklər, habelə onların təhlili təkcə elmi-nəzəri deyil, həm də əməli əhəmiyyətə malikdir.

Aşağıda verilmiş qrafik sxemlərdə (I – IV) şirkətin məhsuluna olan tələb əyrisi, eyni tipli şirkət və müəssisələrdən ibarət sahənin tələb əyrisi, sərbəst rəqabət mühitində satışdan əldə olunan ümumi və orta məbləğin dəyişmə dinamikası əks olunmuşdur.




Sxem (I) göstərir ki, ayrıca bir şirkət bazar qiymətini dəyişmədən, ona təsir etmədən istənilən miqdarda məhsul sata bildiyindən, tələb əyrisi (D) üfüqi xətt vəziyyətində olacaqdır.

Sxem (II) göstərir ki, eyni adlı məhsul çeşidi istehsal edən şirkətlər qrupu (sahə) bazarda məhsulun həcminə və qiymətlərə təsir göstərdiyindən, tələb əyrisi ($DD_1$) enib-qalxan xətt boyunca olacaqdır.

Sxem (III) göstərir ki, mükəmməl (sərbəst, azad) rəqabət şəraitində satıcının əldə etdiyi ümumi məbləğ, onun reallaşdırdığı məhsulun miqdarı ilə düz mütənasibdir.

Sxem (IV) göstərir ki, sərbəst rəqabət mühitində satıcının əldə etdiyi orta məbləğ (AR), onun reallaşdırdığı məhsulun miqdarının qiymətə hasilinə bərabərdir.

**13.3.** İqtisadi hadisə və proseslər təkcə məkan (şirkət, müəssisə, sahə) daxilində, deyil, həm də müəyyən bir zaman, vaxt ərzində baş verir. Bu mənada iqtisadi prosesləri, şirkət və müəssisələrin fəaliyyətini, onların istehsal etdikləri məhsullara yaxud göstərdikləri xidmətlərə tələb-təklifin, bazar qiymətlərinin, istehsal xərclərinin, mənfəət səviyyəsinin dəyişkənliyini daha dəqiq təhlil etmək üçün ***qısamüddətli dövr*** və ***uzunmüddətli dövr*** anlayışlarından istifadə olunur.

İlk dəfə iqtisad elminə görkəmli ingilis alimi Alfred Marşall tərəfindən daxil edilmiş bu anlayışlar, təkcə sırf vaxt (ay, rüb, il) mənasında deyil, həm də istehsal-xidmət dairəsinin müxtəlif sahələrində baş verən konkret keyfiyyət dəyişiklikləri kimi xarakterizə olunur.

Sərbəst rəqabət bazarı şəraitində qiymətlərin sahibkar, fermer, şirkət rəhbərliyindən deyil, tələb-təklifin dinamikasından irəli gələn bazar qiymətlərinin formalaşması prosesindən asılı olduğundan, hər bir istehsalçı (satıcı) ***nə istehsal etmək, nə qədər və necə, hansı üsullarla istehsal etmək, kim üçün istehsal etmək***, nəhayət fəaliyyətinin nəticəsində nə ***qədər gəlir (mənfəət) əldə etmək*** problemləri ilə rastlaşır. Sahibkar və müxtəlif şirkətlərin rastlaşdıqları mürəkkəb, ziddiyyətli, həm bacarıq, həm kapital, həm də uzaqgörənlik tələb edən istehsal-xidmət dairəsi sahələrinin gündəlik qayğıları, problemləri bəzən qısamüddətli, bəzən də ***uzunmüddətli*** vaxt tələb edir.

Bu dövrlər bir-birindən onunla fərqlənir və seçilirlər ki, uzunmüddətli dövr ərzində rəqib şirkətlərin, istehsal-xidmət sahələrinin öz güclərini artırmaq, habelə bazarda fəaliyyət göstərən şirkətlərin sayının artmaq imkanı vardır.

İstər qısamüddətli, istərsə də uzunmüddətli dövrlər ərzində istehsalçı öz xərcləri ilə mənfəəti arasında tarazlıq olmasına çalışmalıdır. Çünki, yalnız belə bir tarazlığın olması həm istehsalçıları, həm də istehlakçıları (alıcıları) razı salıb, qane edə bilər. Alıcının məqsədi əldə etdiyi əmtəə-xidmətdən ***maksimum dərəcədə faydalanmaqdırsa,*** istehsalçının (satıcının) məqsədi isə ***maksimum mənfəət prinsipidir***. Bu mənfəət isə onun satışdan əldə etdiyi məbləğlə ümumi xərcləri arasındakı fərqdən ibarətdir. İstehsalçının (satıcının) iqtisadi (xalis) mənfəəti adlanan bu kəmiyyət bərabərdir:

Mənfəət=Satışdan əldə olunmuş məbləğ – Ümumi xərclər yaxud:
İqtisadi (xalis) mənfəət=Ümumi gəlir – Ümumi xərclər
(ER) (TR) (TC)

Sərbəst (mükəmməl, azad, halal) bazar rəqabəti şəraitində yaranmış konkret vəziyyətdən asılı olaraq, hər hansı bir şirkət ***qısamüddətli*** dövr ərzində iqtisadi (xalis) mənfəət əldə edə də bilər və belə bir imkanı əldən buraxa da bilər. Lakin şirkətin satışdan əldə etdiyi məbləğ yaxud ümumi gəlir (TR), heç olmasa çəkdiyi dəyişən ümumi xərclərini (TC) ödəyirsə, o zaman hələ bazarda qalıb fəaliyyət göstərməyə və vəziyyətin (konyukturanın) dəyişəcəyini gözləməyə dəyər. Bazarda belə bir vəziyyət yarandıqda, fəaliyyətini davam etdirən şirkət, qısamüddətli dövr ərzində öz mənfəətini artırmağı deyil, xərclərini, bəzən isə zərərini minimum həddə salmağı qarşısına məqsəd qoymalıdır. Şirkət və sahibkar sərbəst rəqabət şəraitində qazansa da, mənfəəti xərclərinə bərabər olsa da (buna sıfır variant deyilir), ziyana düşsə də, bütün hallarda bazar qiyməti onun tərəfindən «qəbul edilən» bir kəmiyyət sayıldığından, əsas diqqət istehsal həcminin optimallığına, onun səmərəli variantının seçilib müəyyənləşdirilməsinə yönəldilməlidir.

Deməli, qısamüddətli dövr ərzində rəqib şirkətlər mənfəətlərini artırmaq üçün, bazarda formalaşmış qiymətlərin səviyyəsindən çəxaraq, yalnız öz istehsal həcmlərini genişləndirməklə gedə bilərlər. Həmin qısa vaxt ərzində şirkətin mövcud istehsal güclərindən intensiv istifadə etməklə yanaşı, istehsal prosesinə əlavə xammal, materiallar, iş qüvvəsi cəlb olunmalıdır. Bu, şirkətin istehsal həcminin artmasının ***birinci*** yoludur. ***İkinci*** yol isə şirkətin son hədd xərclərini, yəni əlavə istehsal olunmuş hər məhsul vahidinə

sərf olunmuş xərcləri azaltmaqla, son hədd gəlirini artırmaqdan ibarətdir. Şirkət və sahibkar bu istiqamətdəki gəlir və xərclərini, habelə onların nisbətini düzgün hesablayıb, təhlil etməyi bacarmalıdır. Çünki son hədd xərclərinin fərqli dəyişmə dinamikası və istehsal həcminin artması, qiymətlərin isə aşağı düşməsi meyli, vəziyyəti xeyli mürəkkəbləşdirir. Ona görə də, qısamüddətli dövr ərzində istehsalın əlavə iqtisadi resurslar hesabına genişləndirilməsinin optimal variantının müəyyənləşdirilməsi, olduqca mühüm bir məsələdir. Aşağıda verilən cədvəldən, son hədd xərcləri ilə bağlı, son mənfəət həddinin istehsalın hansı səviyyəsi üçün səmərəliliyi aydın olur:

**Şirkətin son hədd xərcləri (MC) və son hədd mənfəəti (MR) arasındakı nisbət**

| Məhsul istehsalının həcmi (Q) | Hər məhsul vahidinin qiyməti (P) | Satış məbləği (P×Q) | Son hədd xərcləri (MC) | Son hədd mənfəəti (MR) | Şirkətin son hədd xərclərinin (MC) son mənfəət həddinə (MR) nisbəti |
|---|---|---|---|---|---|
| 6 | 2 | 12 | 11 | 12 | MC<MR |
| 11 | 2 | 22 | 9 | 10 | MC<MR |
| 15 | 2 | 30 | 8 | 8 | MC=MR |
| 18 | 2 | 36 | 9 | 6 | MC>MR |
| 20 | 2 | 40 | 10 | 4 | MC>MR |

Bu rəqəmlərdən aydın olur ki, konkret şirkət üçün onun xərcləri ilə mənfəətinin ***uyğunluğu*** və ***bərabərliyi*** 15 vahid məhsul (ədəd, ton, min metr) həddindədir. Hesablama üsullarından asılı olaraq, şirkətin ümumi xərcləri (TC) və orta xərcləri (AC) nəzərə alınmalıdır.

Deməli, hər bir rəqib istehsalçı (satıcı) hərtərəfli düşünüb qəti qərara gəlməlidir ki, o istehsalı davam etdirməyə hazırdırmı, hansı həcmdə istehsal daha səmərəlidir, son nəticədə mənfəət əldə edəcək, yoxsa müflis olacaqdır?

Şirkət rastlaşdığı problemləri qısamüddətli dövr ərzində həll etdikdə, bir variantda eyni məhsulun ən keyfiyyətli, alıcıların rəğbətini qazanmış növlərini istehsal etməklə; yaxud ən aşağı (minimum) istehsal xərcləri sahəsində liderlik strategiyasını həyata keçirməklə; yaxud da bazarın bir hissəsində (seqmentində), məsələn bahalı avtomobillər, son dəbdə olar mebel, sifarişlər üzrə hazırlanan paltar, zinyət əşyaları istehsalı və satışında öz mövqelərini qoruyub saxlamaqla, yaranmış vəziyyətdən çıxış yolu tapa bilir.

Başqa bir variant, yaranmış sərbəst bazar rəqabətinə davam gətirmək və şirkətin rəqabət qabiliyyətli olduğunu təsdiq etmək üçün istehsal xərclərinin aşağı salınmasıdır. Bunun üçün istehsalın intensivləşdirilməsi, əmək məhsuldarlığının yüksəldilməsi, əvəzləyici materiallardan istifadə olunması, işçilərin ixtisarı, əlavə xərclərə yol verilməməsi, qənaət üsulu kimi müxtəlif vasitələr tətbiq edilir.

Digər və ən son variant isə sahibkarın öz fəaliyyətini dayandırması, şirkətin isə bağlanması yaxud ləğv edilməsidir. Əslində qısamüddətli dövr ərzində şirkətin və sahibkarın qarşısında 2 alternativ vəzifə durur: ya müxtəlif vasitələrdən istifadə etməklə, yaranmış şəraitdə müəyyən miqdarda məhsul istehsal edərək bazardakı mövqeyini saxlamaq, ya da sahəni tərk edərək, başqa işlə məşğul olmaq. Nə qədər çətin, bəzən ağrılı olsa da, lakin sosial ədalət meyarları ilə deyil, tələb-təklif, qiymət və rəqabət prinsipləri ilə idarə olunan bazar münasibətləri sistemi üçün bu adi, hər gün təkrar olunan hadisədir.

Bu halda, kapitalın hərəkəti qanununa uyğun olaraq, onun bir sahədən digərinə və əksinə axını prosesi başlayır, rəqabət bazarını tərk edənlərin yerini başqaları tutur, həyat davam edir, əmtəə-xidmətlərin gah qalxan, gah da enən fasiləsiz istehsalı prosesi ləngisə də irəliləyir.

Sərbəst rəqabət bazarı şəraitində rəqib şirkət, ***uzunmüddətli dövr*** ərzində istehsal prosesinin bütün amillərini genişləndirmək, təkmilləşdirmək və yenidən qurmaq imkanları qazanır. Bu dövr fermerə öz torpaq sahəsini genişləndirmək, mebel şirkətinə avadanlığını təzələri ilə əvəz etmək, turizm-əyləncə mərkəzinə əlavə işçilər cəlb etmək, kimya müəssisəsinə son texnoloji yeniliklərdən faydalanmaq şansı verir.

Tələb-təklif, bazar qiyməti və rəqabət mübarizəsi şəraitində baş verən bu ciddi kəmiyyət-keyfiyyət dəyişiklikləri, ilk növbədə müəyyən məbləğdə ***kapital, sahibkarlıq qabiliyyəti, konkret şəraitə uyğun düzgün qərarlar qəbul etmək iradəsi ilə bağlıdır.*** Məqsəd isə birdir: sahibkarın, fermerin, işgüzar biznes adamının, şirkətin, korporasiyanın mənfəətini yüksəldib, maksimum hədd çatdırmaq!

Bu əsas məqsədi həyata keçirmək üçün, ölkə qanunlarında və işgüzar biznes davranış qaydalarında nəzərdə tutulmuş prinsipləri pozmayan bütün vasitələrdən istifadə oluna bilər. Şirkət öz istehsal sahəsini və məhsul-xidmətlər həcmini genişləndirib-azalda bilər, fermer öz torpağını satıb, başqa biznes fəaliyyəti ilə məşğul olar, sahibkar kapitalını tamamilə yeni sahəyə yönəldər.

Sərbəst rəqabət bazarı mühitində bazara daxil olmaq, yaxud onu tərk etmək yolunda heç bir hüquqi, inzibati və iqtisadi əngəl olmur. Belə şəraitdə işsizlik və inflyasiya proseslərinə yer yoxdur, yaxud onların əhatə, habelə təsir dairəsi məhduddur.

***Uzunmüddətli dövr*** ərzində şirkət və korporasiya zərərlə işləyə bilmədiyindən, o bazarı tərk etməli, «oyundan» çıxmalıdır. Belə uğursuz şirkətlərin yerini, rəqabət qanunu nəticəsində başqaları tutaraq, öz fəaliyyətlərini əvvəlkilərin nöqsan və səhvlərini təkrar etməmək əsasında qurmağa çalışırlar. Lakin bazar münasibətləri iqtisadi sistemində fəaliyyət göstərən şirkət və müəssisələrin heç biri, bu cür problemlərdən sığorta olunmamışlar.

Uzunmüddətli dövr ərzində istehsal xərclərinin bütün ünsürlərində müəyyən dəyişikliklər baş verir. Bu dəyişikliklər ilk növbədə, istehsalın həcminin artımı ilə bağlı, orta xərclərdəki dəyişikliklərlə əlaqədardır. Çünki, uzunmüddətli dövrdə istehsal xərclərinin dinamikası, istehsalın miqyas səmərəliliyi ilə ölçülür. Əgər, istehsalın miqyas və xərci artırsa, orta xərclər azalmağa doğru meyl edirsə, deməli miqyas effekti müsbətdir. Bu meyl, əməyin ixtisaslaşdırılması, qənaət rejiminin həyata keçirilməsi və səriştəli idarəetmə bacarığı sayəsində əldə edilir.

Əksinə, istehsal həcminin dinamik yüksəlişi orta istehsal xərclərini artırırsa, təbiidir ki, effekt (səmərəlilik) miqyası mənfi olacaqdır. Şirkətin və müəssisənin hədsiz iri miqyasları, şübhəsiz onların təsərrüfat fəaliyyətinə mənfi təsir göstərəcək, bürokratik əngəlləri artıracaq, istehsalın ümumi səmərəliliyini aşağı salacaqdır. Eyni zamanda, istehsalın həcminin artması orta xərcləri azaltmağa doğru dəyişməyəcəksə, o zaman səmərəlilik miqyası sıfıra bərabər olacaqdır. Bunu aşağıdakı qrafik təsvirlərdən görmək olar:













Bunların əsasında formalaşan uzunmüddətli orta xərclər əyrisi (sxem IV) göstərir ki, istehsalın miqyasları böyüdükcə, ilk mərhələdə orta xərclər azalır, sonra müəyyən bir müddət dəyişməz (sabit) qalır, nəhayət istehsalın miqyaslarının sonrakı inkişafı, orta xərclərin artmasına səbəb olur.

İstehsalın miqyasları və həcmi ilə bağlı optimal variantın tapılması, ilk növbədə şirkətin təyinatı, onun daxil olduğu sahənin özünəməxsus cəhətləri ilə bağlıdır. Məsələn, metallurgiya, kimya, gəmiqayırma kimi sənaye sahələrində iri müəssisələrin kompleksinin yaradılması, iqtisadi-sosial baxımdan daha məqsədəuyğun və səmərəli sayılır. Bu yol, həmin tipli müəssisələrdə uzunmüddətli dövrdə orta xərcləri əhəmiyyətli dərəcədə aşağı salmağa və miqyas (həcm) effektindən yararlanmağa imkanlar açılır. Lakin unutmamaq lazımdır ki, müəssisənin miqyasları, hələ onun səmərəli fəaliyyətinə və maksimum mənfəətlə işləməsinə təminat vermir. Təsərrüfat təcrübəsi göstərir ki, xidmət, istirahət, sağlamlıq təyinatlı obyektlərin miqyasları çox böyük olmasa da səmərəlilik səviyyəsi yüksəkdir. Ona görə də bu sahələr son dövrlərdə yerli və xarici iş adamlarını özünə daha çox cəlb edir.

Sərbəst rəqabət şəraitində, istehsalın son məqsədi olan səmərəliliklə, onun hərəkətverici qüvvəsi sayılan rəqabətin ümumiyyətlə əlaqəsinə gəldikdə, müəyyən istisna hallarını çıxmaq şərtilə, əmtəə-xidmətlərin qiyməti (P) və son hədd gəliri (MR), onların orta ümumi xərclərinin minimum səviyyəsinə uyğun formalaşır. Həmin asılılıq belə ifadə olunur:

P (və MR)=minimum ATC

Aşağıdakı qrafik sxemdə, qiymət, son hədd xərcləri, orta ümumi xərclər üçlüyünün bərabərliyi və müəyyən bir nöqtədə kəsişdiyi göstərilmişdir.

Burada, P – qiymət; MC – son hədd xərcləri; ATC – orta ümumi istehsal xərcləri; MR – son hədd mənfəətidir.

Qrafik təsvirdən aydın olur ki, son hədd xərcləri əyrisi (MC), orta ümumi xərclər (ATC) əyrisinin minimum nöqtəsində bir-biri ilə kəsişirlərsə, onlar bərabərdirlər. Buradan isə daha geniş mənada olan bərabərlik meydana çıxaraq belə ifadə olunur:

P (və MR)=MC=minimum ATC

Bu bərabərlik göstərir ki, sərbəst rəqabət şəraiti cəmiyyətin məhdud iqtisadi resurslarını, istehlakçıların tələb və zövqləri əsasında, bir tərəfdən həmin resursların şirkətlər, sahələr arasında bölgüsünü, digər tərəfdən isə istehsalın səmərəliyini təmin edir.

**Uzunmüddətli dövrdə rəqib şirkətin tarazlıq vəziyyəti**
***(Qiymət=son hədd xərclərinə=minimum orta ümumi xərclərə)***




**13.4.** Azad (mükəmməl, sərbəst) rəqabət bazarının alternativi yaxud əksi, qeyri-mükəmməl rəqabət bazarı tipidir. Buraya ***inhisarçı bazar, oliqopoliya bazarı və xalis (mütləq) inhisarçı rəqabət bazarı*** daxildir.

Ümumiyyətlə inhisar və inhisarçılıq dedikdə, bazarda kiçik bir qrupun istehsal yaxud satış dairəsində ağalığı nəzərdə tutulur. Bu qrup əmtəə-xidmətlərin istehsal həcminə, onların təklifinə və bazar qiymətlərinin formalaşmasına güclü təsir göstərmək imkanlarına malikdir.

İnhisarların (monopoliyaların) olması və ölkənin təsərrüfat həyatının müəyyən sahələrində aparıcı mövqe tutması hadisəsi, hələ eramızdan əvvəl qədim yunan alimi Aristotel (384-322) tərəfindən göstərilmişdi. O, Yunanıstanda zeytun istehsalı və dəmir məmulatları satışında inhisarların olduğunu qeyd etmişdi.

Orta əsrlərdə inhisarçılıq meylləri özünü, o dövrün təsərrüfat həyatında mühüm yer tutmuş və müxtəlif təyinatlı məhsullar hazırlayıb-satan sexlərin fəaliyyəti nümunəsində meydana çıxarmışdı.

Yeni tarixi dövrdə, xüsusilə XIX əsrin ikinci yarısından başlayaraq elmi-texniki kəşflər, mütərəqqi texnologiya bazasında sənaye, tikinti, kənd təsərrüfatı, nəqliyyat, məlumat-informasiya sahəsindəki nailiyyətlər, istehsalın mərkəzləşməsi və təmərküzləşməsi prosesləri təməlində iri istehsal-xidmət birliklərinin, yəni inhisarların (monopoliyaların, təkəlliyin) formalaşmasını keyfiyyətcə yeni bir mərhələyə qaldırmışdır. XIX əsrin sonu və XX əsrin əvvəllərindən yeni bir vüsət almış bu proses, klassik modellərin yeni formaları, çalarları ilə zənginləşərək, bizim günlərimizdə də öz mürəkkəblikləri, habelə ziddiyyətləri ilə davam etməkdədir.

Xalis, yaxud mütləq inhisar (monopoliya) bir şirkətin müəyyən bir məhsulun, yaxud məhsullar qrupunun, xidmətin, iqtisadi resursun istehsalçısı (satıcısı) olmasıdır. Bu məhsul atom reaktoru, təyyarə mühərriki, futbol topu, mebel, kompüter, ov tüfəngi, qol saatı, pepsi ola bilər. Eyni tipli məhsulu bir müəssisə, şirkət də, eyni zamanda müəyyən sahə də istehsal edib, bazara satışa çıxara bilər.

- Xalis (mütləq) inhisar bazarını aşağıdakı xüsusiyyətlər səciyyələndirir:
- Xalis inhisarçı şirkət bazara tam nəzarət edir.
- İstehsal olunmuş əmtəələrin, göstərilən xidmətlərin əvəzləyicisi, yaxud analoqu yoxdur.

- Xalis rəqabət bazarına daxil olmaq, rəqiblər üçün tam bağlıdır.
- Bazar qiymətləri xalis inhisarçı şirkətin tam nəzarəti altındadır.
- İstehsalın həcmini artırıb-azaltmaq məsələsi xalis inhisarçı şirkətin tam səlahiyyəti və ixtiyarındadır.
- Xalis inhisarçı şirkət yüksək mənfəət əldə etmək məqsədilə öz istehsal həcmini və qiymətləri planlaşdıra bilər.
- Xalis inhisarçı şirkət bazarda müəyyən bir məhsul-xidmətin yeganə istehsalçısı və satıcısı olduğundan, onun reklama o qədər də ehtiyacı olmur.

Azad rəqabət bazrının tam əksi sayılan xalis (mütləq) inhisarçı bazar, real təsərrüfat həyatında çox az hallarda rast gəlinən bir hadisə, yaxud fərziyyə, abstraksiya xarakteri daşıyır. Lakin bu hadisəni qeyri-rəqabət bazarının bir modeli, yüksək inhisarlaşdırılmış bazarın konkret nümunəsi kimi öyrənmək və onun özünəməxsus xüsusiyyətlərini hər tərəfli təhlil etmək, şübhəsiz gələcək müqayisəli araşdırmalar üçün zəruridir.

İlk növbədə xalis inhisar bazarında iri kapitala malik, nəhəng avtomobil, metallurgiya, energetika, elektron sənaye sahələri fəaliyyət göstərdiyindən, həmin bazara daxil olmaq son dərəcədə çətindir, bəzən də mümkün deyildir. Məsələn, qiymətli daş-qaş, əlvan metallar, brilyant, nadir kənd təsərrüfatı məhsulları istehsal edən sahələri buna nümunə göstərmək olar.

Müxtəlif ölkələrin hakimiyyət orqanları bir sıra şirkətlərə uzunmüddətli patent və lisenziyalar verməklə, başqalarının bu sahəyə daxil olması yolunda aşkar əngəllər törətmişlər. «Xerokx» surətçıxarma cihazları, «Kodak» foto aparatları və materialları, «Gillette» üzqırxanları, «General Elektrik» avadanlıqları, «Boinq» təyyarələri, «De Beers» almaz korporasiyalarının təşkili, istehsal-satış fəaliyyəti, bu prinsiplərə əsaslanmışdır.

Xalis inhisarçı şirkətlər eyni zamanda hazırladıqları məhsulların xammal mənbələrini də öz nəzarətlərində saxlayırlar. ABŞ-ın «Aliminum $K^0$», Kanadanın «Nickel $K^0$», CAR-nın «De Beers» almaz korporasiyasının fəaliyyəti buna misaldır. Ayrı-ayrı şirkətlər bazarda öz inhisarçı istehsalçı və satıcı mövqeyini qoruyub saxlamaq üçün qiymətləri kəsgin surətdə aşağı salmaq, reklam təbliğatını gücləndirmək, habelə digər vasitələrdən də istifadə edirlər.

1999-cu ildə ABŞ-ın Ədliyyə Nazirliyi, ölkədə süni dişlər istehsalının 70 faizini öz inhisarında saxlamış «Dentsply» şirkətini, başqa müstəqil istehsalçıların, xüsusilə xarici rəqiblərin bu sahəyə daxil olmasına maneələr törətməkdə, əngəllər yaratmaqda günahlandırmış və cərimələmişdi. İstehsalçı və satıcının bazarda inhisarçılıq səylərinin qarşısını almaq üçün aparılan tədqiqatlar, edilən şikayətlər əsasında keçirilən gurultulu məhkəmə prosesləri, iri məbləğdə cərimələr və həbslər İngiltərə, İtaliya, Hindistan, Rusiya kimi dövlətlərdə baş vermişdir.

Eyni zamanda korporasiyaların inhisarçılıq (məsələn «Mikrosoft»-un) fəaliyyətinin sübuta yetirildiyi aşağı pillədə məhkəmə prosesi qərarının, 2001-ci ildə ABŞ-ın Apellyasiya Məhkəməsi tərəfindən ləğv edilməsi faktı da məlumdur. Belə hadisələr və onu araşdıran məhkəmə prosesləri başqa ölkələrdə də olmuş, lakin məhkəmələrin qərarları ictimaiyyət tərəfindən birmənalı qarşılanmamışdır.

Xalis inhisarçı şirkətin hüquqi statusu və hakimiyyət orqanlarının onların fəaliyyətini tənzimləmədiyi bir şəraitdə, buraxılan məhsulun hər vahidi üçün müəyyən olunmuş qiymət siyasəti mühüm rol oynayır. Çünki müəyyən bir sahəni əhatə edən xalis inhisarçı şirkətin

tələb əyrisi, bazarın tələb əyrisinə bərabər olacaqdır. Lakin bazarın tələb əyrisi xalis elastik olmadığından, xalis inhisarçı şirkətin məhsuluna olan tələb aşağıya düşməyə doğru meyl edəcəkdir.

Aşağıda verilən cədvəlin xalis inhisarçılığın satış məbləği və xərcləri 3 mühüm nəticəyə gəlməyə imkan verir: a) şirkətin müəyyən etdiyi qiymət, onun son hədd gəlirini ötür, yəni qiymət son hədd gəlirindən yüksəkdir; b) məhsulun həcmi və onun qiymətinə tam nəzarət edən xalis inhisarçı şirkət, dolayı yollarla qiyməti müəyyən etdiyindən, həmin sahədə qiymət liderinə çevrilir; c) xalis inhisarçı şirkət, bazarda tələbin elastik xarakter daşımasında maraqdır, çünki qeyri-elastik tələb şəraitində şirkət yalnız öz istehsal həcmini ixtisar etmək hesabına ümumi xərclərini aşağı sala və məhsul satışından əldə etdiyi ümumi gəlirini artıra bilər.

Tələb, son hədd gəliri və şirkətin ümumi gəlirinin dəyişmə dinamikasını aşağıda verilən qrafik təsvirdən görmək olar:




a) Tələb və son gəlir əyrisi. MR – son hədd gəliri: D – tələb əyrisi




b) Ümumi gəlir əyrisi. TR – ümumi gəlir əyrisi

Xalis (mütləq) inhisarçının satış məbləği və xərcləri

| Satış məbləği | | | | Xərclər | | | |
|---|---|---|---|---|---|---|---|
| **İstehsal həcmi (ədəd)** | **Qiymət orta gəlir (manat, dollar)** | **Ümumi məbləğ (manat, dollar)** | **Son hədd satış məbləği (manat, dollar)** | **Orta ümumi xərclər (manat, dollar)** | **Ümumi xərclər (manat, dollar)** | **Son hədd xərcləri (manat, dollar)** | **Mənfəət (+) Yaxud zərər (-) (manat, dollar)** |
| 0 | 172 | 0 | | - | 100 | - | -100 |
| 1 | 162 | 162 | 162 | 190,00 | 190 | 90 | -28 |
| 2 | 152 | 304 | 142 | 135,00 | 270 | 80 | +34 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 3 | 142 | 426 | 122 | 113,33 | 340 | 70 | +86 |
| 4 | 132 | 528 | 102 | 100,00 | 400 | 60 | +128 |
| 5 | 122 | 610 | 82 | 94,00 | 470 | 70 | +140 |
| 6 | 112 | 672 | 62 | 91,67 | 550 | 80 | +122 |
| 7 | 102 | 714 | 42 | 91,43 | 640 | 90 | +74 |
| 8 | 92 | 736 | 22 | 93,75 | 750 | 110 | -14 |
| 9 | 82 | 738 | 2 | 97,78 | 880 | 130 | -142 |
| 10 | 72 | 720 | -18 | 103,00 | 1.030 | 150 | -310 |

Bu cədvəl və qrafik təsvirlərdən aydın olur ki, xalis inhisarçı şirkətin (sahənin) tələb əyrisi, bazar tələb əyrisinə uyğun olub, ekvivalentdirlər. Lakin bazar tələbi əyrisi xalis elastik olmadığından, xalis inhisarçının məhsuluna olan tələb aşağıya düşəcəkdir. Bunu bazar münasibətləri iqtisadi sistemində fəaliyyət göstərən əmtəə-xidmətlərin tədricən ***faydalılığının*** azalması qanunu tələb edir. Beləki, bazarda həlledici mövqe tutan xalis inhisarçı şirkət yaxud sahə, müəyyən bir şərti bolluq yarandıqdan sonra istehsal etdiyi mobil telefonun, televizorun, kompüterin, mebelin qiymətini aşağı salmalıdır. Başqa bir variant isə istehsalın həcmini dəyişdirməkdir. Belə bir vəziyyətdə xalis inhisarçı şirkət (sahə) istehsalın həcmi ilə hər məhsul vahidinin qiyməti arasında elə bir optimal variant tapmalı və kombinasiya qurmalıdır ki, özü üçün mənfəət təmin edə bilsin.

Cədvəldə həmin optimal variant məhsul istehsalı həcminin 5 vahidi, qiymətin 122 manat (dollar), son satış (hər əlavə məhsul vahidi qiyməti) həddinin 82 manat (dollar), orta ümumi xərclərin 470 manat (dollar), son hədd (hər əlavə məhsul vahidi üçün) xərclərinin 70 manat (dollar), orta ümumi xərclərin 94 manat (dollar), mənfəətin 140 manat (dollar) səviyyəsində müəyyənləşmişdir.

Qrafik təsvir (a) göstərir ki, xalis inhisar şəraitində son ***gəlir həddi əyrisi*** (MR), ***tələb əyrisindən*** (D) aşağı olduqda, şirkət məhsulunu nisbətən yüksək qiymətə satacaq, lakin məhsul həcmini azaldacaqdır. Ümumi gəlir (TR) əyrisi isə tədricən yüksələrək (b) maksimum həddə çatdıqdan sonra aşağı düşməyə başlayacaqdır.

Xalis inhisarçı rəqabət şəraitində şirkət (sahə) əmtəə-xidmətlər satışında ***qiymət diskriminasiyası siyasətindən*** (ayrı-seçkilik, fərqli yanaşma üsullarından) istifadə edir. Bu siyasət eyni bir əmtəə yaxud xidmətin alıcılara müxtəlif qiymətlərə satışını nəzərdə tutur.

Qiymət diskriminasiyası həmişə deyil, müəyyən konkret şərtlər daxilində həyata keçirilir. ***Əvvələn,*** şirkət həmin məhsul istehsalı üzrə bazarda inhisarçı mövqe tutmalı və həlledici rol oynamalıdır. ***Sonra,*** satış bazarı müxtəlif təbəqələr, imkanlı və imkansız alıcılar qrupunu fərqləndirməyi bacarmalı yaxud seqmentləşdirməlidir. ***Nəhayət,*** şirkətin fərqli (nisbətən ucuz) qiymətə reallaşdırdığı malların yenidən satışa çıxarılması, yəni əlavə gəlir mənbəyinə çevrilməsi imkanı minimum həddə endirilməli, yaxud heç olmamalıdır.

Qiymət diskriminasiyasına nümunə kimi nəqliyyat, rabitə xidməti, telefon, internet, tamaşa, əyləncə mərkəzləri, idman yarışları, restoranlardakı gecə və gündüz qiymətləri arasındakı, mövsümə, yaşa, ictimai qrupa mənsubluğa görə fərqləri göstərmək olar. Nəqliyyatda yük və sərnişin daşınmalarında, iş adamları və turistlərin, böyüklərin və uşaqların bilet qiymətlərində; elektrik enerjisinin istehsalat və məişətdə istifadəsindən asılı olaraq tarif dərəcələrində fərqlər tətbiq olunur.

Bu siyasət nəticəsində, fərqli qiymətlərdən asılı olmayaraq, son nəticə etibarilə xalis inhisarçı şirkətin gəliri artmalı və onun məhsul istehsalı, habelə göstərdiyi xidmətlərin

həcmi genişlənməlidir. Deməli, qiymət diskriminasiyası siyasəti özünməqsəd olmayıb, inhisarçı şirkət və sahənin daha yüksək mənfəət əldə etmək yolunda faydalandığı vasitələrdən biridir.

Bəzən beynəlxalq iqtisadi-ticarət əlaqələrində də qiymət diskriminasiyasından istifadə olunur ki, buna ***demping siyasəti*** deyilir. Həmin siyasətin məqsədi, ilk mərhələdə gəlir-mənfəət əldə etmək yox, bazara daha ucuz qiymətə məhsullar çıxarmaqla, öz rəqiblərini sıxışdırmaq və mövqeyini möhkəmlətməkdir. Məsələn, Yaponiyada istehsal olunan avtomobil və elektron məhsulları, Cənubi Koreya televizor və məişət avadanlıqları, Çin oyuncaqları və paltarları, Hindistan sənətkarlıq və zinyət əşyaları, Fransa ətriyatı, İtaliya ayaqqabıları dünya bazarlarında daxili bazara nisbətən daha aşağı qiymətlərlə satışa çıxarılır. Şübhəsiz, bu hal müvəqqəti bir xarakter daşıyır, müəyyən vaxt keçdikdən sonra iqtisadi, hətta siyasi səbəblərlə bağlı olan həmin tədbirlər sistemi aradan götürülür.

Qeyd etmək zəruridir ki, inhisarların və xüsusilə xalis inhisarçı şirkətlərin, sahələrin fəaliyyəti ictimaiyyət, habelə mütəxəssislər tərəfindən birmənalı qarşılanmamış, hətta cəmiyyətdə ciddi narazılıq dalğası yaratmış, hay-küylü məhkəmə prosesləri (1911-ci ildə ABŞ-da «Standart Oyl» kampaniyasının, 2001-ci ildə «Mikrosoft» korporasiyasının) keçirilmişdir. Hazırda da, müxtəlif narazılıq səslərinə, etirazlara, məhkəmə proseslərinə baxmayaraq, xalis inhisar modeli geniş yayılmasa belə, o rəqabət bazarında fəaliyyət göstərməkdədir.

Bu tipli şirkət və sahələrin istər daxili bazarda, istərsə də beynəlxalq aləmdə trans milli korporasiyaların (TMK) timsalında fəaliyyəti, bizim günlərimizdə də müxtəlif mövqelərdən qiymətləndirilir.

İlk baxışda xalis inhisarçı şirkətin fəaliyyətinin yalnız onun özü üçün gəlirli olması fikri, hamı tərəfindən qəbul oluna bilər və bu təbiidir. Əks halda düşünülə bilər ki, həmin şirkətin müflisləşməsi və öz fəaliyyətini dayandırması baş verərdi. Müxtəlif ölkələrin təsərrüfat həyatı təcrübəsi belə misallarla zəngindir.

Müasir iqtisadi inteqrasiya və qloballaşma şəraitində, xalis inhisarçılıq fəaliyyətinin səmərəliliyinə gəldikdə, bu prosesin müsbət cəhətləri ilə ziddiyyətli tərəfləri, təkcə mütəxəssislər arasında deyil, bir qrup yüksək inkişaf etmiş ölkələrlə, inkişaf etməkdə olan, habelə postsovet-postsosialist ölkələri arasında da müəyyən problemlər yaradır.

Xalis inhisarçılıq fəaliyyətinin yeni texnika-texnologiyaların tətbiqi, iş yerlərinin yaradılması, xaricə kapital axını kimi müsbət cəhətlərini göstərən **C.K.Helbreyt, J.Şumpeter,** ümumiyyətlə bu prosesin gedişini, nəticələrini yüksək qiymətləndirmişlər. Əksinə, **X.Leybenstayn, A.Harberqer** və başqa iqtisadçılar xalis inhisarların fəaliyyətini tənqid edərək, onları sağlam rəqabət prinsiplərini pozmaqda, məhsulun qiymətini yüksəltməkdə, əhalinin alıcılıq qabiliyyətini nəzərə almamaqda, bəzən texniki yeniliklərə, mütərəqqi texnologiyalara laqeydlik göstərməkdə, hətta bunların qarşısını almaqda günahlandırmışlar. Onların fikrincə, inhisarçı şirkətin hərəkətləri bütövlükdə cəmiyyətə iqtisadi ziyan vurur və həmin hadisə «x – qeyri-səmərəliliyi» kimi səciyyələndirilməlidir.

Bu hadisə o zaman baş verir ki, istehsalın müəyyən həcmi üçün ***faktiki, real xərclər, mümkün zəruri xərclərin minimum*** həddindən çoxdur, yəni:

$$\text{Faktiki xərclər} > \text{Minimum xərclər}$$

**13.5.** Təbii inhisar – istehsalın miqyas, həcm, sahə, texniki-texnoloji xüsusiyyətlərinə görə rəqabətin özünü doğrultmadığı, yaxud məqsədəuyğun hesab edilmədiyi və bazarın

əmtəə-xidmətlərə olan tələbatının minimum xərclərlə başa gəlməsini təmin edən inhisarçı təsərrüfatçılıq fəaliyyəti formasıdır.

Təbii inhisar anlayışı ilk dəfə 1838-ci ildə fransız iqtisadçısı A.Kurno tərəfindən elmi dövriyyəyə daxil edilmişdir. Bu sözün hərfi mənası – ictimai, yəni dövlət təminatlı xidmətlər göstərilməsi və məhsullar istehsalının, cəmiyyətin müxtəlif təyinatlı tələbatlarının ödənilməsinə yönəldilməsidir.

Müasir iqtisadi inteqrasiya və qloballaşma proseslərinin genişlənib-dərinləşdiyi bir şəraitdə, müxtəlif ölkələrin təsərrüfat həyatında, həm dövlət mülkiyyətində, həm də xüsusi (səhmdar, korporasiya) mülkiyyətdə olan təbii inhisarlar fəaliyyət göstərirlər. Onların çoxcəhətli fəaliyyəti ölkənin müvafiq qanunları və dövlətin iqtisadi tənzimləmə tədbirləri vasitəsilə həyata keçirilir.

Dünya təsərrüfat həyatı təcrübəsi sübut edir ki, təbii inhisarlara cəmiyyət üçün sosial əhəmiyyətə malik, ictimai istifadədə olan, xüsusi və dövlət mülkiyyətindəki ***energetika, qaz-yanacaq, su təchizatı, kanalizasiya sistemi, dəmir yolu nəqliyyatı, metro, müxtəlif təyinatlı yeraltı-yerüstü kəmərlər, rabitə-poçt xidməti, telefon, kabel televiziya şəbəkəsi*** və sairə daxildir.

«Təbii inhisarlar haqqında Azərbaycan Respublikasının Qanunu»nda, ölkənin təsərrüfat həyatının müxtəlif sahələrində fəaliyyət göstərən təbii inhisarlar müəyyənləşdirilmişdir.

Təbii inhisarın təsərrüfat həyatında fəaliyyətini şərtləndirən səbəblər aşağıdakılardır:

a) dünyanın müxtəlif ölkələrində, o cümlədən də Azərbaycan Respublikasında, müəyyən istehsal-xidmət sahəsinin bir şirkət (birlik) bazasında, daha az xərclərlə, konkret ərazidə, tələb olunan həcmdə və səviyyədə fəaliyyətinin daha səmərəli təşkilinin mümkün olması;

b) təbii inhisarların məhsul istehsalı və xidmətlər göstərməsi (satışı) həcminin, həmin sahənin texniki-texnoloji xüsusiyyətləri nəzərə alınmaqla, minimum xərclərlə fəaliyyətinə imkan yaratması;

c) təbii inhisarların fəaliyyət göstərdiyi istehsal-xidmət sahələrində, bazar münasibətləri iqtisadi sisteminə xas olan rəqabət mübarizəsinin, son iqtisadi-sosial nəticələr baxımından məqsədəuyğun və səmərəli sayılmaması;

d) təbii inhisarların fəaliyyətinin məhdudlaşdırılması, yaxud qadağan olunması xəttinin, iri məbləğdə investisiyalarla bağlı olub, həmin sahələrin maddi-texniki bazasının, texnologiyasının, infrastrukturunun yenidən qurulması prosesinin zəruriliyi.

Bu səbəb və özünəməxsus cəhətlər, təbii inhisarların ölkənin təsərrüfat həyatındakı zəruriliyini şərtləndirməklə yanaşı, eyni zamanda onların işinə təkcə ***iqtisadi göstəricilər baxımından deyil, həm də sosial-iqtisadi, habelə milli iqtisadiyyatın təhlükəsizliyi*** meyarları nöqteyi-nəzərindən yanaşılsa, bu mühüm istiqamətdə dövlət tənzimlənməsini irəli sürür. Çünki dövlət tənzimlənməsi, təbii inhisarların fəaliyyətində nəzərə çarpan və yüksək mənfəət əldə etmək məqsədilə qiymətlərin formalaşmasında, inhisarçılara göstərilən xidmətlərin keyfiyyətində, vaxt amili hesabına «qənaət rejimi» tətbiq etməkdəki «kölgəli cəhətlərinin, nöqsanlarının» aradan qaldırılmasında mühüm rol oynayır.

Bazar münasibətləri şəraitində təbii inhisarlarla onun istehsal-xidmət təyinatlı məhsullarının çoxsaylı istehlakçıları arasında balanslaşdırılmış vəziyyət yaratmaq, səmərəli və ədalətli tarif dərəcələri müəyyənləşdirmək, istehsal xərclərini minimum həddə

saxlamaq, maliyyə şəffaflığına nail olmaq, investisiyaların səmərəliliyini yüksəltmək, normal rentabelliyi təmin etmək, müəyyən rəqabət ünsürləri mühiti yaratmaq baxımından bu sahədə dövlət tənzimlənməsinin həyata keçirilməsi, onun ***iqtisadi, inzibati, təşkilatı*** metodlarından düzgün, milli iqtisadiyyatın gələcək perspektivlərinə uyğun istifadə olunması zəruridir.

Nəzərə almaq lazımdır ki, təbii inhisarların fəaliyyət göstərdikləri istehsal-xidmət sahələrinin iri miqyasları və texniki-texnoloji xüsusiyyətləri ilə bağlı böyük xərclər, xeyli ilkin kapital qoyuluşları tələb edir. Aydındır ki, hətta istəsə də hər hansı bir sahibkar, yaxud şirkət bu işlə məşğul ola bilmir. Eyni zamanda təbii inhisarçıların fəaliyyət göstərdikləri sahələrin son hədd, yəni əlavə hər məhsul vahidi istehsalına sərf etdikləri xərclər xeyli aşağıdır, azdır. Deməli, ilk mərhələdə böyük məbləğdə kapital qoyuluşları sərf etmiş təbii inhisarlar, sonralar istehsalın həcmini artırmaq, əlavə məhsul-xidmətlər buraxılışı hesabına daha səmərəli iqtisadi nəticələrə nail olmaq imkanlarına malikdirlər. Beləki, tədricən təbii inhisarların orta xərcləri, digər şirkətlərlə müqayisədə, dönmədən aşağı düşməyə doğru meyl edəcəkdir. Bunu aşağıdakı qrafik təsvirdən görmək olar.




Burada P – tənzimlənən qiymət; $P_m$ – təbii inhisarın müəyyənləşdirdiyi tarazlı qiymət; D – məhsul və xidmətlərə olan tələb əyrisi; AC – orta xərclər əyrisi; MC – son hədd xərcləri əyrisi; MR – son hədd gəlirdir.

Qrafik təsvirdən aydın olur ki, təbii inhisarların son hədd xərcləri əyrisi (MC) orta istehsal xərcləri əyrisindən (AC) aşağıdan keçdiyindən, MC ilə MR (son hədd gəlir əyrisi) kəsişmə nöqtəsi onların tarazlığını göstərir. Bu tarazlığın pozulması iqtisadi resursların bölgüsü və ictimai sərvətin istifadəsi baxımından cəmiyyət üçün səmərəli olmadığından, dövlət bu prosesləri müxtəlif metodlarla tənzimləyir.

İqtisadiyyatın dövlət tənzimlənməsinin ilk addımları hələ XIX əsrin 80-ci illərində ABŞ-da atılmış, sonralar XX əsrin əvvəllərindən, xüsusilə 1929-1933-cü illərin dünya iqtisadi böhranından sonra Avropa ölkələrində də geniş yayılaraq, müxtəlif inkişaf mərhələləri keçmişdir. Ümumiyyətlə inhisarların, xüsusilə təbii inhisarların maliyyə-təsərrüfat fəaliyyətinin, qiymət-tariflər sisteminin dövlət tərəfindən tənzimlənməsi üçün ölkədə müvafiq hakimiyyət orqanları (strukturları), məhkəmələr, müxtəlif federal kommisiyalar işləyirlər.

XX əsrin 60-70-ci illərində dünya və ABŞ iqtisadiyyatında baş vermiş enerji böhranı, habelə yeni texnoloji rejimlərə keçidlə bağlı kəmiyyət-keyfiyyət dəyişiklikləri, dövlət tənzimlənməsi proseslərinə daha ciddi diqqət yetirilməsini tələb etmişdi. O dövrdə ABŞ-da iqtisadiyyatın dövlət tənzimlənməsi əvvəllərə nisbətən geniş miqyas alaraq, ölkənin ümumi daxili məhsulunun (ÜDM) 24 faizini təşkil edən istehsal-xidmət təyinatlı müxtəlif sahələri əhatə etmişdi. Sonralar bu göstərici aşağıya düşməyə doğru meyl etmişdir. XXI əsrin ilk onilliyində ABŞ-ın ümumi daxili məhsulunda təbii inhisarların xüsusi çəkisi təxminən 4-7 faizdir.

Qərbi Avropa ölkələrində təbii inhisarların fəaliyyətinin dövlət tənzimlənməsi prosesi, Birləşmiş Ştatlardan fərqli prinsiplər əsasında qurulmuşdur. Bu ölkələrdə təbii inhisarlar dövlət və yerli bələdiyyə orqanlarının tabeliyində olan müəssisələr (şirkətlər) kimi ***ictimai mülkiyyət*** sayıldığından, onların fəaliyyətinin tənzimlənməsi ilə məşğul olan xüsusi qurumların yaradılmasına ehtiyac qalmamışdır. Ona görə də Avropanın İngiltərə, Almaniya, İtaliya, Fransa kimi bir sıra ölkələrində, təbii inhisar sahələrinin milliləşdirilməsi və deprivatizasiyası (əks özəlləşdirilməsi), yəni təzədən dövlətə, yaxud ictimai (bələdiyyə) mülkiyyətinə qaytarılması yolu seçilmişdi. Avropanın İsveçrə, Danimarka, Avstriya, Belçika kimi ölkələrində isə istehsal xidmət dairəsinin bəzi sahələri dövlət mülkiyyətində qalmaqla, onların müəyyən hissəsinin istifadəsi, ayrı-ayrı sahibkarlara və şirkətlərə verilmişdir. Çin Xalq Respublikasında da, dövlət mülkiyyətində olan müxtəlif sahələrin, yaxud həmin sahələrin ayrı-ayrı obyektlərinin xüsusi sahibkarlara və şirkətlərə müəyyən şərtlər əsasında istifadəyə verilməsi təcrübəsi geniş yayılmışdır. Rusiyada isə son dövrlərdə təbii inhisarların parçalanaraq (bölünərək) ayrı-ayrı sahibkarlara, şirkətlərə, o cümlədən xaricilərə satılması yolunun seçilməsi, ictimaiətdə narazılıq yaradır.

Ötən əsrin 70-ci illərindən təbii inhisarların fəaliyyəti, onların istehsal etdikləri məhsulların qiyməti, göstərdikləri xidmətlərin tarif dərəcələri, xərcləri, keyfiyyət göstəriciləri, həcmi, vaxt məsələləri ictimaiyyət arasında narazılıq yaratdığından, dövlətlə bu tipli şirkətlər arasında formalaşmış münasibətlərin təkmilləşdirilməsi irəli sürülmüşdü. Müxtəlif ölkələrin, ilk növbədə ABŞ və İngiltərənin iqtisadi siyasət xəttində ***monetarizm (reyqanomika), liberalizm (tetçerizm)*** meyllərinə üstünlük verildiyindən, təbii inhisarların fəaliyyətinin dövlət tənzimlənməsi mexanizmi xeyli təkmilləşdirilmişdir.

Təbii inhisarların istehsal-xidmət təyinatlı fəaliyyətlərinin dövlət tənzimlənməsinin ən mürəkkəb və mübahisələr doğuran məsələsi, onların istehsal etdikləri məhsulların, habelə göstərdikləri xidmətlərin satış qiymətləri, tarifləridir. Bu şirkətlərin qiymətlərinin formalaşmasının əsasında, istehsalın səmərəlilik prinsiplərini pozmadan, istehlakçıların və bütövlükdə cəmiyyətin tələb-maraqlarının təmin edilməsi durur.

Lakin bu optimal səviyyəyə çatmaq və uyğun variantlar tapılması yolları, şübhəsiz bir sıra çətinliklərlə, o cümlədən istehsal xərclərinin aşağı salınması, qiymətlərin orta və son hədd xərcləri ilə uzlaşdırılması, həddsiz mənfəət əldə etmək meyllərinin qarşısının alınması, müəyyən normal tariflər çərçivəsində istehlakçıların tələblərinin fasiləsiz, habelə keyfiyyət standartlarına uyğun ödənilməsi problemləri ilə bağlıdır.

Dünya təcrübəsində təbii inhisarların məhsul və xidmətlərin qiymətlərinin (tariflərinin) müəyyənləşdirilməsinin dövlət tənzimlənməsinin müxtəlif variantları işlənib hazırlanmış, habelə ayrı-ayrı sahələrin konkret xüsusiyyətləri nəzərə alınmaqla tətbiq olunmuş, istifadə edilmişdir. Həmin variantlar arasında: a) maksimum inhisar qiyməti; b) ədalətli (normal rentabellik səviyyəsində) gəlir qiyməti; c) optimal sosial (cəmiyyət üçün səmərəli) qiymət mühüm yer tutur.

Aşağıda verilmiş qrafik təsvirdə bu 3 qiymət (tarif) varıantlarının mahiyyəti və qarşılıqlı müqayisəli nisbətləri aydınlaşdırılmışdır:

Burada $P_m$ – maksimum inhisar qiyməti$P_f$; – ədalətli gəlir qiyməti; $P_r$ – optimal sosial qiymət; D – tələb; ATC – orta ümumi xərclər; MC – son hədd xərcləri; MR – son hədd gəlirdir.

**Təbii inhisarların qiymətləri, xərcləri və istehsal həcmi**




Təbii inhisar şəraitində, şirkətin məhsul və xidmətlərə maksimum inhisar qiyməti, onun özü tərəfindən bütün xərclərini və mənfəət normasını nəzərə almaqla müəyyənləşdirilə bilər.

Ədalətli gəlir qiyməti orta ümumi xərclər ($P_f$=ATC) və optimal sosial qiymət isə son hədd xərcləri ($P_r$=MC) nəzərə alınmaqla müəyyənləşdirilir. Kəmiyyət və nisbət baxımından, inhisar qiyməti ədalətli gəlir qiymətindən, bu qiymət isə optimal sosial qiymətdən böyükdür, yəni:

$P_m > P_f > P_r$ yaxud: $P_r < P_f < P_m$

Təbii inhisarların cəmiyyətin strateji məqsədlərinə xidmət etdiyini və onların istehsal-xidmət təyinatlı fəaliyyətlərinin müxtəlif istehlakçılar üçün zəruriliyini nəzərə almaqla yanaşı, həmin tipli şirkətlərin, sahələrin antiinhisar qanunları, normativ aktlar, vergi-gömrük sistemi, habelə yeri gəldikdə inzibati-təşkilatı metodlarla dövlət tərəfindən tənzimlənməsi prosesi, müasir təsərrüfat həyatının mühüm şərti, tələbidir.

# Mövzu 14. İnhisarçı rəqabət və oliqopoliya rəqabəti

**14.1** İnhisarçı rəqabətin mahiyyəti və əlamətləri
**14.2** İnhisarçı rəqabət şəraitində qiymət və məhsul həcmi
**14.3** İnhisarçı rəqabət və səmərəlilik
**14.4** Olipoliya anlayışının mahiyyəti, fəaliyyət dairəsi və əlamətləri
**14.5** Oliqopoliyanın müxtəlif modelləri
**14.6** Oliqopoliyalar və cəmiyyət

**14.1.** Müasir bazar münasibətləri iqtisadi sistemi azad (mükəmməl, sərbəst) rəqabət və mütləq (xalis) inhisar qütbləri arasında yerləşib, vaxtaşırı iki kənar həddlərə meyl etsə də, lakin real həyat əslində qeyri-mükəmməl rəqabətin ***inhisarçı modelinin*** həlledici rol oynadığını göstərir.

***İnhisarçı rəqabət*** – bir sıra şirkətlərin oxşar, lakin eyni olmayan, müəyyən xüsusiyyətlərinə görə fərqli məhsul-xidmətlər istehsalı və satışı bazarıdır. Bu model bəzi cəhətlərinə görə sərbəst rəqabətə bənzəsə də, lakin öz mahiyyətinə və səciyyəvi xüsusiyyətlərinə görə həmin modeldən prinsipal surətdə seçilir. İnhisarçı rəqabət modelinin xarakterik xüsusiyyətləri kimi aşağıdakıları qeyd etmək olar:

- bazarda bir-biri ilə rəqabət aparan və müəyyən alıcı qruplarını özünə cəlb edən xeyli şirkət, habelə çoxsaylı satıcıların olması;
- müxtəlif istehsal-satış şirkətlərinin məhsul və xidmətlərinin eyni adlı (çörək, avtomobil, mebel) olmasına baxmayaraq, onların keyfiyyət, müddət və dizayn xüsusiyyətlərinə görə standart deyil, fərqli göstəricilər, parametrlər üzrə hazırlanıb reallaşdırılması;
- bazarda rəqabət aparan çoxsaylı istehsal-satış şirkətlərinin olması və onların hər birinin xüsusi çəkisinin ümumi həcmdə az yer tutması, qiymətlərə təsir göstərməyə imkan vermir;
- bazara daxil olmaq, orada fəaliyyət göstərmək və istənilən vaxt bazarı tərk etmək üçün maneələr azdır;
- inhisarçı rəqabət bazarında fəaliyyət göstərən istehsal-satış şirkətləri, məhsulun həcminin və qiymətinin müəyyənləşdirilməsində sərbəstdirlər.
- inhisarçı rəqabət şəraitində fəaliyyət göstərən şirkətin əmtəə-xidmətlərinə olan tələb əyrisi, xalis rəqabət mühitində fəaliyyət göstərən şirkətin tələb əyrisindən az elastik, lakin ümumiyyətlə inhisarçı (xalis və oliqopoliya) rəqabət bazarında fəaliyyət göstərən şirkətin tələb əyrisindən daha elastikdir.

Hazırda bazar münasibətləri iqtisadi sistemi, inhisarların ***qiymət, istehsal həcmi, keyfiyyət, dizayn xüsusiyyətləri, alıcılara mədəni xidmət göstərilməsi, reklam təbliğatı*** kimi sahələrdə apardıqları kəsgin rəqabət mübarizəsi şəraitində davam edir.

İnhisarçı rəqabət şəraitində bazarda sərbəst rəqabət mühitində olduğu kimi saysız-hesabsız, yaxud xalis inhisar şəraitindəki kimi tək bir hakim şirkətin ağalığı hökum sürmür. Müasir vəziyyət, müxtəlif rəqabət forma və tiplərinin fəaliyyət göstərdiyi ***qarışıq bazar modeli*** kimi xarakterizə olunsa da, lakin bu sistemdə inhisarçı rəqabət həlledici rol oynayır. Həmin kəsgin rəqabət və «olum ya ölüm!» mübarizəsinin əsas iştirakçılarının sayı isə milli iqtisadiyyatın həcmindən, onun quruluş xüsusiyyətlərindən, beynəlxalq əmək bölgüsü və xarici iqtisadi-ticarət əlaqələrindən asılı olaraq, 15-70 arasında ola bilər. Optimal variant

kimi konkret istehsal-xidmət sahələrində, inhisarların səmərəli fəaliyyətini təmin etmək üçün onların sayının 10 şirkət çərçivəsində məhdudlaşdırmağı irəli sürən fikirlər də vardır.

Aşağıdakı cədvəldə son dövrdə ABŞ iqtisadiyyatının müxtəlif sahələrində inhisarların mövqeyi və rolu öz əksini tapmışdır.

**XX əsrin sonu – XXI əsrin əvvəlində**
**ABŞ iqtisadiyyatında inhisarların mövqeyi**

| Sıra №-si | Sahələr | 4 iri şirkət (faizlə) | 8 iri şirkət (faizlə) | 20 iri şirkət (faizlə) |
|---|---|---|---|---|
| 1 | Kişi və uşaq kostyumları | 34 | 47 | 64 |
| 2 | Kitab nəşri | 24 | 38 | 62 |
| 3 | Yumşaq mebel | 26 | 37 | 52 |
| 4 | Karton qablaşdırıcılar | 24 | 28 | 45 |
| 5 | Xəzdən hazırlanmış məmulatlar | 16 | 24 | 39 |
| 6 | Qadın və qız paltarları | 14 | 23 | 39 |
| 7 | Dəmir qapılar | 13 | 19 | 33 |
| 8 | Taxtadan hazırlanmış mebel | 20 | 29 | 43 |
| 9 | Dəmir yığma konstruksiyalar | 27 | 40 | 58 |
| 10 | Avtomobil istehsalı | 84 | 92 | 99 |
| 11 | Zərgərlik məmulatları | 13 | 27 | 44 |
| 12 | Siqaretlər | 99 | 100 | - |
| 13 | Sabun və təmizləyici vasitələr | 66 | 82 | 91 |

Müqayisəli materialların təhlili göstərir ki, müxtəlif istiqamətli istehsal-xidmət dairəsi sahələrində inhisarların mövqeyi və rolu tədricən dəyişsə də, lakin turbin generatorları, kimya sənayesi, maşınqayırma, metallurgiya, avtomobil, təyyarə, şəkər, siqaret, mebel, elektrik avadanlıqları, fotoaparatlar, şüşə qablar, zərgərlik məmulatları istehsalı, habelə satışında inhisarçılıq fəaliyyətinin səviyyəsi həmişə yüksək olmuşdur.

İnhisarçı rəqabət şəraitində fəaliyyət göstərən şirkətin və sahənin işinə müsbət təsir göstərərək, istehsalın-satışın səmərəliliyini təmin edən şərtlərlə yanaşı, bu prosesə mane olan amillər də meydana çıxa bilir. Eyni təyinatlı məhsulların, alıcı tələbatını və zövqünü təmin edən fərqli variantlarının istehsalı, yaxud düşünülmüş reklam təbliğatı şirkətin fəaliyyətinin səmərəliliyini xeyli yüksəldə bilər. Təsadüfi deyildir ki, inhisarçı rəqabət şəraitində reklam təbliğatından geniş istifadə olunur və bu işə sahənin, yaxud şirkətin konkret vəziyyəti, xüsusiyyətləri ilə bağlı gəlirlərinin orta hesabla 8-12 faizi, bəzən isə 20-25 faizi yönəldilir.

Əlbəttə, istər istehsal olunan məhsul-xidmətlərin fərqli (differensial) variantlarının bazara çıxarılması, istərsə də reklam təbliğatının aparılması, öz təyinatından uzaqlaşarsa, şübhəsiz inhisarçı şirkətə yalnız iqtisadi ziyan deyil, eyni zamanda mənəvi zərbə vuracaqdır. Buna «yalançı və aldadıcı effekt» deyilir.

Eyni zamanda inhisarçı şirkət və sahənin öz istehsal-satışı üçün zəruri sayılan xammalın, yanacağın, müxtəlif təyinatlı yardımçı materiallarının qiymətlərinin

bahalaşması, həmin bazarlarda rəqabət mübarizəsinin kəsginləşməsi, yaxud başqaları tərəfindən «ələ keçirilməsi» halları ümumi xərcləri artırdığından, həmişə olmasa da, müəyyən dövr ərzində onların səmərəli fəaliyyətinə mənfi təsir göstərəcəkdir.

Dövlətin vergi-gömrük siyasəti və onun həyata keçirilməsinə gəldikdə isə həmin tədbirlər sisteminin inhisarçı rəqabət bazarı şəraitində bir tərəfdən şirkətlərin səmərəli fəaliyyəti, digər tərəfdən isə cəmiyyət üçün sosial-iqtisadi nəticələri hərtərəfli təhlil olunaraq, düzgün nəticələr çıxarılmalıdır. Vergi və gömrük dərəcələrinin dəyişdirilməsi, kreditlər üçün bank faizlərinin enib-qalxması, inhisarçı şirkətlərin son məqsədi sayılan gəlir-mənfəət anlayışları ilə bilavasitə, yaxud dolayı yollarla sıx bağlı olduğundan, şübhəsiz həmişə müəyyən problemlər yaradır. Bu istiqamətdə ən səmərəli yol, antiinhisar qanunları bazasında rəqabət mübarizəsinə və əsl yarış mühitinə əlverişli şərait yaratmaq, dövlət tənzimlənməsi metodlarından bacarıqla faydalanmaqdır.

ABŞ-ın timsalında və bir sıra ölkələrin nümunəsində, vergilərdən narazılığın başlıca səbəbi, ***ikiqat*** yaxud ***ikili vergitutma*** siyasətidir. Bu siyasətə əsasən, həm inhisarçı şirkətin ümumi gəlirindən, həm də onun səhmlərini əldə etmiş fiziki və hüquqi şəxslərdən, yəni səhmdarlardan vergi tutulur. Məsələn, «Ceneral Motors» yaxud «Ekkson» şirkətləri, həm öz ümumi gəlirlərinin 35 faizi həcmində korporasiyalar üçün müəyyən olunmuş vergini ödəyir, həm də onun səhmdarları əldə etdikləri dividendlərdən öz ümumi gəlirlərinin tərkib hissəsi kimi ilin sonunda, deklarasiya əsasında müəyyən məbləğdə vergi ödəməlidirlər.

**14.2.** İnhisarçı rəqabət şəraitində fəaliyyət göstərən istehsalçı-satıcı şirkətin məhsul və xidmətlərinə olan ***bazar tələbi,*** müxtəlif səbəblər (alıcı zövqü, qiymət amili, eyni adlı fərqli məhsulların satışa çıxarılması, bazara yeni rəqiblərin daxil olması, reklam təbliğatı) üzündən həmişə dəyişə bilir. İdman malları və paltarları, diş pastaları, yuyucu və təmizləyici tozlar, ətriyyat və kosmetik məhsullar bazarında belə hallarla rastlaşmaq mümkündür.

Deməli, obyektiv-subyektiv səbəblərlə bağlı inhisarçı rəqabət bazarında, konkret bir şirkətin məhsul və xidmətlərinə olan alıcı tələbinin dəyişməsi nəticəsində, o ***elastik xarakter*** daşıyır. Lakin inhisarçı rəqabət şəraitində fəaliyyət göstərən şirkətin məhsullarına olan tələb əyrisi, azad (mükəmməl, sərbəst) rəqabətdəkindən az elastik və mütləq rəqabət mühitindən daha çox elastik olacaqdır.

İnhisarçı rəqabət şəraitində ***tələb əyrisinin*** həm sərbəst, həm də mütləq rəqabət bazarı mühitindəki tələb əyrilərindən fərqlənməsi yaxud elastiklik səviyyəsi, ilk növbədə burada eyni adlı məhsul-xidmətlərin müxtəlif variantlarının, fərqli modellərinin olması ilə bağlıdır. Xeyli şirkətin iştirak etdiyi inhisarçı rəqabət bazarının bu cəhəti və əlaməti, tələbin həssaslığına, habelə tələb əyrisinin elastiklik səviyyəsinə öz təsirini göstərir.

Doğrudur, eyni təyinatlı lakin fərqli məhsul istehsalı, konkret inhisarçı şirkəti müəyyən müddətə ***mütləq inhisarçı*** səviyyəsinə yaxınlaşdırsa da, lakin burada çoxsaylı şirkətlərin fəaliyyəti tələb əyrisinin elastiklik meylini dəyişəcəkdir. Beləliklə, inhisarçı rəqabət şəraitində bazarda tələb əyrisi, mütləq rəqabət bazarındakından daha çox elastik və sərbəst (mükəmməl) rəqabət bazarındakından daha az elastik olacaqdır. Bu mənada, inhisarçı rəqabət bazarında formalaşan tələb əyrisi yüksək dərəcədə elastiklik səviyyəsinə yaxınlaşsa da, heç vaxt tam elastik ola bilməyəcəkdir. Çünki, inhisarçı rəqabət şəraitində şirkətin rəqiblərinin sayı xeyli azdır və onların istehsal-satış məhsullarının eyni adlı olmasına baxmayaraq, təyinatları başqadır.

İnhisarçı rəqabət şəraitində nisbi müstəqilliyə malik şirkətlər eyni adlı, lakin fərqli çeşiddə məhsul istehsalı və satışı ilə məşğul olduqlarından, ***qiymət diskriminasiyası*** (ayrı-seçgilik) siyasətindən 3 istiqamətdə faydalanırlar. ***Birinci halda,*** inhisarçı rəqabət şirkəti öz məhsul və xidmətlərini müxtəlif fiziki-hüquqi şəxslərə ayrı-ayrı qiymətlərlə satır. ***İkinci halda,*** şirkət topdan satış ticarəti üçün müəyyən güzəştli qiymətlər tətbiq edir. ***Üçüncü halda,*** şirkət müxtəlif müştərilərə (təqaüdçülərə, əlillərə, tələbələrə) məhsullarını əvvəlcədən müəyyənləşdirilmiş və eyni güzəştli qiymətə satır.

İnhisarçı rəqabət bazarında hər hansı bir şirkətin məhsulunun həcmi ilə onun qiymətinin müəyyənləşdirilməsini, yaxud həmin kəmiyyətlərin tarazlığını, həm ***qısamüddətli,*** həm də ***uzunmüddətli*** dövr baxımından təhlil etmək olar.

Qısamüddətli dövrdə, inhisarçı şirkət, qiymətlə istehsal həcminin elə bir variantını tapmağa çalışacaqdır ki, onun xərcləri aşağı düşsün və mənfəəti yüksəlsin. Bu halda şirkətin son hədd gəliri (MR) onun son hədd xərclərinə (MC) bərabər olmalıdır, yəni MR=MC

Aşağıdakı qrafik sxemdə (I) bu nisbət və asılılıqdan çıxaraq, inhisarçı şirkətin məhsul həcmi ($Q_1$) olmuşdur. Tələb əyrisinə uyğun olaraq inhisarçı şirkət öz məhsulu üçün $P_1$ səviyyəsində qiymət təyin edir. Həmin qiymət, inhisarçı şirkətə qrafik sxemdə rənglənmiş düzbucaqlı həcmində, yəni $[(P_1 - A_1) \times Q_1]$ mənfəət götürməyə imkan verəcəkdir.

**I Qısamüddətli dövr mənfəəti**




Deməli, inhisarçı rəqabət şəraitində konkret şirkət son hədd gəlirə bərabər olan son hədd xərcləri (MR=MC) variantını seçərək, həmin tarazlığa uyğun qiymət müəyyənləşdirmək üçün tələb əyrisindən istifadə edir. Son hədd xərcləri (MC), şirkətin orta xərclərindən (AC) artıq (çox) ola bilmədiyindən, yaxud həmin xərcləri ötmədiyindən, təbiidir ki, inhisarçı şirkət orta gəliri üstələyən ***iqtisadi mənfəət*** əldə edəcəkdir.

Qrafik təsvirdə, inhisarçı şirkətə maksimum mənfəət təmin edən MC=MR tarazlığının, yaxud qiymət və istehsal həcminin kəsişdiyi nöqtə, fransız riyaziyyatçısı, iqtisadçısı O.Kurnonun şərəfinə ***Kurno nöqtəsi*** adlandırılmışdır. Bu kəsişmə nöqtəsi (K) şirkətin hansı qiymət və həcm tarazlığında maksimum mənfəət əldə edə biləcəyini göstərir.

**II Qısamüddətli dövrdə zərər**




**III Uzunmüddətli dövr tarazlığı**




Burada, P – qiymət, Q – istehsal həcmi, $D_1 D_2 D_3$ – tələb, MR – son hədd gəliri, MC – son hədd xərcləri, ATC – orta ümumi xərclər, AC – orta xərclər, $A_1$ $A_2$ $A_3$ – xərclər, K – Kurno nöqtəsidir.

Qeyd etmək lazımdır ki, rəqabət mübarizəsinin kəsginləşməsi, tələbin azalması və istehsal xərclərinin artması nəticəsində, qısamüddətli dövr ərzində inhisarçı şirkətin mənfəəti aşağı düşsə, hətta o zərərlə işləyə bilər. Obyektiv və subyektiv səbəblərlə bağlı yaranmış belə bir vəziyyətdən çıxış yolunun ən əlverişli variantı, inhisarçı şirkətin xərclərini azaltmaq, habelə həmin xərclərin minimum həddə saxlanmasına nail olmaqdır. Şirkətin xərclərinin ən aşağı həddə saxlaması strategiyasını həyata keçirmək üçün yuxarıdakı qrafik təsvirdə (II) göstərildiyi kimi istehsal həcmini – $O_2$ (MR=MC) və qiymətləri ($P_2$) təklif əyrisi ($D_2$) ilə uyğunlaşdırıb, tarazlaşdırmaq zəruridir.

Çünki, $P_2$ səviyyəsindəki qiymət, şirkətin qısamüddətli dövr ərzindəki orta ümumi xərclərindən aşağı olduğundan, o zərərlə işləyəcək və mənfəət gətirməyəcəkdir. Həmin itgi və ziyanın kəmiyyəti isə qrafik təsvirdə rənglənmiş düzbucaqlı həcmində olacaqdır, yəni:

$$[(A_2 - P_2) \times Q_2]$$

Eyni zamanda inhisarçı şirkət yaranmış əlverişsiz şəraitdə, özünün istehsal güclərindən istifadə etməyərək, ***məhsul istehsalının həcminin azaldılması, lakin satış qiymətlərinin yüksəldilməsi*** hesabına pozulmuş tarazlığı bərpa etməyə çalışa bilər. Təəssüf ki, şirkətin müəyyənləşdirdiyi yüksək qiymət, onun son hədd xərclərini ötdüyündən bu cür vəziyyət (P>MC) cəmiyyət üçün səmərəli sayıla bilməz.

İnhisarçı rəqabət şəraitində konkret bir şirkətin istər iqtisadi mənfəəti, istərsə də ziyanı uzun zaman davam edə bilmədiyindən, problemi uzunmüddətli dövr ərzində təhlil etmək lazımdır.

***Uzunmüddətli dövr*** ərzində, inhisarçı rəqabət şəraitində fəaliyyət göstərən şirkətlərin bazar tələbinin aşağıya meyl etməsi, orta və son hədd xərclərinin artması, mənfəətin azalması, hətta müflis olması təhlükəsi yaxud hadisəsi, onların müəyyən hissəsinin bu sahəni tərk etməsi ilə nəticələnir. Eyni zamanda, inhisarçı rəqabət bazarına daxil olmaq imkanları, buradakı ***«boşluğu»*** doldurmağa, yəni kapital və digər iqtisadi resursların başqa sahələrdən buraya ***«axınına»*** şərait yaradır.

Aydındır ki, inhisarçı rəqabət bazarına daxil olan yeni şirkətlər, orada formalaşmış qiymətləri qəbul etməyə və həmin qiymətlər əsasında fəaliyyət göstərməyə məcburdurlar. Bu yeni şirkətlər eyni adlı, fərqli məhsul-xidmətlər təklif etdiklərindən, alıcıların müəyyən bir hissəsini özlərinə cəlb edirlər. Nəticədə, həmin bazarda fəaliyyət göstərən şirkətlərin inhisarçı mənfəət əldə etmək imkanları məhdudlaşır. İnhisarçı mənfəətin aşağıya meyl etməsini, yuxarıda verilən qrafik sxemdən (III) görmək olar.

Uzunmüddətli dövr ərzində bazarda inhisarçı şirkətin vəziyyəti dəyişdiyindən, son hədd gəlirin (MR), son hədd xərcləri (MC) ilə tarazlığı əsasında o, normal (orta) mənfəətlə kifayətlənməli olur:

$$P_3 = \text{MR} = \text{MC} = A_3C_3$$

Şübhəsiz, bu proses ümumi və inhisarçı rəqabət bazarında fəaliyyət göstərən bütün şirkətlər üçün ***qaçılmaz bir xarakter daşımır.*** Çünki, bu bazarda fəaliyyət göstərmək, onun istehsal-satış iştirakçısından kapital və iqtisadi resurslarla yanaşı, müəyyən dərəcədə hazırlıq, peşə-sənət qabiliyyəti, təşkilatçılıq bacarığı tələb edir. Məsələn, inhisarçı rəqabət bazarında fəaliyyət göstərən kinostudiyanın, tanınmış klinikanın, mətbəənin, həkimin, hüquq məsləhətxanasının, aktyorun, rəssamın, mühəndisin işini buna nümunə göstərmək olar.

İnhisarçı rəqabət bazarının iştirakçısı olan bəzi şirkətlər isə məşğul olduqları sahənin özünəməxsus xüsusiyyətləri ilə bağlı, onları hələ uzun müddət əvəz etmək, yaxud bu sahəyə girmək vaxt və səriştəlilik baxımından müəyyən çətinliklər yaratdığından, ***orta (normal) mənfəətlə kifayətlənməklə*** öz fəaliyyətlərini uzun müddət davam etdirə bilirlər. İri şəhərdə yerləşən rahat mehmanxana, «etibarlı» nüfuzunu qazanmış bank, dadlı yeməkləri və sərfəli qiymətləri ilə seçilən restoran, bu sahəyə yeni daxil olanlarla müqayisədə, həmişə müəyyən üstünlüklərə malik olacaqlar.

İnhisarçı rəqabət bazarına yeni daxil olmuş «gəlmə» şirkətlər isə öz mövqelərini möhkəmlətmək və rəqiblərinin arxalandıqları «köhnə sınanmış ənənələri» dəyişmək üçün qiymət güzəştlərindən başlamış fərqli məhsullar istehsalına və reklam təbliğatından faydalanmağa qədər müxtəlif qanuni, bəzən isə yolverilməz üsullardan istifadə edirlər.

Belə bir mürəkkəb və ziddiyyətli uzunmüddətli inhisarçı rəqabət şəraitində ən optimal variant normal (orta) mənfəət əldə etmək yoludur.

**14.3.** Müasir bazar münasibətləri iqtisadi sistemi şəraitində ən geniş yayılmış inhisarçı rəqabət modelinin fəaliyyəti və perspektivləri elmi dairələr, habelə ictimaiyyət tərəfindən müxtəlif mövqelərdən təhlil olunub qiymətləndirilir.

Nobel mükafatı laureatı **Milton Fridmen** (ABŞ) qeyd edir ki, cəmiyyət «3 bəladan birini seçə bilər: tənzimlənməyən xüsusi inhisarı; dövlət tərəfindən tənzimlənən inhisarı; dövlət inhisarını». Tanınmış iqtisadçı, Nobel mükafatı laureatı **Pol Samuelsonun** (ABŞ) obrazlı ifadəsincə, «inhisar ya rəqabət» qarşıdurmasında bunlardan hansının yaxşı pis olduğunu söyləmək, böyük yoxsa kiçik heyvanların daha yaraşıqlı və faydalı olmasını müəyyənləşdirməyə bənzəyir. Şübhəsiz, hər şey ayrıca ölkədən, hüquqi bazadan, konkret sahədən, şirkətdən, onların təsərrüfat həyatındakı fəaliyyətindən, iqtisadiyyatda tutduqları yerdən, antiinhisar qanunlarının tələblərinə nə dərəcədə əməl olunmasındadır.

İnhisarçı rəqabət şəraitində fəaliyyət göstərən şirkət və sahələrin işində ən çox mübahisə, habelə narazılıq doğuran cəhətlər – ***qiymət, istehsal həcmi, iqtisadi resurslardan istifadə, fərqli məhsul-xidmətlər buraxılışı, istehsal xərcləri, reklam təbliğatı*** ilə bağlıdır.

Eyni zamanda inhisarçı şirkətlərin fərqli məhsul – xidmətlər istehsalı onların keyfiyyətinin yüksəldilməsi, dizayn xüsusiyyətlərinin yaxşılaşdırılması, əhalinin tələblərini daha dolğun ödəmək səyləri, reklam təbliğatının məlumat-informasiya tipli xəbərlər yayması təcrübəsi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir.

İnhisarçı şirkətlərin fəaliyyətindən olan ən ciddi narazılıq onların qiymət siyasəti ilə bağlıdır. Mütəxəssislərin fikrincə, bu tipli şirkətlərin yüksək mənfəəti, onların müəyyənləşdirdiyi qiymətin minimum orta ümumi xərcləri ötməsi, yaxud üstələməsi hesabına əldə edilir (P>minimum ATC). Halbuki, inhisarçı rəqabət şəraitində iqtisadi səmərəliliyin təmin olunması qiymət, son hədd xərcləri və minimum orta ümumi xərclər arasında bərabərlik olmasını tələb edir (P=MC=minimum ATC). Bu nisbətin pozulması və şirkətin orta ümumi xərcləri artırması hesabəna qiymətləri qaldıraraq, yüksək inhisar mənfəəti əldə etməsi, cəmiyyət üçün səmərəli sayıla bilməz.

İnhisarçı rəqabət şəraitində müxtəlif səbəblərlə bağlı, şirkətin istehsal güclərindən, bina və avadanlıqlardan səmərəli istifadə olunmur; eyni adlı məhsulun fərqli variantlarının, məsələn dərmanların, diş pastalarının, əl-üz sabunlarının, kitabların, mətbuat vasitələrinin nəşrinə külli miqdarda iqtisadi resurslar sərf edilir; reklam təbliğatının düşünülməmiş

aparılması böyük xərclərlə bağlı olmaqla yanaşı, insanların əsəblərinə, əxlaq və tərbiyəsinə, psixologiyasına mənfi təsir göstərir.

Bazar münasibətləri və rəqabət mühitində fəaliyyət göstərən inhisarçı şirkətlərin ***qiymət, məhsul-xidmət həcmi və fərqliliyi, reklam*** kimi amillərin optimal əlaqəsini müəyyənləşdirmək səyləri real həyat, gündəlik təsərrüfat təcrübəsində o qədər də asan bir iş olmadığından, bu çətin proses müxtəlif seçimlər, səhv qərarlar, uğursuz addımlar yolu ilə irəliləyir.

Bəzən qəribə görünsə və bəyənilib-bəyənilməsə də, inhisarçı rəqabət şəraitində şirkətlərin fəaliyyətinə və dövlətin tənzimlənməsi tədbirlərinə dair elmi-nəzəri fikrin, habelə real praktikanın verdiyi əməli tövsiyyələr belədir:

- rəqabət meydanında dövlətin məhdudlaşdırıcı tədbirləri aradan qaldırılmalıdır;
- gömrük tarifləri inhisar yaratdığından onların tətbiq dairəsi tədricən məhdudləşdırılmalı, əmtəə-xidmətlərin, kapitalın, iş qüvvəsinin beynəlxalq hərəkəti intensivləşməlidir;
- milli iqtisadiyyatda xarici şirkətlərin fəaliyyətinə və rəqabət aparmasına əlverişli şərait yaradılmalıdır;
- ölkənin təsərrüfat həyatında tenderlər (müsabiqələr) keçirilməli, hərraclar və rəqabət prinsipləri əsasında açıq satışlar təşkil olunmalıdır;
- texniki və texnoloji yeniliklərin tətbiqinə geniş imkanlar yaradılmalı, onların inkişaf istiqamətlərinə, habelə meyllərinə əngəllər törədilməməlidir;
- kiçik və orta sahibkarlığa, işgüzar biznes fəaliyyətinə əlverişli imkanlar yaradılmalıdır;
- antiinhisar qanunları əsasında rəqabət mühiti formalaşdırılmalı və inhisarçı şirkətlərin bu prosesdə fəal iştirakı həvəsləndirilməlidir.

**14.4.** Bazar strukturunun ümumi tarixi inkişaf mənzərəsi nəzərdən keçirildikdə aydın olur ki, azad rəqabətdən başlayaraq, tədricən inhisarçı rəqabət, mütləq rəqabət və ***oliqonoliya rəqabəti*** mərhələlərində bu prosesin əvvəlki intensivliyi zəifləmiş, formaları isə dəyişmişdir.

Qeyri-mükəmməl bazar rəqabətinin bir forması (modeli) olan oliqopoliya, bir sıra əlamətlərinə görə xalis inhisarı xatırladır. Bazarda bir neçə iri şirkət, birlik eyni adlı yaxud oxşar tipli məhsullar üzrə istehsal – xidmət-satış dairəsində nəzarəti ələ keçirib, üstün mövqelər tutarsa, bu oliqopoliya adlanır.

***Oliqopoliya*** yunan dilindən götürülmüş bir söz olub, mənası bir neçə, azsaylı deməkdir. Oliqopoliya sözünü ingilis utopisti **Tomas Morr** (1478-1535) ilk dəfə özünün «Utopiya» əsərində ictimai-iqtisadi bir anlayış kimi işlətmişdir. Sonralar isə elmi-nəzəri dövriyyəyə tanınmış ingilis iqtisadçısı **Edvard Çemberlen** (1889-1967) tərəfindən daxil edilmişdir.

Müxtəlif ölkələrin təsərrüfat həyatında, istehsal-xidmət dairəsinin hər hansı sahəsində ***bir-neçə şirkətin həlledici rol oynaması,*** yaxud qrup halında kartel formasında birləşməsi – 2 (duopoliya) 3, 4, 6 şirkəti əhatə edə bilər. Bu tipli birliklərə nümunə kimi 5 ABŞ, 1 İngiltərə – Hollandiya şirkətlərinin təşkil etdikləri Beynəlxalq Neft Kartelini, neft ixrac edən ölkələr təşkilatını (OPEK) göstərmək olar. Ayrı-ayrı ölkələrin təsərrüfat həyatının neft-qaz, metallurgiya, maşınqayırma, kimya, avtomobil sənayesi kimi sahələrində oliqopoliyalar müxtəlif formalarda fəaliyyət göstərirlər. Məsələn, ABŞ-ın avtomobil sənayesində «General Motors», «Ford Motor» və «Daimler Chrysler» oliqopoliyaları istehsal-satış bazarının 80 faizdən çoxunu öz nəzarətlərində saxlayırlar.

Dünya ölkələrinin təcrübəsindən məlumdur ki, polad borular, mis, sink, sement, texniki spirt, elektrik avadanlıqları, yuyucu tozlar, siqaret-tütün məmulatları istehsalı-satışı, bu məhsulların ***standart*** yaxud ***fərqli buraxılışını*** öz nəzarətində saxlayan oliqopoliyaların inhisarındadır.

Oliqopoliyaların üstünlük təşkil edərək, fəaliyyət göstərdikləri istehsal, xidmət, satış dairələrinin təmərküzləşmə səviyyəsi 40 faizdən çox olmalıdır. Lakin bəzi sahələrdəki istehsal və satışın təmərküzləşmə səviyyəsi xeyli yüksək olub, 80-90 faizi ötür.

İqtisadi nəzəriyyədə iri oliqopoliyaların müxtəlif istehsal və xidmət sahələrindəki təmərküzləşmə səviyyəsini müəyyənləşdirmək üçün ***Herfindal indeksindən*** istifadə olunur. Bu göstərici, oliqopoliya rəqabəti şəraitində bazarda fəaliyyət göstərən bir neçə şirkətin, konkret onlardan hər birinin yerini müəyyənləşdirməyə imkan verir.

Fərz edək ki, kabel televiziyası sahəsində 1 şirkət (100%), telefon xidməti sahəsində 2 şirkət (?), avtomobil sənayesində 3 şirkət (?) və kimya sənayesində isə 4 şirkət fəaliyyət göstərir. Rəqabət modelinə görə, kabel televiziyası bazarda tək fəaliyyət göstərdiyindən, onun xüsusi çəkisi 100 faiz təşkil edəcəkdir. Bir neçə şirkətin iştirak etdiyi rabitə xidməti, avtomobil və kimya sənayesində isə vəziyyət başqa nisbətdə olacaqdır.

Herfindal indeksinə əsasən, şərti olaraq bazarda fəaliyyət göstərən 1 şirkətin ağalığı 100 vahid kimi qiymətləndirilərək, onun kvadratına yüksəldirir:

$$100\times100=10.000$$

Əgər oliqopoliya şəraitindəki rəqabət bazarında 1 deyil, bir neçə şirkət fəaliyyət göstərirsə, o zaman kvadrat dördbucaqlı daxilində hər birinin yeri yaxud xüsusi çəkisi müəyyənləşdirilir. Məsələn, bazarda şərti olaraq bir neçə şirkət bərabərlik prinsipi (paritet) əsasında iştirak edirlərsə, o zaman saylarından asılı olaraq, həmin şirkətlərin xüsusi çəki indeksi belə olacaqdır:

1 şirkət=100%=10.000
2 şirkət=50%=5.000
4 şirkət=25%=2.500
5 şirkət=20%=2.000
8 şirkət=12, 5%=1.250
10 şirkət=10%=1.000

Oliqopoliya rəqabəti şəraitində bazarda şərti bərabərlik əsasında şirkətlərin mövqeləri, aşağıda verilmiş ***Herfindal indeksi*** sxemində göstərilmişdir.

**Herfindal indeksi**



Bu sxemdə şərti bərabərlik (1=10.000; 2=5.000; 4=2.500; 10=1.000) əsasında şirkətlərin oliqopoliya rəqabət bazarındakı indeksi öz əksini tapsa da, lakin real həyatda həmin indekslər, hər hansı bir şirkətin real gücünə, imkanlarına, mövqeyinə uyğun olmaya bilər. Bu mənada, ABŞ-da qarğıdalıdan hazırlanmış qida məhsulları istehsal edən 4 iri şirkətin ümumi sahə üzrə payı 83 faiz, təyyarə istehsalında 90 faiz, mis filizi istehsalında 95 faizdir.

Oliqopoliya rəqabət bazarının xarakterik əlamətləri kimi aşağıdakılar qeyd olunmalıdır:

a) İstehsal-xidmət sahələrində bir neçə iri şirkət üstünlük təşkil edir.
b) Bu iri oliqopoliyaların istehsal etdikləri məhsullar və göstərdikləri müxtəlif təyinatlı xidmətlər standart, yaxud fərqli (differensial) ola bilər.
c) Oliqopoliya rəqabəti mühitində fəaliyyət göstərən iri şirkətlərin istehsal həcmləri onların sahənin bazar təklifinə və qiymətlərin səviyyəsinə təsir göstərməyə imkan verir.
ç) Həmin şirkətlərin nəhəng miqyasları, mürəkkəb texniki-texnoloji xüsusiyyətləri, daxili və beynəlxalq iqtisadi-ticarət əlaqələrindəki üstünlükləri, buraya daxil olmağı son dərəcə çətinləşdirir, bəzən isə mümkünsüz edir.
d) Oliqopoliya şəraitində fəaliyyət göstərən şirkətlərin və sahələrin məhsul-xidmətlərinə olan tələb əyrisi, inhisarçı rəqabət mühitindəki tələb əyrisinə oxşardır.

Müasir şəraitdə daxili və xarici bazarlarda öz fəaliyyətlərini genişləndirən oliqopoliyaların istehsal həcmi, müəyyənləşdirdikləri qiymətlərlə bağlı bir-birilə qarşılıqlı əlaqədə olduqlarından, öz mənfəətlərini artırmaq məqsədilə razılaşmalara, hətta bəzi hallarda birləşməyə getsələr də, lakin həmişə öz taktikalarını, davranışlarını dəyişməyə, verdikləri sözü pozmağa hazırdırlar.

**14.5.** Oliqopoliya şəraitində qiymət və istehsalın həcminin formalaşmasını aydınlaşdırmaq üçün, onların qiymət siyasətinin (qiymətyaranmanın) müxtəlif modellərini nəzərdən keçirmək lazımdır. Doğrudur, bu modellərin heç biri mütləq həqiqət xarakteri daşımır, real rəqabət bazarında baş verən mürəkkəb və ziddiyyətli proseslər daha rəngarəng, habelə xeyli zəngindir. Bu baxımdan, bir damla dəniz suyunda onun əsas keyfiyyət göstəriciləri əks olunduğu kimi, aşağıdakı modellər də, oliqopoliya rəqabəti şəraitində bazarda qiymətyaranmanın başlıca meylləri bəzən dolğun, bəzən isə zəif şəkildə öz ifadəsini tapmışdır. Çünki, rəqabət bazarına təkcə dəqiq hesablamalar, düzgün strategiya, çevik taktika və qərar seçimləri deyil, eyni zamanda şəxsi yaxud qrup maraqları, psixoloji durum, siyasi-diplomatik motivlər, beynəlxalq vəziyyət, hərbi –strateji məqsədlər kimi amillər də təsir göstərir.

***Sınıq (dəyişən, qırıq) tələb əyrisi modeli,*** oliqopoliyaların hər birinin ayrılıqda, nisbi müstəqilliyi şəraitindəki qiymətqoyma mexanizminin formalaşmasını, həmin qiymətlərin enib-qalxmasını nəzərdə tutur. Belə şəraitdə, ayrıca bir oliqopoliya şirkəti hər an, öz bazar rəqiblərinin mövcud qiymətləri dəyişə biləcəkləri təhlükəsi ehtimalı ilə qarşı-qarşıya dayanır. Bu addım rəqib iri şirkətlərin biri, yaxud bir neçəsinin aşkar-gizli razılaşması nəticəsində atıla bilər. Antiinhisar qanunlarının məhdudlaşdırıcı və qadağanedici tədbirlər sisteminə, habelə dövlətin iqtisadiyyatı tənzimləmə siyasətinə baxmayaraq, belə hallar olmuşdur, vardır, bazar münasibətləri şəraitində gələcəkdə də mümkündür.

Oliqopoliya rəqabəti bazarındakı qiymətin şirkətlərdən biri tərəfindən yüksəldilməsi, yaxud aşağı salınması, şübhəsiz tələb əyrisinə müxtəlif istiqamətlərdə təsir göstərəcəkdir. Əgər şirkətlərdən biri qiymətləri qaldırarsa, başqaları isə bu yolla getmirlərsə, o zaman təbiidir ki, gəlirlərin azalması baş verəcəkdir. Şirkətlərdən birinin qiymətləri aşağı salması isə başqalarının tələb əyrisi meylinin və istehsalın həcminin dəyişməsinə səbəb olacaqdır. Deməli, qiymətlərin enib-qalxmasının tələbin elastikliyinə təsiri müxtəlif olduğundan, tələb əyrisi də bir xəttdən yox, 2 sınıq xəttdən ibarət olacaqdır. Ona görə də bu model ***sınıq tələb əyrisi*** adlanır. Qiymətlə bağlı olaraq, son həddə xərcləri və son həddə gəlirlərdə də sınıq nöqtəsindən ayrılan meyllər özünü sınıq xətlər kimi göstərəcəkdir.

Aşağıdakı qrafik təsvirlərdə sınıq tələb əyrisi və son həddə xərclərinin dəyişdiyi şəraitdə qiymətlərin sabitliyi öz əksini tapmışdır:

Bazarda fəaliyyət göstərən 3 eyni xüsusi çəkiyə malik «müstəqil» rəqib oliqopoliya sahə şirkəti, qiymətləri endirmək (aşağı salmaq) barəsində öz aralarında müvafiq razılığa gəldikdə, ***tələb əyrisi*** ($D_1$) ***və son həddə gəlir əyrisi*** ($MR_1$), qrafik sxemin (a) variantın alt hissəsindəki kimi olacaqdır. Rəqiblər qiymətlərin aşağı salınması barəsində şirkətlərdən hər hansı birisinin təklifini rədd etsələr, yaxud onunla razılaşmasalar, o halda ***tələb əyrisi*** ($D_2$) və ***son həddə gəlir əyrisi*** ($MR_2$), qrafik sxemin (a) variantının üst hissəsindəki kimi olacaqdır.




a) İstehsal (məhsul) həcmi




b) İstehsal (məhsul) həcmi

Müasir şəraitdə «qiymətlər müharibəsi» səviyyəsində oliqopoliyalar arasında aparılan rəqabət mübarizəsi, son nəticə etibarilə və rəqibin gələcək strategiyasını əvvəlcədən müəyyənləşdirərək, ona qarşı əks tədbirlər görmək imkanı verən «oyunlar nəzəriyyəsi» baxımından risqli, habelə səmirəli sayılmadığından, ***stabil qiymətlər*** siyasətinə daha çox üstünlük verilir. Bazar münasibətləri iqtisadi sisteminin hərəkətverici qüvvələrindən biri sayılan rəqabət mübarizəsi gedişində ***ağırlıq mərkəzi qiymət sahəsindən, qeyri-qiymət amilləri*** sahəsinə istiqamətlənir.

Oliqopoliya rəqabəti şəraitində, şirkətlərin satış qiymətlərinin stabil qalmasının səmərəliliyi və məqsədəuyğunluğu, yuxarıdakı qrafik təsvirin (b) variantında göstərilmiş son həddə xərcləri əyrilərinin ($MC_1$, $MC_2$) arasındakı (fq) hər hansı bir dəyişikliyin, məhsulun qiymətinə ($P_0$), həcminə ($Q_0$) təsir etmədiyini təsdiqləyir. Deməli, nə qədər ki, son həddə xərcləri əyriləri (fq) hissəsi arasındadır və həmin əyrilər son həddə gəlir əyriləri ($MR_1$, $MR_2$) ilə kəsişir, bu halda istər məhsulun qiymətində, istərsə də həcmində dəyişiklik baş verməyəcəkdir.

***Sövdələşmə (əməkdaşlıq, razılaşma) modeli*** və onun aşkar, habelə müxtəlif gizli formaları müasir bazar münasibətləri iqtisadi sisteminin reallıqlarıdır. Oliqopoliya sahəsinin şirkətləri həmişə qiymətlərə yenidən baxmaq, istehsalın həcmini dəyişmək, öz gəlir və mənfəətlərini artırmaq məqsədilə sövdələşmələrə getməyə, müəyyən şərtlər daxilində qarşılıqlı əməkdaşlığa, faydalı razılaşmalara çalışırlar.

Klassik siyasi iqtisad məktəbinin banilərindən biri A.Smit, bazarda gedən bu proseslərə toxunaraq, «*Xalqlar sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat*» əsərində vaxtilə yazmışdı: «Eyni ticarət sahəsinin adamları bir-biri ilə nadir hallarda görüşsələr də, onların danışıqları ***cəmiyyətə qarşı sövdələşmə*** yaxud ***qiymətləri qaldırmaq*** üçün hər hansı bir addımla nəticələnir».

Bizim günlərimizdə də, antiinhisar qanunlarına, dövlət-hakimiyyət orqanlarının iqtisadiyyatı tənzimləmə tədbirlərinə, cəmiyyətin ictimai nəzarətinə, kütləvi informasiya-məlumat vasitələrinin ifşaedici materiallarına, hay-küylü məhkəmə proseslərinə baxmayaraq, oliqopoliya şirkətləri arasında aşkar-gizli danışıqlar, razılaşmalar, sövdələşmələr davam edir. Buna nümunə kimi ABŞ-ın iki iri təyyarə şirkəti rəhbərinin məhkəmə prosesində səsləndirilmiş telefon danışığını göstərmək olar:

«H.Putman:

*– Mənə təklifiniz var?*

R.Krandall:

*– Bəli, sizə təklifim var. Siz uçuş qiymətlərinizi 20 faiz qaldırın. Səhəri gün mən də qaldıracağam.*

H.Putman:

*– Robert, axı biz...*

R.Krandall:

*– Siz də çox pul qazanarsınız, mən də.*

H.Putman:

*– Biz qiyməti müəyyən etmək haqqında danışa bilmərik!*

R.Krandall:

*– Ah, Hovard! Biz istədiyimiz hər bir şey haqqında danışa bilərik*»

Maraqlıdır, doğrudanmı xüsusi mülkiyyət, tələb-təklif, qiymət, rəqabət üzərində qurulan və məqsədi daha yüksək mənfəət əldə etmək olan bazar münasibətləri sisteminin müasir inkişaf səviyyəsi mərhələsində, oliqopoliya sahəsinin iri şirkətləri hər şey haqqında bəzən danışıqlar, bəzən də hətta «susmaq razılıq əlamətidir!» prinsipi əsasında hərəkət edib, fəaliyyət göstərə bilərlərmi?

Bazarda sərbəst yaxud azad rəqabət şəraitində saysız-hesabsız istehsalçı və satıcının fəaliyyət göstərməsindən fərqli olaraq, oliqopoliya rəqabəti mühitində cəmi bir neçə şirkətin həlledici rol oynaması, real vəziyyəti köklü surətdə dəyişir. Çünki metallurgiya, maşınqayırma, avtomobil, kimya, energetika, neft-qaz, elektrotexnika, poliqrafiya, tütün məmulatları, mebel, spirtli və spirtsiz içgilər kimi sahələrdəki bir neçə aparıcı iri şirkət, şübhəsiz, danışıqlar, habelə konkret sövdələşmələr yolu ilə satış bazarlarını bölmək, istehsal həcmini, qiymətlərin səviyyəsini müəyyənləşdirmək imkanlarına malikdirlər. Bu halda bazar ***xalis, mütləq*** inhisar xarakteri alaraq, müəyyən bir sahədə fəaliyyət göstərən şirkətlərin ***kartel*** formasında birliyini nəzərdə tutur ki, bir çox ölkələrin qanunvericiliyi bu addımı, rəqabəti boğan amil kimi qəbulolunmaz hesab edir.

Buna baxmayaraq, beynəlxalq miqyasda dünya neft hasilatının 40 faizini, neft satışının isə 60 faizini verən və 11 ölkənin iştirakçısı olduğu OPEK-in; bir neçə ölkənin yaratdıqları Beynəlxalq Neft Kartelinin, habelə digərlərinin fəaliyyətini nümunə göstərmək olar.

Mütəxəssislərin fikrincə, hazırda aparıcı şirkətlər, mətbuata sızan xəbərlərdən başlamış «sənaye casusluğuna» qədər müxtəlif vasitələrlə əldə etdikləri məlumatlar əsasında, bir-birinin ümumi fəaliyyətindən, maliyyə vəziyyətindən, satış bazarından, investisiya imkanlarından o qədər dəqiq xəbərdardırlar ki, əslində onların açıq əməkdaşlığına, sazişlər bağlamasına ehtiyac yoxdur. İndiki mərhələdə oliqopoliya sahəsinin şirkətləri arasında ***«lal strategiya»*** və ***«susmaq»*** taktikasından daha geniş miqyasda istifadə olunur.

«Susmaq» taktikasına klassik bir misal kimi 2 nəfər dustağın dilemması «oyunu» nümunə göstərilir. Bu «oyunun» mahiyyəti ondan ibarətdir ki, qanunsuz silah gəzdirən 2 nəfər bank oğurluğunda şübhəli sayılsa da, lakin onları ittiham etmək üçün kifayət qədər sübut-dəlil yoxdur. İlkin istintaqda, ayrı-ayrılıqda onların hər birinə təklif olunur ki, kim öz cinayətini səmimi etiraf etsə və yoldaşının bu işdə əli olduğunu boynuna alsa, o azad olacaq, yoldaşı isə 10 il həbs cəzası alacaqdır. Əgər onların hər ikisi cinayəti boyunlarına alsalar 5 il, almasalar icazəsiz silah gəzdirdiklərinə görə cəmi 1 il həbsxanada cəza çəkməli olacaqlar. Ayrı-ayrılıqda və bir-birinin seçim qərarından xəbərsiz olan dustaqlar, son nəticə etibarilə bir ***«oyunçu» kimi digər «oyunçunun» seçdiyi variantdan asılı olmayaraq***, özü üçün ən «əlverişli» saydığı etiraf variantını seçəcək və 5 il həbs cəzası alacaqdır.

***Dominat strategiyası*** adlanan və ilk baxışda o qədər də əlverişli görünməyən bu nəticə, Nobel mükafatı layreatı **Con Neş** (ABŞ) tərəfindən müəyyənləşdirildiyindən, onun şərəfinə ***Neş tarazlığı*** adlandırılmışdır. Bu tarazlıq, oliqopoliya sahəsi şirkətlərinin rəqabət sahəsinə keçirildikdə, belə bir fikir söyləməyə imkan verir ki, müəyyən hallarda bazarda fəaliyyət göstərən rəqib şirkətlərlə münasibətlərdə fərdi yanaşma nöqteyi-nəzərindən, ***əməkdaşlıq etmək*** məntiqsiz olduğundan, ***«müstəqil»*** surətdə seçim əsasında qərarlar qəbul edib həyata keçirmək xətti daha məqsədə uyğundur. Çünki, heç bir oliqopoliya şirkəti, öz rəqiblərinin müxtəlif mümkün variantlar içərisindən hansını seçəcəyinə tam zəmanət verə bilməz.

Belə bir ziddiyyətli vəziyyət oliqopoliya şirkətlərinin «reklam müharibəsində» də özünü aydın göstərir. Çox vaxt reklam təbliğatına sərf olunan böyük məbləğdə vəsait, şirkətin əldə etdiyi gəliri artırmaq məqsədinə deyil, öz rəqiblərinə bu muasir rəqabət formasında uduzmamaq taktikasına xidmət edir.

***Qiymət liderliyi modeli,*** oliqopoliya sahəsinin müxtəlif şirkətləri arasında öz istehsal həcmindən, rəqabət bazarında tutduğu mövqe üstünlüyündən istifadə edərək, qiymətləri artırıb-aşağı salmaqla bir şirkətin başqalarından irəli olduğunun nümayiş etdirilməsidir.

Aparıcı şirkətin qiymət liderliyi, başqa şirkətlərlə müəyyən əlaqələndirmə şəraitində aparılsa da, lakin onlarla qanunsuz sövdələşmələr, razılaşmalar və sazişlər xarakteri daşımır. Qiymət dəyişikliyi özünü ən çox maşınqayırma, sement, tikinti materialları, mis, polad, spirtsiz içgilər, gübrə, siqaret istehsalı sahələrində göstərir.

Şübhəsiz, qiymət dəyişikliyi rəqib şirkətlər və ictimaiyyət tərəfindən birmənalı qarşılanmasa da, lakin tez-gec aparıcı şirkətin gücü, nüfuzu, imkanları, digərlərini yaranmış vəziyyətlə razılaşmağa məcbur edir.

Yeni qiymət siyasətini həyata keçirən aparıcı lider şirkət, ilk növbədə öz rəhbərlərinin bəyanatlarında və kütləvi informasiya vasitələrindəki çıxışlarında bu haqda məlumatlar yaymaqla, ictimaiyyəti, habelə rəqib şirkətləri buna hazırlayır.

Qiymət sahəsində lider şirkət elə bir qiymət variantı irəli sürür ki, qısamüddətli dövr ərzində sahənin gəlirini əhəmiyyətli dərəcədə artırmasın. Bu yol bir tərəfdən ictimaiyyəti sakitləşdirmək və rəqib şirkətlərə xəbərdarlıq, digər tərfdən isə həmin sahəyə yeni daxil olmaq istəyən potensial rəqiblərin qarşısını almaq məqsədi güdür. Ona görə də bu addımı, «məhdudlaşdırıcı qiymətqoyma» adlandırırlar.

Ayrı-ayrı dövlətlərin, o cümlədən də ABŞ-nın təcrübəsində qiymət sahəsində liderlik edən şirkətin məhsulun-xidmətlərin satış qiymətlərini aşağı salmaq siyasətinin rəqib şirkətlər tərəfindən ciddi narazılıq halları olmuşdur. Ötən əsrin sonlarında «General Mills», «Kelloqq», «Poct» və XXI əsrin əvvəllərində «Mc Donald», «Burqer Kinq» kimi yeyinti-qida məhsullarının istehsalı, habelə satışı ilə məşğul olan tanınmış ABŞ şirkətlərinin, korporasiyalarının kəsgin «qiymət müharibəsi» buna nümunədir. Lakin müəyyən vaxt keçdikdən sonra bu cür qarşıdurmaların onların işgüzar biznes fəaliyyətlərinə, ən başlıcası isə gəlirlərinə ziyan vurduğunu dərk edən şirkətlər, qiymətlərin əvvəlki səviyyəyə qaytarılması ilə razılaşmalı olmuşlar. Müxtəlif ölkələrin oliqopoliya sahəsi şirkətlərinin liderlik rolunun birindən digərinə keçməsi halları da məlumdur.

Eyni zamanda oliqopoliya bazarında ***məhsul buraxılışı yaxud həcmi üzrə liderlik modelindən*** də istifadə olunur. Alman iqtisadçısı H.Ştakelberq tərəfindən irəli sürülmüş bu modelə əsasən, rəqib şirkətlərdən biri, konkret məhsul istehsalı üzrə başqa şirkətləri qabaqlayaraq, bu kəmiyyət göstəricisinə görə liderə çevrilir. Məsələn, İBM və Mikrosoft şirkətlərinin kompütür, Tayota və Mersedes-Benz şirkətlərinin avtomobil istehsalı-satışı sahəsindəki liderliklərini göstərmək olar. Məhsul buraxılışı liderinin ardınca, həmin sahənin digər rəqib şirkətləri də, öz istehsal həcmlərində dəyişiklik etməli olurlar. Məhsul buraxılışı liderliyi əbədi olmayıb, yeni texnika-texnologiyaların tətbiqi və satış bazarlarının, xüsusilə beynəlxalq iqtisadi-ticarət əlaqələrinin genişlənməsilə əlaqədar, həmin sahənin bir şirkətindən başqasına keçə bilir.

Bu modelə, yuxarıda qeyd olunmuş iki şirkətin (duopoliya) şəraitində rəqabətini əks etdirən ***Kurno modelinin davamı*** kimi də baxmaq olar. Həmin modelə əsasən, sahədə yalnız iki şirkət fəaliyyət göstərir; hər bir şirkət başqasının məhsul həcmini verilmiş yaxud məlum kəmiyyət kimi qəbul edərək, bazarda yaranmış real vəziyyətə uyğun hərəkət edir; hər iki rəqib şirkət öz mənfəətini artırmağa çalışır.

***<u>Ştakelberq və Kurno</u>*** modelləri arasında fərq bundadır ki, Ştakelberq modelində 2 rəqib şirkətdən biri özünü Kurno modelindəki kimi apardığı halda, digəri özünün müstəqilliyini nümayiş etdirərək, məhsul həcmində dəyişiklik etmir. Təbiidir ki, belə olduqda məhsul buraxılışı üzrə lider şirkət rəqabət bazarında inhisarçı mövqe tutaraq, öz mənfəətini xeyli artıracaqdır. Əlbəttə, bu cür rəqabət şəraitində digər konkret variantlar da mümkündür. Ola bilər ki, məhsul istehsalı üzrə lider şirkətin rəqibi, öz nizama salınmış əlaqələrinə, buraxdığı eyni məhsulun fərqli (mobil telefonun, diş pastasının, mebelin) keyfiyyət göstəricilərinə və rəqabət bazarında uzun illərdən bəri qazanmış olduğu nüfuzuna arxalanaraq, elə əvvəlki həcmdə məhsul istehsal edib satmaqla da normal mənfəət əldə edəcəkdir. Eyni zamanda, öz işini lider şirkətin strategiyasına uyğunlaşdıra bilməyən rəqib şirkətin zərər çəkməsi və hətta iflasa uğraması da mümkündür.

Fransız iqtisadçısı C.Bertan tərəfindən irəli sürülmüş və onun şərəfinə adlandırılan Bertran modelinə görə, Kurno modelindən fərqli olaraq, burada oliqopoliya sahəsində fəaliyyət göstərən şirkətin həcminə, məhsul istehsalının kəmiyyətinə deyil, bazara çıxarılan, alıcılara təklif olunan qiymətlərə üstünlük verilir.

Bertran modelinə əsasən, eyni adlı məhsul istehsal edən rəqib şirkətlərdən biri, başqa şirkətlərlə mübarizə vasitəsi kimi qiyməti yox, istehsalın həcmi amili əsas götürür. Rəqib şirkəti aradan götürmək, yaxud onun fəaliyyətini məhdudlaşdırmaq üçün məhsul, yaxud istehsal həcmi əsas sayılır.

Aydındır ki, şirkətin istehsalın həcmini artırmaq hesabına əldə edəcəyi mənfəət o zaman təmin oluna bilər ki, şirkətin son həddxərcləri onun satış qiymətlərindən aşağı olsun, yəni $P > MC$, $MC < P$. Rəqabət aparan şirkətlər arasındakı mübarizənin ilk mərhələsində öz məhsulunu nisbətən aşağı qiymətə reallaşdıran şirkət müəyyən vaxt ərzində əlavə mənfəət əldə etsə də, lakin sonra bu mümkün olmayacaqdır. Çünki qiymətin son istehsal xərcləri ilə tarazlaşması baş verəcəkdir, yəni $P = MC$

Qeyd etmək zəruridir ki, yuxarıda qeyd olunan müxtəlif oliqopoliya modelləri, bazar rəqabəti şəraitində mütləq deyil, şərti və nisbi bir meyl kimi fəaliyyət göstərirlər.

Aydındır ki, şirkətin istehsal həcmini artırmaq hesabına əldə edəcəyi mənfəət o zaman təmin oluna bilər ki, şirkətin son həddxərcləri onun satış qiymətlərindən aşağı olsun, yəni $P>MC$, yaxud $MC<P$. Rəqabət aparan şirkətlər arasındakı mübarizənin ilk mərhələsində öz məhsulunu nisbətən aşağı qiymətə reallaşdıran şirkət müəyyən vaxt ərzində əlavə mənfəət əldə etsə də, lakin sonra bu mümkün olmayacaqdır. Çünki, qiymətin son istehsal xərcləri ilə tarazlaşması prosesi baş verəcəkdir, yəni $P=MC$.

Qeyd etmək zəruridir ki, yuxarıda qeyd olunan müxtəlif oliqopoliya modelləri, bazar rəqabəti şəraitində mütləq deyil, şərti və nisbi bir meyl kimi fəaliyyət göstərirlər.

**14.6.** İqtisadçılar və mütəxəssislər arasında uzun illərdən bəri mübahisələr davam etməkdədir ki, istər tarixən keçdiyi ziddiyyətli inkişaf yolu və onun müəyyən konkret mərhələləri, istərsə də müasir iqtisadi inteqrasiya, qloballaşma prosesləri, tədricən vahid dünya təsərrüfat sisteminin formalaşması baxımından, oliqopoliya sahələrinin müxtəlif şirkətlərinin rəqabət mühitindəki fəaliyyəti öz sosial-iqtisadi nəticələrinə görə, bütövlükdə cəmiyyət üçün nə dərəcədə səmərəlidir?

Bir qrup iqtisadçının fikrincə, oliqopoliya şirkətləri öz texniki-texnoloji və investisiya imkanlarından daha səmərəli, habelə uzaqgörənliklə istifadə edərək, mənfəətini artırmaq naminə, bu işlərə müsbət təsir göstərirlər. Bu tərəqqinin üstünlüklərini ABŞ-ın, İngiltərənin, Almaniyanın, Yaponiyanın, Fransanın «Ford», «Ceneral Motors», «Mikrosoft», «Simens», «Sony» və digər iri şirkətlərin təcrübəsi sübut edir.

Oliqopoliyaların fəaliyyətini müsbət qiymətləndirənlər qeyd edirlər ki, bu tipli rəqabət bazarında nisbi qiymət tarazlığının olması, həm iri şirkət və korporasiyaların öz mənfəətləri, həm də bütövlükdə cəmiyyət üçün ümumiyyətlə səmərəli sayılmalıdır. İndiki inkişaf mərhələsində, dünya ölkələrinin daxili və beynəlxalq bazarda əmək bölgüsü prinsipləri əsasında yerləşməsi, habelə fəaliyyət xüsusiyyətlərinin obyektiv təhlili göstərir ki, oliqopoliya bazarları infilyasiya proseslərinə, işsizliyə qarşı nisbətən daha davamlıdırlar.

Bu istiqamətdə qeyri-qiymət rəqabətinin fərqli (differensial) məhsul buraxılışı təşkil etmək, rəqib şirkətlərlə kəsgin ziddiyyətlər yaratmamaq, düşünülmüş reklam təbliğatı

aparmaq, kreditlə satışı genişləndirmək, alıcılara güzəştə getmək, onlara xidmət səviyyəsini getdikcə yaxşılaşdırmaq xətti, onların müxtəlif sponsorluq və xeyriyyəçilik tədbirlərində iştirak etmək kimi üsulları müsbət qiymətləndirilməlidir.

Oliqopoliyaların fəaliyyətinin antiinhisar qanunlarının tələbləri çərçivəsində məhdudlaşdırılması və dövlətin iqtisadi tənzimləmə siyasətinin ardıcıllıqla həyata keçirilməsi, dəyişkən bazar konyukturası şəraitində, şübhəsiz mühüm rol oynayır.

Eyni zamanda oliqopoliya sahəsi şirkətlərinin rəqabət bazarındakı fəaliyyətlərinin ***qiymətqoyma, istehsal həcmindəki enib-qalxma meylləri, gəlir və mənfəətlərini yüksəltmək səyləri, reklam oyunları və təbliğatına sərf olunmuş külli miqdarda vəsaitin özünü doğrultmaması, istehsal xərclərinin hesablanması üsulları, təbii sərvətlərdən və iqtisadi resusrlardan istifadə yolundakı nöqsanları, ətraf mühitin qorunması və ekologiya problemlərinə kifayət qədər qayğı göstərməmək*** kimi cəhətləri ciddi tənqid olunur.

Hətta, oliqopoliyaları «cəmiyyətə, onun üzvlərinə xidmət etmək əvəzinə, insanları şirkətlərin ehtiyaclarının xidmətçilərinə çevirdiklərini» iddia edənlər də vardır. Tanınmış mütəxəssislər qeyd edirlər ki, istehsalın «məqsədi cəmiyyətin tələbatlarının səmərəli ödənilməsi» olduğu halda, oliqopoliya şirkətlərinin rəqabət mübarizəsi mühitində «məqsəd-vasitə» anlayışlarının yeri prinsip etibarilə dəyişdirilərək, əksinə «vasitə – məqsəd» şəklinə salınmış, yəni məqsəd vasitəyə tabe edilmiş, yaxud «araba atdan qabağa keçirilmişdir».

Oliqopoliyaların tənqidçiləri yazırlar ki, dünya təcrübəsində 100 görkəmli kəşfin yarıdan çoxu (avtomat dəzgahlar, kondisionerlər, vertolyot, elektrik, teleqraf, insulin, kserokopiya, reaktiv mühərriklər və sairə) ***sərbəst rəqabət şəraitində və müstəqil ixtiraçılar*** tərəfindən edilmişdir. Oliqopoliyaların kəsgin rəqabəti və texniki-texnoloji tərəqqi yolunda – maşınqayırma, kimya, neft texnologiyası, avtomobil, elektron sənayesi sahələrindəki böyük nailiyyətlərinə baxmayaraq, qazanılmış bu elmi-texniki uğurların 2/3 hissəsi qeyri-oliqopoliya şirkətlərinin payına düşür.

Qəribə görünsə də, bəzən belə fikirlər irəli sürülür ki, müasir dövrün mürəkkəb və ziddiyyətli sosial-iqtisadi problemlərindən xilas olmaq üçün ... bəlkə yenidən geriyə ..., sərbəst rəqabət bazarı, «görünməz əl» prinsiplərinə qayıtmaq haqqında düşünmək lazımdır ....

Lakin tarixin geriyə dönüşü olmur. Bütün nöqsan və çatışmazlıqlarına, kimlərinsə bəyənib-bəyənməməsinə baxmayaraq, bazar münasibətləri iqtisadi sisteminin konkret təsərrüfatçılıq fəaliyyətinin bir forması sayılan oliqopoliyalar, hələlik daha səmərəli alternativ variantlar tapılmadığından yaşamalı, habelə təkmilləşməlidir.

Deməli, oliqopoliyalar cəmiyyətin ümumi mənafeləri baxımından, bazar münasibətləri sisteminin ən səmərəli bir forması sayılmasa da, lakin onların rəqabət bazarında öz mövqelərini hər cəhdlə qoruyub saxlamaq, mənfəətlərini yüksəltmək səylərinə baxmayaraq, çoxcəhətli fəaliyyətləri, şübhəsiz müasir inkişaf mərhələləsində istər milli iqtisadiyyat çərçivəsində, istərsə də beynəlxalq miqyasda ümumiyyətlə qəbul ediləndir, faydalıdır.

# Mövzu 15. Əmək haqqı, renta, faiz və mənfəət

**15.1** Əmək haqqının mahiyyəti, nominal və real əmək haqqı
**15.2** Əmək haqqının formaları və sistemləri
**15.3** Aqrar münasibətlərin mahiyyəti və tarixi təkamülü
**15.4** Rentanın müxtəlif formaları və torpağın qiyməti
**15.5** Xidmət dairəsi və onun xüsusiyyətləri
**15.6** Faiz dərəcəsi və ona təsir edən amillər
**15.7** Sahibkarlıq fəaliyyəti və mənfəət

**15.1.** «İşləməyən dişləməz» və «əməyin, zəhmətin, iş qüvvəsinin haqqı ödənilməlidir», – fikirləri hələ qədim dövrlərdən başlayaraq bizim günlərimizə qədər müxtəlif mənbələrdə, ayrı-ayrı ölkələrin Konsititusiyalarında bu yaxud digər şəkildə öz ifadəsini tapmışdır.

Hər gün dünyanın 200-dən artıq ölkəsinin 4 milyard nəfərə yaxın fəhləsi, fermeri, mühəndis-texniki işçisi, alimi, müəllimi, qulluqçusu, yaradıcı peşə sahibləri, elm və mədəniyyət sahəsinin adamları öz peşələrinə uyğun işə yollanırlar. Həyat-iş və fəaliyyətdir, ən mükəmməl texnika belə insan əməyi, onun iştirakı, idarəediciliyi olmadan səmərəsizdir, bəzən isə ümumiyyətlə mümkün deyildir.

Bazar münasibətləri iqtisadi sistemində, insanın şüurlu və məqsədyönlü əqli-fiziki qabiliyyətlərinin toplusu sayılan əmək fəaliyyətinin konkret ifadəsi kimi iş qüvvəsi alınıb-satılır, onun dəyəri (qiyməti) vardır. Bu isə öz əksini müxtəlif ölkələrin ümumi inkişaf səviyyəsi, keçdiyi iqtisadi-sosial tərəqqi yolu, milli xüsusiyyətləri ilə bağlı formalaşmış fərqli əmək haqqında tapır.

Əmək haqqı dedikdə, işləyən (çalışan, fəaliyyət göstərən) hər bir adamın öz fiziki, əqli, intelektual səviyyəsinə görə aldığı müəyyən məbləğdə puldur. Bəzi hallarda əmək haqqı pulla deyil, məhsul-xidmətlərlə də, yəni natural formada da ödənilə bilər. Əmək haqqına belə təriflər də verilir: «əmək haqqı və ya əmək haqqı dərəcəsi, əməyin istifadəsi üçün ödənilən qiymətdir», yaxud «əmək haqqı – vaxt vahidi (saat, gün, həftə, ay, il) ərzində başqasının əməyindən istifadə üçün ödənilən qiymətdir».

Real həyatda və gündəlik təsərrüfatçılıq təcrübəsində əmək haqqı – mükafat, qononar, peşkeş formalarında da verilə bilsə də, bunları əmək haqqı kimi yox, «gəlir», yaxud «qazanc» kimi səciyyələndirmək elmi cəhətdən daha doğru olardı. Ona görə ki, əmək haqqı və onun fərqli dərəcələri rəsmi qayda-qanunlar, hüquqi aktlar əsasında müəyyənləşdirdiyindən, onu «qazanc, gəlir» kimi səciyyələndirmək olmaz. Çünki, əmək haqqı hər bir insanın məqsədyönlü surətdə öz iş qüvvəsinin sərfi əvəzində, onun əldə etdiyi müəyyən məbləğdir (maaşdır, məvacibdir, zəhmət haqqıdır).

Əmək haqqının səviyyəsi həm ayrı-ayrı ölkələr, həm ölkə daxilindəki müxtəlif bölgələr (regionlar), həm də peşə-sənətlər üzrə fərqlənirlər. Məsələn, ABŞ-da istehsal-xidmət dairəsində çalışanların orta aylıq əmək haqqı, başqa ölkələrdə eyni sahələrdə çalışanlarla müqayisədə xeyli yüksəkdir. Yüksək inkişaf etmiş ölkələrdə fəhlə-qulluqçuların əmək haqqı, inkişaf etməkdə olan və postsosialist məkanındakı ölkələrdən əhəmiyyətli dərəcədə fərqlidir. Bunu aşağıdakı rəqəmlərdən görmək olar:

**XXI əsrin əvvəllərinə dünyanın müxtəlif ölkələrində 1 saatlıq əmək haqqının orta məbləği (dollar)**

| Ölkələr | 1 saatlıq əmək haqqının orta məbləği (dollar) |
|---|---|
| Almaniya | 22,5 dollar |
| Danimarka | 21 dollar |
| İsveçrə | 20,5 dollar |
| ABŞ | 20 dollar |
| Yaponiya | 18 dollar |
| İsveç | 17 dollar |
| İngiltərə | 16 dollar |
| Fransa | 16 dollar |
| Kanada | 15 dollar |
| Avstraliya | 13 dollar |
| Koreya | 8 dollar |
| Rusiya | 7dollar |
| Tayvan | 6 dollar |
| Meksika | 3dollar |
| Azərbaycan | 3 dollar |

Eyni zamanda müxtəlif ölkələrdə ayrı-ayrı peşə və sənət sahiblərinin ümumi gəlirlərinin konkret bir hissəsi sayılan ***əmək haqqı dərəcələri*** xeyli fərqlidir. Hətta eyni peşə-sənət üzrə çalışan işçilərin cinsinə, irqinə, etnik xüsusiyyətlərinə və digər əlamətlərinə görə də fərqləndirilməsi hallarına rast gəlinir.

Ölkələrin əmək bazarında tələblə təklifin qarşılıqlı əlaqəsi əsasında formalaşan əmək haqqının səviyyəsinə işçinin yüksək peşəkarlığı, təhsili, əməli təcrübəsi böyük təsir göstərir. Təbiidir ki, beyində mürəkkəb cərrahiyə əməliyyatı aparan həkimlə taksi sürücüsünün, bank qulluqçusu ilə dülgərin, zərgərlə daşyonanın, aktyorla bərbərin, mühəndislə restoran xidmətçisinin əmək haqqı dərəcələri və səviyyələri arasında müəyyən fərq olmalıdır.

XXI əsrin əvvəllərinə olan məlumatlara görə ABŞ-da orta təhsili olan işçinin illik əmək haqqı 20-35 min dollar, orta ixtisas təhsili olan mütəxəssisinki 30-60 min dollar, bakalavr təhsilli mütəxəssisinki 60-85 min dollar, magistr və daha yüksək təhsilli mütəxəssisinki 40-135 min dollar təşkil etmişdi. Şübhəsiz, elmi-texniki tərəqqi və əmək məhsuldarlığının yüksəldilməsi əsasında davam edən istehsal-xidmət sahələrinin intensiv inkişaf dinamikası, əmək haqqının tədricən artırılmasına əlverişli imkanlar yaradır. Bu müxtəlifliyin səbəbləri aşağıdakı qrafik rəsmdə əks olunmuşdur.

İstehsal-xidmət sahəsində çalışanların əmək haqqı səviyyəsi müxtəlif səbəblərlə bağlı olsa da, lakin ilk növbədə, ona yaranan tələb və təkliflə izah olunur. Qrafik sxemdə («a» və «b») eyni ***təklif əyrisinə*** malik ($D_a$ $D_b$) 2 müxtəlif peşəkar əmək qrupunun təsviri verilmişdir. Bu təsvirlərdən aydın olur ki, əmək bazarında iş qüvvəsinə tələb böyük olduqda («a»), əmək haqqı dərəcəsi də nisbətən yüksək olacaqdır. Əksinə, əmək bazarında müəyyən ixtisaslı iş qüvvəsinə tələb az olduqda, həmin istehsal-xidmət sahəsində («b») çalışanların əmək haqqı dərəcəsi, başqa sahələrə nisbətən aşağı olacaqdır. Bu fərqli əmək haqqı səviyyələri sxemdə $W_a$ (yüksək) və $W_b$ (aşağı) kimi göstərilmişdir. Deməli, ümumi

bir hal kimi əmək bazarında istehsal-xidmət sahələrinin inkişafı ilə bağlı, iş qüvvəsinə (fəhlələrə, qulluqçulara, xidmətçilərə) tələb artarsa, o zaman konkret həmin sahədə əmək haqqı səviyyəsi nisbətən yüksək olacaqdır.

**Əməyə tələb, əmək təklifi və fərqli əmək haqqı**




İstehsal və xidmət sahəsində yaranmış vəziyyətlə bağlı əmək bazarında müxtəlif ixtisaslı iş qüvvəsinə olan ***tələb əyrisinin*** eyniliyi ($D_c$ $D_d$) vəziyyəti də mümkündür. Bu halda («c»), ixtisaslı iş qüvvəsinin məhdudluğu üzündən, həmin sahədə əmək haqqı dərəcəsi daha yüksək olacaqdır. Əksinə, iş qüvvəsinin tələbdən artıq olduğu əmək bazarında («d») isə əmək haqqı səviyyəsi aşağı olacaqdır. Həmin fərqli əmək haqqı səviyyələri və dərəcələri sxemdə $W_c$ və $W_d$ kimi verilmişdir.

İqtisadi nəzəriyyədə iş verən, işə götürən (prinsipial); işə qəbul olunan, işə götürülən (agent); əmək haqqı dərəcəsi; minimum əmək haqqı; nominal əmək haqqı; real əmək haqqı anlayışları vardır.

***Prinsipial*** – iş verən sahibkar və hər hansı bir istehsal-xidmət sahəsində fəaliyyət göstərən şirkətdir, müəssisədir, təşkilatdır.

***Agent*** – işə qəbul olunan yaxud götürülən işçidir, qulluqçudur.

Prinsipial – agent münasibətləri şifahi razılaşma, «centlement sazişi» (kişi sözü), rəsmi əmək müqaviləsi əsasında formalaşıb, müəyyənləşə bilər.

***Əmək haqqı dərəcəsi*** – vaxt vahidi (saat, gün, həftə, ay, il) ərzində işçinin əməyindən (iş qüvvəsindən) istifadənin qiymətidir.

***Minimum əmək haqqı*** – əmək haqqı səviyyəsinin ən aşağı (minimum) dərəcəsidir ki, ölkə qanunvericiliyinə əsasən iş gününün hər saatı, həmin həddən aşağı məbləğdə ödənilə bilməz. Bu məbləğ ölkədəki orta aylıq əmək haqqının 35-50 faizi həcmində ola bilər.

***Nominal əmək haqqı*** – işçinin və qulluqçunun müəyyən vaxt (saat, gün, ay, il) vahidi ərzində öz zəhmətinə görə aldığı pulun konkret məbləğidir. Təhsil, ixtisas, bacarıq və şəxsi qabiliyyəti səviyyəsində, eyni zamanda müəyyən şərtlər-hüdudlar dairəsində çilingərin, poladəridənin, sürücünün, müəllimin, şirkət başçısının bir-birindən fərqli nominal əmək haqqı aldıqları məlumdur.

ABŞ-da restoran xidmətçisinin orta aylıq əmək haqqı – 1.200 dollar, əyləncə mərkəzi işçisininki – 1.500 dollar, pərakəndə ticarət mağazası satıcısınınkı – 1.800 dollar, polis zabitininki – 3.300 dollar, peşəkar tibb bacısınınkı – 4.000 dollar, mühəndisinki – 6.000 dollar, professorunkı – 7.000 dollar, təyyarə sürücüsününkü – 8.200 dollar, cərrahınkı – 11.400 dollardır.

Dünyanın müxtəlif ölkələrində təşkil olunan və fəaliyyət göstərən həmkarlar təşkilatları işçilərin hüquqlarını müdafiə edərək, onların nominal əmək haqqının yüksəldilməsi, yaşayış səviyyəsinin yaxşılaşdırılması, sahibkarlarla işçilər arasında baş verən münaqişələrin nizama salınmasında mühüm rol oynayırlar.

Həmkarlar təşkilatları müəyyən istisnalarla ölkəyə xaricdən iş qüvvəsi axınını məhdudlaşdıran qanunları dəstəkləyir, kiçik yaşlı uşaqların əməyindən istifadənin əleyhinə çixir, müəyyən yaş həddində işçinin-qulluqçunun pensiyaya çıxmasını nəzərdə tutur, iş həftəsinin qısaldılması istiqamətində səy göstərirlər.

Öz üzvlərinin mənafeyini qorumağa xidmət edən həmkarlar təşkilatları bu yolda müxtəlif üsul və taktikalardan, o cümlədən ***barışıq, razılaşma, vasitəçilik, arbitaj məhkəməsi, piketlər və narazılıq nümayişləri, eturaz mitinqləri, tətillər, boykot*** kimi vasitələrdən, yaranmış konkret vəziyyətə, habelə əmək münaqişəsinin xarakterinə uyğun olaraq istifadə edirlər.

Qeyd etmək zəruridir ki, ***nominal əmək haqqı*** hər bir işçinin, onun ailəsinin və yaşadığı cəmiyyətin ümumi inkişaf səviyyəsini müəyyənləşdirmək üçün mühüm bir amil olsa da, lakin istər işçinin, istərsə də ailəsinin sosial-iqtisadi vəziyyəti haqqında dolğun təsəvvür yaratmır. İstehsal-xidmət dairəsinin müxtəlif sahələrində çalışan hər bir işçi, nominal əmək haqqından vergi ödəməli, müxtəlif təyinatlı ödənişlər etməli, ərzaq-paltar almalı, sağlamlığı, istirahəti, rahatlığı üçün müəyyən xərclər çəkməlidir. İşçi və qulluqçuların, onların ailə üzvlərinin yaşayış səviyyəsi, təhsil-peşə hazırlığı, gündəlik həyat-məişət qayğıları real əmək haqqı ilə bağlıdır.

***Real əmək haqqı***, nominal əmək haqqının alıcılıq qabiliyyətidir. Başqa sözlə, real əmək haqqı işçinin nominal əmək haqqına ala biləcəyi müxtəlif istehlak şeyləri və xidmətlərin, yaxud yaşayış vasitələrinin cəmidir. Bu mühüm göstərici ilk növbədə nominal əmək haqqının kəmiyyəti (məbləği) və ölkədə qiymətlərin enib-qalxması dəyişikliyi (indeksi) ilə bağlıdır. Deməli, real əmək haqqı nominal əmək haqqı göstəricisi ilə ***düz***, qiymətlərin dəyişməsi ilə ***tərs*** mütənasibdir.

Məsələn, ölkədə qiymətlərin sabit qaldığı şəraitdə, nominal əmək haqqı il ərzində 5 faiz artmışsa, deməli real əmək haqqının da, 5 faiz yüksəldiyini söyləmək olar. (Əmək haqqı 5%>Qiymətlərin səviyyəsi 0).

Əgər il ərzində işləyənlərin əmək haqqı 7 faiz və ölkədə qiymətlərin də orta səviyyəsi 7 faiz artmışsa, o zaman real əmək haqqı sabit qalmışdır. (Əmək haqqı 7%=Qiymətlərin orta səviyyəsi 7%=1).

Nominal əmək haqqının 8 faiz artdığını, qiymətlərin isə ölkə üzrə orta hesabla 10 faiz yüksəldiyini fərz etsək, o zaman real əmək haqqı 2 faiz aşağı düşmüş olacaqdır. (Əmək haqqı 8%<Qiymətlərin orta səviyyəsi 10%).

Nəhayət, nominal əmək haqqının sabit qaldığı halda, ölkədə qiymətlərin artması prosesi baş vermişsə, deməli real əmək haqqı azalmış və milli valyutanın alıcılıq qabiliyyəti zəifləmişdir. Əksinə, nominal əmək haqqının sabit qaldığı şəraitdə, ölkədə qiymətlərin aşağı düşməsi müşahidə olunarsa, deməli real əmək haqqı yüksəlmiş və milli valyutanın alıcılıq qabiliyyəti artmışdır.

Real əmək haqqının səviyyəsinə, nominal əmək haqqı və ölkədə qiymətlərin enib-qalxması (indeksi) amilləri ilə yanaşı, işçinin ailə tərkibi, kiçik yaşlı uşaqların sayı, ictimai vəziyyəti, həyat tərzi də, şübhəsiz öz təsirini göstərir.

Ümumiyyətlə, qiymətlərin nisbi sabitliyi şəraitində real əmək haqqının artması prosesi, milli iqtisadiyyatın tərəqqisi və ölkə əhalisinin həyat səviyyəsinin yüksəlişinin göstəricisi olduğu halda, tənzimlənməyən iqtisadiyyat, inflyasiya, real əmək haqqının aşağı düşməsi meylləri cəmiyyətdə sosial narazılıq, hökumətin iqtisadi siyasətinə qarşı inamsızlıq, ictimai gərginlik yaradır.

**15.2.** Dövlət, xüsusi (özəl), bələdiyyə, qarışıq, şirkət, korporativ kimi əsas və törəmə mülkiyyət əsasında fəaliyyət göstərən müxtəlif istehsal-xidmət dairəsi obyektlərində, əmək haqqının bütün dünyada tarixən geniş yayılmış 2 forması olmuşdur. Bu formalardan biri ***vaxta görə (vaxtamuzd),*** digəri isə ***işə görə (işəmuzd)*** adlanır.

Ayrı-ayrı istehsal və xidmət dairəsi sahələrinin miqyasından, məhsul həcmindən, quruluşundan, texniki-texnoloji xüsusiyyətlərindən asılı olaraq, həmin əmək haqqı formalarından biri, yaxud konkret şəraitlə bağlı, müəyyən hallarda hər ikisindən istifadə olunur.

Əvvəllər işə görə əmək haqqı forması üstünlük təşkil etdiyi halda, müasir inkişaf mərhələsində isə vaxta görə əmək haqqı forması daha geniş yayılmışdır. Beləki, konveyer-axın xətləri ilə işləyən istehsal-xidmət sahələrində son məhsul həcmi ayrı-ayrı işçilərdən deyil, müəyyən bir qrupdan, briqada üzvlərindən, kollektivdən asılıdırsa, şübhəsiz orada vaxta görə əmək haqqı formasının tətbiqi daha məqsədəuyğun və səmərəlidir. İstehsal olunan məhsulun kəmiyyət və keyfiyyət göstəriciləri ayrı-ayrı işçilərin şəxsi qabiliyyət, xüsusi bacarıq səviyyəsindən asılı olduqda isə əmək haqqının işə görə formasından istifadə etmək daha faydalıdır.

Dünya ölkələrinin istehsal-xidmət dairəsi sahələrinin tarixi inkişaf təcrübəsi göstərir ki, maşınqayırma, kimya, avtomobil, metallurgiya sahələrində vaxta görə əmək haqqı forması daha yüksək xüsusi çəkiyə (80 faiz) malik olduğu halda, tikintidə, yaradıcılıq sahələrində, elmdə, mədəniyyət və incəsənətdə əmək haqqının işə görə forması özünü daha çox doğruldur.

Tanınmış fizikin, məşhur bəstəkarın, görkəmli ixtiraçının, böyük alim və sənətkarların uzun illərin əzablı axtarışlarının son nəticələrini sırf vaxt amili ilə ölçüb-qiymətləndirmək nə dərəcədə düzgün, eyni zamanda iqtisadi-sosial baxımdan səmərəlidir?

Vaxtilə Paris kafelərindən birində məşhur ispan rəssamı Pablo Pikasso ilə rastlaşan amerikalı turist, ondan öz xanımının portiretinin eskizini çəkməyi xahiş edərək, haqqını ödəməyə hazır olduğunu bildirir. Rəssam bir neçə dəqiqə ərzində sifarişi yerinə yetirərək deyir:

- Buyurun, xanımınızın portretinin eskizi, sizə 10.000 franka (2.000 dollara) başa gələcəkdir

  Belə yüksək qiyməti gözləməyən turist, əsəbləşərək etiraz edir:
- Axı, siz bu işi görmək üçün cəmisi bir neçə dəqiqə vaxt sərf etdiniz, baha deyilmi?

  Pablo Pikasso təmkinini pozmadan cavab verir:
- Yox cənab, bu işi bir neçə dəqiqəyə yerinə yetirmək üçün bütün əvvəlki həyatım və təcrübəm lazım olmuşdur.

Vaxta görə (vaxtamuzd) və işə görə (işəmuzd) əmək haqqı formalarının, real həyat, habelə təsərrüfatçılıq fəaliyyətində bir sıra sistemləri tətbiq olunur. Ötən əsrin əvvəllərində əməyin intensivliyinin sürətləndirilməsi və onun məhsuldarlığının yüksəldilməsinə əsaslanan ***teylorizm,*** fordizm sistemləri ABŞ-da geniş yayılmışdı. Müəyyən müsbət cəhətlərinə baxmayaraq, sonralar dünyanın müxtəlif sənaye ölkələrində yayılmış əmək haqqının bu sistemləri, yaxud onun müəyyən ünsürləri, əslində işçilərin sağlamlığının pozulması, fiziki-mənəvi imkanlarının tükənməsi, nəhayət işçinin texniki proseslərin «mexaniki əlavəsinə» çevrilməsi prinsipi üzərində qurulmuşdu. Təsadüfi deyildir ki, əmək haqqının yüksəldilməsinə yönəldilmiş sistemlər, onun həvəsləndirici vasitələri, «tərtökdürücü» sistem adını almışdı.

XX əsrin ikinci yarısından etibarən, az səmərəli və işçini (insan amilini) istehsal vasitələrinin adi əlavəsinə çevirməyə yönəlmiş əmək haqqının bu sistemləri, yeniləri ilə əvəz olunmağa başlamışdı.

Müasir mərhələdə, işçinin istehsal-xidmət sahələrindəki şəxsi marağını artırmaq və onu həvəsləndirmək üçün yeni vasitələrdən istifadə olunur. Həmin vasitələr arasında işçilərin şirkətin səhmlərinə sahib olmaqla onun «mülkiyyətçisinə» çevrilməsi («iqtisadi demokratiya»); onların şirkətin maliyyə-təsərrüfat fəaliyyətinə cəlb olunması («mənfəətdə və nəzarətdə iştirak»); şirkətin vəziyyəti haqqında işçilərə ətraflı məlumat verilməsi («analitik təhlil») işçilərin peşə-sənət hazırlıq səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi («əməyin hümanistləşdirilməsi») sistemləri mühüm yer tutur.

**15.3.** Bəşəriyyətin həyatı və çoxcəhətli təsərrüfat fəaliyyəti həmişə torpaqla, onun yeraltı-yerüstü sərvətləri ilə bilavasitə yaxud dolayı yollarla bağlı olmuşdur. Qədim dövrlərdən əsas istehsal vasitəsi sayılan ***Torpaq,*** müqəddəslik rəmzi kimi ***Ana*** və ***Vətən*** anlayışları ilə eyni mənada işlənmişdir. Təsadüfi deyildir ki, klassik siyasi iqtisad məktəbinin banilərindən U.Pettinin ***«sərvətin atası əmək, anası isə torpaqdır»*** fikri müdrik aforizmə çevrilmişdir.

Nadir və bərəkətli təbii sərvət olan torpağı yaratmaq, artırmaq, təkrar istehsal etmək mümkün deyildir. Planetin 1/3 hissəsini təşkil edən quru ərazilərin heç də hamısı təsərrüfatçılıq fəaliyyəti üçün əlverişli hesab edilmir. Xüsusilə son 200 ildə dünya əhalisinin sayının 7 dəfə artması və yeni şəhərlərin salınması, sənaye obyektlərinin tikilməsi, magistral yolların çəkilməsi, istehsal-xidmət təyinatlı geniş infrastruktura şəbəkəsinin yaradılması nəticəsində ümumiyyətlə torpaq sahələrinin, o cümlədən də əkin-biçin üçün yararlı, münbit torpaqların azalması meyli bəşəriyyəti düşündürməyə bilməz. İlkimiz və sonumuz, qida və xammal mənbəyimiz, havamız və suyumuz, həyatımız və rifahımız sayılan Torpağın qədri bilinməli, əvəzsizliyi dərk edilməli, qayğıkeşliklə istifadə olunmalı, hər qarışı qeyrət-şərəflə qorunmalıdır. Müdriklər demişlər ki, ***torpağı əkib-biçməsən qorumağa və qorumasan əkib-becərməyə dəyməz...***

Milli iqtisadiyyatın ən mühüm sahələrindən biri – torpaq və onunla istifadə ilə bağlı ***kənd təsərrüfatı, aqrobiznes, aqrar bölmədir.*** Bu sahə, ölkənin və beynəlxalq bazarın müxtəlif təyinatlı xammala olan ehtiyaclarını ödəməklə yanaşı, eyni zamanda istər daxili, istərsə də xarici bazarlarda əhalinin ərzaq-sənaye, gündəlik tələbat məhsulları ilə təmin olunmasında mühüm rol oynayır.

Torpaq və ondan istifadə ilə bağlı problemlər, bütövlükdə ölkənin təsərrüfat həyatının, habelə iqtisadi təhlükəsizliyinin tərkib hissəsi olub, aqrar bölmədə baş verən istehsal münasibətlərini əhatə edir. Ümumiyyətlə maddi nemətlərin istehsalı prosesində ***torpaq mülkiyyətçisi, torpağa sahiblik etmək, onun haqqında sərəncam vermək, torpaqdan istifadə hüquqlarının reallaşdırılması*** gedişində yaranan qarşılıqlı, çoxcəhətli münasibətlər sistemi, tam bir kompleks halında aqrar münasibətlərə daxildir.

Torpaq üzərində ağalıq və mülkiyyət hüququ məsələsi həmişə insanların, sosial qrupların, hətta dövlətlərin mənafeyi ilə bağlı olmuşdur. Ona görə də torpaq və ona sahib olmaq uğrunda aşkar-gizli mübarizə təkcə ayrı-ayrı şəxslər arasında deyil, hətta dövlətlər arasında da uzun mübahisələrə, diplomatik danışıqlara, gərgin münaqişələrə, qanlı müharibələrə səbəb olmuşdur.

Torpaq üzərində mülkiyyətin – ***dövlət, xüsusi, bələdiyyə*** kimi əsas formaları ilə yanaşı, eyni zamanda ***şərikli, kollektiv, payçı, ictimai*** kimi törəmə formaları da vardır. İbtidai icma cəmiyyətində torpaq üzərində ümumi mülkiyyət olduğundan, heç kəs müəyyən sahəni özününkü hesab edib, istifadəsinə keçirə bilməzdi. Lakin ictimai əmək bölgüsü nəticəsində, cəmiyyətdə qeyri-bərabərlik meylləri yarandıqca, insanların torpağa olan münasibətləri də dəyişmişdir.

Quldarlıq və feodalizm cəmiyyətlərində torpaq üzərində quldarın, feodalın tam ağalığı yaxud mülkiyyətçisi hüququ hökm sürmüşdü. Qul öz əməyinin məhsulunun hamısını, kəndli isə öz məhsulunun müəyyən hissəsini «ağa torpağının» haqqı kimi feodala, mülkədara, xana, bəyə verməyə məcbur idi.

Sərbəst rəqabət bazarı şəraitində, cəmiyyət həyatının bütün sahələrində alqı-satqı münasibətləri adi hala çevrildikdən sonra, torpaqla bağlı əvvəlki ***məcburi, qeyri-iqtisadi hökmranlıq*** və ***şəxsi asılılıq münasibətləri*** aradan qaldırıldı. Azad sahibkarlıq fəaliyyəti mühitində, torpaq da digər əmtəələr kimi bazarda yaranmış tələb və təklif meyarlarına uyğun, alınıb-satılmağa başlandı.

Eyni zamanda torpaq üzərində mülkiyyət hüququ qalmaqla, onun müəyyən müddətə və konkret şərtlər əsasında icarəyə verilməsi praktikası geniş yayılmağa başladı. Deməli, bazar münasibətləri iqtisadi sistemi şəraitində, torpaq bir təsərrüfat obyekti kimi hüquqi cəhətdən öz mülkiyyətçisinin tabeliyində qalsa da, lakin bu torpaq sahəsinin əsl istifadəçisi və müvəqqəti də olsa «sahibi» icarəyə götürən şəxs sayılır. Bu proses, iqtisadi nəzəriyyədə mülkiyyətin öz əsl sahibndən yaxud mülkiyyətçisindən «ayrılması» kimi səciyyələndirilir. Buna səbəb əsl torpaq mülkiyyətçinin sahəsinin genişliyi, torpaqdan istifadə imkanlarının məhdudluğu, pula olan ehtiyacı, başqa işlə məşğul olması, nəhayət öz torpağını becərməklə deyil, onu icarəyə verməklə, renta hesabına yaşamaq arzusudur.

Bazar münasibətləri mühitində ayrı-ayrı torpaq sahələri kəmiyyət və keyfiyyətindən, satış bazarlarına yaxın-uzaqlığından, münbitlik göstəricilərindən asılı olaraq, müxtəlif şərtlərlə, fərqli qiymətlərlə alınıb-satılır. Öz torpaq sahələrəini satıb, mülkiyyət hüququnu itirmiş dünənki kəndlilər isə ya şəhərlərə üz tutub muzdlu işçilərə çevrilir, ya da iri torpaq

sahiblərinin yanında çalışmağa məcbur olurlar. Eyni zamanda yaranmış yeni şəraitə uyğunlaşan müəyyən qrup işgüzar adamlar, xüsusi mülkiyyətə əsaslanan ailə və fermer təsərrüfatlarını formalaşdıraraq, aqrobiznes fəaliyyəti yolu ilə getmişlər.

74 il yaşamış sosializm cəmiyyətində, torpağın milliləşdirilməsindən başlayaraq, sonralar kolxoz, sovxoz, aqrar-sənaye birlikləri kimi müxtəlif təsərrüfatçılıq formalarının meydana çəxmasına baxmayaraq, iqtisadi maraq, şəxsi təşəbbüs, rəqabət prinsiplərinin pozulduğu bir sistemdə aqrar münasibətləri iflasa uğradı. Həmin iqtisadi sistem dağıldıqdan sonra postsosialist və postsovet məkanında formalaşmış yeni müstəqil dövlətlərdə, o cümlədən də Azərbaycan Respublikasında həyata keçirilən aqrar islahatları nəticəsində torpaq sahələri kənd əhalisinə paylandı.

**15.4.** ***«Renta»*** alman sözü olub, müəyyən torpaq sahəsindən istifadə edən hər hansı bir şəxsin, yaxud torpağı icarəyə götürənin əldə etdiyi gəlirin müəyyən hissəsinin, həmin torpağın mülkiyyətçisinə verdiyi haqqdır. Geniş mənada renta məhdud iqtisadi resurslardan və torpaqdan istifadə üçün ödənilən qiymətdir. Əgər torpaq sahəsini onun öz mülkiyyətçisi (əsl sahibi) əkib-becərirsə, təbiidir ki, əldə olunan gəlir torpağın mülkiyyətçisinə çatır. Torpaq sahəsi dövlətindirsə, o zaman renta dövlətə, bələdiyyəyə məxsusdursa bələdiyyə; şirkətindirsə həmin şirkətə; müəyyən ictimai təşkilatın yaxud qurumundursa, ona çatır.

Rentanın tarixi tipləri kimi ***quldar, feodal, kapitalizm*** (sərbəst sahibkarlıq) rentalarını göstərmək olar. Torpaq rentası quldarlıq dövründən başlanmış, feodalizm mərhələsindən keçmiş, müasir bazar münasibətləri iqtisadi sistemində də davam etməkdədir. Onun mənbəyi, cəmiyyətdə hökm sürən mülkiyyət münasibətləri (torpaq kimə məxsusdur) və torpaq sahəsini əkib-becərən (ondan istifadə edən) şəxsin, yaxud bir qrupun əməyi, zəhmətidir. Rentanın konkret kəmiyyəti, ödəniş forması, müddəti isə müxtəlif olub, ***torpaq mülkiyyətçisi ilə torpağı icarəyə götürən*** arasındakı sövdələşmədən asılıdır.

Torpaq rentasının ***işləyib ödəmə (biyar), məhsulla ödənilən (natural) və pulla ödənilən formaları*** təsərrüfatçılıq təcrübəsində geniş yayılmışdır. Bu 3 formanın müəyyən ünsürlərini özündə birləşdirən qarışıq bir formadan da istifadə olunması halları mümkündür.

Tarixən bütün dünyada kənd təsərrüfatı məhsulları istehsalının yaxud aqrobiznes sahəsinin özünəməxsus xüsusiyyətləri olmuşdur. Elmi-texniki nailiyyətlərə, biologiya sahəsindəki ciddi uğurlara, irriqasiya-meliorasiya istiqamətindəki böyük işlərə baxmayaraq, aqrar bölmədə torpaq sahələrinin məhdudluğu və əkin üçün yararlı torpaq sahələrinin təbii münbitliyi problemi qalmaqdadır.

Bu səbəbdən iqtisadiyyatın başqa sahələrindən fərqli olaraq, kənd təsərrüfatı məhsullarının (taxıl, ət-süd, çay, meyvə-tərəvəz, pambıq, tütün və sair) satış qiyməti, nisbətən az məhsuldar, əlverişsiz torpaq sahələrindən götürülən məhsullara sərf olunmuş, xərclər əsasında formalaşır. Həmin qiymət, kənd təsərrüfatı məhsullarının ***orta satış qiyməti*** sayılır. Bu orta qiymət səviyyəsi kəmiyyətindən artıq (+) əldə edilən gəlir – ***differensial yaxud fərq rentası*** adlanır. Differensial rentanın əmələ gəlməsini şərtləndirən amillər: a) torpaq sahələrinin münbitliyinin bir-birindən fərqli olmasa; b) bu sahələrin satış bazarından yaxın-uzaq yerləşməsi; c) həmin torpaqlardan müxtəlif intensivliklə istifadə edilməsi; ç) torpaqdan istifadəçinin şəxsi bacarıq və təşkilatçılıq qabiliyyətidir.

İqtisadi nəzəriyyədə 2 cür (növ, tip) differensial yaxud fərq rentası vardır:

***I differensial renta*** – müəyyən torpaq sahəsinin təbii xüsusiyyətləri, münbitliyi, satış bazarına yaxın-uzaq yerləşməsi şərtləri ilə əlaqədardır. Aydindir ki, bu amillərin hər biri ayrı-ayrılıqda və kompleks halında, torpaqdan istifadə edən fermerlərə, icarədarlara əlavə gəlir (renta) əldə etməyə real imkanlar açır.

***II differensial renta*** – konkret torpaq sahəsinə əlavə kapital qoyuluşu, müxtəlif xərclər çəkilməsi, suvarma sistemi yaradılması, aqrotexniki tədbirlərin həyata keçirilməsi, torpağın şoranlaşmasının və münbitliyinin azalmasının qarşısının alınması hesabına əldə edilir. İcarədarın şəxsi təşəbbüsü və işgüzarlıq istedadı sayəsində əldə olunmuş əlavə gəlir torpaq mülkiyyətçisinə deyil, icarədara çatır.

Torpaq rentasının ***hasilat, mədən, tikinti*** kimi müxtəliflikləri vardır ki, bunları differensial rentanın konkret təzahür formaları adlandırmaq olar.

Torpaq sahələrinin istifadəsi ilə bağlı əmələ gələn rentanın bir forması da ***inhisar rentasıdır.*** Təsərrüfatçılıq təcrübəsindən məlumdur ki, bəzi kənd təsərrüfatı məhsullarının, məsələn zəfəranın, şampan növ üzümün, müxtəlif ədviyyatın, yüksək keyfiyyətli çayın, kofenin, balın yetişdirilib hazırlanması üçün bir sıra xüsusi təbii şərtlərin olması zəruridir. Ona görə də, nadir və aztapılan kənd təsərrüfatı məhsulları sırasına aid edilən bu əmtəələr, daxili-xarici bazarlarda ***yüksək qiymətə satılaraq,*** öz mülkiyyətçilərinə yaxud icarədarlara ***inhisar rentası*** gətirir.

Torpaq kimi əzəli-əbədi bir nemətin əslində qiyməti yoxdur, o əvəzsizdir. Lakin zaman keçdikcə torpaq sahələri parçalanaraq qazanc mənbələrindən birinə çevrilmiş, hələ qədim dövrlərdən başlayaraq aşkar-gizli alınıb-satılmışdır.

Müxtəlif torpaq sahələri müəyyən meyar və şərtlər, obyektiv və subyektiv səbəblərlə bağlı dəyərləndirilib, lakin tələb və təklif əsasında satıldıqda 2 amil əsas rol oynayır. ***Birincisi,*** satılan torpaq sahəsinin əkilib-biçilməsi nəticəsində il ərzində əldə oluna biləcək gəlirin (rentanın) məbləğidir. İkincisi bankların onlara qoyulmuş əmanətlər (depozitlər) üzrə ödədiyi illik faiz dərəcəsi, yaxud həmin əmanətin gətirdiyi dividenddir. Bu iki şərti nəzərə almaqla, satılan torpaq sahəsinin bazar qiymətini belə hesablamaq olar:

$$Torpaq\ sahəsinin\ qiyməti = \frac{\begin{matrix} Torpaq\ sahəsinin\ il\ ərzində \\ verdiyi\ gəlir\ (Renta) \end{matrix}}{\begin{matrix} Bakın\ əmanətlər \\ üzrə\ ödəniş\ faizi \end{matrix}} \cdot 100\%$$

Fərz etsək ki, satılan torpaq sahəsinin illik gəliri (rentası) 10.000 manat (dollar, avro) və bankın əmanətlər üzrə ödənişi 5 faizdirsə, o zaman bu torpaq sahəsinin qiyməti aşağıdakı məbləğdə olacaqdır:

$$T = \frac{10.000\ manat\ (dollar, avro)}{5\%} \cdot 100\% = 200.000\ manat\ (dollar, avro)$$

Deməli, yuxarıdakı şərtlər daxilində, həmin torpaq sahəsinin satış qiyməti 200.000 manatdır (dollardır, avrodur).

Şübhəsiz, burada göstərilən konkret bir torpaq sahəsi, bazarda yaranmış real tələb və təklifdən asılı olaraq, daha yüksək yaxud nisbətən ucuz qiymətə satıla bilər. Tanınmış yazıçı, Nobel mükafatı laureatı C.Steynbek (ABŞ) «Həyacanlarımızın qışı» romanında, əyalətlərdən birində adi torpaq sahəsinin, hərbi-strateji məqsədli obyekt tikintisi üçün zəruri olduğundan, son dərəcədə baha qiymətə satışı prosesinin dramatik səhnələri, yüksək bədii ustalıqla təsvir olunmuşdur.

Eyni zamanda bəzən zərurət, bəzən də hərtərəfli düşünülməmiş, ölçülüb-biçilməmiş addımlar nəticəsində vaxtilə dəyər-dəyməzə satılmış torpaq sahələrinin, ata-baba mülklərinin sonralar insanlarda necə acı təəssüf və nisgilli həsrət hissləri doğurduğu yaxşı məlumdur.

Maraqlıdır ki, hələ 250 il bundan əvvəl, fiziokratlar iqtisadi məktəbinin banisi F.Kene (Fransa) müəyyən bir torpaq sahəsinin satış qiymətinin, həmin sahənin 20 illik gəlirinə bərabər olduğu fikrini söyləmişdi.

Müasir dövrdə qlobal problemə çevrilmiş torpaq qıtlığı və əkin üçün yararlı sahələrin getdikcə məhdudlaşdığı şəraitdə, istehsal-xidmət dairəsini müxtəlif xammal, əhalini isə kifayət qədər ərzaq məhsulları ilə təmin etmək üçün ən mükəmməl elmi-texniki nailiyyətlər əsasında, torpaq resurslarından səmərəli faydalanmaq xətti mühüm əhəmiyyət kəsb edir.

**15.5.** Bəşər cəmiyyətində baş verən və fasiləsiz bir surətdə davam edən istehsal prosesləri istər istehsalın sonrakı inkişafı, istərsə də insanların müxtəlif təyinatlı maddi (çörək, mebel, ət, maşın, paltar) və mənəvi (tamaşa, müsiqi, rəsm əsəri, kinofilm) nemətlərin (məhsulların, xidmətlərin) yaradılması ilə nəticələnir.

Şübhəsiz, həm maddi, həm də mənəvi sahələrin hər ikisi cəmiyyətin və onun üzvlərinin normal yaşayıb fəaliyyət göstərmələri üçün zəruridir. İnsana ərzaq məhsulları ilə yanaşı, kitab, təhsil, xidmət dairəsi də vacibdir. Çünki insan ayrı-ayrılıqda nə maddi nemətlərlə, nə də mənəvi nemətlərlə tox ola bilməz. Sanki bunlar uçmağa hazırlaşan quşun iki qanadıdır.

Dünya ölkələrinin təsərrüfat həyatı təcrübəsi göstərir ki, maddi və qeyri-istehsal sahələrinin düşünülmüş, tarazlı nisbətlər əsasında bir-birini məntiqi ardıcıllıqla tamamlayan inkişafı olmadan, cəmiyyətin əsl tərəqqisi mümkün deyildir. Qeyri-istehsal sahələrinin normal inkiüafi, iqtisadi sistemin ictimai əmək məhsuldarlığının yüksəldilməsinin, onun son sosial-iqtisadi nəticələr baxımından səmərəli fəaliyyətinin və cəmiyyətdəki qarşılıqlı münasibətlərin humanistləşdirilməsi səviyyəsinin meyarlarını şərtləndirir. Bu mənada dünya miqyasında qeyri-istehsal dairəsinin maddi istehsal sahəsinə nisbətən üstün templərlə artması meyli, getdikcə özünü qanunauyğunluq kimi daha aydın bir tərzdə göstərməkdədir.

Lakin hər halda etiraf etmək lazım gəlir ki, cəmıyyətin və insanların həyatında maddi nemətlər istehsalı həlledicidir. Doğrudur, hər şey deyil, amma onsuz yaşamaq da mümkün deyildir.

Nizami Gəncəvinin «İsgəndəmamə» əsərində belə bir mənzərə təsvir olunur ki, İsgəndərin anası toraqlar fəth edən oğlunım torpağa tapşırılmasına razı olmur. Lakin vəzirin məsləhəti ilə oğlunun tabutu ilə bir otaqda ac-susuz qalan ana, tavandan asılmış bir parça quru çörək üçün doğma balasının sinəsindən basır...

İqtisadi nəzəriyyə maddi istehsal sahəsinə - sənayeni, kənd təsərrüfatını, tikintini, hasilat dairəsini, energetikanı, meşə təsərrüfatını balıqçılığı, ovçuluğu daxil edir.

Qeyri-istehsal, yaxud xidmət sahəsinə isə təhsil, elm, səhiyyə, bədən tərbiyəsi, elmi müəssisələr, təminat xidməti (bank, sığorta, pensiya), əhaliyə məişət xidməti, mənzil-kommunal müəssisələri, sərnişin nəqliyyatı, mədəniyyət, incəsənət, turizm, qeyri-istehsal xarakterli rabitə, ticarət, dövlət idarəetmə orqanları və əhalinin asayişini qoruyan orqanlar daxildir.

Milli iqtisadiyyat çərçivəsində maddi istehsal və qeyri-istehsal sahələri bir-birinin inkişafı, habelə fəaliyyətinə qarşılıqlı təsir göstərirlər.

Eyni zamanda belə bir cəhətə də diqqət yetirilməsi vacibdir ki, maddi istehsal sahələrindən fərqli olaraq, qeyri-istehsal sahələri təbii nemətlərin və istehsalın ciddi dəyişdirici təsirinə məruz qalmır. Bu sahə bilavasitə əmək alətləri, dəzgahlar, maşınlar, istehsal vasitələri kimi şeylər yaratmaqla məşğul olmur. Qeyri-istehsal sahələrinin bilavasitə təsir obyekti insan və onun həyat fəaliyyətinin müxtəlif sosial şərtləri, amilləridir.

Lakin həmin amillər olmazsa, həyatın sonrakı tam mənasında davamı mümkün sayıla bilməz. Qeyri-istehsal dairəsində çalışan həkim bizim sağlamlığımızı qoruyur, müəllim-tərbiyyəçilər yeni nəslin yetişdirilməsində iştirak edir, müğənni öz sənəti ilə dinləyicilərə mənəvi qida verir, aktyor yaradıcılığı ilə tamaşaçıları ruhlandırır.

Deməli, vaxtilə müqqədəs kitablarda öz əksini tapmış «insan təkcə bir qismət çörəklə kifayətlənə bilməz» müdrikliyi, həmişə maddi və mənəvi nemətlərin həyatda bir-birini üzvü surətdə tamamladığını təstiq edir.

Təsadüfi deyildir ki, tanınmış iqtisadçı U.Rostau (ABŞ) bəşəriyyətin inkişafının ən yüksək, zirvə mərhələsini «keyfiyyətli həyat səviyyəsi» kimi səciyyələndirərək, orada insanların mənəvi-intelektual inkişafını şərtləndirən xidmət dairəsinin cəmiyyətin maddi istehsal sahələrinə nisbətən daha üstün templərlə irəliləməsi zəruriliyinin qanunauyğun, təbii bir proses olmasını elmi-nəzəri cəhətdən əsaslandırmışdır. Bu mənada müasir dövr, əvvəllər dəbdə olmuş «əşya-şey üstünlüyü» mərhələsindən, «insana xidmət» mərhələsinə dönüş kimi səciyyələndirilərək, cəmiyyətin maddi imkanlarının onun ən qiymətli sərvəti sayılan «insan amilinə - kapitalına», onun mənəvi-intelektual səviyyəsinin yüksəldilməsinə yönəldilməsi zəruriliyi irəli sürülür.

Hazırda dünya ölkələrinin iqtisadi-sosial göstəriciləri Birləşmiş Millətlər Təşkilatının tövsiyyə etdiyi Milli Hesablamalar Sistemi (MHS) əsasında aparılır. Hesablama sistemində ölkənin istehsal etdiyi məhsullar (maddi istehsal) və göstərdiyi müxtəlif təyinatlı xidmətlər (qeyri-istehsal) eyni əsaslarla (pul ifadəsində) nəzərə alınaraq, ölkənin ÜDM-na (ümumi daxili məhsuluna), MG-nə (milli gəlirinə) daxil edilir. Şübhəsiz, bu üsulla hesablamalarda müəyyən təkrar və qüsurlara yol verilə bilir. Lakin dünya təcrübəsində və bazar münasibətləri şəraitində BMT-nin tövsüyyəsi ilə ölkələrin əksəriyyəti hesablamaları məhz bu metodika ilə aparırlar.

Qeyd etmək lazımdır ki, bütövlükdə təsərrüfat sahəsinin və ayrı-ayrılıqda müxtəlif fəaliyyət növlərinin cəmiyyət həyatında, habelə istehsalda rolunu düzgün təsəvvür etmək üçün ilk növbədə bunların ümumi istehsalın hansı bölməsinə aid olduğu aydınlaşdırılmalıdır.

BMT-nin məsləhəti ilə tətbiq olunan Milli Hesablamalar Sisteminə görə, hazırda hər hansı bir ölkənin iqtisadiyyatı (xalq təsərrüfatı) 2 sahəyə (maddi istehsal sahəsinə və qeyri-istehsal sahəsinə); 3 bölməyə (maddi nemətlər istehsalına, maddi xidmətlər istehsalına və qeyri-maddi xidmətlər, mənəvi_nemətlər istehsalı) ayrılır. Bu cür bölgünü aşağıda verilmiş cədvəl aydın əks etdirir.

Həmin cədvəldən aydın olur ki, deməli: I sahə - maddi istehsal sahələrini; II sahə - qeyri-istehsal sahələrini əhatə edir.

İstehsalın bu 2 sahəsi aşağıdakı 3 bölməyə ayrılır: l-ci bölmə - maddi nemətlər istehsalı; 2-ci bölmə - maddi xidmətlər istehsalı; 3-cü bölmə - qeyri-maddi xidmətlər, yaxud mənəvi xidmətlər istehsalı.

Qeyd edək ki, maddi və qeyri-maddi xidmətlər istehsalının texnologiya oxşarlığı, idarəçiliyi və əhalinin rifahına yönəldilməsi, üçüncü bölməyə - birləşdirici təsərrüfat kompleksi kimi baxmağa imkan verir. Eyni zamanda xidmət sahələrinə tam şəkildə baxılması, qeyri-maddi (mənəvi) xidmətlər yaradan istehsal sahəsini, xalq təsərrüfatının 3-cü bölməsindən ayırmağa imkan verir.

Qeyri-istehsal, yaxud xidmət dairəsində (sferasında) olan iqtisadi münasibətlər, müəyyən mənada maddi istehsal sahəsindəki münasibətlərə bənzəsə də, lakin buranın özünəməxsus bir sıra xüsusiyyətləri vardır. Həmin xüsusiyyətlər kimi aşağıdakıları göstərmək olar:

**Xalq təsərrüfatının (iqtisadiyyatın) 2 sahəsi və 3 bölməsi**




***Əvvələn,*** maddi istehsal fəaliyyəti prosesində insan təbiətə və ümumiyyətlə ətraf mühitə (ekoloji məkana) dəyişdirici təsir göstərərək, onu öz tələbatlarına uyğunlaşdırır. İnsanlar bütövlükdə cəmiyyətin və özünün şəxsi ehtiyaclarını ödəmək üçün meşələrdən faydalanır, onun bitgi və meyvələrindən istifadə edir, mədənlərdən daş kömür, filiz hasil edir, yataqlardan neft-qaz çıxarır, torpaqları əkib-becərir.

Mənəvi istehsalda (qeyri-istehsal dairəsində, xidmət sahəsində) isə insan fəaliyyətinin nəticələri başqa meyarlarla ölçülür. Bu sahə cəmiyyətin, onun ayrı-ayrı qruplarının, hətta fərdlərinin də mənəvi tələbatlarını ideyalar, bədii obrazlar, musiqi əsərləri, rəssamlıq və heykəltəraşlıq nümunələri, elmi kəşflər, müəllimlik və həkimlik fəaliyyəti ilə ödəyir. Deməli, maddi istehsal prosesinin sonunda insan əməyinin, onun iş qüvvəsinin nəticələri konkret əşyalar timsalında maddiləşir. Qeyri-istehsal və xidmət dairəsində bu hadisə elmi biliklər, ideyalar, bədii obrazlar, incəsənət nümunələrində öz

əksini tapır. Eyni zamanda bu prosesdə nəticələr maddi istehsala nisbətən daha uzun bir müddətə başa gəlir.

***Sonra,*** qeyri-istehsal dairəsində maddi istehsaldan fərqli olaraq, xidmətin göstərilməsi və onun istehlakı prosesi çox zaman eyni vaxtda baş verir. Bu həkimin, müəllimin, artistin əməyinə aid edilə bilər. Həmin xidmət növləri «qorunub saxlana bilmədiyindən», o maddi əşya, yaxud konkret şey şəkli ala bilmir. Bəzən bu xidmətləri bir yerdən başqa ünvanlara aparmaq da mümkün olmur. Çox zaman qeyri-istehsal və xidmət dairəsi məkan etibarılə daha məhdud bir xarakter daşıyır.

***Daha sonra,*** qeyri-istehsal sahəsində yaradılmış məhsullardan və göstərilən xidmətlərdən, yaxud bu sahələrin son nəticələrindən bir çox hallarda elə o dairədə də istifadə olunur. Müəllimin, həkimin, idmançının əməyi buna misal ola bilər. Lakin eyni zamanda unutmaq olmaz ki, qeyri-istehsal dairəsində çalışanların əməyi, şübhəsiz maddi istehsal sahəsi və orada işləyənlərin öz fəaliyyətlərini normal surətdə həyata keçirmələri üçün zəruridir.

**XXI əsrin birinci onilliyində dünya ölkələrinin ümumi daxili məhsulunda (ÜDM) ayrı-ayrı sahələrin xüsusi çəkisi (faizlə)**

| Ölkə qrupları | Kənd təsərrüfatı | Sənaye | Xidmət dairəsi |
|---|---|---|---|
| Yüksək inkişaf etmiş ölkələr | 2-3 | 33-35 | 72-75 |
| İnkişaf etməkdə olan ölkələr | 10-15 | 34-36 | 46-55 |
| Zəif inkişaf etmiş ölkələr | 32-35 | 26-28 | 41-49 |

Təsadüfü deyildir ki, müasir mərhələdə hər hansı bir ölkənin ümumi iqtisadi-sosial göstəriciləri arasında xalq təsərrüfatında çalışanların istehsal və qeyri-istehsal sahələr üzrə bölgüsü mühüm əhəmiyyət kəsb edir. Yüksək inkişaf etmiş ölkələrdə qeyri-istehsal və xidmət dairəsində çalışanların sayı sürətlə artmağa doğru meyl edir. Bu meyli aşağıda verilmiş cədvəldən görmək olar.

Cədvəldə qrup ölkələr üzrə verilmiş ümumiləşdirilmiş orta göstəricilər belə bir meylin qanunauyğunluğunu təsdiq edir ki, bütövlükdə dünyanın ümumi daxili məhsulunda (ÜDM) tədricən maddi istehsal sahələrinin (sənayenin, kənd təsərrüfatının və digərlərinin) mütləq rəqəmlərlə artımı müşahidə olunsa da, lakin xüsusi çəki (faiz) etibarilə payı aşağı düşür. Əksinə, xidmət dairəsinin payı isə həm mütləq rəqəmlərlə, həm də faiz etibarilə getdikcə artmaqdadır. Bu mütərəqqi meyl özünü müstəqillik yolu ilə irəliləyən Azərbaycan Respublikası təsərrüfat həyatının sosial-iqtisadi inkişaf parametrlərində, habelə ölkənin ümumi daxili məhsulunun (ÜDM) sahə (bölmə) quruluşunda baş verən dəyişikliklərdə aydın göstərir.

Bazar münasibətləri şəraitində xidmət dairəsinin kommersiyalaşdırması və tədricən bu sahədə genişlənən pullu xidmətlərə keçilməsi prosesi təbii bir hal kimi qiymətləndirilməlidir. Lakin aydındır ki, bütün dünyada cəmiyyət və onun üzvləri üçün elə vacib məsələlər vardır ki, onların həyata keçirilməsini sırf pulla bağlamaq doğru sayıla bilməz. Bu BMT-nin İnsan Hüquqları Bəyannaməsinə və ölkə Konstitusiyasının tələblərinə zidd olardı.

Qətiyyətlə demək olar ki, xidmət dairəsi sahələrində (şübhəsiz, müəyyən istisnalarla) əhaliyə sosial zəmanət verən minimum səviyyədə pulsuz xidmətlər göstərilməsi prinsipi, cəmiyyətdə sosial ədaləti qoruyub saxlamaq naminə hamı üçün təmin edilməlidir. Bu

səviyyədə xidmətlərin göstərilməsini hər bir sivil, demokratik və ədalətli cəmiyyət hökmən öz üzərinə götürməlidir.

Eyni zamanda, sosial zəmanət səviyyəsindən əlavə, cəmiyyət üzvlərinə göstərilən xidmətlər pullu şərtlərlə, yəni haqqı ödənilməklə yerinə yetirilə bilər. Bütün dünyada əhaliyə sosial xidmət dairəsi dövlətin qayğısı və nəzarəti altındadır. Əlbəttə, ölkənin iqtisadi yüksəlişi nəticəsində əhalinin hər nəfərinə düşən gəlirlərin miqdarı artdıqca, insanların rifahı yüksəldikcə, pullu xidmətlərin dairəsi, şübhəsiz genişlənə bilər.

Məlumdur ki, dövlət büdcəsi vasitəsiylə cəmiyyətin gəlirlərinin düşünülmüş surətdə bölüşdürülüb-tənzimlənməsi nəticəsində, ölkə əhalisinin zəruri sosial ehtiyacları onların maliyyə imkanlarına görə deyil, ölkə vətəndaşı kimi real surətdə hiss etdikləri ehtiyaclarının minimum səviyyədə ödənilməsi yolu ilə həyata keçirilməlidir.

Bazar münasibətləri şəraitində, pulsuz sosial xidmətlərlə yanaşı, qeyri-istehsal sahəsi obyektlərində, mülkiyyətin özəlləşdirilməsi, müəssisələrin icarəyə verilməsi, kooperasiya, fərdi əmək fəaliyyəti, şərikli müəssisələrin genişlənməsi reallığında, haqqı ödənilən xidmətlər də olmalıdır. Aydındır ki, əhalinin rifahının yaxşılaşdırılması, onların nominal və real gəlirlərinin durmadan artması, şübhəsiz insanların zövq, habelə fərdi arzularına uyğun pullu xidmətlər şəbəkəsinin genişləndirilməsini şərtləndirir.

Lakin belə bir cəhət unudulmamalıdır ki, xidmət dairəsində pulsuz və pulla göstərilən xidmətlər arasında elə nisbət və həddlər olmalıdır ki, əhalinin geniş təbəqələri həqiqətən azad, demokratik, ədalətli cəmiyyətdə yaşadıqlarına əmin olsunlar.

**15.6.** Ümumi bir anlayış olan gəlir, təsərrüfatçılıq təcrübəsində müxtəlif variant və formalarda, o cümlədən də ***faiz dərəcəsi*** kimi meydana çıxır. İstehsalın torpaq və əmək kimi amillərinin mülkiyyətçiləri (sahibləri) bunları müəyyən qiymətə sataraq, yaxud icarəyə verərək, gəlir (renta, əmək haqqı) əldə edirlərsə, pul formasında olan kapital sahibləri də faiz şəklində gəlir əldə edirlər. Deməli, istər ***maddi*** (torpaq, bina, obyekt, avadanlıq, müəssisə), istərsə də ***pul*** şəklində olan kapital öz mülkiyyətçisinə müəyyən gəlir verməlidir. Torpaq və əməkdən fərqli olaraq, istehsalın törəmə amili sayılan ***kapital*** bu prosesdə həm ***iqtisadi resurs***, həm də ***məhsul*** rolunu oynayır.

Həmişə hərəkətdə olan kapital öz ilkin pul formasından məhsuldar formaya keçərək, müxtəlif təyinatlı əmtəələrin-xidətlərin hazırlanmasında iştirak edir və həmin məhsullar reallaşdırılaraq, yenidən müəyyən məbləğdə pul kapitalına çevrilir. Bu halda bazarda həm satıcı, həm də alıcı kimi iştirak edən müxtəlif ***bazar subyektlərinin*** (ev təsərrüfatlarının, şirkətlərin, korporasiyaların) əlində müəyyən məbləğdə «artıq» pul kapitalı toplamaqla yanaşı, eyni zamanda başqalarının xammal almaq, istehsalı genişləndirmək, habelə digər səbəblərlə bağlı, ***pul kapitalına, borc götürməyə, kreditə ehtiyacı*** yaranır. Alınan borc və götürülən kredit üçün isə müəyyən məbləğdə ***haqq, yaxud faiz ödənilir***.

Uzun bir tarixə malik olan ***borc kapitalı və faiz dərəcəsi*** məsələləri ilə müasir bazar münasibətləri iqtisadi sistemi şəraitində ***əsasən banklar,*** habelə müxtəlif ***maliyyə-kredit qurumları*** məşğul olurlar.

Banklar, kommersiya müəssisəsi olduğundan, onların geniş şəbəkəli xidmət sistemi müəyyən gəlir əldə etmək prinsipi əsasında qurulmuşdur. Onlar bazar münasibətləri mühitində apardıqları müxtəlif əməliyyatları ilə bütövlükdə istehsal-xidmət dairəsinin inkişafına əməli yardım və böyük təsir göstərirlər. İndiki inkişaf mərhələsində bankların öz müştərilərinə müxtəlif, o cümlədən ***əmanətləri saxlamaq və kredit (borc) vermək*** kimi

faydalı, etibarlı, fasiləsiz əməliyyatları olmadan, təsərrüfat həyatının tarazlı gedişini, habelə uğurlu perspektivlərini təmin etmək çətindir.

Banklar, fiziki və hüquqi şəxslərdən qəbul etdikləri əmanətlər üçün müəyyən faiz ödədikləri kimi eyni zamanda verdikləri borc pul, kredit üçün haqq tələb edirlər ki, buna ***faiz dərəcəsi*** deyilir.

***Faiz dərəcəsi*** – kreditə götürülmüş (borc alınmış) pul üçün ödənilən haqqdır, yaxud həmin məbləğin qiymətidir. Məsələn, kreditə verilən hər 1.000 manat (dollar, avro) üçün ildə 50 manat (dollar, avro) haqq ödəmək tələb olunursa, deməli faiz norması yaxud dərəcəsi 5% olacaqdır. Faiz dərəcəsi belə hallanır:

$$Faiz\ dərəcəsi = \frac{\begin{array}{c} kreditin\ hər\ 1.000\ manatı\ \text{üçün} \\ tələb\ olunan\ haqq\ (qiymət) \end{array}}{kreditin\ hər\ 1.000\ manatı} \cdot 100\% = \frac{50\ manat}{1.000\ manat} \cdot 100\% = 5\%$$

Şübhəsiz bankların faiz dərəcələri dəyişkən bir kəmiyyət olub, milli iqtisadiyyatın ümumi vəziyyətindən, borc kapitalına olan tələb-təklifdən, sosial-iqtisadi inkişafın perspektiv proqnozlarından bilavasitə, yaxud dolayı yollarla bağlıdır.

Dünya miqyasında kreditlər üçün faiz dərəcəsi 1-8% arasındadır. Postsosialiat və postsovet ölkələrində, o cümlədən Azərbaycan Respublikasında faiz dərəcəsi nisbətən daha yüksəkdir.

Qeyd etmək lazımdır ki, ***faiz dərəcəsi*** kredit götürənin borc verənin alıcılıq qabiliyyətinin bir hissəsini ***indidən gələcəyə*** keçirdiyi üçün ödədiyi qiymətdir. Başqa sözlə, faiz dərəcəsi 1 manatdan (dollardan, avrodan) il ərzində istifadə etmək üçün ***borc alanın, borc verənə ödədiyi məbləğdir.***

Borc üçün faiz (haqq) almaq, sələmçiliklə məşğul olmaq peşəsi müqəddəs kitablardan başlamış sosialistlərə qədər müxtəlif dövrlərdə tənqid olunsa da, lakin bu proses bazar münasibətləri sisteminin danılmaz reallığıdır. Faiz dərəcəsinin mahiyyətini aydınlaşdırmaq üçün tanınmış ABŞ iqtisadçısı **İrvinq Fişerlə** bağlı belə bir hadisəni nümunə göstərirlər.

Masaj salonunun xidmətçisi İ.Fişerə deyir ki, o əqidəcə sosialist olduğundan, kredit üçün faiz ödəməyi «oğurluq hesab edir». İqtisadçı ona göstərdiyi xidmət üçün çatacaq 30 dolların əvəzinə həmin məbləğdə ***veksel*** (borc öhdəliyi) verməyi və bu pulu 100 ildən sonra heç bir faiz artımı olmadan almağı təklif edir. Xidmətçi razılaşmadıqda, İ.Fişer soruşur: «Yaxşı, bəs 10 il müddətinə, bu məbləği müəyyən faiz artımı ilə almağa razısanmı?»

Xidmətçi ona çatacaq haqqın müəyyən vaxtdan sonra müəyyən faiz artımla qaytarılması şərti ilə razılaşdıqda, iqtisadçı gülümsəyərək demişdi: «Elə faiz dərəcəsinin mahiyyəti də bundan ibarətdir!»

Doğrudur, kreditlər üçün faiz dərəcələrinin müxtəlifliyi, xüsusilə həmin dərəcələrin yüksək olması iş adamlarına, biznes-sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara bir sıra çətinliklər yaratsa da, lakin ümumi makroiqtisadi sabitlik və inflyasiyanın nəzarətdə saxlanması baxımından, bu yol məqsədəuyğun sayılır.

İqtisadiyyatda inflyasiya prosesi ilə bağlı ***nominal və real faiz dərəcələri*** anlayışları vardır. ***Nominal faiz dərəcəsi*** borclar üzrə cari məzənnə (kursla), yaxud qiymətlərlə ölçülür. ***Real faiz dərəcəsi*** isə müqayisəli qiymətlərlə, inflyasiya səviyyəsi nəzərə alınmaqla hesablanır. Əgər bankın faiz dərəcəsi 10% və ölkədə illik inflyasiya səviyyəsi də

10%-dirsə, deməli real faiz dərəcəsi sıfıra (0) bərabərdir. Əksinə, faiz dərəcəsi 6% və inflyasiyanın səviyyəsi 3%-dirsə, o zaman real faiz dərəcəsi (6%-3%) 3 faiz olacaqdır.

Faiz dərəcələrinin müəyyənləşdirilməsi və ayrı-ayrı fiziki-hüquqi şəxslərə tətbiqində, ***kreditlə bağlı risq amili, borcun müddəti, onun həcmi, hökumətin və yerli hakimiyyət orqanların vergi siyasəti, banklar arasında rəqabət mübarizəsi, qeyri-mükəmməl*** rəqabət bazarının xüsusiyyətləri kimi öz təsirini göstərir.

Sivil bazar münasibətləri şəraitində faiz dərəcəsinin müəyyənləşməsi, ***pul kapitalının*** (saxta, fiktiv) ***real kapitala*** (məhsuldar) çevrilməsi prosesində mühüm rol oynadığından, bu işi cəmiyyət üçün səmərəli hesab etmək lazımdır.

**15.7.** Gəlirin bir forması (növü) olan ***mənfəət anlayışı*** bazar münasibətləri iqtisadi sisteminin fərqləndirici xüsusiyyətlərindən sayılan sahibkarlıq və işgüzar biznes fəaliyyəti ilə bağlıdır. Müasir anlamda ***sahibkar*** dedikdə, xüsusi iqtisadi qabiliyyətə, təşəbbüskarlıq səylərinə, təşkilatçılıq bacarığına malik, mürəkkəb bazar münasibətləri mühitində düzgün və səriştəli qərarlar qəbul etməyə qadir, yenilik naminə ağıllı-düşünülmüş risqə gedən şəxs (qrup) başa düşülür.

Sahibkar mülkiyyətçisi olduğu hər hansı bir istehsal-xidmət obyektini şəxsən özü, yaxud bu işi onun meneceri idarə edə bilər. Mülkiyyət obyektinin idarəçiliyindən asılı olaraq, əldə edilən sahibkar gəlirinin ümumi məbləği, istifadə istiqamətləri, bölgü prinsipləri, şübhəsiz fərqlənəcəkdir.

Müəyyən qanun və prinsiplər əsasında sahibkarlıq fəaliyyəti ilə məşğul olanların öz ***mülkiyyətləri, kapitalları, imkanları, şəxsi qabiliyyətləri sayəsində gəlir, mənfəət əldə etməsi təbii*** sayılmalıdır.

Bir qrup iqtisadçı, xüsusilə marksist iqtisadi məktəbin baniləri və bu yolun doqmatik davamçıları, kapitalist adlandırdıqları sahibkarlara, işgüzar biznes fəaliyyəti ilə məşğul olanlara sinifi, habelə siyasi rəqib mövqeyindən yanaşaraq, cəmiyyətin həmin təbəqəsini «tüfeyli, istismarçı, başqasının haqqını tapdalayan, qanını soran» qrup kimi ittiham etmişlər. Onlar bəşəriyyətin gələcəyini ***xüsusi mülkiyyətsiz, kapitalistlərsiz, istismarsız və vahid bir mərkəzdən idarə olunan*** «kamil cəmiyyət» kimi təsəvvür etmişlər.

Lakin, qədim yunan müdriklərinin dediyi kimi «düşüncə tərzi cəzalandırıla bilməsə» də, iqtisadiyyatdan başlamış mənəviyyata qədər hər şeyin «axdığı, dəyişdiyi» dünyada, müxtəlif elmi-nəzəri konsepsiyalara, doqmatik sxemlərə sığışmayan bəşəriyyətin real təsərrüfatçılıq təcrübəsinin yüksələn tərəqqisi, bu fikirləri kənara atdı. Əlbəttə, şəxsi maraq və mənfəət prinsipləri üzərində qurulub, «sosial ədalət» meyarları ilə deyil, «iqtisadi səmərəlilik» çağırışları və qayğıları əsasında idarə olunan ictimai-iqtisadi sistemin «kamilliyinə» zəmanət vermək, habelə bəşəriyyətin lap qədimlərdən arzuladığı «işıqlı ümidlərinə» uyğun olduğunu söyləmək çətindir. Hələlik isə nə qədər ki, daha mükəmməl və insanları hərtərəfli qane edə biləcək ictimai-iqtisadi bir quruluş, sistem forması tapılmamışdır, deməli yaşadığımız cəmiyyət, onun təsərrüfatçılıq qayda-qanunları, idarəçilik prinsipləri, mədəni-mənəvi əxlaq normaları kiminsə bəyənib-bəyənməməsindən asılı olmayaraq, fəaliyyətdədir.

Bazar münasibətlərinin kəsgin rəqabət bazarında fəaliyyət göstərən hər bir sahibkarın, işgüzar biznes adamının, şirkətin, birliyin, trans milli korporasiyanın (TMK) son məqsədi gəlir və mənfəətdir. İstehsal prosesində iştirak edən iqtisadi və maliyyə resurslarının səmərəli istifadə olunmasının son yekunu özünü ***mənfəətdə*** göstərir. Bəzən

mənfəəti, bazar münasibətləri sisteminin «hərəkətvericisi» və «dirijoru» kimi səciyyələndirirlər.

Hər hansı bir şirkətin gəlirindən onun xərclərini çıxdıqdan sonra əldə olunan mənfəət, istehsalın səmərəliyinin əsas göstəricisidir. Onun mənbəyi isə insan əməyi ilə yanaşı, müasir elmi-texniki tərəqqi, beynəlxalq əmək bölgüsü və daxili-xarici bazarlardakı rəqabət mübarizəsi şəraitində – ***sahibkarın yaradıcı, novator (yenilikçi) fəaliyyəti, yüksək təşkilatçılıq istedadıdır.***

İqtisadi nəzəriyyədə mühasibat mənfəəti, iqtisadi (xalis) mənfəət, normal mənfəəti anlayışları vardır. Mühasibat mənfəəti, satışdan əldə olunmuş məbləğdən şirkətin görünən (xarici xərclərini) çıxmaqla hesablanır. İqtisadi (xalis) mənfəət şirkətin həm görünən (xarici), həm də görünməyən (daxili) xərclərinin, satışdan əldə edilmiş məbləğdən silinməsi (çıxılması) yolu ilə hesablanır. Nəhayət normal mənfəət isə sahibkarın öz vəzifəsini yerinə yetirdiyinə görə aldığı haqq, yaxud mukafatdır.

Sahibkarın kapitalının və istehsal-xidmət dairəsi obyektinin işini rəqabət bazarı şəraitində səmərəli təşkil etməsinin konkret məbləğdə ifadəsi olan mənfəət, onun halal haqqıdır. Bu mənfəətin həcmi, başqa şərtlərlə yanaşı istehsalın genişləndirilməsinə imkan yaradır, yeni texnika-texnologiyaların tətbiqinə yol açır, məhsul və xidmətlərin bolluğunu təmin edir, əlavə iş yerləri açılmasını şərtləndirir, son nəticə etibarilə milli iqtisadiyyatın inkişafına öz töhvəsini verir. Ümumi daxili məhsulun (ÜDM) artımına xidmət edən sahibkarlıq bölməsinin, mənfəətdən səmərəli faydalanmasına yönəldilmiş məqsədyönlü fəaliyyəti, bazar rəqabəti şəraitində ***alternativ*** istehsal sahələrinin formalaşmasına əlverişli imkanlar açır.

Şirkətin və sahənin sabit mənfəəti, habelə tədricən artması meyli, alıcıların və bütövlükdə cəmiyyətin həmin sahəyə diqqət yetirməsi, habelə onun daha da genişləndirilməsi arzusunun ictimai ifadəsidir. Eyni zamanda, hər hansı bir sahənin (şirkətin) məhsul və xidmətlərinə alıcı tələbinin aşağı düşməsi, ictimai rəyin onları dəstəkləməməsi kimi qiymətləndirilə bilər. ***Birinci halda*** həmin şirkət və sahələrin mənfəəti artacaq, ***ikinci halda*** isə mənfəətin azalması şirkətin ziyanla işləməsinə, habelə lazımı tədbirlər həyata keçirilmədikdə, tez-gec müflisləşməsinə səbəb olacaqdır.

Qeyd etmək zəruridir ki, müxtəlif ölkələrin milli gəlirlərinin yarıdan çoxu əhali arasında ***əmək haqqı, renta, faiz və mənfəət*** kimi bölüşdürülür. ABŞ-da bu rəqəm, son məlumatlara əsasən 80%-ə yaxındır. Maraqlı cəhət ondan ibarətdir ki, əhalinin ümumi gəlirlərinin quruluşunda, əmək haqqının və mülkiyyətdən alınan gəlirin payı, tədricən artır. Əksinə, sahibkarlıq fəaliyyəti ilə məşğul olanların müxtəlif mənbələr hesabına formalaşan gəlirləri mütləq rəqəmlərlə artsa da, lakin əhalinin ümumi gəlirlərində onun xüsusi çəkisi azalmaqdadır. Birləşmiş Ştatlar tipik sahibkarlar və kapitalistlər ölkəsi olmasına baxmayaraq, bu ictimai qrupun milli gəlirdən aldığı pay – 20 faizə yaxındır. Bu fakt, ABŞ-ın və dünya iqtisadiyyatının ümumi mənzərəsində, xüsusilə gəlirlərin quruluşunda, bölgüsündə gedən kəmiyyət-keyfiyyət dəyişikliklərini göstərir.

# Mövzu 16. Ümumi tarazlıq nəzəriyyəsi və bazar iqtisadi sisteminin fəaliyyəti

**16.1** Bazar tarazlığı nəzəriyyəsinin mahiyyəti
**16.2** Tarazlıq nəzəriyyəsinin təkamülü
**16.3** Ümumi tarazlıq modeli
**16.4** Bazar münasibətləri iqtisadi sisteminin fəaliyyəti

**16.1.** İctimai-iqtisadi quruluşdan, sistemin təsərrüfatçılıq formalarından, cəmiyyətin inkişaf səviyyəsindən asılı olmayaraq, həmişə istehsalçılarla istehlakçılar və alıcılarla satıcılar arasında, müəyyən formada qarşılıqlı əlaqələr olmuşdur. Şübhəsiz, hər iki tərəf üçün əlverişli və məqbul hesab olunan bu qarşılıqlı iqtisadi münasibətləri ***tam tarazlıq*** vəziyyəti kimi qiymətləndirmək olmaz. İstehsalçılarla istehlakçılar arasında formalaşan qarşılıqlı əlaqələrdəki tarazlıq həmişəlik və donmuş bir hadisə olmayıb, müəyyən mövcudluq halı, yaxud konkret vəziyyətin ifadəsidir.

***Tarazlıq*** dedikdə, qiymətlərin sabitliyi şəraitində bazarda təkliflə (satışa çıxarılan əmtəə-xidmətlərlə), həmin məhsullara olan tələbin (alıcılıq qabiliyyətinin) bir-biri ilə uyğunluq təşkil etməsi yaxud uzlaşması nəzərdə tutulur. Başqa sözlə, ***tarazlıq müəyyən bir qiymətdə tələbin həcminin təklifin həcminə bərabər olduğu vəziyyətdir.***

Bazar münasibətləri iqtisadi sistemi şəraitində və rəqabət prinsipləri mühitində, fərdi bazarlarda əmtəə-xidmətlər ümumiyyətlə satıcıların təklif etdikləri satış yaxud alıcıların tələb qiymətinə deyil, hər iki tərəfin razılaşdığı – bazar tarazlığı qiymətinə satılıb-alınır.

Bazar tarazlığı qiyməti nədir və o necə formalaşır?

***Tarazlıq qiyməti,*** bazarda tələbin həcminin təklifin həcminə bərabər olduğunu tənzimləyən qiymət səviyyəsidir. Bu qiymət, həm istehsalçılar-satıcıların, həm də istehlakçı-alıcıların iqtisadi fəaliyyətləri və maraqları üçün uyğun bir kəmiyyətdir. ***Tarazlıq qiyməti hər iki tərəfin əvvəlcədən nəzərdə tutduqları faydalığı əldə etməyə imkan verir.*** Bu mənada hər iki tərəf həmin sövdələşmə və alqı-satqıdan bəzən tam, bəzən qismən, lakin hər halda razı qalır.

Doğrudur, bazar münasibətləri şəraitində tələb-təklif və rəqabət mübarizəsindən asılı olaraq, əmtəə-xidmətlərin tarazlıq qiyməti əsl vəziyyətdən kənarlaşa bilər. Bazar iştirakçılarının (subyektlərinin) bir halda alıcı, digər halda isə satıcı rolunda çıxış etdiklərini, yaxud bugünki satıcıların sabah alıcılara çevrildiklərini nəzərə alsaq aydın olar ki, ***bazar tarazlığını mütləq mənada deyil, nisbi mənada qəbul etmək lazımdır.*** Tarazlıq qiyməti istehsalçıya öz xərclərini ödəyərək, müəyyən mənfəət götürməyi təmin etdiyi halda, öz növbəsində istehlakçıya da, öz büdcəsi və alıcılıq imkanı daxilində, tələbatına müvafiq əmtəə-xidmətlərdən faydalanmağa imkan verir. Bazar tarazlığı və tarazlıq qiyməti elə bir sövdələşmə meydanıdır ki, burada «nə şiş yansın, nə kabab» prinsipi, «gözəgörünməyən əl» ideyası, «əbədi ədalət və insaf» dəyərləri kimi şərtlər, sanki kompleks halında fəaliyyət göstərərək, ümumi bir ekvivalentlik ab-havası yaradırlar.

Unutmamaq lazımdır ki, istər satıcılar, istərsə də alıcılar, bazar tarazlığının pozulmasında prinsip etibarilə maraqlı deyildirlər. Çünki, bazarda qiymətlərin tarazlıq səviyyəsindən aşağı düşməsi, satıcı (istehsalçı) üçün əlverişli olmadığı kimi, eyni zamanda qəribə səslənsə də alıcı (istehlakçı) üçün də faydalı deyildir. Bazarda qiymətlərin tarazlıq səviyyəsindən aşağı düşməsi

prosesi, yaxın vaxtlarda həmin əmtəə-xidmətlərin bazara çıxarılan miqdarının azalacağına işarədir.

Qiymətlərin tarazlıq səviyyəsindən kənarlaşaraq bahalaşması da, əslində son nəticələri etibarilə həm alıcılar, həm də satıcılar üçün əlverişli sayıla bilməz. Qiymətlərin yüksəlməsi meyli (şübhəsiz, xərclərin sabitliyi şəraitində) təbii olaraq tələbin aşağı düşməsinə, potensial alıcıların sayının azalmasına səbəb olacaqdır. Tələblə təklifin qarşılıqlı əlaqəsi nəticəsində yaranmış tarazlığı aşağıdakı qrafikdən görmək olar:




Burada, E – tarazlıq qiyməti, $P_E$ və $Q_E$ – tarazlıq həcmi, SS – təklif həcmi və DD – tələb həcmidir.

Qrafik təsvirdəki E nöqtəsi, bazarın əks qüvvələri olan tələb və təklifin burada kəsişərək, tarazlıq yaratdığını göstərir. Bu tarazlıq nöqtəsi o deməkdir ki, satış üçün alıcıların tələbinə uyğun miqdarda məhsul hazırlanmışdır. Belə bir tarazlıq, bazar münasibətləri iqtisadi sisteminin yüksək səmərəliliyinin ifadəsidir.

Əgər real bazar qiyməti tarazlıq qiymətindən $(P_1)$ yüksək olarsa, o zaman bu qiymətə alıcı tələbi $(Q_1)$ aşağı düşəcək və onun həcmi tarazlıq təklifindən $(Q_2)$ az olacaqdır. Beləliklə, bazarda təklif artıqlığı yaranacaqdır. Bu halda istehsalçılar (satıcılar) qiymətləri aşağı salmağa məcbur olacaqlar. Bazarda təklifin yaranmış artıq kəmiyyəti $(Q_1 - Q_2)$, yaxud $Q_2 > Q_1$ nisbəti, qiymətlərin aşağı düşməsinə, onların tarazlıq qiymətindən ucuz satılmasına səbəb olacaqdır.

Əksinə, bazarda formalaşan real satış qiyməti tarazlıq qiymətindən aşağı səviyyədədirsə o zaman tələb həcmi $(Q_4)$ təklif həcmindən $(Q_3)$ artıq olacaq və həmin əmtəə-xidmətlərin qıtlığı (defisiti) yaranacaqdır. Bu halda bir qrup alıcının, baha qiymətə əmtəə-xidmətləri alması, yəni alıcı tələbinin təklifi üstələməsi $(Q_4 - Q_3)$, yaxud $Q_3 < Q_4$ nisbəti qiymətlərin yüksəlməsi ilə nəticələnəcəkdir.

Bu ziddiyyətli vəziyyət və tələblə təklifdən ibarət bazar qüvvələrinin qarşılıqlı təsir prosesi, tarazlı qiymət $(P_E)$ səviyyəsində onların həcmlərinin bir-birinə uyğunlaşmasına qədər davam edəcəkdir.

Bazar münasibətləri iqtisadi sistemində, fasiləsiz əmtəə-xidmətlərin istehsalı və satışı ilə məşğul olan bazar iştirakçıları (ev təsərrüfatları, şirkətlər, korporasiyalar) üçün balanslı, tarazlı tələb-təklif – qiymət nisbətinin pozulması halları, obyektiv-subyektiv səbəblərlə bağlı heç də əlverişli deyildir. Çünki, bazar münasibətləri mühitində gah satıcı, gah da alıcı rolunda çıxış edən bazar iştirakçıları, bugün satıcı kimi qazandıqlarını, sabah alıcı kimi itirə biləcəklərindən, onlar üçün onsuz da kifayət qədər risqin və rəqabətin olduğu şəraitdə, ***tarazlıq vəziyyəti optimal variantdır.*** Həm istehsalçılarda, həm də istehlakçılarda yaranmış tarazlıq vəziyyətini pozmağa, daxili bir ehtiyac yoxdur.

Deməli, tələblə-təklifin tarazlığı və qiymətin bu vəziyyətə uyğunluğu, bazar subyektləri üçün əlverişli, habelə arzuedilən bir haldır. Ona görə də istər əmtəə-xidmətlərin, istərsə də tarazlıq qiymətinin hər hansı bir səbəb üzündən kənarlaşması halı, müsbət qarşılanmır və pozulmuş tarazlığın ilkin vəziyyətə qayıtması, şübhəsiz, müəyyən istisnalarla daha

məqsədəuyğun sayılır. Bu tarazlığa əsasən, hər hansı bir konkret əmtəə-xidmət bazarının və bütövlükdə iqtisadi sistemin sabitliyi təmin olunduğundan, onu ***rəqabət bazarının qanunu*** kimi səciyyələndirirlər.

**16.2.** İqtisadi tarazlıq nəzəriyyəsinə dair ilk fikir və mübahisələr, tanınmış fransız iqtisadçısı **J.B.Sey** (1762-1832) tərəfindən irəli sürülmüşdür. Onun şərəfinə adlandırılmış «Sey qanununa» görə bazarda yaranan ***təklif***, özünə uyğun olan bir ***tələb*** formalaşdırır. Belə bir tarazlığa səbəb isə ölkədəki əmtəə istehsalının, elə bu istehsalın səviyyəsinə uyğun ***əmək haqqı və mənfəət*** formasında ümumi gəlir yaratmasıdır.

Cəmiyyətin ümumi gəlirinin (əmək haqqı+mənfəət) bütövlükdə istehlaka sərf olunduğunu irəli sürən J.B.Sey, nəzərə almırdı ki, əhalinin gəlirlərinin heç də hamısı istehlaka sərf oluna bilməzdi. Həmin gəlirin müəyyən hissəsi müxtəlif formalarda, yığım şəklində (əmanətlər, səhmlər, kapital, daşınmaz əmlak, zinyət şeyləri) əhalidə qalır və saxlanılır.

Tarazlıq probleminə daha dəqiq bir mövqedən yanaşan isveçrəli iqtisadçı və nəzəri riyazi məktəbin görkəmli nümayəndəsi **Leon Valras** (1834-1910) olmuşdur. O, bazar tarazlığında üstünlüyü ***təklifə yox, tələbə verərək göstərmişdi ki, məhz alıcı tələbi təklifi müəyyənləşdirir.***

Şübhəsiz, onun mövqeyi və bazar münasibətlərində tələbə üstünlük verməsi, iqtisadi nəzəriyyə tarixində irəliyə doğru mühüm bir addım sayılsa da, lakin onun baxışlarında nöqsan, habelə çatışmayan cəhətlər də olmuşdur. L.Valras göstərmişdir ki, ümumi iqtisadi tarazlıq yalnız müəyyən şərtlər daxilində mümkündür. Həmin şərtlər aşağıdakılardır:

a) Bazarda sərbəst (azad) rəqabət prinsipləri fəaliyyət göstərir.
b) Bazrda qiymətlər sabit və dəyişməzdir.
c) Bazarda tələblə-təklif bir-birinə uyğundur, yaxud ekvivalentdir.

Bu əvvəlcədən verilmiş şərtlər çərçivəsində fəaliyyət göstərən iqitsadiyyatda hazırlanıb satışa çıxarılan məhsullar, son nəticə etibarilə ***bazar tarazlığı qiymətinə*** reallaşdırılır.

Klassik iqtisadi nəzəriyyə məktəbinin (XVIII-XIX əsrlər) nümayəndələri, tarazlı bazar qiymətlərini, həmin məhsul və xidmətlərə sərf olunmuş xərclərlə əlaqələndirmişlər.

Marksist mövqedə dayanmış iqtisadçılar, bazar tarazlığı qiymətini, orta qiymət, yaxud istehsal qiyməti kimi xarakterizə etmişlər.

XIX əsrin ikinci yarısında formalaşan ***marcinalist*** iqtisadi nəzəriyyə tərfdarları, bazar tarazlığı qiymətini məhsulun istehlakçıya ***son faydalığı həddi (dərəcəsi)*** ilə əlaqələndirmişlər. Məsələn, marcinalist məktəbin nümayəndələrindən sayılan **S.Cevons** yazırdı: dənizdən mirvari çıxaran adam ona görə zəhmət çəkmir ki, mirvari nadir bir şey olduğundan risqə getmək lazımdır... Öz əməyi nəticəsində o, mirvari deyil, adi daş da çıxara bilər və bütün səyləri hədər olar. Deməli, mirvarinin qiymətinin əsasında onu çıxaranın əməyinin və mirvarinin faydalılığı durur.

XIX əsrin sonunda ingilis iqtisadçısı **A.Marşall** belə bir razılaşdırılmış variant irəli sürmüşdür ki, bazar tarazlığı qiymətinin formalaşmasına ***həm tələb və təklif, həm xərclər, həm də faydalılıq amilləri təsir göstərir.*** O, bu amillərin, xüsusilə də tələblə-təklifin bazar tarazlığı və ümumiyyətlə qiymətin yaranmasındakı rolunu «kəsən qayçının 2 tərəfi» kimi səciyyələndirmişdi. A.Marşall eyni zamanda fərdi bazar tarazlığını ayrı-ayrı əmtəələr üzrə tarazlıq kimi izah edərək, ümumi tarazlığın bu tarazlıqların cəmi olduğunu göstərmişdi.

XX əsrdə **C.Robinson** və **E.Çemberlin**, ümumi tarazlıq nəzəriyyəsini qeyri-mükəmməl, yəni inhisarçı rəqabət bazarı şəraitində təhlil etmişlər. **C.Klark** inkişaf edən iqtisadi sistem daxilində bazar tarazlığı şərtlərini təhlil etmişdir. **D.Patinkin** ümumi tarazlıq modelinə əmtəə

(məhsul) bazarı ilə yanaşı ***əmək bazarı, pul bazarı, qiymətli kağızlar bazarı*** kimi amilləri də daxil etmişdi. **C.Xiks** və **R.Allen** bazara məhsul çıxaran müxtəlif şirkətlərin sayının və fərdi texnologiyalarının nəzərə alınmasını zəruri hesab etmişlər. **P.Şraft** bu modeli, ümumi əmək haqqı fondu göstəricisi ilə əlaqəli şəkildə öyrənməyi irəli sürmüşdür. Tarazlıq nəzəriyyəsinin müxtəlif modellərinin makroiqtisadi və ümumi iqtisadi sistem səviyyəsində tətbiqi istiqamətində **V.Pareto, C.Xayman, V.Leontyev,** habelə başqa iqtisadçıların da xidmətləri olmuşdur.

**16.3.** Rəqabət bazarında olan fərdi (hissə, xüsusi) tarazlıq, müəyyən bir məhsul bazarında qiymətlə əmtəələrin kəmiyyəti (miqdarı, həcmi) arasındakı uyğunluğu nəzərdə tutur. Bu halda, bir əmtəə və xidmət bazarının digərinə təsiri azdır, bəzən də heç yoxdur. Deməli, fərdi tarazlıq modeli vasitəsilə, konkret bir əmtəə-xidmət bazarındakı (taxil, avtomobil, neft, sığorta) vəziyyət təhil edilir və başqa bazarlarda vəziyyətin sabit qaldığı fərz olunur.

Lakin müxtəlif təyinatlı istehsal-xidmət sahələri kompleksindən ibarət olub və qarşılıqlı əlaqə, habelə təsir dairəsində fəaliyyət göstərən milli iqtisadiyyatda vəziyyət başqadır. İqtisadi sistemin inkişafındakı fasiləsiz dəyişiklər, tələb və təklifin ziddiyyətli dinamikası, həm iqtisadi resursların, həm də hazır məhsulların-xidmətlərin qiymətlərinə ciddi təsir göstərir.

Fərdi bazar tarazlığından fərqli olaraq, qiymət və əmtəə-xidmətlərin kəmiyyətinin ***ümumi tarazlıq modeli,*** – bütün bazarların bir-biri ilə eyni vaxtda əks əlaqə effekti ilə bağlı olduğunu nəzərdə tutur. ***Əks əlaqə effekti,*** – bir bazarda baş verən dəyişikliyin, yəni tarazlığın pozulmasının, başqa bazarlardakı dəyişikliklər nəticəsində əmələ gəldiyini göstərir. Məsələn, yanacaq bazarında qiymətlərin bahalaşması, avtomobil sənayesinə və onunla bağlı sahələrin inkişafına öz əks təsirini göstərir. Yaxud tikinti materialları istehsal edən sahələrdə qiymətlərin enib-qalxması, mənzil bazarında və videokasset istehsalı kinoteatrlarda tamaşaçıların sayında, şübhəsiz əks əlaqə effekti yaradacaqdır. Bu hadisəyə başqa nümunə kimi ölkənin gömrük və vergi siyasətindəki yeniliklərin, təsərrüfat həyatının ayrı-ayrı sahələrində yaratdığı dəyişiklikləri, yaxud əks əlaqə effektini göstərmək olar.

Ən ümumi formada iqtisadi tarazlıq ehtiyatlar, iqtisadi resurslar (ev təsərrüfatları) və tələbatlar (istehlakçılar) arasında uyğunluqdur.

Fərdi tarazlıqdan fərqli olaraq, ümumi iqtisadi tarazlıq müxtəlif amillər kompleksindən formalaşan sintetik, yəni ümumiləşdirilmiş parametrlərlə (göstəricilərlə) səciyyələnir. Bu mürəkkəb və əhatəli əlaqələr sistemində minlərlə, hətta milyonlarla fərdi bazarlardan, istehsal-xidmət təyinatlı ev təsərrüfatlarından, şirkətlərdən (sahələrdən, korporasiyalardan) ibarət milli iqtisadiyyata ***vahid bazar,*** fəaliyyətdə olan canlı bir orqanizm kimi baxılır.

Bu təhlilin mahiyyəti ondan ibarətdir ki, ümumi tarazlıq modelində, saysız-hesabsız əmtəə və xidmətlərin əvəzinə, ***ümumi qiymət səviyyəsi*** anlayışından (göstəricisindən) istifadə edilir. Eyni zamanda nəzərə alınır ki, tələb və təklifin qarşılıqlı əlaqəsi də ümumi iqtisadi göstəricilər, yəni ***məcmu tələb*** və ***məcmu təklif*** mövqeyindən təhlil olunur. Həm də bu amil və göstəricilər ümumi tarazlığa ayrı-ayrılıqda deyil, eyni vaxtda təsir göstərirlər.

Təbiidir ki, belə çoxsaylı amillər, ziddiyyətli şərtlər, mürəkkəb istehsal-satış əlaqələri əsasında formalaşan ***ümumi tarazlıq vəziyyəti,*** rəqabət prinsipləri üzərində qurulmuş bazar münasibətləri iqtisadi sistemi şəraitində ***dayanıqlı*** və ***davamlı*** ola bilməz. Deməli, ümumi tarazlıq modeli daim pozulan və yenidən bərpa olunaraq, əvvəlki vəziyyətə qayıtmağa yönələn iqtisadi prosesdir.

Obyektiv qanun və prinsiplər əsasında formalaşıb fəaliyyət göstərən iqtisadi sistem, onun iqtisadi sosial inkişafını şərtləndirən amillərin dəyişmə meylinə, habelə bu meyllərin təsirinə müvafiq «cavablar» hazırlayır, addımlar artır, vəziyyətə uyğunlaşır. Bu mənada, iqtisadi sistem həmişə ümumi tarazlıq nöqtəsindən kənarlaşdıqda, ölkənin təsərrüfat həyatında durğunluq və geriləmələr, inflyasiya və işsizlik halları baş verir. Ona görə də, ümumi tarazlıq halını iqtisadiyyatın ***əslində mümkün olmayan və eyni zamanda mövcud olan*** vəziyyəti kimi dəyərləndirirlər. Təsadüfi deyildir ki, iqtisadiyyatın belə dəyişkən halını, «müvazinətsizliyin-müvazinəti» yaxud «tarazsızlığın – tarazlılığı» adlandırırlar.

Qeyd etmək lazımdır ki, ümumi tarazlıq vəziyyətində bazar-satış qiymətləri son hədd xərclərinə, yəni əlavə hər məhsul vahidinə sərf olunan xərclərə bərabər olur (P=MC). Bu halda, həm istehsal vasitələri, həm də istehlak şeyləri bazarındakı bütün qiymətlər bir-biri ilə qarşılıqlı əks əlaqələrdə olduğundan, həmin proses bütövlükdə ***tələb-təklifə, qiymətlərə, istehsalın həcminə*** bilavasitə yaxud dolayı yollarla təsir göstərir.

Ümumi tarazlıq nəzəriyyəsi və iqtisadi modeli, ölkənin real təsərrüfat həyatının donmuş sırf mexaniki vəziyyəti, habelə dəqiq riyazi düsturu, nisbəti kimi qəbul oluna bilməz. Bu model öz dövrü və iqtisadi fikrin inkişafı baxımından, mərhələ xarakterli əhəmiyyətə malik olsa da, lakin cəmiyyətdə, milli iqtisadiyyatda, beynəlxalq əlaqələrdə, alıcıların davranışında baş verən köklü dəyişiklikləri hərtərəfli nəzərə aldıqda, şübhəsiz «ideal» sayılmamalıdır. Xüsusilə, yeni elmi nailiyyətlərin, mütərəqqi texniki vasitələrin, qabaqcıl texnoloji rejimlərin tətbiq edildiyi, tələb-təklifin dəyişdiyi, qiymətlərin təkcə iqtisadi amillərlə deyil, siyasi diplomatik amillərlə bağlı enib-qalxdığı, rəqabət mübarizəsinin inhisarçı formalarının geniş yayıldığı, alıcıların zövqünün qeyri-sabitliyi şəraitində, ***ümumi tarazlıq modeli nəzəri bir xarakter daşıyır.***

Bu model, müasir bazar münasibətləri iqtisadi sisteminin mürəkkəb qarşılıqlı əlaqələrində, qaranlıqda ildırım çaxması nəticəsində, bir anlığa ətrafda baş verənlərin (tələb-təklifin, qiymətin, rəqabətin) işıqlanmasını xatırladır. Həmin an, yəni ümumi tarazlıq vəziyyəti ötür və iqtisadi proseslərin tarazlıq nöqtəsindən kənarlaşması, uzaqlaşması meyli başlayır. Eyni zamanda pozulmuş ümumi tarazlığın, ilkin nöqtəyə qayıtması prosesi gedir.

Tam tarazlıq real həyatda nəzəri xarakter daşıyıb, iqtisadiyyatın real vəziyyətini təsvir edən düşüncə tərzinin (abstraksiyanın) məntiqi yekunudur. Bununla yanaşı, ümumi iqtisadi tarazlıq konsepsiyası, həm nəzəri təhlil, həm də əməli təsərrüfat fəaliyyəti baxımından, metodoloji bir çıxış nöqtəsidir.

**16.4.** Bazar münasibətləri iqtisadi sisteminin sərbəst (mükəmməl, azad, halal) rəqabət forması, onun iştirakçıları (subyektləri) sayılan həm alıcıların, həm də satıcıların maksimum faydalanmasına imkan yaratdığı üçün səmərəlidir, effektlidir.

Lakin bazar münasibətləri və sərbəst rəqabət şəraitində istehsalın, bölgünün, mübadilənin səmərəlilik prinsiplərinə uyğun aparılması ***nə dərəcədə ədalətlidir*** problemi, həmişə cəmiyyətdə böyük mübahisələr doğurmuşdur. «Kapitala uyğun mənfəət» prinsipi əsasən fəaliyyətdə olsa da, lakin mədəni sivil cəmiyyətdə onun üzvlərinin bir qrupunun həddsiz sərvətə sahib olmaları, ölkə əhalisinin isə böyük hissəsinin yoxsul vəziyyətdə yaşaması, şübhəsiz mütəxəssisləri, iqtisadçıları, sosioloqları, dövlət xadimlərini düşündürür.

Hər bir cəmiyyət, istehsalın səmərəliliyinə nail olmaq kimi mühüm səviyyəyə çatsa da, lakin təkcə bununla kifayətlənə bilməz. Çünki iqtisadi-sosial sistemlərin əsl dəyər-qiyməti onların hansı məhsul-xidmətləri nə qədər istehsal etmələri ilə deyil, həmin cəmiyyətdə insanların necə yaşaması, onların həyat səviyyəsi ilə ölçülür. Təsadüfi deyildir ki, filosoflardan

başlayaraq, sadə əmək adamlarına qədər, cəmiyyətin müxtəlif təbəqələrinə mənsub insanlar bəzən təəccüblə soruşurlar: «İstehsalın iqtisadi səmərəliliyi nə üçün və kimin üçündür?»

Əlbəttə, cəmiyyət miqyasında ***iqtisadi səmərəliliklə ədalət meyarları*** arasında düzgün nisbətlər qurmaq və optimal variant tapmaq çətindir. Ədalət prinsipləri naminə istehsalın səmərəliliyinin qurban verilməsi, yaxud səmərəliliyin təmin edilməsi və demokratiyanın pozulması hesabına ədalətin tapdalanması halları, sivil cəmiyyət üçün yol verilməzdir.

İqtisadi nəzəriyyədə istehsalın və bölgünün səmərəliliyini, habelə ədalətliliyi ilə bağlı, ***«Edgevort qutusu», «Pareto effekti»*** anlayışları vardır. «Edgevort qutusu» adlanan bölgü qaydasına görə 2 amilin 2 istehsalçı, yaxud 2 məhsulun (ərzaq-paltar) 2 istehlakçı arasında bölgüsünün ən səmərəli-ədalətli variantı, onların hər ikisinin bu bölgüdən öz tələbatlarının kəmiyyət-keyfiyyəti baxımından razı qalmasıdır. «Pareto effekti» bölgü qaydasına görə isə bir fərdin rifahının (iqtisadi vəziyyətinin, həyat səviyyəsinin) ***yaxşılaşması,*** başqa fərdin rifahının pisləşməsi ilə nəticələnməlidir. Eyni zamanda əksinə, «Pareto qeyri-effektliyi» qaydasına görə, əgər bir fərdin (mülkiyyətçinin, sahibkarın, şirkətin) iqtisadi vəziyyətinin yaxşılaşması, mənfəətinin artması, başqasının iqtisadi vəziyyətinin pisləşməsinə səbəb olmursa, bu hal qeyri-effektiv sayılır.

Nobel mükafatı laureatı **R.Kouzun** adı ilə bağlı «Kouz teoreminə» görə, əgər sövdələşən tərəflər heç bir əlavə xərc çəkmədən qarşılıqlı faydalı razılığa gələ bilirlərsə, o zaman mülkiyyət hüququndan asılı olmayaraq, nəticə effektli (səmərəli) sayılmalıdır.

İnhisarçı rəqabət bazarı, buraya müxtəlif istehsal-xidmət sahələrinin çoxsaylı şirkətlərinin daxil olub və çıxmasını məhdudlaşdırmaması baxımından, sərbəst rəqabət bazarına oxşayır. İnhisarçı rəqabət bazarının sərbəst, yaxud mükəmməl rəqabət bazarından fərqi isə ***differensiallaşdırılmış,*** eyni adlı, lakin müxtəlif keyfiyyətli (təyinatlı), variantlı, dizayn xüsusiyyətli məhsullar istehsalı və satışındadır. İnhisarçı rəqabətə avtomobil, ərzaq, mebel, diş pastası, mobil telefon, yuyucu tozlar bazarı nümunə ola bilər. Bir neçə şirkətin məhsul istehsalı və satışında, habelə qiymətlərin formalaşmasında həlledici rol oynayan ***oliqopoliya rəqabəti*** bazarlarında da vəziyyət buna oxşardır. Oliqopoliya şəraitində bu sahələrin mövqeyi və ***mənfəətləri*** müəyyən dərəcədə həmin sahənin şirkətləri arasındakı münasibətlərin xarakterindən asılıdır.

Oliqopoliya sahəsi şirkətlərinin qarşılıqlı münasibətləri «sərt rəqabətə» deyil, əməkdaşlığa yönəlmişdirsə, bu halda qiymətlərin yüksəldilməsi hesabına daha yüksək mənfəət əldə etmək imkanı yaranır. Kəsgin rəqabət mübarizəsi və aşkar-gizli düşmənçilik münasibətləri, şübhəsiz onların mənfəət göstəricilərinə mənfi təsir edir, əlavə xərclərini artırır. Müasir mərhələdə konkret şəraitindən asılı olaraq, müxtəlif üsullardan istifadə olunsa da, lakin «sakit əməkdaşlıq» və «lal sövdələşmələr» yoluna daha çox üstünlük verilir.

Bir neçə şirkətin birləşdiyi kartel strukturu, açıq sövdələşmə əsasında rəqabət bazarında öz mənfəətlərini yüksəltmək üçün ***qiymətlərin müəyyənləşdirilməsi və istehsal həcmi*** barəsində birgə qərarlar qəbul edirlər. Kartellər bir-biri ilə rəqabət aparan sahələrin şirkətləri arasında və oliqopoliya strukturunun tələblərinə uyğun həm ölkə daxilində, həm də beynəlxalq miqyasda təşkil olunub, fəaliyyət göstərirlər. Neft istehsalı və ixracı ilə məşğul olan bir sıra Yaxın Şərq, Cənubi Amerika ölkələrinin daxil olduğu OPEK, beynəlxalq boksit karteli, bu tipli fəaliyyət formasına nümunə ola bilər.

Sərbəst yaxud mükəmməl və inhisarçı rəqabət bazarlarında rəqabət tarazlığının müqayisəsini, aşağıdakı qrafik təsvirdən görmək mümkündür:

Qrafik sxemdən aydın olur ki, sərbəst rəqabət bazarından (A) fərqli olaraq, inhisarçı rəqabət sahələrində (B) bazar mexanizminin fəaliyyəti ***effektli (səmərəli) deyildir.*** Bu qeyri-səmərəliliyə ***birinci səbəb,*** sərbəst rəqabət bazarına nisbətən (A), inhisarçı rəqabət bazarında (B) tarazlı qiymət, son hədd xərclərini ötür, yəni P>MC. ***İkinci səbəb,*** inhisarçı rəqabət bazarında istehsal güclərindən səmərəli istifadə olunmaması, orta istehsal xərclərinin aşağı salınmasına mane olduğundan, MC<AC. Sərbəst rəqabət bazarında (A) tələb əyrisi (D) üfiqi vəziyyətdə olub, mənfəətlə (MR) minimum orta xərclər əyrisi (AC) nöqtəsində kəsişdiyi halda (D=MR); inhisarçı rəqabət bazarında (B), tələb əyrisi (D) minimum orta xərclər əyrisindən (AC) sola doğru meyl edəcəkdir (D<AC).

Sərbəst və inhisarçı rəqabət bazarlarında rəqabət tarazlığının müqayisəsi




Ümumiyyətlə rəqabət bazarlarının nöqsanları, «baş tutmaması», cəmiyyətin ümumi mənafeyi və sosial tələbləri baxımından qeyri-səmərəli fəaliyyəti barəsində mübahisələrdə əsas diqqət aşağıdakı problemlərə yönəldilir:

- bazarda ağalıq etmək və həlledici rol oynamaq meylinin güclənməsi;
- bazara çıxarılan əmtəə-xidmətlərin keyfiyyəti və qiymətləri haqqında satıcıların öz müştərilərinə kifayət qədər məlumat verməmələri, habelə alıcıların informasiya qıtlığı;
- bazarın kənar (xarici) effektlərin, yaxud ekstremal təsirlərə, məsələn ekologiya, ətraf mühitin çirkləndirilməsi məsələlərində maraqlı olmaması və bu problemlərə biganə münasibət bəsləməsi;
- bazarın cəmiyyət üçün zəruri sayılan «ictimai nemətlərin», məsələn magistral yolların, körpülərin inşasında o qədər də maraqlı olmaması;
- bazarın fəhlə və qulluqçuların sosial tələblərinin qayğısına qalmaq, habelə gəlirlərin əhali arasında ədalətli bölünməsi məsələlərində mövqeyi;
- bazar sisteminin tsiklik (dövrü) xarakter daşıması, istehsal-xidmət sahələrindəki proseslərin dinamikasının enib-qalxması, inflyasiya və işsizlik hallarının vaxtaşırı baş verməsi.

Bütün bu hallar və səbəblər ayrı-ayrılıqda, habelə kompleks şəklində, yaşadığımız bazar münasibətləri iqtisadi sisteminin qeyri-kamilliyini, onun fəaliyyət mexanizminin ideallıqdan, mükəmməllikdən, ədalət prinsiplərindən kənarlaşdığını sübut edir.

Müasir dünyanın müxtəlif ölkələrinin iqtisadi resurslardan faydalanması, mövcud istehsal güclərindən səmərəli istifadə edilməsi, cəmiyyətin müxtəlif ictimai təbəqələri arasında gəlirlərin bölünməsi, əhalinin həyat səviyyəsi parametrlərinin obyektiv təhlili, son 200 il ərzində, bazar münasibətləri sistemi şəraitində, bəşəriyyətin yüksələn sosial-iqtisadi tərəqqi yolu ilə irəlilədiyini göstərir.

Lakin istər milli iqtisadiyyatlar, istərsə də beynəlxalq miqyasda təsərrüfatçılıq təcrübəsinin yekunları, inhisarçı rəqabət meyllərinin yaratdığı ziddiyyətli düyünlər, ekologiya və ətraf mühitin qorunması ilə bağlı problemlər, «ictimai nemətlərin» istehsalına və əhalinin sosial-mədəni qayğılarına biganə münasibət mövqeyi, əmtəə-xidmətlərin keyfiyyəti haqqında alıcılar arasında kifayət qədər məlumat yayılmaması, iqtisadiyyatda vaxtaşırı enib-qalxmaların baş verməsi, inflyasiya-işsizlik halları, beynəlxalq bazarlardakı «qiymət oyunları» milyardlarla insanın gündəlik həyatı, habelə gələcəyi ilə bağlı ciddi çətinliklər yaradır. Bu nöqteyi-nəzərdən xüsusi mülkiyyətə, iqtisadi fəaliyyət sərbəstliyinə, rəqabət mübarizəsinə əsaslanan bazar iqtisadi sisteminin aşkar müsbət cəhətlərinə baxmayaraq, onu bəşəriyyətin iqtisadi-sosial tərəqqisi və inkişafının zirvəsi hesab etmək olmaz. Həyat davam edir və ona görə də yeni, daha mükəmməl təsərrüfatçılıq formalarının meydana çıxması reallığı tamamilə təbiidir.

Hələlik isə bazar münasibətləri iqtisadi sisteminin özü-özünü tənzimləmək yolu ilə həll edə bilmədiyi bir sıra sosial-iqtisadi məsələlər, o cümlədən ölkənin müdafiəsi, ətraf mühitin qorunması, əhalinin sağlamlığı və sosial müdafiəsi, elm-təhsil sisteminin inkişafı, beynəlxalq iqtisadi-siyasət əlaqələrinin genişləndirilməsi kimi problemlər, ***dövlətin iqtisadi siyasəti vasitəsilə həyata keçirilir.*** Bu vahid iqtisadi siyasətin konkret formaları ***hüquqi, inzibati-qanunverici*** və ***iqtisadi*** istiqamətlərdə ola bilər.

Dövlətin iqtisadi tənzimləmə və idarəetmə metodları ***birbaşa*** və ***dolayı yollarla*** həyata keçirilir. İqtisadi tənzimləmənin birbaşa metodlarına xüsusi (özəl) bölmənin fəaliyyətinin məhdudlaşdırılması və dövlətin sahibkarlıq fəaliyyəti daxildir. Dolayı metodlara isə pul-kredit, vergi-gömrük, büdcə, tövsiyyə – məsləhət xarakterli (indikativ) planlaşdırma aid edilə bilər. Birbaşa və dolayı metodların vasitələri (alətləri) arasında: dövlətin antiinhisar, lisenziyalaşdırmaq, qiymətlər üzərində nəzarət, kvotaların müəyyənləşdirilməsi, minimum əmək haqqı, standartlar, normativlər, tariflər, dövlət investisiyaları, bank faiz dərəcələri, pul kəsilməsi, valyuta müdaxiləsi, kredit güzəştləri, dövlət sifarişləri, gömrük rüsumları, vergi güzəştləri, dövlət borcu, proqnozlaşdırma tədbirləri mühüm rol oynayır.

Tanınmış mütəxəssis və iqtisadçıların elmi–nəzəri təhlili göstərir ki, müasir inhisarçı rəqabət bazarı A.Smit dövrünün «sən mənə nə lazımdırsa ver və mən də sənə nə lazımdırsa verim» qaydaları ilə fəaliyyət göstərə bilməz. Dövlətin iqtisadi rolunun, tənzimləyici və idarəedici vəziyyətlərinin ayrı-ayrı dövrlərdə, müxtəlif istiqamətlərdən tənqid olunmasına baxmayaraq, real təsərrüfatçılıq təcrübəsi, müəyyən hüdudlar daxilində bu «sükandan» istifadənin zəruriliyini təsdiq etmişdir.

Eyni zamanda unutmamaq lazımdır ki, dövlətin milli iqtisadiyyatı tənzimləməsi prosesi – «rəqabət – mümkün olan hər yerdə, tənzimləmə isə zəruri olan yerdə» prinsipi əsasında həyata keçirilməlidir. Bu mənada dövlət və onun hökuməti öz xalqı, yaxın-uzaq qonşuları, beynəlxalq ictimaiyyət qarşısında daşıdığı ciddi məsuluyyəti hərtərəfli dərk edərək, daxili-xarici iqtisadi siyasətində ən optimal tənzimləmə variantlarının uğurla reallaşdırılmasına çalışmalıdır.

Dövlətin iqtisadi tənzimləmə metodları, obyektiv qanunlar əsasında fəaliyyət göstərən tələb-təklif, qiymət, rəqabət kimi bazar qüvvələrinin əvəzlənməsinə deyil, həmin amillərin yaratdığı nöqsanlı cəhətlərin tədricən aradan qaldırılmasına yönəldilməlidir.

Müasir iqtisadi-sosial inkişaf mərhələsində, dövlətin iqtisadi siyasətinin bazar münasibətləri sisteminin zəruri bir ünsürünə çevrildiyi dövrdə, hakimiyyətin «görünən əli», bazar qüvvələrinin «gözə görünməyən» (A.Smit) fəaliyyətini hökmən tənzimləməlidir.

## «İqtisadi nəzəriyyə» – *Economics* kursu üzrə («Mikroiqtisadiyyat» bölməsi) test imtahan sualları

**1.** Tələb anlayışı və onun mahiyyəti.
**2.** Təklif anlayışı və onun mahiyyəti.
**3.** Elastiklik anlayışı və elastiklik vahidi (E=1).
**4.** Qiymət və onun mahiyyəti.
**5.** Qiymətin vəzifələri (funksiyaları).
**6.** Tarazlıq qiyməti və onun qrafik təsviri.
**7.** Tələb qanunu nə deməkdir?
**8.** Təklif qanunu nə deməkdir?
**9.** Tələbin elastikliyi.
**10.** Təklifin elastikliyi.
**11.** Tələb və təklifin tarazlığı nə deməkdir?
**12.** Qiymətin əmələ gəlməsi (yaranması) prinsipləri.
**13.** Tələbin vəzifələri.
**14.** Təklifin vəzifələri.
**15.** Elastikliyin müəyyənləşdirilməsi (E>1; E<1)
**16.** İstehlakçı (alıcı) davranışı nə deməkdir?
**17.** Faydalılıq anlayışını izah edin.
**18.** Faydalılıq həddi və tələb əyrisinin qrafik təsvirini izah edin.
**19.** İstehlakçı (alıcı) üstünlüyü və şəxsi gəlirlər.
**20.** Faydalılıq həddi və istehlakçı (alıcı) seçimi.
**21.** Büdcə məhdudluğu və istehlakçı (alıcı) etinasızlığı.
**22.** Əvəzləmə (əvəz etmə) səmərəliliyi və mənfəət.
**23.** İstehlakçı zövqü və ona təsir edən amillər.
**24.** Əmtəələrin faydalılıq həddinin azalması qanunu.
**25.** İstehlakçı seçimi və onun xüsusiyyətləri.
**26.** İstehsal xərclərinin mahiyyəti.
**27.** Mənfəətin mahiyyəti və formaları.
**28.** Daxili və xarici xərclər.
**29.** Ümumi və orta xərvlər.
**30.** Sabit və dəyişən xərclər.
**31.** Qısamüddətli və uzunmüddətli xərclər.
**32.** Son hədd xərcləri.
**33.** Transaksion xərclər nə deməkdir?
**34.** İstehsal xərclərin qarşılıqlı əlaqəsi.
**35.** Alternativ xərclər nə deməkdir?
**36.** Bazarın müxtəlif modelləri.
**37.** Sərbəst (azad, mükəmməl) rəqabət bazarı.
**38.** Sərbəst rəqabət və səmərəlilik.
**39.** Sərbəst rəqabət şəraitində gəlirlərin bölgüsü.
**40.** Xalis rəqabət şəraitində qısa və uzunmüddətli perspektivdə mənfəət.
**41.** Sərbəst inhisarın xüsusiyyətləri.
**42.** Xalis inhisar şəraitində istehsal-xidmət sahələrinə daxil olmağın çətinlikləri.
**43.** İnhisarçı tələb və təklif.
**44.** İnhisarçı rəqabət şəraitində məhsulun həcminin və qiymətinin müəyyənləşməsi.
**45.** Xalis inhisar şəraitində qiymət siyasəti.
**46.** Təbii inhisarçılıq.

**47.** İnhisarçı rəqabətin mahiyyəti.
**48.** İnhisarçı rəqabət şəraitində istehsalın həcminin və qiymətin müəyyənləşməsi.
**49.** İnhisarçı rəqabət və iqtisadi qeyri-səmərəlilik.
**50.** İnhisarçı rəqabət şəraitində qeyri-qiymət rəqabəti.
**51.** İnhisarçı rəqabət şəraitində reklam problemi.
**52.** İnhisar və mənfəətin yüksəlməsi meyli.
**53.** Vergilərin inhisarların mənfəətlərinə təsiri.
**54.** Oliqopoliya anlayışının mahiyyəti və fəaliyyət dairəsi.
**55.** Oliqopoliyanın 4 modeli.
**56.** Oliqopoliya şəraitində qeyri-qiymət rəqabəti.
**57.** Oliqopoliya və iqtisadi səmərəlik.
**58.** Oliqopoliya və məhsul buraxılışı həcmi üzrə liderlik.
**59.** Oliqopoliya və qiymətyaranma sahəsində liderlik.
**60.** Resurslar bazarında rəqabət.
**61.** Resursların qiymətinin formalaşması.
**62.** Resursların məhdudluğu problemi.
**63.** Resurslara tələbin elastikliyi.
**64.** Resursların optimal nisbəti problemi.
**65.** Rentanın mahiyyəti və xüsusiyyətləri.
**66.** Renta və torpağın qiyməti.
**67.** Faiz dərəcəsi və onun müəyyənləşdirilməsi.
**68.** Sahibkarlıq fəaliyyəti və mənfəət.
**69.** Əmək haqqının müəyyənləşdirilməsi.
**70.** Nominal və real əmək haqqı.
**71.** Əmək haqqı və əmək məhsuldarlığı.
**72.** Əmək haqqının fərqləri (differensiyası).
**73.** Ümumi tarazlıq nə deməkdir?
**74.** İstehsal və istehlakın tarazlığı.
**75.** Bazar tarazlığı və onun xüsusiyyətləri.

**«İqtisadi nəzəriyyə» – Economics**
**«Mikroiqtisadiyyat» (ikinci bölmə) kursu üzrə dərs saatlarının bölgüsü.**

| ***Sıra № si*** | ***Mövzuların adı*** | ***Saatların miqdarı*** | | |
|---|---|---|---|---|
| | | *Mühazirə* | *Məşğələ* | *Cəmi* |
| 1 | Kursun məqsədi, vəzifələri və quruluşu | 2 | 2 | 4 |
| 2 | Tələb, təklif, qiymət və elastiklik | 4 | 4 | 8 |
| 3 | İstehlakçı davranışı nəzəriyyəsi | 4 | 4 | 8 |
| 4 | İstehsal xərcləri və mənfəət | 4 | 4 | 8 |
| 5 | Sərbəst rəqabət və xalis inhisarçı rəqabət | 4 | 4 | 8 |
| 6 | İnhisarçı rəqabət və oliqopoliya rəqabəti | 4 | 4 | 8 |
| 7 | Əmək haqqı, renta, faiz və mənfəət | 4 | 4 | 8 |
| 8 | Ümumi tarazlıq nəzəriyyəsi və bazar iqtisadi sisteminin fəaliyyəti | 4 | 4 | 8 |
| | Cəmi | 30 | 30 | 60 |

# Makroiqtisadiyyat

*(üçüncü bölmə)*

# Mövzu 17. Kursun məqsədi, vəzifələri və quruluşu

**17.1** Makroiqtisadi nəzəriyyənin meydana çıxması və mahiyyəti
**17.2** Makroiqtisadiyyatın vəzifələri və onun təhlili metodları
**17.3** Kursun quruluşu

**17.1.** Bazar münasibətləri iqtisadi sistemi şəraitində cəmiyyətin çoxsahəli təsərrüfat həyatının müxtəlif problemlərinin iqtisadi nəzəriyyə istiqamətində öyrənilməsi əsasən iki – ***mikroiqtisadi*** və ***makroiqtisadi*** səviyyələrdə aparılır. Mikroiqtisadiyyat müxtəlif təyinatlı məhsullar istehsal edən və xidmətlər göstərən ev təsərrüfatlarının, şirkətlərin, sahələrin təşkili prinsiplərini, fəaliyyətlərini, bazarla bağlı dəyişkən tələb-təklif, qiymət, rəqabət mübarizəsi şəraitində qəbul etdikləri qərarları, bazar subyektlərinin qarşılıqlı işgüzar münasibətlərini öyrənir.

Makroiqtisadiyyat isə hər bir ölkənin, milli iqtisadiyyatın, bölgənin (regionun) təsərrüfat həyatının bütövlükdə, yəni tam şəkildə öyrənilib təhlil edilməsini nəzərdə tutur. Ölkənin və milli iqtisadiyyatın çoxsaylı problemləri sırasında makroiqtisadi təhlili ilk növbədə, ümumi milli məhsul (ÜMM) və onun artım templəri, inflyasiya və işsizliyin səviyyəsi, iqtisadiyyata investisiya qoyuluşlarının həcmi və səmərəliliyi, xarici ticarət dövriyyəsi və tədiyyə balansının vəziyyəti, dövlətin iqtisadi siyasətinin əsas istiqamətləri və onun real nəticələri kimi ümumiləşdirici (sintetik) göstəricilər, habelə onların dəyişmə dinamikası maraqlandırır.

Qeyd etmək zəruridir ki, iqtisadi nəzəriyyənin mikroiqtisadiyyat, mezoiqtisadiyyat, makroiqtisadiyyat, meqoiqtisadiyyat kimi bölmələri arasında sədd çəkmək, onları bir-birindən ayırıb təcrid etmək mümkün deyildir. Vahid iqtisadi nəzəriyyənin hissələri sayılan bu bölmələrin, xüsusilə də mikroiqtisadiyyatla makroiqtisadiyyat arasında daxili bir rabitə, qarşılıqlı asılılıq və səbəb-nəticə əlaqəsi vardır. Obrazlı desək, mikroiqtisadiyyat dəniz sahillərindəki qum dənələrini və çınqılları, şəhərdəki küçə və evləri, meşədəki ağac və bitkiləri öyrənirsə, makroiqtisadiyyat bütövlükdə sahili, şəhəri, meşəni tədqiq edib öyrənir.

Makroiqtisadiyyatla hər hansı bir ölkənin «milli iqtisadiyyatı» anlayışı forma və məzmun etibarilə üst-üstə düşsə də, lakin bunların oxşarlığı ilə yanaşı, özünəməxsus xüsusiyyətləri də vardır. Milli iqtisadiyyat ölkənin təsərrüfat həyatının tarixən formalaşmasını, onun inkişaf qanunauyğunluqlarını, iqtisadiyyatın struktur (quruluş) məsələlərini, müstəqil yaxud asılı xarakterini əhatə edir. Makroiqtisadiyyat isə ölkənin müasir inkişaf səviyyəsinin ümumiləşdirici göstəricilərin təhlili və tədqiqi ilə məşğul olur.

Makroiqtisadiyyat iqtisadi nəzəriyyənin ən gənc və sürətlə inkişaf edərək, daima yeni ideyalarla, konsepsiyalarla zənginləşən bir bölməsidir. Onun məzmununun əhatə dairəsi (predmeti) və özünəməxsus tədqiqat üsulları (metodları) XX əsrin 30-cu illərindən formalaşmağa başlamışdır. Makroiqtisadiyyatın qərarlaşması və sonrakı inkişafı prosesinə aşağıdakı amillərin ciddi təsiri olmuşdur:

- ***əvvələn***, müxtəlif ölkələrdə iqtisadi inkişaf və onun artım sürətinə, ümumi milli məhsulun natural həcminə və dəyərinə, milli gəlirə, investisiya qoyuluşlarına, əhalinin və şirkətlərin gəlirlərinə, habelə onların yığımına dair statistika məlumatlarının, müqayisəli ümumiləşdirici göstəricilərin toplanıb təhlil olunması, eyni zamanda bu əsasda milli

hesablar sisteminin yaradılması zəruriliyinin rəsmi dairələr (hökumətlər) tərəfindən dərk olunması;

- **sonra**, 1929-1933-cü illərdə ABŞ-da başlayaraq, tədricən digər ölkılıri də əhatə etmi. dünya iqtisadi böhranı («böyük depressiya») göstərdi ki, baş verən prosesləri və onun inflyasiya, işsizlik, istehsalın kəskin surətdə aşağı düşməsi, investisiyaların azalması, xarici ticarət əlaqələrinin məhdudlaşması, əhalinin həyat səviyyəsinin pisləşməsi, cəmiyyət miqyasında sosial ziddiyyətlərin kəskinləşməsi kimi ağır nəticələrini, klassik-neoklassik nəzəriyyələrin kapitalizmin «özü-özünü tənzimləməsinə» dair müddəaları ilə izah etmək mümkün deyildir. Eyni zamanda yaranmış vəziyyətdən necə çıxmaq və gələcəkdə baş verə biləcək bu tipli proseslərin qarşısını almaq üçün hansı tədbirlərin hazırlanması zəruriliyinə cavab tapmaqda, mikroqtisadi təhlil mövqeyində duran klassik-neoklassik məktəb nümayəndələrinin elmi-nəzəri baxışlarının acizliyi;

- ***nəhayət***, toplanmış məlumatların elmi təhlili və ümumiləşdiridməsi nəticəsində, iqtisadi inkişafın enib-qalxan dövri (tsikl) xarakter daşıyan qanunauyğunluqları ölkənin, habelə, dünyanın təsərrüfat həyatının işgüzar fəallığının kəskin surətdə dəyişməsinin qarşısını almaq üçün dövlətin, onun müvafiq orqanlarının cəmiyyətin iqtisadi problemlərinə qarışmasının (müdaxiləsinin) nəzəri cəhətdən əsaslandırılması zəruriliyini irəli sürülməsi.

Müasir makroiqtisadi nəzəriyyənin banisi və yaradıcısı görkəmli ingilis iqtisadiyyatçısı Con Meynard Keyns (1883-1946) olmuşdur. Bütün dörlərin və xalqların ən böyük iqtisadçılarından biri sayılan Keyns, iqtisadiyyatda baş verən qeyri-sabitliyin dəyişkən meylləri, zəruri enib-qalxmaların səbəblərini aydınlaşdırmaqla yanaşı, bunların aradan qaldırılması yollarını nəzərdə tutan müəyyən dövlət proqramlarının ardıcıllıqla həyata keçirilməsinin vacibliyini əsaslandırmışdır. Müxtəlif mövqelərdən tənqid edilməsinə baxmayaraq, «XX əsrin iqtisadi fikrinin ən mühüm nailiyyətlərindən biri sayılan» (Pol Samuelson) makroiqtisadi nəzəriyyə həqiqətən, aydınlaşdırdı ki, iqtisadi sarsıntıların qarşısını almaq, yaxud onların pozucu təsir gedişini «yumşaltmaq» üçün dövlət tənzimlənməsi siyasəti səviyyəsində hansı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur. Yalnız həmin tədbirlər sisteminin düşünülmüş və ardıcıllıqla reallaşdırılması ölkənin çoxsahəli təsərrüfat həyatının uzunmüddətli tarazlı inkişafını təmin edə bilərdi.

C.M.Keynsin makroiqtisadiyyata dair nəzəri ideyaları, onun «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» (1936) kitabında irəli sürülüb, hərtərəfli əsaslandırılmışdır. Bu nəzəriyyənin təməlini aşağıdakı yeni fikirlər və ideyalar təşkil edirdi:

**a)** bazar münasibətləri iqtisadi sisteminin özünü iənzimləyə bilməsi haqqında klassik və neoklassik nəzəri baxışlardan imtina olunurdu;

**b)** iqtisadi inkişaf, onun templərinin formalaşmasında tələbin həlledici rol oynadığı faktı vurğulanaraq, fransız iqtisadiyyatçısı J. B. Seyin bazarda «təklif tələb yaradır» məşhur qanunu tənqid edilirdi;

**c)** milli iqtisadiyyatın vahid bir sistem kimi fəaliyyət göstərməsi şəraitində (reallığında), onun ayrı-ayrı sahələrinin, problemlərinin özünəməxsus cəhətlərinin həmin sistemin ümumi fəaliyyəti üçün həlledici əhəmiyyət daşımadığını, məsələn, şəxsi və ümumi maraqların üst-üstə düşməməsi mənasında, «yığım paradoksu (möcüzəsi, fenomeni)» psixoloji qanunu timsalında, fərdi yığımdan fərqli olaraq, milli yığımın

çoxalmasının (toplanmasının) konkret investisiyalara çevrilmədikcə, ölkənin milli sərvətini artırmadığını əsaslandırmışdı.

Makroiqtisadi nəzəriyyədə istehsalçılarla (satıcılarla, təkliflə) istehlakçıların (alıcıların, tələbin) qarşılıqlı vəhdəti nəzərdə tutulur. Lakin bu qarşılıqlı asılılıq prosesində ağırlıq mərkəzi iqtisadi resurslara - təklifdən tələbə və onun sabtliyinə yönəldilmişdir. Deməli, bu nəzəriyyənin mərkəzində səmərəli tələb və ölkənin milli gəlirinin artırılması qanunauyğunluqlarının təhlili durur. Bu nəzəriyyə iqtisadiyyatın ümumiləşdirilmiş gösətəricələri üzərində qurulduğundan, burada ayrı-ayrı əmtəələr, xidmətlər, istehsal amlləri bazarı deyil, ***vahid milli bazar və vahid alıcı mənasında – məcmu tələb, habelə məcmu təklif*** anlayışları həlledici əhəmiyyətə malikdir.

Məcmu (ümumi) tələb dedikdə, müxtəlif qiymətlər səviyyəsində əmtəə və xidmətlərə olan tələbin ümumi həcmi başa düşülür. Məcmu (ümumi) təklif dedikdə isə, müxtəlif qiymətlər səviyyəsində bazara (satışa) çıxarılacaq, alıcılara təklif olunan əmtəə və xidmətlərin ümumi həcmi (kəmiyyəti, miqdarı) nəzərdə tutulur.

Keynsin makroiqtisadi təlimində ölkənin təsərrüfat həyatının müxtəlif bölmə və sahələrinin tarazlığı probleminə də əhəmiyyətli yer verilmişdir. Makroiqtisadi tarazlıq milli iqtisadiyyatın ümumiləşdirici göstəricilərinin bir-birindən asılılıq vəziyyətini və optimal nisbətlərini əks etdirir. Bu halda istehsal olunmuş məhsul və xidmətlər tam reallaşdırılır, tələblər isə ödənilir. Deməli, iqtisadi tarazlıq ideyası ölkənin əmtəə-xidmətlər axını ilə pul (gəlirlər) axını hərəkətinin qarşılıqlı surətdə bir-birinə uyğunluğunu nəzərdə tutur.

Bu problemin öyrənilməsilə vaxtilə A.Smit, L.Valras, J.B.Sey, A.Marşall və başqaları məşğul olsalar da, şübhəsiz, L.Valrasın rolu xüsusi qeyd olunmalıdır. Onun fikrincə, bazar iqtisadiyyatı həmişə tarazlı inkişafa meyl edir və onun müxtəlif sahələri arasında qarşılıqlı əlaqələr mübadilə (alqı-satqı) yolu ilə həyata keçirilir. A.Marşall isə bu qarşılıqlı tarazlığı məcmu tələb və məcmu təklif (MT–MT, yaxud AD–AS) şəklində göstərmişdir. Keyns bu mövqelərin məhdudluğuna diqqəti cəlb edərək, makroiqtisadi tarazlığın təmin olunması üçün təkcə bazarın daxili, özü-özünü tənzimləmək mexanizminin imkanlarından deyil, eyni zamanda dövlətin iqtisadiyyatı tənzimləməsi vasitələrindən də istifadə edilməsinin zəruriliyini əsaslandırmışdır. Keynsin davamçıları AD-AS modelini daha da təkmilləşdirərək, onu İS – LM, yəni investisiyalar – yığım-likvidlik (satış) – pul şəklində göstərmişlər.

Şübhəsiz, makroiqtisadi tarazlıq ideyası mütləq mənada reallaşdırıla bilməsə də, lakin ölkənin təsərrüfat həyatında ona doğru irəliləyişə xidmət edən tədbirlər sisteminin dövlət siyasəti səviyyəsində həyata keçirilməsi zəruridir.

**17.2.** Makroiqtisadiyyat bütövlükdə ölkə iqtisadiyyatını vahid təsərrüfat sistemi kimi təhlil etdiyindən, aydındır ki, bu mövqedən yanaşmada saysız-hesabsız ev təsərrüfatlarının, şirkətlərin, birliklərin fəaliyyət mexanizminin tərkib hissələri sayılan qiymət, rəqabət, ayrı-ayrı məhsul-xidmətlərə olan tələb və təklif anlayışları kifayət deyildir. Milli iqtisadiyyatın makroiqtisadi təhlili, yeni və ümumiləşdirilmiş (məcmu) göstəricilərdən (parametrlərdən), habelə tədqiqat metodlarından istifadə olunmasını irəli sürmüşdür.

C.M.Keynsin fikrincə, bütövlükdə ölkə iqtisadiyüyatı, sırf bazar münasibətlərini əks etdirən mikroiqtisadi anlayışlara forma cəhətdən oxşasa da, lakin mahiyyətcə üst-üstə düşmürlər. Çünki, «böüyük iqtisadiyyat» (ölkənin təsərrüfat həyatı) anlayışı, onun «kiçik hissələrinin» (ev təsərrüfatlarının, şirkətlərin) sadəcə mexaniki toplusu olmadığından,

bunları xarakterizə edən göstəricilər və idarə edən prinsiplər eyniyyət təşkil edə bilməzdi. Deməli, ölkənin təsərrüfat həyatı mənasında «böyük iqtisadiyyat» təkcə kəmiyyət (miqdar, həcm) məsələsi olmayıb, eyni zamanda yeni keyfiyyət (mərhələ) sayıldığından, bir sistem kimi onun fəaliyyəti daha ümumi göstəricilərlə səciyyələndirilib öyrənilməlidir. Ona görə də vahid iqtisadi sistem daxilində mikro və makroiqtisadiyyatların qarşılıqlı əlaqə, bir-birinə təsir mexanizmlərinə baxmayaraq, onların ayrı-ayrılıqda kəmiyyət, keyfiyyət fərqləri bu istiqamətdəki tədqiqatlara, onların metodlarına yeni mövqelərdən yanaşmağı şərtləndirmişdir.

Makroiqtisadi mövqeyə görə hər hansı bir ölkənin iqtisadiyyatı 4 ümumiləşdirilmiş təsərrüfat subyektlərindən ibarətdir:

**a)** ev təsərrüfatları

**b)** sahibkarlar

**c)** dövlət

**ç)** xaricdə yerləşib fəaliyyət göstərən bölmələr (sektorlar)

Bu subyektlərin qarşılıqlı iqtisadi münasibətləri və çoxcəhətli əməkdaşlıq əlaqələrinin əsas hissəsi müxtəlif bazarlarda formalaşıb həyata keçirilir.

Bazar münasibətləri iqtisadi sistemi şəraitində mövcud olub, fəaliyyət göstərən çoxsaylı bazarlardan C.M.Keyns əsas dördünü seçmişdir. Bu bazarlar aşağıdakılardır:

**1)** məhsul və xidmətlər bazarı

**2)** pul bazarı

**3)** əmək bazarı

**4)** qiymətli kağızlar bazarı

Sonralar bu bazarlar sırasına real kapital (dəzgahlar, maşınlar, avdvnlıqlar və s.) bazarı və beynəlxalq valyuta bazarı (milli valyutaların mübadiləsi bazarı) əlavə olunmuşdur.

İqtisadi nəzəriyyənin makroiqtisadiyyat hissəsi əsasən aşağıdakı problemlərin təhlili və araşdırılması ilə məşğul olur:

1. Ümumi milli məhsul (ÜMM) və ümumi daxili məhsulun (ÜDM) həcmi, habelə artım templəri
2. Məşğulluq və işsizliyin səviyyəsi
3. İnflyasiya və qiymətlərin indeksi
4. İqtisadi tsikllər və inkişafın qeyri-sabitliyi
5. Dövlətin makroiqtisadi siyasəti
6. Ölkənin xarici iqtisadi siyasəti və beynəlxalq əlaqələr sistemi
7. Əhalinin həyat səviyyəsi problemləri

Makroiqtisadiyyatın vəzifələrinə gəldikdə, buraya yuxarıda qeyd olunan iqtisadiyyatın artım templəri, inflyasiya və işsizliyin səviyyəsinin təhlili ilə yanaşı, ölkənin tədiyyə balansının vəziyyəti, milli gəlirin artım templəri, investisiya qoyuluşlarının həcmi, onların səmərəliliyi, dövlət büdcəsinin formalaşması, pul-kredit siyasəti, bank faizləri, xarici ticarət balansı, dövlət borcu kimi məsələlər də aid edilir.

Makroiqtisadi təhlil, cəmiyyətin iqtisadi-sosial inkişafı gedişində, təbii olaraq qarşıya çıxan bir sıra suallara cavab axtarır: Nə üçün müxtəlif inkişaf mərhələlərində qiymətlərin artımı istehsalın artım templərini ötür? Məşğulluğu və inflyasiyanı doğuran səbələr hansılardır? Dölət büdcəsində yaranan kəsirin inflyasiya və işsizliklə əlaqəsi necədir? Milli valyutanın məzənnəsinin dəyişməsi hansı problemlər doğurur?

Ölkənin iqtisadi-sosial inkişafı və onun gələcək perspektivləri üçün həyati bir əhəmiyyət kəsb edən bu məsələlərin ***pozitiv*** iqtiadi nəzəriyyə mövqelərindən öyrənilərək, ***normativ*** istiqamətli nəticələr çıxarılması, dövlətlərin iqtisadi siyasətinin hazırlanması və həyata keçirilməsində mühüm rol oynayır.

Vaxtilə C.M.Keyns yazmışdır ki, iqtisadi nəzəriyyətnin vəzifəsi konkret məsləhət və tövsiyyələr verib, bunların tezliklə iqtisadi siyasət vasitəsilə həyata keçirilməsi deyildir. Onun fikrincə, «iqtisadi nəzəriyyə ***doktirina (hökm)*** olmayıb, bir ***metod, düşüncə və təfəkkür aləti*** kimi düzgun nəticələr çıxarmağa kömək göstərməlidir». Deməli, makroiqtisadi problemlərdən irəli gələn konkret vəzifələrin həlli yollarının müəyyənləşdilib dövlətin iqtisadi siyasəti səviyyəsində ardıcıllıqla həyata keçirilməsi, şübhəsiz ölkədə tarazlı tənzimlənmiş inkişaf sayəsində optimal məşğulluq, normal inkişaf templəri və nəzarətdə saxlanılan inflyasiya təmin etmək imkanları yarada bilər.

Makroiqtisadi təhlil prosesində iqtisadi nəzəriyyədə tətbiq olunan ***elmi abstraksiya, müqayisəli məntiq və tarixi ardıcıllıq, analiz və sintez, pozitiv və normativ, riyazi-iqtisadi metodlardan*** yeri gəldikcə istifadə olunur. Eyni zamanda bu metod və yanaşma üsullarının makroiqtisadiyyatın mahiyyətindən irəli gələn özünəməxsus cəhətlərin nəzərə alınması tələb olunur. Həmin özünəməzsus cəhətlər sırasında, ilk növbədə makroiqtisadiyyatın ümumiləşdirici göstəricələrə əsaslanması və ölkənin çoxsahəli təsərrüfat həyatının bütün bir tam halında, habelə qarşılıqlı tarazlıq prinsipləri təməlində fəaliyyət göstərməsi həlledici əhəmiyyətə malikdir.

Qeyd etmək zəruridir ki, makroiqtisadi təhlildə iqtisadi subyektlərin qarşılıqlı əlaqə və təsiri müxtəlif modellər vasitəsilə aydınlaşdırılır. Real gerçəkliyin və iqtisadi proseslərin formal (şərti) ifadəsi olan müxtəlif modellər, hadisələrin mühüm olmayan cəhətlərini nəzərə almayaraq, əsas diqqəti iqtisadi əlaqələrin mahiyyətinə yönəldir.

Makroiqtisadi modellərdə iqtisadi sistemin həm daxili (endogen), həm də ona kənardan təsir gösiərən xarici (ekzogen) amillərin qaşılıqlı əlaqələləri öz əksini tapır. Ölkənin konkret vəziyyəti və şəraitdən asılı olaraq, müxtəlif makroiqtisadi modellərin məqsədi – baş verən dəyişikliklər, habelə, meyllər əsasında iqtisadi –sosial inkişafın ümumi qanunauyğunluqlarını təhlil edib aydınlaşdırmaq, bu inkişafın gələcək perspektivlərini müəyyənləşdirməkdir.

**17.3.** İqtisadi nəzəriyyənin nisbətən gənc və yeni bir bölməsi olub, bütövlükdə ölkənin ümumi iqtisadi vəziyyətinin təhlili, tədqiqi, inkişaf meylləri ilə məşğul olan makroiqtisadiyyatın əhatə etdiyi mürəkkəb prorblemlərin dairəsi, onlara yanaşma üsulları, habelə həlli yolları barəsində müxtəlif fikirlər vardır.

Alim və mütəxəssislərin bir qrupu makroiqtisadi səviyyədə dövlətin öz iqtisadi siyasəti ilə ölkənin «təsərrüfat həyatına müdaxiləsinin» əleyhinə çıxaraq, bunun «xeyrindən çox zərəri olacağını» əsaslandırmağa çalışmışlır. Başqa bir qrup isə əksinə, dövlətin makroiqtisadi bütövlükdə iqtisadiyyatın tarazlı inkişafının tənzimlənməsi prosesinə müsbət təsir göstərəcəyini irəli sürmüşlər. Eyni zamanda makroiqtisadi siyasət səviyyəsində dövlətin ölkənin təsərrüfat həyatının hansı problemləri ilə və konkret hansı hüdudlar daxilində məşğul olması məsələləri də ciddi mübahisələr doğurmuşdur.

Lakin dünya iqtisadiyyatında və ayrı-ayrı ölkələrin təsərrüfat həyatında baş verən irəliləyiş-sarsıntılar, inflyasiya prosesləri, əhalinin işsizliyi, təbəqələşməsi, yoxsulluğu, büdcə kəsiri, dövlət borcu kimi məsələlərin qarşıya çıxması göstərdi ki, makroiqtisadi

səviyyədə milli iqtisadiyyatın tənzimlənməsi sadəcə arzu olmayıb, real vəziyyətin irəli sürdüyü tələbdir.

Müasir mərhələd planet miqyasında intensiv bir xarakter almış inteqrasiya və qloballaşma prosesləri, tədricən vahid dünya təsərrüfat sisteminin formalaşması, bütövlükdə milli iqtisadiyyatların ümumi sosial-iqtisadi problemlərinə diqqət yetirməyin, xüsusilə bu mürəkkəb, habelə bəzən ziddiyətli proseslərin dövlət tərəfindən tənzimlənib idarə olunmasının məqsədəuyğunluğunu təsdiq edir.

Bu mənada makroiqtisadiyyat bölməsinin əksəriyyət tərfindən qəbul olunmuş problemlərinin ardıcıllıqla, müəyyən olunmuş mövzular üzrə və aşağıdakı quruluş daxilində öyrənilməsi məsləhət görülür.

***İlk növbədə*** ölkənin ümumi daxili məhsulunun (ÜDM) həcmi və qiymətlərin dəyişkənliyi səviyyəsi reallığında, BMT-nin Milli Hesablar Sistemində nəzərdə tutulan ümumiləşdirici iqtisadi göstəricilər öyrənilmiş, milli gəlirin artırılması şərtlərinə diqqət yetirilmiş, milli gəlirin istehlak və yığım fondlarına yönəldilməsinin optimal variantları aydınlaşdırılmış, milli iqtisadiyyatın makroiqtisadi göstəriciləri ilə əhalinin həyat səviyyəsi arasındakı qarşılıqlı əlaqə, habelə təsir amilləri hərtərəfli təhlil olunmuşdur.

***Sonra,*** makroiqtisadi qeyri-sabitlik şəraitində işsizlik və inflyasiya proseslərinə, bunları doğuran obyektiv-subyektiv xarakterli səbəblərə, formalarına, tiplərinə, sosial-iqtisadi nəticələrinə, habelə dövlətin məşğulluğun təmin edilməsi və antiinflyasiya siyasəti tədbirlərinə geniş yer verilmişdir.

***Daha sonra,*** milli iqtisadiyyatın makroiqtisadi təhlili – məcmu tələb və məcmu təklif səviyyəsində öyrənilərək, bu çoxamilli proseslərin mahiyyəti açıqlanmış, qrafik təsvirləri verilmiş, istehsalın həcmi və qiymətlərin tarazlığı müstəvisində baş verən dəyişikliklər ətraflı izah edilmişdir.

***Daha sonra,*** ölkənin fiskal siyasəti, onun hüquqi bazası, pul-kredit münasibətləri, bankların faliyyəti, büdcənin formalaşması, vergi sistemi, dövlətin daxili və xarici borcları, habelə bunula bağlı problemlərin həlli yolları aydınlaşdırılmışdır.

***Nəhayət,*** milli iqtisadiyyatın artım sürəti, bu prosesə təsir edən obyektiv-subyektiv amillər, iqtisadi artımın forma və tipləri, onların temp və nisbətləri, habelə iqtisadi artımın son sosial-iqtisadi nəticəsi kimi əhalinin real həyat səviyyəsinin yüksəlməsinə təsiri məsələləri öyrənilmişdir.

# Mövzu 18. Ümumi daxili məhsulun həcminin ölçülməsi və qiymətlər səviyyəsi

**18.1** Milli Hesablar Sistemi
**18.2** Milli iqtisadiyyatın əsas göstəriciləri
**18.3** Milli gəlir, onun bölgüsü və artırılması yolları
**18.4** Milli gəlir və ölkə əhalisinin həyat səviyyəsi

**18.1**. Hər hansı bir ölkənin təsərrüfat həyatını və qarşılaşdığı iqtisadi-sosial problemlərini makroiqtisadi səviyyədə təhlil edib ümumiləşdirmək, habelə onun gələcək inkişaf meylləri perspektivlərini proqnozlaşdırmaq üçün müəyyən göstəricələr (parametrlər, indikatorlar) sisteminin olması zəruridir. Aydındır ki, ölkənin iqtisadi inkişaf səviyyəsinə dair etibarlı və dəqiq ümumiləşdirici göstəricilər olmadan, murəkkəb qarşılıqlı əlaqələr sistemi kimi səciyyələnən milli iqtisadiyyatı uğurla idarə edib, rastlaşdığı problemləri səmərəlilik meyarları ilə həll etmək çətindir. Doğrudur, müdriklərin dediyi kimi rəqəmlər dünyanı idarə etməsələr də, lakin onun necə idarə olunduğunu göstərirlər. Bu mənada vahid meyarlar və prinsiplər əsasında müxtəlif ölkələrin ümumiləşdirici iqtisadi göstəricilər sisteminin hesablanması, habelə müqayisəli təhlillər aparılması, son dərəcədə aktual bir əhəmiyyət kəsb edir.

Ölkə üçün ümumiləşdirici iqtisadi göstəricilər sisteminin (toplusunun) vacibliyini ilk dəfə tanınmış ingilis iqtisadçısı, klassik siyasi iqtisadın ilk nümayəndəsi və banilərindən biri sayılan Uilyam Petti (1623-1687) göstərmişdir. O, İngiltərənin timsalında və onun Fransa ilə müqayisəli təhlil əsasında ölkənin milli gəlirinin həcmini müəyyənləşdirib qiymətləndirə bilmişdir.

Milli iqtisadiyyatın makroiqtisadi səviyyədə ilk bəsit şəkildə modeli (variantı) görkəmli fransız iqtisadçısı Fransua Kene (1694-1774) tərəfindən yaradılmışdır. O, ictimai təkrar istehsalın təhlil əsasında, ölkənin ümumi məhsulunun natural-əşya və dəyər tərkibi ünsürləri baxımından, onların arasındakı balans nisbətini müəyyənləşdirə bilmişdir.

Karl Marksın (1818-1883) «Kapital» əsərində təkrar istehsal prosesinin təhlil sxemlərində də bu məsələnin müəyyən cəhətlərinə toxunulmuşdur.

XX əsrin əvvəllərindən başlayaraq ayrı-ayrı ölkələrin, eyni zamanda bütövlükdə dünya iqtisadiyyatında baş verən ciddi dəyişikliklər və ziddiyyətli proseslər, ümumiləşdirilmiş iqtisadi göstəricilərin müəyyənləşdirilməsini tələb edirdi. Maraqlıdır ki, ötən əsrin 20-30-cu illərində planlı sosialist iqtisadiyyatı qurmağı qarşısına məqsəd qoymuş Sovet İttifaqında xalq təsərrüfatı balansı adı altında, ümumiləşdirici iqtisadi göstəricilər sistemi yaradılmış və bu göstəricilərdən beşillik inkişaf planlarının hazırlanmasında istifadə olunmuşdur.

Qərb ölkələrində isə ümumiləşdirici göstəricilər əsasında uyğun sistemlərin işlənib hazırlanmasına 1929-1930-cu illərdə dünya kapitalist aləmini sarsıtmış iqtisadi böhrandan sonra ciddi diqqət yetirilməyə başlanmışdır. Tanınmış alim və iqtisadçılardan A.Marşall, C.M.Keyns, R.Stoun, K.Klark, S.Kuznets, V.Leontyev, C.Xiks, M.Cilbert, L.Bouli bu istiqamətdə bir sıra elmi-nəzəri konsepsiyalar, habelə əməli əhəmiyyəti olan konkret təkliflər irəli sürmüşlər.

Milli Hesablar Sistemi anlayışı elmi dövriyyəyə ilk dəfə Hollandiya iqtisadçısı – statistiki Edvan Klifor tərəfindən gətirilmişdir. O, bu anlayışdan Hollandiyanın Milli Hesablar Sistemi haqqında 1941-ci ildə «De Ekonomist» məcmuəsində nəşr olunmuş məqalələrində istifadə etmişdir.

II Dünya müharibəsindən sonra dünyanın bir sıra dövlətlərində ümumiləşdirici makroiqtisadi göstəricilər sistemin işlənib hazırlanmasına başlandı. 1952-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Statistika Bürosunun dəvət etdiyi iqtisadi statistika üzrə ekspertlər «Milli Hesablar Sistemi və onu izah edən cədvəllər haqqında metodik tədqiqatlar» hazırladılar. Həmin tədqiqatlarda dünyanın yüksək inkişaf etmiş ölkələrində milli hesablamalar sahəsində əldə edilmiş təcrübə ümumiləşdirilmişdir. Bu işlərin məntiqi davamı kimi 1953-cü ildə BMT tərəfindən «Milli Hesablar Sistemi və köməkçi cədvəllər» adlı əhatəli məruzə çap olundu. Həmin məqalədəki ideya və fikirlər, habelə konkret tövsiyyələr beynələlxalq miqyasda ilk ümumi razılaşdırılıb bəyənilmiş makroiqtisadi göstəricilər oldu. Bu sistem, sonralar xeyli təkmiləşdirilərək, yeni variantda bütün dünya ölkələrində tətbiq olunmağa başladı.

Ölkənin son məhsulunun və milli gəlirinin ardıcıl mərhələlərlə istehsalını, bölgüsünü, habelə istifadəsini səciyyələndirən Milli Hesablar Sistemi milli iqtisadiyyatın yekunlaşdırılmış statistika göstəricilərinin ifadəsidir. Öz formal quruluşuna görə Milli Hesablar Sistemi, mühasibat hesablarına uyğundur. Bu hesablarda hər bir məbləğ iki dəfə, yəni bir hesabın debitinə (gəlirə), başqa hesabın isə kreditinə (xərcinə) yazılır. Həmin prinsinlərə əsaslanan konkret hesablamalar, ölkənin makroiqtisadi göstəricilərini, ilk növbədə isə milli iqtisadiyyatın ümumi daxili məhsul (ÜDM) və ümumi milli məhsul (ÜMM) parametrlərini müəyyənləşdirməyə imkan verir.

Azərbaycan Respublikası müstəqilliyini (18 oktyabr 1991-ci il) bərpa etdikdən sonra dünya ölkələri ilə onun iqtisadi-ticarət əlaqələrinin dinamik surətdə genişlənməsi xətti, ölkədə uçot və statistika sahəsində hesablamaların müasir beynəlxalq standartlara uyğun qurulmasını irəli sürdü.

1992-ci ilin mart ayından BMT-nin rəsmi üzvü sayılan Azərbaycan Respublikası prezidentinin 11 avqust 1992-ci il tarixili fərmanı ilə ölkədə Milli Hesablar Sisteminin tətbiqinə başlanmışdır. Həmin fərmana əsasən Azərbaycan Respublikası Nazirlər Kabineti 8 dekabr 1992-ci il, 653 saylı xüsusi qərar qəbul etmişdir. Qərarda Azərbaycan Dövlət Statistika Komitəsinə tapşırıldı ki, statistika təcrübəsi və metodikasının təkmilləşdirilməsi məsələlərində beynəlxalq statistika təşkilatları, habelə bu problemlərlə məşğul olan digər beynəlxalq qurumlarla ölkəmizin əlaqələrini genişləndirmək istiqamətindəki səylərini gücləndirsinlər. Eyni zamanda ölkədə ilkin mühasibat və statistika işləri, müasir bazar münasibətləri iqtisadi sistemin tələblərinə uyğun surətdə təşkil olunmağa başlandı. Hazırda Azərbaycan Respublikasında beynəlxalq Milli Hesablar Sisteminin tələblərinin realla.dırılması istiqamətindəki işlər kompleks şəkildə həyata keçirilməkdədir.

**18.2**. Bütövlükdə hər hansı bir ölkənin təsərrüfat həyatının ümumi vəziyyətini, onun inkişaf səviyyəsini müəyyənləşdirib təhlil eimək üçün bir sıra ümumiləşdirici makroiqtisadi göstəricilər sistemindən istifadə olunur:

**I.** Ümumi milli məhsul (ÜMM) – ölkədə və onun hüdudlarından kənarda milli iqtisadiyyatın resursları hesabına il ərzində istehsal olunmuş son hazır məhsulların (əmtəələrin), göstərilən xidmətlərin ümumi bazar qiymətləri ilə dəyər ifadəsidir.

**II.** Ümumi daxili məhsul (ÜDM) mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, ölkə ərazisində fəaliyyət göstərən şirkətlərin il ərzində istehsal etdikləri hazır əmtəələrin (məhsulların) və göstərdikləri xidmətlərin ümumi dəyəridir (qiymətidir).

**III**. Xalis milli məhsul (XMM) ölkənin ümumi daxili məhsulundan (ÜDM) amortizasiya ayrılmaları (AA) çıxıldıqdan sonra qalan hissədir. Başqa sözlə:

XMM=ÜDM – AA

Yaxud: ÜDM – AA =XMM

**IV**. Milli gəlir (MG) – ölkənin xalis milli məhsulundan (XMM) bütün dolayı vergilər (DV) çıxıldıqdan sonra qalan hissədir. Başqa sözlə:

MG = XMM – DV

Yaxud: XMM – DV = MG

**V.** Milli sərvət (MS) – hər millətin tarixi inkişafı dövründə əldə etdiyi və malik olduğu maddi, habelə mənəvi nemətlərin məcmusudur, toplusudur, cəmidir.

Milli iqtisadiyyatin bu xarakterik sintetik parametrləri ilə yanaşı, ümumiyyətlə ÜDM və onun artım templəri, ölkədə əhalinin məşğulluğu və işsizliyi, qiymətlər indeksi və inflyasiya səviyyəsi, bütünlükdə makroiqtisadi təhlili baxımından əsas iqtisadi göstəricilər kimi səciyyələndirilir. Eyni zamanda ölkədə yığım və investisiyaların həcmi, xarici iqtisadi əməkdaşlıq əlaqələrin coğrafiyası və onun ümumi dövriyyəsinin həcmi, əhalinin həyat səviyyəsi göstəriciləri iqtisadi-sosial inkişafın tam mənzərəsini daha dolğun surətdə əks etdirdiyindən, həmin parametrlər də makroiqtisadi göstəricilər sırasına daxil edilir.

Hər bir ökənin mühüm makroiqtisadi göstəricisi sayılan ümumi daxili məhsulun (ÜDM) hesablanmasını iki yolla aparmaq mümkündür:

- xərclər, yaxud istehsal metodu ilə;
- gəlirlər, yaxud bölgü metodu ilə.

Bu metodlarla hesablamalar o deməkdir ki, ölkədə bir ildə istehsal olunmuş məhsulların – xidmətlərin alınmasına sərf olunmuş xərclərin ümumi məbləği (xərclər metodu) və həmin dövrdə istehsal olunmuş məhsullardan, xidmətlərdən əldə edilmiş pul gəlirlərinin məblәginə (gəlirlər metodu) uyğun olub, ölkənin ÜDM-na bərabərdirlər. Deməli, bu asılılıqdan aydın olur ki:

| | | |
|---|---|---|
| Ölkədə bir ildə istehsal olunmuş məhsulların-xidmətlərin alınmasına sərf olunmuş xərclərin ümumi həcmi (məbləği) | ÜDM<br>= | Ölkədə bir ildə istehsal olunmuş məhsullardan-xidmətlərdən əldə edilmiş gəlirlərin həcminə (məbləğinə) |

Ölkənin ÜDM-nun xərclər və gəlirlər metodları ilə müəyyənləşdirilməsi prinsipi aşağıdakı sxemdə öz əksini tapmışdır:

| Xərclər, yaxud istehsal metodu | | | Gəlirlər, yaxud bölgü metodu | |
|---|---|---|---|---|
| C | 1. Ev təsərrüfatlarının (təsərrüfat vahidlərinin, sahibkarların, şirkətlərin, korporasiyaların) istehlak xərcləri | =ÜDM= | 1. | Əmək haqqı (ƏH) |
| İ (q) | 2. Şirkətlərin investisiya (sərmayə qoyuluşları) xərcləri | | 2. | Renta (R) |
| Ç | 3. Məhsul və xidmətlərin dövlət tərəfindən alınması, yaxud dövlət sifarişləri | | 3. | Əmanət və qiymətli kağızların (səhmlərin) gətirdiyi faiz (F) |
| X (n) | 4.Xaricilərin ölkədaki xərcləri | | 4. | Sahibkarların, şirkətlərin, korporasiyaların mənfəəti (M) |

Buradan aydın olur ki:

ÜDM=C+İ(q)+Ç+X (n) və ÜDM=ƏH+R+F+Mənfəət

Məlumdur ki, ümumi daxili məhsul (ÜDM) – son nəticə etibarilə ümumi ekvivalent sayılan pulla (dollarla, avro ilə, rublla, manatla) hesablanır. Lakin bazarda tələblə-təklifin yaratdığı dəyişkən qiymətlər şəraitində inflyasiya (qiymətlərin ümumi səviyyəsinin artımı), yaxud deflyasiya (qiymətlərin ümiumi səviyyəsinin aşağı düşməsi) nəticəsində, ölkənin ÜDM – düzgün hesablanmasında müəyyən dəqiqsizliklər, çətinliklər baş verir. Ona görə də iqtisadiyyatın makroiqtisadi göstəricisi sayılan ÜDM-un ***nominal və real*** anlayışlarından istifadə etmək zərurəti yaranır. Nominal ÜDM ölkədə istehsal olunmuş əmtəələrin və göstərilmiş xidmətlərin cari, yəni dəyişən bazar qiymətləri ilə ölçülüb-dəyərləndirilməsidir. Real ÜDM isə ölkədə istehsal olunmuş əmtəələrin və göstərilmiş xidmətlərin konkret bir baza ili, yəni əvvəlki ilə nisbətən, yaxud beş il, on il, indikindən əvvəlki dövrə nisbətən müqayisəli dəyərləndirilib qiymətləndirilməsidir. Bu iki qiymət meyarı ölçüsü, dəyərləndirilməsi arasındakı fərq – deflyator adlanır. Bu göstərici nominal ÜDM-un real ÜDM-a olan nisbətinin faizlə ifadəsi (100%-ə hasili) kimi ifadə olunur:

$$\text{ÜDM-un deflyatoru} = \frac{\text{nominal ÜDM}}{\text{real ÜDM}} \times 100\%$$

Ölkənin nominal (cari, dəyişən qiymətlərələ) hesablanan ümumi daxili məhsulu ilə onun real (əvvəlki müəyyən bir baza ilinin qiymətləri ilə müqayisəli nisbətdə hesablanan) ümumi daxili məhsulun arasındakı kəmiyyət, yaxud faiz fərqini aydınlaşdırmaq üçün qiymət indeksi anlayışından istifadə olunur. Qiymət indeksi belə hesablanır:

$$\text{Qiymət indeksi} = \frac{\text{cari qiymətlər}}{\text{baza qiymətlər}} \times 100\%$$

Bu nisbətin səviyyəsi hər hansı bir ölkədə baş verən inflyasiyanı, yəni müqayisə olunan dövr ərzində qiymətlərin bahalaşmasını, pulun alıcılıq qabiliyyətinin aşağı düşdüyünü; bəzən isə əks prosesin – qiymətlərin aşağı düşməsinin (deflyasiyanın) baş verdiyini göstərir. Müxtəlif ölkələrin rəsmi statistika, orqanlarının, beynəlxalq təşkilatların və müstəqil ekspertlərin hesablamalarına əsaslanaraq, bu göstəriciləri müqayisəli surətdə müəyyənləşdirmək mümkündür.

Şübhəsiz, ölkənin nominal və real ÜDM-nun hesablanmasına yanaşma metodları və ayrı-ayrı dövlətlərdə qiymətlər indeksinin dəyişmə dinamikası ilə bağlı inflyasiya səviyyəsinin müəyyənləşdirilməsində obyektiv-subyektiv səbəblər üzündən aşkar fərqlər, bəzən də ziddiyyətli məqamlar nəzərə çarpır. Lakin müxtəlif mənbələrin məlumatlarının müqayisəli təhlil nəticəsində orta bir mövqedən çıxış edərək, baş verən iqtisadi-sosial proseslərin həqiqi vəziyyətini təsvir etmək çətin olsa da, hər halda son nəticə etibarilə mümkündür.

**18.3**. Ölkənin mühüm iqtisadi-sosial inkişafının makroiqtisadi gösətəricilərindən sayılan milli gəlir (MG) müəyyən müddət, adətən bir il ərzində yaradılmış yeni dəyərdir. Ümumi daxili məhsuldan (ÜDM) istehlak olunmuş (sərf olunmuş) istehsal vasitələrinin dəyərini, yəni amortizasiya ayırmalarını, habelə dolayı vergiləri, dövlətin maliyyə yardımlarının məbləğini çıxdıqdan sonra cəmiyyətin sərəncamında qalan hissədir.

Beynəlxalq standartlara görə, ölkənin milli gəliri onun ÜDM-dan illik amortizasiya ayırmalarının kəmiyyəti həcmindən azdır, yəni ölkənin MG<ÜDM, yaxud ÜDM>MG

Milli gəlirin elmi-nəzəri cəhətdən tədqiqi və təhlil ilə XVII əsrdən başlayaraq iqtisadi nəzəriyyənin müxtəlif məktəb, habelə fərqli istiqamətlərinin tanınmış nümayəndələri məşğul olmuşlar. Bu sahədə U.Pettinin, A.Smitin, D.Rikardonun K.Marksın, J.Seyin, S.Sismondinin xidmətləri olmuşdur.

Doğrudur, müasir dövrdə müxtəlif ölkələrin iqtisadi-sosial inkişaf səviyyəsini müəyyənləşdirmək və onun təsərrüfat həyatını təhlil etmək üçün ümumi bir göstərici kimi UDM anlayışından daha çox istifadə olunsa da, lakin milli gəlirin həcmi, eyni zamanda hər nəfərə düşən kəmiyyəti öz əhəmiyyətini saxlayır. Çünki bu makroiqtisadi göstərici, natural və pul ifadələrində il ərzində cəmiyyətin bütövlükdə nə qazandığını, onun iqtisadi baxımdan nəyə nail olduğunu, hansı amillər hesabına zənginləşdiyini göstərir.

Ölkənin milli gəlirinin tərkibinə aşağıdakılar daxildir:

**1.** Müxtəlif mülkiyyət sahiblərinin (dövlətin, sahibkarların, fiziki və hüquqi şəxslərin) mənfəəti (M);

**2.** Əhalinin ayrı-ayrı təbəqələrinin öz zəhmət və səyləri əvəzində aldıqları (qazandıqları) əmək haqqı (ƏH);

**3.** Renta, yaxud torpaq sahələrinin (istər aqrobiznes, istrsə də mədən-hasilat sahələrinin) verdiyi gəlir (R);

**4.** Əhalinin qiymətli kağızlar (səhmlər, istiqrazlar) və bank əmanətləri üzrə aldıqları faizlər, dividendlər, habelə müxtəlif uduşlu oyunlardan əldə etdiyi gəlirlər (F).

Deməli, müxtəlif hissələrə bölünərək, cəmiyyətin ayrı-ayrı təbəqələrinin üzvlərinə – işçilərə, qulluqçulara, fermerlərə, sahibkarlara, işgüzar biznes adamlarına, əmanətlər və müxtəlif səhmlər üzrə müəyyən faiz alanlara məxsus olan gəlirlər vahid bir cəm halında ölkənin milli gəlirini təşkil edir. Milli gəlirin ölkə əhalisinin müxtəlif təbəqələri arasında ***mülkiyyətə, kapitala, əmək fəaliyyətinə*** görə mənfəət, əmək haqqı, renta və faizlərə ayrılması, onun ***ilkin bölgüsü*** adlanır. Milli gəlirin ***yenidən bölgüsü*** isə ölkənin vergilər sistemi və dövlət tənzimlənməsi mexanizmi ilə idarə olunaraq, dövlət büdcəsi vasitəsilə cəmiyyətin müxtəlif təyinatlı ehtiyaclarına, habelə əhalinin sosial müdafiəsi tədbirlərinə yönəldilir.

Bir sıra ölkələrin təsərrüfat həyatı təcrübəsində milli gəlir iki yerə – *istehsal olunmuş (yaradılmış)* və *istehlak edilmiş (sərf olunmuş)* hissələrə ayrılır. İstehsal olunmuş milli gəlir dedikdə, adətən il ərzində ölkədə istehsal olunmuş əmtəələrin və göstərilmiş xidmətlərin natural, yaxud dəyər həcmi nəzərdə tutulur. İstehlak edilmiş milli gəlir isə təbii fəlakət halları, məhsul qıtlığı, xarici ticarət dövriyyəsində yaranmış mənfi fərqin (saldonun) ödənişindən sonra qalan hissəni əhatə edir.

Eyni zamanda ölkənin milli gəlirinin *istehlak fondu* və *yığım fonduna* bölünməsi praktikasından da istifadə olunur. İstehlak fondu cəmiyyətin ümumi, ictimai ehtiyaclarının (isthlak-xidmət, müdafiə-təhlükəsizlik, təhsil-elm, səhiyyə-mədəniyyət, idman) və ölkə əhalisinin maddi-mənəvi həyat səviyyəsinin yüksəldilməsinə sərf olunur. Yığım fondu isə müxtəlif təyinatlı investisiyalar formasında ölkənin gələcək iqtisadi inkişafı məqsədlərinə yönəldilir.

Ölkənin milli gəlirinin istehlak və yığım hissələri arasında qarşılıqlı bir asılılıq əlaqəsi və dəyişkən dinamik nisbət vardır. Əgər milli gəlirdən istehlaka daha çox vəsait

ayrılarsa, təbiidir ki, yığıma ayrılan hissə azalacaqdır, əksinə yığıma toplanmış vəsait artmağa meyl edərsə, o zaman istehlak üçün nəzərdə tutulan hissənin xüsusi çəkisi aşağı düşəcəkdir. Ona görə də müxtəlif ökələr öz iqtisadi-sosial inkişaf səviyyələrindən, qarşıya qoyduqları məqsəd və vəzifələrdən, malik olduqları real imkanlardan çıxaraq, milli gəlirin istehlak və yığım fondları arasında optimal, eyni zamanda ümummilli maraqlara uyğun səmərəli nisbətlərdən faydalanmağa çalışırlar. BMT-nin tövsiyyəsi ilə tətbiq olunan Milli Hesablar Sisteminə əsasən, ölkələrin istehlak və yığım normaları (hissələri) hazırda milli gəlirə görə deyil, ümumi daxili məhsula görə hesablanır. Optimal nisbət kimi istehlaka 65-75%, yığıma isə 25-30% yönəltmək məqsədəuyğun sayılır.

Ölkənin milli gəlirinin və ümumi daxili məhsulun artırılması prosesi aşağıdakı şərtlərlə bağlıdır:

**a)** Milli iqtisadiyyatın istehsal və xidmət təyinatlı müxtəlif sahələrində işləyənlərin sayından, habelə onların əməyinin yüksək peşəkarlıq səviyyəsindən;

**b)** İstehsal-xidmət dairələrində tətbiq olunan istehsal vasitələrinə, əməyə, xammala, materiallara, enerjiyə ciddi qənaət rejiminin həyata keçirilməsindən;

**c)** Müasir elmi-texniki nailiyyətlərin, mütərəqqi texnologiyaların səmərəli iş rejimlərinin tətbiqindən;

**ç)** İsthsal-xidmət dairələrinin sahə quruluşunun təkmilləşdirilməsindən, sahələrdaxili və sahələrarası nisbətlərin optimallaşdıraraq, bacarıqla idarəetmə qabiliyyətindən;

**d)** Bazarda sağlam rəqabət mühitinin yaradılmasından;

**e)** Ökənin daxili bazarı ilə xarici bazarı arasında milli və iqtisadi təhlükəsizliyin təmin edilməsinə yönəldilmiş, habelə yaxın-uzaq perspektivləri düzgün nəzərə alan siyasət xəttinin reallaşdırılimasından;

**ə)** Dövlətin, ölkənin təsərrüfat həyatının tənzimlənməsinin düzgün elmi əsaslar üzərində qurularaq, müasir inteqrasiya proseslərinin və qloballaşan dünyanın, habeldə beynəlxalq bazarın dəyişkən tələblərini çevikiklə nəzərə alan, həmin tələblərə uyğun kompleksli inkişafın, onun templərinin, nisbətlərinin səmərəliliyinin təmin edilməsindən.

Ümumi xarakter daşıyaraq, təsərrüfat həyatının davamlı inkişafını təmin etmək imkanları açan bu amillər qrupu bütün ölkələr, xüsusilə bazar münasibətləri iqtisadi sistemini formalaşdırıb, demokratik və hüquqi dövlət quran ölkələr üçün mühüm əhəmiyyətə malikdir.

**18.4.** Ölkə əhalisinin rifahının yaxşılaşdırılması və insanların maddi-sosial vəziyyətinin, habelə mədəni səviyyəsinin yüksəldilimənst vəzifəsi, bütün cəmiyyət və quruluşların son məqsədi kimi onun milli gəlirinin həcmindən, bölüşdürülməsi mexanizmindən bilavasitə, yaxud dolayı yollarla bağlıdır. Bu mənada əhalinin həyat səviyyəsi anlayışı, insanların gəlirləri və istehlakı ilə yanaşı, əmək və məişət şəraitini, iş vaxtı və asudə vaxtın müddətlərini, habelə quruluşunu, nəhayət müxtəlif təyinatlı digər tələbatların – təhsilin, səhiyyə xidmətinin, sosial müdafiə məsələlərinin həlli vəziyyətini özündə əks itdirir.

Həyat səviyyəsi həm natural, həm də dəyər ölçüləri ilə ifadə olunur. Ölkənin milli gəlirinin ümumi həcmi və hər nəfərə düşən orta miqdarı arasında dialektik bir asılılıq, əlaqə vardır. Aydındır ki, ölkənin milli gəlirinin ümumi həcmi nə qədər çox olarsa, hər nəfərə düşən miqdarı da o qədər yüksək olar. Gəlirlərin ölkə əhalisi arasında qeyri-bərabər bölgüsü reallığını nəzər alsaq, dövlətin iqtisadi siyasəti və tənzimləmə tədbirləri

nəticəsində milli gəlirin yenidən bölgüsü vasitəsilə, həmin ədalətsizlik meyllərinin aradan qaldırılması, yaxud «yumşaldılması» yolunda ciddi səylər göstərilir.

Müasir dövrdə BMT-nin tövsiyyəsi ilə əhalinin sosial-iqtisadi vəziyyəti hər nəfərə düşən ümumi daxili məhsulun (ÜDM) və ümumi milli məhsulun həcmi ilə ölçülür. Bununla yanaşı, daha konkret və dəqiq makroiqtisadi göstərici olan milli gəlirin ölkə əhalisinin hər nəfərinə düşən kəmiyyəti, şübhəsiz öz elmi-nəzəri, habelə əməli-praktik əhəmiyyətini saxlamaqdadır.

Beynəlxalq təşkilatların hesablamalarına görə, hazırda dünya əhalisinin hər nəfərinə düşən məhsul-xəidmətlərin illik orta həcmi dəyər etibarilə 10.000 dollara yaxındır. Müxtəlif ölkələr arasında fərq hüdudları bir neçə yüz dollardan 60.000 dollar, Azərbaycan Respublikasında isə 6 min dollardır. Müasir dünya standartları baxımından və beynəlxalq təşkilatların hesablamalarına görə, ölkədə əhalinin hər nəfərinə orta hesabla ildə 760 dollardan, yəni günə 2 dollardan az ÜDM istehsal olunursa, həmin ölkə öz iqtisadi-sosial inkişafı baxımından ***zəif inkişaf etmiş***, əhalisinin yaşayış səviyyəsi cəhtdən isə ***yoxsul ölkələr*** sırasına daxil edilir. Azərbaycan Respublikası hazırda ümumi daxili məhsulun həcminə və hər nəfərə düşən kəmiyyətinə görə dünyanın 200-dən artıq ölkəsi arasında orta yerləri tutur.

Əhalinin həyat səviyyəsinin yüksəldilməsi və cəmiyyətin müxtəlif təbəqələrinin gəlirlərinin qeyri-bərabərliyini tədricən aradan qaldırmaq xətti, müasir mərhələdə dövlətlərin sosial siyasətinin başlıca istiqamətlərindən biridir. Hər nəfərə düşən ümumi daxili məhsulun (ÜDM) və milli gəlirin (MG) həcminə görə geridə qalan ölkələrdə, o cümlədən postsosialist və postsovet məkanında formalaşmış müstəqil dövlətlərdə, inzibati –amirlik tipli planlı sosialist təsərrüfat sistemindən bazar münasibətləri iqtisadi sisteminə keçid dövrü, iqtisadiyyatın sosial yönümlü istiqaməti (modeli) kimi səciyyələndirilir.

Qeyd etmək zəruriildir ki, ölkənin ÜDM və MG kimi ümumiləşdirici göstəriciləri nə qədər mühüm olsa da, lakin bütövlükdə cəmiyyəti ictimai-siyasi, iqtisadi-sosial, habelə mənəvi-əxlaqi yüksəlişi üçün həlledici sayıla bilməz. Bu baxımdan vaxtilə senator Robert Kennedinin söylədiyi fikirlər maraqlıdır. O, demişdir ki, ölkənin «ÜDM-u hələ uşaqlarımızın sağlamlığı, təhsilin keyfiyyəti və onların şən böyüməsi demək deyil. O, poeziyamızın gözəlliyini və ya ailələrimizin möhkəmliyini, ictimai müzakirələrin doğruluğunu və dövlət məmurlarının düzgünlüyünü ifadə etmir» Çünki, bu ümumiləşdirici göstərnicilər «nə cəsurluğumuzun, nə müdrikliyimizin, nə də ölkəmizlə bağlılığımızın ölçür». Deməli, bu sintetik və mühüm iqtisadi parametrlər, «həyatımızın mənasını təşkil edən əsas şeylərdən başqa hər şeyin ölçüsüdür» və o bizə ölkəmiz haqqında «hər şeyi deyə bilsə də, heç vaxt nəyə görə Vətən ilə fəxr etdiyimizi izah edə bilməz».

Lakin aydındır ki, hər bir cəmiyyətin iqtisadi əsasını təşkil edən ökənin təsərrüfat həyatı, bütövlükdə iqtisadi-sosial inkişafın tarazlı gedişinin təməl amili kimi mühüm rola malikdir. Milli iqtisadiyyaın uğurlarına arxalanaraq, onun imkanlarından əhalinin həyat səviyyəsinin yüksəlməsi istiqamətindəki addımlar isə dövlətin həyata keçirdiyi iqtisadi siyasət xəttinin məqsəd və konkret vəzifələri ilə bağlıdır.

Tanınmış alim və mütəxəssislər hesab edirlər ki, nisbətən daha aşağı səviyyədə olan makroiqtisadi göstəricilər bazasında da, ölkənin təsərrüfat həyatının strukturunun (quruluşunun) səmərəliliyi təməlində «qonşu dövlətlər və digər dünya ölkələri ilə sıx əməkdaşlıq əlaqələri qurmaq, cəmiyyətin ayrı-ayrı təbəqələri və müxtəlif nəsillərin bir-

birinə hörməti, əhalinin bəşəri əxlaq-mənəviyyat dəyərlərinə, öz milli adət-ənənələrinə zidd sayılan cinayətkarlıq, rüşvətxorluq, korrupsiya, narkomanlıq, sərxoşluq, məmur özbaşınalığı kimi mənfi meylləri» aradan qaldırmaqla, ciddi sosial-iqtisadi irəliləyişlərə nail olmaq mümkündür.

İqtisadiyyatın rəqabət və səmərəlilik prinsipləri əsasında fəaliyyət göstərdiyi müxtəlif istiqamətli (liberal, sosial-demokrat, sosial yönümlü), habelə modelli (alman, amerikan, isveç, yapon, Çin, Cənubi Koreya) müasir dünyada əhalinin gəlirlərindəki fərqlərini tənzimləmək məqsədilə aşağıdakı qruplaşmalar aprılır:

**I.** «Yoxsul ailələr» qrupunda, ailənin hər bir nəfər üzvünə düşən gəlirin həcmi, ölkədə qəbul olunmuş yaşayış minimumundan aşağıdır, yaxud həmin göstəriciyə yaxındır.

**II**. «Aztəminatlı ailələr» qrupunda, hər nəfərə düşən gəlirin miqdarı, yaşayış minimumu ilə minimum istehlak büdcəsi, yaxud istehlak səbəti arasındadır.

**III.** «Təmin olunmuş ailələr» qrupunda, hər nəfərə düşən gəlirin həcmi, minimum istehlak büdcəsi ilə səmərəli istehlak büdcəsi, yaxud səbəti arasındadır.

**IV**. «Ən varlı, imkanlı ailələr» qrupunda, gəlir səviyyəsi çox yüksəkdir.

Qlobal bir xarakter daşıyan və dünyanın ayrı-ayrı regionlarında əhalinin müəyyən hissəsinin hələ də kəskinləşən yoxsulluq həddində yaşaması prosesi, keçid mərhələsini yaəamış, hətta başa çatdırmış ölkələrdən, o cümlədən də Azərbaycan Respublikasından da yan keçməmişdir.

Beynəlxalq təşkilatların tövsiyyələri və yardımı ilə hazırlanıb həyata keçirilən, habelə reallaşdırılması Dövlət Proqramı səviyyəsində davam etdirilən tədbirlər nəticəsində, ölkədə əhalinin yoxsulluq səviyyəsi müstəqillik illərində 70 faizdən, son dövrlərdə təxminən 10 faizə endirilmişdir.

Azərbaycan Respublikası iqtisadiyyatının uzunmüddətli davamlı inkişaf strategiyasına əsasən 2015-ci ildə əhalinin yoxsulluq səviyyəsinin minimum həddə endirilməsi, cəmiyyətin bütün təbəqələrinin normal iş, təhsil, istirahətinin təmin edilməsi nəzərdə tutulur.

Planet miqyasında bəşəriyyəti narahat edən və bir sıra ölkə, habelə regionlarda öz kəskinliyi ilə ciddi sosial-iqtisadi problemlər doğuran əhalinin yoxsulluq səviyyəsinin tədricən aradan qaldırılması istiqamətində müxtəlif tədbirlər sisteminin nəzərdə tutulmasına, dövlət səviyyəsində ayrı-ayrı Proqramların həyata keçirilməsinə baxmayaraq, hələlik inflyasiya, tam məşğulluq kimi bu məsələni də həll etmək mümkün olmamışdır.

# Mövzu 19. Makroiqtisadi qeyri-sabitlik: işsizlik və inflyasiya

**19.1** İqtisadi inkişafın qeyri-sabitliyi meyli və böhranlar
**19.2** Əhalinin məşğulluğu, işsizliyin mahiyyəti, səbəbləri və müxtəlif formaları
**19.3** İnflyasiya prosesinin mahiyyəti, səbəbləri, tipləri və formaları
**19.4** İşsizliklə inflyasiyanın qarşılıqlı əlaqəsi və Fillips əyrisi

**19.1**. Bəşəriyyətin keçdiyi çoxəsrli iqtisadi-sosial inkişaf yolu göstərir ki, hər hansı bir ölkənin müxtəlif obyektiv-subyektiv səbəblərlə bağlı həm yüksəliş, həm də tənəzzül – eniş dövrləri olur. Nisbətən daha uzunmüddətli inkişaf mərhələləri nəzərdən keçirildikdə aydın olur ki, ümumi inkişaf xətti dinamik bir xarakter daşısa da, lakin əslində müxtəlif istiqamətli dəyişikliklər və qeyri-sabitlik meylləri iqtisadi proseslərin səciyyəvi cəhətidir. Deməli, iqtisadi-sosial inkişafın qeyri-sabitliyi, bu proseslərin dalğavari gedişi tarixi və məntiqi bir hadisə olub, cəmiyyətin həyatında mühüm rol oynayan tələb-təklif qanununun ziddiyyətli təzahür formasıdır.

Təsadüfi deyildir ki, XIX-XX əsrlər boyunca dünyanın müxtəlif ölkələrinin K.Marks, J.Şumpeter, C.Klark, C.Keyns, N.Kondratyev, U.Mitçell və başqa iqtisadçıları bü muhum hadisəyə, habelə onun sosial-iqtisadi nəticələrinə ciddi diqqət yetirərək, mürəkkəb proses kimi onun ayrı-ayrı cəhətlərini təhlil etmişlər.

Müxtəlif ölkələrin təsərrüfat həyatında baş verib, sanki okeanlardakı qabarma və çəkilmələri xatırladan bu iqtisadi proseslər, cəmiyyət həyatının ayrı-ayrı sahələrinə birbaşa, yaxud dolayı yolla təsir göstərsə də, lakin bunun ən güclü təsiri özünü ilk növbədə istehsalın (ÜDM-un) ümumi həcminin real surətdə aşağı düşməsində, ölkədə işsizlik səviyyəsinin artmasında, inflyasiyanın yüksəlməsində göstərir.

İqtisadi inkişafın qeyri-sabitliyi özünün iki formada:

**a)** ***dövrü*** (müddətli, tsikl) və b) ***qeyri-dövri*** (tərəddüdlü, qeyri-tsikl, nizamsız) şəkillərdə gösğərə bilir. Qeyrit-sabit inkişafın dövri forması gözlənən və proqnozlaşdırıla biləndir. İkinci forması isə gözlənilməzliyi, qəflətən baş verməsi ilə səciyyələndiyindən, onun proqnozlaşdırılması çətindir.

Cəmiyyətin iqtisadi-sosial həyatında qanunauyyğun bir meyl kimi özünü göstərən inkişafın qeyri-sabitliyini şərtləndirən aşağıdakı ***daxili*** və ***xarici*** amilləri göstərmək olar:

***Daxili amllər*** sırasında əsas fondların (kapitalın) fiziki və mənəvi aşınmasını; istehsal-xidmət sahələrinin quruluşunun təkmilləşdirilməsini; istehsalın texnika və texnologiyasının modernləşdirilməsini; yeni iş yerlərinin açılmasını; dövlətin iqtisadi siyasət xəttinin səmərəliliyini; ölkə əhalisinin tələbat və ehtiyaclarında kəmiyyət-keyfiyyət dəyişikliklərini göstərmək olar. ***Xarici amillər*** sırasında isə müharibələri, təbii fəlakətləri, inqilabi hadisələri, yeni yataqların kəşfini, təzə ərazilərin məskunlaşmasını, istehsal-xidmət sahələrində köklü dəyişikliklər yaradan texnika və texnologiyaların tətbiqini qeyd etmək olar.

Konkret vəziyyətdən asılı olraq, bəzən qısamüddətli bir proses kimi davam edən iqtisadi inkişafın qeyri-sabitliyi prosesi, iqtisadi nəzəriyyədə makroiqtisadi səviyyədə baş verib, bütövlükdə milli iqtisadiyyatı əhatə edən hadisədir. Lakin hər bir ölkənin xüsusiyyətlərindən, daxili-xarici səbəblərdən asılı olaraq, bu prosesin təsərrüfat həyatının müxtəlif sahələrinə təsir gücü eyni səviyyədə olmur. Məsələn, sənayenin maşınqayırma, metallurgiya, energetika, qaz-

yanacaq kimi sahələri, yüngül və yeyinti sənaye sahələrinə nisbətən iqtisadi inkişafın qeyri-sabitliyinə daha çox məruz qalırlır.

Müəyyən bir dövrü əhatə edən «iqtisadi tsikl» yaxud «iqtisadi fəallıq tsikli» anlayışı, bütövlükdə milli iqtisadiyyatın vaxtaşırı bir-birini əvəz edən yüksəliş və enmə mərhələləri müddətlərini nəzərdə tutur. Öz müddət və intensivlik xüsusiyyətlərinə görə fərqlənən iqtisadi tsikllərin böhran, durğunluq, canlanma, yüksəliş kimi mərhələləri aşağıdakı sxemdə verilmişdir:

**İqtisadi tsiklin mərhələləri (fazaları)**




**İqtisadi böhran** – tsiklin başlanğıc nöqtəsi və əsas mərhələsidir. Bu faza istehsal imkanları ilə əhalinin ödəniş (tədiyyə) qabiliyyətli tələbinin aşağı düşməsi ilə bağlıdır. Cəmiyyətdə ümumi tələblə-təklifin pozulması nəticəsində yaranmış böhran vaxtı əhalinin alıcılıq qabiliyyəti aşağı düşür; ölkənin maliyyə-kredit sistemi normal fəaliyyət göstərə bilmir; işsizlik artır; əhalinin iqtisadi-sosial vəziyyəti xeyli pisləşir.

İlk iqtisadi böhran 1825-ci ildə, o dövrün ən inkişaf etmiş ölkəsi və «dünya emalatxanası» adını almış İngitərədə baş vermişdir. Sonralar 1848, 1873, 1882-1887, 1929-1933, XX əsrin 50-ci, 70-ci, 90-cı illərində, nəhayət XXI əsrin birinci onilliyində dünyanın müxtəlif ölkələrində maliyyə-bank sektorunda başlanmış böhranın tədricən istehsal-xidmət dairəsinə keçməsi, qlobalal miqyasda ciddi problemlər yaratmışdır. Dünya təsərrüfat həyatında iqtisadi inkişafın qeyri- sabitliyi nəticəsində baş vermiş ən ciddi böhran 1929-1933-cü illəri əhatə etmişdir. «Böyük durğunluq» kimi səciyyələnərək, dünya ölkələrinin əksəriyyətinin iqtisadiyyatına sarsıdıcı zərbə vurmuş bu böhran vaxtı kapitalist ölkələrində istehsalın ümumi həcmi 20-45 faiz aşağı düşmüş, işsizlik səviyyəsi 15-40 faizə çatmış, dünya ticarət dövriyyəsinin ümumi həcmi 60 faiz azalmışdı.

Bu mənada böhranlar cəmiyyətin iqtisadi-sosial həyatında ziddiyyətlərin kəskinləşməsi, sahədaxili və sahələrarası formalaşmış nisbətlərin pozurması, ölkələr arasındakı ticarət əlaqələrinin məhdudlaşması, əhalinin həyat səviyyəsinin aşağı düşməsi, istehsal imkanlarından tam istifadə olunmaması, işsizliyin artması və inflyasiya proseslərinin güclənməsi kimi xarakterizə olunur.

1929-1933-cü illərin dünya iqtisadi böhranı vaxtı Nyu-York fond birjasında səhmlərin ümumi dəyəri 4-5 dəfə azalmış, ABŞ-da fəhlə və qulluqçulara ödənilən əmək haqqı 58 faiz

ixtisar olunmuş, çüğün və metal əridilməsi 80 faiz, avtomobil istehsalı isə kəskin surətdə azalmışdır.

XX əsrin iknci yarısından başlayaraq, XXI əsrin əvvəllərinə qədər olan son 50-60 il ərzində, müasir dünyanın iqtisadi cəhətdən ən yüksək inkişaf etmiş dövləti sayılan ABŞ-da iqtisadi inkişafın qeri-sabitliyi prosesinin necə getdiyini aşağı sxemdəki görmək olar.

**ABŞ-da işgüzar fəallıq səviyyəsinin dəyişmə dinamikası**

| | **İllər** | **Enmə və böhran müddəti** | **Əvvəlki dövrə nisbətən böhran müddətinin davamlılığı** | **İstehsalın real həcminin azalması** |
|---|---|---|---|---|
| I | 1953-1954 | 10 ay | - | 3,7 % |
| II | 1957-1958 | 6 ay | azalmışdır | 3,9 % |
| III | 1960-1961 | 10 ay | artmışdır | 1,6 % |
| IV | 1969-1970 | 11 ay | artmışdır | 1,0 % |
| V | 1973-1975 | 16 ay | artmışdır | 4,9 % |
| VI | 1980 | 6 ay | artmışdır | 2,3 % |
| VII | 1981-1982 | 16 ay | artmışdır | 3,3 % |
| VIII | 1990-1991 | 8 ay | azalmışdır | 1,6 % |
| IX | 2001-2005 | 8 ay | artmışdır | 0,5 % |
| X | 2008-2010 | 20 ay | artmışdır | 1,0 % |

***Durğunluq mərhələsi,*** böhrandaq sonra başlayaraq, zəif tələb, istehsalın aşağı səviyyədə qalması, işsizliyin yüksək həddə qalxması, əmtəə-xidmətlərin qiymətlərinin aşağı düşməsinin qarşısının alınması tədbirləri, bank-kredit təşkilatlarının borc kapitalı üçün faiz dərəcələrini azltması, əmtəə ehtiyatlarının nisbi sabitləşməsi ilə səciyyələnir.

***Canlanma mərhələsində,*** istehsal tədricən artmağa doğru meyl edir, hazırlanan məhsulların və göstərilən xidmətlərin həcmi artır, işsizlərin sayı azalır, qiymətlər tədricən yüksəlir, iqtisadiyyatın müxtəlif sahələrində dirçəliş prosesi özünü göstərməyə başlayır, bankların kreditlər üçün borc-faiz dərəcələri yüksəlir, istehsal-xidmət dairələrinin müxtəlif təyinatlı material və avadanlıqlara olan tələbatı artmağa başlayır.

***Yüksəliş mərhələsində,*** istehsalın səviyyəsi artaraq, özünün ən yüksək, yaxud zirvə həddinə çatır, əhalinin məşğulluğu təmin edilir, ölkədə işsizliyin səviyyəsi əvvəlki dövrə nisbən xeyli aşağı düşür, fəhlə və qulluqçuların əmək haqqı artır, məcmü gəlir və məcmu tələb yüksəlir.

Hər hansı bir ölkədə ümumi iqtisadi-sosial inkişafın qeyri-sabitliyi meylinin, məcmu tələblə məcmü təklifin müxtəlif formalarda ziddiyyətli uyğunsuzluğunun təzahürü kimi meydana çıxan böhranlar, ilk vaxtlar özünü *ifrat istehsal böhranları* kimi göstərmişdir. Bu böhranlar vaxtı hazır məhsulların satışı kəskin surətdə zəifləyir, əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi nəticəsində bazarın təklif etdiyi əmtəə və xidmətlər istifadəsiz qalır. İqtisadti böhranlar vaxtı əmtəə-xidmətlərin ***artıq***, yaxud ***ifrat istehsalı*** mütləq deyil, nisbi xarakter daşıyır. Belə ki, cəmiyyətdə istehsal olunmuş məhsul və xidmətlər insanların real tələbatlarına görə deyil, onların konkret ödəniş qabiliyyətli tələblərinə nisbətən artıq istehsal edilir. Bu ziddiyyətli vəziyyəti aydınlaşdıran fransız utopist-sosialisti Ş.Furye (XIX əsr) yazmışdı: «bolluq dönüb ehtiyac və məhrumityyətlər mənbəyi olur».

Ayrı-ayrı ölkələrin təsərrüfat həyatı təcrübəsi təsdiq edir ki, ifrat istehsal böhranları ilə yanaşı, *qıtlıq (defisit) böhranları* da baş verir. Belə böhranların yaranmasına səbəb ölkənin

təbii sərvət və iqtisadi resurularından israfçılıqla istifadə, hərbi sənaye kompleksinə üstünlük verilməsi, daxili və xarici iqtisadi siyasət xəttində yol verilmiş əyintilərin dərinləşməsi, dövlət idarəçiliyindəki nöqsanların vaxtında aradan qaldırıla bilməməsidir. Qıtlıq böhranları da ölkədə bahalaşmağa, müxtəlif müəssisələrin iflasına, əhalinin həyat səviyyəisnin aşağı düşməsinə, cəmiyyətdə sosial durumun gərginləşməsinə gətirib çıxarır.

XX əsrin 70-80-cı illərindən etibarən bazar münasibətləri iqtisadi sisteminin fəaliyyət göstərdiyi ölkələrdə iqtisadi böhranın dəyişmiş bir forması sayılan struktkr böhranları meydana çıxdı. Struktur böhranlar ölkənin təsərryfat həyatının ayrıca bir sahəsində, yaxud qarşılıqlı əlaqəsi olan bir neçə sahəsində baş verərək, müəyyən növ əmtəə-xidmətlərin ifrat istehsalına, yaxud qıtlığına səbəb olur. Həmin dövrdən başlayaraq, bizim günlərə qədər enerji, ərzaq, xammal, maliyyə, ekologiya kimi sahələrdə vaxtaşırı baş verən struktur böhranlar, müasir inteqrasiya və qloballaşma prosesləri, habelə vahid dünya təsərryfat sisteminin formalaşdığı bir şəraitdə, şübhəsiz tədricən bütün bəşəriyyətin həyat tərzinə, yaşayış səviyyəsinə öz təsirini gösiərir.

İqtisadi böhranların səbəbləri, onun müddətləri, xüsusilə də sosial-iqtisadi nəticələri haqqında irimiqyaslı yeni elmi-texniki, texnoloji nailiyyətlərin tətbiqi, istehsal xərclərinin getdikcə artması, məcmu tələblə məcmu təklifin uyğunsuzluğu, investisiyaların düzgün yerləşdirilməməsi, əmək məhsuldarlığının yaratdığı problemlər kimi müxtəlif fikirlər vardır. Eyni zamanda iqtisadi böhranların qarşısını almaq, yaxud onun təsir gücünü azaltmaq üçün konkret vəziyyətdən asılı olaraq, məcmu tələblə məcmu təklifi genişləndirib (stimullaşdırıb) məhdudlaşdırmaq, vergi-büdcə, pul-kredit, gömrük-xarici iqtisadi əlaqələr sistemində çevik antitsiklik tədbirlərin ardıcıllıqla həyata keçirilməsi zəruriliyi irəli sürülür. Bu istiqamətdə addımlar atılıb, müəyyən uğurlar əldə olunsa da, lakin iqtisadi inkişafın qeyri-sabitliyinin məntiqi nəticəsi kimi meydana çıxan böhranları aradan qaldırmaq çətindir. Məsələ onların təsir gücünü məhdudlaşdırmaq bacarığındadır.

**19.2.** Cəmiyyətin yaşayıb inkişaf etməsi və onun iqtisadi-sosial yüksəlişinin təmin olunmasının mühüm şərtlərindən biri, ölkə əhalisinin peşə, ixtisas, təhsil səviyyəsinə uyğun müəyyyən işlə təmin olunmusıdır. Hələ 250 il bundan əvvəl A.Smit «Xalqlar sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat» (1776) əsərində yazmışdır ki, hər hansı bir cəmiyyətin yüksəlişi – onun əhalisinin istehsala cəlb olunması (məşğulluğu) və həmin insanların əməyinin məhsuldarlıq (bacarıq, səriştəlilik, az vaxt ərzində daha çox məhsul istehsal etmək) səviyyəsi ilə bilavasitə bağlıdır.

Müasir dünyanın bütün ölkələri iqtisadi-sosial bir problem kimi qarşıya çıxan əhalinin məşğulluğu məsələsini həll etməyə çalışırlar. Bazar iqtisadi münasibətləri sisteminin uğurlu fəaliyyət göstərməsi, ölkənin əmək resurslarından, «insan kapitalından», onun fiziki və intellektual imkanlarından daha səmərəli istifadə olunmasını irəli sürür. İnsan amili və onun fiziki-zehni qabiliyyətlərinin toplusu sayılan iş qüvvəsinin məqsədyönlü tətbiqi olmadan, cəmiyyətin bütövlükdə sosial-iqtisadi tərəqqisi mümkün deyildir. Bu mənada qədm yunan müdriklərinin dediyi kimi:

*Dünyada, şübhəsiz möcüzə çoxdur*
*Amma insandan uca möcüzə yoxdur.*

Hazırda sayı 7 milyard nəfərə yaxınlaşan planetin ayrı-ayrı ölkələrinin əhlisi, aktiv (fəal) və passiv (qeyri-fəal) kimi iki hissəyə ayrılır. Beynəlxalq standartlara görə, 14-16 yaşdan

başlayaraq 60-65 yaş arası kişilər və 15-16 yaşdan başlayaraq 55-60 yaş arası qadınlar aktiv əhali qrupuna daxil edilirlər. Müxtəlif ölkələrin özünəməxsus cəhəttləri nəzərə alınmaqla, əhalinin ümumi tərkibində aktiv əhalinin xüsusi çəkisi orta hesabla 35-55% təşkil edir. Passiv əhali qrupuna daxil edilən təqaüdçülər, uşaqlar, tələbələr, əlillər, hərbçilər, xəstələr, himayədə olanlar isə ayrı-ayrı ölkələrdə əhalinin tərkibində 35-45% təşkil edirlər.

İqtisadi nəzəriyyə baxımından əhalinin tam məşğulluğu o deməkdir ki, əmək qabiliyyətinə malik və işləmək arzusunda olan hər bir nəfər müəyyən bir işlə təmin edilir. Aydındır ki, bu niyyət nə qədər xoş səslənsə də, real təsərryfat həyatı təcrübəsində, obyektiv-subyektiv səbəblər üzündən heç də işləmək istəyənlərin hamısını öz təhsilinə, ixtisasına, sənət-peşə yönümünə görə uyyğun iş yeri ilə təmin etmək mümkün olmur. Ölkənin iş qabiliyyətli əhalisinin 5-9 faizinin işlə təmin olunmaması təsərrüfatçılıq təcrübəsində normal sayılır. Müxtəlif ölkələrdə əhalinin iş qabiliyyətli hissəsinin məşğulluq səviyyəsi 35-40 faizdən 95-97 faiz həddindədir. Bir sıra dövlətlər müəyyən təhsil-ixtisas sahibi olan peşəkar kadrları başqa yerlərdən dəvət etdikləri halda, digər ölkələrin vətəndaşları öz vətənlərində uyğun iş tapa bilmədiklərindən, başqa dövlətlərdə iş axtarmağa məcbur olurlar. Beynəlxalq təşkilatların məlumatlarına görə hər il 100 milyon nəfərə yaxın adam başqa ölkələrdə iş axtarır.

Ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında baş verən obyekti-subyektiv xarakterli müxtəlif proseslər, məsələn istehsalın quruluşunda gedən dəyişikliklər, elmi-texniki yeniliklər, mütərəqqi texnologiyaların tətbiqi, işçilərin müəyyən yaş həddi, insanların cinsi və irqi mənsubiyyətləri, habelə dini və siyasi baxışları, müəyyən vaxtlığa əhalinin iş qabiliyyətli hissəsinin konkret iş yeri ilə təmin edilməsində aşkar problemlər yaradır.

Ümumiyyətlə işsizlik, ölkədə iş qüvvəsinə olan tələblə ona olan təklifin normal nisbətinin pozulması nəticəsində baş verir. Şübhəsiz, hər hansı bir cəmiyyətdə işsizliyin mövcudluğu, onun üçün maddi-mənəvi və sosial baxımdan ciddi itkilər deməkdir. Lakin işsizliyin müəyyən hədlər daxilində olmasını normal hesab edən, hətta bu halı müsbət qiymətləndirən mütəxəssislər də vardır. Onların fikrincə, «işsizlik təhlükəsi» insanlarda öz ixtisaslarına daha yaxşı yiyələnmək, sənət-peşə ustalığını təkmilləşdirmək, təhsil səviyyəsini xeyli yüksəltmək məsuliyyəti tərbiyə edir. Ölkədə işsizlik səviyyəsi belə müəyyənləşdirilir:

$$\text{İşsizlik səviyyəsi} = \frac{\text{işsizlərin sayı}}{\text{iş qüvvəsi, yaxud aktiv əhalinin sayı}} \times 100\%$$

Deməli, ölkədə işsizliyin səviyyəsi, işsizlərin ümumi sayının iş qüvvəsinə, yəni əmək qabiliyyətli əhalinin sayına olan nisbəti tlə ölçülür. Bu meyarlar baxımından, XXI əsrin birinci onilliyində dünyada işsizlərin sayı 15-20 faiz, yüksək inkişaf etmiş ölkələrdə 4-10 faiz, inkişaf etməkdə olan ölkələrdə 35-40 faiz keçid mərhələsində olan ölkələrdə 15-30 faiz təşkil etmişdir.

ABŞ iqtisadçısı Artur Oykenin hesablamalarına (Oyken qanunu) görə, ölkədə işsizliyin real (faktiki) səviyyəsi, onun təbii (normal) səviyyəsini bir faiz ötərsə, o zaman ümumi daxili məhsulun artım tempi 2-2,5 faiz aşağı olacaqdır. Eyni zamanda, istehsal-xidmət dairəsinə cəlb olunan işləyənlərin sayının bir faiz artması, ölkənin ÜDM-nun həcminin 2-2,5 faiz çoxalmasına imkan yaradacaqdır.

İşsizliyin bütün dünyada qəbul edilmiş *friksion*, *struktur*, *dövri* (tsiklik), *mövsümi* (qismən, sezon xarakterli) müxtəlif formaları vardır.

***Friksion*** (təbii, müvəqqəti) işsizlik o deməkdir ki, insanlar müxtəlif səbəblərlə bağlı (əmək haqqına, ailə vəziyyətinə, iş rejiminə, yaşadığı yerdən uzaqlığına, daha münasibliyinə)

görə yeni iş yeri axtarır. Bəzən işsizliyin bu forması, ***təbii*** yaxud ***könüllü*** işsizlik kimi səciyyələndirilir. Müəyyən bir müddət ərzində iş axtaran, arzu etdiyi yeri tapana kimi o işsizlər sırasına daxil edilir. Qeyd etmək lazımdır ki, hətta cəmiyyətdə tam məşğulluq təmin edilsə belə, yenə də yuxarıda göstərilən səbəblər üzündən, müxtəlif qruplara daxil olan adamların yeni iş axtarışları davam edəcəyindən, friksion işsizliyi fasiləsiz proses kimi təsəvvür etmək olar.

***Struktur*** işsizlik, cəmiyyətdə baş verən elmi-texniki tərəqqi, istehsal-xidmət dairəsi sahələrindəki yeniliklər, iş yerlərinin coğrafi cəhətdən fərqli yerləşməsi prosesləri ilə bağlı, əmək bazarında iş qüvvəsinə olan tələb və təklifin nisbətlərinin pozulmasının nəticəsidir.

Dünyanın və müxtəlif ölkələrin təsərrüfat həyatının ayrı-ayrı istehsal-xidmət sahələrindəki kəmiyyət, habelə keyfiyyət dəyişiklikləri, eyni zamanda iş qüvvəsinin sənət-peşə ixtisaslarına olan tələbatını da köklü surətdə dəyişdirir. Tarixən insanların əmək fəaliyyətində ilk dövrlərdə kənd təsərrüfatı, sonralar toxuculuq və emal, metallurgiya və maşınqayırma, daş kömür və mədən, müasir dövrdə isə kimya, elektron, avtomobil sənayesi sahələrinin, xüsusilə, xidmət-turizm, bank-kredit, rabitə-məlumat, internet istiqamətlərinin sürətli inkişafı, təbii olaraq iş qüvvəsinə, onun hazırlanmasına, istifadəsinə, yüksək peşə-ixtisas səviyyəsinə daha yüksək tələblər irəli sürmüşdür.

Obyektiv xarakter daşıyan bu proseslər, istehsal-xidmət təyinatlı sahələrin bir hissəsinin ixtisar, hətta ləğv olunmasına, digərlərinin isə meydana çıxıb inkişaf etməsinə səbəb olur. Ona görə də istehsal-xidmət dairəsində işləyənlərin müəyyən hissəsi, bu struktur dəyişikliklər nəticəsində öz əvvəlki işlərini itirir və yeni iş yeri axtarmaq məcburiyyətilə üzləşirlər. Bu insanların yeni iş yerləri tapması, yaranmış vəziyyətlə bağlı peşə-sənət ixtisaslarını təkmilləşdirmələri, yaxud yenilərinə yiyələnmələri, şübhəsiz müəyyən vaxt tələb edir. Həmin vaxt ərzində onlar işsiz sayılırlar və onların işə düzəlməsi əmək birjaları, məşğulluq mərkəzləri vasitəsilə həyata keçirilir.

***Dövri*** (tsiklik) işsizlik, istehsalın aşağı düşməsi (tənəzzülü) ilə bağlı olub, məcmu tələbin məhdudlaşması və müxtəlif təyinatlı məhsullara, xidmətlərə alıcı tələbatının tədricən azalması ilə səciyyələnir. Bu səbəbdən əhalinin məşğulluğu ixtisar olunduğundan və işsizlik səviyyəsi yüksəldiyindən, dövri yaxud tsiklik işsizliyi, bəzən tələbin çatışmazlığı (defisiti) adlandırırlar. 1929-1933-cü illəri əhatə etmiş dünya iqtisadi böhranından sonrakı dövrdə də, işsizliyin bu forması dünyanın bir sıra ölkələrində, o cümlədən ABŞ-da, İngiltərədə, Almaniyada, Yaponiyada, İtaliyada qeydə alınmışdır.

Sovet İttfaqı dağıldıqdan sonra, keçmiş postsovet və postsosialist məkanında formalaşmış müstəqil dövlətlər də əhalinin işsizliyinin başqa formaları ilə yanaşı, dövri (tsiklik) işsizliyin yaratdığı iqtisadi-sosial problemlərlə rastlaşmışlır.

İstehsal həcminin azalması ilə bağlı olan dövri işsizlik özünü *gizli* və *açıq* formalarda göstərə bilər. Tsiklik işsizliyin gizli forması, iş günü yaxud həftəsinin ixtisar olunması, işçilərin məcburi məzuniyyətə göndərilməsi, onların əmək haqqlarının azaldılması, hətta tam dayandırılması yolu ilə həyata kesirilir. Dövri işsizliyin açıq forması isə müəyyən bir istehsal-xidmət dairəsi sahələrində işləyənlərin işdən azad olunması, onların öz iş yerlərini və gəlir mənbəyini itirmələri deməkdir. Bu ağrılı proses cəmiyyətin müxtəlif ictimai təbəqələrinin mənafeyinə toxunsa da, lakin ən ciddi zərər çəkən – ixtisassız işçilər, qadınlar, milli azlıqların nümayəndələri olurlar.

***Mövsümi*** (qismən, sezon xarakterli) işsizlik, ilin müxtəlif fəsillərində ölkədəki istehsal-xidmət sahələrinin iş qüvvəsinə olan dəyişkən tələb səviyyəsi ilə ölçülür. Bəzən natamam işsizlik adlandırılan bu formaya kənd təsərrüfatı, tikinti, ovçuluq, balıqçılıq, meşə təsərrüfatı, xidmət sahəsində daha çox rast gəlinir. Ölkədə iqtisadi böhran və durğunluq vaxtı mövsümi işsizlərin sayı artır, əksinə iqtisadiyyatın canlanması, habelə yüksəlişi dövründə bu qrupdan olan adamların sayı azalmağa doğru meyl edir. Böhran və durğunluqdan sonra başlanan növbəti canlanma, habelə yüksəliş mərhələsində, yeni iş yerlərinin açılması məşğulluğun ümumi səviyyəsini yüksəltdiyindən, mövsümi işsizlik problemi müəyyən dərəcədə həll olunur.

İqtisadi ədəbiyyatda işsizliyin *durğun forması* da qeyd olunaraq, buraya peşəkarlıq səviyyəsi aşağı və ixtisası olmayan işçilər qrupu (kəndlilər, evdar qadınlar, xidmətçilər) aid edilir. Bu formada olan işsizlik, ölkənin təsərrüfat həytının qeyri-sabit inkişafı ilə əlaqədar illərlə davam edə bilər. Həmin işsizlər qrupu, müxtəlif xəttlərlə aldıqları yardımlar, ianələr, xeyriyyə fondlarının, yaxud təsadüfi zəhmət haqqının hesabına yaşamağa məcburdular. Ayrı-ayrı ölkələrdə bu formada işsizlər, cəmiyyətin ən aşağı təbəqəsini təmsil edərək, həm özləri, həm də ailələri son dərəcə ağır bir şəraitdə yaşayırlar. Hətta ölkə iqtisadiyyatında canlanma və yüksəliş mərhələsi başlandıqda belə, bu qrupa daxil olan işsizlər ən axırda, yəni yeni iş qüvvəsinə kəskin ehtiyac yarandıqdan sonra onların əqli, habelə fiziki potensialı cəmiyyətə lazım olur.

Müstəqillik dövrünün yaratdığı ictimai-siyasi və iqtisadi-sosial çətinliliklərin nəticəsində, əhalinin məşğulluğunu təmin etmək istiqamətindəki tədbirlərə baxmayaraq, digər postsovet ölkələrində olduğu kimi Azərbaycan Respublikasında işsizliyin səviyyəsi bir sıra problemlər doğurur. Dünyanın bir çox ölkələrində bütün ciddiliyi ilə qarşıda duran və bir-biri ilə daxilən bağlı olan *işsizlik*, *inflyasiya*, *yoxsulluq* problemlərinin həlli, dövlətin iqtisadi siyasət xəttinin mühüm istiqamətlərini təşkil edir. Qeyd etmək lazımdır ki, son dövrlərdə planet miqyasında istehsalın şəxsi (subyektiv) amili sayılan iş qüvvəsinə, insan amilinə getdikcə daha artıq diqqət yetirilir. Şübhəsiz, istehsal-xidmət dairəsinin müasir inkişaf səviyyəsində texnika və insan amillərini bir-birinə qarşı qoymaq elmi-praktik cəhətdən doğru olmasa da, lakin son nəticə etibarilə insanın aparıcı rolu danılmazdır. Bazar münasibətləri iqtisadi sistemində, dövlətin ölkənin təsərrüfat həyatını uzaqgörənliklə tənzimlənməsi prosesini, sahibkarların yeni iş yerləri açmaq səyləri ilə birləşdirilməsi, işsizlik probleminin uğurlu həllinin mühüm şərtidir.

**19.3** İnteqrasiya prosesləri nəticəsində tədricən qloballaşan müasir dünyanın bütün ölkələri bu və digər səviyyədə inflyasiya hadisəsi ilə rastlaşırlar. Əvvəllər müxtəlif ölkələrin təsərrüfat həyatı iqtisadi böhranlardan, XX əsrin ikinci yarısından başlayaraq inflyasiya proseslərindən əziyyət çəkir və onun yaratdığı sosial-iqtisadi problemlərlə rastlaşırlar.

***İnflyasiya*** – latın sözü olub, hədsiz artım, böyüdümüş və özünü qabarıq şəkildə göstərmək mənasını verir. İqtisadi nəzəriyyə baxımından inflyasiya – ölkə iqtisadiyyatında, tədavül dairəsində artıq pul kütləsinin olması nəticəsində əmtəələrin – xidmətlərin qiytətlərin artması, başqa sözlə pulun alıcılıq qabiliyyətini aşağı düşməsidir. Ona görə də, təsadüfi deyidir ki, bəzən inflyasiyanı kağız pulların «xəstəliyi» adlandırırlar. Qeyd etmək lazıdır ki, tədavül sahəsində artıq pul kütləsinin olması və qiymətlərin bahalaşması əslində inflyasiya hadisəsinin zahiri cəhətidir. Bu mürəkkəb və çoxamilli prosesin mahiyyəti – milli iqtisadiyyatın nisbətlərinin pozulması, ölkənin təsərrüfat həyatının ümumi tarazlıq prinsiplərinin dəyişməsidir.

Bu ziddiyyətli prosesə təkan verən və qarşılıqlı təsir gücünə malik səbəblər sırasında: *əvvələn*, dövlətin pul emissiyası (buraxılışı, kəsilməsi), xarici ticarət sahəsindəki inhisarçı mövqeyini, onun hərbi, qeyri-istehsal dövlət orqanlarının saxlanılması xərclərini; *sonra*, iri şirkətlərin öz xərcələrini və satış qiyətlərini müəyyənləşdirmək işindəki inhisaçılığını; *nəhayət*, işsizlərin əmək haqqının həcmi və onun ödənilməsi ilə bağlı məsələləri göstərmək olar. Şübhəsiz, cəmiyyətdə tələblə təklifin tarazlığının pozulmasını şərtləndirən və qiymətlərin enib-qalxmasına şərait yaradan bu səbəblərin öyrənilib, hərtərəfli təhlil edilməsi, inflyasiyaya qarşı səmərəli mübarizə tədbirlərinin həyata keçirilməsi üçün zəruridir.

Eyni zamanda inflyasiya prosesini birtərəfli qaydada və yalnız sırf mənfi hal kimi qiymətləndirmək doğru olmazdı. Normal bazar münasibətləri prinsipləri əsasında fəaliyyət göstərən iqtisadi sistem şəraitində, müəyyən bir hədd (3-5%) daxilində inflyasiyanın olması təbii sayılır. Belə bir inflyasiyanın olması, ölkənin təsərrüfat həyatının işgüzarlığını yüksəldir, artıq pul kütləsinin istehsal-xidmət dairələrinə yönəldilməsini fəallaşdırır, sahibkarların öz fəaliyyətlərini genişəlndirmək üçün bank kreditlərindən faydalanmasına imkan yaradır, tədavüldə olan pulların dövr etəsini sürətləndirir.

İnflyasiya iqtisadi bir hadisə kimi ilk dəfə XVII əsrdə Fransada müşahidə olunmuşdur. Orada xüsusi bir bank tərəfindən buraxılmış kağız pullar tədavül (alqı-satqı) dairəsində və hesablaşma münasibətlərində böyük qarışıqlıq yaratdığından, uğursuzluqla nəticələnmişdir. Sonralar, 1861-1865-ci illərdə Şimali Amerikada vətəndaş müharibəsi vaxtı, dövriyyəyə hədsiz miqdarda kağız pulların daxil olması, ölkədə ciddi inflyasiya yaratmışdır. Hər hansı bir dövlətin rəmzi sayılan kağız pullar, ölkənin təsərrüfat sistemində öz mühüm vəzifələrini yalnız o zaman uğurla yerinə yetirə bilir ki, yaranmış real vəziyyətə uyğun, yəni istehsal olunmuş əmtəələrin – xidmətlərin dəyər nisbəti, tədavül-dövriyyə dairəsi ilə tarazlıq təşkil etsin. Bu ümumi tarazlıq pozulduqda tədavüldə artıq pul kütləsi toplanır, onun alıcılıq qabiliyyəti xeyli aşağı düşür. Nizami Gəncəvinin yazdığı kimi:

*Bir inci saflığı varsa da, suda,*
*Artıq içiləndə dərd verir o da.*

Ötən əsrin ortalarından başlayaraq, inflyasiya dünyanın müxtəlif ölkələrində daha qabarıq şəkildə özünü göstərmişdir. Həmin dövrdə dünya iqtisadiyyatında baş verən köklü dəyişikliklər, elmi-texniki nailiyyətlərin istehsal-xidmət sahələrinə tətbiqi, mütərəqqi texnoloji rejimlərdən istifadə edilməsi, ölkələr arasında iqtisadi ticarət əlaqərinin genişlənməsi, ölkələrin hərbi xərclərinin artması, dövlət aparatının şişməsi prosesi, planet miqyasında kağız pullarla qızıl ehtiyatları arasındakı pozulmuş nisbətlərin xeyli dərinləşməsinə gətirib çıxarmışdır. Vəziyyəti nizamlamaq üçün qızılla yanaşı, beynəlxalq hesablaşmalarda etibarlı valyuta sayılan ***dollar*** və ***funt sterlinqdən*** əlavə bir ödəniş vasitəsi kimi istifadə etmək səyləri də son nəticə etibarilə gözlənilən ümidləri doğrultmadı.

İqtisadi-sosial inkişafın qeyri-sabtliyi meyli qanunauyğunluğu müxtəlif ölkələrin, habelə bütövlükdə dünyanın təsərrüfat həyatı təcrübəsində sübut etmişdir ki, bazar münasibətləri simsteminin özü-özünü tənzimləyə bilməsi imkanları heç də o demək deyildir ki, bu inkişaf həmişə yüksələn xəttlə irəliləyərək, müxtəlif problemlərlə rastlaşmır. Bazar münasibətləri iqtisadi sistemi şəraitində müxtəlif mülkiyyət formalarının fəaliyyətinə və dövlətin tənzimləyici roluna baxmayaraq, yenə də müəyyən qədər dəyişsə də böhran, işsizlik, inflyasiya prosesləri vaxtaşırı baş verir. Hər hansı bir ölkədə inflyasiyanın tempini (artım sürətini)

müəyynləşdirmək üçün cari ilin qiymət indeksindən, bazis ilinin qiymət indeksi çıxılır və bazis ilinin qiymət indesinə bölünüb, 100%-ə vurulur. Yəni:

$$\text{İnflyasiyanın tempi} = \frac{\text{cari ilin qiymət indeksi – bazis ilinin qiymət indeksi}}{\text{bazis ilinin qiymət indeksi}} \times 100\%$$

Məsələn, ötən il ölkədə qiymətlər indeksi 179,9%, cari ildə isə 177,1% təşkil etmişsə, onda cari ilin inflyasiya səviyyəsi belə hesablanmalıdı:

İnflyasiya tempi=(179,9-177,1%)·100=1,6 %

Qeyd etmək lazımdır ki, iqtisadi nəzəriyyədə «70qaydası» adlanan üsulla, müxtəlif ölkələrdə qiymətlərin ümumi səviyyəsi 2 dəfə (200%) arta biləcəyi müddətini təxminən hesablamaq mümkündür. Bunun üçün 70 rəqəmini illik inflyasiya templərinə (1,6%, 3%, 8%, 9%, 12%, 17%, 23%) bölməklə, qiymətlərin iki qat artacağı ehtimal olunan müddəti tapmaq olar.

Məsələn, 70:1,6%=40il

70:3%=23il

70:8%=9 il

70:12=6il

70:17=4il

70:23=3il və s.

Tədavüldə olan pul kütləsinin artması və onun arxasında kifayət qədər əmtəələrin – xidmətlərin olmaması, *tələb inflyasiyası* kimi səciyyələndirilir. Əhalinin sərəncamında kifayət qədər pul vəsaiti (məbləği) toplandığı halda, buna uyğun əmtəələrin – xidmətlərin çatışmaması, şübhəsiz ölkədə qiymətlərin bahalaşmasına, «qara bazarın» yaranmasına səbəb olur. Ayrı-ayrı ölkələrin təcrübəsində *təklif inflyasiyasına* da rast gəlinir. Bu hal, bazarda məcmu təklifin azalması, yaxud istehsal xərclərinin artması ilə bağlıdır. Həmin səbəblər nəticəsində əmtəə və xidmətlərin bəzən tədricən, bəzən də sürətlə bahalaşması prosesi baş verir. Deməli, təklif inflyasiyasında istehsal xərcləri əmtəə-xidmətlərin qiymətlərinin yüksəlməsinə səbəb olursa, tələb inflyasiyasında isə qiymətlərin artması, tədricən istehsal xərclərinin əvvəlki dövrə nisbətən yüksəlməsini şərtləndirir. Hər iki halda davam edən inflyasiya proseslərindən ən çox zərər çəkən ölkə əhalisinin orta və aztəminatlı yoxsul təbəqəsi olur.

İnflyasiya prosesinin *«açıq»* və *«qapalı»* kimi iki tipi, *mülayim* (sürünən, mötədil), *hallopirik* (çaparaq, sürətli), *hiperinflyasiya* (ifrat, hədsiz) kimi 3 forması vardır.

«Açıq» inflyasiya, bazar münasibətləri iqtisadi sisteminin formalaşdığı ölkələr üçün səciyyəvidir. Bu tipli inflyasiya, rəqabət bazarında tələblə təklifin dəyişməsi nəticəsində qiymətlərin ümumi səviyyəsinin yüksəlməsi ilə əlaqədardır. «Açıq» tipli inflyasiya bir növ xəbərdarlıq xarakteri daşıdığından, işgüzar biznes-sahibkarlıq fəaliyyəti üçün bir o qədər də təhlükəli deyildir. Bu inflyasiya bazar sabitliyini müəyyən dərəcədə pozsa da, lakin artıq məlum prinsiplər üzərində formalaşmış iqtisadiyyat üçün qorxulu sayılmır. Çünki, xüsusi mülkiyyət, iqtisadi sərbəstlik, tələb-təklif, rəqabət mübarizəsi üzərində qurulub və nə istehsal etməli, nə qədər istehsal etməli, necə yaxud hansı yollarla, üsullarla istehsal etməli qayda-

qanunları əsasında fəalityyət göstərən bir iqtisadi sistem, yaranmış vəziyyətdən çıxmaq üçün müxtəlif tənzimləmə vasitələrindən istifadə etmək imkanlarına malikdir.

«Açıq» inflyasiya eyni zamanda ölkədə tələblə təklifin, qiymətlərin enib-qalxması ilə yanaşı, istehsal-xidmət dairələrindəki quruluş (struktur) dəyişikliklərlə bağlı da baş verə bilər. Ölkədə ümumi (məcmu) tələbin artması, əhalinin əlində xeyli məbləğdə pulun olması ilə bağlıdır. Əhali həmin pulları əmtəə və xidmətlərə dəyişərək maddiləşdirməyə çalışır. Bazarda baş verən canlanma istehsalı və təklifi genişləndirdiyindən, tədricən istehsal amllərinin, habelə iqtisadi resursların bahalaşması meylini gücləndirir. Deməli, iqtisadiyyatın quruluşunda gedən dəyişikliklər, ölkənin təsərrüfat həyatının sahələrdaxili və sahələrarası nisbətlərindəki yeniliklər, makroiqtisadi səviyyədə tarazlığın pozulması nəticəsində inflyasiya üçün müəyyn şərait yaradır.

«Qapalı», yaxud «gizli» inflyasiya isə əmrlə idarə olunan, bazar münasibətləri prinsiplərinin pozulduğu, totalitar tipli diktatura rejimlərinə xas olan bir hadisədir. Bu tipli iqtisadi sistemdə qiymətlər dövlətin tam nəzarətində oldüğündan, ölkədə tələblə təklifin real nisbətləri nəzərə alınmır, qiymətlər formal surətdə (zahirən) sabit qalır və dəyişmir. Lakin əslində əmtəə-xidmətlər bazarında bu maddi və mənəvi nemətlərin olmaması, yaxud məhdudluğu təbiidir ki, qıtlıq (defisit) yaradır. Nəticədə müxtəlif təyinatlı əmtəə və xidmətlərin qiymətləri bahalaşır, inflyasiya prosesləri üçün zəmin yaranır.

İqtisadi-sosial siyasəti ilə inflyasiya yaradan səbəblərlə deyil, onun nəticələri ilə mübarizə mövqeyində duran dövlət və onun müvafiq orqanları, bu istiqamətdə uğur qazana bilmədiklərindən ölkədə «kölgə» iqtisadiyyatı formalaşır, «qara bazar» meydana çıxır, qeyri-qanuni ticarət əlaqələri üçün geniş imkanlar açılır.

İnflyasiyanın formaları (növləri) aşağıdakılardır:

**a) *Mülayim (sürünən) tinflyasiya*** şəraitində ölkədə qiymətlərin ümumi səviyyəsi ildə orta hesabla 10%-ə qədər artır. Bu zaman tədavüldə olan pullar əsasən öz dəyərini saxlayır, bağlanmış saziş və müqavilələrin qiyməti mövcud reallığı uyğun olur. Mülayim inflyasiya şəraitində müxtəlif ölkələrin iqtisadiyyatının müəyyən templərlə inkişafı göstərir ki, bu halda iqtisadiyyat canlanıb hərəkətə gəlir, onun stimullaşdırılması prosesi baş verir. Belə bir vəziyyətdə qiymətlərin artması meyli, təbii olaraq əhalini öz sərəncamında olan pulları xərcləməyə, əmtəə-xidmətlərdən daha geniş surətdə faydalanmağa sövq edir. Artan tələbə uyğun olaraq, istehsal-xidmət dairəsində genişlənmə nəzərə çarpır, yeni sahələrin formalaşması imkanları yaranır, müxtəlif təyinatlı iş yerləri açılır, məhsul bolluğu təmin olunur, iqtisadi resursların sahələrarası axın hərəkəti tədricən nizamlanır və ölkənin təsərrüfat həyatındakı uyğunsuzluq halları müvəqqəti də olsa tarazlıqla əvəz olunur.

**b) *Hallopirik (sürətli, çaparaq) inflyasiya*** vaxtı ölkədə qiymətlər il ərzində 20-200% arasında arta bilir. Bu zaman ölkədə pullar tədricən qiymətdən düşür, milli valyutanın alıcılıq qabiliyyəti zəifləyir, əmtəələrin-xidmətlərin qiymətləri bahalaşır, qiymətlərin artım tempi əhalinin pul gəlirlərini ötür.

Yaranmış vəziyyət ölkə əhalisi arasında, xüsusilə onun orta və aztəminatlı təbəqələri arasında narahatlıq, habelə sabaha inamsızlıq yaratdığından, cəmiyyətdə sosial narazılıq gərginləşir. Bankdakı əmanətlərinə, əldə etdikləri müxtəlif şirkətlərin səhmlərinə etibarını itirmiş əhali, pullarını daşınmaz əmlaka (torpaq, ev, mülk, bağ, bina, mənzil) yaxud zinət-bəzək şeylərinə (qızıl, gümüş, qiymətli daş-qaş, rəsm əsərləri, əntiq şeylər), uzun müddət istifadə olunan əşyalara (mebel, xalça-palaz, avtomobil, soyuducu) dəyişməyə çalaşırlar.

Nəticədə istehsal-xidmət dairələrinə investisiyaların yönəldilməsi zəifləyir, məcmu təklif tədricən azalır, ölkədə işgüzar fəallıq aşağı düşür. Bu proses müxtəlif dövrlərdə dünyanın bir sıra ölkələrində – Almaniyada, Cənubi Amerika, Afrika, Cənub-Şərqi Asiya, habelə postsosialist-postsovet ölkələrində, o cümlədən 1991-1995-ci illərdə Azərbaycan Respublikasında da olmuşdur.

**c)** ***Hiperinflyasiya (ifrat, hədsiz inflyasiya)*** ölkədə əmtəə-xidmətlərin qiymətlərinin görünməmiş bir sürətlə artması ilə səciyyələnir. Bu inflyasiya şəraitində qiymətlər yüksək faizlə, ayda 50-70%-dən çox olmaqla, ildə 1000%-i ötür. Hiperinflyasiya vaxtı pul özünün tədavül vasitəsi və ümumi ekvivalent vəzifələrini yerinə yetirə bilmir. I Dünya müharibəsindən sonra, 1921-1922-ci illədə Almaniyada, sonralar Cənubi Amerika ölkələrində, Sovet İttifaqı dağıldıqdan sonra isə bazar iqtisadi sisteminə keçən postsovet-postsosialist ölkələrində də hiperinflyasiya prosesləri baş vermişdir. Belə vəziyyətdə dövlət özünün iqtisadi və inzibati tədbirlər sistemi vasitəsilə yaranmış prosesi hökmən tənzimləməli, konkret şəraitdən asılı olaraq, ölkədə pul islahatı keçirməlidir.

İqtisadi nəzəriyyədə *balanslaşdırılmış* və *balanslaşdırılmamış* inflyasiya anlayışları vardır. Birinci halda, müxtəlif əmtəələrin-xidmətlərin qiymətləri bir-biri ilə müqayisədə eyni nisbətdə, məsələn 3%-3%; 7%-7%; 10%-10% kimi artır. Belə inflyasiya balanslaşdırılmış, yaxud nizamlanan inflyasiya kimi səciyyələndirilə bilər.

İkinci halda, müxtəlif əmtəələrin-xidmətlərin qiymətləri bir-biri ilə əlaqəsiz, yəni müəyyən nisbətlər gözlənilmədən baş verir. Məsələn, gündəlik tələbat məhsullarının bir hissəsinin qiymətləri 30%, digər hissəsinin qiymətləri 12% artmışsa, bu balanslaşdırılmamış inflyasiyaya nümunə ola bilər.

Ölkənin təsərrüfat həyatında *gözlənilən* (proqnozlaşdırılan) və *gözlənilməyən* (qəfil) inflyasiyalar da baş verir. Gözlənilən inflyasiyanı əvvəlcədən nəzərə almaq və onun mənfi nəticələrini «yumşaltmaq» mümkündür. Siyasi sarsıntı və çevrilişlər, müharibə və təbii fəlakətlər nəticəsində baş verən gözlənilməyən inflyasiyaların ağır sosial-iqtisadi nəticələrini aradan qaldırmaq olduqca çətindir.

İnflyasiyanın yaratdığı çətinlikləri və onun gələcək sosial-iqtisadi nəticələrini aradan qaldırmaq üçün hakimiyyət səviyyəsində antiinflyasiya siyasəti, habelə bu siyasətin strategiyası-taktikasından irəli gələn müəyyən tədbirlər sisteminin, yaxud fəaliyyət mexanizminin hazırlanması zəruridir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, müxtəlif hökumətlərin antiinflyasiya tədbirləri iki istiqamətdə həyata keçirilə bilər. ***Birincisi,*** inflyasiya prosesinə uyğunlaşmaq yoludur. Bu tədbir, ölkədə pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi nəticəsində, əhalinin gəlirlərinin azalmasının qarşısını almaq üçün kompensasiyalar (əlavə ödənişlər) verilməsini nəzərdə tutur. Bunu, əmək haqları dərəcələrini yüksəltmək və əhaliyə verilən pensiyalara, təqaüdlərə, müavinətlərə uyğun əlavələr etməklə reallaşdırmaq mümkündür. Əmək haqqı və başqa ödənişələrə edilən əlavə, habelə müxtəlif güzəştlər ölkədə inflyasiya səviyyəsindən aşağı olmamalıdır ki, əhalinin real gəlirləri azalmasın. ***İkincisi***, ölkədə artıq başlanmış, yaxud gözlənilən inflyasiyaya qarşı təsirli mübarizə aparmaq məqsədilə, mövcud vergi ödənişləri dərəcələrində, gömrük tariflərində, bankların faizlərində çevik dəyişikliklər aparılmalıdır. Eyni zamanda dövlət büdcəsinə yenidən baxılmalı, dövlət xərclərində müəyyən ixtisarlar aparılmalı, sosial proqramların ünvnlı surətdə daha məqsədyönlü həyata keçirilməsi təmin edilməlidir.

**19.4.** İnflyasiya prosesi ayrı-ayrı ölkələrdə həmişə müxtəlif çətinliklər və problemlər yaradır. İnflyasiya ilə qarşılıqlı əlaqədə meydana çıxan milli iqtisadiyyatın və bütövlükdə cəmiyyətin qayğıları özünü təkcə iqtisadi sahədə deyil, eyni zamanda ictimai-sosail, hətta siyasi, mənəvi, əxlaqi proseslərdə də göstərir.

İnflyasiyanın ən həssas, ağrılı nəticə və ölkə əhalisi arasında sosial narazılıq yaradan cəhəti, bu proseslə işsizlik arasında olan asılılıqdır. Bu asılılıq əlaqəsi 1958-ci ildə Avstraliya iqtisadçısı və sonralar İngiltərədə yaşamış Artur Filips tərəfindən öyrənilərək irəli sürülmüşdür. Onun fikrincə, inflyasiya ilə işsizlik arasında *mənfi asılılıq*, yaxud *tərs mütanisiblik* vardır. Bu mənada inflyasiya və işsizlik iqtisadiyyatın real vəziyyətini əks etdirən iki əsas alternativ kəmiyyətlərdir. Mühüm makroiqtisadi əlaqələrdən biri kimi səciyyələndirilən bu maraqlı asılılıq qrafik şəkildə öz ifadəsini «Filips əyrisi»ndə tapmışdır.

**Filips əyrisi**




«Filips əyrisi»ndən aydın olur ki, işsizliyin səviyyəsinin aşğı olduğu dövrlərdə, adətən ölkədə inflyasiyanın səviyyəsi yüksəlməyə doğru meyl edir; əksinə inflyasiyanın səviyyəsi aşağı olduqda, ölkədə işsizlərin sayı artmağa doğru gedir. Başqa sözlə, ölkənin təsərrüfat həyatında inflyasiya baş verdikdə, qiymətlərin bahalaşması nəticəsində məcmu təklifin artması, iş yerlərinə olan tələbin, həbelə əhlinin əmtəə-xidmətlərə tələbatını çoxaldır. Əksinə, ölkədə inflyasiyanın səviyyəsi sabit qaldıqda, yaxud aşağı düşdükdə isə iş yerlərinə olan tələbat azalır, işsizlik səviyyəsi yüksəlir. Deməli, ya inflyasiya, yaxud da işsizlik dilemması, «ölüm ya olum» kimi qarşıya çıxaraq öz həllini tələb edir. Təsadüfi deyildir ki, iqtisadçılar «Filips əyrisi»ni siyasətçilər üçün qaçılmaz bir seçim olduğunu qeyd edirlər.

Lakin, dəyişib-yeniləşən canlı orqanizmi xatırladan bazar münasibətləri iqtisadi siteminin qeyri-sabitliklə səciyyələnən inkişaf xüsusiyyətləri sübut edir ki, inflyasiya ilə işsizlik səviyyəsi arasındakı «Fillips əyrisi» prinsipinə uyğun vəziyyət, yalnız «qısa müddətli» dövr üçün doğru sayıla bilər. «Uzun müddətli» dövr üçün, ölkədə inflyasiya ilə işsizlik səviyyəsi arasında tərs asılılığın olması ideyası özünü doğrultmur.

Müasir dövrdə ayrı-ayrı ölkələrin təsərrüfat həyatı təcrübəsində, həm yüksək inflyasiya, həm də işsizliyin artması proseslərinə eyni zamanda rast gəlinir. Bu mürəkkəb və ziddiyyətli proses «staqflyasiya» adlanır. Eyni zamanda inflyasiya ilə işsizlik arasında asılılıq «diskomfort», yəni narahatlıq indesi kimi qiymətləndirilir. Məsələn, müəyyən bir ölkədə inflyasiyanın illik səviyyəsi 18% və işsizlik səviyyəsi 17%-dirsə, deməli cəmiyyətin diskomfort indeksi 35%-dir. Son vaxtlar bu rəqəm həm də ölkə əhalisinin müasir standartlar baxımından yoxsulluq səviyyəsini müəyyənləşdirmək üçün istifadə olunur.

# Mövzu 20. Makroiqtisadi təhlil: məcmu tələb və məcmu təklif

**20.1** Ümumi makroiqtisadi modelin formalaşması zəruriliyi
**20.2** Məcmu tələb anlayışının mahiyyəti və məcmu tələb əyrisi
**20.3** Məcmu təklif anlayışının mahiyyəti və məcmu təklif əyrisi
**20.4** Makroiqtisadi tarazlıq və onun dəyişkənliyi

**20.1.** Ölkənin çoxsahəli təsərrüfat həyatında baş verən mürəkkəb əlaqələr sistemini və ayrı-ayrı əmtəə-xidmətlər, torpaq, əmək, kapital, qiymətli kağızlar bazarını vahid böyük bir bazar kimi təsəvvür etsək, onun həmişə *«tarazlıq-qeyri-tarazlıq»* müstəvisində, bazar münasibətləri prinsipləri əsasında fəaliyyət göstərdiyi aydın olar. İstehsal prosesinin, onun maddi və şəxsi iştirakçı amllərinin, dövlətin mürəkkəb əlaqələrlə səciyyələnən iqtisadi fəaliyəti, son nəticə etibarilə həm tarazlıq, həm də qeyri-tarazlıq şəraitində davam edən iqtisadi inkişafın dinamikliyini təmin etməyə yönəlmişdir.

Bazar münasibətləri sistemində iqtisadiyyatda bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan *«məcmu istehsalçı»* və *«məcmu istehlakçı»* vardır. Makroiqtisadi modelin iştirakçısı sayılan «məcmu istehsalçı» və «məcmu istehlakçı» arasında «alıcı-satıcı» kimi mürəkkəb iqtisadi münasibətlər baş verir. Bu halda istehsal olunmuş məhsul-xidmətlərin hamısı reallaşdırılmalı, əldə olunmuş gəlirlər xərclənməli, şəxsi istehlaka və istehsalın davam etdirilməsi üçün lazım olan resurslara sərf olunmalıdır. Deməli, cəmiyyətdə makroiqtisadi səviyyədə *məcmu tələblə* *məcmu təklif* uyğunlaşaraq üst-üstə düşürlər. Bazar münasibətləri sistemində arzu olunan, lakin həyata keçirilməsi mümkün olmayan «iqtisadi tarazlıq» vəziyyəti modeli belə yaranmışdır.

İqtisadi nəzəriyyədə uzun müddət belə bir mövqe aparıcı rol oynamışdır ki, bazar münasibətləri sistemində istehsal olunmuş məhsulların tam reallaşdırılması, bu məhsulların istehsalçılarına (satıcılarına) həmin məhsulların dəyərinə bərabər (uyğun) gəlir gətirir. Bu ideya müxtəlif dövrlərdə, ayrı-ayrı iqtisadçılar tərəfindən fərqli variantlarda irəli sürülsə də, xüsusilə fransız iqtisadçısı J.B.Sey (1762-1832) və İsveçrə iqtisadçısı L.Valras (1834-1910) həmin məsələni daha geniş tədqiq etmişlər.

***«Sey qanununa»*** görə bazardakı təklif, özünə uyğun da tələb yaradır. Buna səbəb odur ki, ölkədəki əmtəə istehsalı elə bu istehsala uyğun da *əmək haqqı* və *mənfəət* formasında ümumi gəlir yaradır. Cəmiyyətin ümumi gəlirinin istehlaka sərf olunduğunu irəli sürən müəllif belə bir faktı nəzərə almırdı ki, əhalinin gəlirələrinin müəyyən hissəsi istehlaka deyil, investisiyalara çevrilməyən kapital-pul şəklində əllərdə qalırdı. Bu məsələyə daha ayıq bir mövqedən yanaşan L.Valras belə fikirdə idi ki, aralarında şübhəsiz asılılıq əlaqəsi ünsürləri olsa da, lakin bazar iqtisadi sistemi şəraitində J.B.Seyin dediyi kimi *təklif tələbi yox, məhz tələb təklifi müəyyənləşdirir*. Bu mövqe iqtisad elmi tarixində mühüm bir irəliləyiş olsa da, lakin onun ciddi nöqsanları da vardı. Çünki onların düşündükləri ümumi tarazlıq ideyası ölkənini təsərrüfat həyatının əvvəlcədən verilmiş müəyyən şərtlər daxilində (məsələn, cəmiyyətin eyni zamanda istehlakçı olan yalnız istehsalçılardan ibarət olması; onların sərbəst bazar şəraitində fəaliyyət göstərməsi; məhsulu məhsula dəyişməsi; əldə etdikləri gəlirləri tamamilə xərcələmələri; yığımın olmaması; xarici ticarət əlaqələrinin nəzərə alınmaması)

modelləşdirilməsi, riyazi hesablamalarla əsaslandırılması, həqiqətən maraqlı bir yenilik kimi irəliyə doğru addım sayılsa da, lakin insan zövqlərinin və iqtisadi resurslardan istifadənin dəyişdiyi, texniki-texnoloji bazanın təkmilləşdiyi real cəmiyyətdə nələr baş verə biləcəyini aydınlaşdıra bilməmişdir.

Xüsusilə, cəmiyyətin bütün təbəqələrinin mənafelərinin ahəngdarlığı, bazardakı haqlı (azad) rəqabət sayəsində iqtisadiyyatın öz-özünü tənzimləməsi, iqtisadi böhranların qanunauyğunluğunun inkar edilməsi kimi ideyalar, sonralar müxtəlif ölkələrin iqtisadçıları, o cümlədən K.Marks, A.Marşall, C.M.Keyns tərəfindən tənqidi mövqelərdən qiymətləndirilərək, dövrün tələblərinə uyğun yeni bir mərhələyə qaldırılmışdır.

L.Valrasdan fərqli olaraq neoklassik *AD-AS (məcmu tələb-məcmu təklif)* modelini irəli sürmüş A.Marşall, iqtisadiyyatda ümumi tarazlığın təmin olunmasını, bazarda formalaşan çevik və dəyişkən qiymətlərlə əlaqələndirmişdir. Bu mövqeyə görə qiymət dəyişkənliyi təkcə iqtisadi resursların bölgüsünü tənzimləməklə məhdudlaşmayaraq, eyni zamanda qeyri-tarazlıq vəziyyətinin aydınlaşdırılmasına da kömək edir. *AD-AS modelində*, L.Valrasın düşündüyü kimi tələb və təklif qiymətə görə uyğunlaşıb dəyişmir, əksinə qiymət amili tələb-təklifin dəyişkənliyini özündə əks etdirir. Belə ki, tələbin təklifi üstələdiyi halda, təklif yox, qiymətlər artacaqdır. Həm də bu model qısa müddətli dövr üçün xarakterik olub, uzunmüddətli dövrdə tələbin artması ilə bağlı, investisiyaların istehsal-xidmət dairələrinə yönəldilməsi meyli sürətləndiyindən, təbiidir ki, təklif çoxalacaqdır.

Klassik və neoklassik nəzərəriyyə tərəfdarları razılaşırdılar ki, müəyyən hallarda, məsələn müharibələr, təbii fəlakətlər, siyasi çevrilişlər vaxtı ölkənin təsərrüfat həyatı öz normal inkişaf yolundan yayına, yaxud kənara çıxa bilər. Lakin onlar inanırdılar ki, bu müvəqqəti bir haldır və bazar münasibətləri sistemi ona xas olan daxili xüsusiyyətlər sayəsində, yəni ***qiymət dəyişikliyi***, ***əmək haqqı, faiz dərəcələrini təkmilləşdirməklə, ən başlıcası isə dövlətin müdaxiləsi olmadan*** yaranmış problemləri həll etməyə qadirdir. Deməli, bazar münasibətləri şəraitində istehsal (təklif) özünə uyğun (bərabər, ekvivalent) istehlak (tələb) yaradır. Ona görə də, bazar münasibətləri sistemində iqtisadi böhranlar işsizlik, inflasiya halları təsadüfi bir xarakter daşıdığından, heç bir kənar təsir və müdaxilə olmadan bunların öz-özünə, «avtomatik» surətdə tənzimlənməsi, habelə ümumi tarazlığın yaradılması mümkündür.

1929-1933-cü illəri əhatə etmiş dünya iqtisadi böhranı və C.M.Keyns tərəfindən onun «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» (1936) kitabında irəli sürülmüş ideyalar, klassik-neoklassik ümumi tarazlıq modelin yeni yaranmış şəraitdə qarşıya çıxan problemlərin hərtərəfli izahı, ondan çıxış yollarını tapmaq üçün kifayət etmədiyini göstərdi. Keyns yazırdı ki, artıq klassik və neoklassik məktəblərin sərbəst rəqabət bazarının öz-özünü tənzimləməsi haqqında vaxtilə söylədikləri fikirlər real həyat həqiqətləri ilə düz gəlmir, hətta ziddiyyət təşkil edir. Çünki, sərbəst rəqabət bazarı ölkənin əmək ehtiyatlarının maddi və maliyyə resurslarının tam səmərəli istifadəsini təşkil edə bilmir. Onun fikrincə, müasir mürəkkəb daxili-xarici iqtisadi əlaqələr sistemi şəraitində, yalnız dövlətin düşünülmüş iqtisadi tənzimlənməsi sayəsində ölkənin təsərrüfat həyatının tərəqqisinə nail olmaq mümkündür.

C.M.Keynsin yeni ***makroiqtisadi modeli*** ona əsaslanırdı ki, cəmiyyət üzvlərinin gəlirləri, heç də həmişə ölkədə istehsal olunmuş əmtəələrin, xidmətlərin alınmasına sərf olunmur.

Aydındır ki, istehsal olunmuş məhsulların, gösətəriləcək xidmətlərin müəyyən bir hissəsinin alıcılar tərəfindən müxtəlif səbəblərlə bağlı alınmaması, yaxud tələb olunmaması, təbiidir ki, əhalinin gəlirlərinin müəyyən hissəsinin reallaşdırıla bilməməsi ilə nəticələnməlidir. Bu isə ölkədə artıq məhsulların yığılıb qalmasına, nəticədə istehsal dairəsi sahələrinin məhsul buraxılışını məhdudlaşdırmasına, məşğulluq səviyyəsinin aşağı düşməsinə, əhalinin işsizlik səviyyəsinin artmasına səbəb olacaqdır.

Keynsin makroiqtisadi modelinə görə, iqtisadiyyatın inkişafı qeyri-sabit şəkildə, lakin fasiləsiz bir irəliləyişlə davam edir. Hər hansı bir ölkənin təsərrüft həyatında yüksəliş və enişlər, dalğavari proseslərin olması təbii, həm də qanunauyğun haldır. Çünki, bazar münasibətləri iqtisadi sistemi heç də həmişə öz-özünü tənzimləyən bir sistem kimi fəaliyyət göstərə bilməz. Şübhəsiz ki, bu sistem iqtisadiyyatın inkişafına hüquqi-inzibati, iqtisadi-təşkilati imkanlar yaradır, bazar subyektlərinin oyun qaydalarını və davranışlarını «müəyyənləşdirir», tələb-təklif, qiymət, rəqabət prinsipləri üzərində qurulur. Bununla yanaşı, tam əmin olmaq mümükün deyildir ki, həmin iqtisadi sistem həmişə, obyektiv-subyektiv səbəblərələ bağlı bütün dəyəşkən hallarda, özünü tənzimləmək yolu ilə inkişaf edə biləcəkdir. Keynsin fikrincə, iqtisadi inkişafın qeyri-sabit gedişini təkcə müharibələr, təbii fəlakətlərlə bağlamaq düzgün deyildir. İlk növbədə ölkədə ***yığım, əmanətlər, investisiyalar, gəlirlər*** məsələsinə ciddi diqqət yetirmək və dövlət tərəfindən iqtisadiyyatın tənzimlənməsi tədbirlərinin həyata keçirilməsi zəruridir.

Milli iqtisadiyyatın müxtəlif sahələri bir-birindən təcrid olunmuş şəkildə fəaliyyət göstərə bilmədiyindən, tez-gec həmin sahələrin bazarlarında baş verən dəyişiikliklər, bütövlükdə iqtisadiyyatın ümumi inkişafında öz əksini tapmalıdır.

Makroiqtisadi səviyyədəki dəyişikliklər ilk növbədə ***məcmu tələblə məcmu təklif*** arasındakı nisbətlərin, cəmiyyətin konkret sosial-iqtisadi vəziyyətinə uyğun dəyişikliklərində özünü göstərir. Bu nisbət isə makroiqtisadi tarazlığa uyğun gəlməsə də, lakin məcmu tələblə məcmu təklifin bir-birinə uyğunlaşması prosesi formalaşır. Əsas məsələ ondan ibarətdir ki, ***makroiqtisadi tarazlıq*** cəmiyyətin iqtisadi ehtiyatlarının nə dərəcədə tam istifadə olunması, istehsalın tarazlıq həcminin nə dərəcədə əmək ehtiyatlarının məşğulluğu və istehsal güclərinin real potensialına uyğunluğu ilə xarakterizə olunur.

Nəhayət, qeyd etmək zəruridir ki, real təsərrüfat həyatında tam ümumi tarazlıq vəziyyəti, iqtisadiyyatın əslində mümkün olmayan, lakin eyni zamanda mövcudluğu arzuedilən ideal bir haldır. Buna nail olunması, dövlətin düşünülmüş iqtisadi siyasət xətti və ölkənini təsərrüfat həyatının tənzimlənməsi tədbirlərinin uğurla reallaşdırılmasından asılıdır.

**20.2.** İqtisadi nəzəriyyənin mühüm anlayışlırından sayılan tələb, fərdi mənada fiziki-hüquqi şəxslərin müəyyən dövr ərzində hər hansı bir əmtəə-xidmətdən, müəyyən qiymətə və müəyyən kəmiyyətdə almaq, əldə etmək imkanıdır. *Məcmu tələb* isə bütövlükdə ölkənin, cəmiyyətin ümumi tələblərini bir tam şəklində əhatə edir. Deməli,

məcmu tələb, ümumiyyətlə, əhalinin, müxtəlif təyinatlı şirkətlərin, müəssisələrin və dövlətin, əmtəələrin-xidmətlərin qiymətindən asılı olmayaraq, ala biləcəyi məhsulların cəmidir. Onun formalaşmasına, məzmununa və həcminə kompleks şəklində həm qiymət, həm də qeyri-qiymət amilləri birbaşa, yaxud dolayı yollarla təsir göstəriri. Lakin məcmu tələb ilk növbədə cəmiyyətin ümumi gəlirləri və qiymətlərin səviyyəsi ilə müəyyənləşir.

Makroiqtisadi səviyyədə cəmiyyətin gəlirləri, qiymətlərin səviyyəsi, pul təklifi kəmiyyəti bazasında məcmu tələbin həcmi belə hesablanır:

$Q \times P = M \times V$

Burada, Q – məhsulun ümumi həcmi;

P – qiymətlərin səviyyəsi;

M – tədavüldəki pulun miqdarı (kütləsi);

V – pulun dövriyyə sürəti olduğundan:

$Q = MV/P$ alınır.

Deməli, Q kəmiyyəti cəmiyyətin əmtəə və xidmətlərə olan ümumi tələbini göstərir. Bu nisbətdən aydın olur ki, məcmu tələbin ümumi həcmi ilə onun qiymət səviyyəsi arasında tərs mütənasiblik (asılılıq) vardır. Başqa sözlə, ölkədə qiymətlərin ümumi səviyyəsi ilə real ümumi daxili məhsul (ÜDM) arasındakı tərs asılılığı aşağıda verilmiş qrafik sxemdən görmək olar:

**Məcmu tələb əyrisi**




Məcmu tələbin enən əyrisi (MT) qiymətlərin ümumi səviyyəsi ilə ölkənini ümumi daxili məhsulu (ÜDM) arasında tərs mütənasibliyin olduğunu göstərir.

Ölkədə qiymətlərin ümumi səviyyəsinin enməsi ilə məhsullara olan ümumi təlbin artması prosesi, öz xarakterinə görə ayrıca bir əmtəə yaxud xidmətlə bağlı vəziyyətə bənzəyir. Lakin makroiqtisadi səviyyədə məcmu tələblə bağlı qiymət dəyişikliyinin başqa səbəbləri vardır. Həmin səbəbləri şərtləndirən amillər sırasında: a) ***əhalinin varlılıq və imkanlılıq effektini (səmərəliliyini); b) faiz dərəcələri effektini (səmərəliliyini); c) xarici ticarət (idxal) effektini*** göstərmək olar. Bu amillərin kompleks şəkildə fəaliyyəti, ölkədə qiymətlərin ümumi səviyyəsinin dəyişməsi ilə bağlı, milli məhsula olan məcmu tələbin konkret həcminin dəyişməsi meylinə təsir göstərir.

Qeyd etmək lazımdır ki, ölkədə qiymətin ümumi səviyyəsi nisbi sabit vəziyyətdə qaldıqda da, məcmu tələbin enib-qalxmasına, dalğavari konyukturasına təsir göstərən bir sıra şərtlər vardır. Qeyri-qiymət amilləri kimi səciyyələndirilən bu şərtlərə, əhalinin istehlak yönümlü xərclərində baş verən dəyişikliklər; investisiyalara yönəldilən xərclər; dövlət xərclərindəki müxtəlif istiqamətli dəyişikliklər; xarici iqtisadi əlaqələrdə (xalis ixracda) baş verən dəyişikliklərlə bağlı xərclər daxil edilir.

Bu amllərin müxtəlif kombinasiyaları, yəni onlardan birinin, yaxud bir neçəsinin kəmiyyət və keyfiyyətcə dəyişməsi, öz növbəsində ölkədə məcmu tələbin meylinin aşağı düşüb, yuxarı qalxmasına (dalğavari inkişafına) şərait yaradacaqdır.

**Məcmu tələbin dəyişməsi**




Məcmu tələbin müxtəlif qeyri-qiymət amillərinin təsiri altında dəyişmə meylini aşağıdakı qrafik sxemdən görmək olar.

Sxemdən aydın olur ki, makroiqtisadi səviyyədə ölkənin təsərrüfat həyatındakə ayrı-ayrı amillərin təsiri və fəaliyyəti nəticəsində, məcmu tələb həm yüksəlməyə, həm də enməyə doğru öz istiqamət meylini dəyişə bilər.

**20.3.** Məcmu təklif müəyyən bir dövr (ay, il) ərzində, mövcud qiymətlərin səviyyəsinə uyğun istehsal olunub satışa çıxarılmış müxtəlif təyinatlı əmtəə və xidmətlərin cəmidir. Başqa sözlə, ***məcmu təklif ölkənin real milli istehsalının həcmi olub, mövcud qiymətlərlə onun dəyər ifadəsidir***. Məcmu təklif ölkənin ümumi daxili məhsulunun (ÜDM) milli iqtisadiyyat və milli bazarda mövqe, habelə rolunun səciyyələndirən mühüm bir iqtisadi kateqoriyadır.

Qeyd etmək lazımdır ki, makroiqtisadi tarazlıq nəzəriyyəsinin mühüm şərti sayılan məcmu təklif anlayışı öz forması, xüsusiyyətləri və dəyişkənliyi baxımından daha mürəkkəb, həm də ziddiyyətli bir iqtisadi prosesdir. Ona görə də məcmu təklifin hərtərəfli təhlili üçün istehsal prosesinə təsir göstərən bütün amllərin kompleksli şəkildə nəzərə alınması tələb olunur.

İlk növbədə nəzərə alınmalıdır ki, makroiqtisadi səviyyədə qiymətlə təklif arasındakı düz asılılıq əlaqəsi, makroiqtisadi səviyyə üçün də xarakterikdir. Ölkədə qiymətlərin ümumi səviyyəsinin qalxıb-enməsi, məcmu təklifin də eyni istiqamətdə dəyişməsini şərtləndirir. Ayrı-ayrı lokal bazarlar üçün doğru sayılan bu prinsip, makroiqtisadi səviyyədə məsələnin tam aydınlaşdırılması üçün kifayət etmir. Çünki, makroiqtisadi səviyyədə istehsalın həcminin artırılması prosesi xərclərlə gəlirin müqayisəli təhlili üzərində qurulursa, makroiqtisadi səviyyədə bu cür yanaşma özünü doğrulda bilməz.

Təsərrüfat həyatının makroiqtisadi səviyyədə təhlili sübut edir ki, ölkədə qiymətlərin ümumi səviyyəsinin dəyişməsi, tez-gec öz enib-qalxan təsirini istehsal amllərinə, onun maddi və şəxsi amllərinə göstərir. Aydındır ki, hər hansı bir ölkə öz iqtisadi-sosal inkişafının ayrı-ayrı mərhələlərində mövcud potensialdan tam istifadə olunmasına çalışsa da, lakin obyektiv-subyektiv səbəblərlə bağlı, iqtisadi resursların müəyyən hissəsi istehsal prosesinə cəlb olunmamış qalır. Belə bir vəziyyət isəişsizlik,

müəssisələrin tam gücü ilə işləməməsi, inflyasiya, təbii ehtiyatların istehsala cəlb olunmaması kimi həllini tələb edən məsələlərlə bağlıdır.

Həmin problemləri isə yeni metodoloji yanaşma mövqeyindən iki yolla – *uzunmüddətli* və *qısamüddətli* dövrlər ərzində həll etmək mümkündür. Məcmu təklifin uzunmüddətli dövr üçün təhlili klassik və neoklassik inkişaf modeli, qısamüddətli dövr üçün təhlil isə Keyns və onun məktəbinin modelləri əsasında aparılır.

Qeyd edək ki, makroiqtisadi səviyyədə uzunmüddətli perspektivdə əmək haqqı və digər resursların hamısının qiymətinin enib-qalxması prosesi, müəyyən tarazlıq, habelə nisbətlər çərçivəsində dəyişir. Ona görə də, makroiqtisadi səviyyədə ***istehsalın real həcmi və real gəlirlər dəyişməz qalır***. Verilmiş sxemdən (A) göründüyü kimi məcmu təklifin uzunmüddətli əyrisi (istiqaməti) düz xətt vəziyyətinə uyğun olur. Bu isə o deməkdir ki, həmin müddət ərzində əmək haqqı, gəlirlər və iqtisadi resursların qiymətlərdə baş verən dəyişikliklər bir-birinə uyğun olurlar.

**Məcmu təklifin uzunmüddətli əyrisi**

Məcmu təklif uzunmüddətli perspektivdə (A) | Məcmu təklifin qısa müddət ərzində əyrisi (B) | Məcmu təklifin dəyişkənliyi (D)




Real Ümumi Daxili Məhsul (ÜDM) | Real Ümumi Daxili Məhsul (ÜDM) | Real Ümumi Daxili Məhsul (ÜDM)

Belə nisbi asılılıq və tarazlıq şəraitində istehsalçılar, məhsul buraxılışı həcmini dəyişmək haqqında qərarlar qəbul etmirlər.

C.M.Keyns uzunmüddətli dövr üçün nəzərdə tutulan klassik və neoklassik nəzəri baxışları tənqid edərək yazmışdı ki, belə bir mövqe cari işgüzar fəaliyyətlə bağlı yanlış təsəvvürlər yaradır. Çünki, «uzunmüddətli dövrdə biz hamımız ölüyük. Əgər iqtisadçılar şiddətli yağış mövsümündə bizə yalnız tufandan uzun müddət sonra okeanın hamar olacağını deyə bilirlərsə, onda özləri üçün çox asan və səmərəsiz məqsəd seçmişlər». Deməli, Keyns yaranmış böhranlı vəziyyətin gələcəkdə (?), nə vaxtsa (!) uzunmüddətlir perspektivdə yoluna düşəcəyi barəsində mülahizələrlə razılaşmayaraq, diqqəti indiki vəziyyəti dərindən təhlil edərək, ondan optimal çıxış yolları axtarıb tapılması, habelə bu istiqamətdə dövlət tənzimlənməsi tədbirlərindən faydalanmaq zəruriliyinə cəlb etmişdir.

Bu mənada hər hansı bir cəmiyyət öz iqtisadi-sosial inkişafının gələcək perspektivlərini hökmən bilməli və şübhəsiz iqtisadi resursları, maddi-texniki bazası, intellektual imkanları ilə ona hazır olmalıdır. Lakin cəmiyyət ilk növbədə öz iqtisadi-sosial tərəqqisində hansı səviyyəyə gəlb çatdığını obyektiv qiymətləndirməyi bacarmalıdır ki, yaranmış vəziyyətin çətinlik və problemlərini aradan qaldırmaq üçün səmərəli vasitələr axtarıb tapsın.

İqtisadiyyatın tənəzzülü, istehsal güclərindən tam istifadə olunmadığı, işsizliyin müəyyən yüksək səviyyədə qadığı bir şəraitdə, Keynsin qısamüddətli makroiqtisadi modelində qiymətlərin dəyişməz sabitliyi qəbul olunur. Bunun səbəbi isə ehtiyat iqtisadi resurslardan, köhnə avadanlıqlardan istifadə etməklə artan məhsul buraxılışının hər vahidinə sərf olunan istehsal xərclərinin dəyişməməsidir. Nəticədə, myəyyən vaxt qiymətlər əvvəlki səviyyədə qalır. Belə bir vəziyyət isə qiymətlə məcmu təklifin düz mütənasibliyi, asılılığı prinsipinə uyğun gəlmədiyindən tez-gec pozulmalıdır. Tədricən iqtisadiyyatda baş verən proseslər, qiymətlə məcmu təklif arasındakı qanunauyğun düz mütanasidbliyin bərpa olunmasüını təmin edir. Keynsin fikrincə, dövlətin iqtisadiyyatı tənzimlənməsi istiqamətindəki tədbirləri, məcmu təklifin stimullaşdırmaq səyləri bu prosesə müsbət təsir göstərə bilər. Eyni zamanda qısamüddətli dövrdə məcmu tələbin normallaşmasına qeyri-qiymət amilləri, o cümlədən ölkənin iqtisadi resursları, qiymətlərin dəyişməsi, məhsuldarlıq səviyyəsinin yüksəlməsi, vergi dərəcələrinin çevikliyi, hüquqi-normativ aktların günün tələblərinə uyğunlaşdırılması da, şübhəsiz öz təsirini göstərə bilər.

Məcmu təklifin qısamüddətli dövrdə əyrisi (B) sxemində və ümumiyyətlə məcmu təklifin dəyişkənliyi isə (D) sxemində öz əksini tapmışdır. Bu sxemdəki (AS) əyrisi qısamüddətli dövr ərzində məcmu təklif əyrisinin qiymətlə bağlı yüksələn istiqamətini; (D) sxemindəki məcmu təklifin ($AS_1$) əyrisi isə müxtəlif amllərin qarşılıqlı təsiri altında bəzən aşağıya meyl etdiyini ($AS_3$), bəzən də yüksəldiyini ($AS_2$) göstərir.

**20.4.** İqtisadi nəzəriyyədə makroiqtisadi tarazlıq o deməkdir ki, qiymətlərin səviyyəsi ilə ölkədə məhsul-xidmətlərin həcmi, yəni ümumi daxili məhsulun həcmi üst-üstə düşür. Başqa sözlə, ölkənin təsərrüfat həyatında *məcmu tələblə məcmu təklifin əyriləri müəyyən bir nöqtədə kəsişərək*, bu iki kəmiyyətin nisbi tarazlığı barəsində müəyyən təsəvvür yaradır. Qrafik şəkildə makroiqtisadi səviyyədə ölkə iqtisadiyyatındakı makroiqtisadi tələblə təklif arasındakı yaranmış tarazlıq vəziyyətini belə təsvir etmək olar:




Qrafikdə verilmiş N nöqtəsi, məcmu tələblə məcmu təklifin üst-üstə düşüb, yəni tarazlıq səviyyəsinin yarandığı bir vəziyyət kimi səciyyələndirilə bilər.

Bazar münasibətləri iqtisadi sistemi şəraitində, makroiqtisadi təhlil səviyyəsində bazar subyektlərinin (iştirakçılarının) həm *alıcılara*, (istehlakçılara), həm də *satıcılara* (istehsalçılara) çevrildiyini, onların istehsal etdikləri müxtəlif təyinatlı resursların və əldə etdikləri gəlirlərin (əmək haqqı, mənfəət, renta, faizlərin) qarşılıqlı mübadilə əlaqələri nəticəsində fasiləsiz hərəkətini nəzərə alsaq, ayydın olar

ki, bazar tarazlığı anlayışını mütləq mənada deyil, nisbi bir hal kimi qəbul etmək lazımdır. Çünki, məcmu tələb və məcmu təklif sadəcə kəmiyyətlər olmayıb, eyni zamanda təsərrüfat həyatının konkret keyfiyyət göstəricilərini əks etdirən anlayışlardır. Deməli, makroiqtisadi səviyyədə istehlakçıların pul gəlirləri ilə məhdudlaşan məcmu tələb və istehsalçıların məhdud iqtisadi resurslardan istifadəsi ilə tarazlaşan məcmu təklif arasında dialektik asılılıq əlaqəsi vardır. Bu qarşılıqlı əlaqələrin optimallaşdırılması dərəcəsi isə bütövlükdə ölkənin potensial imkanlarından, onun maddi-texniki bazasının yeni texnika və texnologiya əsasında təkmilləşdirilməsindən, maliyyə-büdcə və əhalinin yığım ehtiyatlarından, «insan kapitalı»ının təhsil, peşə-ixtisas səviyyəsindən, eyni zamanda dövlətin düşünülmüş iqtisadi siyasətindən, habelə milli iqtisadiyyatın müasir mərhələdəki problemlərini tənzimləmək bacarığından, qabiliyyətindən asılıdır.

Qeyd etmək zəruridir ki, makroiqtisadi tarazlığı təmin etmək üçün C.Keynsin və onun davamçılarının *səmərəli tələb, gəlirlər, investisiyalar, dövlətin tənzimləyici rolu*; sonralar M.Fridmenin monetarist ideyaları əsasında formalaşan səmərəli təklif; nəhayət ən son elmi-nəzəri fikirlərə baxmayaraq, ölkənin təsərrüfat həyatında məcmu tələblə məcmu təklifin istər nəzəri, istərsə də əməli-praktik məsələlərinin həll edildiyini söyləmək çətindir.

# Mövzu 21. Fiskal siyasət

**21.1.** Fiskal siyasətin mahiyyəti və xüsusiyyətləri
**21.2.** Fiskal siyasətin tipləri
  **a)** diskret fiskal siyasət
  **b)** avtomatik, qeyri-diskret fiskal siyasət
**21.3.** Dövlətin fiskal siyasətinin daxili və xarici problemləri
  **a)** vaxtla bağlı problemlər
  **b)** siyasi aspektlər
  **c)** beynəlxalq amillər.

**21.1.** Müasir bazar münasibətləri sistemi şəraitində dövlətin və onun müvafiq orqanlarının, qəbul olunmuş qanunlar əsasında öz sosial-iqtisadi vəzifələrinin həyata keçirilməsində fiskal siyasət mühüm rol oynayır. Bu siyasət dövlətin müxtəlif təyinatlı xərcləri və vergilərin tənzimlənməsi tədbirlərini əhatə edir. **Fiskal siyasətin başlıca fəaliyyət dairəsi – dövlət büdcəsi, vergilər, dövlətin pul gəlirləri və onun xərcləri ilə bağlıdır**. Deməli, fiskal siyasət, ölkə iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsinin əsas istiqamətlərindən və alətlərindən biri kimi səciyyələndirilə bilər. Başqa sözlə, dövlətin fiskal siyasəti, ölkə büdcəsinin gəlir hissəsinin nəzərdə tutulmuş həcmdə yerinə yetirilməsi məqsədilə, vergi ödənişləri sahəsində konkret tədbirlərin həyata keçirilməsidir.

Tanınmış iqtisadçı, Nobel mükafata laureatı C.K.Helbreyt (ABŞ) yazmışdır ki, bizim günlərimizdə vergi sistemi, artıq dövlətin gəlirlərinin artırılması mənbəyi və alətindən, tədricən məcmu tələbi tənzimləyən bir alətə çevrilmişdir. Bu isə ilk növbədə, müasir cəmiyyətdə baş verən köklü siyasi-ictimai, iqtisadi-sosial, mənəvi-əxlaqi proseslərlə bağlıdır. Təsadüfi deyildir ki, XX əsrin ikinci yarısından başlayaraq dünyanın yüksək inkişaf etmiş dövlətlərində, o cümlədən ABŞ-da, inkişaf etməkdə olan ölkələrin əksəriyyətində, nəhayət son 20 ildə postsosialist və postsovet məkanında meydana çıxıb formalaşmış müstəqil dövlətlərdə yaranmış konkret vəziyyət, habelə iqtisadi siyasətin həyata keçirilməsilə bağlı, vergi sistemində dəfələrlə dəyişikliklər aparılmışdır. Vergilərlə bağlı problemlərin mövcudluğu həmişə siyasi xadimlərdən başlamış, tanınmış iqtisadçı və mütəxəssislərə qədər ciddi mübahisələrə səbəb olduğundan, bu sahədəki müxtəlif səpgili dəyişikliklər indi də davam edir. Ümumi mövqe bundan ibarətdir ki, tədricən müxtəlif təyinatlı vergilərin sayı məhdudlaşdırılmalı, onların dərəcələri aşağı salınmalı, vergi ödəyicilərinin dairəsi isə genişləndirilməlidir. Qeyd etmək zəruridir ki, dövlətin meydana çıxması ilə formalaşmağa başlamış vergilər, siyasi quruluşun vəzifələrini uğurla yerinə yetirmək məqsədilə qanunvericilik təməlində fiziki və hüquqi şəxslərdən məcburi qaydada tutulan vəsaitdir. ***Vergi qaydaları sadə, aydın, ədalətli olmalı,*** istehsalçıları və vətəndaşları əzməməli, onlara problemlər yaratmamalı, insanları fəaliyyətə həvəsləndirməlidir. Vergilərlə bağlı belə fikirlərin də söylənilməsi təsadüfi deyildir ki, «həyatda ölümdən və vergidən qaçmaq olmaz!» və «yumurtlayan toyuğu kəsməzlər!»

Deməli, vergi ödənişi zəruridir, lakin bu iş elə prinsiplər üzərində qurulmalı və həyata keçirilməlidir ki, insanlar bunu şüurlu vətəndaşlıq bocu kimi yerinə yetirsinlər.

Dünya təcrübəsində vegilər *dövlət (federal), yerli, (ştat), bələdiyyə vergilərinə ayrılır*. Vergi öz kəmiyyətinə (həddinə) görə sabit (möhkəm), mütənasib (proporsional), mütərəqqi (proqressiv), enən (reqressiv) ola bilər. Vergilər 2 növ altında qruplaşdırılır: a) birbaşa vergilər

və b) dolayı vergilər. Müxtəlif ölkələrdə ayrı-ayrı vergilərin dərəcələri (məbləği, miqdarı) fiziki və hüquqi şəxslərin gəlirlərinin bir neçə faizindən başlayaraq 50% arasında dəyişir. Məsələn gəlir (mənfəət) vergisinin ən yüksək həddi ABŞ-da, Rusiyada, Azərbaycanda 35%, İspaniyada 48%, İsraildə 50%, Almaniyada 53%, Fransada 54%, İsveçdə 55%-dir. Dünyanın ayrı-ayrı ölkələrinin ümumi daxili məhsulunda büdcə gəlirlərinin xüsusi çəkisi (payı) XXI əsrin əvvələrinə belə olmuşdur: Rusiya və Azərbaycanda 28-35%, ABŞ və İtaliyada 30-32%, Avstraliya və Cənubi Koreyada 28-32%, Almaniya və Kanadada 38%, İtialiya və İspaniyada 40-42%, Avstriya və Filippində 45-48%, İsveç, Norveç, Danimarka və Niderlandda 50-54%.

İstər dövlət büdcəsinin formalaşmasında, istər ölkənin milli sərvətində, istərsə də ölkənin ümumi daxili məhsulunda dövlətin tutduğu sanballı mövqe, onun fiskal siyasət vasitəsilə müasir cəmiyyət həyatında mühüm rol oynadığını və hələlik bu meylin dəyişmədiyini göstərir.

Dövlətin fiskal siyasəti ilə tənzimlənən və büdcədən ayrılan hökumət xərclərinə aşağıdakılar daxil edilir: hərbi, iqtisadi, sosal-mədəni, xarici siyasəti fəaliyyəti, dövlət aparatı və orqanlarının saxlanılması xərcləri. Fiskal siyasətin bütövlükdə cəmiyyətin ictimai qayğılarına cavab verən məqsədləri bunlardır:

**a)** iqtisadi tsiklin yaratdığı enib-qalxmaların təsir gücünün tənzimlənib «yumşaldılması»;
**b)** ölkənin inkişaf templərinin sabitləşdirilməsi;
**c)** əhalinin məşğulluğunun təmin olunması və işsizliyin aradan qaldırılması;
**ç)** qiymətlər üzərində nəzarət və inflyasiya prosesinin aşağı həddlərdə saxlanılması.

Fiskal siyasətin nəzəri əsasları C.M.Keyns tərəfindən işlənib-hazırlanmış və onun məktəbinin nümayəndələri tərəfindən sonralar daha da təkmilləşdirlimişdir. Onlar cəmiyyətdə məcmu tələblə məcmu təklifin qarşılıqlı reallaşmasında, dövlətin rolunun mühüm əhəmiyyətə malik olduğunu göstərmişlər. Öz fiskal siyasətləri ilə müxtəlif ölkələrin hökumətləri çalışırlar ki, milli iqtisadiyyatda gəlirlərlə vergilər arasında müəyyən bir əlaqələndirmə, yaxud tənzimləmə olsun, habelə bu proseslər dövlət səviyyəsində idarə edilsin. Fiskal siyasətin ölkə iqtisadiyyatının konkret tələb və imkanlarına əsaslanaraq həlli yollarının axtarılması bir tərəfdən büdcədə balanslaşdırma yaratmağa imkanlar açır, digər tərəfdən bu siyasət vasitəsilə makroiqtisadi səviyyədə balanslaşdılırmaya yönəldilmiş səyləri gücləndirir. Bu siyasət dövlət xərcləri ilə dövlət gəlirləri arasında iqtisadi inkişafın sabitliyini təmin etmək baxımından mühüm rol oynayır.

Dövlətin fiskal siyasətinin əsas vasitələri kimi qanunvericilik əsasında fəaliyyət göstərən vergi dərəcələri və gömrük tariflərinin dəyişdirilməsindən. onların sayının və konkret növlərinin genişləndirilib-məhdudlaşdırılmasından, yaranmış konkret vəziyyətdən asılı olaraq dövlətin müxtəlif təyinatlı xərclərinin istiqamətlərinin cəmiyyətin ümumi mənafe, habelə inkişafının daha mühüm problemlərinin həllinə yönəldilməsində istifadə olunur.

Fiskal siyasətin mahiyyəti və onun həyata keçirilməsi haqqında iqtisadi nəzəriyyədə müxtəlif fikirlər, fərqli mövqelər vardır. ***Keynsçi istiqamətinin tərəfdarları***, ölkənin iqtisadi inkişafını irəlilətmək üçün səmərəli tələb yaradılmasının zəruri olduğunu əsaslandırmağa çalışırlar. Bu yolda onlar məcmu tələbə və istehsalın real həcminin artmasına mane olan vergilərin tədricən ixtisar olunmasını irəli sürürlər. Onların fikrincə, ölkdə vergilərin artırılması son nəticə etibarilə şirkətlərin və əhalinin sərəncamında qalan gəlirlərin azalmasına, deməli, məcmu xərclərin, məhsul buraxılışının, məşğulluğun səviyyəsinin aşağı düşməsinə səbəb olur.

«Təklif iqtisadiyyatı» nəzəriyyəsi tərəfdarları isə ölkədə vergilərin azaldılması və onun dərəcələrinin aşağı salınmasna dair dövlətlərin fiskal siyasətinə başqa bir mövqedən yanaşaraq

göstərirlər ki, əksinə vergilərin enməsi xəttinin həyata keçirilməsi, məcmu təklifin artmasını təmin edən amil rolunu oynayır. Çünki ölkədə vergi yükünün azaldılması tədbirləri gəlirlərin artmasına səbəb olduğundan: a) əhlinin yığımının (əmanətlərinin) həcmini genişləndirir; b) biznes-sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçün əlverişli investisiya şəraiti yaratdığından, onların mənfəətini artırır. Nəticə etibarilə, vergilərin azaldılması meyli iqtisadiyyatın və milli gəlirin artmasını təmin edir. Beləliklə, istehsalın və gəlirlərin artması prosesi nəinki vergi ödənişlərini aşağı salır, əksinə vergi dərəcələrinin azalması meyli, bu işin normal təşkili sayəsində dövlət büdcəsinə əlavə vəsait gətirə biləcəkdir. Bu səbəb-nəticə xarakterli hadisə ABŞ iqtisadçısı Artur Lafferin tədqiqat və araşdırmaları nəticəsində müəyyən olunduğundan, «Laffer effekti» adlanır.

Dövlətin iqtisadi siyasətinin və həyata keçirdiyi tədbirlər sisteminin məntiqi nəticəsi kimi formalaşıb, onun tərkib hissəsi sayılan fiskal siyasət xətti, ölkə iqtisadiyyatında nisbi ümumi sabitlik, iqtisadi artım, işgüzar fəallıq yaratdığı kimi, eyni zamanda tamamilə başqa nəticələrə gətirib çıxara bilər. Müxtəlif ölkələrin, o cümlədən də istər yüksək inkişaf etmiş dövlətlərin, istrsə inkişaf etməkdə olan ölkələrin, nəhayət postsosialist-postsovet məkanında formalaşan və keçid dövrünü yaşamış yeni müstəqil dövlətlərin təsərrüfat həyatı təcrübəsi bunu təsdiq edir.

**21.2.** Bütün dövlətlər üçün səciyyəvi olan fiskal siyasəti vasitəsilə yaradılan pul və maddi fondlar ölkənin müvafiq hakimiyyət orqanlarının daxili-xarici vəzifələrini yerinə yetirməsinin mühüm şərtidir. Fiskal (büdcə-vergi) siyasəti dövlət xərclərinin və vergilərin dərəcələrinin dəyişdirilməsi yolu ilə ölkənin təsərrüfat həyatının tənzimlənməsi sistemidir. İqtisadi qeyri-sabitliyin, inkişaf templərinin davamlılığının, əhalinin məşğulluğunun təmin edilməsinin, inflyasiyanın nəzarətdə saxlanmasının tənzimlənməsi məqsədlərinə yönəldilən fiskal siyasətin: *diskret* və *avtomatik* kimi iki tipi vardır. Dövlətin mülahizəsinə və iqtisadi siyasətinə uyğun olaraq həyata keçirilən çevik, fəal, dəyişkən fiskal siyasət – diskret tip adlanır. Fiskal siyasətin avtomatik tipi isə passiv xarakter daşıyaraq, vergi dərəcələrinin sabitliyi şəraitində iqtisadiyyatda baş verən təbii yüksəliş-enmələrlə bağlıdır. Ona görə də fiskal siyasətinin bu tipi, eyni zamanda prosesin öz-özünü tənzimləməsi, əvvəlcədən müəyyənləşmiş, yaxud qeyri-diskret hal kimi xarakterizə olunur.

Fiskal siyasətin diskret və avtomatik tiplərinin səciyyəvi cəhətlərini aşağıda verilən sxemdən görmək olar:

a) ***Diskret fiskal siyasət***, ölkədə ümumi daxili məhsulun həcminin artıb-azalması, məşğulluğun səviyyəsinin optimallaşdırılması, qiymətlərin dəyişməsi və inflyasiyanın tənzimlənməsi məqsədilə *vergilərlə* *dövlət* xərcləri arasında manevr etmək, yaranmış vəziyyətdən səmərəli çıxış yolları tapmaq deməkdir. Diskret fiskal siyasət tipinin həyta keçirilməsi, qəbul olunmuş qərarların və görülmüş tədbirlərin reallaşdırılması müddətlərinin iqtisadiyyata təsiri; bu prosesin inzibati-aparat, habelə digər xərcləri; nəhayət vergi dərəcələrinin azaldılıb-artırılmasının cəmiyyətin müxtəlif təbəqələri, ayrı-ayrı üzvləri tərfindən birmənalı qəbul edilməməsi kimi problemlərə bağlıdır.

Eyni zamanda fiskal siyasətin diskret formasından hakimiyyət orqanları tərəfindən hazırlanmış xüsusi Dövlət Proqramlarının həyata keçirilməsində (məsələn, Çin Xalq Respublikasında), fiziki və hüquqi şəxsləri həvəsləndirmək məqsədilə onlara vergi ödənişlərində (məsələn, bir sıra Şərqi Avropa ölkələrində) müəyyən güzəştlər edilməsində istifadə olunmuşdur. Şübhəsiz, həmin tədbirdərin səmərəliliyi vaxt amili və ölkənini iqtisadiyyatında yaranmış konkret vəziyyətin özünəməxsus cəhətləri ilə əlaqədardır. Belə

proqram və tədbirlərin qeyri-sabit inkişaf meylləri ilə səciyyələnən iqtisadiyyatın təbii olaraq rastlaşdığı tənəzzül, böhran, inflyasiya, işsizlik dövrlərində reallaşdırılması əlavə çətinliklər yaradır.




Çevik bir xarakter daşıyan fiskal siyasətin diskret tipi, ölkədə işgüzar fəallığın aşağı olduğu müddətdə, dövlət vergi dərəcələrini azaltmaq istiqaməti faydalı ola bilər. Dövlət eyni zamanda özünün vəzifələrini normal surətdə həyata keçirmək üçün vergilərin dərəcələrini yüksəltmədən, xərclərini artırmaq zərurəti ilə rastlaşa bilər. Aydındır ki, vergi dərəcələrinin sabit qaldığı, yaxud aşağı salındığı halda dövlət xərclərini artması meyli, büdcədə müəyyən kəsir yaradacaqdır. Lakin yaranmış konkret vəziyyətdən asılı olaraq, dövlətin həmin yolu seçməsi bununla izah olunur ki, ölkənin təsərrüfat həyatının dinamik templərlə inkişafı, dövlət büdcəsinin balanslı (tarazlı) olmasından daha səmərəlidir. Deməli, dövlət və hakimiyyət orqanları ilk baxışda əlverişli görünməyən bu yoldan ümumi milli mənafe, habelə iqtisadiyyatın inkişafının perspektiv maraqlarını nəzərdə tutaraq, şüurlu surətdə həmin vasitələrdən istifadə etməyi məqsədəuyğun sayırlar.

«*Ekonomics*» kitabının müəllifləri göstərirlər ki, ölkədə iqtisadi tənəzzül dövründə hökumətin fiskal siyasəti *ekspansionist* xarakter daşımalı və aşağıdakı üç variantda həyata keçirilməlidir. ***Birincisi***, dövlət xərcləri çoxalmalıdır; ***ikincisi***, vergilərin ümumi həcmi azalmalıdır; ***üçüncüsü***, yüxarıda göstərilən hər iki variantdan istifadə olunmalıdır.

Dövlət xərclərinin çoxalması istiqaməti, son nəticə etibarilə məcmu tələbin və ölkənin ümumi daxili məhsulunun artmasını şərtləndirəcəkdir. Dövlətin vergiləri azaltması xətti isə ölkədə ümumi daxili məhsulun həcminin artması ilə yanaşı, eyni zamanda məşğulluq səviyyəsinin yüksəldilməsinə və işsizliyin azalmasına səbəb olacaqdır. Dövlət xərcələrinin çoxaldılması və vergilərin azaldılması variantlarından uyğunlaşdırılmış, yəni qarşılıqlı surətdə

istifadə olunması variantı da iqtisadiyyatın sabitləşdirilməsi prosesinə müsbət təsir göstərəcəkdir.

Ölkədə tələbin inflyasiyası baş verdikdə, yəni əmtəə-xidmətlərin məcmu (ümumi) qiymətlərinin bahalaşdığı bir şəraitdə təbiidir ki, dövlətin fiskal siyasəti də dəyişərək, bu prosesə məhdudlaşdırıcı və yaxud ləngidici xarakter verilməsi zəruriliyi yaradır. Fiskal siyasətin inflyasiya prosesinə qarşı tədbirləri, hökumət tərfindən aşağıdakı istiqamətlərdə aparıla bilər: a) dövlətin xərcləri azaldılır; b) vergi dərəcələri artırılır; c) xərclərin azaldılması və vergilərin artırılması xəttinin müxtəlif ünsürlərdən istifadə olunur. Konkret şəraitdən asılı olaraq bu variantların birindən, yaxud onların ayrı-ayrı ünsürlərindən kompleks surətdə istifadə olunması, ölkədə tələbin inflyasiyanı tənzimləməyə imkan yaradır.

**b) *Fiskal siyasətin avtomatik***, yaxud «qurulmuş sabitləşdiriciləri» öz-özünü tənzimləmə sistemi və prinsirləri üzrə fəaliyyət göstərir. Bu o deməkdir ki, ölkənin təsərrüfat həyatının müəyyən mərhələsində inkişafın qeyri-sabitliyi nəticəsində ***geriləmə prosesi*** baş verdikdə, ümumi daxili məhsulun həcminin azalması ilə bağlı, toplanan vergilərin də ümumi məbləği aşağıya düşür. Bütün vergilər ölkədəki işgüzar fəaliyyət səviyyəsindən bilavasitə, yaxud dolayı yollarla asılı olduğundan bu proses tamamilə təbiidir. Çünki, demək olar bütün vergilər, o cümlədən şəxsi gəlir vergisi ailələrin qazancından; əmək haqqı vergisi işçilərin və qulluqçuların aldıqları maaşdan; sahibkarlıq fəaliyyəti ilə məşğul olanların və korporasiyaların gəlir vergisi isə onların əldə etdiyi mənfəətdən asılıdır. İqtisadiyyatın obyektiv-subyektiv səbəblərlə bağlı rastlaşdığı bu proses, avtomatik surətdə ümumi vergi ödənişlərinin həcminə öz mənfi təsirini göstərir.

Lakin iqtisadi geriləmə dövründə mütərəqqi tarif dərəcələrinə əsaslanan vergi sistemində, vergi ödəyicilərinin xeyrinə olan dəyişikliklər, yəni azalan gəlirlərdən vergi ödənişlərinin aşağı düşməsi meyli, ev təsərrüfatları, şirkətlər üçün faydalı olur. Beləki, vergilərin daha aşağı dərəcələrlə ödənilməsi prosesi, müəyyən müddətdə məcmu tələbi stimullaşdıraraq, təsərrüfat həyatının səbatsızlığını nisbətən azaldır. Eyni zamanda iqtisadi geriləmə dövründə əhaliyə, onun aztəminatlı təbəqələrinə, işsizlərə transferlərin (müxtəlif ödənişlərin), yardımların, güzəştlərin edilməsi dövlət xərclərini artırsa da, lakin avtomatik surətdə məcmu tələbin kəskin aşağı düşməsinin qarşısını alır. Zəncirvari reaksiyanı xatırladan bu proseslər nəticəsində dövlət büdcəsində kəsir yaranır. Dövlət büdcəsində vergi dərəcələrinin dəyişməsilə bağlı baş verən prosesləri, həm onun həcminin azalmasını, həm də artmasını, yaxud *defisit* və *profisit* hallarını, aşağıda verilmiş qrafikdən görmək olar.

**Ölkədəki işgüzar fəallıqdan asılı olaraq dövlət büdcəsinin gəlir və xərcələrindəki dəyişikliklər**




**Q** – dövlət xərcləri, **T** – toplanmış vergilərin həcmi

Mütəxəssislərin hesablamaları

göstərir ki, son 100 ildə dünya ölkələrinin büdcə gəlirləri və xərcləri dinamik bir surətdə artsa da, lakin dövlət büdcələrinin gəlirlər və xərclər bölmələrinin müqayisəli təhlil nəticəsində, müəyyən illər istisna olmaqla, xərclərin daha üstün templərlə artması meyli güclənir.

Ölkənin ümumi daxili məhsulunun dinamik templərlə artması meyli, avtomatik surətdə vergilər vasitəsilə dövlət büdcəsinə ödənişlərin ümumi həcmini təbii olaraq genişləndirir. Vergi dərəcələrinin hətta dəyişməz qaldığı şəraitdə də ÜDM-in həcmi ilə fiziki və hüquqi şəxslərin vergi ödənişləri arasında düz mütənasiblik, yaxud asılılıq vardır. İqtisadi canlanma və yüksəliş dövlət büdcəsində işsizlərə verilən ödənişləri, habelə digər yardımları, güzəştləri azaltdığından, büdcədə xərclərə nisbətən artıq vəsait (profisit) yaranır. Belə vəziyyyətdə ilk növbədə əvvəlki illərdə dövlət büdcəsində yaranmış kəsirin ödənilməsi, daxili və xaraci borcların ödənilməsi həyata keçirilir.

İqtisadiyyatın sabitliyini təmin etmək üçün dövlət öz iqtisadi siyasət xəttində vergilərin artırılması, dövlət istiqrazları və səhmlərini dövriyyəyə buraxmaq kimi təcrübədə özünü doğrultmuş tədbirlər sistemindən də faydalana bilər.

Lakin qeyd etmək zəruridir ki, konkret şəraitdən asılı olaraq tətbiq olunan fiskal siyasətin diskret və qeyri-diskret (avtomatik) tipləri, iqtisadiyyatın qeyri-sabit, tsiklik xarakterindən irəli gələn qanunauyğun prosesləri ardan qaldıra bilməsə də, şübhəsiz onun yaratdığı problemlərin tənzimlənməsi, idarə olunmasına imkanlar yaradır.

**21.3.** Dünya ölkələrinin mürəkkəb və ziddiyyətli təsərrüfat həyatının dalğavari inkişaf meylləri göstərir ki, fiskal siyasətin nəzəriyyəsi bazasında hazırlanmış tədbirlər sistemi ilə onların təcrübədə reallaşdırılması arasında bir sıra çətinliklər meydana çıxır. Bu ilk növbədə ***vaxt, müddət amili; ölkədə siyasi vəziyyət; sırf daxili problemlər və beynəlxalq, xarici aspektlərlə*** izah olunur. Fiskal siyasətin həyata keçirilməsi gedişində hökumətin rastlaşa biləcəyi çətinlik və problemləri nəzərdən keçirək:

**a)** ***Vaxtla bağlı*** qarşıya çıxan problemlər ondan ibarətdir ki, iqtisadi inkişafın qeyri-sabitliyi axarnda onun dəyişkən tsiklləri ilə bağlı işsizliyin, inflyasiyanın, tələb-təklifin nə vaxt başlayacağını və sona çatacağını müəyyənləşdirmək, tam dəqiqliyi ilə söyləmək çətindir. Belə bir vəziyyətdə isə gözlənilən prosesləri tənzimləmək üçün qabaqlayıcı tədbirlər hazırlanmasının səmərəliliyi, vaxt amilinin qeyri-müəyyənliyi sayəsində xeyli aşağı düşmüş olur.

Bir sıra ölkələrdə hər ay toplanıb ümumiləşdirilən iş həftəsinin orta müddəti; işsizliyə görə müavinət almaq istyənlərin müraciətlərinin sayı; istehlak mallarına olan sifarişlərin artıb-azalması; investisiyaların və tikinti-mənzil inşasının həcmi; qiymətli kagızlar bazarında səhmlərin alqı-satqısında dəyişikliklər; pul təklifi və bankların faiz dərəcələrindəki enib – qalxmalar kimi göstəricilər vasitəsilə, ümumi daxili məhsulun (ÜDM) dinamikası haqqında müəyyən təsəvvür əldə etmək, şübhəsiz mümkündür.

Lakin iqtisadiyyatda fasiləsiz surətdə baş verən müxtəlif müsbət-mənfi nəticələri ola biləcək proseslərlə, bu hadisələrə qarşı əvvəlcədən hərtərəfli düşünülmüş tədbirlər sisteminin hazırlanıb həyata keçirilməsi arasındakı vaxt fərqi («qavrama yaxud dərk etmə ləngliyi, uyğunsuzluğu») reallığı meydana çıxır. Başqa sözlə, obyektiv həyati proseslərin subyektiv dərki nisbətən geri qalır. Eyni zamanda səmərəli iqtisadi-sosal nəticələrə nail olmaq üçün zəruri sayılan bir, yaxud bir neçə amilin deyil, həmin amillərin kompleksli şəkildə nəzərə alınması tələb olunur ki, bu da təsərrüfat təcrübəsində, praktikada olduqca çətindir. Həm də

bütün tədbirlərin görülə biləcəyi halda belə, onların təsir gücü mütləq mənada deyil, nisbi mənada fəaliyyət göstərəcəkdir.

Vaxtla bağlı «inzibati uyğunsuzluq» kimi xarakterizə olunan digər cəhət, fiskal tədbirlərin görürlməsi zəruriliyinin dərk edilməsi ilə həmin tədbirlərin qəbul olunmasına qədər ötən müddətdir. Məsələn, 2001-ci il sentyabr ayının 11-də ABŞ-da terror aktları baş verdikdən sonra, ölkə konqresində güzəştli iqtisadi həvəsləndirmə təbirləri haqqında qanun, yalnız yalnız 2002-ci ilin mart ayında qəbul olunmuşdur. Lakin daha çevik fəaliyyət göstərən ABŞ-ın Federal Ehtiyatlar Sistemi, həmin hadisələrdən bir həftə sonra bank faiz dərəcələrini aşağı salmağa başlamışdı. Başqa ölkələrin təsərrüfat həyatı təcrübəsində, xüsusilə keçid mərhələsini yaşamış olan dövlətlərdə fiskal siyasət sahəsində «inzibati uyğunsuzluq», yaxud vaxtında müvafiq tədbirlərin qəbul olunmasında ləngimə, gecikmə halları baş vermişdir.

Nəhayət, fiskal siyasətin vaxtla əlaqədar probleminin bir xüsusiyyəti də «əməliyyat uyğunsuzluğu» olub, qəbul olunmuş tədbirlərin həyata keçirilməsinin iqtisadiyyatda yaranmış *geriləmə,* *işsizlik* və *inflyasiyaya* proseslərinə hansı müddətdə səmərəli təsiri ilə bağlıdır. Aydındır ki, vergi dərəcələrini nisbətən qısa bir vaxtda dəyişib, onun nəticələrini görmək mümkündürsə, lakin dövlət xərclərinin ictimai işlərə, yollar salınmasına, körpülərin inşasına yönəldilmiş vəsaitinin qısa bir müddətdə səmərəli nəticələr verəcəyini gözləmək, şübhəsiz çətindir. Ona görə də dövlətin fiskal siyasəti onun xərclərinin dəyişdirilməsi üzərində deyil, vergi xərclərinin vəziyyətə uyğun olaraq çevikliyi istiqamətində qurulub həyata keçirilir.

**b)** Dövlətin fiskal tədbirlər sistemi ***siyasi və iqtisadi maraqların*** olduğu və çox zaman bir-biri ilə toqquşduğu şəraitdə hazırlanır, qəbul edilir, habelə həyata keçirilir. Bu halda cəmiyyətin ümumi maraqları ilə ayrı-ayrı qrupların və şəxslərin mənafeyi arasında ziddiyyətlər yarana bilir.

Ölkə iqtisadiyyatının yüksəlişi dövründə və xüsusilə parlament, habelə prezidnt seçkiləri zamanı müxtəlif partiyaları təmsil edən namizədlər, öz siyasi məqsədlərinə çatmaq uçun xeyli əsaslandırılmamış vədlər verir, vergilərin azaldılması zəruriliyindən danışır, hətta iqtisadi səmərəlilik baxımından əlverişli olmayan layihələr irəli sürürlər. Yenidən seçilmək istəyən siyasətçilər, ölkənin hərbi və iqtisadi təhlükəsizliyini yüksəltmək üçün büdcə xərclərinin xeyli artırılmasını, fermerlərə subsidiyaların (əvəzsiz yardımların) həcminin genişləndirilməsini, təhsilə, səhiyyəyə daha artıq maliyyə yardımı göstərilməsi tələbi ilə çıxışlar edirlər. Fiskal siyasət vasitələrindən sırf siyasi məqsədlər üçün faydalanmağa çalışanlar, ölkədə məcmu tələbin düşünülməmiş yüksəlişinə nail olmaqla, ümumiyyətlə iqtisadiyyatın qeyri-sabitliyinin xeyli dərinləşməsinə xidmət edirlər.

Cəmiyyət həyatında baş verən bu cür hadisələr iqtisadi ***işgüzarlığın siyasi tsiklləri*** adlanır və «düşünülmüş iqtisadiyyatın» xeyrinə olmayan bu səmərəsiz meyllər, dövlətin fiskal siyasət tədbirlərinin həyata keçirilməsinə mənfi təsir göstərir.

**c)** Müasir inteqrasiya və qloballaşma şəraitində, milli iqtisadiyyatların vahid dünya təsərrüfat sisteminin tərkib hissəsinə çevrildiyi nəzərə alınarsa, ölkələrin fiskal siyasətinə ***xarici amillərin***, o cümlədən də beynəlxalq iqtisadi-ticarət əlaqələrinin təsiri aydın olar.

Xarici iqtisadi-ticarət münasibətlərinin dinamik mənzərəsi, dünya bazarında yanacağın, ərzaq məhsullarının, qızılın qiymətinin artması meyli və bunun nəticəsində Planet miqyasında ümumi bahalaşma prosesinin davam etməsi, «açıq iqtisadiyyat» modelinin fəaliyyəti, dövlətin fiskal siyasəti üçün əlavə çətinliklər, qayğılar yaradır.

Əvvələr müsbət qiymətləndirlən xarici ticarət dövriyyəsində ixracın üstünlük təşkil etməsi ideyası, müasir mərhələdə ölkədə tələbin inflyasiyası prosesini yaradaraq, xaraci iqtisadi münasibətlərdə əlavə çətinliklərlə səciyyələnir.

***Xalis ixrac*** səmərəliliyi (xarici ticarət dövriyyəsində ümumi ixrac məbləğindən ümumi idxal məbləğini çıxdıqdan sonra qalan hissə), dövlətin fiskal siyasətinin uğurla həyata keçirilməsi yolunda müəyyən çətinliklər yaradaraq, onun faydalılığını aşağı sala bilir. Belə ki, milli valyutanın başqa ölkələrin valyutasına nisbətən məzənnəsinin yüksəldilməsi (bahalaşması), xalis ixrac məbləğinin azalmasına səbəb olur. Əksinə, milli valyutanın bahalaşmasından faydalanaraq, öz pulunu xarici valyutaya dəyişən ölkə əhalisi daha çox idxal (xarici) məhsullar almaq imkanı qazanacaqdır. Deməli, ölkənin xarici ticarət dövriyyəsində ixracın idxala nisbətən payının (xüsusi çəkisinin) azalması meyli, təbiidir ki, xalis ixrac xərclərini artırıcıq və dövlətin *ekspansionist* (genişləndirici) fiskal siyasətinin səmərəliliyini aşağı salacaqdır.

Dövlətin ekspansionist və məhdudlaşdırıcı fiskal siyasət xəttinin həyata keçirilməsi nəticəsində, xalis ixracın səmərəliliyinin dəyişkənliyini aşağıda verilmiş sxemdən görmək olar:

**Fiskal siyasət və xalis ixracın səmərəliliyi**

| Ekspansionist (genişləndirici) siyasət | Məhdudlaşdırıcı (ləngidici) fiskal siyasət |
|---|---|
| **Problem:** Zəif inkişaf, durğunluq | **Problem:** İnflyasiya |
| ↓ | ↓ |
| Ekspansionist fiskal siyasət | Məhdudlaşdırıcı fiskal siyasət |
| ↓ | ↓ |
| Ölkədə daha yüksək faiz dərəcələrinin tətbiqi | Ölkədə daha aşağı faiz dərəcələrinin tətbiqi |
| ↓ | ↓ |
| Xarici valyutaya olan tələbin artması | Xarici valyutaya olan tələbin azalması |
| ↓ | ↓ |
| Milli valyutanın məzənnəsinin yüksəlməsi | Milli valyutanın məzənnəsinin aşağı düşməsi |
| ↓ | ↓ |
| Xalis ixrac azalır (ekspansionist fiskal siyasəti qismən zəiflədən məcmu tələb azalır) | Xalis ixrac artır (məhdudlaşdırıcı fiskal siyasəti qismən zəiflədən məcmu tələb artır) |

Dövlətin fiskal siyasətinin səmərəliliyini yüksəltmək üçün beynəlxalq bazarda yaranmış konkret şəraitin tələblərini nəzərə alaraq, ölkənin xarici iqtisadi-ticarət əməliyyatlarının (münasibətlərinin) quruluşunda vaxtaşırı surətdə bu siyasətin həm genişləndirici (eksponsionist), həm də məhdudlaşdırıcı (ləngidici) variantlarından hərtərəfli düşünülərək faydalanmaq lazımdır.

# Mövzu 22. Pul və bank işi. Baknlar necə pul yaradır

**22.1** Pulun meydana çıxması, mahiyyəti və təkamülü
**22.2** Pulun vəzıifələri (funksiyaları)
**22.3** Pul tədavülü və onun tənzimlənməsi
**22.4** Bankların meydana çıxması, vəzifələri və fəaliyyəti
**22.5** Bank sistemi: Mərkəzi Bank və kommersiya bankları
**22.6** Bankların pul yaratmaq (artırmaq) prosesi

**22.1.** Qədim yunan müdrikləri və filosoflarından, hakim və şairlərdən başlamış Şekspir və Sabirə, nəhayət bizim günlərin iqtisadçıları və sadə peşə adamlarına qədər cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələrini həmişə düşündürmüşdür ki, ***pul nədir, necə meydana çıxmışdır, hansı inkişaf mərhələlərini keçmişdir, vəzifələri nədən ibarətdir, tədavül dairəsindəki pulun kütləsi necə müəyyən olunmalıdır., nəhayət pulu istehsal-xidmət dairəsinin hansı sahələrinə yönəltmək daha səmərəlidir?***

Maraqlıdır, gənclər arasında peşəkar mütəxəssislərin keçirdiyi sorğuda, «Siz pul haqqında nə düşünürsünüz» sualına bir-birindən xeyli fərqli cavablar verilmişdir. Onlar bildirmişlər: «pul bəşəriyyətin kəşfidir»; «pul torpaq, hava, su, oddan sonra həyat üçün zəruri sayılan 5-ci şərtdir»; «pulsuz da namusla və xoşbəxt yaşamaq olar»; «mən yoxsul, lakin xoşbəxt adam tanımıram»; «pul adamları dəyişir»; «pul iqtisadiyyat maşınının sürtgü yağıdır»; «pul hamıya lazımldır»; «pul möcüzələr yaratmağa qadirdir»; «pul insanlara pis təsir göstərir»; «pul kağızdır»; «indi sevgiyə görə yox, pula görə evlənirlər»; «pul nə xeyirdir, nə də şərdir»; «zəhmətlə qazanılan pul bir şeydir, lakin lotereyada udulan pul isə başqa şeydir»« «insana görəsən nə qədər pul lazımdır?»

Sorğu iştirakçılarından biri isə «mən pula nifrət edirəm» cavabını aydınlaşdıraraq göstərmişdir ki, əvvəllər mühəndis işləmiş valideynləri sonralar bizneslə məşğul olub pul qazanmağa aludə olduqlarından məni başqalarının himayəsinə vermişlər, bir növ unutmuşlar, «pulu tapmış, məni isə itirmişlər…». Deməli, həyatda pul və var-dövlət qazanmaq hərisliyi, təəssüf ki, ailəni, dost-tanışları, insan ləyaqətini itirməklə də nəticələnə bilir.

Pulun adi kağız parçası olması, yaxud fövqəltəbii səviyyədə fetişləşdirilərək dəyərləndirilməsi, cinayət və faciələr, zorakılıq və haqszlıqlar yaratması, onun həyatda hər şeyi həll etməsi haqqındakı yanlış təsəvvürlər pulun «ecazkar möcüzələrə malik» xüsusiyyətlərindən irəli gəlmir. Buna əsas səbəb cəmiyyətdə sivil iqtisadi prinsiplərə əməl edilməməsi, tam demokratik təsisatların formalaşmaması, qayda-qanunların pozulması, iqtisadi proseslərə ictimai nəzarətin zəifliyi, mətbuat və söz azadlığının məhdudlaşdırılması, insan hüquqları və haqlarının tapdalanması, ədalətli məhkəmə sisteminin olmaması, rüşvətxorluq və korrupsiya halları, hakimiyyətin və onun orqanlarının xidmət eiməli olduqları vətəndaşları qarşısında öz üzərlərinə götürdükləri səlahiyyəli vəzifələrini peşkarlıqla yerinə yetirməmələridir.

İqtisadi nəzəriyyə pulu, istehsal olunmuş əmtəələrin və göstərilmiş xidmətləin dəyərinin ifadə forması kimi səciyyələndirilir. İnsan əməyinin, zəkasının, onun yaratdığı texnika və texnologiyanın məhsulu olan saysız-hesabsız əmtəələr, xidmətlər pul vasitəsilə qiymətləndirilib hesablanır, mübadilə olunur, dəyişdirilir, əldən-ələ keçərək öz əvvəlki

sahibini dəyişir, nəhayət son nəticə etibarilə insanların müxtəlif təyinatlı tələbatlarını ödəyirlər.

Vaxtilə Aristotel yazmışdır ki, «pul insanlar arasında müəyyən razılaşma nəticəsidir». Belə fikirlər də olmuşdur ki, pul nemət-xidmətlərinin əvəzində alınan hər şeydir, yaxud pul xüsusi növ əmtəə olub, alqı-satqı münasibətlərində ümumi ekvivalent rolunu oynayır.

Pulun meydana çıxması çox qədim, formaları müxtəlif, istifadə üsulları dəyişəkən olsa da, o, həmişə olmamışdır. Pul cəmiyyətin inkişafının müəyyən pilləsində, ibtidai icma cəmiyyəti dağıldıqdan, natural (qapalı) təsərrüfat aradan qalxdıqdan, əmtəə istehsalı genişləndikdən, əmək bölgüsü dərinləşdikdən sonra zəruri ümumi ekvivalent (əvəzləyici) kimi meydana çıxmışdır. İlk dövrlərdə pulu müxtəlif ölkələrdə mal-qara, duz, xəz, parıldayan daş-qaş, sonralar isə dəmir, gümüş, taxta, mis, qızıl, nəhayət kağız pullar, müasir dövrdə isə xüsusi plastik kartlar əvəz etmişdir.

Düşünmək mümkündür ki, pul bəşəriyyətin tarixi inkişaf yolunun müəyyən mərhələsində qanunauyğun bir hadisə kimi meydana çıxıb öz rolunu oynadıqdan sonra, artıq cəmiyyətə lazım olmayan bir şey kimi sıradan çıxacaqdır. Məsələn, marksist iqtisadi mövqeyə görə, gələcək kommunizm cəmiyyətində insanların tələbatları hərtərəfli surətdə ödənildiyindən pula xüsusi bir ehtiyac qalmayacaqdır. Qiymətli metallardan gələcəkdə, hətta davamlı keyfiyyətlərinə görə kanalizasiya sistemlərində istifadə ediləcəyini irəli sürənlər də olmuşdu. N.Gəncəvinin «İskəndərnamə» əsərində təsvir edilmiş «firavan, nə qapısı, nə qıfılı olan» bir şəhərdə, pula ehtiyac duyulmadığı, qızıl-gümüşün adi bir şey kimi qiymətləndirilməsi qələmə alınmışdı:

*Qızıla, gümüşə aldanmaz heç kəs,*
*Bunlar bizim yerdə bir şeyə dəyməz.*

Lakin hələlik, bazar münasibətləri iqtisadi sisteminin hakim olduğu bir şəraitdə, insanların şüur və intelektual səviyyələrinin xeyli irəlilədiyinə baxmayaraq, pul və onu əvəz edən qızıl-gümüş, qiymətli daş-qaşlar cəmiyyətin ictimai-siyasi, iqtisadi-sosial, mənəvi-əxlaqi həyatının çox mühüm bir amili rolunu oynayır, eyni zamanda bir sıra vəzifələri (funksiyaları) həyata keçirir.

Pulun meydana çıxması və cəmiyyət arasında oynadığı rolla bağlı, *rasional* və *təkamül* nəzəriyyələri formalaşmışdır. Rasional nəzəriyyəyə görə, pul insanlar arasında əmtəə mübadiləsi prosesində müxtəlif təyinatlı dəyərlərin bir-birinə dəyişdirilməsi üçün ən əlverişli vasitədir. Təkamül nəzəriyyəyə görə isə pul insanlar arasında müəyyən razılaşmanın deyil, ictimai əmək bölgüsünün, mübadilə proseslərinin və əmtəə istehsalının tədricən inkişafının nəticəsidir. Təkamül konsepsiyasına görə, bütün əmtəələr içərisindən tədricən bir əmtəə seçilərək ayrılmış və ümumi ekvivalent kimi pul rolunu oynamış, onun vəzifələrini yerinə yetirməyə başlamışdır.

Tədavüldə 2 metal pulun – qızıl və gümüş pulların mübadilə vasitəsi kimi işlədilməsi *bimetalizm*, 1 metal pulun, qızıl yaxud gümüş pulun işlədilməsi isə *monometalizm* adlanır.

Ölkənin *pul sistemi* dedikdə, tarixən orada formalaşmış və dövlət tərəfindən qanunvericiliklə müəyyən edilmiş pul tədavülünün təşkili nəzərdə tutulur. Pul sisteminin ayrı-ayrı ünsürlərinin hələ xeyli əvvəl müxtəlif ölkələrdə meydana çıxmasına baxmayaraq, onun formalaşması XVI-XVII əsrlərdə baş vermişdir. Dünya dövlətlərində təşkil olunmuş pul sisteminin mühüm tərkib hissələri bunlardır: qiymət miqyası; pul vahidi; milli pul

vahidinin xarici valyutalara nisbəti; pul emissiyası, yaxud tədavülə pul nişanları buraxılması; pul tədavbülünün tənzimlənməsi ilə bağlı müvafiq dövlət orqanlarının – kredit təşkilatlarının yaradılması.

**22.2.** Pul meydana çıxdıqdan sonra ümumiyyətlə 5 vəzifəni (funksiyanı) yerinə yetirmişdir. Həmin vəzifələr aşağıdakılardır: a) pul dəyər ölçüsüdür; b) pul tədavül (mübadilə, hesablaşma) vasitəsidir; c) pul yığım (toplamaq, xəzinə yaratmaq) vasitəsidir; ç) pul tədiyə (kredit, borc) vasitəsidir; d) dünya pulu (beynəlxalq ödəniş) vasitəsidir.

Son iqtisadi ədəbiyyatlarda, müasir bazar münasibətləri sistemində pulun dəyər ölçüsü, tədavül vasitəsi, yığım vasitəsi kimi 3 vəzifəsinə, bəzən də dəyər ölçüsü və tədavül vasitəsi kimi 2 vəzifəsinə daha çox diqqət yetirilir. Pulun mahiyyəti, onun ölkənin təsərüffat həyatı və iqtisadi əlaqələr və münasibətlər sistemində yerinə yetirdiyi müxtəlif vəzifələr, aşağıdakı sxemdə verilmişdir.




İndi ayrı-ayrılıqda pulun cəmiyyətin iqtisadi münasibətlər sistemində yerinə yetirdiyi vəzifələri nəzərdən keçirib aydınlaşdıraq.

**a)** ***Pul dəyər ölçüsüdür.*** Bütün əmtəələrin-xidmətlərin hələ tədavül dairəsinə daxil olmadan və satışa çıxarılmamışdan əvvəl *dəyəri, qiyməti* müəyyənləşdirilməlidir. Müxtəlif əmtəə və xidmətlərin dəyəri, onların hazırlanmasına sərf olunmuş xərclər, bazardakı tələb-təklif, rəqabət mübarizəsi, əhalinin alıcılıq qabiliyyəti, habelə digər şərtlərlə bağlıdır. Eyni zamanda müxtəlif təyinatlı əmtəə-xidmətlərin dəyəri qarşılıqlı surətdə ortaq ölçülü olduğundan, təbiidir ki, onları kəmiyyət baxımından, miqdarca müqayisə etmək mümkündür.

Lakin unudulmamalıdır ki, bütün əmtəələrin və xidmətlərin öz təyinatlarına görə xeyli fərqli olmalarına baxmayaraq, onların müəyyən ortaq ölçülü meyarlarla müqayisə oluna bilməsinin səbəbi *pul deyil*, həmin əmtəə-xidmətlərin ümumiyyətlə ictimai əməyin məhsulu olmasıdır. Qeyd etmək zəruridir ki, pul özünün dəyər ölçüsü vəzifəsini ortada nağd pul, müəyyən məbləğ olmadan da *ideal surətdə*, yəni *xəyalən* də yerinə yetirə bilir. Əmtəə və xidmətlərin pulda ifadə olunmuş dəyəri onun konkret qiymətidir. Şübhəsiz, müxtəlif obyektiv-subyektiv səbəblərlə bağlı, bazarda tələb-təklif qanununa uyğun, həmin əmtəə və xidmətlərin qiymətinin onların dəyərindən fərqli, aşağı-yuxarı satılması, yaxud qiymətin dəyərdən kənarlaşması halları mümkündür. Əmtəə-xidmətlərin dəyərinin qiymət formasında pulla ifadəsi, təkcə keyfiyyət baxımdan deyil, eyni zamanda kəmiyyətcə də kokret müəyyənlik tələb edir. Bunun üçün cəmiyyət əvvəllər müxtəlif təyinatlı *əmtəələrin,*

*xidmətlərin, resursların* nisbi müqayisəli dəyərlərini *etalon* (nümunə) kimi qəbul etdiyi qızılla ölçmüşdü. Deməli, *milli pul vahidi*, müəyyən miqdarda qızıla bərabər sayılmış və bu dövlət tərəfindən rəsmiləşdirilmişdi.

Lakin 1976-cı ildən başlayaraq, beynəlxalq aləmdə qızılın 1 unsiyasının (31,1 qram) dövlətlərarası hesablaşmalarda rəsmi qiyməti və milli valyutaların məzənnəsinin qızıl ilə bağlılığı ləğv edildikdən sonra vəziyyət dəyişmişdir. Hazırda, milli valyutalar ölkədə əmtəə-xidmətlərin dəyər ölçüsü kimi *kortəbii* fəaliyyət göstərir, amma *qiymət miqyası* olaraq, dövlət tərəfindən şərti müəyyən edilir.

Pulun texniki vəzifəsi sayılan qiymət miqyası (hesablaşma vahidi), ölkə daxilində istehsal olunan məhsulların və göstərilən xidmətlərin dəyərinin müqayisəli şəkildə milli valyutada (dollarda, manatda, rubulda, avroda, funt sterlinqdə) ifadəsidir. Əmtəələrə, xidmətlərə, resurslara pul mövqeyindən yanaşılması, istər satıcılara, istərsə də alıcılara müqayisələr aparıb, səmərəli və optimal qərarlar qəbul etməyə imkanlar açır.

**b) *Pul tədavül (mübadilə) vasitəsidir*.** Pulun tədavül vasitəsi vəzifəsi, cəmiyyət miqyasında çox saylı satıcılarla alıcılar arasında sövdələşmənin baş tutmasını təmin edir, hər iki tərəfə rahatlıq yaradır və onların vaxtına (vaxt da kapitaldır) qənaət prinsipini şərtləndirir.

Bütün alqı-satqı proseslərində pul tədavül, yaxud mübadilə vasitəsi vəzifəsini, özünün dəyər ölçüsü vəzifəsini yerinə yetirərkən *ideal,* yaxud *xəyali şəkildə* olduğu kimi deyil, real iştirakı ilə, yəni *nağd pulla,* çeklə, qiymətli kağızlarla, səhmlərlə ödəməklə həyata keçirir.

Tədavül prosesində müxtəlif formalarda iştirak edən pul, konkret alıcının əlindən konkret satıcının əlinə keçməli, yaxud onun hesabına köçürülüb ödənilməli və nəticədə satıcı pula, alıcı isə əmtəəyə sahib olmalıdır. Bu proses – Ə (əmtəə) – P (pul) – Ə (əmtəə) formulu üzrə cəmiyyət miqyasında tədavül dairəsində fasiləsiz davam etdiyindən, alıcılarla satıcılar həmişə öz yer və rollarını dəyişərək, sanki vahid bir tamaşanın, yaxud bazar münasibətləri iqtisadi sisteminin iştirakçılarına çevrilirlər. Çünki pul vasitəsilə müxtəlif istehsalçılar özlərinə lazım olan iqtisadi resursları alır, bunları satanlar isə özlərinin istehsal-xidmət təyinatlı, habelə şəxsi, ailəvi, ictimai maddi-mənəvi ehtiyaclarını təmin edirlər.

**c) *Pul yığım (xəzinə) vasitəsidir*.** Cəmiyyətdə tədricən əmtəə-pul münasibətlərinin inkişafı prosesi, xüsusilə bazar münasibətləri iqtisadi sisteminin bərqərar olması mühitində məhsulların pula və pulun məhsullara çevrilməsi gedişi, *pulun yığım rolunu, xəzinə yaratmaq vəzifəsini* irəli sürür. Bu halda pul müəyyən müddətə tədavül dairəsindən çıxarılaraq, dəfinə kimi toplanıb yığım vasitəsinə çevrilir. Xəzinə kimi toplanmış pul formasında olan yığım istifadəsiz qaldıqda, inflyasiya nəticəsində onun öz əvvəlki alıcılıq qabilliyyətini itirməsi, həmin məbləğin dəyərinin azalması təhlükəsi vardır.

Yığımı şərtləndirən səbəblərdən biri də insanların, fiziki və hüquqi şəxslərin bu yoldan istifadə etməklə, malik olduqları *pulun alıcılıq qabiliyyətini indiki zamandan gələcəyə köçürmək arzusudur.* Bazar münasibətləri şəraitində, obyektiv-subyektiv amillərlə əlaqədar, istehsal və tədavül prosesləri zəiflədiyindən, habelə qənaət rejimi ilə bağlı pul ehtiyatı yarana bilir. Baş verə biləcək müxtəlif gözlənilməz təsadüflərdən qorunmaq üçün də, bazar subyektlərinin müəyyən məbləğdə pul ehtiyatına, yığıma malik olması, təbii hal kimi qəbul olunmalıdır.

Əvvəllər pul yığım və xəzinə formasında ayrı-ayrı əllərdə toplanır, istifadəsiz qalır, gələcək üçün saxlanılır, yaxud borc (kredit) kimi başqalarına təklif olunurdusa, sonralar bu mühüm işlə müxtəlif ölkələrin geniş banklar şəbəkəsi məşğul olur.

**ç)** ***Pul tədiyə (kredit) vasitəsidir.*** Tarixən cəmiyyətdə əmtəə istehsalı artdıqca, göstərilən xidmətlərin dairəsi genişləndikcə, daxili-xarici iqtisadi əlaqələr sistemi inkişaf etdikcə, tədricən həmin məhsul-xidmətlərin nağd pulla deyil, müəyyən şərtlərlə və müddətə kreditə (nisyə, möhlətə) satışına zərurət yaranır. Müasir bazar münasibətləri şəraitində müxtəlif maliyyə qurumları, banklar, kredit təçkilatları, fiziki və hüquqi şəxslər, hətta dövlətlər arasında *borc veren (kreditor),* habelə *borc alan (borclu)* problemi adi, gündəlik bir iqtisadi münasibətdir. Mütəxəsislərin hesablamalarına görə, hər gün dünyada müxtəlif səviyyələrdə milyardlarla məbləğdə borc-kredit əməliyyatları həyata keçirilir. ABŞ-da belə bir deyimin geniş yayılması da təsadüfü sayıla bilməz ki, «ölkə və onun əhalisi kreditə – borca yaşayır». Müəyyən istisnalarla, bu fikri müasir dünyanın istehsal-xidmət dairələrinin təsərrüfatşılıq fəaliyyətinə və planetin əhalisinin həyat-yaşayış səviyyəsi tərzinə aid etmək olar.

Əmtəə-xidmətlərin kreditə satışı zamanı pul öz tədavül vasitəsi rolunu, dəyər ölçüsü kimi *ideal* şəkildə, *xəyalən* yerinə yetirir. Lakin satılmış məhsulların, göstərilmiş xidməylərin *ödəniş vaxtı* çatdıqda isə pul alıcıdan satıcıya keçərək, öz həqiqi hesablaşma rolunu oynayır. Pulun bu vəzifəsi, cəmiyyətdə kredit münasibətlərinin inkişafına geniş meydan açmışdır.

**d)** Pulun dünya rolu vəzifəsi dedikdə, onun yalnız ölkə daxilində deyil, beynəlıxalq aləmdə və xarici dövlətlərlə iqtisadi –ticarət əlaqələrində iştirakı nəzərdə tutulur. Müxtəlif ölkələrin milli valyutaları xarici bazarlardakı alqı-satqı münasibətlərində öz «*milli libasını, geyimini*», yəni məxsus olduğu dövlətin pul vahidi nişanəsi olmasını bir tərəfə ataraq, qızıl və başqa valyutalara müəyyən nisbətdə iştirak edir, yaxud dəyişdirilir.

Uzun müddət ərzində dünya bazarında pulun dünya rolu vəzifəsini *qızıl* yerinə yetirmişdir. Lakin beynəlxalq miqyasda istehsalın müxtəlif sahələrinin və xidmət dairəsinin əvvəllərə nisbətən surətli inkişafı, ölkələr arasındakı xarici ticarət dövriyyəsi həcminin durmadan genişlənməsi, qızılın məhdud miqdarı, bank əməliyyatlarının və köçürmələrinin çevikliyi, habelə rahatlığı, təhlükəsizliyi qızılın dünya pulu vəzifəsini yerinə yetirməsində ciddi problemlər yaratdı.

Xüsusilə 1929-1933-cü illəri əhatə etmiş *dünya iqtisadi böhranından sonra*, beynəlxalq iqtisadi ticarət əlaqələrində, tədavül dairəsində hesablaşmalarda qızılla yanaşı, dollar və funt sterliq kimi kağız pullardan istifadə olunması təcrübəsi özünü doğrultmadığından, XX əsrin 70-ci illərindən etibarən ***qızıl rəsmi surətdə dünya pulu rolunu oynamır***. Müasir dünyada 40 min tondan artıq qızıl müxtəlif ölkələrdə dövlət ehtiyyatı kimi saxlanılır və adi əmtəə kimi onun qiyməti, bazarda yaranan tələb-təklif qaunun əsasında formalaşır.

**22.3.** Pul tədavülü iqtisadiyyatın «qan damarları», yaxud «fırlanan çarxın sürtgü yağı» kimi vəzifəsini normal yerinə yetirdikdə, ölkənin təsərrüfat həyatının müxtəlif sahələrinin və bütövlükdə cəmiyyətin hərtərəfli inkişafı üçün daha əlverişli imkanlar yaranır.

Milli iqtisadiyyatda fasiləsiz surətdə davam edən *nağd* və *qeyri-nağd hesablaşmalarla* bağlı tədavül üçün zəruri sayılan *pul kütləsi (miqdarı)*, onun ayrı-ayrı

ümumiləşdirilmiş *aqreqatlarının* (M-0, M-1, M-2, M-3, M-4 (L)) müəyyənləşdirilməsi tələb olunur. Eyni zamanda iqtisadi nəzəriyyədə pul bazarı anlayışı vardır. Bu iqtisadi anlayışların izahı və qarşılıqlı əlaqəsi, ölkədə pulun hərəkəti, onun kütləsi, tədavülünün tənzimlənməsi proseslərini aydınlaşdırır.

***Pul bazarı*** dedikdə, ölkədə pula olan tələb və təklif əsasında bank faiz dərəcəsinin səviyyəsi başa düşülür. Başqa sözlə, bankların bazar konyukturası şəraitində dəyişkən faiz dərəcələri, *pulun «qiymətidir»*. İqtisadi yüksəliş mərhələsində bank faiz dərəcəsi artmağa doğru meyl etdiyi halda, əksinə iqtisadiyyatın geriləməsi və durğunluğu mərhələsində aşağı düşməyə başlayır. Bu mənada, sanki milli iqtisadiyyatın fəallıq və geriləməsinin barometri rolunu oynayan bank faiz dərəcələri, ölkənin dinamik təsərrüfat həyatında baş verən dəyişiklikləri özündə əks etdirir. Belə bir cəhət də maraqlıdır ki, doğrudur pul bazarlarda başqa əmtəələr kimi «satılıb alınmır». Lakin müxtəlif sövdələşmələr və razılaşmalar, habelə işgüzar münasibətlər prosesində dəyişkən bank faiz dərəcələri, hökmən nəzərə alınır.

Pul tədavülünün tənzimlənməsi prosesində mühüm rol oynayan ümumiləşdirilmiş anlayışlara gəldikdə isə qeyd etmək lazımdır ki:

**M-0** ___ dövriyyədə olan nağd kağız və metal pulların bankda deyil, əhalidə yaxud əllərdə olan məbləğidir.

**M-1** ___ tədavüldə olan nağd kağız və metal pullar, habelə çeklər vasitəsilə hər vaxt tələb edilə bilən əmanətlər –depozitlərdir.

**M-2** ___ M-1 + çeksiz əmanətlər + az məbləğdə təcili (müddətsiz) əmanətlər (depozitlər) + pul bazarının qarşılıqlı (əvəzləyici) fondlardan ibarətdir.

**M-3** ___ M-2 + iri məbləğdə, adətən 100 mindən yuxarı məbləğdə olan təcili (müddətsiz) əmanətlərdən (depozitlərdən) ibarətdir.

**M-4 (L)** ___ ölkənin bütün pul kütləsi, yəni M-3 + banklarda saxlanılan qeyri-pul vəsaitləridir ki, hər vaxt pula çevrilə yaxud likvid oluna bilər. Asanlıqla pula çevrilə bilən şeylər arsında *dövlətin qiymətli kağızları, qızıl ehtiyatı, qiymətli sənət əsərləri, əntiq əşyalar* mühüm yer tutur.

Müxtəlif ölkələrin pul-kredit siyasətində milli iqtisadiyyatda pul kütləsinin həcmini (miqdarını) müəyyənləşdirmək üçün, məsələn ABŞ-da 4, Yaponiya və Almaniyada 3, İngiltərə və Fransada 2, Azərbaycan Respublikasında isə bir neçə aqreqatdan, yəni ümumiləşdirilmiş pul göstəricilərindən istifadə olunur.

Pul tədavülü ölkədə əmtələrin alqı-satqısı və xidmətlər göstərilməsilə bilavasitə bağlı olduğundan təbiidir ki, normal dövriyyə üçün lazım olan pul kütləsinin konkret həcminin müəyyənləşdirilməsi qarşıya çıxır. Ona görə də bu məsələ iqtisadçı və mütəxəsislərin nəzər-diqqətini həmişə özünə cəlb etmişdir.

Çünki ölkənin pul sisteminin və onun tədavül dairəsinin *sabitliyini*, *çevikliyini, etibarlığını,* nəhayət *kəmiyyət müəyyənliyini* təmin etmədən iqtisadiyyatın hərtərəfli, habelə tarazlı inkşafına nail olmaq çətindir.

Uzun illər boyu klassik iqtisadi nəzəriyyə nümayəndələri, tədavül üçün zəruri olan pulun miqdarını (M), 3 amillə – *əmtəələrin ümumi kütləsi, onun ümumi dəyəri (qiyməti), pulun tədavül dairəsində dövretmə sürəti* ilə qarşılıqlı əlaqədə müəyyənləşdirməyi əsaslandırmışlar.

Onların fikrincə, tədavül üçün lazım olan pulun kütləsi (M), əmtəə qiymətləri cəminin (ƏQ), eyni adlı pul vahidlərinin (manat, dollar, funt sterlinq) dövriyyə sürətinə (DS) olan nisbətinə bərabərdir. Deməli,

$$M = \frac{ƏQ}{DS}$$

Klassik iqtisadi nəzəriyyədə pul tədavülü qanunu adlandırılmış bu formulada tədavül dairəsindəki kredit (borc) əməliyyatları, qarşılıqlı ödənişlər və xarici ticarət əlaqələri nəzərə alınmamışdır.

Sonralar pul kütləsinin miqdar nəzəriyyəsinə, onun tədavül dairəsindəki hərəkət sürətinə dair A.Marşall, C.Keyns və başqaları tərəfindən irəli sürülmüş yeni yanaşmalar, ABŞ iqtisadçısı İrvinq Fişerin (1867-1947) «Pulun alıcılq qabiliyyəti»kitabında belə bir formulada verilmişdir:

$$MV=PQ$$

Burada M-pul kütləsi; V-pulun dövriyyə sürəti; P-əmtəə və xidmətlərin qiyməti; Q-əmtəə və xidmətlərin kəmiyyət göstəricisi olduğundan, deməli onların hər biri ayrı-ayrılıqda belə tapıla bilər:

$$M = \frac{PQ}{V} \qquad V = \frac{PQ}{M} \qquad P = \frac{MV}{Q} \qquad Q = \frac{MV}{P}$$

Elmi-nəzəri cəhətdən neoklassik istiqamətin mövqeyini əks etdirən pulun bu miqdar nəzəriyyəsi, «mübadilə bərabərliyi, yaxud tənliyi» müəyyən qeyd-şərtlərlə bütün dünyada qəbul olunur. Həmin formullarda əmtəə-xidmətlərin həcminin və qiymətlərin artması ilə dövriyyədəki pul kütləsinin sürəti arasında nisbətlərin pozulmasının inflyasiya üçün şərait yaratması ideyası, şübhəsiz aktual əhəmiyyətə malikdir.

**22.4.** ***Banklar*** – pul vəsaitlərinin toplanması, fiziki və hüquqi şəxslərə qısamüddətli yaxud uzun müddətli kreditlər verilməsi, müxtəlif təyinatlı hesablaşmaların həyata keçirilməsi, tədavül dairəsi üçün pul vahidlərinin emissiyası (buraxılması, kəsilməsi), qiymətli kağızların (dövlət istiqrazlarının, səhmlərin, veksellərin) dövriyyəyə daxil edilməsi, habelə digər bir sıra vəzifələri yerinə yetirən xüsusi iqtisadi təşkilatdır.

Müasir banklar maliyyə vasitəçiləri olub, əmanətçilərlə (borc verənlərlə) borc alanlar arasında əlaqələndirici rolunu oynayırlar. Öz xidmətləri əvəzində isə banklar müəyyən məbləğdə haqq (faiz) alırlar. Başqa sözlə bank elə bir təşkilat, institut yaxud şirkətdir ki, o ***pul alıb-satmaqla məşğul olur və onun əmtəəsi puldur.*** Həmin pul əmtəəsinin qiyməti isə bankın tələb-təklif prinsipi əsasında müəyyənləşdirdiyi ***borc faiz dərəcəsi*** olacaqdır.

***Mülkiyyət formasına*** görə banklar, – xüsusi, səhmdar, kooperativ, bələdiyyə, qarışıq, dövlət, dövlətlərarası banklar kimi təşkil olunub fəaliyyət göstərə bilirlər. Həyata keçirdikləri əməliyyatların xarakterinə görə onlar universal (emissiya) və ixtisaslaşdırılmış (kommersiya) banklarına; vəsaitlərin xarakterinə və verilən kreditlərin müddətinə görə fərqlənən banklara bölünürlər.

Bazar münasibətləri şəraitində mühüm əhəmiyyət kəsb edərək, onun tərkib hissəsinə çevrilən və bəzən ölkənin təsərrüfat həyatının «əsab sistemi» adlandırılan bankların fəaliyyətinin əsas məqsədi, şübhəsiz, *mənfəət əldə etmək*, *qazanmaqdır*. Bu mənada bankların formaları, xidmət üsulları dəyişib təkmilləşsə də, lakin məfəət əldə etmək məqsədi dəyişməz qalmışdır.

Hələ eramızdan əvvəlki dövrlərdə qədim Babilistanda, Roma imperiyasında, Yunanstanda müəyyən *əmanət*, yaxud *girov* qəbul edərək, bunun əvəzində *borc pul* verən xüsusi adamlar və qruplar fəaliyyət göstərmişlər.

Qiymətli şeylərin və zinyət əşyalarının girov qoyulması şərtilə müddətə, habelə şərtlərlə borc pul verən sələmçiləri o zaman «*qızıl əl ustaları*» adlandırırdılar. Bu sələmçilərin qəbul etdikləri girovun dəyərinə uyğun imzaladıqları, möhürlədikləri xüsusi işarələrlə təsdiqlədikləri sənədlər, yaxud şifahi tapşırıqlar, bir növ borc qəbzi (borc təəhhüdü, vekseli) rolunu oynayaraq, onun sahibinə xidmət göstərmişdi.

Bu sadə və bəsit, eyni zamanda son dərəcə riskli, lakin qarşılıqlı inam və birgə mənfəət əldə etmək marağı üzərində qurulmuş əməkdaşlıq münasibətləri, XVI əsrə qədər dünya miqyasında nəqliyyat vasitələrinin zəif inkşaf etdiyi, habelə məhdudluğu şəraitində olduqca müsbət bir rol oynamış, əmtəə-pul münasibətlərinin genişləndirilməsi prosesinə təkan vermişdir.

Maliyyə-kredit institutu (təşkilatı) kimi ilk bank 1407-ci ildə İtalyanın iri ticarət və liman şəhəri Genuya şəhərində (Banka di San Corca) yaradılmışdır. Dünyanın müxtəlif ölkələrində təsərrüfat həyatının inkşafı və ticarət əlaqələrinin genişlənməsi ilə əlaqədar normal bank sisteminin formalaşıb fəaliyyətə başlaması XVII əsrə təsadüf edir. Azərbaycanda ümumi iqtisadi dirçəliş və xüsusilə neft sənayesi, habelə onunla bağlı digər təsərrüfat sahələrinin sürətli inkşafı sayəsində ilk banklar, XIX əsrin ikinci yarısında təşkil olunmağa başlamışdır. Azərbaycanda ilk bank Kapital Bank sayılır (1874).

Dünyada ilk Mərkəzi Bank 1668-ci ildə İsveçdə fəaliyyətə başlayan Riqs bank sayılır. Sonralar ölkənin mərkəzi bankı İngiltərədə 1694-cü ildə, Rusiyada 1769-cu ildə, İspaniyada 1856-cı ildə, Fransada 1880-cı ildə, İtaliyada 1893-cü ildə, ABŞ-da 1913-cü ildə (Federal Ehtiyatlar Sistemi adlanır) yaradılmışdır. Hazırda bütün dünyada bank sisteminin geniş əhatəli şəbəkəsi yaradılaraq, fasiləsiz surətdə və ən müasir texniki vasitələrdən istifadə etməklə, müxtəlif təyinatlı əməliyyatları yerinə yetirir, fiziki və hüquqi şəxslər kimi öz müştərilərinə xidmət göstərirlər.

Bankların mahiyyəti və ölkənin təsərrüfat həyatındakı rolu, aşağıdakı vəzifələrdə öz dolğun əksini tapır:

***birincisi,*** banklar ölkədə yaranmış *sərbəst pul vəsaitlərini toplayır* və həmin kapitalın istehsal-xidmət dairəsinin müxtəlif sahələrinə yönəldilməsi işində vasitəçilik edir, yaxud bilavasitə bu fəaliyyətlə məşğul olurlar; ***ikincisi,*** banklar bütövlükdə ölkənin maliyyə resuslarının, pul tədavülünün, dövriyyəsinin tənzimlənib həyata keçirilməsini nizamlayırlar; ***üçüncüsü,*** banklar müxtəlif təsərrüfat subyektləri (iştirakçıları) arasında vasitəçi rolunu yerinə yetirərək, borc verənlərlə borc alanları etibarlı sürətdə bir-biri ilə əlaqələndirirlər; ***dördüncüsü,*** banklar nəzarət vəzifəsini həyata keçirərək, kredit (borc) kimi götürülmüş pul vəsaitinin dəqiq və öz təyinatına görə düzgün yönəldilib sərf olunmasını izləyir, başqa sözlə «inanıram, lakin yoxlayıram» prinsipi əsasında fəaliyyət göstərirlər.

Bankların *aktiv* (vəsaitlərin yerləşdirilməsi, verilməsi) və *passiv* (vəsaitlərin cəlb oluması) əməliyyatlar istiqamətində yerinə yetirdiyi vəzifələrin kompleksli şəkildə reallaşdırılması, canlı orqanizmi xatırladan dəyişkən iqtisadi inkşafın irəli sürdüyü yeni tələblərə uyğun öz işini təkminləşdirməsi prosesi, bütövlükdə qloballaşan dünyanın xüsusilə də bazar münasibətləri iqtisadi sisteminin formalaşdığı dövlətlərin, o cümlədən də

Azərbaycan Respublikasının çoxsahəli təsərrüfat həyatının dinamik yüksəlişini təmin edən mühüm amillərdən biridir.

**22.5** Hər hansı bir ölkənin *bank sistemi və onun şəbəkəsinin fəaliyyəti*, ümumi iqtisadi quruluşun tərkib hissəsi kimi qiymətləndirilməlidir. Bu mənada bankların təşkili, fəaliyyətləri, nisbi müstəqilliyi, apardıqları aktiv-passiv əməliyyatların həcmi, etibarlılıq-nüfuz səviyyəsi ölkənin istehsal-xidmət dairəsi sahələrinin inkşaf səviyyəsindən asılıdır.

Eyni zamanda ölkənin bazar münasibətləri iqtisadi sisteminin tələb-təklif, qiymət, rəqabət, şəxsi təşəbbüskarlıq və səmərəli işgüzarlıq prinsipləri təməlində normal inkşafının təmin edilməsində, bankların çevik fəaliyyəti zəruridir.

İqtisadi nəzəriyyədə *bank sistemi* dedikdə, ölkədəki bankların, kredit təşkilatlarının və digər bu sahə ilə bağlı qurumların fəaliyyəti, onların qarşılıqlı əlaqələri, habelə bütövlükdə münasibətləri kompleksli başa düşülür. Bank sistemi, pul vəsaitlərinin mərkəzləşdirilmiş surətdə toplanmasını və borc kapitalına çevrilərək, səmərəli yerləşdirilməsi prosesini tənzimləyir.

*Bank sistemi* uzun müddət 3 pilləli (səviyyəli):

**a)** Mərkəzi Bank (Milli Bank); **b)** kommersiya bankları; **c)** ixtisaslaşdırılmış maliyyə-kredit təşkilatları (investisiya bankları, əmanət bankları, sığorta şirkətləri, kredit-maliyyə institutları) kimi fəaliyyət göstərirmişdir.

Bazar münasibətləri iqtisadiyyatı şəraitində müasir dünya ölkələrin əksəriyyətində, o cümlədən də Azərbaycan Respublikasında 2 pilləli bank sistemi – Mərkəzi Bank və kommersiya bankları fəaliyyət göstərir.

Müasir bank sisteminin ilk pilləsini təşkil edən Mərkəzi Bank dövlətə məxsus olsa da, nisbi müstəqilliyə malikdir. Bu bank, ölkə iqtisadiyyatının pul-kredit sisteminin *makroiqtisadi səviyyədə* tənzimlənməsinin başlıca vasitəsidir. O, milli iqtisadiyyatın bütün bank sistemi şəbəkəsinin fəaliyyətinin əlaqəsini həyata keçirir. Bank sisteminin əsasını təşkil edən **Mərkəzi Bank (Milli Bank) aşağıdakı vəzifələri yerinə yetirir:**

- milli pul vahidlərinin emissiyasını həyata keçirir, onların tədavülə buraxılması yaxud tədavüldən göturulməsini təşkil etməklə, ölkədə ümumi pul kütləsinin həcmini tənzimləyir.
- ölkənin maliyyə-kredit təşkilatları və digər banklarının fəaliyyəti, onların maliyyə qanunlarına əməl etmələri üzərində nəzarəti həyata keçirir;
- kommersiya banklarına müəyyən faizlə kredit (borc) verir; dövlət qiymətli kağızlarını buraxır, onların ödənilməsini təşkil edir, xarici ölkələrlə maliyyə əməliyyatları aparır;
- dövlət orqanlarının hesablaşmalarını aparır, büdcənin kassa (xəzinadarlıq) icraçısı rolunu yerinə yetirir.
- dövlətin qızıl-valyuta ehtiyatlarını toplayıb saxlayır, beynəlxalq maliyyə əməliyyatlarını yerinə yetirir, ölkədə valyuta tənzimlənməsini həyata keçirir.

İki pilləli bank sisteminin mövcud olduğu olkələrdə Mərkəzi Bankların yerinə yetirdikləri vəzifələrin oxşarlığına baxmayaraq, onların bir sıra fərqli cəhətləri vardir. Məsələn, sərt bank yoxlama və kredit nəzarəti sistemi ilə seçilən Fransada Mərkəzi Bankın və Fransa Bankının başında Maliyyə Nazirliyi durur. Ölkədə pul emissiyası Fransa Bankının inhisarında olsa da, lakin dövlət bankı kimi onun vəzifələri məhduddur. Çünki ölkənin bank əməliyyatlarının əksəriyyəti Fransa Xəzinədarlığı tərəfindən yerinə yetirilir.

Almaniya, Rusiya, İngiltərə, Azərtbaycan və başqa ölkələrdə, onların mərkəzi bankları dövlət mülkiyyətindədir. Avstriya, Yaponiya kimi ölkələrdə Mərkəzi Bankın kapitalının 50-55%-i dövlətə məxsusdur. İsveşrənin Mərkəzi Bankı səhmdar cəmiyyəti formasında təşkil olunub fəaliyyət göstərsə də, lakin bu qrumların işinə dövlət nəzarəti həyata keçirilir.

Birləşmiş Ştatlarda XIX-XX əsrin əvvəllərində, xüsusilə 1907-ci ildə baş vermiş maliyyə-bank sistemindəki ciddi sarsıntılar, müflisləşmə halları, iqtisadi durğunluqdan sonra 1913-cü ildə Federal Ehtiyatlar Sistemi haqqında Qanun qəbul olunmuş və 1914-cü ildən fəaliyyətə başlamışdır. Ölkənin Federal Ehtiyatlar Sistemi (FES) özəl bir qurum olub, kapitalı xüsusi bankların hesabına formalaşmışdır. Onun vəzifələrinə – ***ölkədə inflyasiyanın səviyyəsini stabil aşağı həddə saxlamaq; ÜDM-un dinamik artımını təmin etmək; işsizliyi azaltmaq; maliyyə bazarının işgüzar və tarazlı fəaliyyətinə səmərəli şərait yaratmaq daxildır***.

Federal Ehtiyatlar Sisteminin (FED) ümumi quruluşu və onun ABŞ cəmiyyəti ilə qarşılıqlı əlaqələri aşağıdakı sxemdə verilmişdir.

Federal Ehtiyatlar Sistemi, ABŞ prezidenti tərəfindən 14 il müddətinə təyin olunan və Konqresin senatında təsdiqlənən 7 üzvdən ibarət İdarə Heyəti tərəfindən idarə edilir. Onların uzunmüddətli təyinatı, ölkənin pul siyasətini formalaşdırdıqları zaman, siyasi təzyiqlərdən azad hərəkət etmələri və yalnız bütovlükdə cəmiyyətin mənafeyinə, milli maraqlara uyğun, düzgün qərarlar qəbul etmək sərbəstliyi ilə bağlıdır. İdarə Heyəyinin üzvləri arasından seçilən sədr və onun müavinini ölkə prezidenti 4 il müddətinə təyin edir. Onlar bu vəzifələrinə yenidən təyin oluna bilərlər. İdarə Heyətin 14 il müddətinə təyin olunmuş üzvlərindən biri hər 2 ildə yeni üzvlə əvəz olunur.




Vaşinqtonda yerləşən Federal Ehtiyatlar Sistemi, onun İdarə Heyəti və ölkənin müxtəlif ştatlarının iri şəhərlərində (Boston, Çikaqo, Nyu-York, Dallas, Kanzas-Siti, San-Fransisko, Fladelfiya, Klinvend, Kiçmond, Atlanta, Sent-Luis, Minneapolis) yerləşən 12 regional (bölgə) Federal Ehtiyat Banklarından ibarətdir. Bu regional bankların prezidentləri, ayrı-ayrılıqda hər bir bankın Direktorlar Şurası tərəfindən seçilirlər. Həmin banklar, xüsusi mülkiyyətdə olan özəl banklar sayılır, lakin dövlətin və ictimaiyyətin (cəmiyyətin) nəzarəti altında fəaliyyət göstərirlər.

Öz komitə və məsləhətçi suralarının tövsiyyələrinə əsaslanaraq FES-nin İdarə Heyəti, ABŞ-ın pul-bank sistemi üzərində nəzarətə dair siyasi qərarlar qəbul edir. Həmin

qərarlar isə ölkənin 12 federal ehtiyat bankları tərəfindən həyata keçirilir. Federal ehtiyat banklarının fəaliyyəti, şübhəsiz müəyyən gəlir gətirsə də, lakin onlar xüsusi banklar kimi buna can atmırlar. Həm Federal Ehtiyatlar Sistemi, həm də federal ehtiyat bankları öz dar maraqlarını güdmur, bütövlükdə ölkə iqtisadiyyatının yüksəlişinə şərait yaratmağa çalışırlar.

Federal Ehtiyatlar Sistemi və federal ehtiyat banklarının fəaliyyətinin ABŞ-ın kütləvi mətbuat vasitələrində, habelə mütəxəsislərin, siyasi xadimlərin, ictimai hərəkat liderlərinin çıxışlarinda vaxtaşırı tənqid olunmasına baxmayaraq, həmin qurumların rəhbərliyi bu ***tənqidlərə hörmətlə yanaşır, real vəziyyəti düzgün qiymətləndirməyə çalışır, lakin öz düşünülmüş, hərtərəfli ölçülüb-biçilmiş siyasətini davam etdirir.***

Doğrudur, bu siyasət qeyri-sabit inkişafı ilə səciyyələnən milli iqtisadiyyatda baş verən geriləmələri, işsizliyi, infilyasiya kimi halları və mənfi meylləri aradan qaldıra bilməsə də, amma həmin proseslərin zərərli təsir gücünü, sosial-iqtisadi nəticələrini xeyli zəiflədir. Təsadüfü deyildir ki, bəzən FES-ni pul kranını açıb-bağlayanla, bəzən də dollar adlı atı cıdır maneələrindən keçirərək, finişə çatdırmağa çalışan jokeyə (sürücüyə) oxşadırlar.

Təbii olaraq soruşula bilər ki, «banklar bankı» kimi fəaliyyət göstərən Federal Ehtiyatlar Sistemi və onun federal ehtiyat bankları öz çətin işlərini necə qururlar? Məlumdur ki, hər hansı bir ölkədə, o cümlədən də ABŞ-da ümumi (məcmu) tələb hədsiz artdıqda, qiymətlər bahalaşacaq, inflyasiyanın səviyyəsi yüksələcəkdir. İqtisadiyyatın qeyri-sabit inkişafının nəticəsində yaranan real vəziyyəti tənzimləmək üçün FES dövriyyədə olan pul kütləsini, yaxud pul təklifini azaldacaqdır ki, bu da ölkədə iqtisadi artım templərini tənzimləyərək, qiymətlərin enməsini nizamlayacaqdır.

Federal Ehtiyatlar Sisteminin keçmiş sədirlərindən biri olmuş V.M.Martinin obrazlı ifadəsilə desək, «vəzifəmiz məclis getdikcə qızışdığı (pul təklifi artığı) zaman, şərab doldurulmuş badələri (artıq pul kütləsini) yığışdırmaqdan ibarətdir».

Əksinə, ölkədə iqtisadi inkişaf templəri aşağı düşdükdə, iqtisadiyyatda böhran və durğunluq əlamətləri göründükdə, sahibkarları və iş adamlarını bədbinlik əhval-ruhiyyəsi bürüdükdə, Federal Ehtiyatlar Sistemi dövriyyədə olan pul kütləsini artırmaq yolunu seçir.

Hər iki halda yaranmış vəziyyət, bankların məcburi ehtiyat normasının (10-20% arasında) və bank faiz dərəcələrinin (5-15% arasında) dəyişdirilib tənzimlənməsi vasitəsilə həyata keçirilir. Son dövrlərdə, xüsusilə 2008-ci ildən başlanmış iqtisadi böhran şəraitində ABŞ-da bank kreditləri üçün faiz dərəcələri kəskin surətdə aşağı salınaraq 1-2 faiz olmuşdur. Aşağıda verilən sxemdə pul-kredit siyasətinin ölkədə istehsalın həcminə və inflyasiyaya təsiri əks olunmuşdur:

Sxemdən aydın olur ki, FES-nin ölkədə iqtisadi fəallığa təsir göstərmək və inkişafın qeyri-sabitlik meyllərini tənzimləmək üçün həyata keçirdiyi tədbirlər sistemi hansı konkret nəticələrə gətirib çıxara bilir. ***Əvvələn,*** məcburi ehtiyat normasının (1) dəyişdirilməsi, ölkədə pul təklifinə və tədavüldəki pul kütləsinin həcminə (2) təsir edəcəkdir. ***Sonra,*** bu dəyişiklik bank faiz dərəcələri və kredit şərtlərinin (3) konkret vəziyyətdən asılı olaraq enib qalxması ilə nəticələnəcəkdir. ***Daha sonra,*** bank faiz dərəcələrindəki enib-qalxmalarla bağlı, investisiyaların həcminin və digər xərclərin dəyişməsi, öz növbəsində ümumi (məcmu) tələbə (4-AD) müsbət yaxud mənfi istiqamətlərdə təsir göstərəcəkdir. ***Nəhayət,*** bütövlükdə iqtisadiyyatda zəncirvari şəkildə baş verən bu proseslər ölkədə istehsalın

həcminə, məşğulluğun və infilyasiyanın səviyyəsinə bilavasitə yaxud dolayı yollarla təsir edəcəkdir.

**Pul kredit siyasətinin ölkənin istehsal həcminə və infilyasiyaya təsiri.**




***Kommersiya bankları***, ölkənin bank sisteminin ikinci pilləsini təşkil edərək, Mərkəzi Bankın (Milli Bankın) ümumi nəzarəti altında fəaliyyət göstərirlər. Bazar münasibətləri iqtisadi sistemi şəraitində bu banklar öz müştəriləri olan fiziki və hüquqi şəxslərlə qarşılıqlı münasibətlərini müəyyən mənfəət əldə etmək prinsipi, habelə risk əsasında qururlar. Kommersiya bankları malik olduqları pul resursları və müəyyən faizlə Mərkəzi Bankdan borc götürdükləri vəsait hesabına müştərilərinə müxtəlif təyinatlı xidmətlər göstərirlər.

Bu bankların fəaliyyəti əsas 3 istiqamət: a) passiv əməliyyatlar (vəsaitlərin cəlb olunması), b) aktiv əməliyyatlar (vəsaitlərin yerləşdirilməsi, kreditə verilməsi), c) kommersiya-vasitəçilik əməliyyatları üzrə aparılır. Onların əməliyyatları arasında bank xidmətləri mühüm yer tutur. Həmin xidmətlərə xarici valyuta ilə əməliyyatlar, qiymətli kağızların yerləşdirilməsi və saxlanması, müştərilərin etimadnaməsi əsasında onların kapitalının, əmlakının idarə edilməsi, habelə sairə daxildir. Kommersiya bankları öz əməliyyatlarını nağd və qeyri-nağd, yəni köçürmə hesablaşmaları yolu ilə həyata keçirirlər.

Müxtəlif ölkələrdə kommersiya banklarının geniş şəbəkəsi fəaliyyət gəstərir. Məsələn, ABŞ-da 8000-ə yaxın, Rusiyada 1.200-dən çox, Azərbaycan Respublikasında 40-a qədər kommersiya bankı fiziki və hüquqi şəxslərə bazar münasibətləri iqtisadi sisteminin tərkib hissəsi kimi müxtəlif xidmətlər göstərirlər. Son dövrdə kredit birlikləri, əmanət qurumlarının qovuşması prosesi getdiyindən, onların ümumi sayının azlması, habelə ölkənin məcmu maliyyə aktivlərində xüsusi çəkisinin aşağı düşməsi meyli nəzərə çarpır.

Kommersiya bankları ənənəvi xidmət növləri ilə yanaçı, nisbətən yeni sayılan və müasir dövrün tələblərinə cavab verən *lizinq*, *faktorinq*, *farfeytinq*, *trast* kimi kreditləşdirmə formalarının dairəsini getdikcə genişləndirirlər.

Lizinq – bank kreditinin bir forması olub, istehsal vasitələrinin, texnikanın, avadanlığın, maşınların, dəzgahların, nəqliyyat vasitələrinin, istehsal təyinatlı binaların və digər əmlakın müəyyən müddətə öz müştərilərinə icarəyə verilməsidir. Banklar bu işdə texnika və avadanlıqların sahibi (mülkiyyətçisi) ilə onu icarəyə götürən (istifadəçisi)

arasında vasitəçi rolunu oynayır. Adətən 1 ildən 10 ilə qədər müddəti nəzərdə tutan lizinq sövdələşmələri, istifadə olunmuş texnikanın və müəyyən bank faizinin ödənilməsindən sonra icarədarın mülkiyyətçiyə çevrilməsini nəzərdə tutur. Kommersiya bankları vasitəsilə həyata keçirilən maliyyələşdirmənin bu forması həm lizinq verənə, həm lizinq alana, həm də banka faydalıdır. Ona görə də bu xidmət foması dünyanın başqa ölkələrində olduğu kimi Azərbaycan Respublikasında da, xüsusilə fermerlər arasında geniş yayılmaqdadır.

***Faktorinq*** – universal bank xidməti olub, fiziki və hüquqi şəxslər, şirkətlər və birliklər tərəfindən onların öz debitor borclarının idarə edilməsi hüququnun banka verilməsini nəzərdə tutur. Lazim olduqda, bank müştərisinin digər maliyyə öhdəlikləri və problemlərinin maliyyləşdirilməsini də öz üzərinə götürə bilir. Buraya mühasibat, informasiya, reklam, siğorta, kredit, audit, hüquqi məsləhət kimi xidmətlər daxildir.

***Farfeyting*** – uznmüddətli faktorinq olub, fiziki və hüquqi şəxslərin banka satılan borclarının 1 ildən 5 ilə qədər uzadılmış müddətə qaytarılmasını nəzərdə tutur.

***Trast*** – müştərinin kapitalının (əmlakının) etibarnamə əsasında idarə olunması ilə bağlı əməliyyatların bank tərəfindən aparılmasını nəzərdə tutur.

Kommersiya prinsipləri əsasında fəaliyyət göstərən bankların əsas məqsədi müəyyən mənfəət əldə etmək və apardıqları müxtəlif istiqamətli, habelə təyinatlı əməliyyatlardan, göstərdikləri xidmətlərdən qazanmaqdır. Borc (kredit) götürən fiziki və hüquqi şəxslərə xidmət edən banklar, əvəzində müəyyən faiz alırlar. Bu mənada bank faizi, borc götürülmüş pullardan və maddi dəyərlərdən istifadəyə görə borc alanların, borc verənlərə (kreditorlara) ödədikləri haqqdır. Başqa sözlə, bank faizi vəsaitlərdən istifadəyə görə ödənilən haqqın «qiymətidir». Həmin faizin həcmi və dəyişmə dinamikası isə faiz şəklində ödənilən pulun miqdarının, borc verilən pulun miqdarına olan nisbətilə müəyyən edilən faiz normasının hərəkətində əks olunur, yaxud ölçülür.

Məsələn, kreditə verilən məbləğin hər 1000 manatı (dollar, avro) üçün ildə 100 manat (dollar, avro) haqq tələb olunursa, illik faiz norması 10% təşkil edəcəkdir.

Göstərilən misal üçün faiz norması belə hesablanır:

$$\textit{Faiz normasi} = \frac{\textit{Kreditin hər 1000 manatı üçün haqq}}{\textit{Kreditin hər 1000 manatı}} \times 100\% = \frac{100\ man}{1000\ man} \times 100\% = 10\%$$

Şübhəsiz, bu faiz norması dəyişən bir kəmiyyət olub, ayrı-ayrı banklar üçün müxtəlifdir. Ümumuiyyətlə bank faizi və faiz norması müasir dövrdə qloballaşan dünya iqtisadiyyatının vəziyyətindən, beynəlxalq iqtisadi-ticarət əlaqələrinin səviyyəsi və qiymətlərin formalaşmasından, milli iqtisadiyyatın inkişaf templərindən, onun investisiyalara, pul vəsaitlərinə olan təlabatından asılıdır.

**22.6.** Bankların pul yaratmaq (artırmaq) prosesini ayrıca bir bankın deyil, bütövlükdə bank sisteminin tinsalında izləmək lazımdır.

Aydındır ki, banklar saxlanılan pul ehtiyatlarının hamısını kredit formasında borc verə bilməzlər. Çünki onların əmanətçi müştəriləri (depozitorları) istənilən vaxt öz pullarını bankdan tələb edə bilərlər. Bankların fəaliyyəti göstərir ki, onlar fasiləsiz surətdə fiziki və hüquqi şəxslərə kredit də verə bilirlər, eyni zamanda əmanətçilərinə də müxtəlif təyinatlı xidmətlər göstərərək, tələblərini yerinə yetirirlər. Banklar bütün əmanətçilərinin öz pulılarını eyni vaxtda (müstəsna hallardan başqa) tələb etməsi ehtimalının çox az

olduğunu nəzərə alaraq, sərəncaminda olan vəsaitin 10-20 faizini ehtyat (rezerv) kimi saxlayaraq, yerdə qalan hissəsini borc verə bilərlər.

Məsələn, bankların məcburi ehtiyat normasının 10%, yəni banka daxil olan vəsaitlərin, depozitlərin 1/10 hissəsi həcmində olduğu qəbul edilsə, o zaman müxtəlif bank qrupları üzrə tədricən azalacaq məbləğ (*Müxtəlif illərdə bankların müflis (bankrot) olması halları ABŞ-da, Cənub-Şərqi Asiya ölkələrində, Rusiyada baş vermişdir. Təsadüfü deyildir ki, ABŞ-da 11 sentyabr 2001-ci il terror hadisəsindən sonra ölkənin bank sistemində yarana biləcək çətinlikləri nəzərə alan Federal Ehtiyatlar Sistemi, adi günlərdə kredit əməliyyatları 150 milyon dollar təşkil edən bank və əmanət qurumlarına bir gün ərzində 45 milyard dollar borc vermişdir*) göstəricilərini ardıcıllıqla izlədikdə ölkənin ümumi bank sistemi üzrə mənzərə belə olacaqdır.

1000+900+810+729+656,10+590,49+531,44+478,30+430,47+387,42......100=1000×(1+ 9/10+9/10+9/10....9/10)=1000×(1/(1-9/10))=1000×(1/0,1)=1000×(10/1)=10.000

Bankların pul yaratmaq, yaxud sərəncamlarında olan pul kütləsini süni şəkildə artırmaq prosesi, öz əksini aşağıda verilmiş cədvəldə tapmışdır.

Cədvəldən aydın olur ki, əslində pulun ümumi kütləsi (M) artmır. Banklar öz çekləri, qiymətli kağızları, öhdəlikləri ilə pul kütləsini *simvolik*, *rəmzi* surətdə artırırlar. Bəzən «karusel» adlandırılan bu bank əməliyyatları nəticəsində nağd 1000 manat, dollar, avro arxasında yalmız bankın öhdəliyi dayanan «artmış, yaxud yaradılmış» 10.000 manata, dollara, avroya çevrilir və sanki möcüzə baş verir! Lakin heç bir möcüzə yoxdur, reallıq isə bundan ibarətdir ki, mənfəət əldə etmək naminə riskə gedən banklar, sərəncamlarında olan müəyyən miqdarda pul kütləsinin həcmini sabit saxlamaqla, öz öhdəlikləri hesabına tədavüldəki dövriyyə vasitələrini artırırlar.

**Pul (depozit, əmanət) yaradılması prosesi**

| Bankların vəziyyəti | Yeni əmanətlər, depozitlər (dollarla) | Yeni borclar, kreditlər və investisiyalar (dollarla) | Yeni ehtiyatlar (dollarla) |
|---|---|---|---|
| I Çıxış (ilk) banklar | 1000 | 900,0 | 100,0 |
| II qrup (nəsl) banklar | 900,00 | 810,0 | 90,0 |
| III qrup (nəsl) banklar | 810,0 | 729,0 | 81,0 |
| IV qrup (nəsl) banklar | 729,0 | 656,10 | 72,9 |
| V qrup (nəsl) banklar | 656,10 | 590,49 | 65,61 |
| VI qrup (nəsl) banklar | 590,49 | 531,44 | 59,05 |
| VII qrup (nəsl) banklar | 531,44 | 478,30 | 53,14 |
| VIII qrup (nəsl) banklar | 478,30 | 430,47 | 47,83 |
| IX qrup (nəsl) banklar | 430,47 | 387,42 | 43,05 |
| X qrup (nəsl) banklar | 387,42 | 348,68 | 38,74 |

| | | | |
|---|---|---|---|
| (I-X) Qrup (nəsl) banklar üçün məbləğ | 6513,22 | 5861,90 | 651,32 |
| Yerdə qalan digər banklar üçün məbləğ | 3486,78 | 3138,10 | 348,68 |
| Bütövlükdə bank sistemi üçün ümumi məbləğ | 10000 | 9000 | 1000 |

Bankların «pul yaraymaq və artırmaq» prosesi mexanizmini aydınlaşdırdıqdan sonra dövlətin pul-kredit (monetar) siyasətinin işlənib hazırlanmasında, habelə onun həyata keçirilməsində mühüm rol oynayan Mərkəzi Bankın ölkənin pul tədavülünü tənzimləmək üçün hansı vasitələrdən (alətlərdən, metodlardan) istifadə etdiyini göstərmək lazımdır. Mərkəzi Bankın pul-kredit siyasətinin başlıca vasitələri bunlardır:

**a)** açıq bazarda əməliyyatlar;

**b)** məcburi (zəruri) ehtiyat norması;

**c)** uçot dərəcəsi.

***Açıq bazarda əməliyyatları*** Mərkəzi Bankların, o cümlədən də Federal Ehtiyatlar Sisteminin ən çox istifadə etdiyi bir vasitə olub, dövlət istiqrazlarının, qiymətli kağızların alqı-satqısını əhatə edir. Açıq bazar əməliyyatları vasitəsilə dövlət istiqrazlarının əhalindən alınması, ***dövriyyədə olan pulun miqdarını artırır***. Deməli bu yolla ölkədə pul təklifi və kommersiya banklarının ehtiyyatları artırılır. ***Pul təklifini azaltmaq üçün*** isə dövlət istiqrazlarının əhaliyə satışı həyata keçirilir. Eyni zamanda qiymətli kağızların alqı-satqısı zamanı Mərkəzi Bank ***əlverişli faizlər təklifi ilə*** kommersiya banklarının vəsaitlərinin həcminə təsir göstərməyə və onların kredit əməliyyatlarını tənzimləməyə çalışır.

Cəmiyyətin qısamüddətli dövrdə və uzunmüddətli perspektivdəki inkişafında, infilyasiya ilə işsizlik arasında seçimində mühüm rol oynayan açıq bazar əməliyyatları təkcə iqtisadi deyil, həm də siyasi xarakter daşıyır. Ona görə də təsadüfi deyildir ki, ABŞ Federal Ehtiyatlar Sistemi İdarə Heyətinin sədri, ölkədə Prezidentdən sonra ikinci ən güclü şəxs hesab olunur.

***Bankların ehtiyat normalarının*** məcburi qaydada müəyyənləşdirilməsi prinsipi, Mərkəzi Bankın ölkədəki pul təklifinə səmərəli təsir göstərməsinin mühüm vasitələrindən biri hesab olunur. Bankların saxladıqları əmanətlərə (depozitlərə) nisbətən müəyyənləşdirilmiş minimum ehtiyyat məbləği üzrə ciddi tələblər, şübhəsiz həmin bankların məsuliyyətini xeyli artırır. Mərkəzi Bankın ehtiyat normalarındakı dəyişiklik edilməsi tələbi, ölkə iqtisadiyyatında yaranmış real vəziyyətdən irəli gələrək, pula olan tələb-təklifin tənzimlənməsi məqsədini güdür. *Ehtiyatların artırılması tələbi*, bankların pul yaratmaq əmsalını aşağı salaraq, pul təklifini azaldır. Əksinə, *ehtiyatların azalması tələbi*, pul yaratmaq əmsalını artıraraq, pul təklifini genişləndirir. Kommersiya banklarının zəruri ehtiyat normasının məcburi qaydada müəyyənləşdirilməsi bir tərəfdən bank vəsaitlərinin *likvidliyini*, yəni ilk tələbdən ödənişini təmin edir; digər tərəfdən isə milli iqtisadiyyata investisiya qoyuluşlarının tənzimlənməsinə, yəni lazım gəldikdə genişləndirilib-məhdudlaşdırılmasına təsir göstərir.

***Uçot (diskont) faizi***, Mərkəzi Bankın kommersiya banklarına verdiyi borcların faiz dərəcəsidir. Bu vəziyyət iki halda – kommersiya bankları həddən artıq borc verdikdə və bankdan həddən artıq pul çıxarılanda baş verir. Müxtəlif ölkələrin, o cümlədən də ABŞ-ın bank sistemi təcrübəsində 1984, 1987 və 2001-ci illərdə belə hadisələr olmuşdur. Mərkəzi Bankın yüksək uçot faiz dərəcəsi, kommersiya banklarını çox az hallarda bu «son

imkandan» istifadə etməyə yönəldir. Bu növ kreditlər üçün kommersiya banklarından ehtiyat saxlamaq tələb olunmadığından, təbiidir ki, onların ehtiyat pul vəsaitləri artmış olur.

Ümumiyyətlə, Mərkəzi Bankın uçot (diskont) faizində artım siyasəti, bank sistemində ehtiyatların miqdarını (həcmini) azaldır. Bu isə öz növbəsində tədavül dairəsində pul təklifini aşağı salır. Əksinə, nisbətən aşağı diskont faizi kommersiya banklarını Milli Bankdan öz ehtiyatları və əməliyyatları üçün borc almağa həvəsləndirir. Bu meyl bank sistemində pul ehtiyatlarının miqdarını artırmaqla yanaşı, tədavüldəki pul kütləsini də çoxaldır.

Mərkəzi Bankın sınanmış və köhnə metodlarından sayılan uçot (diskont) faiz siyasəti, kommersiya banklarının veksellərini (borc öhdəliklərini) əldə etməklə, eyni zamanda kreditlər üzrə faiz dərəcələrini artırıb-azaltmaqla, yaxud milli iqtisadiyyatda yaranmış vəziyyətlə bağlı «ucuz-bahalı pullar» xətti yeritməklə, bütövlükdə ölkənin bank sisteminin fəalliyətini tənzimləyir.

Ölkənin çoxsahəli təsərüffat həyatının normal fəaliyyət göstərməsi üçün pul-kredit siyasətinin səmərəliliyinin təmin olunmasında, bu sahədə zəruri sayılan tədbirlərin *vaxtında və çevik surətdə həyata keçirilməsi, habelə siyasi təzyiq, qrup-partiya maraqlarından azad olması*, mühüm əhəmiyyətə malikdir. Lakin obyektiv-subyektiv xarakterli, daxili-xarici səbəblərlə bağlı beynəlxalq aləmdə, dünya bazarında baş verən hadisələr sübut edir ki, pul-kredit siyasətinin müxtəlif tənzimləyici metodları heç də «sehirli çubuq» deyildir və qarşıya çıxan bütün problemləri həll edə bilmir. İqtisadi inkişafın qeyri-sabitliyi və ziddiyyətli meylləri müasir mərhələdə istər ölkə daxilində, istərsə də beynəlxalq miqyasda pul-kredit siyasəti metodlarının daha da təkmilləşdirilməsini irəli sürür.

# Mövzu 23. Büdcə kəsiri və dövlət borcu

**23.1** Büdcə kəsirinin yaranması səbələri və onun aradan qaldırılması yolları
**23.2** Dövlət borcunun mahiyyəti
**23.3** Dövlətin daxili borcu və onun tənzimlənməsi prosesi
**23.4** Dövlətin xarici borcu

**23.1.** İqtisadi siyasət və idarəetmə vasitəsi sayılan dövlət büdcəsi, ölkə miqyasında pul vəsaitlərinin mərkəzləşdirilmiş qaydada toplanması, habelə istifadə edilməsi formasıdır. Dövlət büdcəsi, hökumətin iqtisadi siyasətinin həyata keçirilməsinin maliyyə-pul fondu və kassası, yaxud bazasıdır. Büdcə, dövlətlə şirkət və müəssisələr, idarə və təşkilatlar, ev təsərrüfatları və ayrı-ayrı şəxslər arasındakı iqtisadi münasibətləri ifadə edir. Dövlətin maliyyə planı və proqramı olan dövlət büdcəsi, ümumi daxili məhsulun və milli gəlirin yenidən bölgüsünü həyata keçirir; iqtisadiyyatın dövlət tənzimlənməsinə və ölkənin təsərüffat həyatının stimullaşdırılmasına xidmət edir; sosial-mədəni siyasətin maliyyə təminatını həyata keçirir.

Müasir bazar münasibətləri iqtisadi sistemi və müxtəlif mülkiyyət formalarının yaranıb fəaliyyət göstərdiyi bir dövrdə, dövlət büdcəsinin əhatə dairəsi genişlənir, imkanları artır, yeni təsərüffat obyektləri meydana çıxır.

Dövlət büdcəsinin gəlir mənbəyini ***vergilər, rüsumlar*** və ayrı-ayrı ölkələrdə müxtəlif növ ödənişlər təşkil etsə də, ***əsas rolu vergilər*** oynayır. Büdcə gəlirləri dünya ölkələrinin ümumi daxili məhsulun 15-20 %-dən başlayaraq 50-55 %-ə qədərini təşkil edir. Bu ölkənin ümumi inkişaf səviyyəsindən vergi dərəcələri, gömrük rüsumları və işin təşkilindən xeyli asılıdır.

Dövlət büdcəsinin xərcləri isə aşağıdakı istiqamətlərə – iqtisadiyyatın inkişafına; sosial-mədəni (təhsil, elm, mədəniyyət, komunal-mənzil təsərüffatı, idman) sahələrə; milli təhlükəsizlik və müdafiəyə; dövlət orqanlarının saxlanmasına; xarici borcların və büdcə kəsirinin ödənilməsinə yönəldilir.

Dünya ölkələrinin təsərüffat həyatının inkişafı və maliyyə sisteminin formalaşmış fəaliyyəti, dövlətin gəlirləri ilə onun xərcləri arasında müəyyən bir tarazlığın (balansın) olmasını tələb edir. İstər cəmiyyətdə, istər ailədə, istərsə də istehsal-xidmət dairəsinin müxtəlif təyinatlı sahələrinin şirkətlərində, müəssisələrində, fermer təsərüffatlarında ***onların gəlirləri ilə xərclərinin bir-birinə uyğunluğu***, şübhəsiz arzu olunandır.

Lakin, təəssüf ki, real həyatda həmişə belə olmur. İnsanların, şirkətlərin, təsərüffat subyektlərinin, nəhayət dövlətlərin ümumi xərcləri onların gəlirini ötdükcə büdcə kəsiri, yaxud büdcə defisiti əmələ gəlir. Deməli büdcə kəsiri, dövlət xərclərinin vergi gəlirlərindən artıq olduğu halda yaranır.

Mütəxəsislərin və iqtisadçıların fikrincə, müasir beynəlxalq standartlara görə ölkələrin büdcə kəsiri, onların illik ümumi daxili məhsulun 3-5%-i həcmində olarsa, yəni dövlət xərcləri büdcə gəlirini bu həcmdə ötərsə, vəziyyət normal sayıla bilər. Əgər büdcə kəsiri həmin həddi ötərsə, o zaman ölkə üçün müxtəlif iqtisadi-sosial problemlər yaranacaqdır.

Dövlət büdcəsinin kəsirlə yekunlaşması, ölkənin iqtisadi-sosial inkişaf səviyyəsi və onun rastlaşdığı müxtəlif səpgili çətinliklərlə, problemlərlə bağlıdır. Büdcə kəsirini

yaradan səbəblər sırasında, – ***büdcəyə ödənişlərin daxil olmamasını, istehsal-xidmət dairəsindəki geriləmələri, hərbi-müdafiə və dövlət orqanları aparatı xərclərinin artmasını, xarici ticarət dövriyyəsində ixracla idxal arasında nisbətin pozulmasını, vergilərin toplanması işinin təşkilindəki nöqsanları və sairəni göstərmək olar.***

Müxtəlif ölkələrdə dövlət büdcəsinin gəlirlərinin xərcləri ötməsi (profisit), yaxud əksinə xərclərin gəlirlərdən çox olması defisit, ayrı-ayrı illərdə dəyişkən bir xarakter daşımışdır. Məsələn, 2000-ci ildə ABŞ-ın federal büdcəsinin profisiti 236 milyard dollar təşkil etdiyi halda, 2002-ci ildə büdcənin kəsiri 158 milyard dollar olmuşdur. Rusiyanın dövlət büdcəsi əvvəllər kəsirlə yekunlaşırdısa, son illərdə büdcənin gəlirlərinin onun xərclərinə nisbətən daha çox olduğu müşahidə edilir. Azərbaycan Respublikasında da bu proses son 15-20 il ərzində dəyişkən xarakter daşımışdır və büdcə kəsirinin ölkənin ümumi daxili məhsuluna nisbəti normal həddi (3-5%) ötməmişdir

Dövlət büdcəsində müxtəlif səbəblər nəticəsində kəsirin yaranması xoşagəlməz hadisə olsa da, lakin ölkənin rastlaşdığı obyektiv-subyektiv xarakterli problemlərin həlli, büdcə xərclərinin artırılmasını zəruri edir. Belə bir vəziyyətdə, büdcə xərclərinin şüurlu surətdə artırılması istiqamətini mənfi hal kimi qiymətləndirmək mümkün deyildir. Çünki dövlətin bu istiqamətdəki çevik iqtisadi siyasəti, tənzimləyici tədbirlər sistemi, gələcək siyasi-ictimai və iqtisadi-sosial durumun real nəticələri baxımından müsbət qiymətləndirilməlidir.

Dövlət büdcəsinin kəsirinin aradan qaldırılması, yaxud örtülməsi üçün ***daxili və xarici mənbələrdən*** istifadə olunur. Qeyd etmək lazımdır ki, büdcə kəsiri ilk növbədə fəaliyyətdə olan hökumətin iqtisadi siyasəti və həyata keçirdiyi tədbirlər sistemi ilə bağlıdır. Bu kəsirin örtülməsi üçün ***daxili mənbələr*** kimi vergilərin sayının və dərəcələrinin artırılmasından, gömrük rüsumlarının dəyişdirilməsindən, dövlət mülkiyyətinin özəlləşdirilməsindən daxil olan vəsaitlərdən, siğorta gəlirlərindən, bank ödənişlərindən, dövlət uduşlu istiqrazlarından istifadə olunur. Büdcə kəsirinin ***xarici mənbələri*** başqa ölkələrdən, beynəlxalq maliyyə qurumlarından, banklardan **alınan** kreditləri və investisiyaları əhatə edir. Büdcə kəsirinin örtülməsinə yönəldilmiş daxili və xarici mənbələrdən istifadənin dəqiq iqtisadi inkişaf proqramı, nəzarət sistemi olmalıdır ki, həmin vəsaitlərin yüksək səmərəliliyi təmin edilsin.

Ümumiyyətlə büdcə kəsirinin aradan qaldırılması siyasəti, aşağıdakı tədbirlər sisteminin kompleksli, qarşılıqlı əlaqədə həyata keçirilməsini nəzərdə tutur:

- büdcə vəsaitlərinin daha yüksək gəlir verən istehsal-xidmət sahələrinə yönəldilməsini;
- istehsal-xidmət dairəsi sahələrinin müxtəlif çevik maliyyə güzəştləri ilə həvəsləndirilərək, işgüzar fəallığın stimullaşdırılmasını;
- dövlət büdcəsi hesabına maliyyələşdirilən istehsal-xidmət sahələrinə ayrılan vəsaitlərin nisbətən ixtisar olunması və onların daxili imkanlarından səmərəli istifadə edilməsini;
- hərbi və müdafiə xarakterli xərclərin zəruri minimum həddə saxlanılmasını;
- sosial proqramlara yenidən baxılaraq, onların ən mühüm sayılanlarının maliyyələşdirilməsini;
- bankların fiziki və hequqi şəxslərə verdikləri kreditlər üçün borc faizlərində müəyyən dəyişikliklər edilməsini;

- ödənişli dövlət qiyməyli kağızlarının, səhmlərinin, istiqrazlarının buraxlışına üstünlük verilməsini.
- tədavülə əlavə pul kütləsinin (emissiyasının) daxil edilməsini, buraxılışını.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, hazırda istifadə olunan ***illik balanslaşdırılmış, tsiklik (dövrü) və makroiqtisadi sabitliyin təmin olunmasını nəzərdə tutan*** təyinatlı (funksional) maliyyə büdcə konsepsiyalarının hər birinin konkret milli iqtisadiyyat çərçivəsində üstün, habelə çatışmayan cəhətləri meydana çıxır. Ona görə də yaranmış real vəziyyətin tələblərindən çıxaraq həmin konsepsiyaların hər birinin şəraitə uyğun elmi-nəzəri və əməli-praktik cəhətlərindən faydalanmaq məqsədəuyğundur.

Mütəxəsislərin fikrincə, maliyyə-büdcə sisteminin *əsas məqsədi*, ölkədə inflyasiyanı normal həddə saxlamaq, əhalinin məşğulluğunu təmin etmək, milli iqtisadiyyatın tarazlı, ahəngdar, davamlı sabit yüksəlişi kimi makroiqtisadi vəzifələr olduğundan, *büdcənin defisitlə (kəsirlə)* başa çatması yaxud *profisitlə (gəlirlərin üstünlüyü ilə)* yekunlaşması ***əsas yox, ikinci dərəcəli məsələdir.*** Makroiqtisadi göstəricilər səviyyəsində normal iqtisadi-sosial inkişaf prosesi təmin edilərsə, dövlət büdcəsinin nəticələri əhəmiyyətli olsa da, həlledici sayıla bilməz.

**23.2.** ***Dövlət borcu (Püblik debit)*** – hakimiyyətin ümumi borcu olub, bütün əvvəlki illərdə toplanmış büdcə kəsirlərinin cəmini əhatə edir. Bu mənada *büdcə kəsiri* ilə *dövlət borcu* arasında müəyyən bir əlaqə və asılılıq olsa da, lakin bunlar müxtəlif iqtisadi anlayışlardır. *Büdcə kəsiri* konkret hər hansı bir il ərzində dövlət büdcəsinin xərclərinin, onun gəlirlərindən artıq olması deməkdir. *Dövlət borcu* isə onun ölkə və xarici fiziki-hüquqi şəxslər, başqa dövlətlər, habelə beynəlxalq təşkilatlar, maliyyə qurumları, banklar qarşısında borc öhdəliyi, yaxud aldığı borcun məbləğidir.

Dövlət borcunun yaranması səbəbləri arasında aşağıdakıları göstərmək olar:

**a)** müharibələrin aparılması, təbii fəlakətlər və yaranmış fövqəlhadə hallarla əlaqədar xərclərin maliyyələşdirilməsinin zəruriliyi;

**b)** iqtisadi tənəzzül və durğunluq vaxtı ölkənin milli gəlirinin həcminin azalması nəticəsində, büdcə gəlirinin azalması meyli;

**c)** xarici ölkə və beynəlxalq təşkilatlardan, banklardan, maliyyə qurumlarından alınmış borcların, habelə onların faizlərinin ödənilməməsi;

**d)** dövlətin iqtisadi siyasətinin strategiya və taktikasının (məqsəd və həyata keçirilməsi yollarının) düzgün müəyyənləşdirilməməsi;

**e)** qanunverici və icraedici hakimiyyət orqanlarının işgüzarlıq bacarığı, habelə siyasi iradəsinin zəifliyi.

Müharibələr və ölkə iqtisadiyyatının hərbiləşdirilməsi, yaxud militaristləşdirilməsi xətti həmişə dövlət büdcəsi kəsirinin (defisitin) artması, dövlətin ümumi borcunun həcminin (məbləğinin) çoxalması ilə nəticələnmişdir. Bunu, dünyanın müxtəlif ölkələrinin iştirak etdiyi birinci və ikinci dünya müharibəsinin gedişi, iqtisadi nəticələri, sonrakı «soyuq müharibə» dövrü, sosialist və kapitalist sistemlərinin qarşıdurması siyasətinin törətdiyi fəlakətlər sübut edir. Həmin müharibələrin bəşəriyyətə vurduğu iqtisadi zərər triyonlarla dollar məbləğində hesablanır. Müharibələr dövründə müxtəlif ölkələrin təcrübəsində istifadə olunmuş ənənəvi vergilərin artırılması, tədavülə əlavə pul kütləsi buraxılışı (emissiyası), xaricdən borc alınması yolları son nəticə etibarilə istehsal-xidmət dairəsində qiymətlərin bahalaşmasında, infilyasiyanın templərinin yüksəlməsində, əhalinin

həyat səviyyəsinin aşağı düşməsində özünü göstərərək, ciddi problemlər yaratmışdı. Bu ağır nəticələrlə bağlı proseslər, bu gün də özünü bir qədər dəyişmiş formada olsa da, istər yüksək inkişaf etmiş, istər inkişaf etməkdə olan, istərsə də postsosialist ölkələrinin timsalında müşahidə olunmaqdadır.

Məsələn, ABŞ-da son 200 il ərzində ən yüksək dövlət borcu II dünya müharibəsi illərində yaranaraq, ölkənin ümumi daxili məhsulunun həcmini (dövlət borcunun ÜDM-a olan nisbəti mənasında) ötmüşdür. Sonrakı dövrdə bu nisbət enən xətt üzrə gedərək, 1980-ci ildə 33% təşkil etmişdir. Lakin, XX əsrin axırları və XXI əsrin əvvəllərindən başlayaraq, ABŞ iqtisadiyyatının ümumi yüksəlişi fonunda, yeni ziddiyyətli meyllərin təsiri nəticəsində, ölkənin büdcə kəsiri müəyyən illərdə aradan qaldırılsa, hətta onun gəlirləri xərclərini ötsə də, lakin ümumi dövlət borcu artmışdır. Son məlumatlara görə Birləşmiş Ştatların dövlət borcu, ölkənin ümumi daxili məhsulunun 80%-nə çataraq, görünməmiş bir məbləğ təxminən 12 triliyon dollar (2010-ci il) olmuş və bu meyl davam etməkdədir.

ABŞ-ın iri həcmli dövlət borcunun və borc öhdəliklərinin (mülkiyyətçilərinin) kimlər olduğunu aşağıda verilmiş sxemdən görmək olar.

Sxemdən aydın olur ki, ölkənin dövlət boclarının 60%-ə qədəri icmaiyyətin (regional və yerli hakimiyyət orqanlarının, bankların və digər maliyyə təşkilatlarının, xarici ölkələrin fiziki və hüquqi şəxslərinin, ölkə vətəndaşlarının), 40%dən çoxu isə federal hökumət orqanlarının və Federal Ehtiyatlar Sisteminin payına düşür. XXI əsrin birinci onilliyinə aid olan bu rəqəmlər göstərir ki, ABŞ-ın dövlət borcunun cəmisi beşdə bir hissəsindən də azı (18%-i) xarici borclardır. Dövlət borcunun əksəriyyətini (82%-ni) daxili borclar təşkil edir. Başqa sözlə, ABŞ-ın dövlət borcu, ilk növbədə onun öz vətəndaşlarına olan borcudur, yəni «kreditə yaşamaq» həyat tərzinə öyrənmiş amerikalıların borcları, əsasən onların özlərinə olan borclarıdır. 2007-2008-ci illərdən ABŞ-da başlanmış və sonralar bütün dünya iqtisadiyyatına mənfi təsir göstərmiş böhran – durğunluq prosesləri bir daha təsdiq etdi ki, *«təhlükə sovuşmamışdır və onu doğuran amillər bu gün də kifayət qədər həyat gücünə malik olub, yenidən baş qaldırmaq üçün fürsət gözləyir.»* (A.Oyken)

Maraqlidir ki, 1940-cı ildə hər nəfər amerikalıya düşən dövlət borcu 384 dollar olduğu halda indi 50 min dollara yaxınlaşır. Şübhəsiz müxtəlif çətinliklərə baxmayaraq, dünyada hərbi, iqtisadi, maliyyə imkanları baxımından lider rolunu oynayan və planetin məhsul-xidmətlərinin 18%-ni (15 trilyon dollar) verən, dünya ticarət dövriyyəsinin 8-10%-ni (4,5 trilyon dollar) təşkil edən ABŞ təsərrüfat həyatının mövcud, xüsusilə gələcək problemləri kifayət qədərdir. Mütəxəssislərin fikrincə, XX əsrin ilk onilliyində ölkənin ticarət balansındakı kəsirin bir neçə trilyon dolları ötməsi, bankların müxtəlif kommersiya qurumlarına 7 trilyon dollardan çox borc (kredit) verməsi, təminatsız istehlak və ipoteka kreditlərinin 11 trilyon dollar təşkil etməsi reallığı ilə ABŞ –ın indiki artım templəri arasındakı uyğunsuzluq, onun perspektiv inkişafının qeyri-sabitlik meyllərini daha da gücləndirə bilər.

Ayrı-ayrı ölkələrin dövlət borclarına gəldikdə, həmin borcların ümumi daxili məhsulun (ÜDM) həcminə görə nisbəti, XXI əsrin əvvəllərinə belə olmuşdur: Yaponiya 140%, İtaliya 125%, Belçika 102%, Kanada 80%, Fransa 63%, İspaniya 62%, İsveç 61%, Almaniya 60%, Niderland 44%, Danimarka 41%, Avstraliya 20%.

**Dövlətin borc öhdəliklərinin sahibləri**




***Qısamüddətli*** və ***uzunmüddətli*** dövlət borclarının ölkə üçün yaratdığı iqtisadi-sosial nəticələri və problemləri aşağıdakı kimi səciyyələndirmək mümkündür:

- ***əvvələn***, böyük məbləğdə dövlət borcunun özünün, həm də həmin borclar üzrə faizlərin razılaşdırılmış qaydalarda, müəyyən vaxtda qaytarılması prosesi, şübhəsiz ölkə əhalisinin istehlak imkanları səviyyəsini xeyli məhdudlaşdırır, habelə ixtisar edir;
- ***sonra***, ölkə iqtisadiyyatında xüsusi kapitalın tətbiqini «sıxışdıraraq», inkişafın gələcək yüksəliş perspektivlərinə müəyyən mənada mane olur, konkret çətinliklər yaradır, qeyri-bərabər, sağlam olmayan rəqabət mühiti formalaşdırır;
- ***daha sonra***, dövlət borcunun ödənilməsi (örtülməsi) üçün vergilərin artırılması yolu, ölkədə işgüzar iqtisadi fəaliyyətin aşağı düşməsinə səbəb olur;
- ***nəhayət***, ölkə əhalisi arasında gəlirlərin yenidən bölüşdürülməsi prosesindəki qeyri-bərabərliyi gücləndirir, dövlət qiymətli kağız sahiblərinin bu işdən faydalanmasına xidmət edir.

Yaranmış konkret vəziyyətdən asılı olaraq, dəyişkən xarakter daşıyan bu sosial-iqtisadi amillərin təsirini azaltmaq üçün müxtəlif dövlətlər borclarının ödəniş müddətinin uzadılması; borcları üzrə faiz dərəcələrinin azaldılması; ümumiyyətlə öz borclarının silinməsi, yaxud ləğv olunması kimi vasitələrdən istifadə etməyə çalışırlar. Lakin alınan borcun istər fiziki və hüquqi şəxslər, istərsə də dövlətlər tərəfindən qaytarılması prinsipi, bazar münasibətləri iqtisadi sisteminin əsas şərtlərindən, pozulmaz qaydalardan biridir.

**23.3.** Hər bir ölkənin dövlət borcu 2 hissəyə – *daxili* və *xarici borclara* ayrılır. Dövlətin tarixən ödənilməmiş borcu kimi səciyyələndirilən bu ümumi borcu, sxem şəklində aşağıdakı kimi göstərmək olar:

**Dövlət borcu**

- **Daxili borc** ***(dövlətin öz vətəndaşlarına borcu)***
- **Xarici borc** ***(dövlətin beynəlxalq maliyyə qurumlarına, başqa ölkələrin vətəndaşlarına və təşkilatlarına borcu)***

Dövlətin daxili borcu, onun öz vətəndaşlarına və istehsal-xidmət təyinatlı müəssisələrinə, yaxud fiziki və hüquqi şəxslərinə olan borcudur. Bu borc dövlətin müxtəlif qiymətli kağızlar, istiqrazlar, səhmlər, əmanətlər üzrə ölkə əhalisi və təsərrüfat subyektləri qarşısında olan öhdəliklərini əhatə edir. Bəzi mütəxəssislər hesab edirlər ki, dövlətin daxili borcu ölkə üçün o qədər də ağır bir yük hesab oluna bilməz. Çünki, dövlətin daxili borcu həmin ölkənin öz problemi olub, hakimiyyətlə əhali, ev təsərrüfatları, müxtəlif müəssisə, şirkət, təşkilatlar arasındakı maliyyə-kredit münasibətlərini əhatə edir.

Dövlətin daxili borcları məsələsinə belə bir mövqedən yanaşmaq müəyyən mənada doğru olsa da, lakin problem o qədər də sadə deyildir. Çünki, borc həmişə müəyyən öhdəlikdir, onun qaytarılması yaxud razılaşdırılmış vaxtda yerinə yetirilməsi təkcə iqtisadi akt olmayıb, eyni zamanda tərəflər arasında inam-etibarın möhkəmləndirilməsinin, qarşılıqlı nüfuzun, habelə gələcək işgüzar əməkdaşlığın sınanmış faydalı vasitəsidir.

Ölkənin daxili dövlət borcunu ödəmək üçün rəsmi qaydada istiqrazlar, qiymətli kagızlar, səhmlərlə yanaşı, dövlət mülkiyyətinin özəlləşdirilməsi məqsədilə *özəlləşdirmə çekləri* də tədavülə buraxıla bilər. Onların istifadəsi qaydaları və müddəti dövlət tərəfindən müəyyənləşdirilir.

Dövlətin daxili borcları və bunların ödənilməsi istiqamətindəki bir konkret forma kimi vətəndaşlara olan borcun dünyanın bir sıra ölkələrinədə *natural* şəkildə, yəni mal-mülk torpaq, obyekt, mənzil, habelə uzunmüddətli məişət əşyaları ilə ödənilməsi yolundan da istifadə olunmuşdur.

Müasir mərhələdə dövlətlərin ümumi borclarının tərkibində onların daxili borclarının həcmi, xüsusi çəkisi, ölkənin ümumi daxili məhsuluna nisbəti ayrı-ayrı ölkələrdə fərqli olsa da, lakin əksəriyyətində daxili borclar üstünlük təşkil edir.

Dövlətin borclarının olması, həmin borcların idarə edilməsi tədbirlərinin hazırlanmasını və ardıcıllıqla həyata keçirilməsini irəli sürür. Bu məqsədlə daxili bazarın konyukturası öyrənilir, borc kapitalı verilməsi imkanları araşdırılır, yeni qiymətli kagızlar buraxılışı təşkil olunur, əvvəllər buraxılmış istiqrazlar üzrə faiz ödənişləri dəqiqləşdirilir, nəzərdə tutulan yeni kreditlər üçün müvafiq bank faiz dərəcələri müəyyənləşdirilir.

Zəruri olduqda, dövlət özünün *hüquqi, iqtisadi, inzibati, təşkilatı* tənzimləmə vasitələrindən istifadə edərək, ilkin yaxud mövcud «oyun qaydalarını»qismən, hətta tamamilə dəyişdirərək, yeni prinsiplər tətbiq edə bilər. Dövlət borclarının idarə olunması istiqamətində, həmin borcların *möhkəmləndirilməsi (konsolidasiya)* və *əvəz olunması (konversiya)* yollarından istifadə olunur.

***Birinci yol,*** dövlət borclarının vaxtını uzadaraq, onların uzunmüddətli borclara çevrilməsini və həmin borclarla baglı xərclərin azaldılmasını nəzərdə tutur.

***İkinci yol*** isə dövlət borc öhdəliklərinin yerinə yetirilməsində, əvvəlki razılaşdırılmış şərtlərin dəyişdirilməsi ilə baglıdır. Ölkənin konkret daxili vəziyyəti və beynəlxalq aləmdə baş verən proseslərlə bagli, dövlət borclarının tənzimlənməsi gedişində, *könüllü* yaxud *məcburi* üsullardan istifadə oluna bilər. Dünya ölkələri təcrübəsində, xüsusilə bazar münasibətləri iqtisadi sistemində ümumiyyətlə dövlət borcu, o cümlədən də daxili borclar təsərrüfat həyatının normal fəaliyyəti üçün təbii və adi bir hal sayılsa da, onun yarada biləcəyi sosial-iqtisadi problemlər unudulmamalıdır.

**23.4.** Hər hansı bir dövlətin xarici ölkələrə, beynəlxalq valyuta təşkilatlarına, banklara, maliyyə-kredit qurumlarına olan borcları, dövlətin xarici borcları sayılır. XXI

əsrin birinci onilliyində dunya ölkələrinin ümumi xarici borcları bir neçə trilyon dollara yaxınlaşır. Ayrı-ayrı ölkələrin xarici borclarının məbləgi (həcmi) müxtəlifdir. Xarici borcların 15%-i zəif inkşaf etmiş ölkələrin payına düşür. Xarici borcları 100milyard dolları ötən ölkələr sırasında Braziliyanı, Meksikanı, Rusiyanı, Çini, İndoneziyanı, Hindistanı və başqalarını göstərmək olar. Postsovet və postsosialist ölkələrinin, o cümlədən Azərbaycan Respublikasının da 3 milyard dollara yaxın xarici dövlət borcu vardır. Dünyanın yüksək inkşaf etmiş ölkələr qrupuna daxil olan ölkələrinin də xeyli xarici borcları vardır.

Xarici borclar öz xarakterinə görə 2 yerə ayrılır: *birincisi,* dövlət və onun orqanlarının, habelə hakimiyyətin zəmanəti ilə bankların, şirkətlərin, sahibkarlıq fəaliyyətilə məşgul olanların aldıqları borclar; *ikincisi,* ayrı-ayrı şirkətlərin, müxtəlif təşkilatların, müəssələrin iri birliklərin, bankların başqa dövlətlərdən yaxud beynəlxalq maliyyə qurumlarından kredit kimi aldıqları borclardır. Birinci tip borclar rəsmi dovlət borcları adlanır, ikinci tip borcların məsuliyyətini konkret şirkət və banklar daşıyırlar.

Beynəlxalq təcrübədə belə qəbul olunmuşdur ki, əgər hər hansı bir ölkənin xarici dövlət borcu onun ümumi daxili məhsulunun (ÜDM) 80% səviyyəsinə çatarsa, deməli vəziyyət təhlükəlidir.

Başqa bir meyar isə dövlətin xarici borcunun həcminin, ölkənin *ixrac məbləginə* olan nisbət göstəricisidir. Əgər ölkənin xarici borcu, onun ixracının ümumi məbləğini 20% ötürsə, bu hədd təhlükəli sayılır. Şübhəsiz konkret şərait, ölkənin rastlaşdıgı problemlər və perespektivdə həllini gözləyən məsələlər bu rəqəmlərdə, göstəricilərdə dəyişikliklər yarada bilər. Lakin mütəxəsislərin fikrincə, ölkənin xarici dövlət borcunun onun ümumi daxili məhsulunun 20-25%-i həcmində olması normal hesab oluna bilər. Eyni zamanda ölkənin xarici borcunun həcmi, hazırda dünya təsərrüfat həyatında baş verən dəyişikliklərlə baglı 20-30% arasında olması mümkündür.

Dövlətlərin xarici borclarının iqtisadi-sosial nəticələrini nisbətən «yumşaltmaq» və bu prosesin mənfi cəhətlərini aradan qaldırmaq üçün beynəlxalq miqyasda, – Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Paris və London klubları səviyyəsində, habelə «8-lər qrupu» ölkələrinin dövlət başçıları görüşlərində müzakirə olunub, müəyyən tədbirlərin həyata keçirilməsi yolunda addımlar atılsa da, problemin həllindən danışmaq çətindir.

Dövlətin xarici borclarının ödənilməsi üçün aşağıdakı müxtəlif yollardan və vasitələrdən istifadə oluna bilər:

1. Ölkənin qızıl-valyuta ehtiyatları, dövlətin xarici borclarının ödənilməsinə yönəldilə bilər.
2. Xarici dövlət borclarının ödənilməsi müddəti dəyişdirilərək, həmin borcların restrukturizasiyası, yenidən rəsmiləşdirilməsi həyata keçirilir.
3. Xarici dövlət borcu olan ölkənin əmlakının, müəyyən obyektlərinin, müəssələrinin, borcun əvəzi kimi ödənilməsi, əlindən alınması mümkündür.
4. Öz xarici borclarını ödəmək üçün dövlət beynəlxalq banklara və maliyyə qurumlarına müraciət edə bilər.
5. Dövlət özünün xarici borcları problemini peşəkarlıqla həll etmək əvəzinə, ölkə əhalisini «qənaətçil olmaga», dözümlülük nümayiş etdirməyə, yaxud indiki borcları gələcək iqtisadi inkişafın hesabına ödəniləcəyi çagrışları ilə çıxış edərək, təbligat xarakterli işlərlə də məşgul ola bilər.

İqtisadçılar və mütəxəssislər, siyasi xadimlər və işgüzar biznes-sahibkarlıq dairələrinin nümayəndələri tərəfindən dövlətin istər daxili, istərsə də xarici borclarını təhlil edib qiymətləndirmək istiqamətində, eyni zamanda bu problemin həlli yolları haqqında həm müsbət, həm mənfi fikirlər səslənməkdədir. Bəzi müəlliflər göstərirlər ki, xüsusi mülkiyyət, tələb-təklif, iqtisadi sərbəstlik və rəqabət prinsipləri əsasında fəaliyyət göstərən bir sistemdə dövlətin daxili-xarici borclarının olması, tamamilə normal, habelə təbii hadisədir. Xüsusilə, müasir iqtisadi inteqrasiya və qloballaşma şəraitində, vahid dünya təsərrüfat sisteminin formalaşdıgı bir vaxtda, dövlət borcları iqtisadi inkşaf üçün ciddi əngəl sayıla bilməz.

Başqa bir qrupun mövqeyinə görə isə əksinə, müasir mərhələdə ölkələrin daxili və xarici borclarının tədricən artması meyli, həmin borcların ölkələr üzrə bölgüsü, ödəniş müddətləri, faiz dərəcələri həm indiki vəziyyəti, həm də gələcək perespektivləri baxımından böyük narahatlıq dogurur. Onların fikrincə, dövlətlərin daxili-xarici borcları ilə müasür dünya təsərrüfat sisitemində və beynəlxalq iqtisadi ticarət əlaqələrində baş verən böhran əlamətləri, qiymətlər sıçrayışı, infilyasiya, işsizlik, sosial-iqtisadi gərginliklə, əhalinin həyat səviyyəsi arasında bilavasitə yaxud dolayı yollarla əlaqə vardır. Ona görə də həm ayrı-ayrı dövlətlər, həm də nüfuzlu beynəlxalq təşkilatlar və maliyyə-kredit qurumları yaranmış mürəkkəb, eyni zamanda ziddiyyətli proseslərin qarşısını almaq üçün hüquqi, iqtisadi, inzibati-təşkilatı tənzimləmə mexanizminin ən səmərəli üsullarını işləyib hazırlamalı, ən başlıcası isə həmin vasitələrin həyata keçirilməsinə nail olmalıdırlar.

# Mövzu 24. İqtisadi artım: mahiyyəti və tipləri

**24.1** İqtisadi artımın mahiyyəti, məqsədi və göstəriciləri
**24.2** İqtisadi artıma təsir göstərən amillər
**24.3** İqtisadi artımın ekstensiv və intensiv tipləri
**24.4** İqtisadi artımın müxtəlif modelləri
**24.5** İqtisadi artım və əhalinin həyat səviyyəsi

**24.1** Qədim yunan müdriklərinin «həyat hərəkətdir» fikri, canlı orqanizmi xatırladan iqtisadiyyata da aid edilə bilər. Dünyanın və ayrı-ayrı ölkələrin çoxsahəli təsərrüfat həyatı, fasiləsiz dəyişikliklər yolu ilə inkişaf edir. Cəmiyyətin yaşayıb irəliləməsi və onun müxtəlif təyinatlı maddi-mənəvi tələbatlarının ödənilməsi prosesində öz qeyri-sabitliyi, habelə mərhələli inkişaf xüsusiyyətləri, ziddiyyətli meylləri ilə səciyyələnən iqtisadiyyatın ümumi inkişaf xətti həmişə yüksəlişə doğru olmuşdur.

Hər hansı bir cəmiyyət və onun üzvləri öz ictimai və fərdi tələbatlarını ödəmək üçün istehlak etmədən yaşaya bilmədikləri kimi, eyni zamanda istehsal prosesini fasiləsiz davam etdirmədən irəliləyə bilməzlər. Deməli, cəmiyyətin yaşayıb normal fəaliyyət göstərməsi üçün *maddi nemətlərin, iş qüvvəsinin və istehsal münasibətlərinin təkrar istehsalı zəruridir.*

Təkrar istehsal prosesi, cəmiyyətin iqtisadi əlaqələr sisteminin qarşılıqlı bir axın halında fasiləsiz hərəkəti və yeniləşməsidir. Bu proses, tarixən bütün cəmiyyətlərdə *sadə və geniş təkrar* istehsal formalarında həyata keçirilmişdir. *Sadə təkrar istehsal* müəyyən vaxt (gün, ay, il) ərzində istehsalın əvvəlki həcmdə təkrarı prosesidir. *Geniş təkrar istehsal* isə istehsalın əvvəlki müəyyən bir dövrə nisbətən, mütləq rəqəmlərlə yaxud faizlə artımını nəzərdə tutur. Müstəsna halları çıxmaq şərtilə, muasir iqtisadi inteqrasiya və qloballaşma şəraitində, dünya iqtisadiyyatı üçün geniş təkrar istehsal prosesi forması xarakterikdir.

Geniş təkrar istehsal prosesinin konkret iqtisadi-sosial nəticələri öz ifadəsini, ölkənin iqtisadi artım tempi (sürəti) göstəricilərində tapır. Onun mahiyyəti əvvəlki dövrlərə, yaxud adətən ilə nisbətən ölkədə əmtəə-məhsul istehsalı və xidmətlər göstərilməsi həcminin artımı ilə müəyyən olunur.

Bütün dünya və ayrı-ayrı milli iqtisadiyyatların timsalında, ümumiyyətlə iqtisadi artım templərinin dinamik yüksəlişini şərtləndirən səbəblər sırasında aşağıdakıları göstərmək olar:

***Əvvələn***, dünya əhalisinin sayının son 200 il ərzində sürətlə artaraq, XXI əsrin ilk onilliyində 7 milyard nəfərə yaxınlaşması, onların kəmiyyət və keyfiyyətcə yüksələn maddi-mənəvi tələbatları iqtisadi inkişafın yüksələn artım templərini zəruri edir.

***Sonra,*** mükəmməl texniki vəsaitlərin, qabaqcıl texnologiyanın, ixtisaslı kadr potensialının hazırlanması, elmi-nəzəri fikrin inkişaf prespektivləri bu sahələrə iri həcmdə investisiyalar qoyuluşunu tələb etdiyindən, həmin vəsaiti ölkənin yüksək artım templəri əsasında əldə etmək mümkündür.

***Daha sonra***, ölkənin milli təhlükəsizliyinin (hərbi və ərzaq) təmin olunması, habelə bununla bağlı digər problemlərin həll edilməsi, müvafiq istehsal-xidmət infrastrukturunun formalaşması, iqtisadi artım məsələsinə ciddi qayğı göstərilməsini irəli sürür.

***Nəhayət***, müasir inteqrasiya və qloballaşma prosesləri, milli iqtisadiyyatların beynəlxalq əmək bölgüsü prinsipləri təməlində iqtisadi-ticarət əlaqələrinin durmadan genişlənməsi, bu problemin aktuallığını sübut edir.

Milli iqtisadiyyatın templərinin artırılmasından məqsəd – ölkənin iqtisadi potensialından və istehsal imkanlarından səmərəli istifadə edib faydalanmaq əsasında, əhalinin maddi-mənəvi tələbatlarının həm kəmiyyət, həm də keyfiyyət baxımdan daha dolğun ödənilməsidir. Ölkənin iqtisadi artımının ümumiləşdirici göstəricisi sayılan ümumi daxili məhsul (ÜDM), ekonomiksin təməl prinsipləri olan «nə istehsal etməli, nə qədər və necə istehsal etməli, kim üçün istehsal etməli?»suallarını aydınlaşdırır. ÜDM-in həcmi, artım templəri, sahələr üzrə quruluşu, xərclərə və gəlirlərə ayrılması, bölgüsü bütövlükdə ölkənin iqtisadi-sosial inkişafının mənzərəsi haqqında müəyyən təsəvvür yaradır.

Tarixən müxtəlif ölkələrin obyektiv və subyektiv səbəblərlə bağlı inkişaf templəri fərqli olmuşdur. Bəzən əvvəllər zəif templərlə inkişaf etmiş ölkələr, müəyyən mərhələlərdən başlayaraq bunu daha sürətli iqtisadi artımla əvəz etmişlər. Əksinə, əvvəllər nisbətən yüksək templərlə inkişaf etmiş ölkələrin müəyyən iqtisadi-sosial inkişaf səviyyəsinə çatdıqdan sonra, həmin templərin tədricən aşağı düşərək, normal hədd çərçivəsində sabitləşməsi prosesi baş vermişdir. Bu prosesin gedişini, dünyanın hazırda yüksək inkişaf etmiş, inkişaf etməkdə olan, postsosialist ölkələrinin təsərrüfat həyatı təcrübəsində görmək olar.

Müasir dünyada illik məhsul-xidmətlərin dəyərinin 60 trilyon dolları ötdüyü və hər nəfərə orta hesabla 10 min dollara yaxın məhsul-xidmət düşdüyü hesablandığı halda, ayrı-ayrı ölkələr üzrə bu ümumiləşdirici göstərici bir neçə yüz dollardan başlayaraq, 60 min dollara qədər fərqlənir. Eyni zamanda ölkə əhalisinin sayı və keşdiyi həyat yolu da, ümumiləşdirici iqtisadi-sosial göstəricilərə öz təsirini göstərir. Məsələn, Çin Xalq Respublikası, Hindistan, İndoneziya kimi ölkələrin ümumi daxili məhsulunun (ÜDM) həcmi Danimarka, Macarıstan, Belçika kimi ölkələrdən 10 dəfələrlə çox olsa da, lakin hər nəfərə düşən əmtəə-xidmətlərinin həcminə görə birinci qrup ölkələr, ikinci qrup ölkələrlə müqaisə olunmayacaq qədər hələlik geridədirlər.

Bu ziddiyətli vəziyyət, kəskin fərq və müxtəlif ölkələrin əhalisinin həyat səviyyəsi barədə fikirləşdikdə, tanınmış iqtisadçı Robert Lukasın (ABŞ) dediyi kimi «faktlar o qədər heyrətləndiricidir ki, onlar haqqında düşündükcə, artıq başqa şeylər barədə düşünmək mümükün deyil.»

Maraqlı və təzadlı cəhət bundan ibarətdir ki, planet miqyasında ümumi tərəqqi, inkişaf, yaşayış səviyyəsindəki irəliləyişlər danılmaz olsa da, lakin istər dünyada, istərsə də müxtəlif ölkələrdə cəmiyyətin sosial təbəqələşməsinin yaratdığı faciəli fərqlər tədricən zəifləmək əvəzinə, əksinə gərginləşməyə doğru meyli etməkdədir.

Birləşmiş Millətlər Təşkilatı tərəfindən tövsiyyə olunan *İqtisadi İnkişaf İndeksi* (İİİ) ümumiləşdirilmiş şəkildə hər hansı bir ölkənin təkcə iqtisadi göstəricilərini deyil, eyni zamanda kompleks halında onun həm də sosial (təhsil, kadr hazırlığı, maarif, orta ömür, mənzil şəraiti, yaşayış səviyyəsi) parametrlərini özündə əks etdirir. Həmin, daha dolğun ümumiləşdirici sosial-iqtisadi göstəriciyə görə dünya ölkələri aşağıdakı ardıcıllıqla sıralanırlar:

Buradan aydın olur ki, ölkənin ümumi iqtisadi yüksəlişi və artım templəri ilə onun ictimai (sosial) inkişaf səviyyəsinin göstəriciləri arasında, şübhəsiz qarşılıqlı əlaqə olsa da,

lakin müasir sivil ümumiləşdirici dəyərlər (parametrlər) baxımından bunlar müəyyən mənada fərqli anlayışlardır. «8-lər» qrupuna daxil olan dövlətlərdən yalnız 5-inin ilk onluğa daxil olması bunu təsdiq edir.

| | | | |
|---|---|---|---|
| I. | Kanada | VII. | Avstraliya |
| II. | Yaponiya | VIII. | Fransa |
| III. | Norveç | IX. | Niderland |
| IV. | İsveçrə | X. | İngiltərə |
| V. | İsveç | XI. | İslandiya |
| VI. | ABŞ | XII. | Almaniya |

**24.2** ***<u>İqtisadi artım</u>*** – mühim makroiqtisadi anlayış kimi təkcə istehsalın ümumi həcminin artmasını deyil, eyni zamanda iqtisadi sistemin cəmiyyətin artan tələbatlarının daha dolğun ödənilməsini və insanların həyat səviyyəsinin keyfiyyətini yüksəltmək qabiliyyətini özündə əks etdirir.

Cəmiyyətin iqtisadi sisteminin bu tələblərə *səmərəlilik, faydalıq, məhsuldarlıq* prinsipləri mövqelərindən cavab verməsi üçün *iqtisadi, siyasi* və *sosial* amillərin qarşılıqlı əlaqəli kompleks halında fəaliyyəti lazımdır. İqtisadi amillərin təsnifatına və sayına dair müxtəlif iqtisadçıların, yaxud qrupların fərqli fikirləri vardır. Bu mövqelərdə iqtisadi artıma təsir göstərən amillər kəmiyyət və keyfiyyət baxımından qruplaşdırılmışdır. Həmin amillərin sayı 2-dən başlayaraq (əmək haqqı və kapital) 23-ə qədər (əməklə bağlı-4, kapitalla bağlı-4, torpaqla bağlı-1, elmi-texniki tərəqqi ilə bağlı-14) artırılmışdır.

İstehsal amilləri anlayışı – *<u>torpaq</u>*, *<u>kapital</u>*, *<u>əmək şərtləri</u>* (ünsürləri) vəhdətində, hər bir istehsalın əsası kimi fransız iqtisadçısı J.B.Sey (1767-1832) tərəfindən irəli sürülərək, elmi dövriyəyə daxil edilmişdir. XIX əsrin ikinci yarısından marjinalist nəzəriyyənin tərəfdarları, istehsalın bu üç amili sırasına *<u>sahibkarlıq fəaliyyətini</u>* də əlavə edərək, onun istehsalın dördüncü amili olduğunu əsaslandırmışlar. Eyni zamanda istehsalın yalnız iki amil – *<u>əmək</u>* və *<u>kapital</u>* əsasında aprıldığı, habelə bu amillərdən başqa digərlərinin (torpağın, elmi-texniki tərəqqinin, mütərəqqi texnologiyaların) «törəmə» xarakter daşıyaraq, «ikinci dərəcəli» əhəmiyyətə malik olduğunu söyləyənlər də vardır. İqtisadi artımın və cəmiyyətin tərəqqisinin digər dörd amildən ibarət (insan resursları, təbii resurslar, kapital – texnologiya və sahibkarlıq) olduğunu göstərən Nobel mükafatı laureyatı P.Samuelsonun (ABŞ) mövqeyi də böyük maraq doğurur.

«Ekomomics» kitabının müəllifləri K.R.Makkonnell və S.L.Bryu iqtisadi artıma təsir göstərən *<u>4 təklif və 2 tələb</u>* amili olduğunu irəli sürürlər. Həmin amillər aşağıdakılardır:

***Təklif amilləri:*** təbii resursların kəmiyyət və keyfiyyət artımı; əmək resurslarının kəmiyyət və keyfiyyət artımı; əsas kapitalın təklifinin (həcminin) artımı; texnoloji tərəqqi.

İqtisadi artımın bu 4 təklif amili, ölkənin ümumi daxili məhsulunun (ÜDM) və milli iqtisadiyyatın potensialının artmasının *fiziki, intelektual, texniki-texnoloji şərtlərini təşkil edir.*

***Tələb amilləri:*** a) təklif amilləri sayəsində istehsalın artan həcmi, ölkənin ev təsərrüfatları, biznes və dövlət orqanlarının müxtəlif təyinatlı tələblərini öz növbəsində yüksəltməli, yəni onların məhsul-xidmətlərə sərf etdikləri məcmu xərcləri çoxaltmalıdır; b) istehsal və əmək resurslarının bölgüsü, habelə istifadəsi onlardan faydalanmağın yüksək səmərəlilik səviyyəsini təmin etməlidir.

İqtisadi artımın bu iki tələb amili, istehsalın genişlənən həcminin həm <u>*daxili bazarda*</u>, həm də məhsul və xidmətlərin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi sayəsində <u>*xarici bazarlarda*</u> reallaşdırılması (satışı və ixracı) imkanlarını müəyyənləşdirir. Aydındır ki, yalnız istehsalın təklif etdiyi məhsul və xidmətlərin ölkə daxilində, habelə beynəlxalq miqyasda mövcud tələblərə cavab verərək onları təmin etməsi, iqtisadiyyatın gələcək inkişafı üçün etibarlı zəmin yarada bilər. Başqa sözlə, istehlakçıların məcmu xərclərinin artım tempi, ölkənin milli gəlirinin artım tempindən aşağı olmamalıdır. Əks halda, bu iqtisadi tarazlığın pozulması, iqtisadi inkişafın artımı templərinin zəifləməsi, işsizlik və infilyasiya prosesləri ilə nəticələnə bilər.

İstehsalın tələb və təklif amilləri arasında olduğu kimi, eyni zamanda bu amillərlə onların cəmiyyət miqyasında ***səmərəli bölgüsü, qənaətlə istifadəsi, ölkənin ümumi daxili məhsulunun (ÜDM) artım templəri, ictimai istehsalın son faydalığı*** arasında sıx əlaqə, habelə qarşılıqlı asılılıq vardır.

Cəmiyyətdə iqtisadi artım o zaman mümkündür ki, təklifin yuxarıda qeyd olunmuş 4 amili, istehsal imkanlarının mövcud hüdudlarını daha da genişləndirərək, onun yüksəliş templərini təmin etsin. Bu prosesi qrafik sxem şəkilində aşağıdakı kimi təsvir etmək olar:

***İqtisadi artım və istehsal imkanları əyrisi***




İqtisadi artım və istehsal imkanları sxemindən aydın olur ki, təklif amillərindən hər birində baş verən kəmiyyət və keyfiyyət dəyişikliyi, AB əyrisinin soldan sağa və yuxarıya doğru CD istiqamətində hərəkətinə səbəb olur. İqtisadi artım, cəmiyyətin tələblərinin sonsuz, iqtisadi resursların məhdudluğu baxımından o həddə qədər yüksələ bilər ki, istehsal olunan məhsul-xidmətlərinin son faydalılıq həddi (MU), həmin məhsul xidmətlərinin son hədd xərclərini (MC) (MU>MC) ötsün yaxud bunlar bir-birinə uyğun (MU=MC) olsun. Deməli istehsal imkanları ilə iqtisadi artım, habelə onun templəri arasındakı optimal nisbət, nə qədər çətin olsa da maksimum faydalılıq prinsipi əsasında formalaşmalıdır.

Cəmiyyətin tərəqqisinin və insanların həyat səviyyəsinin yaxşılaşmasının əsas şərti sayılan iqtisadiyyatın artım templəri məsələsi, ilk baxışda başa düşülən olsa da, təəssüf ki, mütəxəssislər arasında bu ideyanın həm tərəfdarları, həm də əleyhidarları olduğu kimi

neytral mövqeydə dayanaraq, inkişaf templərinin elə olduğu səviyyədə, yəni sıfır hədd çərçivəsəndə saxlanılmasını irəli sürənlər də vardır.

İqtisadi artım templərinin yüksəldilməsi tərəfdarları əmindirlər ki, yalnız bu yolla ölkədə və dünyada maddi-mənəvi nemətləri artırmaq, yoxsulluğu və işsizliyi aradan qaldırmaq, insanlara rahatlıq yaratmaq və onların «əsl sərvəti» sayılan asudə vaxt hesabına şəxsiyyətin hərtərəfli inkişaf edib formalaşmasına nail olmaq mümkündür.

İqtisadi artım templərinin yüksəldilməsi əlehdarları bu fikirdədirlər ki, hədsiz sənayeləşdirmə və sürətli irəliləyiş yolu, bəşəriyyətin gələcək fəlakətlərinin zəmini olub, planetin təbii sərvətlərini, iqtisadi resurslarını azaldır, qlobal miqyasda istiləşmə yaradır, atmosverin zəhərlənməsini gücləndirir, təbiətlə insan arasındakı normal münasibətləri pozur, ətraf mühiti korlayır, ekoloji problemləri gərginləşdirir.

Şübhəsiz, bu mürəkkəb və ziddiyyətli problemlərin həlli yolları barəsində hazır variant yoxdur. Hər bir ölkə öz keçdiyi inkişaf yolu, çatdığı iqtisadi-sosial səviyyə, qarşılaşdığı problemlər, ən başlıcası isə prespektiv məqsəd və vəzifələri baxımından real imkanlarını düzgün qiymətləndirərək hərəkət etməlidir.

**24.3** İqtisadi artımın müxtəlif ölkələrin təsərrüfat həyatı təcrübəsində özünü təsdiq edib göstərmiş *ekstensiv* və *intensiv* kimi 2 tipi vardır. Dünyanın bütün ölkələrində iqtisadiyyatın inkişaf yolu, bu iki tip artımın hər hansı birinin üstünlüyü, yaxud hər ikisinin müəyyən nisbətdə qarşılıqlı əlaqəsi şəraitində baş vermişdir və müasir dövrdə də həmin proses davam etməkdədir.

***Ekstensiv artım*** – istehsal prosesinə əlavə iş qüvvəsi və digər iqtisadi resurslar cəlb olunması, lakin istehsalın əvvəlki texnika-texnalogiya əsasında həyata keçirilməsidir. İqtisadi artımın ekstensiv tipi şəraitində də ölkənin təsərrüfat həyatının müxtəlif sahələrinin inkişafı davam edir və cəmiyyətin, insanların müxtəlif təyinatlı maddi-mənəvi tələbatları ödənilir. Lakin bu tipli iqtisadi artım zamanı mövcud maddi-texniki baza və texnologiya əvvəlki səviyyədə qaldığından, cəmiyyətin hərtərəfli normal inkişafı, habelə gələcək yüksəlişin həlledici şərti sayılan, əmək məhsuldarlığının kəmiyyətcə artımı təmin olunmur. Milli iqtisadiyyatın ekstensiv inkişaf tipi bütövlükdə, yaxud istehsal-xidmət dairəsinin ayrı-ayrı sahələrində, yeni texniki vəsaitlərin, qabaqcıl texnologiyalarının tətbiqini ləngitdiyindən, şübhəsiz məhdud iqtisadi resurslardan səmərəli istifadə olunmasına ciddi əngəllər yaradır. Aydındir ki, iqtisadi artımın bu tipi uzun müddət davam edərsə, tədricən istehsal prosesi üçün zəruri olan iqtisadi resursların qiyməti bahalaşacaq, bu isə öz növbəsində satışa çıxarılan əmtəələrin, istehsal-məişət xarakterli xidmətlərin bazar qiymətlərinin yüksəldilməsinə səbəb olacaqdır. Müasir dövr, iqtisadi inteqrasiya və qloballaşma proseslərinin tələbləri baxımından, tələbatların sonsuzluğu və resursların tədricən tükənən məhdudluğu şəraitində, istər dünya, istərsə də ölkə miqyasında ekstensiv artım tipi xətti, son iqtisadi-sosial nəticələri baxımından səmərəli sayıla bilməz.

***İqtisadi arımın intensiv tipi*** yeni texnika-texnologiya bazasında, qənaət rejimini həyata keçirməklə və əmək məhsuldarlığının yüksəldilməsi əsasında istehsal-xidmət dairəsi sahələrinin inkişafını nəzərdə tutur. Deməli iqtisadi artımın intensiv tipi, istehsalın sadəcə kəmiyyət artımı deyil, həmin artımın keyfiyyət göstəricilərini və səmərəliyini özündə əks etdirir. İntensiv iqtisadi inkişaf tipi həyata keşirildikdə sənaye sahələrində daha yüksək əmək məhsuldarlığını təmin edən yeni texnika-tenologiyadan istifadə olunur, kənd təsərrüfatında məhsuldar toxum növlərinin tətbiqi genişlənir, cins mal-qara saxlamağa

qayğı artırılır, suvarma şəbəkələri yenidən qurulur, ziyanvericilərə qarşı xeyli təsirli mübarizə vasitələri meydana çıxır, xidmət dairəsinin maddi-texniki bazası yeniləşdirilir, istehsal və məişət xarakterli xidmət üsulları keyfiyyətcə təkmilləşdirilir, işçilərin əmək şəraitinin yaxşılaşması, onların həyat səviyyəsinin yüksəldilməsi üçün real imkanlar yaradılır.

Təsərrüfat həyatı təcrübəsində ***xalis*** yaxud ***təmiz*** şəkildə ekstensiv və intensiv inkişaf tipi olmur. Müxtəlif ölkələrdə milli iqtisadiyyatın ayrı-ayrı sahələri (maşınqayırma, kənd təsərrüfatı, xidmət dairəsi) ola bilər ki, ekstensiv yolla, başqa sahələri (emal, elektron, sənaye, rabitə-məlumat dairəsi) isə intensiv yolla inkişaf etdirilsin. Şübhəsiz, bu ilk növbədə hər hansı bir ölkənin konkret iqtisadi imkanları, keçdiyi inkişaf yolu və çatdığı müəyyən iqisadi-sosial göstəricilərlə bağlıdır.

Lakin, müasir dövrdə elmi-texniki tərəqqinin nailiyyətləri, daxili və beynəlxalq bazarda genişlənən rəqabət mübarizəsinin ciddiliyi, qənaət rejiminə əməl olunması, alıcı zövqünün dəyişkənliyi, nəhayət ***qiymət problemi*** mövcud iqtisadi resurslardan ən yeni texnika-texnologiya bazası təməlində, yüksək məhsuldarlıqla səmərəli istifadəni tələb edir.

Müasir iqtisadi-sosial inkişafın bu meyarları istər şirkət, müəssisə, birlik (mikroiqtisadi), istərsə də milli iqtisadiyyat (makroiqtisadi) səviyyələrdə ölkənin artım templərinin intensiv tipinə üstünlük verilməsini irəli sürür.

Obyektiv-subyektiv səbəblərlə bağlı müxtəlif ölkələrdə milli iqtisadiyyatın inkişaf templərinin intensiv yaxud ekstensiv amillər hesabına artım nisbəti xeyli fərqlidir. Lakin hər hansı bir ölkədə iqtisadi artımın yarıdan (50%-dən çox) artıq hissəsinin ekstensiv yaxud intensiv amillər hesabına artmasından asılı olaraq, bütövlükdə istehsalın hansı yolarla irəlilədiyini müəyyənləşdirmək mümkündür. Əlbəttə, real həyat və təsərrüfatçılıq təcrübəsində, ekstensiv ya intensiv inkişaf yolları bir-birindən sərt sərhədlərlə ayrılmamışdır. Bu iqtisadi artımın hər iki tipi qarşılıqlı təsir və əlaqələr çərçivəsində milli iqtisadiyyatın inkişafına xidmət edirlər. İqtisadi inkişaf həmişə müəyyən investisiyalar tələb etdiyi kimi, həmin investiyalar da istehsalın keyfiyyıtcə dəyişməsinin əsasını təşkil edir. Ona görə də real iqtisadi arım və onun templərini təhlil etdikdə, ***üstün intensiv*** və ***üstün ekstensiv*** anlayışlardan istifadə olunur.

İqtisadi artımın ekstensiv və intensiv tipini, habelə milli iqtisadiyyatın yüksəlişindəki qarşılıqlı təsirini aşağıdakı sxemdən görmək olar:



İqtisadi artımın müasir inkişaf mərhələsində getdikcə daha mühüm və həlledici bir rol oynayan üstün intensiv tipinin 3 meyli, yaxud forması – ***fondtutumlu, resursqoruyucu, fondaneytral*** vardır.

***Fondtutumlu forma*** istehsal prosesləri gedişində, tədricən burada tətbiq olunan canlı əməyin ixtisar olunub azaldığını əks etdirməklə yanaşı, eyni zamanda ***ümumi xərclərdə*** istehsal vasitələrinin (texnika-texnologiya) payının artması, yaxud ***əməyin fondlarla*** (texniki vasitələrlə) silahlanmasının yüksəldilməsi ilə səciyyələnir. Başqa sözlə, iqtisadi artımın intensiv tipinin bu meyli, istehsal prosesinin müxtəlif mərhələlərində texniki-texnoloji iş əməliyyatlarının insanın fiziki, əzələ qüvvəsi ilə deyil, texnika, habelə yeni mütərəqqi texnologiya ilə həyata keçirildiyini göstərir.

İqtisadi artımın intensiv tipinin ***resursqoruyucu*** forması üçün istehsal prosesində eyni vaxtda hər məhsul vahidinə sərf olunmuş həm ***canlı*** *əməyin,* həm də ***istehsal vasitələrinin (fondlarının)*** payının qənaəti xarakterikdir.

***Fondaneytral forma*** isə iqtisadi artım prosesinin intensiv tipinin xüsusi hallardakı özünəməxsus cəhətlərini əks etdirərək, ***fondtutumlu və resursqoruyucu*** meyllər arasındakı ən optimal həddləri müəyyənləşdirməyə imkan yaradır.

Qeyd etmək lazımdır ki, iqtisadi artımın intensiv tipinin bu üç meyl və formaları, təsərrüfat həyatının inkişafının ayrı-ayrı mərhələlərində müstəqil sürətdə deyil, qarşılıqlı əlaqə, habelə bir-birinə təsir dairəsində fəaliyyət göstərmiş, göstərir şübhəsiz ki, gələcəkdə də göstərəcəklər. Doğrudur, iqtisadi inkişafın intensiv tipinin həyata keçirilməsinin müəyyən mərhələsində bu üç formadan hansısa biri üstün rol oynaya bilər. İqtisadi inkişafın qeyri-sabitliyi və qeyri-bərabərliyi qanunauyğunluğu, bu vəziyyəti tamamilə təbii bir prosesə çevirir. Bu mənada, milli iqtisadiyyatın intensiv tipinin formalarından bəzən birinin, bəzən də digərinin üstünlük təşkil etməsi, məsələnin mahiyyətini dəyişməyərək, onların birgə qarşılıqlı fəaliyyətinin nəticəsidir.

**24.4** İqtisadi artım modelləri, real iqtisadiyyatın sadələşdirilmiş ifadəsi, yaxud formasıdır.

Bu modellər vasitəsilə iqtisadçılar və mütəxəssislər ölkənin təsərrüfat həyatında baş verən müxtəlif istiqamətli mürəkkəb prosesləri təhlil edərək, mövcud real vəziyyəti sadələşdirilmiş formada, müəyyən model (variant) qurmaq əsasında ifadə edirlər.

İqtisadi modelləri mütləq mənada başa düşüb qəbul etmək doğru deyil. Ona görə ki, əslində heç bir model yaxud variant real təsərrüfat həyatını tam dəqiqliyi ilə əks etdirə bilməz. Çünki canlı orqanizmi xatırladan, tələblə təklifin dəyişkənliyi əsasında formalaşan qiymət və rəqabətlə bağlı ziddiyyətli vəziyyətin mürəkkəbliyini özündə əks etdirən ***iqtisadi modellər*** ən yaxşı halda iqtisadiyyatda gedən prosesləri həmin dövr üçün aydınlaşdıra bilər. Bu mənada, iqtisadi modellərin dəqiqliyi real təsərrüfat həyatında baş verən çoxcəhətli prosesləri tam əks etdirə bilməsi, sırf nisbi və nəzəri-metodoloji xarakter daşıyır.

Təsərrüfat əlaqələrinin genişləndiyi, beynəlxalq əmək bölgüsünün dərinləşdiyi, infilyasiya, işsizlik problemlərinin kəskinləşdiyi müasir şəraitdə, iqtisadi modellər olmadan, ölkənin təsərrüfat həyatının mövcud və perspektiv inkişaf (artım) modellərini (variantlarını) qurmadan keçinmək mümkün deyildir. Ona görə də dünyanın müxtəlif

ölkələri, bir-birindən fərqli iqtisadi artım modellərindən, yaxud həmin modellərin müəyyən cəhətlərindən istifadə edirlər.

İqtisadi modelləri tərtib edib qurmaq və təsərrüfat həyatına tətbiq etmək üçün cəmiyyət miqyasında əmtəələrin, habelə xidmətlərin fasiləsiz axını şəraitində, onların bir sistem halında həm xərclərini, həm də nəticələrini (gəlirlərini) müqaisə etmək lazımdır.

Bu mühüm məsələnin ilk tədqiqatçısı tanınmış fransız iqtisadçısı Fransua Kene (1694-1774) sayılır. O, 1758-ci ildə nəşr olunmuş «İqtisadi cədvəl» əsərində ölkənin milli iqtisadiyyatının ibtidai şəkildə balansını vermişdir. Doğrudur, F.Kene bunu yalnız kənd təsərrüfatının timsalında hesablamış və elə düşünmüşdü ki, ölkədə istehsal olunan bütüm məhsullar ilk növbədə yalnız torpaqla bağlıdır. Lakin bu məhdud cəhətə baxmayaraq, F.Kenenin modeli məsələnin ilkin qoyuluşu və araşdırılması baxımından böyük maraq doğurur.

Sonralar bu problem öz davamını və əksini Karl Marksın (1818-1883) «Kapital» əsəində tapmışdır. Onun iqtisadi təlimində bütövlükdə ictimai istehsal, istehsal vasitələri istehsalına (I bölmə) və istehlak şeyləri istehsalına (II bölmə) ayrılmışdı. Lakin bu bölgü əsasında iqtisadiyyatda baş verən, yaxud verəcək proseslərin elmi izahı və siyasətləşdirilmiş iqtisadi-sosial nəticələrinə dair fikirlər real həyatda özünü doğrultmadı. Çünki, məlumdur ki, hər hansı bir ölkənin milli iqtisadiyyatında yalnız 2 iri təsərrüfat bölməsi deyil, yüzlərlə digər sahə və yarımsahə, habelə digərləri də iştirak edir.

XX əsrin əvvəllərində Nobel mükafatı laureatı Vasiliy Leontyev (ABŞ) tərəfindən «istehsal xərcləri və məhsul buraxılışı» modeli yaradılmışdır. Bu modeldə şahmat taxtası formasında tərtib olunmuş cədvəldə, iqtisadiyyatda ***maddi və dəyər (pul ifadəsində) axınlarının*** hərəkəti təsvir olunmuşdur. ***Sahələrarası balans*** adlanan V.Leontyev modeli: a) maddi xərclər; b) son məhsul; c) xalis məhsul; ç) xalis məhsulun yenidən bölgüsü kimi 4 hissəni əhatə edir. Bu cədvəl elə qurulmuşdur ki, oradakı ***üfüqi sıralardakı göstəriciləri (xərcləri) şaquli sıralardakı gəstəricilərə (hazır məsula)*** bölmək yolu ilə müxtəlif sahələrin ümumi daxili məhsul həcmindəki xüsusi çəkisini (payını) tapmaq mümkündür.

Tarixi və məntiqi ardıcıllıq baxımından iqtisadi artım modelləri çoxsaylı olsa da, lakin əsasən aşağıdakılardan ibarətdir: ***klassik model***, ***keynsçi modellər***, ***neoklassik modellər***, ***tarixi-ictimai modellər***, ***monetar model.***

***<u>Klassik model</u>***. Klassik tarazlı dinamik model kimi səciyyələnən iqtisadi artımın bu variantı, məcmu tələblə məcmu təklifin qiymət mexanizminə əsaslanır. Bu tip modelin əsasında fransız iqtisadçısı J.B.Seyin adı ilə bağlı «Sey qanunu» durur. Həmin qanuna görə əmtəələrin təklifi, elə bu təklifə uyğun da tələb yaradır. Başqa sözlə, cəmiyyətdə ictimai əmək bölgüsünə əsasən hər bir istehsalçı öz əmtəəsinin əvəzində, qarşılıqlı surətdə nə isə əldə etmək üçün əmtəə-xidmət hazırlayır. Deməli, konkret əmtəə-mal-xidmət istehsalçısı yalnız öz məhsulu həcmində, yaxud onun qiymətinə uyğun məbləğdə nə isə başqa əmtəələr-xidmətlər əldə edə bilər. Ona görə də bütövlükdə cəmiyyət miqyasında nə qədər tələb (alqı) varsa, təxminən bir o qədər də təklif (satqı) olur.

Lakin məlumdur ki, bazar iqtisadiyyatı şəraitində heç də həmişə belə olmur. Tarazlıq hər hansı bir anda pozula bilir. Çünki adamlar gəlirlərini tam xərcləməyərək, yığıma üstünlük verirlər. Belə olduqda, istehsalçıların (biznesmenlərin, sahibkarların) xərclərinin müəyyən hissəsi kreditlər hesabına həyata keçirilir.

Belə meyl tələb edir ki, əhalidəki yığımla istehsala yönəldilən sərmayə qoyuluşları arasında müəyyən bir tarazlıq, balans olsun. Həmin model təxminən 100 il, XX əsrin 30-cu illərinə qədər davam etmişdi. Lakin 1929-1933-cü illəri əhatə edən iqtisadi böhrandan sonra bu iqtisadi artım modeli artıq özünü doğrultmamışdır.

b) ***Keynsci modellərdə*** cəmiyyətin təsərrüfat həyatında iqtisadi tarazlığın təmin olunması üçün alıcıların, müştərilərin tələbi həlledici amil, əsas rol kimi götürülür.

Bu modellərdə sübut olunur ki, tələblə-investisiya qoyuluşları həcminin optimal variantının tapılması, nəticə etibarı ilə cəmiyyət miqyasında gəliri artırır.

Keynsciliyə əsaslanan dinamik ***Domar modeli*** ilk keynsci modellərdən fərqli olaraq, investisiyalara təkcə gəlirləri artırmaq amili kimi deyil, həm də yeni istehsal gücləri yaratmaq vasitəsi kimi baxır. Bu modelə əsasən, tələb-təklifin dinamik sürətdə balanslaşdırılması, yeni istehsal güclərini və gəlirlərin əmələ gəlməsini şərtləndirir.

***Harrod modeli*** isə, bir növ Domar modelinin daha da inkişafıdır. Lakin əgər Domar modeli gəlirlə-investisiyaların nisbətinə, yəni

$$\frac{\text{gəlirlər}}{\text{investisiyalar}} = \text{multipilikator}$$

göstəricisinə əsaslanırsa, Harrod modeli istehlakla – investisiyaların nisbətinə, yəni

$$\frac{\text{istehlak}}{\text{investisiyalar}} = \text{akselerator}$$

gösəricisinə üstünlük verir. Deməli Harrod modeli, iqtisadi inkişafı balanslaşdırılmış gəlir norması ilə kapital qoyuluşları (investisiyalar) arasındakı nisbətlər əlaqəsi ilə müəyyən edir.

c) ***Neoklassik modellərin*** əsasında, bütövlükdə kapital və istehsal amillərinin nisbəti durur. Deməli bu modelin təməlində bir deyil, iki amil dayanır. Həmin modelə əsasən ÜDM-un istehsalının artması, istehsalın müxtəlif amillərinin ayrı-ayrı variantları (kombinasiyası) hesabına əldə olunur, yəni əmək və kapital hesabına həyata keçirilir. ***Amillər modeli*** adını almış ***Kobba-Duqlas modeli*** (bəzən buna istehsal funksiyası modeli də deyilir) belə ifadə olunur.

$V=A\ (L^{a}\ K^{\beta})$

Burada V-isehsalın həcmi (dəyər, pul, qiymət formasında)

L= Əmək məsrəfləri

K= Əsas fondlar (dəyət, pul formasında)

A= K, L və V-nın həcmindən asılı olaraq nisbət əmsalıdır.

a, β, = elastiklik əmsalıdır.

Bu iqtisadi artım modelinin inkişafı R.Soluonun, B.Uollanun, E.Denisonun sonrakı tədqiqatlarında öz əksini tapmışdır.

Onların model və hesablamalarında digər amillər də, (məsələn əsas kapitalın, binaların, avadanlığın, dəzgahların istifadə müddəti, istehsalın həcmi, işçilərin peşə ustalığı, iş gününün uzunluğu) nərəzə alınır.

Ümumiyyətlə iqtisadi nəzəriyyə və ədəbiyyatda ***Kobba-Duqlas modeli – amillər modeli***; ***Keyns modeli – qısa müddətli iqtisadi tazazlıq modeli; Harrod-Domar modeli – dinamik tarazlıq modli*** adlandırılır.

ç) ***Tarixi-sosioloji model*** tərəfdarları (U.Luis, C.Şpenkler, M.Rostau, C.Helbereyt və başqaları) sübut edirlər ki, iqtisadi artım sürəti təkcə iqtisadi amillərin təsiri ilə deyil, eyni zamanda ictimai təsisatların, yəni dövlətin, mülkiyyət formalarının, rəqabətin, vergilərin, ictimai psixologiyanın, əhalinin artım surəti, ailənin tərkibi kimi amillərdən də asılıdır.

Deməli ölkənin təsərrüfat həyatına hüquq, sosial, psixoloji, siyasi, mədəni-əxlaqi şərtlər kompleksi təsir göstərir. Bu cür mövqedən çıxış edənlərə institusionalizm nəzəriyyəsi tərəfdarları da deyilir. Onların fikirincə, neoklassiklər real iqtisadi həyat gerçəkliklərini olduqca bəsit, hətta müəyyən mənada təhrif olunmuş şəkildə təsəvvür etmişlər.

Belə bir cəhəti də qeyd etmək vacibdir ki, institusionalistlər iqtisadiyyatın predmetini xeyli genişləndirmişlər. Onlar cəmiyyətdə sosial proqramların genişləndirilməsi zərurətini irəli sürmüş, eyni zamanda bu inkişafı və onun müxtəlif çoxşaxəli problemlərinin həllində başlıca üstünlüyü texnikaya, onun dəyişdirici roluna ayırmışlar.

Daha sonra bu nəzəriyyə tərəfdarları ümimiyyətlə cəmiyyətin, xüsusilə də onun indiki mərhələsinin mənfi meyllərinə qarşı mübarizəni ayrı-ayrı adamların aparması mövqeyini tənqid edərək göstərirlər ki, bu işi cəmiyyətin bütün təşkilat, habelə təsisatları aparmalıdır.

Nəhayət onların fikrincə, dövlətin cəmiyyət həyatindaki əsas rolu ekologiya, təhsil, səhiyyə sahələrinə himayədarlığı öz üzərinə götürməklə məhdudlaşmalıdır.

d) ***Monetar model***, son illərdə iqtisadiyyatda baş verən staqflyasiya, yəni eyni vaxtda baş verən həm yüksək işsizlik səviyyəsi, həm də artan infilyasiya (qiymətlərin qalxması, pulun qiymətdən düşməsi) şəraitində meydana çıxmışdır. Məhz belə bir, əvvəllər təsərrüfat həyatında təsadüf edilməmiş meyyllər monetar modelin formalaşmasına ehtiyac yaratmışdır.

ABŞ iqtisadçısı, Nobel mükafatı laureatı Milton Fredmenin adı ilə bağlı olan monetar model, iqtisadiyyatı düşdüyü, rastlaşdığı mürəkkəb staqflyasiya vəziyyətindən qurtarmağa yönəldilmişdir. Bu modelin əsas məqsədi – iqtisadi prosesləri «saxlamaq, ləngitmək siyasəti» olub, əhalinin gəlirini müəyyən çərçivə daxilində məhdudlaşdırmaqdır ki, cəmiyyət miqyasında ümumi tələb müəyyən həddi aşmasın. Həmin siyasətin ifadəsi kimi əhaliyə verilən ödənişlər, dövlət xərcləri azaldılır, tədavüldə olan pul kütləsinin üzərinə ciddi nəzarət qoyulur, «şərt» pul-kredit siyasəti, yüksək bank faizi tətbiq olunur. Aydındır ki, belə bir iqtisadi modelin tətbiqi bir tərəfdən inflyasiya prosesini aşağı salmağa imkan verirsə, digər tərəfdən işsizliyin artmasına səbəb olur. Eyni zamanda qiymətlərin sərbəstliyi bazar amillərinə geniş meydan açaraq, istehsalın bərpası və inkişafına şərait yaradır.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən iqtisadi artım modellərinin hamısında müəyyən çatışmazlıqlar vardır. Ən optimal yol, ölkənin konkret iqtisadi-sosial vəziyyətindən çıxaraq, bu modellərin ən uyğun olanından, yaxud onların ünsürlərindən kompleksli surətdə bacarıqla istifadə edilməsidir.

**24.5.** Yeni texnika-texnologiya və istehsal xərclərinin azaldılması əsasında əmək məhsuldarlığının yüksəldilməsi xətti, müasir «***yeni iqtisadiyyat***» adlandırılan dövrün səciyyəvi xüsusiyyəti olub, milli iqtisadiyyatın artım templərinin yüksəldilməsində həlledici rol oynayır.

Lakin iqtisadi artım templəri və sosial-iqtisadi inkişaf prosesinin ümumiləşdirici göstəricisi saylan ÜDM-un istər mütləq həcmi, istrsə də hər nəfərə düşən kəmiyyəti, şübhəsiz özünməqsəd olmayıb, cəmiyyətin habelə ölkə əhalisinin müxtəlif təbəqələrinin artan tələbatlarının ödənilməsi, insanların həyat səviyyəsinin yaxşılaşdırılmasıdır.

Ölkə əhalisinin həyat səviyyəsi dedikdə, insanların yaşaması üçün zəruri sayılan maddi və mənəvi nemətlərlə onlarla təmin edilməsi, habelə müxtəlif təyinatlı tələbatlarının ödənilməsi başa düşülür. Həyat səviyyəsi anlayışı bir tərəfdən insanların tələblərinin tədricən artdığını, digər tərəfdən isə həmin tələblərin necə ödənildiyini göstərir. Müxtəlif ölkələrin təbii-coğrafi şəraitindən, yeraltı-yerüstü sərvətlərindən, iqtisadi resurslarından, çatdığı iqtisadi-sosial inkişaf səviyyəsindən asılı olaraq, əhalinin və onun ayrı-ayrı təbəqəlrinin həyat səviyyəsi göstəriciləri fərqlidir. Əhalinin həyat səviyyəsi və onun göstəricilərinin yüksəliş dinamikası, yaxud aşağı düşməsi meylləri, şübhəsiz iqtisadi sistemdən, hökumətin həyata keçirdiyi iqtisadi siyasətdən, əhalinin sosial müdafiəsi tədbirlərindən xeyli dərəcədə asılıdır.

BMT-nin tövsiyyəsi ilə əhalinin həyat səviyyəsi anlayışı, aşağıdakı 12 qrup göstərici əsasında müəyyənləşdirilir:

1. Əhalinin demoqrafik vəziyyəti, doğum, ölüm, cins, yaş, orta ömür və sairə.
2. Həyat şəraitinin sanitar-gigiyena göstəriciləri.
3. Ərzaq məhsullarının istehlakı.
4. Mənzil şəraiti.
5. Təhsil və mədəniyyət.
6. Əmək, iş şəraiti və məşğulluq.
7. Əhalinin xərcləri və gəlirləri.
8. Yaşayış şəraiti və istehlak məhsullarının qiyməti.
9. Nəqliyyat vasitələrinin inkişafı.
10. Əhalinin istirahətinin təşkili.
11. Əhalinin sosial təminatı və müdafiəsi.
12. İnsanın iqtisadi və siyasə azadlığı.

Ölkə əhalisinin həyat səviyyəsinin ümumiləşdirilmiş (məlumat xarakterli) bir şəkildə dəyərləndirilib qiymətləndirlməsi və müəyyənləşdirlməsi istiqamətində, hər nəfərə düşən ümumi daxili məhsulun (ÜDM) həcmi, mühüm sosial-iqtisadi göstəricidir.

XXI əsrin ilk onilliyində bu göstərici dünya üzrə orta hesabla 10.000 dollar olduğu halda, yüksək inkişaf etimiş, inkişaf etməkdə olan və postaosialist ölkələrində xeli fərqlənərək, bir neçə yüz dollardan başlayaraq, 60.000 dollara qədər dəyişir. Bu rəqəmlər müasir inteqrasiya və qloballaşma proseslərinə baxmayaraq, fərqli iqtisadi artım templərinin, qeyri-bərabər inkişaf qanununun obyekti-subyektiv səbəblərlə bağlı yaratdığı həqiqətən ziddiyyətli vəziyyəti əks etdirir.

Beynəlxalq təşkilatların məlumatlarına görə, hazırda dünya əhalisinin ən varlı və ən yoxsul 10%-nin həyat səviyyəsi arasındakı fərq getdikcə artmağa doğru meyl edərək, daha da kəskinləşməkdədir. Bu mənada, vaxtilə senator R.Kennedinin qeyd etdiyi kimi ümumi daxili məhsulun həcmi və onun hər nəfərə düşən miqdarı (kəmiyyəti) «hələ uşaqlarımızın sağlamlığı, təhsilin keyfiyyəti, ailələrimizin möhkəmliyi, dövlət məmurlarımızın düzgünlüyü demək deyildir. O, nə cəsurluğumuzun, nə müdrikliyimizin, nə də ölkəmizə bağlılığımızın meyarıdır. Ümumi daxili məhsul anlayışı həyatımızın mənasını təşkil edən

əsas şeylərdən başqa hər şeyi ölçür». Mərhum siyasi xadimin bu fikirlərində müəyyən həqiqət olsa da, unudulmamalıdır ki, istər bütövlükdə cəmiyyətin, istərsə də onun üzvlərinin müxtəlif qayğı və problemlərinin həlli, başqa şərtlərlə yanaşı, ölkənin iqtisadi potensialı, onun maddi-maliyyə imkanları ilə də bağlıdır. Deməli, iqtisadi artım və onun müxtəlif tiplərinin son nəticəsi sayılan ölkənin ümumi daxili məhsulun həcmi, cəmiyyətin bütün problemlərini, əhalinin həyat səviyyəsi məsələlərini tam şəkildə həll etməsə də, lakin bu yolda mühüm vasitə olduğu danılmazdır.

Eyni zamanda cəmiyyətin və insanların məhsul-xidmətləri durmadan artırması meyli, asudə vaxt kimi sərvəti məhdudlaşdıraraq, əldə olunmuş maddi-mənəvi nemətlərdən daha dolğun faydalaqmağın səmərəliliyini xeyli aşağı salır. Ətraf mühitin korlanması, ekoloji tarazlığın pozulması hesabına əldə edilmiş iqtisadi artım və inkişaf isə son nəticə etibarilə ciddi sosial-iqtisadi proqblemlər yaradaraq, əhalini həyat səviyyəsi və yaxud həyatın keyfiyyətini aşağı salır, ona bilavasitə yaxud dolayısı ilə ziyan vurur.

Tanınmış iqtisadçı alim və müətəxəssislərin fikrincə, hər hansı bir ölkənin iqtisadi resursları, onun təsərrüfat həyatının müxtəlif sahələrinin inkişafı, ümumi daxili məhsulun həcmi, müqayisəli illik artım templəri nə qədər əhəmiyyətli olsa da, lakin bu proses qeyri-sabit xarakter daşıdığından, şübhəsiz cəmiyyətin kamilliyi, yetkinliyi əhalinin yaşayış səviyyəsi, mədəni-intellektual yüksəlişi üçün həlledici amil sayıla bilməz.

Onlar hesab edirlər ki, nisbətən daha aşağı makroiqtisadi göstəricilər bazasında da, milli iqtisadiyyatın quruluşunun səmərəliliyinin təkmilləşdirilməsi, cəmiyyətdə cinayətkarlıq hallarının minimum həddi, qonşu dövlət və başqa dünya ölkələri ilə işgüzar əməkdaşlıq əlaqələr sisteminin yaradılması, cəmiyyətin müxtəlif sosial təbəqə və nəsimllərin bir-birinə hörmətlə yanaşması, əhalinin bəşəri əxlaq-mənəviyyat dəyərlərinə və tarixi milli adət-ənənələrə zidd sayılan rüşvətxorluq, korrupsiya, narkomanlıq, sərxoşluq, düşgünlük, əxlaq normalarına biganəlik, məmur harınlığı kimi mənfi meylləri aradan qaldırmaqla, bütövlükdə daha ciddi sosial-iqtisadi irəliləyişlərə nail olmaq mümkündür.

Bəşəriyyətin mürəkkəb daxili və ziddiyyətli qlobal iqtisadi-sosial qayğılarla üzləşdiyi müasir mərhələdə, onun bazar münasibətləri sistemi şəraitində qazandığı uğurları təkcə sırf iqtisadi göstəricilərlə deyil, eyni zamanda cəmiyyətin sosial rifahının mənəvi-əxlaqi dəyərlərlə ahəngdar vəhdəti müəyyənləşdirir.

**«İqtisadi nəzəriyyə» – *Economics* kursu üzrə**
**(«Makroiqtisadiyyat» bölməsi) test imtahan sualları**

**1.** Beynəlxalq Milli Hesablar Sistemi.
**2.** Müasir əsas makroiqtisadi göstəricilər.
**3.** Ümumi daxili məhsul (ÜDM) və ümumi milli məhsul (ÜMM) anlayışlarının mahiyyəti, hesablanması.
**4.** Milli gəlir (MG) anlayışı və onun mahiyyəti.
**5.** Milli gəlirin (MG) artırılması yolları.
**6.** Milli gəlirin (MG) bölgüsü, istehlak və yığım fondları.
**7.** Əsas və digər makroiqtisadi göstəricilər.
**8.** Qiymətlər və onların səviyyəsinin ölçülməsi. Qiymət indeksi.
**9.** Ölkənin makroiqtisadi göstəriciləri və həyat səviyyəsi.
**10.** İqtisadi inkişafın qetri-sabitliyi.
**11.** Məşğulluq və işsizlik anlayışlarının mahiyyəti.
**12.** İşsizliyin səbəbləri və səviyyəsi.
**13.** İşsizliyin müxtəlif formaları.
**14.** İnfilyasiyanın səbəbləri və mahiyyəti.
**15.** İnfilyasiyanın formaları və tipləri.
**16.** İnfilyasiyanın iqtisadi – sosial nəticələri.
**17.** Hökumətlərin antiinfilyasiya tədbirləri.
**18.** Ümumi makroiqtisadi modelin zəruriliyi.
**19.** Məcmu tələb və onun mahiyyəti.
**20.** Məcmu tələb əyrisi.
**21.** Məcmu təklif və onun mahiyyəti.
**22.** Məcmu təklif əyrisi.
**23.** İstehsal həcmi və qiymətlərin tarazlığı.
**24.** Tarazlığın dəyişməsi prosesi və onun səbəbləri.
**25.** Əhalinin məşğulluğunun mahiyyəti.
**26.** Klassik məşğulluq nəzəriyyəsi.
**27.** Keyns və onun iqtisadi nəzəriyyəsi.
**28.** Keynsin məşğulluq nəzəriyyəsi.
**29.** Əhali məşğulluğuna dair müxtəlif nəzəriyyələr.
**30.** Azərbaycanda məşğulluq problemi və onun həlli yolları.
**31.** Xərclərin və istehsal həcminin müqayisəsi.
**32.** Ümumi daxili məhsulun (ÜDM) tarazlığının dəyişməsi.
**33.** Multiplikator anlayışı və onun mahiyyəti.
**34.** Tam məşğulluq şəraitində ÜDM-un tarazlığı.
**35.** İstehsalın tarazlı həcmi və xarici ticarət.
**36.** Məcmu tələb və məcmu təklif modellərinin uyğunlaşdırılması.
**37.** Fiskal siyasətin mahiyyəti.
**38.** Fiskal siyasətin hüquqi (qanunvericilik) bazası.
**39.** Fiskal siyasətin diskret və qeyri – diskret (avtomatik) formaları.
**40.** Dövlətin fiskal siyasətinin müvəqqəti, siyasi, daxili və xarici problemləri.
**41.** Pulun meydana çıxşası və mahiyyəti.
**42.** Pulun vəzifələri (funksiyaları).
**43.** Pulun dəyər ölçüsü vəzifəsi.
**44.** Pulun tədavül (ödəniş) vəsaiti vəzifəsi.
**45.** Pulun yığım vasitəsi vəzifəsi.

**46.** Pul sistemi və onun tipləri.
**47.** Bimetalizm nə deməkdir?
**48.** Monometallizm nə deməkdir?
**49.** Tədavülə daxil olan pulun miqdarı necə müəyyən edilir?
**50.** M1, M2, M3 anlayəşlarını izah edin.
**51.** ABŞ-ın maliyyə sistemi.
**52.** Bankların meydana çıxması və fəaliyyəti.
**53.** Bankların mahiyyəti və vəzifələri.
**54.** Bank sistemi: Mərkəzi bank və kommersiya bankları.
**55.** Bankların pul yaratmaq (artırmaq) prosesi.
**56.** Monetarizm siyasətinin mahiyyəti.
**57.** Federal ehtiyat bankları və onların fəaliyyəti.
**58.** Pul-kredit siyasətinin mahiyyəti.
**59.** Pul-kredit siyasətinin müxtəlif alət və vəsaitləri.
**60.** Pul-kredit siyasətinin səmərəliyini təmin edən şərtlər.
**61.** Kensçiliyə əks iqtisadi nəzəri baxışlar.
**62.** Monetarist nəzəri baxışlar.
**63.** Monetaristlərin pul tədavülü sürətinin sabitliyinə dair baxışları.
**64.** Kensçilərin pul tədavülünün qeyri-sabitliyinə dair nəzəri baxışları.
**65.** Maliyyə siyasəti məsələlərinə dair monetaris və keynsçi nəzəri mübahisələr.
**66.** Pul-kredit siyasətinə dair monetarist və keynsçi nəzəri baxışlar.
**67.** Fillipis əyrisini çəkin və izah edin.
**68.** Staqflyasiya nə deməkdir?
**69.** Səmərəli gözləmə nəzəriyyəsinin mahiyyəti.
**70.** İqtisadi təklif nəzəriyyəsinin mahiyyəti.
**71.** Büdcə kəsiri (defisiti) yaranmasının səbəbləri.
**72.** Dövlət borcunun mahiyyətini izah edin.
**73.** Dövlətin daxili borcu.
**74.** Dövlətin xarici borcları.
**75.** Dövlət borcunun aradan qaldırılması yolları.
**76.** İqtisadi artım nəzəriyyəsi.
**77.** İqtisadi artıma təsir göstərən amillər (şərtlər).
**78.** İqtisadi artım sürətinə dair müxtəlif nəzəri baxışlar.
**79.** İqtisadi artım və əhalinin həyat səviyyəsi göstəriciləri.
**80.** İqtisadi artım və onun yaratdığı iqtisadi-sosial problemlər.
**81.** Dövlət büdcəsinin gəlirlərinin formalaşması mənbələri.
**82.** Büdcə xərclərinin əsas istiqamətləri.
**83.** İqtisadi artımın ekstensiv tipi.
**84.** İqtisadi artımın intensiv tipi.
**85.** Fiskal siyasətin müvəqqəti və siyasi istiqamətləri.
**86.** Bankların formalaşması prosesi.
**87.** Mərkəzi bankın vəzifələri və əməliyyatları.
**88.** Kommersiya banklarının əməliyyatları.
**89.** Dövlətin fiskal siyasətinin daxili və xarici istiqamətləri.
**90.** Nominal və real ümumi daxili məhsul (ÜDM) anlayışlarını izah edin.

**«İqtisadi nəzəriyyə» – *Economics***
**«Makroiqtisadiyyat» (üçüncü bölmə) kursu üzrə saatların bölgüsü**

| ***Sıra № si*** | ***Mövzuların adı*** | ***Saatların miqdarı*** | | |
|---|---|---|---|---|
| | | *Mühazirə* | *Məşğələ* | *Cəmi* |
| 1 | Kursun məqsədi, vəzifələri və quruluşu | 2 | 2 | 4 |
| 2 | Ümumi daxili məhsulun həcəminin ölçülməsi və qiymətlər səviyyəsi | 4 | 4 | 8 |
| 3 | Makroiqtisadi qeyri-sabitlik: işsizlik və inflyasiya | 4 | 4 | 8 |
| 4 | Makroiqtisadi təhlil: məcmu tələb və məcmu təklif | 4 | 4 | 8 |
| 5 | Fiskal siyasət | 4 | 4 | 8 |
| 6 | Pul və bank işi. Banklar necə pul yaradır. | 4 | 4 | 8 |
| 7 | Büdcə kəsiri və dövlət borcu | 4 | 4 | 8 |
| 8 | İqtisadi artım: mahiyyəti və tipləri | 4 | 4 | 8 |
| | Cəmi | 30 | 30 | 60 |

# Müasir beynəlxalq iqtisadi problemlər

*(dördüncü bölmə)*

# Mövzu 25. Kursun məqsədi, vəzifələri və quruluşu

**25.1** Beynəlxalq iqtisadi problemlərin mahiyyəti
**25.2** Müasir iqtisadi inteqrasiya və qloballaşma prosesləri
**25.3** Kursun məqsədi və vəzifələri
**25.4** Kursun ümumi quruluşu (strukturu)

**25.1.** Müasir dünya iqtisadiyyatını səciyyələndirən başlıca cəhətlər, – onun beynəlmiləlləşməsi, transmilli xarakter alması, inteqrasiya prosesləri və qloballaşması sayəsində tədricən vahid dünya təsərrüfat sisteminin formalaşmasıdır.

İlkin ünsürləri XIX əsrin sonu və XX əsrin əvvəllərindən özünü göstərən bu obyektiv tarixi hadisə mürəkkəb və ziddiyyətli bir inkişaf yolu keçərək, yüksək templərlə xarakterizə olunan müasir səviyyəyə çatmışdır. 100 ildən artıq bir müddəti əhatə edən bu son dərəcə təzadlı və maraqlı dövrü bəşəriyyət bir qrup hakim metropoliya ölkələrinin ağalığı, müstəmləkə xalqlarının hüquqsuz yoxsulluğu, dəhşətli müharibələr, böyük elmi kəşflər, kosmosun fəthi, siyasi quruluşların iflası, yeni ideoloji, elmi-nəzəri, iqtisadi-sosial, mədəni-mənəvi koncepsiyaların yaranması, vaxtı keçmiş doqmatik baxışların məhv olması, yeni mütərəqqi ideyaların meydana çıxması kimi həmişə xatırlayacaqdır.

Planet miqyasında həmin çoxcəhətli proseslər, istər beynəlxalq aləmdə, istərsə də ayrı-ayrı ölkələrdə siyasi-ictimai, sosial-iqtisadi, mədəni-mənəvi amillərin qarşılıqlı əlaqə və təsir müstəvisində baş versə də, lakin cəmiyyət həyatının əsasını təşkil edən iqtisadiyyatda gedən köklü kəmiyyət-keyfiyyət dəyişiklikləri bu işdə həlledici rol oynamışdır.

Dünya təsərrüfatının formalaşmasının və onun beynəlxalq inkişaf qanunauyğunluqlarının, habelə iqtisadi-sosial problemlərinin əsasında ictimai əmək bölgüsü prinsipi durur. İnsanların və ölkələrin gündəlik əmək fəaliyyəti ilə bağlı olan peşə-sənətlər üzrə ixtisaslaşması qanunu, tədricən ayrı-ayrı mili təsərrüfatların hüdudlarını aşaraq, onları vahid dünya təkrar istehsal prosesinin ayrılmaz həlqələrinə yaxud tərkib hissələrinə çevirmişdir.

Beynəlxalq miqyasda istehsal və mübadilə dairəsində çoxcəhətli iqtisadi-ticarət əlaqələri formasında davam edən bu fasiləsiz proseslərin gedişinə iqtisadi səbəblərlə yanaşı, eyni zamanda siyasi amillər də öz təsirini bilavasitə yaxud dolayı yollarla göstərmişdir. Cəmiyyət tarixində iqtisadi-sosial məsələlər həmişə ön sıraya çıxdığından, təsadüfi deyildir ki, «ideyalar insanların mənafelərindən ayrıldıqda, hökmən özlərini rüsvay etmişlər» fikri, müasir beynəlxalq iqtisadi-ticarət əlaqələrinin son faydalılıq və səmərəlilik prinsipləri təməlində qurulduğu bir dövrdə daha da aktual sayılır.

Vaxtilə F.Engels siyasi hakimiyyətlə ölkənin təsərrüfat həyatı və iqtisadi əlaqələr sistemi arasındakı münasibətlərə toxunaraq yazmışdı: «Hakimiyyətin fəaliyyətinin iqtisadi inkişafa təsirinin 3 istiqaməti mümkündür. Birinci halda, hakimiyyət iqtisadi inkişafla eyni istiqamətdə fəaliyyət göstərə bilər, onda iş sürətlənər; o iqtisadi inkişafa əks-təsir edə bilər, – bu halda həmin hakimiyyət müəyyən vaxt keçdikdən sonra dağılmış olur; başqa halda, dövlət hakimiyyəti iqtisadi inkişafa müəyyən istiqamətlərdə maneçilik göstərib, onu başqa istiqamətlərdə irəlilədə bilər».

Deməli iqtisadi və siyasi amillərin qarşılıqlı təsir kompleksi, şübhəsiz ölkənin milli iqtisadiyyatını inkişaf etdirib irəlilətdiyi kimi, müəyyən mərhələdə onun təsərrüfat həyatinda nisbətlərin və tarazlığın pozulmasına, beynəlxalq aləmlə əlaqələrin pisləşməsinə, hətta kəsilməsinə belə gətirib çıxara bilər. Bunu 74 il davam etmiş zorakılıq üzərində qurulmuş, xüsusi mülkiyyət və sahibkarlıq fəaliyyətinin qadağan olunduğu, mərkəzləşdirilmiş planlı sosialist sisteminin dağılması nümunəsi sübut etdi.

Beynəlxalq miqyasda çoxcəhətli əlaqələrin genişlənib-dərinləşdiyi müasir mərhələdə, dövlətin düşünülmüş və ölkənin inkişafının, onun daxili-xarici təsərrüfat əlaqələrinin sosial-iqtisadi nəticələrini hərtərəfli nəzərə alan tarazlı siyasət xəttinin reallaşdırılması ilə yanaşı, bu iqtisadi siyasətin son səmərəliliyi, faydalı perspektivləri, nəhayət konkret şəraitə uyğun hüdudları düzgün müəyyənləşdirilməlidir.

Dünya təsərrüfat həyatı təcrübəsi sübut etmişdir ki, dövlətin iqtisadiyyata biganə münasibəti və zəif təsiri ölkənin təsərrüfat həyatında qarışıqlıq yaratdığı kimi, onun iqtisadi proseslərə güclü müdaxiləsi də, xüsusi mülkiyyət əsasında sərbəst, təşəbbüskar sahibkarlıq, habelə işgüzar biznes fəaliyyətini məhdudlaşdırması xətti də son sosial-iqtisadi nəticələri baxımından səmərəsizdir. Bazar münasibətləri iqtisadi sistemində inhisarçılıq meylləri, xarici bazarlarda aparılan kəsgin rəqabət mübarizəsi, inteqrasiya və qloballaşma proseslərinin gedişi, milli iqtisadiyyatın təhlükəsizliyi problemləri, onun dövlətin iqtisadi siyasətilə tənzimlənməsini irəli sürür. Eyni zamanda iqtisadiyyatın dövlət tənzimlənməsi, bazar münasibətlərinin təməl prinsiplərini pozmamalı, dövlət ölkənin təsərrüfat həyatının təkcə iştirakçısı (subyekti) deyil, onun sosial-iqtisadi yüksəlişinin təminatçısı rolunu oynamalıdır.

XIX əsrin sonu və XX əsrin əvvəllərindən başlayaraq, bizim günlərə qədər davam etməkdə olan müxtəlif ölkələrin dünya təsərrüfat həyatında iştirakının fəallaşmasını, genişlənib-dərinləşməsini nəzərdə tutan beynəlmilləşmə hadisəsi, habelə bu obyektiv prosesin məntiqi nəticəsi sayılan transmilli korporasiyaların (TMK) investisiya – istehsal – xidmət – satış – təchizat xarakterli fəaliyyəti, tədricən yeni-yeni sahələri əhatə etməkdədir.

Beynəlxalq aləmi sıx təsərrüfat əlaqələri şəbəkəsi ilə bürümüş bu nəhəg sistem, müasir dünyanın əmtəə-xidmət, kapital, qiymətli kağızlar, iş qüvvəsi, maliyyə – kredit, valyuta – bank işində beynəlxalq miqyasda kapitalın, məhsul-xidmətlərin, əməyin hərəkətində əvvəllər görünməmiş bir qüvvəyə çevrilərək, həlledici rol oynayır.

Dünya miqyasında intensivləşən beynəlmiləlləşmə və transmilli korporasiyaların fəaliyyəti müasir mərhələdə, eyin zamanda məlumat-informasiya, elmi-nəzəri tədqiqatlar, mədəniyyət, əxlaqi-mənəvi dəyərlər kimi intelektual sahələri əhatə edərək, vahid elmi-məlumat məkanı formalaşdırmaqdadır. Bu təsərrüfat sisteminin iştirakçıları (subyektləri) isə müxtəlif dünya ölkələri və onların iqtisadiyyatları, transmilli korporasiyalar, beynəlxalq iqtisadi təşkilatlar, ayrı-ayrı qurumlardır.

Bu mənada, müasir beynəlxalq iqtisadi problemlərin mahiyyətini və məzmununu, – beynəlxalq əmək bölgüsü, investisiya-istehsal, satış-təchizat, maliyyə-kredit, elmi-texniki əlaqələr əsasında, ayrı-ayrı milli təsərrüfatların formalaşdırdığı sistemin qarşılıqlı iqtisadi-ticarət münasibətləri, habelə işgüzar fəaliyyətləri təşkil edir.

**25.2.** Müasir dünya iqtisadiyyatını səciyyələndirən ən mühüm cəhətlərdən biri, – onun inteqrasiyası və qloballaşması prosesləridir. XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində dünya təsərrüfat həyatında ilk ünsürləri hələ yüz il bundan qabaq meydana

çıxmış iqtisadi inteqrasiya prosesi, yeni əraziləri, istehsal-xidmət sahələrini əhatə edərək, daha da genişlənib-dərinləşmişdir.

İqtisadi inteqrasiya – ayrı-ayrı ölkələrin milli iqtisadiyyatlarının (təsərrüfat həyatlarının) faydalı qarşılıqlı münasibətlər sisteminin, iqtisadi-ticarət, elmi-texniki, məlumat-informasiya, mədəni-turizm əməkdaşlığının genişlənməsi, onların daha sıx qovuşması, bir-biri ilə qaynayıb-qarışması prosesidir.

Dünya miqyasında beynəlxalq əmək bölgüsünün tədricən dərinləşməsi, istehsal kooperasiyası və ixtisaslaşmanın təkmilləşməsi, beynəlxalq iqtisadi-ticarət, maliyyə-kredit, valyuta-bank əlaqələrinin geniş şəbəkəsinin formalaşması, habelə onların intensivləşməsi, beynəlxalq aləmdə iqtisadi inteqrasiya proseslərinə tarixi bir zərurət xarakteri vermişdir.

Xüsusilə son dövrlərdə planet miqyasında vahid informasiya-məlumat və rabitə şəbəkələri sistemlərinin istifadəyə verilməsi, qrup ölkələrin sosial-iqtisadi göstəricilərinin yaxınlaşması meyli, beynəlxalq xidmətlər göstərilməsinin geniş yayılması, iqtisadiyyatın müxtəlif sahələrində vahid dünya standartlarına keçilməsi xətti, xammal-enerji resurslarının qeyri-bərabər yerləşməsi reallığı, iqtisadi-ticarət münasibətlərinin xeyli sərbəstləşdirilməsi (liberallaşdırılması) siyasəti, müxtəlif dövlətlərin gömrük səddlərini nisbətən «yumşaltması», habelə tədricən «açıq iqtisadiyyat» prinsiplərinə keçidi, şübhəsiz inteqrasiya proseslərini xeyli sürətləndirmişdir.

Müasir «dünya iqtisadiyyatının hərəkətverici qüvvəsi» kimi səciyyələndirilən və kapitalının formalaşmasına görə çoxmillətli (beynəlmiləl), fəaliyyət dairəsinə görə isə beynəlxalq xarakter daşıyan transmilli korporasiyalar (TMK), dünya ölkələri arasında iqtisadi inteqrasiya proseslərinin sürətləndirilməsi prosesində mühüm rol oynayırlar.

Birləşmiş Millətlər Təşkilatının (BMT) son məlumatlarına görə hazırda dünyada 70 mindən artıq transmilli korporasiyanın 850 minə yaxın filialı (şöbəsi, agentliyi) müxtəlif ölkələrdə fəaliyyət göstərir. Dünya təsərrüfat əlaqələrini öz nəzarət dairəsində saxlayan 500 ən iri transmilli korporasiyadan 100-ü çox nəhəg olub, illik istehsal və satış dövriyyəsinə görə bir sıra ölkələrin ümumi daxili məhsul (ÜDM) həcmini, habelə büdcələrini dəfələrlə ötür. Bunların sırasında «Exxon Mobil», «General Electric», «İBM», «Ford Motors», «Mikrosoft», «Coca-Cola», «Walmart» (ABŞ), «British Petroleum», «Unilever» (İngiltərə), «Toyota Motors», «NTTGroup», «Mitsubishi Motors», «Nisan Motor», «Honda Motors» (Yaponiya), «BMV», «Daimler Chrysler Motors», «Siemens AC» (Almaniya), «Total SA» (Fransa), «ENJ» (İtaliya), «Nestle SA» (İsveçrə), «Nokia» (Finlandiya), «Samsunq» (Koreya) xüsusilə fərqlənirlər.

İnvestisiya – istehsal – satış – təchizat fəaliyyəti ilə məşğul olan bu beynəlxalq birliklər dünya sənaye məhsulları istehsalının 45 faizdən və dünya ticarət dövriyyəsinin 50 faizdən çoxuna nəzarət edirlər. Baş iqamətgahları əsasən ABŞ, Qərbi Avropa və Yaponiyada yerləşən TMK-lar hazırda dünya buğda, kofe, qarğıdalı, meşə materialları, tütün, dəmir filizi bazarının 90 faizini; mis və boksit bazarının 85 faizini; çay və qalay bazarının 80 faizini; xam neft, banan, təbii kauçuk bazarının isə 75 faizini öz nəzarəti altında saxlayır. TMK-ların baş iqamətgahlarında, müxtəlif ölkələrindəki filiallarında və istehsal-satış dairəsindəki şirkətlərində çalışanların ümumi sayı 150 milyon nəfəri ötür.

Azərbaycan Respublikasında da, istehsal və xidmət dairəsində dünyanın bir sıra iri transmilli korporasiyalarının filialları fəaliyyət göstərirlər. Perspektivdə ölkəmizdə neft yataqlarının kəşfiyyatı, onların işlənib istismara hazırlanması, maliyyələşdirilməsi, neft

istehsalı, emalı, satışı ilə məşğul olan transmilli şirkətin təşkili və beynəlxalq miqyasda fəaliyyəti istiqamətində ciddi işlər aparılır.

Beynəlxalq miqyasda genişlənən və transmilli korporasiyaların dünyanın müxtəlif ölkələrindəki istehsal-xidmət dairəsindəki fəaliyyəti ilə daha intensivləşən iqtisadi inteqrasiya prosesləri iki istiqamətdə həyata keçirilmişdir. ***Birinci istiqamət***, yaxın (qonşu) dövlətlərin ayrı-ayrı şirkətlərinin bir-birilə müxtəlif sazişlər, razılaşmalar əsasında işgüzar əməkdaşlığı və xaricdə öz filiallarını təşkil etməsidir. ***İkinci istiqamət*** isə hökumətlər səviyyəsində həyata keçirilən inteqrasiya prosesləridir ki, bu iş qarşılıqlı birliklər (qurumlar) yaradılması və dövlətlərarası razılaşdırılmış iqtisadi siyasət xətti vasitəsilə reallaşdırılır.

İqtisadi inteqrasiya proseslərinin dünyanın müxtəlif qitə və regionlarındakı formalaşması gedişi, qarşılıqlı əlaqələrin həm dövlət, həm də qeyri-dövlət müəssisələri, şirkətləri və qurumları ilə aparılması zəruriliyini irəli sürmüşdür. Bu istiqamətdə təşkil olunan əməkdaşlıq, ölkələr arasında əmtəə-xidmətlərin, kapitalın, iş qüvvəsinin razılaşdırılmış hərəkətinə daha geniş imkanlar açmışdır.

İqtisadi inteqrasiyanın ***ən sadə və ilkin forması sərbəst ticarət zonasıdır***. Bu ticarət zonası daxilində əməkdaşlıq quran dövlətlər arasındakı ticarət məhdudiyyətləri ləğv olunur və gömrük rüsumları aradan qaldırılır. Bu ilk addımlar, həmin ölkələr arasındakı sonrakı inteqrasiya əməkdaşlığını xeyli gücləndirmiş və prosesin gələcək mərhələsi üçün əlverişli zəmin yaratmışdır.

İqtisadi inteqrasiyanın sonrakı mərhələsi və forması ***gömrük ittifaqıdır***. Bu forma, sərbəst ticarət zonalarının fəaliyyəti ilə yanaşı, hər hansı bir üçüncü ölkəyə qarşı razılaşdırılmış vahid gömrük və xarici iqtisadi siyasətin həyata keçirilməsini nəzərdə tutur. Qeyd etmək lazımdır ki, həm sərbəst ticarət zonası, həm də gömrük ittifaqı formasında olan iqtisadi inteqrasiya prosesi, yalnız mübadilə münasibətləri dairəsindəki əməkdaşlığı nəzərdə tutur.

***Ümumi bazar***, iqtisadi inteqrasiyanın daha yüksək və mürəkkəb bir formasıdır. Bu forma azad ticarət və vahid xarici ticarət tarifləri ilə yanaşı, eyni zamanda kapitalın, iş qüvvəsinin ölkələrarası sərbəst hərəkətini, habelə razılaşdırılmış iqtisadi siyasət xətti yeridilməsini nəzərdə tutur. Həmin vəzifələrin səriştəli surətdə, ardıcıllıqla həyata keçirilməsi üçün müvafiq idarəetmə orqanları yaradılır.

Dövlətlərarası inteqrasiyanın ***ən yüksək forması iqtisadi və valyuta ittifaqıdır***. Bu forma, əvvəlki inteqrasiya şərtlərini nəzərə almaqla bərabər, həm də ümumi iqtisadi və maliyyə-valyuta siyasəti xətti yeridilməsi ilə fərqlənir. Hələlik belə bir iqtisadi və valyuta ittifaqı klassik formada 27 Avropa, habelə Baltikyanı ölkələri birləşdirən Avropa İttifaqı (Birliyi) timsalında Qərbi Avropada fəaliyyət göstərir.

Dünyanın iri regional iqtisadi inteqrasiya qrupları kimi NAFTA («Azad ticarət haqqında Şimali Amerika sazişi» – 1994), ASEAN («Cənub-Şərqi Asiya ölkələri birliyi» – 1967), ATES («Asiya-Sakit okean iqtisadi birliyi» – 1989), MERKOSUR («Cənubi Amerika ölkələri iqtisadi birliyi» – 1991), MDB («Müstəqil Dövlətlər Birliyi» – 1992) təşkilatlarını göstərmək olar.

Bunlardan başqa dünyanın müxtəlif qitə və ərazilərində ayrı-ayrı qrup ölkələrin regional (bölgə) iqtisadi birlikləri vardır.

Müasir iqtisadi inteqrasiya proseslərində fəal iştirak edən Azərbaycan Respublikası, Müstəqil Dövlətlər Birliyinin, Mərkəzi Asiya dövlətləri iqtisadi əməkdaşlıq və inkişaf təşkilatının, Qara dəniz dövlətləri iqtisadi əməkdaşlıq təşkilatlarının, GUAM iqtisadi əməkdaşlıq birliyinin üzvü, «Böyük İpək Yolu» (TRASEKA – Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizi) proqramının fəal iştirakçısıdır. Ölkəmiz Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Bankı, İslam Bankı və digər maliyə qurumları ilə öz işgüzar əlaqələrini uğurla genişləndirir.

Bu beynəlxalq əməkdaşlıq və genişlənib-dərinləşən iqtisadi inteqrasiya prosesləri, qloballaşma təməlində tədricən vahid dünya təsərrüfat sisteminin formalaşdığını göstərir.

**Qloballaşma** – planet miqyasında tədricən vahid təsərrüfat sisteminin formalaşması və dünya əmtəə-xidmətlər, iş qüvvəsi, kapital, məlumat-informasiya, mədəni-turizm əlaqələrinin intensivləşməsi, habelə milli iqtisadiyyatların bir-birinə təsirinin getdikcə daha da güclənməsi prosesidir.

Obyektiv və qanunauyğun tarixi bir hadisə sayılan qloballaşma, dünya təsərrüfat əlaqələrinin əhəmiyyətli dərəcədə genişlənməsi, beynəlmiləlləşməsi, transmilliləşməsi və beynəlxalq əmək bölgüsünün daha da dərinləşməsinin yeni bir mərhələsi, eyni zamanda zəruri məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

Qloballaşma prosesi müxtəlif ölkələr arasında siyasi-ictimai münasibətləri yaxşılaşdırır, istehsalın texniki-texnoloji bazasının təkmilləşdirilməsinə xidmət göstərir, iqtisadi-sosial göstəricilərin yüksəldilməsinə imkanlar yaradır, informasiya-məlumat vasitələri şəbəkəsini genişləndirir, ekoloji problemlərin və ətraf mühitin qorunması yolunda dünya xalqlarının səylərini birləşdirir.

Qloballaşma prosesinin bütövlükdə planetin ictimai-siyasi, sosial-iqtisadi, mədəni-mənəvi həyatına müsbət təsir meylləri ilə yanaşı, eyni zamanda onun mürəkkəb ziddiyyətlərlə səciyyələnən cəhtləri də vardır. Həmin neqativ hallar aşağıdakılardır:

- qloballaşma ölkələr və milli iqtisadiyyatlar arasındakı əlaqələr sisteminin nisbətlərində, obyektiv-subyektiv amillərlə bağlı müəyyən təbii ziddiyyətlər yaradır;
- ölkələrin iqtisadi-sosial inkişaf istiqamətləri və templərindəki fərqlər təzadlı nəticələr verir;
- ayrı-ayrı ölkələrin təbii sərvətləri əmək ehtiyatları, kapital imkanları təminatı ilə bağlı ciddi problemlər meydana çıxır;
- yüksək inkişaf etmiş dövlətlər qrupu tərəfindən, digər ölkələrə qarşı ikili yanaşma (standart) metodlarından istifadə olunur;
- beynəlxalq miqyasda vaxtilə kapitalizm-sosializm cəmiyyətlərinin timsalında mövcud olmuş müxtəlif quruluşların yerini tutmuş müasir nisbətən bir qütblü dünyada, ABŞ və tərəfdarları ilə onların siyasət, habelə iqtisadiyyat sahəsindəki ağalıq meyllərinin, başqa ölkələr tərəfindən qəbul olunmamasıdır.

Şübhəsiz, müasir dünyanın beynəlxalq miqyaslı mürəkkəb siyasi-ictimai, hərbi-diplomatik, sosial-iqtisadi, ekoloji və mədəni-mənəvi problemləri, hansısa müəyyən qrup yaxud bir dövlətin maraqları baxımından deyil, bütövlükdə bəşəriyyətin ümumi mənafeyinə uyğun prinsiplər əsasında həll olunmalıdır.

**25.3.** «Müasir beynəlxalq iqtisadi problemlər» kursunun məzmununu beynəlxalq əmək bölgüsü, dünya təsərrüfat həyatının beynəlmiləlləşməsi, transmilliləşdirilməsi və

qloballaşdırılması əsasında, onun çoxcəhətli iqtisadi münasibətlər sisteminin inkişaf qanunauyğunluqlarının, xüsusiyyətlərinin, rastlaşdığı problemlərin öyrənilməsi təşkil edir.

Müasir beynəlxalq iqtisadi problemlər sırasına, bütövlükdə ayrı-ayrı ölkələrin təsərrüfat həyatlarının inteqrasiya və qloballaşma müstəvisində istehsal-satış, ticarət-təchizat, elmi-texniki, pul-kredit, maliyyə-valyuta, məlumat-informasiya əlaqələrinin formalaşması səbəbləri, inkişaf xüsusiyyətləri, sosial iqtisadi nəticələri daxildir.

Kursun konkret vəzifələrinə gəldikdə, bu onun predmeti və məqsədi ilə bağlı olub, aşağıdakı cəhətləri əhatə edir:

***Birincisi,*** kursun öyrənilməsi gələcək mütəxəssislərdə müasir dünyanın beynəlxalq iqtisadi münasibətləri, onun çoxcəhətli əlaqələr sistemi, bu sahədə qarşıya çıxan müxtəlif istiqamətli problemlər və onların həlli yolu haqqında aydın təsəvvür yaradılması;

***İkincisi,*** inteqrasiya və qloballaşma şəraitində beynəlxalq miqyasda iqtisadi-ticarət əlaqələrində baş verən kəmiyyət-keyfiyyət dəyişikləri, habelə bu əlaqələr sisteminin gələcək meyllərinin öyrənilməsi;

***Üçüncüsü,*** müasir mərhələdə beynəlxalq iqtisadi münasibətlərdə dövlətin iqtisadi siyasətinin strategiya və taktikasının müəyyənləşdirilməsi, habelə dövlətin iqtisadiyyatı tənzimlənməsi xəttinin həyata keçirilməsi xüsusiyyətlərinin aydınlaşdırılması;

***Dördüncüsü,*** beynəlxalq miqyasda və ayrı-ayrı milli iqtisadiyyatların timsalında gəlirlərin bölgüsü, onun qeyri-bərabərliyinin obyektiv-subyektiv səbəbləri, yoxsulluq problemi və onun aradan qaldırılması yollarının araşdırılması;

***Beşincisi,*** müasir beynəlxalq iqtisadi-ticarət əlaqələrinin ümumi mənzərəsi, onun mahiyyəti və formalarının hərtərəfli təhlili əsasında öyrənilməsi;

***Altıncısı,*** beynəlxalq valyuta sisteminin formalaşması və inkişaf mərhələlərinin təhlili əsasında, müasir mərhələdə baş verən proseslərin müqayisəli fakt, habelə materiallar əsasında araşdırılması;

***Yeddincisi,*** bəşəriyyətin müasir qlobal sosial-iqtisadi problemlərinin öyrənilməsi və onların səmərəli həlli yollarının tapılması naminə, dünya xalqlarının, milli iqtisadiyyatların maddi-mənəvi potensialının səfərbərliyə alınması zəruriliyinin dərk olunması.

**25.4.** «Müasir beynəlxalq iqtisadi problemlər» kursunun mahiyyəti, məqsədi və vəzifələrindən çıxaraq, onun tədris quruluşu (strukturu) mövzular üzrə məntiqi bir ardıcıllıqla aşağıdakı kimi verilmişdir.

I. «Kursun məqsədi, vəzifələri və quruluşu» mövzusunda müasir iqtisadi inteqrasiya, tədricən vahid dünya təsərrüfat sisteminin formalaşmasının qanunauyğunluqları izah olunmuş, beynəlxalq iqtisadi problemlərin mahiyyəti açılmış, onun məqsəd, habelə vəzifələri təhlil olunaraq, bu geniş əhatəli məsələlərin hansı ardıcıllıqla ödənilməsinə diqqət yetirilmişdir.

II. «Dövlət və iqtisadi siyasət» mövzusu, dövlətin iqtisadi siyasətinin formalaşmasına, onun strategiya və taktikasının müəyyənləşdirilməsinə, milli iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinə, makroiqtisadi səviyyədə ölkənin təsərrüfat həyatının sabitliyinin təmin olunmasına, dəyişkən iqtisadi vəziyyətə uyğun real siyasətin işlənib hazırlanmasına, habelə ardıcıllıqla həyata keçirilməsinə həsr olunmuşdur.

III. «Antitrest (antiinhisar) qanunları və təsərrüfat həyatının tənzimlənməsi» mövzusunda, milli iqtisadiyyatlarda inhisarların fəaliyyətinin müxtəlif cəhətləri, formaları, müasir xüsusiyyətləri öyrənilmiş, onların dövlət tənzimlənməsinin üsulları

habelə bu prosesin optimal hüdudları, hüquqi, iqtisadi, inzibati-təşkilatı cəhətləri izah edilmişdir.

IV. «Kənd təsərrüfatı və iri şəhərlərin sosial-iqtisadi problemləri» mövzusu, müasir aqro-biznes sahələrinin inkişaf xüsusiyyətlərinə, ölkənin ərzaq təhlükəsizliyinə, kənd təsərrüfatı məhsullarının ixrac-idxalınına, bu məhsulların beynəlxalq bazardakı qiymət dəyişikliklərinə, aqrar bölmənin inkişaf perspektivlərinə, habelə iri şəhərlərin formalaşması, yüksəlişi, ekologiyasına həsr olunmuşdur.

V. «Gəlirlərin bölgüsü, qeyri-bərabərlik və yoxsulluq» mövzusunda, bu anlayışların mahiyyəti açılmış, onların meyarları müəyyənləşdirilmiş, dünya əhalisinin müasir sosial-iqtisadi göstəricilər baxımından yoxsulluq səviyyəsinin səbəbləri aydınlaşdırılmış, dövlətin sosial siyasət Proqramlarının əhalinin yoxsulluğunu aradan qaldırmaq istiqamətindəki rolu öyrənilmişdir.

VI. «Beynəlxalq ticarət: mahiyyəti və formaları» mövzusunda, onun zəruriliyi, prinsipləri, təşkili xüsusiyyətlərinə diqqət yetirilmiş, müasir ticarət əlaqələrinin əsas istiqamətləri göstərilmiş, milli iqtisadiyyatın dünya inteqrasiya və qloballaşma proseslərinə qoşulduğu şəraitdə, bu hadisənin həm müsbət, həm də mənfi tərəfləri obyektiv bir mövqedən təhlil edilmişdir.

VII. «Dünya valyuta sistemi və onun inkişaf mərhələləri» mövzusu, milli və beynəlxalq valyuta sistemlərinin təkamül yolu ilə inkişafına, onun müasir xüsusiyyətlərinə, beynəlxalq valyuta bazarlarının fəaliyyətinə, milli valyutaların məzənnəsinin formalaşmasına, bu prosesə təsir edən amillərə, devalvasiya və revalvasiya hadisələrinə, beynəlxalq valyuta məzənnəsinin – «qızıl standart», Bretton – Buds, «üzən» sistemlərinə həsr olunmuşdur.

VIII. «Bəşəriyyətin qlobal sosial-iqtisadi problemləri» mövzusunda, bu məsələlərin mahiyyəti və təsnifatı verilmiş, planetin təbii sərvətlərindən, əmək, kapital, intelektual resurslarından daha səmərəli faydalanmağın zəruriliyi göstərilmiş, obyektiv tarixi bir proses kimi davam edən inteqrasiya – qloballaşma hadisələrinin yaratdığı sosial-iqtisadi nəticələrin milli və bəşəri mənafelərin uyğunluğu şəraitində, həllinin məqsədəuyğunluğu aydınlaşdırılmışdır.

# Mövzu 26. Dövlət və iqtisadi siyasət

**26.1** Dövlət və onun iqtisadi siyasəti
**26.2** İqtisadi siyasətin məqsəd və vəzifələri
**26.3** Dövlət büdcəsinin formalaşması mənbələri və istifadəsi istiqamətləri
**26.4** Dövlətin vergi siyasəti
**26.5** Sosial sahədə dövlətin siyasəti

**26.1.** Dövlət cəmiyyətin siyasi quruluşu olub, ölkənin ictimai-siyasi, iqtisadi-sosial, mədəni-mənəvi həyatında mühüm rol oynayır.

Məlumdur ki, bəşəriyyət tarixində dövlət heç də həmişə olmamışdır. Onun meydana çıxıb formalaşması, cəmiyyətin ümumi inkişafının konkret bir mərhələsi ilə bağlıdır. Bu ilk ictimai əmək bölgüsünün dərinləşməsi, siniflərin yaranması yaxud cəmiyyətin təbəqələşməsi, natural (qapalı) təsərrüfat tipindən əmtəə-pul münasibətlərinə keçid, xüsusi mülkiyyətin rolunun artması, cəmiyyət daxilindəki münasibətlər sisteminin ziddiyyətli meylləri və xarici aləmlə müxtəlif istiqamətli əlaqələrin inkişafı ilə bağlı olmuşdur.

Tarixən dövlətin quldarlıq, feodal və burjua-demokratik kimi 3 geniş yayılmış tipi və modeli olmuşdur. Cəmiyyət inkişaf yolu ilə irəlilədikcə, onun qarşısına daxili-xarici siyasətlə bağlı müxtəlif səpgili məsələlər çıxdıqca, həmin sosial-iqtisadi problemlərin həlli mürəkkəbləşdikcə, təbii olaraq, tədricən idarəçilik orqanı kimi dövlətin rolu da artmışdır.

Dövlət təkcə siyasi-inzibati bir anlayış olmayıb, eyni zamanda iqtisadi qurumdur. Müasir dövlət öz hakimiyyət orqanlarının timsalında həm də sahibkardır, mülkiyyətçidir, istehsalçıdır, investordur, sifarişçidir, borc (kredit) verəndir, borc alandır və istehlakçıdır. Bu mənada dövlət, bazar münasibətləri iqtisadi sisteminin, milli və beynəlxalq iqtisadiyyatın fəal iştirakçısıdır, subyektidir.

Ölkənin ümumi iqtisadi-sosial tərəqqisi, əhalinin maddi-mənəvi həyat səviyyəsi dövlətin işləyib hazırladığı və ardıcıllıqla həyata keçirdiyi iqtisadi siyasətlə bilavasitə, yaxud dolayı yollarla bağlıdır. Bu özünü xalqın rifahında, ölkənin ümumi daxili məhsulunun və milli gəlirinin optimal nisbətlərlə artımında, təhsil və səhiyyə sisteminin inkişaf səviyyəsində, insanların sosial təminatı və hüquqlarının müdafiəsində, cəmiyyətin siyasi durumu və vətəndaş həmrəyliyində, ekoloji problemlərə münasibətdə və beynəlxalq aləmdəki nüfuzunda göstərir.

Hər hansı bir ***dövlətin iqtisadi siyasəti*** – hökumətin müəyyən sosial-iqtisadi tədbirlər sistemi olub, bunların həyata keçirilməsi deməkdir.

Son 200 ildə dünyanın ümumi təsərrüfat həyatında baş vermiş köklü kəmiyyət və keyfiyyət dəyişiklikləri nəticəsində ölkələrin daxili-xarici siyasətində, o cümlədən də iqtisadi-ticarət münasibətlərindəki əhəmiyyətli irəliləyişlər, şübhəsiz dövlətin rolunun cəmiyyətdə xeyli artmasına səbəb olmuşdur.

Belə bir meyl, XIX əsrin sonu – XX əsrin əvvəllərində sərbəst rəqabətdən inhisarçılığa keçid, xüsusilə 1929-1933-cü illəri əhatə etmiş dünya iqtisadi böhranından sonra xeyli güclənmişdir. Müasir dövrdə də ölkənin iqtisadi-sosial inkişafında, dövlətin düşünülmüş iqtisadi siyasət xətti, bir sıra mühüm daxili-xarici problemlərin tarazlı surətdə nizama salınmasında əhəmiyyətli rol oynamaqdadır.

Lakin dövlətin cəmiyyət həyatının müxtəlif sahələrində, xüsusilə iqtisadiyyatdakı roluna dair hələ qədim dövrlərdən başlanmış fərqli yanaşmalar, ziddiyyətli mövqelər indiyədək davam etməkdədir. Dövlətin cəmiyyətin iqtisadi-sosial problemlərinin həlli istiqamətindəki müsbət rolunu qeyd edən liberal mövqedə duranlar, bu fəaliyyətin daha da genişləndirilib-gücləndirilməsini irəli sürürlər. Əksinə, dövlətin rolunun artmasına ehtiyatla yanaşan mövqe tərəfdarları isə tələb edirlər ki, «xalqın çiyinlərində yükə çevrilmiş hakimiyyət» öz təsirini azaldıb məhdudlaşdırmalıdır. Çünki, yalnız bazar münasibətlərinin geniş miqyasda fəaliyyəti, həqiqətən ölkənin təsərrüfat həyatında «möcüzələr» yaratmağa və cəmiyyətin bütün ictimai təbəqələrinin həyat səviyyəsini yüksəltməyə qadirdir.

Müasir dünyanın əksər ölkələrində xüsusi mülkiyyətə, sahibkarların azad fəaliyyətinə, tələb-təklif əsasında qiymətlərin formalaşmasına, rəqabət mübarizəsinə əsaslanan bazar münasibətləri iqtisadi sistemi şəraitində belə, dövlət və hakimiyyət orqanları təsərrüfat həyatında fəal iştirak edirlər.

Məsələn, XXI əsrin əvvəllərində ABŞ-da ***federal, ştat, yerli*** səviyyədə 80 mindən çox dövlət və hakimiyyət orqanı, ölkə iqtisadiyyatının inkişafı yaxud idarə olunması problemləri ilə bu ya digər şəkildə məşğul olmuşdur. Həmin orqan və qurumların birgə büdcələri ölkənin ümumi daxili məhsulunun 35 faizini təşkil edir, orada işləyənlərin sayı isə ölkə üzrə məşğul əhalinin 16 faizini ötür.

Müxtəlif dünya ölkələrinin təcrübəsi sübut etmişdir ki, dövlətin öz iqtisadi siyasəti ilə təsərrüfat məsələlərinə qarışması bir növ diktatura və totalitar rejim yaradırsa, dövlətin özünü iqtisadi-sosial problemlərin həllindən təcrid etməsi, bu məsələlərə biganə münasibəti, şübhəsiz son nəticə etibarilə anarxiya, qarışıqlıq, ictimai narazılıqla başa çatacaqdır.

Nobel mükafatı layreatı R.Kouz (ABŞ) teoreminə görə, ölkədə mülkiyyət hüququnun dəqiq müəyyənləşdiyi, iqtisadi münaqişələrdə iştirak edənlərin sayının azlığı və həmin işin dəyər etibarilə böyük bir məbləğ təşkil etmədiyi halda, əlbəttə bu münaqişənin hər iki tərəfin razılığı ilə dövlət-hakimiyyət orqanları tərəfindən deyil, həmin münaqişənin iştirakçılarının özləri tərəfindən həll olunmasi daha səmərəli, habelə məqsədəuyğundur.

Məsələn, hər hansı bir meşə sahəsinin sahibi ilə onun qonşusu olan istirahət evinin yaxud turist bazasının sahibi arasındakı ərazinin təmizliyinin gözlənilməsi zəminində baş vermiş mübahisənin həlli, şübhəsiz dövlət və hakimiyyət orqanlarının müdaxiləsi olmadan, hər iki tərəfi razı salacaq tərzdə həlli, optimal variant kimi qiymətləndirilməlidir.

Lakin ABŞ və Kanadanın yaxud Qafqaz ölkələrinin həmsərhədd ərazilərində atmosferin və çayların çirkləndirilməsi ilə bağlı ekoloji cəhətdən təhlükə yaranması milyonlarla insanın sağlamlığını hədələyirsə, habelə iqtisadiyyata ziyan vurursa, bu işə dövlət-hakimiyyət orqanlarının qarışması zəruridir. Son dövrlərdə ölkəyə qeyri-qanuni şəkildə iş qüvvəsi axınının qarşısını almaq və terrorçuluğa qarşı mübarizə məqsədilə, ABŞ-la qonşu Meksika arasında 1200 km uzunluğunda mühafizə hasarının çəkilməsi buna nümunə ola bilər.

Mütəxəssis və iqtisadçı alimlərin fikrincə, dövlətin iqtisadi siyasəti – pul-kredit, bank faizlərinin səviyyəsi, valyuta münasibətləri, büdcə, fiskal, xarici iqtisadi-ticarət əlaqələri sahələrini əhatə etməlidir.

Aydındır ki, hər hansı bir dövlətin və onun təşkil etdiyi hakimiyyətin (hökumətin) ***iqtisadi mahiyyəti***, həmin ölkənin iqtisadi sisteminin daxili məzmunu, ictimai-siyasi təbiəti, onun öz qarşısına qoyduğu məqsədi, habelə bunları ardıcıllıqla həyata keçirmək üsulları ilə müəyyən olunur. Dövlətin iqtisadi siyasət xəttinin prinsipial cəhətlərini aşağıdakılar təşkil edir:

- İqtisadi siyasət, ölkənin təsərrüfat həyatında baş verən kəmiyyət-keyfiyyət dəyişiklikləri (böhran, durğunluq, canlanma, yüksəliş) və həmin proseslərə uyğun yeni iqtisadi təfəkkür, habelə düşüncə tərzinin formalaşması əsasında inkişafın daha səmərəli yollarının axtarışı ilə bağlıdır.
- Dünya ölkələrinin təcrübəsi təsdiq edir ki, müəyyən hallar istisna olmaqla (Yaponiya, Sinqapur) iqtisadi siyasət o zaman daha uğurlu sayılır ki, həmin siyasət yerli təbii sərvətlərə, iqtisadi resurslara, siyasi-ictimai sabitliyə, elmi-texniki potensiala, yüksək hazırlıqlı peşəkar kadrlara arxalanır.
- Ölkənin iqtisadi siyasəti, onun ümumi daxili və xarici siyasətinin tərkib hissəsi kimi hazırlanıb, ardıcıl mərhələlərlə həyata keçirilməlidir.

Dövlətin iqtisadi siyasəti ***pozitiv*** və ***normativ*** iqtisadi siyasətə ayrılır. Pozitiv dedikdə, iqtisadi siyasət xəttinin təhlili və real nəticələri başa düşülür. Normativ dedikdə isə konkret şərait və imkanlar daxilində, hökumətin iqtisadi siyasətinin gələcəkdə ən optimal nəticələrə nail olmaq üçün necə fəaliyyət göstərməsi perspektivlərinin araşdırılıb müəyyənləşdirilməsi nəzərdə tutulur.

**26.2.** Dövlətin iqtisadi siyasətinin konkret məqsəd və vəzifələri öz aydın ifadəsini, onun ***strategiyası***, habelə ***taktikasında*** tapır. Strategiya və taktika qədim latın sözü olub, hərbi terminlər kimi qoşun hissələrinin döyüş üçün düzülüşü, onların qarşısına qoyulmuş müəyyən vəzifələrin necə yerinə yetirilməsi ilə bağlı işlədilmişdir.

Müasir anlamda ***iqtisadi strategiya*** – uzunmüddətli iqtisadi siyasət xətti olub, perspektiv üçün irimiqyaslı vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur. İqtisadi strategiya anlayışına iqtisadi siyasətin məqsədi, həmin məqsədə çatmaq vasitələri, bu işin konkret mexanizmləri, yolları daxildir. İqtisadi taktika isə iqtisadi strategiyada bir məqsəd kimi irəli sürülən müxtəlif vəzifələrin necə və hansı vasitələrlə reallaşdırılacağını nəzərdə tutur.

Ümumiyyətlə cəmiyyət həyatında iqtisadi siyasətin strategiyası və taktikası, yəni məqsəd və vəzifələrini yerinə yetirmək yolları qarşılıqlı sürətdə bir-birini tamamlayaraq, bütövlükdə iqtisadi siyasət xəttini vəhdət halında birləşdirir. Siyasəti insan və onun çoxcəhətli fəaliyyətilə əlaqələndirən qədim yunan filosofu Aristotel, hələ 2500 il bundan qabaq yazmışdı ki, «insan-siyasi varlıqdır». Eyni zamanda o siyasəti «elm və idarəetmə sənəti» kimi səciyyələndirmişdir. İmkanı reallığa çevirmək, mümkün olanı həyata keçirmək qabiliyyəti və bacarığı sayılan siyasətin, o cümlədən də bu konkret iqtisadi istiqamətin məqsədlərinə aşağıdakılar daxildir:

- iqtisadiyyatin davamli (dayanaqli) və tarazli inkişaf templərinin təmin edilməsi;
- ölkədə tam məşğulluğun təmin olunmasi və işsizlik probleminin həlli;
- iqtisadi resurslardan məqsədyönlü surətdə istifadə etməklə, onlarin səmərəlilik səviyyəsinin maksimum həddə çatdirilmasi;
- qiymətlərin ümumi səviyyəsinin sabit saxlanmasi və inflyasiya prosesinin dərinləşməsinin qarşisinin alinmasi;

- sahibkarliq və işgüzar biznes fəaliyyəti ilə məşğul olanlar üçün əlverişli hüquqi, iqtisadi, inzibati – təşkilati şəraitin yaradilması;
- gəlirlərin əhalinin müxtəlif ictimai təbəqələri arasinda daha ədalətli bölgüsünün həyata keçirilməsi;
- cəmiyyətin aztəminatli hissəsinin (təqaüdçilərin, ahil insanlarin, çoxuşaqli ailələrin, tək analarin, kimsəsiz qocalarin) dövlət qayğisi ilə əhatə olunması;
- daxili-xarici bazar əlaqələrində optimal tarazliğin saxlanmasi və milli iqtisadiyyatin təhlükəsizliyinin qorunması.
- ətraf mühitin mühafizəsi və ekoloji problemlərin kəsginləşməsinin qarşisinin təsirli tədbirlər vasitəsilə alınması.

Son 100 il ərzində dövlətin ölkənin təsərrüfat məsələlərinə qarışmasının müəyyən mənfi meyllərinə baxmayaraq, hələlik bu prosesin davam etməsi, danılmaz bir faktdır. XIX əsrin sonu və XX əsrin əvvəllərində o dövrün yüksək inkişaf etmiş ölkələrində dövlətin büdcə xərcləri orta hesabla onların ümumi daxili məhsulunun 11-12 faizini təşkil etmişdisə, XXI əsrin əvvəllərində bu rəqəm bir neçə dəfə artaraq, 40 faizə çatmışdır. Ayrı-ayrı dövlətlər üzrə isə büdcə xərclərinin artım dinamikası aşağıdakı kimi olmuşdur;

| **Sıra nömrəsi** | **Ölkələr** | **Ümumi daxili məhsulda büdcə xərclərinin payı (faizlə)** | |
|---|---|---|---|
| | | ***XIX əsrin sonu və XX əsrin əvvəlləri*** | ***XXI əsrin əvvəlləri*** |
| I | ABŞ | 7,7% | 32,2% |
| II | Yaponiya | 15,4% | 43,7% |
| III | Almaniya | 14,9% | 46,8% |
| IV | İngiltərə | 14,2% | 41,1% |
| V | Fransa | 10,8% | 59,6% |
| VI | İtaliya | 11,8% | 48,5% |

Dövlətin ölkənin təsərrüfat həyatında iştirakını göstərən belə bir fakt da maraqlıdır ki, ABŞ-ın iqtisadiyyatında dövlət bölməsinin xüsusi çəkisi 8-12%, İsveçdə 12%, İtaliyada 13%, Almaniyada 18%, Fransada 25%, İngiltərədə 26%-dir.

Dövlətin iqtisadi siyasətinin formalaşması və həyata keçirilməsi prosesi, aşağıdakı mərhələləri əhatə edir:

- iqtisadi siyasətin məqsədlərinin müəyyənləşdirilməsi və bəyan olunması;
- iqtisadi siyasətin mümkün bir neçə, hətta alternativ variantinin hazirlanması;
- seçilmiş variantin qiymətləndirilməsi və zəruri hazirliq işlərinin görülməsi;
- iqtisadi siyasətin ardicilliqla həyata keçirilməsi;
- həyata keçirilən iqtisadi siyasətin nəticələrinin hərtərəfli tənqidi təhlili və ölkənin gələcək inkişaf perspektivlərinin dövlət siyasəti baximindan istiqamətlərinin müəyyənləşdirilməsi.

Dövlətin iqtisadi siyasətinin hüdudları öz əhatəliyi etibarilə çox dəyişkən ola bilər. Onun təsir dairəsi, hakimiyyətin ölkənin təsərrüfat həyatı məsələlərinə qarışmamaq mövqeyindən başlayaraq, inzibati-amirlik sistemlərinə (məsələn, keçmiş Sovet İttifaqı və sosialist ölkələrinə) xas olan sərt mərkəzləşdirilmiş idarəetmə üsullarına qədər genişlənə bilər.

Lakin ölkə iqtisadiyyatına, onun inkişaf istiqamətlərinin perspektivlərinə dövlətin öz imkanları və nüfuzu ilə qarışmamaq siyasəti, milli iqtisadiyyat üçün faydalı olmadığı kimi, onun bu proseslərə həddsiz müdaxiləsi də yolverilməzdir. Yalnız konkret şəraitin tələblərindən irəli gələn və müəyyən hüdudlar daxilində, müxtəlif mülkiyyət növləri, habelə sahibkarlıq fəaliyyəti əlaqələrinə əlverişli imkanlar yaradan dövlətin iqtisadi siyasət xətti, son nəticə etibarilə uğurlar qazana bilər.

Təsadüfi deyildir ki, Dünya Bakının hesabatında dövlətin ölkənin iqtisadi həyatındakı siyasəti və konkret fəaliyyəti, habelə vəzifələri belə müəyyənləşdirilmişdir: «Dövlət ölkənin təsərrüfat həyatının subyekti (iştirakçısı) yox, iqtisadi inkişafın təminatçısı (qarantı) rolunu oynamalıdır.»

Bunun üçün dövlət öz iqtisadi siyasəti və fəaliyyəti ilə ölkədə siyasi sabitliyi, makroiqtisadi tarazlığı təmin etməli; xalqın maddi-mənəvi həyat səviyyəsinin yüksəldilməsi qayğısına qalmalı; ətraf mühitin və ekologiyanın qorunmasına cavabdeh olmalı; vətəndaşların təkcə siyasi hüquqlarının deyil, həm də iqtisadi sərbəstliyinin təminatçısı rolunu oynamalıdır. Çünki ölkənin gücü və sərvəti dövlətin imkanları ilə deyil, onun vətəndaşlarının mülk-var sahibi olması, ləyaqətli həyat səviyyəsi meyarları ilə ölçülür.

**26.3.** Ölkənin makroiqtisadi səviyyədə maliyyə-pul sisteminin və ümumiyyətlə iqtisadi münasibətlərinin zəruri tərkib hissəsi kimi formalaşan ***dövlət büdcəsi,*** bu sistemin mərkəzi həlqəsi sayılaraq, milli iqtisadiyyatın inkişafında mühüm rol oynayır. O, dövlətin iqtisadi-sosial vəzifələrini həyata keçirir, cəmiyyətin iqtisadi və hərbi təhlükəsizliyi, əhalinin sosial-mədəni qayğıları ilə bağlı problemlərin həllini həyata keçirir. Bu mənada dövlət büdcəsi, hakimiyyətin öz üzərinə düşən vəzifələri ardıcıllıqla reallaşdırmaq üçün ***mərkəzləşdirilmiş pul vəsaiti fondunun*** yaradılmasının və ondan istifadə edilməsinin sınanmış formasıdır.

Bazar münasibətləri iqtisadi sistemi və müxtəlif mülkiyyət formalarının təsərrüfatçılıq fəaliyyəti şəraitində, dövlət büdcəsinin əhatə dairəsi xeyli genişlənir, onun imkanları artır, yeni formalaşan müxtəlif təyinatlı istehsal-xidmət sahəsi subyektləri ilə iqtisadi münasibətləri nizama salınır.

Ümumiyyətlə dövlət büdcəsi, dövlətlə şirkət və korporasiyalar, müəssisə və təşkilatlar, ev təsərrüfatları və ayrı-ayrı fiziki, habelə hüquqi şəxslər arasındakı iqtisadi münasibətləri ifadə edir. Hər bir dövlətin maliyyə planı və proqramı kimi xarakterizə olunan dövlət büdcəsi, ölkənin ümumi daxili məhsulunun, milli gəlirinin yenidən (təkrar) bölgüsünü həyata keçirir, iqtisadiyyatın dövlət tənzimlənməsi prosesinə, habelə çoxsahəli təsərrüfat həyatının sosial-iqtisadi sahələrinin tərəqqisi işinin stimullaşdırılmasına bir maliyyə mənbəi təminatçısı rolunda xidmət göstərir.

Dövlət büdcəsinin vəzifələri sırasına, onun nəzarət funksiyası da daxildir. Bu o deməkdir ki, dövlət öz büdcəsi vasitəsilə, ölkənin pul vəsaitlərinin formalaşması və ondan necə istifadə olunması gedişini izləyib, nəzarətdə saxlayır. Təsadüfi deyildir ki, mütəxəssislər dövlət büdcəsini ***iqtisadi siyasət və idarəetmə vasitəsi*** kimi səciyyələndirirlər. Hər bir ölkənin büdcə sistemi konkret şəraitdən asılı olaraq ***mərkəzi*** (federal, respublika), ***regional*** (stat, kanton, əyalət) və ***yerli*** (bələdiyyə) büdcələrindən ibarət ola bilər.

Dövlət büdcəsi öz quruluşuna, mənbələrinə və təyinatına görə ***gəlir*** (mədaxil), ***xərc*** (məxaric) kimi hissələrə ayrılır. ***Büdcənin gəlirləri***, müxtəlif vergilərdən, aksizlərdən, gömrük rüsumlarından, xarici dövlətlərdən və beynəlxalq maliyyə təşkilatlarından alınan kredit, habelə qrantlardan, pul-şey lotereyaları satışından daxil olmalardan, kreditlər üzrə faizlərdən və digər mənbələrdən formalaşır. ***Büdcənin xərcləri*** isə dövlət, hakimiyyət orqanları, idarəetmə aparatının saxlanılmasına; ölkənin hərbi-müdafiəsi və milli təhlükəsizliyinin qorunmasına; dövlət investisiyalarına, elmə, təhsilə, səhiyyəyə, mədəniyyətə, incəsənətə, idmana, mənzil kommunal obyektlərinə; ekologiya və ətraf mühitin qorunmasına; əhalinin sosial müdafiəsi və təminatına; dövlətin xarici borclarının ödənilməsinə, beynəlxalq təşkilatlara üzvlük haqqlarına; xarici ölkələrdəki səfirliklərin, konsulluqların, müvafiq rəsmi qrumların, bəzi qeyri-dövlət təşkilatlarının fəaliyyət göstərməsinə yönəldilir.

Dünyanın müxtəlif ölkələrində dövlət büdcəsinin gəlirləri, ümumi daxili məhsulun (ÜDM) 15-20 faizindən başlayaraq, 45-55 faizinə qədər dəyişən bir rəqəm təşkil edir. Bu ölkənin ümumi iqtisadi – sosial inkişaf səviyyəsindən, vergi dərəcələrindən, gömrük rüsumlarından və işin təşkili səviyyəsindən asılıdır.

Müasir yüksək inkişaf etmiş ölkələr qrupunun, o cümlədən də ABŞ-ın iqtisadiyyatı sərbəst bazar prinsipləri əsasında formalaşıb fəaliyyət göstərsə də, lakin həmin iqtisadi sistemin dövlət tənzimlənməsinin alətləri (vasitələri) sayılan büdcənin, vergilərin, pul-kredit münasibətlərinin mərkəzləşdirilmiş qaydada vəsaitlərin toplanması, bölüşdürülməsi, nəzarət olunması, müəyyən stimullar yaratması funksiyalarından geniş istifadə olunur.

XXI əsrin birinci onilliyində 3,5 trilyon dolları ötən ABŞ-ın dövlət büdcəsinin gəlir mənbələri və xərcləri aşağıdakı sxemdə verilmişdir:

**ABS dövlət büdcəsinin xərcləri**




**ABŞ dövlət büdcəsinin gəlir mənbələri**




Sxemdəki rəqəmlərdən aydın olur ki, ABŞ dövlət büdcəsinin xərclərinin 38 faizi əhalinin sosial təminatına (pensiyalara, müxtəlif proqramlar üzrə yardımlara), 21 faiz səhiyyə və əhalinin sağlamlığına, 17 faizi hərbi müdafiəyə, 9 faizi dövlət borcu üzrə faizlərin ödənilməsinə və 15 faizi isə başqa məqsədlərə yönəldilir.

ABŞ dövlət büdcəsinin gəlir hissəsinin 46 faizini şəxsi gəlir vergisi, 38 faizini əmək haqqından vergi ödənişi, 8 faizini korporasiyaların gəlir vergisi, 4 faizini aksizlər və 4 faizini isə digər mənbələrdən daxil olan vergilər təşkil edir.

ABŞ-ın dövlət büdcəsi üçün gəlirlərin 80 faizindən çoxunun əhalinin şəxsi gəlirləri və əmək haqqından formalaşması, büdcə xərclərinin isə üçdə iki hissəsinin əhalinin sosial müdafiəsinə, səhiyyə və ölkənin müdafiəsinə yönəldilməsi səciyyəvidir.

Müstəqillik illərində formalaşan Azərbaycan Respublikasının dövlət büdcəsi, təşkilatı quruluşuna görə respublika dövlət büdcəsindən, Naxçıvan Respublikasının dövlət büdcəsindən və yerli (bələdiyyə, şəhər, rayon) büdcələrindən ibarətdir. Bu büdcələr öz maliyyəşmə mənbələrinə, istifadə mexanizmlərinə və təyinatına görə fərqlidirlər. Həmin müxtəlif büdcələr birlikdə Azərbaycan Respublikasının vahid büdcə sistemini təşkil edir.

Ölkə iqtisadiyyatının dinamik yüksəlişi və milli iqtisadiyyatın beynəlxalq inteqrasiya proseslərinə qoşulması sayəsində, sosial-iqtisadi sahələrdə qazanılmış uğurlar, büdcənin ümumi həcminin sürətlə artmasını təmin etmişdir. Hazırda Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirləri 15-16 milyard manat təşkil edir ki, bu müstəqilliyin ilk dövrlərinə nisbətən 15 dəfədən çoxdur. Dövlət büdcəsi gəlirlərinin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi 34% təşkil edir. Tədricən, iqtisadiyyatın müxtəlif sahələrinə, xüsusilə də qeyri-neft sektoruna (bölməsinə) yönəldilən vəsaitin strukturunda nisbət, büdcədən maliyyələşdirilən dövlət investisiyaların hesabına getdikcə artmaqdadır. Bu meyl, ölkənin cari və pespektiv inkişafı yolunda mühüm bir addım olub, büdcə vəsaitlərindən daha səmərəli istifadə olunması istiqamətinin səmərəliliyini təsdiq edir.

**26.4.** Dövlətin iqtisadi siyasət xətti və iqtisadiyyatı tənzimlənməsində vergilər, onların artırılması, aşağı salınması, yaxud sabit saxlanması, ölkənin təsərrüfat həyatının konkret vəziyyətindən, imkanlarından, gələcək inkişaf perspektivlərindən asılı olaraq, mühüm əhəmiyyətə malikdir.

Qədim bir tarixi olub ***«dövlət gəliri»*** kimi səciyyələnən və onun iqtisadi siyasətinin həyata keçirilməsi vasitələrindən sayılan vergilərin zaman ötdükcə ***formaları, mənbələri, toplanma üsulları, xərclənmə istiqamətləri dəyişib*** təkmilləşsə də, mahiyyəti sabit qalmışdır. İlk vaxtlar əhalidən natural (məhsul) formasında toplanan vergiləri, sonralar əmtəə-pul münasibətlərinin inkişafı və ictimai əmək bölgüsünün genişlənib-dərinləşməsi ilə bağlı, ümumi ekvivalent olan pul əvəz etmişdir.

Müasir bazar münasibətləri iqtisadi sistemi şəraitində vergilər, ***birbaşa və dolayı*** formaları ilə dövlət büdcəsinin gəlirlər hissəsinin əsas mənbəyinə çevrilmişdir. Birbaşa vergilərə, – mənfəət vergisi, əhalinin gəlir vergisi, torpaq vergisi, əmlak vergisi, birdəfəlik rüsum, təbii sərvətlərdən istifadəyə görə haqq (renta) və sairə daxildir. Dolayı vergilərə isə əlavə dəyər vergisi, akcizlər, ixrac vergisi, gömrük rüsumları, patentləşdirmədən daxil olan vəsaitlər daxildir. Dünyanın ayrı-ayrı ölkələrində vergilərin ***sayı, həcmi, dərəcələri*** müxtəlifdir.

Dövlətin vergi siyasəti, onun daxili siyasətinin tərkib hissəsi olub, bir sistem kimi fəaliyyət göstərir. Vergi sistemi ölkədə məcburi qaydada toplanan və istifadə olunan bütün vergi növlərinin məcmusunu əhatə edir. Dünya təcrübəsində 4 vergi sistemindən: a) ***mütərəqqi*** (proqressiv); b) ***qeyri-mütərəqqi*** (reqresiv); c) ***qarışıq;*** ç) ***mütənasib*** (proporsional) istifadə olunur.

Qeyd etmək lazımdır ki, ***mütərəqqi vergi*** sistemi, gəlirlərin artmasına uyğun olaraq vergi dərəcəsinin, yəni hər bir vergi ödəyicisinə düşən vergi yükünün (ayırmalarının) çoxaldığını nəzərdə tutur. ***Qeyri-mütərəqqi*** vergi sisteminə görə vergi ödəyənlərin gəlirləri artdıqca, onlara tətbiq edilən vergi dərəcəsi, müəyyən nisbətdə aşağı salınır. ***Qarışıq vergi***

sistemində həm mütərəqqi, həm də qeyri-mütərəqqi sistemin müxtəlif variantlarından, yaxud kombinasiyalarından istifadə olunur. ***Mütanasib vergi*** sisteminə görə vergi ödəyicisinin gəlirinin artıb-azalmasından asılı olmayaraq, müəyyən bir vergi dərəcəsi tətbiq olunur və kəmiyyət dəyişməz qalır.

Ümumiyyətlə vergilər müxtəlif dövlətlərin siyasi-ictimai quruluşlarından və iqtisadi-sosial inkişaf səviyyələrindən asılı olaraq, ***dövlət*** (mərkəzi) və ***yerli*** vergilərə, yaxud federal (dövlət), regional (stat) və bələdiyyə (munisipalitet) vergilərinə ayrılırlar.

Müxtəlif ölkələrdə vergi dərəcələri bir-birindən xeyli fərqidir. Məsələn, gəlir vergisinin ən yüksək həddi ABŞ-da 34%, Fransada 54%, Almaniyada 53%, İspaniyada 48%, Avstraliyada 47%, İsraildə 50%, Flippində 32%, Rusiya və Azərbaycanda 35%-dir.

Dünya ölkələri üzrə vergi dərəclərinin müxtəlifliyi, özünü bu vergilərdən formalaşan dövlət büdcəsinin gəlirlər hissəsində aydın göstərir. Hər hansı bir ölkənin ümumi daxili məhsulunun neçə faizinin vergilər vasitəsilə dövlət büdcəsinə cəlb olunması səviyyəsi, bu işin səmərəlilik meyari kimi qiymətləndirilə bilər. Son məlumatlara görə, 5 qrup ölkələr üzrə ümumi daxili məhsulun hansı hissəsinin vergilər vasitəsilə dövlət büdcəsinə cəlb olunması mənzərəsi belədir.

I qrupa daxil olan – İsveç, Danimarka, Niderlandda (Hollandiyada) – 55-60 faiz.

II qrupa daxil olan – Norveç, Çexiya, Avstriya, Fransa, Polşa, Finlandiyada 50 faiz.

III qrupa daxil olan ölkələr – Belçika, Almaniya, İtaliya, Kanada, İspaniyada – 41-49 faiz.

IV qrupa daxil olan ölkələr – İngiltərə, ABŞ, Avstraliya, Türkiyə, Yaponiyada – 32-38 faiz.

V qrupa daxil olan ölkələr – Meksika, Azərbaycan, Cənubi Koreyada – 21-30 faiz.

Hazırda dünyanın müxtəlif ölkələrində vergilərin ümumi sayının azaldılması, onların qruplaşdırılması və daha da sadələşdirilməsi istiqamətində görülən işlər davam etdirilməkdədir. Əlamətdar cəhət ondan ibarətdir ki, ümumi vergilər siyahısında digər vergi növlərinə nisbətən əhalinin müxtəlif təbəqələrinin gəlirləri və şirkətlərin (korporasiyaların) mənfəəti getdikcə həm mütləq rəqəmlərlə, həm də xüsusi çəki (pay) etibarilə üstünlük təşkil etməkdədir. XX əsrin əvvəlləri üçün ABŞ-da şəxsi gəlir vergilərinin federal dərəcələri aşağıdakı cədvəldə verilmişdir:

**ABŞ-da şəxsi gəlir vergisinin federal dərəcələri (XXI əsrin əvvəlləri)**

| Vergi tutulan ümumi gəlirin məbləği (dollarla) | Son vergi dərəcəsi həddi (faizlə) | Həmin gəlir məbləği üçün maksimum vergi (dollarla) | Həmin gəlir məbləği üçün orta vergi dərəcəsi (faizlə) |
|---|---|---|---|
| 1-14.000 | 10,0 | 1.400 | 10,0 |
| 14.001-56.800 | 15,0 | 7.820 | 13,8 |
| 56.801-114.650 | 25,0 | 22.282,5 | 19,4 |
| 114.651-174.700 | 28,0 | 39.096,5 | 22,4 |
| 174.701-311.950 | 33,0 | 84.389 | 27,1 |
| 311.950 dollardan artıq | 34,0 | - | - |

Şübhəsiz, dövlətin iqtisadi siyasətinin istiqamətlərindən biri olan vergilərin tədricən artması meyli və bu məsələdə dövlətin mövqeyi, cəmiyyət tərəfindən birmənalı qarşılanmamış, seçgiqabağı kampaniyaların, habelə konqreslərin, senatların, parlamentlərin, milli məclislərin kəsgin tənqid hədəfinə çevrilmişdir.

Mütəxəssislərin hesablamalarına görə, hazırda ABŞ-da hər bir vergi ödəyicisi orta hesabla, öz 8 saatlıq iş gününün 2,5 saata qədərinin gəlirini, yəni təxminən 30 faizini müxtəlif vergilər şəklində ödəyir. Doğrudur, yüksək inkişaf etmiş ölkələrdə ailənin tərkibindən asılı olaraq, hər nəfərə düşən gəlirin miqdarı müəyyən həddə çatmırsa, həmin ailəyə güzəştlər olunur və müxtəlif sosial proqramlar xəttilə yardımlar göstərilir.

Lakin dövlət, bazar iqtisadiyyatının yaratdığı qeyri-bərabərlik və sosial ədalətsizlik hallarını aradan qaldırmaq, ölkənin müdafiəsini, onun təhlükəsizliyini qorumaq, ekologiya problemlərini həll etmək, ölkə vətəndaşlarının asayişini təmin etmək, habelə digər vəzifələrini həyata keçirmək üçün vergilərdən təsirli bir vasitə kimi istifadə edir.

Vergi yükü və onun ölkə vətəndaşları arasında ədalətli bölüşdürülməsi barəsindəki fikirlərə öz münasibətini bildirən senator Rassel Lonq, vaxtilə belə bir mahnı oxumaqla cavab vermişdi:

Səndən vergi tutmayaq,
Məndən vergi tutmayaq,
Ağacın arxasındakı oğlandan vergi tutaq?

Təsadüfi deyildir ki, ABŞ-ın tanınmış alimi və dövlət xadimi B.Franklinin hələ 1789-cu ildə dediyi sözlər, bizim günlərimizdə də aktual səslənir: «Dünyada ölümdən və vergilərdən qaçmaq mümükün deyildir». Unutmamalıyıq ki, «vergilər sivil cəmiyyət üçün bizim ödədiyimiz haqqdır» (Oliver Holms)

**26.5.** Xüsusi mülkiyyət, tələb-təklif, bazar qiymətləri, rəqabət əsasında formalaşıb fəaliyyət göstərən müasir bazar münasibətləri iqtisadi sisteminin ***səmərəlik prinsipi*** ilə cəmiyyətin bütün təbəqələrinin ***maraq və mənafeyinə*** cavab verən sosial ədalət anlayışı arasında müəyyən bir ziddiyyət vardır.

Bazar münasibətləri şəraitində təşəbbüskar, öz işini daha peşəkarlıqla qurmağı bacaran, iqtisadi resurslarla yaxşı təmin olunmuş şirkət, ev təsərrüfatları, fermerlər, korporasiyalar və işgüzar biznes-sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar, şübhəsiz iqtisadi cəhətdən xeyli əlverişli bir vəziyyətdə olurlar. Ölkə qanunlarına əməl etmək və rəqabət əsasında əldə olunmuş ***bütün gəlirlər,*** bazar münasibətləri sistemində ***ədalətli sayılır***.

Lakin aydındır ki, obyektiv-subyektiv səbəblər üzündən bütün ölkələrdə xəstə, qoca, təhsil almamış gənclər, əlil və şikəst insanlar, valideynlərini itirmiş uşaqlar, çoxuşaqlı ailələr, tək analar olduğundan, cəmiyyət bu adamları bazar münasibətlərinin sərt qayda-qanunlarından qorumalıdır. Sivil və mədəni cəmiyyətin hümanizm prinsipləri, onun ümumbəşəri dəyərlərə və milli ənənələrə hörməti tələb edir ki, ölkə vətəndaşlarının hər birinin normal yaşayışı, insan ləyaqətinə uyğun həyat səviyyəsi təmin olunsun.

Bu məqsədlə dövlətin sosial siyasəti hazırlanıb, həyata keçirilir. ***Sosial siyasət***, dövlətin ölkə əhalisi və vətəndaşları üçün insana laiq həyat şəraiti yaratmağı, onun sərbəst inkişafını təmin edən kompleks tədbirləri reallaşdırmağı nəzərdə tutur. Dövlətin sosial siyasəti, insanların əmək və təhsil hüququ, onların sağlamlığı, minimum əmək haqqı, pensiya təminatı, sosial müdafiə, aztəminatlı ailələrə ünvanlı yardım kimi tədbirləri əhatə edir.

Eyni zamanda dövlətin sosial siyasəti, ictimai məna və əhəmiyyət daşıyan magistral yollar çəkilməsi, park və bağlar salınması, istirahət zonaları və milli qoruqlar yaradılması, elm-təhsil və mədəniyyətə yardım göstərilməsi, xüsusilə son dövrdə qlobal xarakter almış ətraf mühitin qorunması və ekologiya problemlərinə qayğı göstərilməsi ilə səciyyələnir.

Bütün bu tədbirlərin maliyyə mənbəi isə müxtəlif təyinatlı vergilərdən formalaşan dövlət büdcəsinin xərclər hissəsidir.

Ölkə iqtisadiyyatının sosial istiqamətli inkişafı, təsərrüfat həyatı vəzifələrinin şəxsiyyətin ümumi və hərtərəfli formalaşmasına xidmət etməsini tələb edir. Belə bir istiqamət, müasir cəmiyyət həyatının hümanistləşdirilməsi, ictimai münasibətlər sisteminin yaxşılaşması, yoxsulluğa, cinayətkarlığa qarşı mübarizə aparılması, elmi-texniki tərəqqinin istehsal-xidmət dairələrini geniş əhatə etməsi ilə bağlıdır. Bu mürəkkəb xarakterli məsələlərin həllinin əsas hərəkətverici qüvvəsi insanların yaradıcı əməyi və onların normal tələbatlarının hərtərəfli ödənilməsidir.

Müasir mərhələdə dünyada ən fəal sosial siyasət Qərbi Avropa ölkələrində həyata keçirilir. Mütəxəssislərin hesablamaları və rəsmi statistika məlumatları göstərir ki, ABŞ və Yaponiyada bütövlükdə sosial məqsədli tədbirlərə yönəldilən xərclər dövlət büdcəsinin müxtəlif illərdə 35-42 faizini təşkil edirsə, bu rəqəm Hollandiya, İsveç, Avstriya kimi ölkələrdə 60 faizə çatır, hətta bu səviyyəni ötür. Məsələn, Fransada çoxuşaqlı ailələrə, tək analara, işsizlərə, əlillərə, aztəminatlı ailələrə, qocalara, pensiyaçılara 28 müxtəlif təyinatlı sosial proqram əsasında dövlət yardımı göstərilir.

Hazırda dünya ölkələrinin əksəriyyətində bazar münasibətləri iqtisadi sistemi fəaliyyət göstərsə də, onun liberal, sosial yönümlü, sosial-demokrat istiqamətlərinin – amerika, isveç, alman, cin, yapon və digər modelləri vardır.

Sosial yönümlü bazar münasibətləri yolu ilə inkişaf edən Qərbi Avropanın Almaniya, Avstriya kimi ölkələrində sosial tədbirlər proqramlarına daha geniş yer verilərək, həmin məsələlərin həlli, dövlət büdcəsinin hesabına həyata keçirilməsi xətti üstünlük təşkil edir. ABŞ-da isə hər bir fərdin şəxsi təşəbbüskarlıq səylərinə, peşəkarlıq səylərinə, bacarıq qabiliyyətinə geniş imkanlar yaradılır. Bu imkanlar müvafiq hüquqi baza, əlverişli maliyyə-kredit münasibətləri, sadələşdirilmiş vergi sistemi, təkmilləşdirilmiş inzibati-təşkilatı tədbirlər vasitəsilə reallaşdırılır. Yaponiyanın və Çinin təbii-coğrafi, iqtisadi resurslarla təminatı, milli-psixoloji xüsusiyyətləri, əhalinin ənənələri, habelə mentalitetinə uyğun elə bir dövlət sosial siyasəti həyata keçirilir ki, bu istiqamət son nəticə etibarilə ayrı-ayrı fərdlərin deyil, ümumi milli mənafeyin üstünlüyünü təmin edir.

Müstəqillik yolu ilə irəliləyən Azərbaycan Respublikasında, bazar münasibətləri iqtisadi sisteminin dünyanın müxtəlif ölkələrində tətbiq olunan modellərinin müəyyən ünsürlərindən yaradıcılıqla istifadə olunsa da, iqtisadi-sosial inkişaf xəttinin sosial yönümlü yüksəliş modelinə daha çox üstünlük verilir.

# Mövzu 27. Antitrest (antiinhisar) qanunları və təsərrüfat həyatının tənzimlənməsi

**27.1** İnhisarların meydana çıxması, fəaliyyət prinsipləri və təkamül yolu
**27.2** İstehsal inhisarçılığı, onun formaları və antitrest (antiinhisar) qanunları
**27.3** İnhisarçılığın digər formaları
**27.4** İnhisarların və inhisarçılıq fəaliyyətinin dövlət tənzimlənməsi

**27.1.** Bazar iqtisadi münasibətləri sistemi tarixən ictimai əmək bölgüsünün genişlənib-dərinləşməsi, əmtəə-pul münasibətlərinin sürətli inkişafı, beynəlxalq iqtisadi-ticarət əlaqələrinin yeni sahələri əhatə etməsi təməlində, xüsusi mülkiyyət, istehsalçıların iqtisadi sərbəstliyi və rəqabət mübarizəsi ilə bağlı formalaşmışdır.

Müxtəlif ölkələrin təsərrüfat həyatının keçdiyi mürəkkəb və ziddiyyətli inkişaf yolu təcrübəsi təsdiq etmişdir ki, ***rəqabət mübarizəsi*** öz mahiyyəti, normal gedişi, forma rəngarəngliyi ilə cəmiyyətin iqtisadi həyatının fəallığını gücləndirir, məhsul buraxılışının, xidmətlər göstərilməsinin artırılmasına əlverişli şərait yaradır, onların keyfiyyətini yüksəldir, satış qiymətlərinin tədricən aşağı düşməsini şərtləndirir.

Lakin XIX əsrin ikinci yarısından başlayaraq, sərbəst rəqabət sahibkarlığının inkişaf edərək, özünün ***inhisarçı*** (monopolist) mərhələsinə keçməsi, rəqabət meydanında əvvəllər görünməmiş yeni və sərt meylləri xeyli gücləndirdi. İstehsalın və kapitalın təmərküzləşməsi, mərkəzləşməsi prosesləri rəqabət mübarizəsinin yeni, daha kəsgin mərhələyə daxil olması ilə səciyyələnmişdir.

Tədricən bazarlarda yaranmış rəqabət mübarizəsi nəticəsində, istehsal və xidmət dairəsinin müxtəlif sahələrində üstün mövqe tutmaq, inhisarçı olmaq, tək əldə cəmləşdirmək meylləri güclənmişdi. Başlıca məqsəd isə bu yolla daha yüksək (maksimum) mənfəət əldə etmək olmuşdu. Bu məqsədə çatmaq üçün normal sərbəst rəqabət qanunları pozulmuş, rəqibi müflis edib bazardan sıxışdırmaq istiqamətində, ***haqqsız rəqabət*** üsullarından geniş istifadə olunmuşdur.

ABŞ, İngiltərə, Fransa, sonralar isə Rusiya, İtaliya və digər ölkələrdə inhisarları (inhisarçılığı) yaradan səbəblər sırasında: satış bazarlarını itirmək təhlükəsini; satılan məhsulların və göstərilən xidmətlərin qiymətinin müəyyən həddən sonra artırmağın mümkün olmamasını; elm və texnikanın, mütərəqqi texnologiyaların ən son nailiyyətlərindən faydalanmaq imkanlarının reallığını göstərmək olar.

Ölkələrin təsərrüfat həyatında azad (sərbəst, mükəmməl) rəqabətə qarşı yönəldilmiş inhisarçılıq meylləri 2 istiqamətdə getmişdir. ***Birincisi,*** satış bazarlarında fəaliyyət göstərən müxtəlif subyektlər (iştirakçılar) öz aralarında bazarın bölünməsi, satış qiymətləri, istehsalın həcmi, habelə digər şərtlər barəsində konkret razılığa gəlirlər. ***İkincisi,*** bazarda tutduqları üstün mövqedən istifadə etməklə, qiymətlər qaldırılıb-endirilir, süni qıtlıq (defisit) yaxud ifrat bolluq yaradılaraq, rəqiblər üçün haqqsız və əlverişsiz rəqabət mühiti formalaşdırılır.

İnhisarın ən sadə və bəsit formaları kimi ***konvensiya, rinq, korner,*** habelə digərlərini qeyd etmək olar. Bu formalar bir neçə iri sahibkar arasında, müəyyən məhsulların satış qiymətləri haqqında qısa müddətli sazişlər bağlanmasını nəzərdə tuturdu. İnhisarların əsas formaları kimi ***kartel, sindikat, trest, konsern*** nümunə göstərilə bilər. İnhisarların sonrakı

təkamül və inkişafı, ***konsorsum, beynəlmiləl şirkətlər*** (birliklər), ***trans milli korporasiyar*** (TMK) kimi daha müasir formalarla bağlıdır. İnhisarçılığın tarixən aşağıdakı formaları olmuş və müəyyən dəyişikliklərlə indi də fəaliyyət göstərməkdədir:

**1. <u>İstehsal inhisarçılığı.</u>** Müəyyən növ məhsulun istehsalının əsas hissəsinin bir və ya bir neçə istehsalçının əlində cəmlənməsinə istehsal inhisarçılığı deyilir. İstehsal inhisarçılığı kartel, sindikat, trest, konsern, konsorsum formalarında olur.

***Kartel*** – eyni tipli istehsal sahələrinin, bir sıra oxşar məhsullar buraxan müəssisələrin ilkin elə birləşməsidir ki, onun iştirakçıları istehsal vasitələri və hazırladıqları məhsullar üzərində öz mülkiyyətlərini saxlayırlar. Kartelə daxil olanlar, istehsal etdikləri məhsulların satışı ilə bazarda özləri məşğul olurlar. Lakin kartel iştirakçıları nə qədər məhsul istehsal etmək (kvota, pay), satış qiymətləri, mal çıxaracaqları bazarlar, mənfəət bölgüsü barəsində saziş imzalayırlar. Bu sazişin şərtlərini pozanlar cərimə ödəməli yaxud karteli tərk etməli idilər. İnhisarın bu forması XIX əsrin sonu və XX əsrin əvvəllərində geniş yayılmışdı.

***Sindikat*** – eyni cür əmtəələr istehsal edən müəssisələrin elə birliyidir ki, burada istehsal vasitələri (bina, avadanlıq, dəzgahlar, xammal, materiallar) sindikata qoşulanların öz xüsusi mülkiyyətində qalır.

Bu müəssisələrdə hazırlanmış məhsullar isə sindikatın ixtiyarına keçir. Deməli, istehsal inhisarçılığının bu formasında, istehsalçının (müəssisənin, birliyin) bazarla olan əlaqəsi kəsilir. Sindikat iştirakçıları istehsalçılarının (müəssisələrinin) hazırladıqları məhsulların reallaşdırılması (satışı) ilə xüsusi bir təşkilat, yaxud qurum məşğul olur. Əldə olunan gəlirdən (mənfəətdən) sindikat iştirakçılarına sazişlə razılaşdırılmış qaydada müəyyən pay, haqq verilir.

***Trest*** – istehsal inhisarçılığının daha yüksək bir formasıdır. Bu inhisar formasında ayrı-ayrı sahibkarlar öz mülkiyyətlərini (müəssisələrini) birləşdirərək, bir növ ümumi, birgə mülkiyyət yaradırlar. Trest iştirakçıları, öz kapitallarının həcminə uyğun trestin səhmlərini alır və onun idarə olunmasında iştirak edirlər. Onlar öz səhmlərinə müvafiq gəlir götürür, dividend alırlar.

İnhisarın bu formasında təkcə oxşar sahələr deyil, eyni zamanda əlaqəli sahələr də birləşib (məsələn, daş kömür, metallurgiya, maşınqayırma sahələri) müəyyən bir trest yarada bilərlər.

***Konsern*** – daha geniş əhatəyə malik olub, özündə müxtəlif sənaye sahələrini, ticarət şirkətlərini, bankları, nəqliyyat və maliyyə kampaniyalarını birləşdirir. Dünya təsərrüfat həyatı təcrübəsi və ayrı-ayrı ölkələrin nümunəsi təsdiq edir ki, trestlər tədricən konsernlərə çevrilmişlər.

***Konsorsum*** – iri miqyaslı layihələrin həyata keçirilməsi üçün yaradılır. Bu cür inhisarlar iri layihələri həyata keçirmək üçün maliyyə, ticarət, texniki, istehsal imkanlarını özlərində birləşdirirlər. Məsələn, Azərbaycan Dövlət Neft Əməliyyatları Birliyi Şirkəti (ADNƏBŞ) buna misal ola bilər.

***Beynəlmiləl*** (çoxmillətli) ***korporasiyalar*** dedikdə, bir sıra ölkələrin milli kampaniya və istehsal, habelə elmi-texniki imkanlarını birləşdirən beynəlxalq qurumlar başa düşülür. Beynəlmiləl korporasiyaların səciyyəvi xüsusiyyətləri kimi: a) çoxmillətli səhm kapitalı olmasını; b) onun rəhbərliyinin müxtəlif millətlərdən formalaşdırılmasını; v) təşkil etdiyi filiallarının əsasən yerli şəraiti yaxşı bilən kadırlarla təmin olunduğunu göstərmək mümükündür.

Beynəlmiləl (çoxmillətli) korparasiyalara nümunə kimi «Royal – Datç şell» ingilis-holland konsernini, ABB İsveçrə-İsveç maşınqayırma və elektron korporasiyasını, «Yunilever»ingilis – holland kimya konsernini göstərmək olar.

***Trans milli korporasiyalar*** (TMK) – xarici aktivləri olan milli inhisar birlikləridir. Bunların istehsal və ticarət-təchizat fəaliyyəti müəyyən bir milli dövlətin hüdudlarını aşır.

BMT-nın meyarlarına görə TMK-ın dünyanın ən azı 6 ölkəsində filialı olmalı, illik ticarət dövriyyəsinin həcmi 100 milyon dolları ötməlidir. Son məlumatlara görə dünyada TMK-ın sayı 70 minə yaxınlaşır və onların 850 minə qədər müəssisə, şirkət, filiallarında 150 milyondan artıq adam çalışır. Məhsul və xidmətlərini beynəlxalq bazarda reallaşdırmağa çalışan TMK-lar, hazırda dünya sənaye məhsulu istehsalının 40 faizdən çoxuna, dünya ticarət dövriyyəsinin 50 faizdən çoxuna bilavasitə yaxud dolayı yollarla nəzarət edirlər. Dünyanın 500 ən iri və 100 nəhəng trans milli korporasiyasının baş iqamətgahları ABŞ, Qərbi Avropa, Yaponiyada yerləşir.

ABŞ iqtisadçısı Maykl Porterin rəqabətin 5 gücü modelinə əsasən öz intensivlik səviyyəsinə görə bəzən zəifləyən, bəzən də kəsginləşən, lakin bazar münasibətləri iqtisadi sistemi şəraitində həmişə davam edən bu prosesi, aşağıdakı amillər şərtləndirir:

a) Bir-biri ilə rəqabət aparan satıcılar arasındakı mübarizə;
b) Əvəzləyici məhsullar arasındakı mübarizə;
c) İstehsalçıların və satıcıların bazara daxil olmaq və orada özünə yer tutmaq uğrunda mübarizəsi;
d) Bazarı xammal və hazır məhsullarla təchiz edənlər arasında rəqabət mübarizəsi;
e) Bazarda alıcıların rəqabət mübarizəsi.

İnhisarların meydana gəlməsi və təkcə daxili bazarda deyil, həm də beynəlxalq bazarlarda da çoxcəhətli fəalliyyətində azad (sərbəst) rəqabət dövrünün prinsiplərindən fərqli, qeyri-iqtisadi, hətta kriminal vasitələrdən istifadə etmək cəhdləri, onlara qarşı antiinhisar qanunlarının qəbul olunmasını, habelə dövlətin iqtisadiyyatı tənzimləməsi istiqamətindəki tədbirlərini zəruri etmişdir.

**27.2.** Dünyada ilk antitrest (antiinhisar) qanunu 1890-cı ildə ABŞ konqresi tərəfindən qəbul olunmuşdur. Bu qanun konqresin üzvi **Cek Şerman** tərəfindən hazırlanıb təqdim olunduğundan onun şərəfinə ***Şerman qanunu*** adlandırılmışdır. Həmin qanunun məqsədi və mahiyyəti, ölkə iqtisadiyyatının müxtəlif sahələrində inhisarların bir forması sayılan trestlərin, satış bazarlarında üstünlüyü ələ keçirərək, müxtəlif razılaşmalar əsasında istehsalı, habelə ticarəti məhdudlaşdırmaq yaxud öz nəzarətlərində saxlamaq cəhdlərinə qarşı mübarizə olmuşdu.

ABŞ-da 1861-1865-ci illər əhatə etmiş Vətəndaş müharibəsindən sonra, əvvəlki yerli bazarlar öz hüdudlarını genişləndirərək, ümummmilli bazar kimi formalaşmağa başlamışdı. Ölkənin XIX əsrin ikinci yarısından başlayaraq yeni bir inkişaf mərhələsinə qədəm qoyması prosesi, istehsal-xidmət dairəsində yeni sahələrin formalaşıb inkişaf etməsi ilə yanaşı, eyni zamanda həmin dövrün tələblərinə uyğun idarəçilik qurumlarının (strukturların) yaranmasını irəli sürürdü.

Kapitalın, istehsalın təmərküzləşməsi və mərkəzləşməsi nəticəsində 1870-1880-ci illərdə, sürətlə inkişaf edən ABŞ iqtisadiyyatının bir sıra sahələrində iri şirkətlər, trestlər, istehsal-xidmət birlikləri meydana çıxmışdı. Bu meyl özünü xüsusilə ölkənin neft

sənayesində, dəmir yolları nəqliyyatında, yüngül və yeyinti sənayesi məhsullarının emalında göstərmişdi.

Məsələn, «Standart Oil» tresti 1879-cu ildə ABŞ-da neft təmizlənməsi və emalı işinin 25 faizini öz nəzarətində saxlayırdı. Belə bir vəziyyət ölkənin daş kömür, qurğuşun, şərab, tütün, şəkər istehsalı sahələrində də nəzərə çarpırdı.

Bu trestlər formasında fəaliyyət göstərən şirkətlərin istehsal-xidmət dairəsinin müxtəlif sahələrindəki bəzən aşkar, bəzən də gizli danışıqları, sövdələşmələri, bazarda birgə fəaliyyət göstərmək barəsində razılaşmaları, şübhəsiz ictimaiyyətin, hakimiyyət orqanlarının, həmkarlar təşkilatlarının nəzərindən qaça bilməzdi.

Sərbəst rəqabət bazarı şəraitində istehsal P=MC, yəni əmtəə-xidmətlərin qiyməti (P), onun son hədd xərclərindən (hər əlavə məhsul vahidi istehsalına çəkilən xərcdən – MC) aşağı olmamaq şərtilə, onların bərabərliyi (ekvivalentliyi) prinsipi üzərində qurulur və həyata keçirilir. Bu prinsip cəmiyyət miqyasında iqtisadi resursların (torpaq, əmək, kapital, sahibkarlıq qabiliyyətinin) səmərəli bölgüsü və istifadəsini göstərir.

İnhisarların fəaliyyəti və istehsal-xidmət dairəsində inhisarçılıq meylləri şəraitində isə maksimum mənfəət əldə edilməsi məqsədi, məhsulun qiyməti (P) ilə onun son hədd xərcləri (MC) arasındakı nisbətin, qiymətin artması (P > MC) hesabına dəyişməsi ilə nəticələnir. Belə şəraitdə, inhisarların fəaliyyəti onların özləri üçün əlverişli olsa da, lakin cəmiyyətin iqtisadi resurslarının istehsal proseslərinə cəlbi və bunlardan tam istifadə baxımından, şübhəsiz səmərəli (effektli) hesab edilə bilməz.

Ona görə də, XIX əsrin 90-cı illərindən etibarən əvvəlcə ABŞ-da, sonra isə Avropa və dünyanın bir sıra başqa ölkələrində inhisarların (trestlərin, kartellərin, sindikatların, iri şirkətlərin, korporasiyaların) fəaliyyəti üzərində nəzarət gücləndirilmiş, dövlətin tənzimlənmə prosesləri təkmilləşdirilmiş, müvafiq antiinhisar qanunları qəbul edilərək, həyata keçirilməyə başlanmışdır.

ABŞ-da inhisarların quruluşu və rəqabət bazarlarındakı fəaliyyətləri (davranış qaydaları), ölkə konqresində qəbul olunmuş 4 federal qanun əsasında tənzimlənərək, müəyyən əlavə, habelə dəyişikliklərlə indiyədək bu işin hüquqi bazasını təşkil edir.

***Şerman qanunu*** (Sherman Act – 1890-cı il) ölkədə istehsal və ticarət sahəsində gizli sövdələşmələri, sazişləri, razılaşmaları qadağan edirdi. Konkret 2 bənddən ibarət olan bu qanunda deyilirdi: «**1.** Bundan belə, ştatlar və xarici dövlətlər arasında istehsalın və ticarətin məhdudlaşdırılmasına yönəldilmiş trest yaxud digər formalarda olan birliklərin açıq və gizli sövdələşmələri qanunsuz elan edilir. **2.** İstehsalın və ticarətin inhisarlaşdırılmasına cəhd göstərən şirkət yaxud şəxs, onların sövdələşdikləri şəxslər və birliklər, istər statlarla, istərsə də xarici ölkələrlə olsun, bu əməllərinə görə cinayət etməkdə təqsirləndiriləcəklər.»

Şerman qanununun təfsirində göstərilirdi ki, bu qanunu pozaraq, istehsal-ticarət sahələrində inhisarçılıq yaratmaq istəyən trestlər, şirkətlər, birliklər və cavabdeh şəxslər, ABŞ Cinayət Məcəlləsinin müvafiq maddəsinə uyğun olaraq, 50 min dollar məbləğində cərimə ödəməli yaxud 1 il müddətədək azadlıqdan məhrum edilməli idilər. Sonralar, istehsal və ticarət sahəsində inhisarçılıq əməllərində təqsirləndirilənlər üçün cərimənin məbləği 100 min dollara qaldırılmışdı.

ABŞ-da son yüz il ərzində antiinhisar qanunlarını pozmaqda təqsirləndirilən minlərlə trest, şirkət, birlik, korporasiya əleyhinə məhkəmə iddiası qaldırılmış və ictimaiyyətin

marağına səbəb olmuş hay-küylü məhkəmə prosesləri aparılmışdır. İstehsal və ticarət inhisarçılığı ilə bağlı ölkə məhkəmələrində 1900-cü ilədək 15, 1900-1909-cu illərdə 42, 1941-1945-ci illərdə 95, 1946-1951-ci illərdə 157, 1956-1960-cı illərdə 300, 1961-1965-ci illərdə 789, 1966-1970-ci illərdə 700, 1976-1980-ci illərdə 1623, XX əsrin sonu XXI əsrin əvvəllərində isə çoxsaylı iddialara baxılmışdır.

Maraqlıdır ki, ABŞ məhkəmələri qarşısında nisbətən xırda-orta şirkətlər deyil, eyni zamanda «Standard Oli», «U.S. Steel», «Alcoa», «İBM», «Du Pant», «Microsoft» kimi tanınmış iri və nəhəng trestlər, şirkətlər, korporasiyalar istehsal-ticarət sahəsindəki inhisarçılıq fəaliyyətlərindəki ittihamlara cavab verməli olmuşlar. «Şah qanun deyildir, qanun şahdır» prinsipini yüksək tutan ölkə məhkəmə sistemi, şirkət və korporasiyalara qarşı qaldırılmış ittihamlara formal qanunlar mövqeyindən yanaşmaqla qalmamış, əsl həqiqətin meydana çıxmasına kömək edən qərarlar çıxarmaqla, öz yüksək peşəkarlıq səviyyəsini dəfələrlə sübut etmişdir.

***Kleyton qanunu*** (Clayton Akt – 1914-cü il). Bu qanun 25 ilə yaxın qüvvədə olub, ABŞ-ın təsərrüfat həyatında, istehsal və ticarət dairəsinin müxtəlif sahələrində inhisarçılığa qarşı mühüm rol oynamış Şerman qanununun müddəalarının daha da dəqiqləşdirilib, təkmilləşdirilməsi məqsədilə, ölkə konqresi tərəfindən qəbul edilmişdir. Şerman qanununun fəaliyyəti dövründəki məhkəmə proseslərinin gedişində bir sıra ziddiyyətli hallar (məsələn, istehsalın həcmi ilə bağlı, yaxud cərimələrin məbləğinin müəyyənləşdirilməsilə əlaqədar) meydana çıxdığından, konkret dəyişikliklər edilməsinə zərurət yaranmışdı.

Şerman qanunu qüvvədə qalmaqla yanaşı, Kleyton qanununun inhisarçılıq fəaliyyətinin tənzimlənməsinə dair nəzərdə tutduğu dəqiqləşdirici müddəaların səciyyəvi xüsusiyyətləri aşağıdakılardan ibarət olmuşdu:

- Məhsulun hazırlanmasına sərf olunmuş ***istehsal xərclərinə uyğun gəlməyən satış qiymətləri, qiymət diskriminasiyası*** (ayrı-seçgilik siyasəti) kimi səciyyələndirilərək, qanunsuz sayıldı.
- Məcburi və müstəsna xarakter daşıyan kontraktlar, öhdəliklər qeyri-qanuni hesab olunurdu.
- Bazar rəqabətinin zəiflədilməsinə yönəldilmiş maliyyə-ticarət əməliyyatlarının aparılması (məsələn, rəqabət aparan şirkətlərin bir-birinin səhmlərini ələ keçirməsi, qeyri-sağlam, haqsız rəqabət formalarından istifadə etməsi) qadağan olunurdu.
- Bir neçə iri şirkət və korporasiyanın direktorlar şurasında rəhbər mövqe tutmaqla, rəqib qurumların bazar rəqabəti mübarizəsinin zəiflədilməsinə yönəldilmiş hallar qadağan olunurdu.

<u>**Ticarət üzrə Federal Komissiya qanunu**</u> (Federal Trade Commission Act – 1941-cü il). Bu qanuna əsasən ABŞ-da 5 nəfərdən ibarət xüsusi kommisiya yaradılmış və Ədiliyyə Nazirliyi ilə birlikdə, onun üzərinə ölkədə antiinhisar tədbirlərinin həyata keçirilməsi kimi məsuluyyətli bir vəzifə qoyulmuşdu. Komissiya ABŞ ərazisində Şermon və Kleyton antiinhisar qanunlarının həyata keçirilməsində, habelə həmin qanunlara əməl edilməsi işində mühüm rol oynamalı idi.

Komissiyaya səlahiyyət verilirdi ki, o öz təşəbbüsü yaxud daxil olmuş şikayətlər əsasında, haqqsız rəqabət hallarının aradan qaldırılmasını təmin etsin. Eyni zamanda bu

Komissiya, bazardakı «ticarət fəaliyyətində qeyri-sağlam rəqabət üsullarından istifadə edənlərə qarşı» müxtəlif qadağan tədbirləri tətbiq edə bilərdi.

Qeyri-sağlam rəqabət, yaxud haqqsız rəqabət vasitələri ilə mübarizə dedikdə, rəqibin təsərrüfat fəaliyyətinin təkrarı və təqlidi; rəqibin fəaliyyətini qəsdən və qərəzkarlıqla gözdən salmaq; rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə; reklam vasitəsilə alıcıların çaşdırılması; rəqibə qarşı şantaj, hədə-qorxu gəlmək kimi hallar nəzərdə tutulurdu.

Müəyyən bir vaxt keçdikdən sonra, 1938-ci ildə qəbul edilmiş ***Uiler-Li qanununa*** (Wheeler-Lea Act) əsasən, Ticarət üzrə Federal Komissiyanın səlahiyyətinə, – məhsulların keyfiyyətinə dair yalan məlumat verən reklam sahiblərinin cəzalandırılması və «ticarətdə aldadıcı hərəkətlərə yol verənlərin cəhdlərinə hüquqi qiymət vermək məsuliyyəti»də əlavə olunmuşdu.

Federal Komissiyanın fəaliyyəti, bu sahədəki mütəxəssislər tərəfindən yüksək qiymətləndirilərək göstərilirdi ki, onun yeni səlahiyyətləri bir tərəfdən işgüzar əxlaq normalarını qanunsuz əməllərdən qoruyur, digər tərəfdən isə həmin qaydaları pozanlara qarşı məhkəmə iddiaları qaldırılmasını təmin edirdi.

***Seller-Kefover qanunu*** (Celler-Kefauver Act – 1950). Bu qanunun ABŞ konqresi tərəfindən qəbul olunduqdan sonra, 1914-cü ildən fəaliyyətdə olan Kleyton qanununa belə bir əlavə edilirdi ki, rəqabət aparan tərəflər (şirkətlər, korporasiyalar) təkcə bir-birinin səhmlərini deyil, eyni zamanda əmlakını da (əsas istehsal fondlarını, binalarını, avadanlıqlarını) ələ keçirə bilməzdilər. Məqsəd isə bazarda rəqabət mühitini zəiflədən amilləri aradan qaldırmaq, inhisarçılığın qarşısını almaq idi.

Əlbəttə, bu qanundan yan keçmək, onu formal surətdə pozmamaqla, rəqibin səhmlərini və əmlakını başqa şəxslərin, yaxın adamların vasitəsilə almaq mümkün idi. Lakin qanuna görə, gələcəkdə belə bir hərəkətin üstü açılsaydı, həmin şəxslərin cəzadan qaçması mümkün deyildi. Deməli, Seller-Kefover qanunu, real təsərrüfat həyatı təcrübəsində baş verə biləcək bu cür bazar rəqabətinə əngəl törədən hallara qarşı mübarizə tədbirlərinin gücləndirilməsini nəzərdə tuturdu.

Bütün yuxarıda göstərilən və müxtəlif illərdə qəbul olunmuş antiinhisar qanunları, konkret bir məqsədə-ölkədə əlverişli rəqabət mühitinin formalaşmasına yönəldilmişdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra, sərbəst bazar münasibətlərinə keçidin ilk dövründə, istehsal inhisarçılığının fəaliyyətini məhdudlaşdırıb tənzimləmək üçün ölkədə bir sıra tədbirlər həyata keçirilmişdir.

***«Antiinhisar fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu»*** (1993-cü il), ölkə ərazisində istehsal inhisarçılığının qarşısının alınmasının, məhdudlaşdırılmasının və aradan qaldırılmasının hüquqi, habelə təşkilatı əsaslarını müəyyən etmişdi.

Bu qanuna uyğun olaraq, ölkədə 1 müəssisə (şirkət) satışın 33 faizinə, 3 şirkət birlikdə 50 faizinə və 5 şirkət birlikdə 66,6 faizinə malik olduqda, inhisarçı hesab edilirdi. Həmin tədbirlərdən məqsəd, bazar münasibətləri iqtisadi sisteminin formalaşmağa başladığı bir ölkədə dünya təcrübəsini nəzərə almaqla, rəqabəti məhdudlaşdıran və ümummilli maraqlara zidd olan istehsal-satış sahəsindəki inhisarçılıq meyllərinin qarşısını almaq, habelə yeni yaranan təsərrüfat subyektlərinin fəaliyyətinə daha əlverişli imkanlar açmaq olmuşdu.

Hazırda Azərbaycan Respublikasında inhisarçılığın müxtəlif forma və təzahürlərinə qarşı mübarizə, habelə antiinhisar fəaliyyətinin tənzimlənməsi tədbirləri, İqtisadi İnkişaf

Nazirliyinin xüsusi departamenti tərəfindən həyata keçirilir. Gələcəkdə bu istiqamətdə hüquqi bazanın və onun fəaliyyət mexanizminin daha da təkmilləşdirilməsi nəzərdə tutulur.

**27.3.** Müxtəlif ölkələrin təsərrüfat həyatında istehsal inhisarçılığı və onun kartel, sindikat, trest, konsern, konsorsum kimi tarixi təkamül nəticəsində meydana çıxıb fəaliyyət göstərən formaları ilə yanaşı, istehsalın özünəməxsus xüsusiyyətləri, habelə təşkilati-idarəetmə cəhtləri ilə fərqlənən aşağıdakı quruplaşmaları vardır.

**1. Texnoloji inhisarçılıq** istehsal proseslərinin texnologiyası və bundan irəli gələn müvafiq iş rejimi ilə bağlıdır. Bu tipli inhisarlarda müəyyən kəşflər, elmi-texniki nailiyyətlər, mütərəqqi texnologiyalar, patentlər onların ixtiyarında və istifadəsində olduğundan, başqalarına nisbətən daha yüksək mənfəət əldə edə bilirlər. Məsələn, yeni istehsal olunan bir avtomobilin, dərmanın, mobil telefonun patenti konkret hansı şirkətə, korporasiyaya məxsusdursa, şübhəsiz həmin qurum texnoloji cəhətdən öz sahəsində inhisarçı sayılacaqdır.

Lakin müasir inteqrasiya və qloballaşma, habelə «açıq iqtisadiyyat modeli» şəraitində bu hal müvəqqəti bir xarakter daşıyır. Çünki, kəsgin bazar rəqabəti mühitində, bir texniki yenilik və mütərəqqi texnologiya, qısa dövr ərzində digər daha mükəmməli ilə əvəz olunur.

**2. İstehlakçı inhisarçılığı** (monopsoniya), bazarda çoxlu sayda satıcı olduğu halda, yalnız bir alıcının olduğunu nəzərdə tutur. Buna misal kimi pambıq, yun, çay, barama, mürəkkəb mexanizmlər, xüsusi avadanlıqlar, dağ-mədən sənayesində istifadə olunan ağır yük maşınlarını göstərmək olar ki, nəticədə yüksək mənfəət əldə etmək imkanı yaranır.

**3. Təşkilati inhisarçılıq,** istehlakçı birliklərin formalaşdırılması, müxtəlif sahələr üzrə, yaxud sahələrarası, yaxud da regional (bölgə) qrumların, təşkilatların yaradılması ilə səciyyələnir. Bu istiqamət bütövlükdə iqtisadiyyatın inhisarlaşma səviyyəsinin yüksəlməsini təmin etsə də, milli iqtisadiyyatlar üçün müəyyən problemlər yaradır.

**4. İdarəetmə inhisarçılığında** dövlət və onun müvafiq orqanları, ölkənin təsərrüfat həyatının konkret subyektləri kimi iqtisadiyyatın müxtəlif istehsal-xidmət dairəsi sahələrinin tənzimlənməsində, habelə fəaliyyətində iştirak edirlər. Bu meyl, inzibati-amirlik sistemlərinə və totalitar siyasi-ictimai quruluşlara xas olan bir cəhətdir.

***Təbii inhisarçılıq,*** təsərrüfat subyektləri arasında rəqabətin mümkün olmadığı, yaxud belə rəqabətə yol verilməsinin təkcə iqtisadi cəhətdən səmərəli olmaması ilə deyil, həm də ölkənin milli maraqları, mənafeyi üçün faydalı olmadığı şəraitdə doğru sayılır. Müxtəlif ölkələrdə dövlətin və şirkətlərin, korporasiyaların timsalında təbii inhisarların neft-qaz, dağ-mədən, metallurgiya, dəmir yolu nəqliyyatı, metro, su təchizatı, kanalizasiya sistemi, poçt-rabitə şəbəkəsindəki fəaliyyəti hələlik özünü doğruldur.

Qeyd etmək zəruridir ki, təbii inhisarların meydana çıxıb formalaşması, kapitalın təmərküzləşməsi və mərkəzləşməsi prosesləri, yaxud bazarda rəqibləri sıxışdıraraq, yüksək mənfəət əldə etmək meylləri ilə bilavasitə bağlı deyildir. ***Buna səbəb,*** konkret istehsal-xidmət dairəsi sahələri obyektlərinin özünəməxsus texnoloji xüsusiyyətləri, ***məqsəd*** isə ölkənin ümumilli maraqlarıdır.

Real həyat təcrübəsi və konkret təsərrüfatçılıq üsulları göstərir ki, antiinhisar qanunları, dövlətin inhisarların fəaliyyətini tənzimləmək tədbirləri özünməqsəd olmayıb, bu siyasətin iqtisadi-sosial faydalılığı ilə əlaqədardır. Hər bir ölkənin təsərrüfat həyatının

elə sahələri vardır ki, həmin sahələr öz normal işini daha az xərclər sərf etməklə, istehlakçıların tələbini dolğun surətdə, hərtərəfli qaydada ödəyə bildiklərindən, orada yeni şirkətlər formalaşdırmaq, rəqabət mühiti yaratmaq məqsədəuyğun sayılmır.

Bu mənada ***təbii inhisar*** və inhisarçılıq ***xalis*** (mütləq) inhisarın konkret şəraitdən doğan bir forması kimi xarakterizə olunsa da, lakin mahiyyət, məqsəd, texnoloji xüsusiyyətləri baxımından, şübhəsiz fərqlidir.

***Təbii inhisar*** anlayışını ilk dəfə 1838-ci ildə fransız iqtisadçısı və riyaziyyatçısı Antuan Kurno (1801-1877) elmi dövriyyəyə gətirmişdir. Bu sözün hərfi mənası «ictimai (dövlət-publik) xidməti təminatı», yaxud «məhsul istehsalının cəmiyyət üçün zəruri sayılan təsərrüfat sahələrinin fəaliyyəti» deməkdir.

Müasir iqtisadi inteqrasiya, qloballaşma proseslərinin genişlənib-dərinləşdiyi və beynəlxalq miqyasda vahid dünya təsərrüfat sisteminin formalaşdığı bir şəraitdə, ölkələrin iqtisadiyyatında təbii inhisarların fəaliyyəti zəruridir. Onların məhsul-xidmətlərinin istehsalçıları müxtəlif fiziki və hüquqi şəxslər, habelə dövlət, strateji əhəmiyyətli obyektlər ola bilər.

***«Təbii inhisarlar haqqında Azərbaycan Respublikasının qanunu»***nda bu tipli inhisar birliklərinə aşağıdakılar daxil edilmişdir: a) neft və neft məhsullarının magistral boru kəmərləri ilə nəqli; b) təbii qazın boru kəmərləri ilə nəqli, saxlanması və paylanması xidmətləri; c) elektrik və istilik enerjisinin ötürülməsi və paylanması xidmətləri; ç) magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərinin istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi fəaliyyəti; d) aeroport xidmətləri, uçuş zolaqlarının və qurğularının istismarı; e) metro nəqliyyatında yolların, tunellərin və stansiyaların istismarı; ə) su limanı xidmətləri, liman qurğularının istismarı; f) ümumi istifadədə olan elektrik və poçt rabitəsi xidmətləri; g) baş sutəmizləyici qurğular, magistral borular, su kəməri şəbəkəsi və onun üzərindəki qurğuların istismarı; h) kanalizasiya təsərrüfatı və xəttlərinin istismarı; x) meliorasiya və irriqasiya sahəsinə aid olan su anbarları, kanallar, kollektorlar və bəndlərin istismarı.

Bazar münasibətləri iqtisadi sistemində dünya miqyasında ümumiyyətlə inhisarın müxtəlif formalarının, o cümlədən də təbii inhisarların maliyyə-təsərrüfat fəaliyyəti üzərində dövlət tənzimlənməsinin həyata keçirilməsi və ictimai nəzarətin olması istər sosial-iqtisadi, istərsə də siyasi-ictimai baxımdan zəruri bir prosesdir.

**27.4.** Müasir inteqrasiya və qloballaşma şəraitində istər milli iqtisadiyyatlar, istərsə də beynəlxalq iqtisadi-ticarət əlaqələrinin investisiya, istehsal-xidmət, satış, təchizat sahələrində tədricən daha sanballı bir rol oynayan müxtəlif formalı, lakin ***yüksək mənfəət*** əldə etmək kimi ***eyni məqsədli*** inhisarların çoxcəhətli fəaliyyət dairəsinin düşünülmüş dövlət tənzimlənməsi siyasəti, mühüm əhəmiyyətə malikdir.

Ümumiyyətlə bazar münasibətləri iqtisadi sisteminin-xüsusi mülkiyyət və maraq, istehsalçının sərbəstliyi və təşəbbüskarlığı, tələb-təklif və qiymət, səmərəlilik və rəqabət kimi prinsiplərinin pozulmaması əsasında hazırlanıb, müəyyən bir ardıcıllıqla həyata keçirilən dövlət tənzimlənməsi siyasəti, son 100-120 il ərzində tarixi təkamül yolu ilə irəliləyərək, xeyli təkmilləşmişdir.

Azad rəqabət sahibkarlığından tədricən inhisarların formalaşması və inhisarçılıq fəaliyyətinin genişlənməsi kimi səciyyələnən XIX əsrin sonu – XX əsrin əvvəllərndə ilk növbədə ABŞ-da, sonralar isə Avropa, habelə dünyanın başqa ölkələrində qəbul olunmuş

antiinhisar qanunları çərçivəsində iqtisadiyyatın dövlət tənzimlənməsi siyasəti, getdikcə öz üsullarını, metodlarını zamanın tələblərinə uyğunlaşdıraraq, təsərrüfat həyatının idarə olunmasının təsirli vasitələrindən birinə çevrilmişdir.

Xüsusilə, 1929-1933-cü illərin dünya iqtisadi böhranından sonra iqtisadiyyatın, o cümlədən də inhisarçılıq fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi prosesi daha da genişlənmişdir.

Qeyd etmək lazımdır ki, dünya ölkələrinin inhisarçılığının tənzimlənməsi siyasətində, ***təbii inhisarların*** və digər sahə inhisar formalarının tənzimləmə təcrübəsində bir sıra fərqli cəhətlər olmuşdur. Cəmiyyət üçün ümumi əhəmiyyət kəsb edən təbii inhisarların normal fəaliyyət göstərməsi məqsədilə, dövlət orqanları tərəfindən onların ***bazar davranışlarına*** nəzarət edən xüsusi qurumlar (agentliklər) yaradılması məqsədəuyğun sayılmışdı. Başqa inhisarların və inhisarçılıq fəaliyyətlərinin üzərində isə onların iqtisadi-texniki xüsusiyyətləri nəzərə alınmaqla, antiinhisar qanunları vasitəsilə tənzimlənmələri, yaxud ictimai nəzarətin həyata keçirilməsinin ən səmərəli variant hesab olunmuşdur. ABŞ-da təbii inhisarların maliyyə-təsərrüfat fəaliyyətinin, qiymət-tariflər sisteminin dövlət tənzimlənməsini həyata keçirmək üçün müvafiq məhkəmə və federal orqanların nümayəndələrindən ibarət komissiyalar (nəqliyyat, energetika, ticarət, qaz, su, radio-televiziya verilişləri və sairə üzrə) təşkil olunaraq, fəaliyyət göstərmişlər.

***Dövlət mülkiyyətində olan*** (dəmir yolları, iri elektrik stansiyaları, metro, neft-qaz sənayesi, su və kanalizasiya sistemləri) təbii inhisar obyektləri ilə, xüsusi şirkətlərin, korporasiyaların, bələdiyyələrin mülkiyyətindəki təbii inhisarların fəaliyyətlərinin tənzimlənməsi tədbirlərində fərqli cəhətlər vardır. Dövlətin təbii inhisar sahələri üzərində bir bazar subyekti kimi mülkiyyətçi hüququ, oradakı proseslərə daha yaxından qarışmaq, hadisələrə müdaxilə etmək, onları vaxtında tənzimləyib təkmilləşdirməyə real imkanlar yaradır. Lakin təbii inhisar sahəsi yaxud obyektinin mülkiyyətçisi şirkət, korporasiya, bələdiyyə olduqda, şübhəsiz bu halda, dövlət tənzimlənməsinin başqa üsullarından istifadə olunur.

***Dövlət mülkiyyətində olmayan*** təbii inhisarların təsərrüfat-maliyyə-satış fəaliyyəti və əməliyyatlarının tənzimlənməsindən ***əsas məqsəd – həmin inhisarların maraqları ilə cəmiyyətin ümumi mənafeyi arasında optimal, səmərəli variantın tapılmasıdır.*** Bu yolla çalışılır ki, təbii inhisarların normal mənfəəti təmin edilsin və istehlakçılara daha keyfiyyətli məhsullar-xidmətlər nisbətən ucuz qiymətə başa gəlsin.

Ötən əsrin 70-ci illərindən başlayaraq ABŞ-da antiinhisar qanunlarına olan münasibət xeyli dəyişmişdir. Hazırda bu siyasətdə ***istehsalın həcmi deyil, onların səmərəli iqtisadi fəaliyyəti, rəqabət bazarındakı davranışı, rəqiblərinə sivil münasibəti əsas götürülür.*** Ona görə də XX əsrin 80-ci illərindən ölkə iqtisadiyyatının əvvəllər dövlət tərəfindən tənzimlənən neft emalı, benzin istehsalı və satışı, yük daşınmaları, sərnişin (mülki) aviasiya, telefon xidməti, fond birjalarındakı əməliyyatlar, kabel televiziyası kanallarının tənzimlənməsi prosesi tədricən məhdudlaşdırılmış, sonra ixtisar olunmuş, nəhayət tamamilə ləğv edilmişdir. Əgər ötən əsrin ortalarında ABŞ iqtisadiyyatında tənzimlənən istehsal-xidmət sahələrinin ölkənin ÜDM-da payı 30-35 faizi idisə, XXI əsrin birinci onilliyində cəmi 5-7 faiz təşkil etmişdir.

Avropa ölkələrində isə ABŞ-dan fərqli olaraq, təbii inhisarların formalaşması başqa prinsiplər əsasında getmişdir. Bu ölkələrdə təbii inhisarlar dövlət və bələdiyyələrin

tabeliyində olan müəssisələr kimi ictimai mülkiyyət sayıldığından, onların fəaliyyətinin tənzimlənməsi ilə məşğul olacaq xüsusi qurumların yaradılmasına ehtiyac yaranmamışdır. Ona görə də Avropanın İngiltərə, Almaniya, Fransa, İtaliya kimi bir sıra ölkələrində təbii inhisar sahələrinin ***milliləşdirilməsi*** və deprivatizasiyası (əks özəlləşdirilməsi, yenidən dövlət, yaxud ictimai mülkiyyətə çevrilməsi) yolu ilə onların maliyyə-təsərrüfat fəaliyyətlərinin dövlət tərəfindən hüquqi-təşkilati tənzimlənməsi həyata keçirilmişdir. Bunun əksinə olaraq Avstriya, Belçika, İsveçrə, Danimarka kimi ölkələrdə isə istehsal-xidmət dairəsinin bəzi sahələri hüquqi cəhətdən dövlət mülkiyyətində qalmaqla, onlar istifadə olunmaq üçün müxtəlif sahibkarlara, şirkətlərə, korporasiyalara verilmişdir.

Bu tipli inhisarların təsərrüfat-maliyyə fəaliyyətlərinin, xüsusilə qiymətlərlə bağlı səmərəlilik göstəricilərinin optimal variantının müəyyənləşdirilməsi istiqamətindəki (maksimum qiymət, ədalətli yaxud normal mənfəət qiyməti, son hədd qiyməti, standart qiymət, ikidərəcəli tarif qiyməti) dövlət tənzimlənməsinin təkmilləşdirilməsi axtarışları hazırda da davam etməkdədir.

Antiinhisar qanunların həyata keçirilməsi, onun reallaşdırılması mexanizminin səmərəliliyi ilk növbədə, dövlətin və onun hakimiyyət orqanlarının siyasi iradəsi, peşəkarlığı, qanunun aliliyinə əməl etmələri ilə bağlıdır. Dünya ölkələrinin təsərrüfat həyatı təcrübəsindən məlumdur ki, bəzən qəbul olunmuş çox mühüm qərarlar, müəyyən dairələrin sərbəst sahibkarlıq fəaliyyətinə, yaxud məhkəmələrin qanunların təfsirinə münasibətləri sayəsində gözlənilən nəticələr əldə edilmir.

Tarixən antiinhisar qanunlarına münasibətdə, ABŞ-ın təcrübəsində 2 meyl özünü göstərmişdir. ***Birinci meyl,*** inhisarların bazar rəqabəti şəraitindəki rəftarı, davranışı, əxlaq-etika normalarına hörmətlə yanaşması ilə bağlı olub, ***«bixeviorist»*** mövqe adlanır. ***İkinci meyl*** isə inhisarların quruluşu, həcmi, məhsul buraxılışındakı və rəqabət bazarındakı xüsusi çəkisi ilə bağlı olub, ***«struktur tərəfdarları»*** mövqeyi kimi səciyyələndirilir.

***Birinci meylin*** tərəfdarları iddia edirdilər ki, əgər hər hansı bir inhisar başqasının istehsal və satış rəqabətini məhdudlaşdırmırsa, onun həcm yaxud rəqabət bazarındakı xüsusi çəkisi, qanunsuz hesab edilə bilməz.

***İkinci meylin*** tərfdarları isə, istehsalın həddsiz təmərküzləşdirilməsinin əleyhinə çıxaraq, hər hansı bir şirkətin rəqabət bazarında inhisarçılığını qəbul olunmaz hesab edirlər.

Adətən, inhisar birləşmələrinin 3 tipi olur:

a) üfüqü, yəni eyni adli məhsul istehsal edən 2 rəqib inhisarin birləşməsi;
b) şaquli, bir istehsal prosesinin müxtəlif mərhələlərini yerinə yetirən sahələrin bir inhisarda birləşməsi;
c) konqlomer, yaxud qarişiq tip isə bir-biri ilə əlaqəsi olmayan sahələrin birləşərək, inhisar yaratmasini nəzərdə tutur.

Üfüqü inhisar birləşməsinə bankların, təyyarə və telefon şirkətlərinin; şaquli inhisar birləşməsinə parça materialları istehsal edən (toxucu) şirkətlə, həmin parçadan hazır paltar buraxan (tikiş) şirkətlərin; konqolomer inhisar birləşməsinə kino studiya ilə radio şirkətini nümunə göstərmək olar.

Ümumiyyətlə dünya təcrübəsində inhisarçı şirkət və korporasiyalar, rəqabət bazarında satışın 60-65 faizini, yəni 2/3 hissəsini öz əllərində cəmləşdirirlər. Rəqabət

bazarının sərbəstliyini və oraya yeni subyektlərin (iştirakçıların) daxil olmasını təmin etmək üçün, həmişə bu meydanın ən azı 1/3 hissəsi açıq (sərbəst) saxlanmalıdır.

İnhisarların fəaliyyətinin tənzimlənməsinin ***həcm, xərclər, qiymət, tarif, gəlir*** kimi iqtisadi göstəriciləri ilə yanaşı, ötən əsrin ikinci yarısından başlayaraq bir sıra ölkələrdə, xüsusilə yüksək inkişaf etmiş dövlətlərdə, o cümlədən də ABŞ-da ***sosial tənzimləmə*** geniş yayılmağa başlamışdır.

Tənzimlənmənin yeni bir tipi sayılan sosial tənzimləmə, hakimiyyət orqanları tərəfindən məhsul-xidmətlərin hazırlanması şəraitinin öyrənilməsi; satışa çıxarılan məhsulların və əhaliyə göstərilən xidmətlərin fiziki-kimyəvi xüsusiyyətlərinin onların sağlamlığına, mənəvi-psixoloji vəziyyətinə təsiri; istehsal-xidmət dairəsi sahələrinin ekoloji cəhətdən təhlükəsizliyi məsələlərinə nəzarəti əhatə edir.

Sosial tənzimləmə tipi iqtisadi tənzimləmədən bir sıra cəhətlərinə görə fərqlənir. ***Əvvələn,*** sosial tənzimləmə obyektlərinin sayı xeyli çox və əhatə dairəsi daha genişdir. ***Sonra,*** iqtisadi tənzimləmədən fərqli olaraq, sosial tənzimləmə ümumiyyətlə istehsal-xidmət dairəsinə deyil, bu prosesin məhsulun quruluş xüsusiyyətlərindən başlayaraq, dizayn cəhətlərinə qədər olan tərəflərinə kompleks halında nəzarəti həyata keçirir. ***Nəhayət,*** sahə və iqtisadi tənzimləmənin tədricən məhdudlaşaraq öz miqyaslarını getdikcə azaltdığı halda, sosial tənzimləmə prosesi əvvəlki hüdudlarını xeyli genişləndirərək, yeni-yeni sahələri əhatə etməkdədir.

Sosial tənzimləmə tədbirləri ***mərkəzi (federal)*** dövlət orqanları tərəfindən hazırlanıb həyata keçirilsə də, ***yerli (ştat, bələdiyyə)*** hakimiyyət qurumları da bu işlərin reallaşdırılmasında müəyyən rol oynayırlar.

Müasir mərhələdə dünya miqyasında sosial tənzimlənməni şərtləndirən amil və səbəblər sırasında ölkələrin iqtisadi-sosial inkişaf templərinin sürətlənməsi, əhalinin həyat səviyyəsi göstəricilərinin xeyli yüksəlməsi, inteqrasiya proseslərinin intensivləşməsi, vahid dünya təsərrüfat sisteminin formalaşması mühüm rol oynamışdır. Bu mütərəqqi meyllər isə ümumbəşəri qlobal problemlərin tərkib hissəsi sayılan ətraf mühitin qorunması, əhalinin sağlamlığı, normal iş və mənzil şəraitinin yaradılması, insanların iqtisadi sərbəstliyi və siyasi azadlığının təmin olunması, dini və irqi mənsubiyyətinə hörmətlə yanaşılması kimi sosial məsələlərin tənzimlənməsinə daha ciddi diqqət yetirilməsini irəli sürür.

# Mövzu 28. Kənd təsərrüfatı və iri şəhərlərin iqtisadi-sosial problemləri

**28.1** Aqrar bölmə ölkə iqtisadiyyatının mühüm sahəsidir
**28.2** Kənd təsərrüfatının inkişaf meylləri
**28.3** Aqro-biznes sahəsinin müasir problemləri
**28.4** İri şəhərlərin formalaşması və inkişaf xüsusiyyətləri
**28.5** Müasir şəhərlərin sosial-iqtisadi problemləri

**28.1.** Ölkənin iqtisadi təhlükəsizliyinin tərkib hissəsi sayılan kənd təsərrüfatı (aqrar bölmə, aqrobiznes) milli iqtisadiyyatın ən mühüm sahələrindən biridir. Bu sahə bir tərəfdən ölkə sənayesini zəruri olan xammalla təchiz edir, digər tərəfdən isə əhalinin müxtəlif təyinatlı, ərzaq məhsulları ilə fasiləsiz təmin olunmasında həlledici rol oynayır.

Hələ 2.500 il bundan əvvəl qədim yunan filosofu ***Ksenofont*** yazmışdı ki, kənd təsərrüfatı bütün sənətlərin başlanğıcı və insanları bəsləyəndir. Zərdüştlük dininin müqəddəs kitabı ***«Avesta»***da göstərilirdi ki, ac insanlara heç bir müqəddəs söz təsir göstərə bilməz. Klassik iqtisadi nəzəriyyənin banilərindən biri sayılan ***U.Petti*** isə kənd təsərrüfatının əsas istehsal vasitəsi və fəaliyyət meydanı olan torpağı, bütün sərvətlərin anası adlandırmışdı.

Məlumdur ki, son 200-250 il bundan əvvəl dünya əhalisinin əksəriyyəti (90 faizdən çoxu) kəndlərdə yaşamış və cəmiyyətin əsas istehsal sahəsi, habelə yaşayış mənbəyi kənd təsərrüfatı olmuşdur.

XIX-XX əsrlərdə elmi-texniki nailiyyətlər və mütərəqqi texnologiyaların, müxtəlif kəşf və səmərəli təkliflərin meydana çıxıb istehsal proseslərində geniş tətbiqi, bütövlükdə cəmiyyətin təsərrüfat həyatında köklü dəyişikliklər yaratmışdır. Sənaye, tikinti, nəqliyyat, ticarət-xidmət sahələrinin sürətlə inkişafı nəticəsində istehsalın quruluşunda (strukturunda) ciddi kəmiyyət-keyfiyyət dəyişiklikləri baş vermiş və kənd təsərrüfatının ümumi əhəmiyyəti qalsa da, lakin cəmiyyətin iqtisadi həyatındakı əvvəlki mövqeyi xeyli zəifləmişdir. XXI əsrin birinci onilliyində ümumdünya məhsul-xidmətlər istehsalında kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi 5-7 faiz təşkil edir. Beynəlxalq ticarət əlaqələrində isə kənd təsərrüfatı məhsullarının payı 10-12 faizə yaxındır. Hər il dünya bazarında 200-250 mln. ton buğda, 70-80 mln. ton qarğıdalı, 20-25 mln. ton düyü, 5-7 mln. baş iri buynuzlu mal-qara, 15-17 mln. baş qoyun, 12-15 mln. ton süd və süd məhsulları alınıb-satılır. Kənd təsərrüfatı məhsulları ixracında yüksək inkişaf etmiş ölkələr qrupunun payı 70-75 faiz, inkişaf etməkdə olan ölkələr qrupunun payı 20-25 faiz, postsovet və postsosialist ölkələrinin payı isə 5-10 faiz təşkil edir.

Müasir mərhələdə ABŞ-ın ümumi daxili məhsulunun quruluşunda kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi 2-3 faiz, Yaponiyada 2 faiz, Almaniyada 2 faiz, Fransada 3 faiz, Rusiyada 12-14 faiz, Azərbaycanda 16-18 faizdir. Hazırda bütün dünyada kənd təsərrüfatı istehsalının müxtəlif sahələrində 1 milyard nəfərdən artıq adam çalışır. Bu isə dünyada bütün işləyənlərin 24-26 faizini təşkil edir. Ayrı-ayrı ölkələrə gəldikdə isə iqtisadiyyatın müxtəlif sahələrində çalışanların tərkibində bilavasitə aqrar bölmədə işləyənlərin sayı ABŞ, İngiltərə, Almaniya kimi ölkələrdə 3-4 faiz, Fransa və İtaliyada 6-8

faiz, Rusiya və Azərbaycanda 18-26 faiz, Asiya, Afrika və Cənubi Amerikada daha yüksəkdir.

XX əsrin ikinci yarısından başlayaraq, dünya kənd təsərrüfatı və aqro-biznes sahəsində mühüm dəyişikliklər baş vermişdir. Bir tərəfdən elmi-texniki nailiyyətlər, əmək məhsuldarlığının yüksəldilməsinə təsir edən amillər, «yaşıl inqilabların» yaratdığı məhsul bolluğu, irriqasiya-suvarma şəbəkələrin inşaası, aqrotexniki vasitələrdən geniş istifadə olunması reallığı, cəmiyyətin və inhisarların torpaqdan, habelə təbiət qüvvələrinin şıltaqlığından asılılığını əhəmiyyətli dərəcədə azaltmışdır.

Digər tərəfdən isə kənd təsərrüfatı istehsalında əsas şərt sayılan torpaq sahələrinin, xüsusilə əkin üçün yararlı torpaqların həcminin azalması, həmin sahələrin təbii məhsuldarlığının bərpa olunması üçün əlavə xərclər tələb olunması, ümumiyyətlə torpaqla bağlı iqtisadi resursların tükənməsi prosesi, şübhəsiz ciddi iqtisadi-sosial problemlər yaradır.

Bazar münasibətləri iqtisadi sisteminin xüsusi mülkiyyət, sərbəstlik, tələb-təklif, qiymət, rəqabət prinsipləri təməlində qurulub fəaliyyət göstərən aqrobiznes, müasir iqtisadiyyatın müxtəlif sahələri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri ilə səciyyələnir. Bu qarşılıqlı təsir və əməkdaşlıq əlaqələr sistemi bilavasitə yaxud dolayı yollarla 3 dairəni əhatə edir. ***Birinci dairə*** – kənd təsərrüfatı üçün istehsal vasitələri istehsal edən sənaye sahələri. ***İkincisi*** – əkinçilik, maldarlıq, meyvəçilik-tərəvəzçilik kimi iri sahələri əhatə edən bütövlükdə kənd təsərrüfatı. ***Üçüncüsü*** – kənd təsərrüfatı məhsullarının emalı, saxlanması və satışı.

Yalnız bu 3 dairənin müxtəlif sahələrinin düşünülmüş surətdə qurulmuş qarşılıqlı əlaqələr sistemi, aqro-biznesin son nəticə etibarilə səmərəli fəaliyyətni təmin edə bilər.

**28.2.** Çoxcəhətli və müxtəlif təyinatlı aqrar bölmənin bəzi sahələrini çıxmaq şərtilə, inteqrasiya və qloballaşma prosesləri ilə xarakterizə olunan müasir dünyada kənd təsərrüfatı sənayenin xammal, ölkə əhalisinin isə ərzaq mənbəyi kimi inkişaf etməkdədir. Xüsusilə elmi-texniki nailiyyətlərin kənd təsərrüfatı istehsalının maddi-texniki bazasının yenidən qurulmasındakı rolu, biologiyanın uğurları, genetik tədqiqatların praktikada tətbiqi, son dərəcə məhsuldar taxıl növlərinin əkinçilikdə geniş istifadəsi, cins mal-qara (damazlıq) yetişdirilməsi istiqamətindəki işlər, habelə axtarışlar, şübhəsiz öz səmərəli nəticələrini vermişdir.

Hazırda bütün dünyada milyard nəfərdən çox adamın çalışdığı aqrar bölmədə istehsal olunan müxtəlif təyinatlı əkinçilik, maldarlıq, meyvə-tərəvəz məhsullarının illik dəyəri bir neçə trilyon dollara çatır və həmin məhsulların üçdə bir hissəsi (30-35 faizi) beynəlxalq bazarlarda satılıb-alınır.

Mütəxəssislərin hesablamaları göstərir ki, son 100-120 il ərzində bütün dünyada, ilk növbədə isə yüksək inkişaf etmiş ölkələr qrupunda, bütövlükdə aqro-biznes sahəsinə, habelə ayrı-ayrı fermer təsərrüfatlarına yönəldilmiş sərmayə qoyuluşlarının həcmi-məbləği on dəfələrlə artmışdır.

Bunun nəticəsidir ki, əgər 1820-ci ildə Birləşmiş Ştatlarda kənd təsərrüfatında çalışan 1 nəfərin əmək və zəhməti 4 nəfərin yaşayışını təmin edirdisə, 1950-ci ildə bu rəqəm 14 nəfərə, 1990-cı ildə 125 nəfərə, XXI əsrin birinci onilliyində isə 140-150 nəfərə çatmışdır. Bu faktlar kənd təsərrüfatı istehsalında əmək məhsuldarlığı səviyyəsinin yüksək templərlə

artdığını göstərir. Belə bir mütərəqqi meyl, şübhəsiz müəyyən fərqlərlə olsa da, lakin dünyanın əksər ölkələrində baş vermişdir.

Aqrar bölmənin inkişafında tarixən belə bir meyl nəzərə çarpmışdır ki, istər dünya miqyasında, istərsə də ayrı-ayrı ölkələrdə müxtəlif kənd təsərrüfatı məhsullarına olan ***tələb,*** həmin məhsulların dövrün elmi-texniki nailiyyətləri bazasında təmin edilmiş ***real inkişaf templərindən*** aşağı olmuşdur. Bu ziddiyyətli prosesi izah etmək üçün ayrı-ayrı ölkələrin təbii-coğrafi şəraiti, əhalinin peşə-məşğuliyyət səviyyəsi, beynəlxalq əmək bölgüsündəki iştirakı kimi müxtəlif səbəblər göstərilsə də, əsas səbəb aşağıdakı 2 amillə bağlı olmuşdur:

**1.** Ümumiyyətlə dünya miqyasında tədricən əhalinin müxtəlif mənbələr hesabına gəlirlərinin artmasına baxmayaraq, insanların kənd təsərrüfatı mənşəli məhsullarla, xüsusilə də ərzaq-qida təyinatlı məhsullara olan tələbatları öz ***nisbi sabitliyini*** (qeyri-elastikliyini, az həssaslığı yaxud dəyişkənliyini) saxlamışdır. Başqa sözlə, dünya əhalisinin ərzaq-qida məhsullarına olan tələbatları artsa da, lakin bu artımın sürəti, kənd təsərrüfatı məhsullarının artım templərindən aşağı olmuşdur. Bu meyli əhalinin ümumi mədəni səviyyəsinin yüksəlməsi, sağlamlıq məsələsi, bir sıra əvəzləyici qida məhsullarının geniş yayılması prosesi ilə izah etmək mümkündür.

Məsələn, aparılan tədqiqat hesablamaları və sorğular göstərmişdir ki, ailələrin yaxud ayrı-ayrı şəxslərin aylıq (illik) gəlirlərinin 25 faiz artması, həmin məbləğin yalnız beşdə bir hissəsinin (5 faizinin) ərzaq-qida məhsullarına sərf olunması, beşdə dörd hissəsinin (20 faizinin) isə başqa sənaye istehlak mallarına, xidmət dairəsinə, əyləncə tədbirlərinə yönəldilməsi ilə nəticələnir.

**2.** Planet miqyasında və müxtəlif ölkələrdə əhalinin sayının sürətlə artmasına baxmayaraq (son 200 il ərzində dünya əhalisi 7 dəfəyə qədər çoxalmışdır), bu dövrdə kənd təsərrüfatı məhsullarının ümumi həcmi daha çox artmışdır.

Eyni zamanda kənd təsərrüfatında işləyənlərin sayı ümummiyyətlə işləyənlərin içərisində azalmağa doğru gedir və dünya, habelə ölkələrin ümumi daxili məhsulunun tərkibində xüsusi çəki etibarilə aqrar bölmənin payı azalmağa doğru meyl edir.

Kənd təsərrüfatının inkişaf meylləri arasında, bu sahədə çalışanların (kəndlilərin, fermerlərin) iqtisadiyyatın digər istehsal-xidmət dairəsində işləyənlərə nisbətən, daha az gəlir (renta) əldə etməsi problemi xüsusi bir yer tutur. Bu hal isə kənd təsərrüfatı məhsullarına daxili və beynəlxalq bazarlarda qiymətlərin enib-qalxması, qeyri-sabitliyi ilə əlaqədardır. Aqrar bölmənin təkcə insanların əmək səyləri ilə deyil, eyni zamanda təbii amil, habelə təbiətin şıltaqlıqları ilə də bağlı olduğu nəzərə alınarsa, onun yaratdığı problemlər özünü müxtəlif şəkillərdə dünyanın bütün ölkələrində göstərir.

Dünyanın ən yüksək inkişaf etmiş ölkələrindən biri sayılan ABŞ-da da, bütövlükdə aqrar bölmə milli iqtisadiyyatın mühüm sahələrindən biri kimi rentabelli (gəlirli) sayılsa da, hər il onun müxtəlif ehtiyaclarına yönəldilən hökumət ***subsidiyalarının*** (əvəzsiz yardımlarının) həcmi 300 milyard dollara çatır və ölkə əhalisinin xərclərinin 14-16 faizi ərzaq-qida məhsullarının istehlakına sərf olunur.

Çətin və risq tələb edib, obyektiv-subyektiv amillərlə bağlı kənd təsərrüfatındakı fermer problemləri öz mahiyyətinə, təzahür formalarına, müddətinə görə 2 yerə ayrılır. ***Birincisi,*** kənd təsərrüfatı məhsullarına hər il qiymətlərin beynəlxalq bazarda enib-qalxması ilə əlaqədar ölkə fermerlərinin gəlirlərinin fərqli olmasıdır. ***İkincisi,*** ümumiyyətlə kənd təsərrüfatının tədricən ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisinin aşağı

düşməsi, orada çalışanların sayının azalması, bu sahəyə gənclərin peşə marağının zəif olması ilə əlaqədardır. Birinci hal ***qısamüddətli fermer problemi*** və ikinci hal ***uzunmüddətli fermer problemi*** adlanır.

Hər iki fermer probleminin ***həm daxili, həm də xarici aləmlə*** bağlı beynəlxalq səbəbləri vardır. Daxili səbəblər kənd təsərrüfatı məhsullarına olan tələbin nisbi sabitliyi, istehsal həcminin dəyişməsi, qiymətlərin enib-qalxması ilə; xarici səbəblər isə siyasi-diplomatik və iqtisadi, ilk növbədə beynəlxalq bazarlarda qiymət dəyişiklikləri ilə bağlıdır. Vaxtilə Sovet İttifaqı ilə ABŞ, Çin ilə ABŞ, İran ilə İraq, Kuba ilə ABŞ, İranla – ABŞ münasibətlərinin kəsginləşməsi, dünya bazarında xammal və ərzaq məhsullarının real qiymətlərinə əhəmiyyətli dərəcədə təsir göstərmişdi. Bu ziddiyyətli proseslər vaxtaşırı davam etməkdədir.

Ona görə də, təkcə Birləşmiş Ştatlarda deyil, dünyanın bir sıra başqa ölkələrində də kənd təsərrüfatına və fermerlərə subsidiyalarla kömək göstərmək işi dövlət siyasəti səviyyəsində həyata keçirilir. İsveçrə, Finlandiya, Norveç, Yaponiya kimi ölkələrdə ölkənin ərzaq təhlükəsizliyini təmin etmək və fermer təsərrüfatlarını hər cür təsadüfü hadisələrdən, xüsusilə beynəlxalq bazarlardakı rəqabət mübarizəsindən qorumaq üçün dövlət sifarişləri əsasında, kənd təsərrüfatı məhsullarının dünya bazarlarındakından daha yüksək qiymətlərlə alınması təşkil olunmuşdur.

Son dövrlərdə bu təcrübədən postsosialist və postsovet ölkələrində də istifadə olunması yolunda müəyyən addımlar atılmağa başlanmışdır.

Doğrudur, aqro-biznes sahəsinə və fermerlərə böyük məbləğdə dövlət subsidiyaları proqramları istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə birmənalı qarşılanmır. Xüsusilə inkişaf etməkdə olan və xammal ixrac edən ölkələrdə beynəlxalq bazarda onlar üçün əlverişsiz rəqabət mühiti yaradan inkişaf etmiş ölkələrin aqrar bölməyə subsidiyalar proqramları, ciddi narazılıq doğurur. Qloballaşma əleyhinə olan qüvvələrin vaxtaşırı surətdə dünyanın müxtəlif ölkələrindəki çıxışları və etiraz mitinqləri, habelə kütləvi yürüşləri bunu sübut edir.

Müasir dünyanın üzləşdiyi ərzaq problemi, aqrar bölmənin inkişafına yönəldilən hökumət ***subsidiyalarının həcmi və istiqamətləri*** haqqında müəyyən iradlar doğursa da, bu prosesin zəruriliyi obyektiv-subyektiv səbəblərlə bağlı olduğundan, hələlik davam etdirilməsi xətti məqsədəuyğun sayılmalıdır.

**28.3.** Kənd təsərrüfatının inkişafındakı meyllər və ziddiyyətli proseslər bir sıra daxili, habelə beynəlxalq problemlər yaradır. Həmin problemlər sırasında ölkə əhalisinin ərzaqla təminatı, onun müxtəlifliyi, kaloriliiliyi, qiymətləri, bu sahəyə sərmayə qoyuluşları, kənd təsərrüfatı məhsullarının ixracı,rəqabət mübarizəsi kimi məsələlər mühüm yer tutur.

Ərzaq problemi və əhalinin müxtəlif təyinatlı əkinçilik, heyvandarlıq, meyvə-tərəvəz məhsulları ilə vaxtında, habelə fasiləsiz təchizatı, müasir inkişaf mərhələsində təkcə daxili yaxud regional deyil, qlobal bir əhəmiyyət kəsb edir. Ərzaq və gündəlik tələbat mallarının əksəriyyətinin mənbəyi, yaxud xammal bazası bilavasitə kənd təsərrüfatı ilə bağlıdır.

Birləşmiş Millətlər Təşkilatının və Dünya Ərzaq Fondunun (FAO) hesablamalarına əsasən, hər bir insanın gündəlik minimum enerji tələbatı 1700-1800 kalori, gündəlik orta zəruri enerji tələbatı isə 2.700 kalori olduğu halda, bu rəqəm yüksək inkişaf etmiş ölkələrdə 3.400-3.500 kalori, inkişaf etmiş ölkələrdə 2000-2.500 kalori, keçid mərhələsində olan ölkələrdə isə (o cümlədən də Azərbaycan Respublikasında) 2.000-2.300

kalori təşkil edir. Lakin müxtəlif ölkələrin əhalisinin ayrı-ayrı qrupları (təbəqələri) üzrə aparılan hesablamalar, alınan göstəricilərin xeyli fərqli olduğunu sübut edir.

Müasir dünyanın yalnız bir qrup ölkəsinin özünü taxıl və heyvandarlıq məhsulları ilə təmin etdiyi, əksəriyyətinin isə həmin məhsulları idxal etməyə məcbur olduqları nəzərə alınarsa, bu sahədə vəziyyətin nə qədər gərgin olduğu aydınlaşır. Doğrudur, beynəlxalq əmək bölgüsünün prinsiplərindən faydalanaraq, həmin məhsulları valyuta ilə başqa ölkələrdən satın almaq mümkündür. Lakin heç də bütün ölkələrin, xüsusilə də zəif inkişaf etmiş ölkələrin buna maddi imkanları yoxdur. Rəsmi məlumatlara görə dünya əhalisinin üçdə bir hissəsi (30-35 faizi) insan orqanizmi üçün lazım olan normal ərzaq rasionu (dəsti, kompleksi) ilə təmin olunmur və Planetin əhalisinin beşdə bir hissəsi aclıq həddində yaşayır.

Maraqlıdır ki, yüksək inkişaf etmiş ölkələr qrupu nəinki öz ölkələrinin əhalisini kifayət qədər ərzaq məhsulları ilə təmin edirlər, eyni zamanda müxtəlif kənd təsərrüfatı məhsullarının geniş miqyasda ixracı ilə də məşğul olurlar. ABŞ, Almaniya, Kanada, İsveçrə, Fransa, İspaniya, İtaliya, Avstraliya,Yeni Zellandiya və digər ölkələrin bu sahədəki uğurları olduqca böyükdür. Şübhəsiz, aqrar bölmədəki nailiyyətlər, həmin ölkələrdə geniş miqyasda həyata keçirilən kənd təsərrüfatına əvəzsiz yardım (subsidiyalar) dövlət proqramları ilə yanaşı, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, elmin yeni nailiyyətlərinin tətbiqi əsasında əmək məhsuldarlığının yüksəldilməsinin nəticəsidir.

***Kənd təsərrüfatına kapital quruluşları və onun sərmayələşdirilməsi*** problemi həmişə iqtisadi-sosial inkişafın aktual məsələlərindən biri olmuşdur. 1929-1933-cü illəri əhatə etmiş dünya iqtisadi böhranından sonra, C.M.Keynisin makroiqtisadi nəzəri ideyalarına uyğun olaraq, milli iqtisadiyyatın başqa sahələri ilə yanaşı, aqro-biznes bölməsinin dövlət tərəfindən təzimlənməsi prosesi xeyli gücləndirilmişdir.

XX əsrin 30-cu illərindən başlayaraq, ABŞ-da «Fermer proqramı» əsasında, ölkənin kənd təsərrüfatı sahələrinə iri miqyaslı maliyyə yardımları ayrılmışdı. Həmin Proqramda kənd təsərrüfatı məhsullarının qiymətlərinin sabit saxlanması, fermerlərin gəlirlərinin ***paritetlik prinsipi*** əsasında tənzimlənməsi, kənd təsərrüfatı məhsullarının ümumi həcminin müəyyənləşdirilməsi, su mənbələri və əkinə yararlı torpaq sahələrinin qorunması, fermerlərə əlverişli şərtlərlə bank kreditləri verilməsi, məhsulun sığortalanması, aqrar bölmənin məhsullarının dünya bazarlarına çıxarılmasının maliyyələşdirilməsi nəzərdə tutulmuşdu.

Prezident F.Ruzveltin hakimiyyəti (1933-1945-ci illər) illərində, onun ***«yeni xətt»*** siyasəti əsasında fermer təsərrüfatlarına kömək məqsədilə subsidiyalar və dövlət sifarişləri yollarından istifadəyə geniş meydan açıldı. Ölkə banklarının aqrar bölməyə yönəldilən sərmayələr üçün kredit faizləri xeyli aşağı salındı. İlk dəfə dövlət büdcəsindən fermer təsərrüfatlarına 500 milyon dollar məbləğində vəsait ayrıldı.

1933-cü ildə qəbul olunmuş «Kənd təsərrüfatının tənzimlənməsi haqqında Qanun» (Aqricultural Adjustment ACT), 1996-cı ildə qəbul olunmuş «Sərbəst fermer fəaliyyət haqqında Qanun» (Freedom to Fart ACT) və 2002-ci ildə qəbul olunmuş «Fermer fəaliyyəti haqqında Qanun» (Farm Act of 2002) kimi hüquqi sənədlər, ölkə fermerlərinə verilən subsiyaların həcminin məhdudlaşdırılması, əkin sahələrinin ixtisarının ləğv olunması kimi müəyyən düzəliş, habelə əlavələrlə fərqlənsə də, bütövlükdə yaranmış

konkret vəziyyətin real təhlilindən çıxaraq, iqtisadiyyatın aqrobiznes bölməsinin ***rəqabət, faydalılıq, səmərəlilik*** prinsipləri üzərində qurulub, daha da inkişaf etməsinə yönəlmişdir.

***Kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlı problemlər,*** dövlətlərin beynəlxalq iqtisadi-ticarət əlaqələrində mühüm yer tutur. Beynəlxalq əmək bölgüsünün prinsiplərindən faydalanan müxtəlif ölkələr, hər il dünya bazarına təxminən 12-13 trilyon dollar həcmində mal və xidmətlər, o cümlədən kənd təsərrüfatı məhsulları ixrac edir, eyni zamanda 11-12 trilyon dollar məbləğində məhsul və xidmətlər idxal edirlər. XXI əsrin birinci onilliyində dünya ticarət dövriyyəsində kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi 8-12 faiz təşkil etmişdir. Hər il dünya bazarına bir neçə yüz milyon ton taxıl, on milyon tonlarla heyvandarlıq məhsulları və meyvə-tərəvəz çıxarılır.

Müasir dünyanın beynəlxalq iqtisadi-ticarət əlaqələrində sanballı bir rol oynayan ABŞ, taxıl və heyvandarlıq məhsullarına olan daxili ehtiyaclarını ödəməklə yanaşı, həmin məhsulların ixracında da aparıcı bir yer tutur. Eyni zamanda Birləşmiş Ştatlar əhalinin artan ehtiyaclarını daha dolğun surətdə ödəmək üçün başqa ölkələrdən müxtəlif təyinatlı kənd təsərrüfatı məhsulları (kofe, banan, kakao, tütün, pambıq, şəkər, yun və sairə) idxal edir.

ABŞ hökuməti öz kənd təsərrüfatı məhsullarının dünya bazarlarında rəqabət qabiliyyətinin qorunub saxlanması üçün ölkənin fermer təsərrüfatlarına yardım tədbirlərini həyata keçirməklə yanaşı, onun bu siyasətini tənqid edən daxili-xarici qüvvələrə qarşı cavab kimi müxtəlif yollardan istifadə edir. Məsələn, ölkədə kənd təsərrüfatı məhsullarına olan tələbi yüksək səviyyədə saxlamaq üçün benzin və kənd təsərrüfatı məhsulları mənşəli spirtdən qazolin adlı yeni yanacaq növü əldə edilməsi sahəsindəki elmi-tədqiqat işlərinin genişləndirilməsini, yaxud soya tipli paxlalı bitgilərdən rəngli karandaşlar (qələmlər) istehsalında istifadə edilməsi sınaqlarını nümunə göstərmək olar.

ABŞ-ın hakimiyyət orqanları, ölkədə yaranmış artıq kənd təsərrüfatı məhsullarının daha səmərəli istifadəsi üçün, əhalinin aztəminatlı təbəqələrinə «ərzaq talonları» paylamaq yolundan da geniş istifadə edirlər.

Ölkənin kənd təsərrüfatı məhsullarının dünya bazarlarına yeridilməsi və orada öz mövqelərini möhkəmlətmək məqsədilə federal hökumət reklam xərclərinə milyonlarla dollar sərf edir. «Sülh naminə ərzaq» proqramına əsasən, inkişaf etməkdə olan ölkələr qrupuna daxil olan dövlətlər, ABŞ-da istehsal olunmuş müxtəlif kənd təsərrüfatı məhsullarının artıq qalan hissəsini aldıqda, ***hesablaşmalar ABŞ dolları ilə deyil, həmin ölkələrin milli valyutaları ilə aparıla bilər.***

Beynəlxalq iqtisadi-ticarət sövdələşmələrində iştirak edən ABŞ nümayəndələri həmişə çalışırlar ki, onların əməkdaşlıq etdikləri dövlətlər kənd təsərrüfatı məhsulları üçün müəyyənləşdirilmiş maneələri, məhdudlaşdırıcı tədbirləri, nəhayət yüksək kömrük tariflərini aşağı salmağa nail olsunlar. Bütün bunlardan isə əsas məqsəd, – ABŞ-ın kənd təsərrüfatı məhsullarına dünya bazarlarına doğru daha geniş yol açmaq və qazanılmış mövqeləri nəyin bahasına olursa-olsun, sonadək qoruyub saxlamaqdır.

Hazırkı mərhələdə dünya kənd təsərrüfatı məhsulları istehsalı, daşınması, saxlanması, satışı, sifarişçilərə çatdırılması, beynəlxalq bazarlara çıxarılması bir sıra qlobal problemlərlə bağlıdır. Bu problemlərdən biri, ***kənd təsərrüfatı məhsullarının istehsalı coğrafiyası ilə həmin məhsulların istehlakı coğrafiyası arasındakı ciddi fərqlərdir.***

Məlumdur ki, Qərbi Avropa, ABŞ, Kanada, Avstraliya, Argentina, Yeni Zellandiya və digər ölkələrdə kənd təsərrüfat məhsullarının «artıqlığı» olduğu halda, dünyanın bir çox ölkələri daxili bazarın müxtəlif kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəmək üçün həmin məhsulları xaricdən idxal etməyə məcburdurlar.

Alim və mütəxəssislər hesablamalarına görə, dünyada kifayət qədər kənd təsərrüfatı məhsulları istehsal etmək üçün potensial imkanlar vardır. Yer kürəsi öz ərzaq resursları ilə 10-12 milyard nəfəri təmin edə bilər. Lakin iqtisadi-sosial inkişafın qeyri-bərabərliyi və obyektiv-subyektiv səbəblərlə bağlı, dünyanın hər yerində səmərəli surətdə kənd təsərrüfatı ilə məşğul olmaq mümkün deyildir.

Qloballaşan dünyada hər il xeyli torpaq və əkin sahələri sıradan çıxır, yollar salınır, kanallar və kəmərlər çəkilir, binalar ucaldılır, parklar və əyləncə mərkəzləri təşkil olunur. Vaxtilə dünyada hər nəfərə əkin üçün yararlı bir neçə hektar torpaq sahəsi düşürdüsə, hazırda bu rəqəm 0,20-0,25 hektara düşmüşdür. Bu proses Azərbaycan Respublikasında da gedir. Hindistan və Yaponiya, Banqladeş və Pakistan kimi ölkələr əkin üçün yararlı sayılan torpaq sahələrinin 90 faizdən çoxunu istifadə etmişlər.

Dünya miqyasında kənd təsərrüfatı məhsullarına tələbatın artdığı bir şəraitdə, yüksək inkişaf etmiş ölkələrin subsidiyalar vasitəsilə ölkədə məhsul bolluğu yaratmaq səyləri, qlobal miqyasda ziddiyyətlər yaradır. Qərbi Avropanın və ABŞ-nın fermer təsərrüfatlarında yetişdirilmiş daxili tələbatdan artıq kənd təsərrüfatı məhsullarının qarşılıqlı mübadiləsi, habelə ticarətində bir sıra gömrük, habelə qiymət problemləri meydana çıxdığından, həmin qrup dövlətlər arasında rəqabət mübarizəsi kəsginləşir.

Digər tərəfdən yüksək inkişaf etmiş ölkələr qrupunun, dövlət subsidiyaları hesabına nisbətən az xərclərlə başa gəlmiş kənd təsərrüfatı məhsullarının beynəlxalq bazardakı satış qiymətlərinin səviyyəsi, başqa iştirakçıların, xüsusilə inkişaf etməkdə olan ölkələrin haqlı etirazlarına səbəb olur. Çünki həmin ölkələr qrupunun kənd təsərrüfatı məhsullarının istehsalına dövlətin yardım proqramları olmadığından, dünya bazarındakı rəqabət mübarizəsində, yüksək inkişaf etmiş ölkələrə uduzurlar. Bu isə ölkə daxilində sosial gərginliyi gücləndirməklə yanaşı, beynəlxalq miqyasda qloballaşma əleyhinə (antiqlobalist) hərəkatı genişləndirir.

Kənd təsərrüfatı məhsulları istehsalı və fermer təsərrüfatlarının üzləşdikləri ziddiyyətli qlobal problemlərin həlli, dünya ölkələrinin birgə səylərini tələb edir.

**28.4.** Dünya miqyasında şəhərlərin formalaşması və inkişafı hələ eramızdan əvvəlki minilliklərə aid olsa da, lakin müasir şəhərsalma qayda-qanunlarına uyğun bu proses son 200-300 ilə təsadüf edərək, əvvəllər görünməmiş bir sürətlə getmiş, hazırda da davam etməkdədir.

Qədim Babilistan, Misir, Çin, Yunanıstan, İtaliya, Hindistan, İran, Avropa ərazisində vaxtilə meydana çıxmış Memfis, Fiv, Luksor (Misir); İnda, Pataliputra (Hindistan); Loyan, Çanan (Çin); Karfagen (Şimali Afrika); Afina, Kornif (Yunanıstan); Roma, Genuya, Venetsiya (İtaliya); Bağdad, Şam (Yaxın Şərq); London (İngiltərə); Buxara, Səmərqənd (Orta Asiya); Paris (Fransa); Nyu-York (ABŞ); Nijni-Novqorod, Moskva, Kiyev, Sankt-Peterburq (Rusiya); Təbriz, Qəbələ, Gəncə, Şamaxı, Bakı, Naxçıvan, Şəki (Azərbaycan) kimi və digərləri zaman keçdikcə bəziləri daha da inkişaf etmiş, bəziləri isə öz əvvəlki əhəmiyyətlərini itirmiş yaxud məhv olub getmişlər.

Dünya şəhərlərinin meydana çıxıb formalaşması prosesi göstərir ki, onlar tədricən ***ticarət, siyasi-ictimai, iri sənaye, elmi-mədəni, tarixi-bədii, dini, liman*** şəhərlərinə çevrilmişlər. İqtisadiyyatın, xüsusilə müxtəlif sənaye sahələrinin, nəqliyyatın, tikintinin, ticarətin, təhsilin, mədəniyyətin, ayrı-ayrı xidmət dairələrinin inkişafı sayəsində şəhərlərin daha da genişlənməsi hazırda da davam etməkdədir. ***Meqapolis*** (böyük şəhər) və urbanizasiya (cəmiyyət həyatında şəhərlərin rolunun kəsgin surətdə artması) son bir-iki əsrin məhsuludur.

Maraqlıdır ki, XIX əsrdən başlayaraq bütün dünyada, o cümlədən də ayrı-ayrı ölkələrin demoqrafik tərkibində şəhər əhalisinin kəmiyyət və keyfiyyətində ciddi dəyişikliklər getmişdir. 1800-cü ildə dünya əhalisinin ümumi sayının cəmi 3 faizi şəhərlərdə yaşamışdısa, artıq 1900-cü ildə bu rəqəm bir neçə dəfə artaraq 13-14 faizə, 1950-ci ildə 28 faizə, 1970-ci ildə 38-39 faizə, XXI əsrin birinci onilliyində isə 49-51 faiz arasında olmuşdur.

Ayrı-ayrı qitələrə və ölkələrə gəldikdə isə ümumi əhalinin sayında şəhərlərdə məskunlaşanların sayı faiz etibarilə aşağıdakı kimi olmuşdur:

| | |
|---|---|
| Avropada – 75% | ABŞ-da – 76% |
| Asiyada – 35% | Almaniyada – 80% |
| Afrikada – 25% | İngiltərədə – 80% |
| Şimali Amerikada – 77% | Fransada – 71% |
| Cənubi Amerikada – 60% | Hollandiyada – 60% |
| Avstraliyada – 70% | Azərbaycanda – 50% |

Şəhərlərin bəşəriyyətin və cəmiyyətin inkişafında çox böyük ictimai-siyasi, iqtisadi-sosial, mədəni rolu olduğu kimi, eyni zamanda tanınmış sosioloqların, iqtisadçıların, psixoloqların fikrincə, şəhər mühiti orada yaşayanlar üçün ***mənzil, kommunal xidmətləri, təchizat, rahatlıq, əxlaqi-mənəvi*** cəhətlərdən bir sıra çətinliklər yaradır. Son 50 ildə bu problemlər sırasına, əvvəllər o qədər də təhlükəli görünməyən ***ekologiya*** və şəhər mühitinin yaratdığı ***səs-küy*** məsələləri də ciddi narahatlıq doğurur.

Təsadüfi deyildir ki, müasir iri şəhərlərin iqtisadi-sosial inkişaf problemləri ilə hərtərəfli məşğul olan amerikalı mütəxəssislərin fikrincə, «zəmanəmizin möcüzəsi» sayılan bu «əzəmətli nəhənglər» insan zəkası və əməyinin ***həm fəxri,*** yaratdığı çətinlikləri, narahatlıqları, problemləri ilə ***həm də xəcalətidir.*** Çünki iri şəhərlər ölkənin iqtisadi tərəqqisinin simvolu, onun sürətli templərlə inkişafının əyani təsdiqi olmaqla yanaşı, eyni zamanda özünün şəhərətrafı yoxsul qəsəbələri, səliqəsiz «gecəqondu» evləri, natəmiz məhəllələri, əyri-üyrü küçələri, sərxoşları və narkomaniya düşgünləri, cinayətkar və əxlaqı pozğun ünsürləri, şübhəli əyləncə və oyun mərkəzləri kimi də məşhurdurlar.

Bu sözlər dünyanın ən güclü və varlı dövlətləri sırasında duran Birləşmiş Ştatların iri şəhərləri haqqında deyilsə də, şübhəsiz müəyyən istisnalarla, Planetin başqa ölkələrinin də iri şəhərlərinə aid edilə bilər. Onların formalaşması və inkişafında isə aşağıdakı sosial-iqtisadi şərtlər mühüm rol oynamışdır.

***Əvvələn*** ölkələrin, o cümlədən də ABŞ-nın kənd təsərrüfatında yeni maddi-texniki baza əsasında və yüksək əmək məhsuldarlığı sayəsində məhsul bolluğunun yaranması, təbii olaraq kənd əhalisinin bir hissəsinin müvəqqəti yaxud uzunmüddətli işsiz qalması ilə nəticələnmişdir. Həmin artıq «aqrar əhali» iş tapmaq, özünü və ailəsini təmin etmək üçün ətraf kiçik, habelə orta tipli şəhərlərə axışmağa başlamışdı. Kənd əhalisini şəhərlərə cəlb

edən və dünənki kəndlini şəhər sakininə çevirən, buranın kənddən fərqli bir sıra cəzbedici xüsusiyyətləri, sərbəstliyi, daha çox qazanmaq şansı olmuşdu.

***Sonra,*** istehsalın və kapitalın təmərküzləşməsi, habelə mərkəzləşməsi prosesi tədricən kiçik-orta şəhərlərin daha iri şəhərlərə çevrilməsini, burada bir-biri ilə zəncirvari surətdə bağlı olan istehsal-xidmət dairəsi sahələrinin inkişafını şərtləndirmişdir. İstehsalın və iş qüvvəsinin iri müəssisələrdə, müxtəlif təyinatlı məhsul-xidmət dairəsi sahələrində cəmləşməsi prosesi, həcm (məhsul buraxılışı) səmərəliliyi amili hesabına, daha yüksək nəticələrə nail olmaq üçün əlverişli imkanlar yaratmışdır.

***Nəhayət,*** iri şəhərlərin əlverişli nəqliyyat-rabitə, ticarət-təchizat imkanları, onların tədricən ölkənin güclü iqtisadi sənaye qovşaqlarına çevrilərək, təkcə daxili bazarın formalaşmasında deyil, eyni zamanda beynəlxalq iqtisadi-ticarət əlaqələrinin əhəmiyyətli dərəcədə genişlənməsi işində müsbət rol oynamışdır. Bu mütərəqqi proseslər isə iri şəhərlərin gələcək inkişafının təməli sayılan qarşılıqlı əlaqəli sahələrin meydana çıxmasına, ixtisaslaşma və kooperasiyanın genişlənib-dərinləşməsinə, yüksək peşəkarlığa malik mütəxəssis kadrların yetişməsinə, istehsal və sosial infrastrukturun təkmilləşdirilməsinə güclü təkan vermişdir.

Bütün bu obyektiv-subyektiv xarakterli səbəblər kompleksi, dünya miqyasında iri şəhərlərin meydana çıxması, formalaşması və tədricən təşəkkül taparaq inkişafının əsasını, habelə gələcək perspektiv istiqamətlərini müəyyən edir.

**28.5.** Şəhərlərin sürətlə genişlənərək, tədricən ***aqlomerasiya*** (bir-birinə bitişik, qovuşmuş) şəkildə formalaşması reallığı, Nyu-Yorkun, Mexikonun, Tokio-Osakanın, London-Liverpulun, Reyn-Rur hövzəsinin, Filadelfiyanın, Şanxayın, Bonbeyin, Qahirənin və digərlərinin nümunəsində, iri şəhərlərin bu istiqamətdəki inkişafının bütövlükdə cəmiyyət, ilk növbədə isə həmin şəhərlərdə yaşayıb-işləyənlər üçün ciddi problemlər yaratdığını göstərir. Həmin problemlər aşağıdakılardır:

**a)** ***Əhalinin sıxlığı*** və iri şəhərlərin milyonlarla sakininin məhdud bir coğrafi məkanda mərkəzləşmiş halda yaşaması istər şəhər təsərrüfatı istərsə də insanlar üçün bir sıra çətinliklər yaradır. Mexiko, Tokio, Nyu-York, Bombey, Qahirə kimi iri şəhərlərdə hər kvadrat km əraziyə düşən əhalinin sayı 10 min nəfəri ötür. Belə bir qeyri-normal sıxlıq, əhalinin həmin şəhərlərdə yaşaması, işləməsi, istirahəti və sağlamlığı ilə bağlı, əlavə ictimai-siyasi, iqtisadi-sosial, mənəvi-əxlaqi problemlərin meydana çıxmasına səbəb olur.

**b)** ***Mənzil problemi,*** dünya şəhərlərinin əksəriyyətinin qarşılaşdığı və əhalisinin böyük ehtiyac duyduğu məsələlərdən biridir. Şəhərlərdə aparılan geniş miqyaslı mənzil tikintisi işlərinə baxmayaraq, əhalinin artım tempi, buraya olan axın, əhalinin daha rahat mənzillərdə yaşamaq arzusu, nəhayət mənzillərin yüksək kirayə və satış qiymətləri, məsələnin həllini çətinləşdirir. Ona görə də, şəhər əhalisinin yoxsul təbəqəsi və onların ailələri, şəhərlərin ətrafında formalaşmış, yaşayış üçün son dərəcədə əlverişsiz sayılan «qetto», «gecəqondu», «şanxay» adlandırılan ərazilərdə yaşamağa məcburdurlar. Bu məhəllələrdə isə cinayətkarlıq, narkomaniya, sərxoşluq, əxlaq və hüquq normalarının pozulması halları daha çoxdur.

**c)** ***Nəqliyyat məsələsi,*** iri şəhərlərin mühüm qayğılarından biridir. Şəhər nəqliyyatının tarixi uzun bir inkişaf yolu keçmiş kareta, fayton, konka, tramvay, taksi, avtobus, metro, monorels kimi müxtəlif növləri, bu problemin həllinin müəyyən mərhələləri kimi səciyyələndirilə bilər. Lakin bu sahədə aparılan işlərə və görülən

tədbirlərə baxmayaraq, şəhər sakinləri özlərinin gündəlik həyatında, xüsusilə də səhər işə gedən və işdən qayıdan vaxtlar, nəqliyyat problemi ilə bu ya digər səviyyədə üzləşirlər. İri şəhərlərdə xüsusi minik avtomobillərinin sürətlə artması, onlar üçün rahat dayanacaqların azlığı, qaraj tikintisinə ayrılan torpaq sahələrinin məhdudluğu, hərəkət yollarında yaranan tıxaclar, işıqgöstəricilərin nasazlığı, piyadalar üçün keçidlərin müasir tələblərə uyğun olmaması, benzindoldurma məntəqələrindəki növbələr, nəqliyyat məsələsinin həllində çətinliklərin qaldığını sübut edir.

**ç)** İri şəhərlərin ***su, kanalizasiya, elektrik enerjisi, mavi yanacaqla*** təchizatı məsələlərində də, obyektiv-subyektiv səbəblərlə bağlı qarşıya çıxan problemlər sakinlər üçün vaxtaşırı müəyyən qayğılar yaradır. Şəhərlərin təbii-coğrafi mövqeyi ilə bağlı bu problemlər onların hamısında eyni səviyyədə müşahidə olunmasa da, lakin bu həyatı məsələlərin müasir tələblərə cavab verdiyini söyləmək çətindir.

**d) *Sanitar-gigeina problemi,*** natəmizlik halları, məişət tullantılarının vaxtında daşınmaması, xüsusilə ilin yay aylarında iri şəhərlərin əhalisi üçün narahatlıq və kütləvi xəstəlik mənbəyi kimi ciddi təhlükə yaradır.

**e) *Səs-küy*** problemi, son dövrlərdə iri şəhərlərin sakinlərinin rahatlığı, əhval-ruhiyyəsi, psixologiyası, nəhayət sağlamlığı üçün ağrılı, həm də getdikcə daha da kəsginləşən bir məsələyə çevrilmişdir.

**i) *Mənəvi-əxlaqi problemlərə*** gəldikdə, ailə təlim-tərbiyyəsi ilə yanaşı şəhər əhalisinin, xüsusilə yetişməkdə olan gənc nəslin formalaşmasında iri şəhər mühitinin müsbət cəhətləri, intelektual və mədəni səviyyənin yüksəkliyinin açdığı geniş əlverişli imkanlarla bərabər, insanların yayındırıcı, habelə zərərli əməllərə meyl göstərməsi, milli ənənə, mentalitet xüsusiyyətlərinin unudulması halları getdikcə özünü daha bariz şəkildə təzahür etdirir.

**k) *İri şəhərlərin ekologiyası və onların havasının təmizliyi, atmosferinin müxtəlif zərərli tullantılardan qorunması*** məsələləri əhalinin sağlamlığı ilə bilavasitə bağlı olduğundan, qlobal bir problem kimi cəmiyyətin müxtəlif dairələrinin diqqət mərkəzindədir.

Bir qrup mütəxəssis və alimlər Planetin ekoloji tarazlığının pozulması prosesinin böyük faciələrlə nəticələnəcəyini proqnozlaşdıraraq, qlobal istiləşmə, atom elektrik stansiyalarında baş verən qəzalar, atmosferin ozon təbəqəsindəki dəyişikliklər, dəniz və okeanların, çay və su hövzələrinin çirkləndirilməsi kimi neqativ hadisələrin bəşəriyyətin gələcəyi üçün çox təhlükələr yaradacağını söyləyirlər. Digər bir qrup isə təsdiq etməyə çalışır ki, hələlik qorxulu heç nə baş verməmişdir və Planetin bol yerüstü-yeraltı sərvətlərindən faydalana biləcəyik.

Əslində isə təbiətə, ətraf mühitə və ekologiyaya böyük zərbə vuran iri şəhərlərin sənaye potensialından istifadəni dövlətin iqtisadi siyasəti, habelə cəmiyyətin düşünülmüş nəzarəti ilə tənzimləmək mümkündür. Çünki ümumiyyətlə şəhərlərin, xüsusilə iri şəhərlərin havasının korlanması, çirkləndirilməsi prosesi, atmosferə zərərli sənaye tullantısı qazlarının atılması yolu ilə davam etməkdədir. Mütəxəssislərin hesablamalarına görə son 50 ildə dünya ölkələrinin Planetin atmosfer qatlarına atdıqları zəhərli tullantıların ümumi həcmi 4-5 dəfə artaraq, ildə orta hesabla 6 mlrd. ton yaxud 22 mlrd. ton karbohidrat təşkil etmişdir.

Bu zərərli kimyəvi qaz və digər tullantıların əsas hissəsi, iri sənaye mərkəzlərinin formalaşdığı yüksək inkişaf etmiş ölkələrin payına düşür. Atmosferə atılan zərərli tullantıların ümumi həcmində ABŞ-ın payı 25 faiz, Avropa İttifaqı (Birliyi) ölkələrinin payı 14 faiz, Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin payı 13 faiz, Yaponiyanın payı isə 5 faiz təşkil edir. Dünyanın digər 200-ə yaxın ölkəsinin atmosferə atdıqları zərərli tullantıların xüsusi çəkisi isə 43 faiz olmuşdur.

Doğrudur, XX əsrin 70-ci illərindən başlayaraq, BMT-nın səyləri ilə sənaye tullantılarının atmosferin ozon təbəqəsinə olan mənfi təsiri müəyyən qədər azalsa da, lakin problem qalmaqdadır. Bu istiqamətdə müsbət dəyişikliklərin və müəyyən irəliləyişlərin əldə edilməsində ətraf mühitin mühafizəsinə dair 1972-ci ildə Cenevrədə (İsveçrə), 1985-ci ildə Vyanada (Avstriya), 1992-ci ildə Rio-de-Janeyroda (Braziliya), 1997-ci ildə Kiotoda (Yaponiya), 2010-cu ildə Stokholmda (İsveç) toplanmış beynəlxalq məclislərin, orada əldə edilmiş razılaşmaların, qəbul edilmiş sənədlərin mühüm rolu olmuşdur.

Lakin müasir mərhələdə iri şəhərlərdə vaxtaşırı təkrar olunan «smoq» (bürkü) hadisələri, turşulu yağışların yağması insanların korlanmış və təmiz olmayan hava şəraitində sağlamlıqlarını itirmələri, onların nəfəs orqanlarının boğulması halları, bu sahədə gələcəkdə daha ciddi fəsadların baş verə bilməsi ehtimalını artırır.

Azərbaycan şəhərləri də, müasir dünyanın və xüsusilə onun iri şəhərlərinin əhalisinin rastlaşdıqları ekoloji problemlər, habelə onların yaratdığı mənfi sosial-iqtisadi nəticələrlə üzləşirlər. Ümumi ekoloji tarazlığın pozulması nəticəsində, hazırda Azərbaycan Respublikasında ərazinin üçdə bir hissəsi su və külək eroziyasına məruz qalmış; min hektarlarla ərazidə torpağın şoranlaşması getmiş; əkin üçün yararlı sahələr azalmış; torpağın ümumi məhsuldarlığı aşağı düşmüş; ekoloji vəziyyətdə mənfi meyllər güclənmişdir. Bakı, Sumqayıt, Əli-Bayramlı, Gəncə, Şəki, Şamaxı, Quba, Qəbələ kimi şəhərlərin də özünə məxsus konkret ekoloji problemləri vardır.

# Mövzu 29. Gəlirlərin bölgüsü, qeyri-bərabərlik və yoxsulluq

**29.1** Gəlirlərin bölgüsü, qeyri-bərabərlik və onun səbəbləri
**29.2** Yoxsulluq anlayışı, onun meyarları və aradan qaldırılması yolları
**29.3** Dövlət və gəlirlərin yenidən bölgüsünün tənzimlənməsi
**29.4** Sosial sığorta proqramları
**29.5** Dövlət yardımları proqramları

**29.1.** Cəmiyyətdə gəlirlərin formalaşması və onun ölkə əhalisinin müxtəlif təbəqələri arasında bölgüsü məsələsi həmişə siyasi liderlər, ictimai xadimlər, alimlər, mütəxəssislər, hətta ən sadə peşə-sənət adamları arasında qızğın müzakirələrə səbəb olmuş, ciddi disskusiyalar doğurmuş, fikir ayrılığı yaratmışdır. Gəlirlərin ***bərabərmi, ədalət meyarları əsasındamı, hər kəsin əməyinə görəmi*** bölüşdürülməsi problemi iqtisadi, sosial, fəlsəfi, dini istiqamətlərdə təhlil və tədqiq edilmişdir. Təsadüfi deyildir ki, böyük rus yazıçısı Lev Tolstoy iqtisadi elminin əsas vəzifələrindən birinin «maddi nemətlərin bütün insanlar arasında ədalətli bölgüsü üsullarını» tapmaq olduğunu qeyd etmişdi.

Gəlirlər anlayışı mücərrəd və təsadüfi bir şey olmayıb, istehsal-xidmət dairəsi, habelə bu proseslərin fasiləsiz hərəkət halında davam etdiyi konkret iqtisadi sistemlə bağlıdı. Tarixi inkişafın ayrı-ayrı mərhələlərindən və müxtəlif iqtisadi sistemlərdən asılı olaraq, bölgü prinsipləri, onun qayda-qanunları, fəaliyyət mexanizmi xeyli dəyişmişdir. Məlumdur ki, ibtidai icma quruluşunun, quldarlıq cəmiyyətinin, feodalizmin, sosiolizmin, bazar münasibətləri iqtisadi sisteminin öz iqtisadi təbiətinə, məqsədinə və vəzifələrinə uyğun da, bölgü prinsipləri olmuşdur, indi də vardır. Bu mənada bölgü münasibətləri nisbi müstəqilliyə malik olub, əslində iqtisadi sistemdən asılıdır.

Xüsusi mülkiyyət, tələb-təklif, qiymət, iqtisadi sərbəstlik, rəqabət prinsiplərinə əsaslanan bazar münasibətləri iqtisadi sistemi, ***ədalət-insaf, etika-əxlaq*** prinsipləri ilə deyil, ***səmərəlilik, təşəbbüskarlıq, işgüzarlıq, təşkilatçılıq*** meyarları ilə fəaliyyət göstərir. Ona görə də bu cəmiyyətin bölgü qaydaları iqtisadi sistemin ümumi prinsiplərinə uyğun qurulur. Bu mənada, bazar münasibətləri iqtisadi sistemi ilk növbədə ***resursların məhdudluğu və tələbatların sonsuzluğu*** şəraitində faydalılıq, səmərəlilik, effektlik meyarlarını əsas götürür. Ədalət, hümanizm, insaf, bərabər bölgü anlayışları ona təbiətən yaddır.

Tələb-təklif, qiymət, rəqabət üzərində qurulan bir cəmiyyətdə tanınmış futbolçu və müğənninin, məşhur cərrah və rəssamın illik gəliri ilə orta məktəb müəllimi və fəhlənin, dəmir yolu nəzarətçisi və restoran xidmətçisinin illik gəliri arasındakı kəsgin fərq bəzilərində təəccüb, bəzilərində isə qəzəb doğursa da, bu həyatda rastlaşdığımız real faktlardır.

Bazar münasibətləri iqtisadi sistemi şəraitində sosial-bərabərsizliyə, ədalət-insaf meyarlarının pozulmasına yol verilməsinə baxmayaraq, hələlik cəmiyyətin çoxsahəli təsərrüfat həyatı fəaliyyətinin, əvvəlkilərə nisbətən daha mükəmməl, faydalı, səmərəli bir forması sayılır.

Dünyanın yüksək inkişaf etmiş ölkələri qrupunun lideri sayılan ABŞ-da XXI əsrin əvvəllərinə illik gəlir səviyyəsinə görə 5 dərəcəyə (kvantil) bölünmüş ailələrin vəziyyəti belə olmuşdur.

| Dərəcələr | Gəlirlər | Ümumi gəlirdə payları |
|---|---|---|
| Ən aşağı 20% | 24.000 dollara qədər | 4,2 faiz |
| Aşağı 20% | 41.127 dollara qədər | 9,7 faiz |
| Orta 20% | 62.500 dollara qədər | 15,4 faiz |
| Yüksək 20% | 94.150 dollara qədər | 22,9 faiz |
| Ən yüksək 20% | 100.000 dollardan çox | 47,8 faiz |

Müqayisə üçün göstərmək olar ki, Almaniyada ən aşağı həyat səviyyəsinə daxil edilən ölkə əhalisinin ümumi gəlirlərdə payı 9 faiz və ən yüksək həyat səviyyəsi qrupuna daxil edilən ailələrin ölkənin ümumi gəlirlərində payı 37,1 faiz təşkil etmişdir. Bu rəqəmlər müvafiq surətdə Kanadada 7,5 və 39 faiz, Rusiyada 7,4 və 40 faiz, Braziliyada 2,5 və 64,2 faiz, Çilidə 3,5 və 61,0 faiz, İngiltərədə 7,1 və 39,8 faiz, Çində 5,5 və 47 faiz, Azərbaycanda təxminən 16-21 və 5-8 faizdir. 2010-cu ilin məlumatlarına görə Azərbaycan Respublikasında minimum əmək haqqı 85 manat, orta aylıq əmək haqqı 350 manat, hər nəfər ailə üzvünə düşən gəlir 180 manat təşkil etmişdir.

XXI əsrin birinci onilliyində ABŞ-da 4 nəfərdən ibarət ailənin illik gəliri 70 min dollar (ayda 6 min dollara yaxın) hesablansa da, lakin orta bir kəmiyyət və göstərici olub, real vəziyyəti tam əks etdirə bilmir. Müxtəlif ailələrin daha konkret qruplar üzrə gəlirləri aşağıdakı kimi olmuşdur:

| | Ailələrin şəxsi gəlir dərəcələri (dollarla) | Ailələrin bu dərəcələrdə xüsusi çəkisi (faizlə) |
|---|---|---|
| **a** | 10.000 dollardan aşağı | 5,3% |
| **b** | 10.000-dən – 14.999 dollara qədər | 4,3% |
| **c** | 15.000-dən – 24.999 dollara qədər | 11,3% |
| **ç** | 25.000-dən – 34.999 dollara qədər | 11,9% |
| **d** | 35.000-dən – 49.999 dollara qədər | 15,7% |
| **e** | 50.000-dən – 74.999 dollara qədər | 20,8% |
| **ə** | 75.000-dən – 99.000 dollara qədər | 13,1% |
| **f** | 100.000-dən – 199.999 dollara qədər | 14,6% |
| **q** | 200.000-dən çox dollar | 3% |
| | Cəmi | 100,0% |

Müxtəlif ölkələrin əhalisinin və ailələrinin şəxsi gəlirlərindəki bu qeyri-bərabərliyi yaradan səbəblər sırasında insanların fərdi bacarıq və qabiliyyəti, onların təhsil və peşəkarlığı ilə yanaşı, eyni zamanda cinsi, irqi, dini mənsubiyyətlə bağlı ayrı-seçgilik siyasəti də mühüm rol oynayır. Təsadüfi deyildir ki, ABŞ əhalisinin yoxsulluq həddi səviyyəsində yaşayan 30 milyondan (11 faiz) artıq əhalisi arasında qaradərililərin, azsavadlıların, müəyyən peşə-sənət sahibi olmayanların sayı daha çoxdur.

Cəmiyyətin gəlirlərinin qeyri-bərabər bölgüsünə, əhalinin təbəqələşməsinin tədricən güclənməsinə, ayrı-seçkilik meyllərinə yol verilməsinə qarşı etiraz edən iqtisadçılar, mütəxəssislər göstərirlər ki, qanunların elan etdiyi hamı üçün bərabər imkanlar hüququ, «demokratiyanın gözəl və boş sözlərindən başqa bir şey deyildir». Çünki, «əhalinin

müəyyən hissəsinin mənzili olmadığı, ehtiyac içərisində yaşadığı, hətta aclıq çəkdiyi, digərlərinin isə var-dövləti başından aşdığı bazar münasibətləri iqtisadi sistemi» müasir demokratiya prinsiplərindən çox uzaqdır.

Başqa bir qrup iqtisadçı, ölkə əhalisinin gəlirlərinin qeyri-bərabərliyini, yaşadığımız cəmiyyətdə bərabərlik və səmərəlilik anlayışlarının sosial-iqtisadi mahiyyətinin, habelə əsl mənasının ziddiyyətli izahında axtarırlar. Onlar qeyd edirlər ki, bazar münasibətləri iqtisadi sistemi şəraitində bu mühüm problem mücərrəd «ədalət prinsipləri müstəvisində deyil, real iqtisadi səmərəlilik əsasında həll olunmalıdır».

Müasir elmi və siyasi dairələr arasında belə bir meyl xüsusi narahatlıq doğurur ki, yüksək inkişaf etmiş ölkələrlə orta dünya iqtisadi göstəriciləri, eyni zamanda zəif inkişaf etmiş ölkələrin əhalisinin həyat səviyyəsi arasındakı fərqlər azalmaq əvəzinə, əksinə tədricən artmağa doğru gedir. Hazırda beynəlxalq təşkilatların məlumatlarına görə dünya əhalisinin ən varlı və ən yoxsul 10 faizinin həyat səviyyəsi arasındakı fərq nisbəti 15:1 ilə 25:1 hüdudunda ölçülür. Başqa sözlə ən varlı ailənin 1 günlük gəliri, ən yoxsul ailənin təxminən 1 aylıq gəlirinə bərabərdir. Ayrı-ayrı ölkələrdə bu fərq daha çoxdur.

Ümumiyyətlə həyat səviyyəsi dedikdə, ölkə əhalisinin əmək, məişət, istirahət şəraitini təmin edən amillərin kompleksi nəzərdə tutulur. İnsanların yaşaması üçün zəruri sayılan maddi və mənəvi nemətlər kompleksi, həyat səviyyəsi anlayışının məzmununu təşkil edir. Bu anlayış bir tərəfdən insanların tələbatlarının inkişaf səviyyəsini, digər tərəfdən isə həmin tələblərin kəmiyyət və keyfiyyət baxımından necə ödənildiyini göstərir.

Müxtəlif ölkələrin təbii-coğrafi mövqeyindən, iqlim şəraitindən, milli ənənə və mentalitet xüsusiyyətlərindən asılı olaraq, bütövlükdə əhalinin, o cümlədən də ailənin yaxud ayrı-ayrı fərdlərin həyat səviyysi ilə bağlı tələbləri dəyişir. Əhalinin və onun ayrı-ayrı ictimai təbəqələrinin həyat səviyyəsi göstəricilərinin yaxşılaşması yaxud pisləşməsi meylləri ilk növbədə iqtisadi sistemdən, ölkədə həyata keçirilən sosial siyasət xəttindən, dövlətin insanların yaşayıb-işləmələri üçün yaratdığı iqtisadi-hüquqi imkanlardan, göstərdiyi qayğıdan xeyli dərəcədə asılıdır.

BMT-nın tövsiyyəsi ilə ölkə əhalisinin həyat səviyyəsi aşağıdakı 12 qrup göstərici əsasında müəyyənləşir:

1. Əhalinin demoqratik vəziyyəti.
2. Həyat şəraitinin sanitar-gigiena göstəriciləri.
3. Ərzaq məhsullarının istehlakı.
4. Mənzil və kommunal şəraiti.
5. Təhsil və mədəni səviyyə.
6. Əhalinin məşğulluğu və iş şəraiti.
7. Əhalinin gəlirləri və xərcləri.
8. Ölkədə qiymətlərin səviyyəsi və yaşayış şəraiti.
9. Nəqliyyat vasitələrinin inkişaf səviyyəsi.
10. İnsanların istirahətinin təşkili.
11. Sosial təminat məsələləri.
12. İnsan azadlığı, şəxsiyyətin siyasi və iqtisadi sərbəstliyi.

**Mütləq bərabərlik, mütləq bərabərsizlik və Lorens əyrisi**




Əhalinin həyat səviyyəsinin formalaşmasında həlledici rol oynayan gəlirlərin (əmək haqqı, renta, mənfəət, faiz) ölkənin ayrı-ayrı sosial qrupları arasında qeyri-bərabər surətdə necə bölündüyünü aydınlaşdırmaq üçün iqtisadi nəzəriyyədə ABŞ iqtisadçısı Maks Lorens (1876-1959) tərəfindən təklif olunmuş Lorens əyrisindən istifadə edilir.

OF = Gəlirlər bərabər bölünür.

OFE = Gəlirlərin mütləq bərabərsiz bölgüsünü göstərir.

OABCDE = əyrisi əhali və ailələr arasında gəlirlərin əslində necə (faktiki) bölgüsünü göstərir.

T – sahəsinin OEF üçbucağı sahəsinə dəyişən nisbəti Cinni əmsalı adlanır.

Lorens əyrisi, insanların qabiliyyətləri, mülkiyyətləri, kapitalları, sənət-peşələri ilə bağlı onların gəlirlərinin də fərqli olduğunu göstərir. Lakin bu əyri əhalinin yalnız konkret pul gəlirlərini nəzərə alır. Əhalinin digər natural gəlirləri və onların müxtəlif sosial fondlardan, humanitar təşkilatlardan aldıqları yardımlar (transfer ödənişlər) buraya daxil edilmir. Lorens əyrisinə əsasən ölkə əhalisinin ümumi (100 faiz) gəliri, cəmiyyətin müxtəlif təbəqələri (100 faiz) arasında qeyri-bərabər surətdə bölünür. Şübhəsiz, ayrı-ayrı ölkələrdə bu qeyri-bərabər gəlir bölgüsünün səviyyəsi xeyli fərqlidir. Məsələn, elə ölkələr vardır ki, ümumi gəlirlərin 40-50 faizi əhalinin 5-10 faizinə çatdığı halda, gəlirlərin qalan hissəsi ölkə əhalisinin 90-95 faizi arasında fərqli surətdə, qeyri-bərabərlik prinsipi əsasında bölünür. Ölkələrin siyasi-ictimai quruluşundan, iqtisadi sistemindən, inkişaf səviyyəsindən asılı olaraq, əhalinin gəlirlərindəki qeyri-bərabərliyin səviyyəsi və bunun dövlətin siyasəti ilə tənzimlənməsi yolları müxtəlifdir.

Əhalinin gəlirlərinin qeyri-bərabərliyi səviyyəsini göstərmək üçün italiyalı iqtisadçı ***Korrado Cinninin*** (1884-1945) adı ilə bağlı ***Cinni əmsalından*** və onun həmyerlisi ***Vilfredo Paretonun*** (1884-1923) şərəfinə adlandırılmış ***Pareto qanunundan*** istiadə olunur.

**Cinni əmsalı** – qeyri-bərabər bölgüdə müxtəlif əhali qruplarının gəlir səviyyələrinin bir-birinə olan nisbətini göstərir. Məsələn, cəmiyyətin ən varlı təbəqəsi əhalinin 5,10,20 faizini, yoxsul təbəqəsi isə 95, 90,80 faiz təşkil edə bilər.

**Pareto qanunu** isə göstərir ki, cəmiyyətin müəyyən həddən, adətən orta səviyyədən yüksək gəlirləri olan təbəqəsinə mənsub insanları, ölkənin təsərrüfat həyatında baş verən inflyasiya, geriləmə, böhran hallarında, öz nisbi sabitliklərini qoruyub saxlaya bilirlər. İqtisadi-sosial sarsıntıların ən böyük zərbəsi, cəmiyyətin orta və yoxsul təbəqələrinə dəyir.

Ölkə əhalisinin gəlirlərinin səviyyəsini və müqayisəli dəyişmə dinamikasını müəyyənləşdirmək üçün ***nominal, sərəncamda qalan, real gəlir*** anlayışlarından (kateqoriyalarından) istifadə olunur.

***Nominal gəlir,*** ayrı-ayrı şəxslərin (fərdlərin) və sosial qrupların (işçilərin, fəhlələrin, fermerlərin, sahibkarların, ziyalıların) müəyyən bir dövr (gündəlik, həfdəlik, aylıq, illik) ərzində əldə etdiyi pul gəliridir.

***Sərəncamda qalan gəlir,*** əhalinin şəxsi istehlakına və şəxsi yığımına sərf olunan gəlirləridir. Onun həcmi, nominal gəlirdən vergilər və məcburi ödənişləri çıxdıqdan sonra qalan məbləğə bərabərdir. Deməli,

Sərəncamda qalan gəlir = Nominal gəlir–Vergilər və məcburi ödənişlər

***Real gəlir,*** əhalinin sərəncamında qalan gəlirlər hesabına, bazar qiymətləri ilə əldə edə biləcəyi maddi-mənəvi nemətlərin və xidmətlərin toplusudur. Real gəlirlər əhalinin alıcılıq qabiliyyəti və həyat səviyyəsi meyarları ilə bilavasitə bağlıdır.

Bazar münasibətləri iqtisadi sistemi şəraitində, cəmiyyətdə halal əmək-zəhmətlə qazanılmış gəlirlə yanaşı, leqal, qeyri-leqal, qanunsuz, kriminal mənşəli, «gizli iqtisadiyyatla» bağlı gəlir mənbələrinin olması da mümkündür.

**29.2.** Əhalinin müxtəlif təbəqələrinin gəlirlərinin qeyri-bərabərliyi və bu prosesdə gedən ziddiyyətli meyllər ictimaiyyəti, mütəxəssisləri düşündürüb narahat etsə də, lakin ***yoxsulluq problemi,*** habelə onun aradan qaldırılması daha ciddi bir məsələ kimi qarşıda durur.

Yoxsulluq anlayışının elmi-nəzəri tərifini vermək şərti və nisbi xarakter daşısa da, mütəxəssislərin fikrincə, hər hansı bir ölkədə ***konkret şəxs (fərd) yaxud ailə*** öz gəliri ilə əsas ehtiyaclarını ödəyə bilmirsə, yoxsul sayılmalıdır. Aydındır ki, hər bir şəxsin və ailənin tələbatı isə xeyli fərqli olub, müxtəlif şərtlərlə bağlıdır. Həmin şərtlər sırasında zövq, ailənin say tərkibi, təhsil səviyyəsi, insanların yaşı, cinsi, sağlamlığı kimi amillərin də müəyyən rolu vardır.

Beynəlxalq təşkilatların və BMT-nin hesablamalarına görə, müasir qidalanma normalarına əsasən, işləyən ailə üzvlərinin hər nəfərinə gündə 2 dollar, işləməyənlərə isə gündə 1 dollar düşürsə, deməli həmin ailə yoxsuldur.

XXI əsrin əvvəllərində ABŞ hökuməti, ölkə vətəndaşının və ailənin «yoxsulluq dərəcəsini», yaxud «yoxsulluq səviyyəsini» belə müəyyənləşdirmişdir:

- 1 nəfərdən ibarət ailə ildə 9.039 dollar (ayda 753 və gündə 25 dollar) qazanırsa, ABŞ standartlarına görə yoxsul sayılır.
- 4 nəfərdən ibarət ailə ildə 18.104 dollar (ayda hər nəfərə 377 və gündə 12,6 dollar) qazanırsa, o yoxsuldur.
- 6 nəfərdən ibarət ailə ildə 24.195 dollar (ayda hər nəfərə 335 və gündə 11,2 dollar) qazanırsa, o yoxsuldur.

Bu məlumatlara əsaslanan siyasətçilər, sosioloqlar, iqtisadçılar göstərirlər ki, hazırda Birləşmiş Ştatların 310 milyon nəfəri ötən əhalisinin 30 milyon nəfərindən çoxu, yəni 10-12 faizi ABŞ standartlarına görə yoxsulluq həddində yaşayır.

Dünyanın digər ölkələrinə gəldikdə bu rəqəm əhalinin ümumi sayının1-3 faizindən (Hollandiya, Norveç, İrlandiya, İsveçrə, Ərəb dövlətləri), 70-90 faizə qədər (Asiya, Afrika qitəsi, Cənubi Amerikanın bir sıra dövlətləri) kəsgin surətdə dəyişir. Azərbaycan Respublikasında müstəqillik illərində yoxsulluq səviyyəsi ötən əsrin 90-cı illərinin ortalarında 70 faiz olduğu halda, XXI əsrin birinci onilliyinin sonunda rəsmi statistika məlumatlarına görə bir neçə dəfə aşağı düşərək 10-12 faiz təşkil etmişdir. Beynəlxalq

təşkilatların və müstəqil ekspertlərin müqayisəli metodlarla hesablamalarına görə bu rəqəm fərqli olub, 16-20 faiz təşkil edir.

Səmərəlilik və rəqabət prinsiplərinə əsaslanan müasir bazar iqtisadi münasibətləri sistemi şəraitində fəaliyyət göstərən müxtəlif istiqamətli, habelə modelli dünya iqtisadiyyatında əhalinin gəlirlərindəki qeyri-bərabərliyi müəyyənləşdirmək, ailələrin yoxsulluq səviyyəsini dəqiqləşdirmək üçün başqa tip qruplaşmalardan da istifadə olunur. Həmin təsnifata əsasən, ölkə əhalisinin gəlirləri ilə onların yoxsulluq səviyyəsi arasındakı əlaqəni aydınlaşdırmaq üçün 5 qrup prinsipindən (qaydasından) istifadə olunur:

1. ***«Yoxsul ailələr»*** qrupunda hər nəfərə düşən gəlirin həcmi, ölkədə müəyyən edilmiş yaşayış minimumu səviyyəsindən aşağıdır, yaxud ona yaxındır.
2. ***«Aztəminatlı ailələr»*** qrupunda hər nəfərə düşən gəlirin həcmi, yaşayış minimumu ilə minimum istehlak büdcəsi (istehlak səbəti) arasındadır.
3. ***«Təmin olunmuş ailələr»*** qrupunda hər nəfərə düşən gəlir, minimum istehlak büdcəsi ilə səmərəli (normal) istehlak büdcəsi arasındadır.
4. ***«Varlı-imkanlı ailələr»*** qrupunda ailənin hər nəfərinə düşən gəlirin miqdarı, səmərəli istehlak büdcəsində nəzərdə tutulandan çoxdur.
5. ***«Ən varlı, imkanlı ailələr»*** qrupunda ailə üzvlərinin hər nəfərinə düşən gəlir olduqca yüksəkdir.

Cəmiyyətdəki yoxsulluq problemi və onunla bağlı məsələlərin həllini çətinləşdirən cəhətlərdən biri, həmin qrupa daxil edilən insanların, ailələrin ölkənin müxtəlif ərazilərinə səpələnməsi, şəhər və kənd yerlərində yaşaması, onların arasında yaşlıların və yeniyetmələrin, ayrı-ayrı millətlərin və dinlərin nümayəndələrinin olmasıdır.

Digər bir səciyyəvi cəhət isə yoxsul şəxslərin və ailələrin vəziyyətinin dəyişkənliyi, ötən il yoxsul sayılanın bu ildən vəziyyətinin xeyli yaxşılaşması yaxud əvvəllər maddi vəziyyəti normal sayılanların sonralar obyektiv-subyektiv səbəblərlə bağlı çətin vəziyyətə düşərək, yoxsullaşmaları ilə əlaqədardır.

ABŞ-ın iqtisadi inkişaf tarixindən məlumdur ki, 1959-1969-cu illərdə ölkədə yoxsulluğun ümumi səviyyəsi 10 faizdən aşağı olduğu halda, sonrakı onillikdə artaraq, 11-13 faiz səviyyəsində stabilləşmişdi. 1980-ci ildən başlayaraq, yenidən ölkə əhalisi arasında yoxsulların sayı artaraq 1993-cü ildə özünün ən yüksək səviyyəsinə çatmışdır. Sonrakı dövrdə ölkədə yoxsulluq səviyyəsi azalmağa doğru meyl edərək, XXI birinci onilliyində 10-11 faiz təşkil etmişdir. Belə bir mənzərə Azərbaycan Respublikasında da müşahidə olunmuşdur. Ötən əsrin 90-cı illərinin birinci yarısında ölkədə yoxsulluq səviyyəsi 70 faiz olduğu halda, XXI əsrin əvvəllərində 49 faizə enmiş və son dövrlərdə 10 faiz həddində sabitləşmişdir. Ölkələrin əhalisinin yoxsulluq səviyyəsi, təkcə ölkənin daxili inkişaf məsələləri (ÜDM-un artım templəri, əhalinin gəlirləri, inflyasiya prosesi) ilə deyil, eyni zamanda qloballaşan dünyanın ərzaq, yanacaq, təhlükəsizlik problemləri və beynəlxalq bazarlarda qiymətlərin enib-qalxması kimi obyektiv səbəblərlə də bağlıdır.

Bütün dünyada, o cümlədən də ABŞ-da yoxsulluğun təhlili və «daxili anatomiyasının» öyrənilməsi sübut edir ki, bu problem ölkəyə yeni köçüb gələnlər, savadsızlar, qaradərililər, tək analar, yeniyetmələr arasında daha kəsgin surətdə özünü göstərir. Aşağıdakı cədvəldə, ABŞ əhalisinin müxtəlif qrupları arasında yoxsulluq səviyyəsi əks olunmuşdur:

**ABŞ-da əhalinin müxtəlif qrupları arasında yoxsulluq səviyyəsi (%-lə)**

| | Bütün irqlər | Ağ irqdən olanlar | Qara orqdən olanlar | İspan dillilər (Cənubi Amerika ölkələrindən olanlar) |
|---|---|---|---|---|
| Bütün əhali | 12,0 | 9,0 | 24,0 | 22,0 |
| Uşaqlar və yeniyetmələr | 21,0 | 16,1 | 46,2 | 39,6 |
| Qadınların başçısı olduğu ailələr | 24,0 | Dəqiq məlumat yoxdur | | |
| O cümlədən uşaqlar | 34,0 | Dəqiq məlumat yoxdur | | |
| 65 yaşından yuxarı olan adamlar | 12,4 | 10,7 | 31,7 | 21,5 |
| O cümlədən ailəsizlər | 24,2 | 26,1 | 32,8 | 28,6 |

Cədvəldəki rəqəmlərdən aydın olur ki, ABŞ-da qaradərili yerli əhali və əsasən Cənubi Amerika ölkələrindən olan ispan dilli əhali arasında yoxsulluq səviyyəsi, ağ irqdən olan ailələrə nisbətən 2 dəfə çoxdur.

Ölkədə uşaqlar və yeniyetmələr arasında da yoxsulluq səviyyəsi, qaradərili, habelə ispan dilli ailələrdə xeyli yüksəkdir. Bu fakt ABŞ ictimaiyyəti və siyasi dairələrini daha ciddi narahat edir. Yoxsul ailələrdə yetişən gənclərin təhsil və müxtəlif peşə-sənətlərə yiyələnməsi sahəsindəki maddi çətinliklər, şübhəsiz gələcəkdə cəmiyyət üçün cinayətkarlıq, sərxoşluq, narkomaniya, zərərli oyunlara aludəçilik kimi xoşagəlməz sosial problemlər yaradaraq, «yoxsulluğun-yoxsulluq doğurduğu» fikrini təsdiq edir.

Yaşlı və ahıl ölkə əhalisi arasında, tənha analar, özü ailə başçısı olan qadınlar arasında yoxsulluq səviyyəsinin göstəriciləri, bu sahədə daha təsirli tədbirlər sisteminin hazırlanıb həyata keçirilməsini irəli sürür.

Vaxtilə tanınmış amerika yazıçısı Ernest Heminquey demişdir ki, varlılarla başqa insanlar arasında olan yeganə fərq, varlıların daha çox pulunun olmasıdır. Bu fikir doğru sayıla bilsə də, lakin cəmiyyəti düşündürüb narahat edən problemlərə tam cavab deyildir. Çünki «varlı və kasıblar arasındakı böyük fərq rahat yaşayan varlılar, yaşamaq uğrunda mübarizə aparan yoxsullar və narahat orta təbəqə üçün zəruri» həyati bir məsələ olduğundan, problemin həlli istiqamətində həm dövlət orqanları, həm də beynəlxalq təşkilatlar səy göstərirlər. Vaxtilə K.Marksın söylədiyi belə bir fikir, bizim günlərimizdə də aktual səslənir: cəmiyyət zəmanət verə bilməz ki,onun hər bir vətəndaşı hökmən dahi rəssam yaxud, tanınmış sənətkar olmalıdır; lakin cəmiyyət borcludur ki, həqiqi istedad və talant sahiblərinin layiq olduqları səviyyəyə yüksəlməsi üçün zəruri sayılan şəraiti yaratsın.

**29.3.** Cəmiyyətin iqtisadi-sosial inkişafının müəyyən mərhələlərində, ölkə əhalisinin gəlirlərindəki qeyri-bərabərliyi aradan qaldırmaq üçün dövlətin nə etməli olduğu məsələsi təkcə iqtisadçılar arasında deyil, filosoflar, siyasətçilər, sosioloqlar içərisində də mübahisələrə səbəb olmuş və müxtəlif fikirlərin irəli sürülməsini şərtlənmişdir.

***Utilitarizm*** siyasi-fəlsəfi məktəbin nümayəndələri (Con Stüart Milli və başqaları) hesab edirdilər ki, hökumət cəmiyyətdəki hər bir nəfərinin faydasını və rifahını təmin etməlidir. Onların fikrincə, insanların xoşbəxtlik və razılıq meyarı olan fayda anlayışı, cəmiyyətin dayaq nöqtəsi kimi həm ayrı-ayrı fərdlərin, həm də dövlətin son məqsədi

sayıldığından, hər kəsin rifahı qayğısına diqqət yetirilməli, bu amil gəlirlərin bölgüsündə nəzərə alınmalıdır.

***Liberalizm*** mövqeyinin tərəfdarları (Con Rouls və başqaları) hökumətləri gəlirlərin bölgüsündə ədalətli bir mövqe tutmağa çağıraraq, «hamının ümumi faydasını maksimallaşdırmaqdansa, minimum faydanı maksimallaşdırmaq» ideyasını irəli sürmüş, yəni ilk növbədə hakimiyyətin cəmiyyətin yoxsul təbəqələrinin rifahı üçün məsuliyyət daşıdığını göstərmişdilər.

***Libertarianizm*** istiqaməti nümayəndələrinin (Robert Nozik və başqaları) fikrincə, cəmiyyətin gəliri anlayışı doğru deyildir, çünki gəliri əldə edənlər konkret insarlardır. Ona görə də, hökumətin gəlirlərin bölgüsü adı altında bəzilərinin əməyinin nəticələrinin onlardan alınıb digərlərinə verilməsi siyasəti bəyənilə bilməz. Hakimiyyət elə hüquqi-təşkilatı imkanlar yaratmalıdır ki, cəmiyyətin hər bir üzvü öz istedad və qabiliyyətindən daha dolğun faydalana bilsin, «çünki imkanların bərabərliyi, gəlirlərin bərabərliyindən daha vacibdir» .

Klassik iqtisadi məktəbin tərəfdarları isə hesab etmişlər ki, gəlirlərin bölgüsünü dəyişmək olmaz. Onların fikrincə, ölkənin yoxsul əhalisinin vəziyyətini dövlətin bu işə qoşulması və müdaxiləsi yolu ilə yaxşılaşdırılması mənasız bir addım olub, son nəticə etibarilə cəmiyyətin milli gəlirinin azalmasına gətirib çıxaracaqdır.

Lakin XIX əsrin sonlarından bu sahədə, ilk növbədə Avropa ölkələrinin siyasi dairələrində yeni düşüncə tərzi formalaşmağa və konkret addımlar atılmağa başlanmışdır. O dövrdə Almaniyada Bismark və İngiltərədə Qledston, Dizraeli ölkənin rəsmi dairələrinin əhalinin həyat səviyyəsi, dolanacağı üçün məsuliyyət daşıması ideyasını irəli sürmüş, habelə bu istiqamətdə müəyyən səylər göstərmişdilər. Sonralar, XX əsrin 30-cu illərdə ABŞ prezidenti F.Ruzvelt, 1929-1933-cü illəri əhatə etmiş dünya iqtisadi böhranının ağır nəticələrini aradan qaldırmaq üçün dövlət tərəfindən əhalinin yoxsul təbəqələrinə yardım göstərilməsinin zəruriliyini əsaslandırdı. Bu kömək əhaliyə təqaüdlər verilməsi, ərzaqla yardım, sığorta ödənişləri, çoxuşaqlı ailələrə və tənha analara güzəştli ərzaq talonları verilməsi, habelə müxtəlif təyinatlı yardım Proqramları vasitəsilə həyata keçirilmişdi.

Müxtəlif ölkələrin, o cümlədən də ABŞ-ın təcrübəsi sübut edir ki, dövlətin vergi siyasəti və transfer ödənişləri sistemi (əvəzsiz yardımları), əhalinin müxtəlif təbəqələrinin gəlirləri arasındakı kəsgin bərabərsizliyin (qeyri-bərabərliyin) müəyyən dərəcədə azalmasına, yaxud problemin «yumşalmasına» şərait yaradır.

Hesablamalar göstərir ki, transfer ödənişləri vasitəsilə olan əvəzsiz yardımlar, ölkədə əhalinin gəlirlərinin qeyri-bərabərliyinin tənzimlənməsi mexanizminin 75-80 faizini təşkil edir. Bu əvəzsiz ödənişlərin, pul və məhsullarla (natural formada) yardımın dörddə üç hissəsi dövlət tərəfindən, üçdə bir hissəsi isə müxtəlif şirkətlər, birliklər, korporasiyalar tərəfindən göstərilir. Transfer ödənişlərində iştirak etmiş şirkət və korporasiyaların həmin məqsədlərə yönəlmiş məbləğləri, onların illik mənfəətlərindən vergilər tutularkən nəzərə alınır.

Dünyanın bütün ölkələri öz imkanları çərçivəsində və müxtəlif sosial Proqramları vasitəsilə, əhalinin maddi vəziyyətini yaxşılaşdırmaq, habelə mədəni səviyyəsini yüksəltmək üçün adətən 2 tip Proqramlardan istifadə edirlər: a) sosial sığorta (belfer) proqramından; b) dövlət yardımı proqramlarından. Həmin Proqramların hazırlanıb və müəyyən şərt-tələblər daxilində həyata keçirilməsindən məqsəd, bir tərəfdən əhalinin gəlirlərinin səviyyəsindəki bərabərsizliyi tənzimləyib, cəmiyyətdə sosial gərginliyə yol verməmək; digər tərəfdən isə dövlətin zəruriliyi, onun orqanlarının fəaliyyətinin səmərəliliyini sübut etməkdir.

**29.4.** Sosial sığorta Proqramları üzrə ABŞ-da ödənişlər işçilərin pensiya yaşı çatdıqda, insanlar işsiz qaldıqda, əmək qabiliyyətini itirdikdə, qocaldıqda həyata keçirilir. Ailə başçısını itirdikdə, müxtəlif tibbi yardımlara ehtiyacı olduqda və xəstələndikdə də, ölkə vətəndaşları bu fondlardan faydalana bilirlər. Sığorta Proqramları üzrə ödənişlər, işləyən vətəndaşların öz əmək fəaliyyətləri nəticəsində qazanılmış hüququ olub, dövlət yardımı və himayədarlığı ilə bağlılığı yoxdur.

Bu Proqramların maliyyə mənbəyi, əsas etibarilə əmək haqqından tutulan vergilərdir. Eyni zamanda işə götürən şirkət, birlik, korporasiyalar da bu Proqramların fonduna müəyyənləşdirilmiş qaydada ödənişlər edirlər. Əmək haqqından tutulan vergilər ABŞ-da 15,3 faizdən başlayaraq, 34-35 faizə qədər yüksəlir. Sosial sığorta (DASDHİ) və tibbi sığorta (Medicare) Proqramları üzrə ödənişlər XXI əsrin əvvəllərində müvafiq surətdə 6,20 və 1,45 faiz olmaqla 7,65 faiz təşkil etmişdir. Ölkə əhalisinin 46-50 milyon nəfəri sosial sığorta Proqramı üzrə ayda 800-900 dollar arasında məbləğ əldə edə bilirlər.

Ölkə qanunvericiliyinə əsasən, ABŞ-da hər bir işçi 65 yaşında pensiyaya çıxarsa, o tam məbləğdə, 62 yaşından pensiyaya çıxarsa, qismən təmin olunur. Sosial sığorta, işləyən ölkə vətəndaşlarının 90 faizini əhatə edir.

1965-ci ildən ölkədə tibbi sığorta Proqramı həyata keçirilməyə başlanmışdır. ABŞ-ən 50 statının hamısında işsizliyə görə sığorta Proqramları vardır və sığorta olunmuş hər bir nəfər öz işini itirərsə, əmək haqqının üçdə bir hissəsi (33 faiz) həcmində müavinət ala bilər.

ABŞ-da sosial sığorta Proqramlarının adı və təyinatları aşağıdakı cədvəldə verilmişdir:

**Sosial sığorta Proqramları**

| Proqramın adı | Güzəşt almaq üçün əsas | Maliyyə mənbəyi | Yardım forması | Xərclər (mlrd.doll) | Güzəştləri alanların sayı (mln.nəfər) |
|---|---|---|---|---|---|
| Qocalığa, əmək qabiliyyətinin itirilməsinə və ailə başçısının olmamasına görə (OASDHİ) | Qocalıq, əmək qabiliyyətini itirmək, valideynlərin vəfatı, əmək haqqının məbləği | Federal vergilər (iş verənlərdən və işləyənlərdən tutulur) | Nağd ödənişlər | 432 | 46 |
| Tibbi sığorta (Medicare) | Qocalıq, yaxud əmək qabiliyyətini itirmək | Federal vergilər | Xəstəliklərdən sığortalanma vəsaitləri | 219 | 40 |
| İşsizlik üçün muavinət (yardım) | İşsizlik | Federal və ştatların vergiləri | Nağd ödənişlər | 32 | 10 |

Cədvəldəki rəqəmlərdən aydın olur ki, sosial və tibbi Proqramlar üzrə ölkə əhalisinin aldığı nağd ödənişlər çox böyük bir məbləğ təşkil etmişdir. İşsizliyə görə ödənilən müavinətlərin məbləği müxtəlif illər üzrə dəyişsə də, lakin orta hesabla hər il 30 milyard dolları ötərək, təxminən 10 milyon nəfəri əhatə edir.

Sosial sığorta Proqramlarının ölkə əhalisinin yoxsulluq səviyyəsini azaltmaq, gəlirlərdəki qeyri-bərabərliyi tənzimləmək, cəmiyyətdə sosila gərginliyə, narazılıq əhval-ruhiyyəsinə yol verməmək kimi xoşməramlı məqsədlərinə baxmayaraq, bu Proqramlar ölkə ictimaiyyəti və müxtəlif elmi, habelə siyasi dairələr tərəfindən birmənalı qarşılanmayaraq, müəyyən mübahisələrə, disskusiyalara səbəb olur. Bəziləri bu proqramların bazar münasibətləri iqtisadi sisteminin prinsiplərinə uyğun olmadığını, insanların işgüzarlığını, təşəbbüskarlığını məhdudlaşdırdığını, əhalidə «ələbaxımlılıq» psixologiyası yaratdığını əsaslandırmağa çalışırlar. Digərləri isə mədəni və sivil cəmiyyətlərdə, demokratik dəyərlərin və humanizm prinsiplərinin yüksək qiymətləndirildiyi quruluşlarda, həmin tipli proqramların fəaliyyətini zəruri saymaqla yanaşı, bu istiqamətdəki işlərin gələcəkdə daha da genişləndirilərək, xeyli təkmilləşdirilməsini irəli sürürlər.

**29.5.** Dövlət sosial təminat sisteminə daxil olan dövlət yardımı (köməyi) Proqramları, müxtəlif problemlər üzündən qazana bilməyən və himayəsində azyaşlı uşaqları olan ailələr üçün nəzərdə tutulmuşdur. Bu Proqramlar ümumi vergi ödənişlərindən ayrılan məbləğ hesabına maliyyələşdirilir. ABŞ-nın təcrübəsində, əhalinin həmin Proqramlar üzrə yardım almaları üçün onların həyat tərzi və səviyyəsinin, habelə ailə gəlirlərinin «yoxlanması» tələb olunur. Müəyyən edilməlidir ki, konkret şəxs yaxud ailə, ölkə standartlarına görə həqiqətən Dövlət Proqramlarından yardım ala bilərlər.

Birləşmiş Ştatların əhalisinin yoxsul təbəqəsinə Dövlət Proqramları üzrə göstərilən bu yardımın üçdə iki hissəsi federal hökumətin və üçdə bir hissəsi isə statların (yerli hakimiyyət orqanlarının) payına, üzərinə düşür.

Dövlət yardımı və köməyi Proqramları ***adlarına, həcminə, təyinatına*** görə bir-birindən fərqlənsələr də, məqsəd etibarilə cəmiyyətin bazar münasibətləri iqtisadi sistemi şəraitində, obyektiv-subyektiv səbəblərlə bağlı rastlaşdığı problemlərin həllini müəyyən dərəcədə yüngülləşdirmək, ölkə əhalisinin normal həyat səviyyəsini təmin etməkdir.

Məsələn, ehtiyacı olan Ailələrə Müvəqqəti Yardım (TANF) Proqramı, uşaqlarla yanaşı, ailəni dolandırmaq üçün yaşlılara da kömək göstərilməsini nəzərdə tutur. Belə ailələr içərisində, ananın himayəsində qalan atasız ailələr, yaxud tək analar xüsusi yer tutur. Əlavə Müdafiə Gəlirləri (SSİ) adlı sosial təminat proqramı, xəstə və fiziki cəhətdən şikəst olan imkansız insanlara yardım göstərilməsini nəzərdə tutur.Eyni zamanda yoxsul şəxsin və ailənin hər iki sosial təminat Proqramından faydalanması üçün əlavə əsaslandırıcı amillər tələb olunur.

ABŞ dövlətinin ölkə vətəndaşlarına sosial təminat xarakterli yardım və kömək Proqramlarının xarakteristikasını aşağıda verilmiş cədvəldən görmək olar:

**Dövlət yardımı Proqramları**

| Proqramın adı | Güzəşt almaq üçün əsas | Maliyyə mənbəyi | Yardım forması | Xərclər (mlrd.dollar) | Güzəştləri alanlar (mln.nəfər) |
|---|---|---|---|---|---|
| Azimkanlılara əlavə müavinət və yardımlar (SSİ) | Şəxsin qocalığı yaxud iş qabiliyyətini itirməsi | Federal hökumətin gəlirləri | Nağd ödənişlər | 35 | 7 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Himayəsində uşaqlar olan ailələrə yardım (AFDC) | Bir sıra uşaqlı ailələr və ailənin gəliri | Federal gəlirlər və ştatların, habelə bələdiyyələrin gəlirləri | Nağd ödəniş və xidmətlər | 14 | 5 |
| Ərzaq talonları | Gəlir | Federalhakimiyyətin gəlirləri | Talonlar | 20 | 18 |
| Ehtiyacı olan ailələrə müvəqqəti yardım proqramı (TANF) | Uşaqlı ailələrin gəlir səviyyəsi | Federal, region, yerli hakimiyyətin gəlirləri | Nağd ödəniş və pulsuz xidmətlər | 14 | 5 |
| Tibbi yardım (Medicaid) | Dövlət Proqramları ilə yardım alanlar və tibbi müalicəyə ehtiyacı olanlar | Federal gəlirlər və ştatların, habelə bələdiyyələrin gəlirləri | Haqqı ödənilmiş tibbi kömək | 207 | 42 |
| Əmək haqqına vergi güzəştləri Proqramı (EİTC) | İşləyən ailə üzvlərinin əmək haqqının aşağı olması | Federal hakimiyyətin gəlirləri | Vergi ödənişlərindən müəyyən məbləğin nağd şəkildə qaytarılması | 55 | 26 |

Cədvəldə göstərilən dövlət sosial proqramlarından başqa, daha digər proqramlarla da əhalinin yoxsul və aztəminatlı təbəqələrinə müxtəlif yardımlar edilir. Məsələn, ***Head Start Proqramı*** 3-4 yaşında olan uşaqların təhsilini, qidalanmasını, onlara müxtəlif təyinatlı xidmətlər göstərilməsini nəzərdə tutur. ***Pell Çrant Proqramı*** üzrə yoxsul ailələrdən olan yuxarı kurs tələblərinə kömək göstərilir. Digər Proqramlar, gəlirləri aşağı olan ailələrin yaşayış evlərinin kirayəyə götürülməsini, yaxud özləri üçün xüsusi ev tikilməsini maliyyənləşdirirlər.

Dövlət sosial təminat Proqramlarının cəmiyyət həyatında oynadığı rol müsbət qiymətləndirilməklə yanaşı, eyni zamanda həmin Proqramların tənqidçiləri qeyd edirlər ki, bu işdə xeyli bürokratik əngəllər vardır, ayrılan vasitələr təyinatına görə xərclənmir, ayrı-ayrı ştatlarda yardımlardan faydalanmaq imkanları eyni deyildir, müəyyən qanun pozuntularına və ədalətsizliklərə yol verilir. Lakin dövlətin ümumi iqtisadi siyasətinin tərkib hissəsi sayılan müxtəlif təyinatlı sosial Proqramların ayrı-ayrı ölkələrdə konkret şərait və imkanlardan asılı olaraq həyata keçirilməsi, müasir bazar münasibətləri iqtisadi sistemi şəraitində zəruri bir tədbir kimi qiymətləndirilməlidir.

# Mövzu 30. Beynəlxalq ticarət: mahiyyəti, formaları və meylləri

**30.1** Beynəlxalq ticarətin mahiyyəti və prinsipləri
**30.2** Beynəlxalq ticarətin formaları
**30.3** Müasir beynəlxalq ticarət əlaqələrinin meylləri
**30.4** Xarici ticarət əlaqələri və milli iqtisadiyyatın problemləri

**30.1.** Beynəlxalq ticarət əlaqələri və dünyanın ayrı-ayrı ölkələri arasında hələ qədim dövrlərdən yaranmış müxtəlif məhsulların mübadiləsi prosesi böyük bir inkişaf yolu keçərək, indiki görünməmiş səviyyəyə çatmışdır. Mütəxəssislərin hesablamalarına görə hazırda dünyada 40 milyon ad və növdə məhsul-xidmətlər istehsal olunur. Planetin illik məhsul və xidmətlərinin dəyəri 60 trilyon dolları ötür. Beynəlxalq ticarət dövriyyəsinin ümumi həcminin 28 trilyon dolları keçdiyi nəzərə alınarsa, dünya ölkələrinin məhsul və xidmətlərinin 47 faizə qədərinin beynəlxalq bazarlarda reallaşdırıldığı aydın olar. Dünyanın xarici ticarət dövriyyəsinin təxminən yarısı ixracın, yarısı isə idxalın payına düşür.

XVII əsrdən başlayaraq, tədricən ***dünya bazarının*** formalaşması, beynəlxalq ticarət əlaqələrinin genişlənib-dərinləşməsinə güclü təkan vermişdir. Bu inkişaf ilk növbədə dünya miqyasında «sənaye çevrilişi, yaxud inqilabı», yeni torpaqların zəbt olunması, müstəmləkə sisteminin formalaşması, elmi-texniki tərəqqi, xüsusilə daha mükəmməl nəqliyyat vasitələrindən istifadə edilməsilə bağlı olmuşdur. Ölkələr və xalqlar arasında əlaqələndirici körpü rolunu oynayan ticarət münasibətləri gah zəifləmiş, gah da güclənmiş, lakin həmişə davam etmişdir. Şərq müdriklərinin dedikləri kimi «elm mübahisəsiz, hakim siyasətsiz, ölkə ticarətsiz yaşaya bilməz».

Beynəlxalq ticarətin əsasını, mahiyyətini ***beynəlxalq əmək bölgüsü*** təşkil edir. Bu o deməkdir ki, dünyanın ayrı-ayrı ölkələri öz coğrafi-strateji mövqeyi, təbii sərvətləri, iqtisadi resursları, əhalinin əmək-peşə qabiliyyəti ilə bağlı ixtisaslaşdığından, dünya bazarına yalnız müəyyən qrup əmtəə-xidmətlər çıxara və oradan da lazım olan məhsulları ala bilərlər.

Beynəlxalq ticarət əlaqələrinin əsasında A.Smitin ***«mütləq üstünlüklər»*** və bu ideyanın daha da inkişafı olan D.Rikardonun ***«müqayisəli üstünlüklər»*** konsepsiyaları durur. A.Smit hesab ediridi ki, hər hansı bir ölkənin xarici ticarətdən iqtisadi faydası, heç də digər ölkənin zərəri (uduzması, ziyanı)demək deyildir. Çünki beynəlxalq ticarət həm mal satan, həm də alan ölkələrin hamısına fayda gətirə bilər. O, ticarətin sərbəst olması ideyasını müdafiə etmiş və göstərmişdi ki, beynəlxalq ticarət vasitəliyə müxtəlif ölkələrin varlanması, bütövlükdə dünya təsərrüfat həyatının inkişafına xidmət edir.

Beynəlxalq ticarət əlaqələri problemi ilə yaxından məşğul olmuş D.Rikardo «müqayisəli üstünlüklər» nəzəriyyəsində əsaslanmışdır ki, müxtəlif ölkələr eyni adlı sənaye, kənd təsərrüfatı, sənətkarlıq məhsulları istehsal edib beynəlxalq bazara çıxarsalar da, həmin məhsulların qiymətlərində fərqlərin olması təbiidir. Bu mənada, obyektiv-subyektiv səbəblər üzündən, hər hansı bir ölkədə elə məhsullar hazırlamaq mümkündür ki, onun istehsalı başqa ölkələrə nisbətən daha ucuz başa gəlsin. Həmin ölkə, məhz bu tipli məhsulların istehsalı və satışı-ixracı üzrə ixtisaslaşmaqla, başqaları ilə müqayisədə

müəyyən nisbi üstünlüklər əldə edir. Zaman keçdikcə bu sahədə müxtəlif, bəzən isə ziddiyyətli fikirlər söylənmiş və ideyalar irəli sürülmüşdür.

***«İstehsal amilləri nəzəriyyəsi»***-nin müəllifi J.B.Sey, beynəlxalq bazarda əmtəələrin qiymətlərindəki nisbi fərqləri, həmin məhsullarının istehsalı ilə məşğul olan ölkələrin, ***torpaq, əmək, kapital*** kimi amillərinin müxtəlifliyi ilə izah etmişdi. Onun fikrincə, bu amillərin ölkə daxilindəki qiymətləri ilə beynəlxalq bazardakı qiymətləri arasındakı fərq daha çox olduğundan, xarici ticarət əlaqələri hər iki tərəf üçün faydalı olur.

E.Hekşer və V.Olin (İsveç) kimi iqtisadçılarının irəli sürdükləri ***«İstehsal amillərinin nisbəti»*** nəzəriyyəsinə görə ölkələr arasındakı istehsal xərclərinin nisbi fərqinin əsasını, istehsal amillərinin dünya miqyasında qeyri-bərabər yerləşməsi təşkil edir. Bu isə ayrı-ayrı ölkələrin xarici ticarətinin quruluşuna təsir göstərir. Onların fikrincə, hər hansı bir ölkə, bol istehsal amillərindən intensiv surətdə istifadə etməklə üstünlük qazana bilər. Lakin bu yalnız bir yaxud bir qrup məhsullara aid edilə bilər. Ona görə də ölkə, məhz həmin məhsul, yaxud məhsullar qrupu üzrə ixtisaslaşmağa çalışacaqdır. Deməli, xarici ticarət əlaqələrinin səmərəli olması üçün ölkələr eynitipli məhsullar istehsalından imtina edərək, beynəlxalq əmək bölgüsü əsasında istehsalın sahələrarası ixtisaslaşmasını dərinləşdirməlidirlər.

E.Hekşer – V.Olin – P.Samuelson ***«İstehsal amillərinin qiymətlərinin bərabərləşməsi»*** modelinə görə, beynəlxalq miqyasda istehsal amillərinin qiymətlərinin bərabərləşməsi meyli, D.Rikardonun «müqayisəli üstünlüklər» nəzəriyyəsinin müasir mərhələdə dəqiqləşdirilmiş təsdiqi, yaxud ifadəsidir.

M.Poznerin ***«Texnoloji üstünlük nəzəriyyəsi»***, texniki nailiyyətlərdən istifadə edən və qarşılıqlı ticarət əlaqələri aparan iki ölkənin hər birisinin iqtisadi fayda əldə etməsinin əsaslandırılmasına yönəlmişdir. Eyni zamanda yeni texnika və texnologiyalardan istifadə edən ölkə, həmin texniki-texnoloji nailiyyətləri yaratmış ölkəyə nisbətən daha artıq fayda əldə etmək imkanı qazanır.

R.Vernon (İngiltərə) tərəfindən irəli sürülmüş ***«Məhsulun həyat dövrü»*** nəzəriyyəsində təsdiq olunur ki, hər hansı bir məhsulun istehsalında istifadə edilən müxtəlif istehsal amillərinin müqayisəli üstünlüyü, ayrı-ayrı ölkələrdə xeyli fərqlidir. Hər bir məhsulun həyat dövrü, – ***yeni məhsul, standart məhsul, yetgin məhsul,*** kimi 3 dövrdən keçməsi nəticəsində, həmin məhsulun istehsal xərclərinin dəyişməsilə bağlı təbiidir ki, onun müqayisəli üstünlüyü də dəyişir. Deməli, texniki və texnoloji üstünlük, müasir dövrdə rəqabət mübarizəsinin kəsginləşməsi səbəbindən uzun müddət davam edə bilmir.

ABŞ iqtisadçısı M.Porter tərəfindən hazırlanmış ***«Millətlərin beynəlxalq rəqabət qabiliyyəti»*** konsepsiyasına görə, dünya bazarlarında ölkələrin rəqabət qabiliyyətini bir-biri ilə qarşılıqlı əlaqədə olan 4 göstərici müəyyənləşdirir: amil və tələb şərtləri, istehsala xidmət edən sahələr, şirkətin strategiyası və rəqabət mübarizəsi. Bu nəzəriyyədə dövlətin rolu məsələsinə xüsusi yer verilərək göstərilir ki, hakimiyyətin pul-kredit, vergi dərəcələri, gömrük tarifləri siyasəti, beynəlxalq ticarət münasibətlərində rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayır.

***«İstehsal amillərinin dinamikası və xarici ticarət»*** nəzəriyyəsinin müəllifi R.Lindert qeyd edir ki, istehsal amilləri cəmiyyətin iqtisadi-sosial inkişafından asılı olaraq, kəmiyyət və keyfiyyətcə dəyişir. Bu dəyişikliklər isə öz növbəsində, təkcə daxili bazarın tələb və təklifinə deyil, eyni zamanda ölkənin beynəlxalq iqtisadi-ticarət əlaqələrinə də öz təsirini göstərir.

«Ölkələr nə üçün ticarət edirlər,» sualina cavab verən tanınmış mütəxəssislər göstərirlər: ***birincisi,*** dünya ölkələri arasında təbii sərvətlər əmək, kapital resursları qeyri-bərabər bölünmüşdür; ***ikincisi,*** eyniadlı məhsulların müxtəlif ölkələrdə hazırlanması texnologiyası, dizayn xüsusiyyətləri, keyfiyyət parametrləri, istehsal xərcləri, qiymətləri fərqlidir. Ona görə də amerikalılar yapon avtomobillərinə üstünlük verir, isveçlilər fransız pendirini xoşlayır, kanadalılar xarici kompüterləri bəyənir, Qərbi Avropa ölkələri Rusiyadan idxal olunan mavi qazdan və Ərəb ölkələrindən gətirilən neftdən həvəslə faydalanırlar.

Eyni zamanda beynəlxalq iqtisadi-ticarət əlaqələrinin genişlənməsini aşağıdakı prinsiplər zəruri edir:

a) ayrı-ayrı ölkələrin təbii resurslarla (yerüstü-yeraltı sərvətlərlə) təminatı səviyyəsi;
b) ölkə əhalisinin təhsil, peşə-sənət ustalığı səviyyəsi;
c) müxtəlif ölkələrin kapital və sərmayə imkanlarının qeyri-bərabərliyi;
d) istehsal olunmuş məhsulların və göstərilmiş xidmətlərə sərf olunmuş xərclərin müqayisəli həcmi;
e) dünya bazarında qiymətlərin enib-qalxması;
f) müxtəlif ölkələrin istehsalı olan məhsulların və göstərilən xidmətlərin bir-birindən kəmiyyət-keyfiyyətcə fərqlənməsi;
g) daxili-xarici bazarlarda alıcı zövqü və davranışlarının tələb-təklifə təsiri;

**30.2.** Dünyanın müxtəlif ölkələri arasında ***əmtəələrin, xidmətlərin, biliklərin*** mübadiləsi prosesini əhatə edən beynəlxalq ticarət əlaqələri, azad ticarət (free trade) və himayədarlıq (protectionism) siyasəti əsasında 2 istiqamətdə, yaxud formada həyata keçirilir.

Azad ticarət, müqayisəli xərclər və rəqabət prinsiplərinə əsaslandığından, dünya miqyasında iqtisadi resurslardan daha səmərəli istifadə etməyə, insanların həyat səviyyəsini yüksəltməyə əlverişli imkanlar açır. Eyni zamanda inhisarçılığa qarşı çevrilmiş azad ticarət yaxud «açıq iqtisadiyyat» modeli, ayrı-ayrı ölkələrin milli səylərini birləşdirməyə, düşmənçilik meyllərinin aradan qaldırılmasına, uzunmüddətli qarşılıqlı faydalı əməkdaşlıq işinə xidmət edir. Belə bir xəttin müsbət və demokratik cəhəti ondadır ki, ölkənin iqtisadi-sosial inkişafını sürətləndirir, onun beynəlxalq nüfuzunu yüksəldir, ölkələr arasında məhsul-xidmətlərin və biliklərin mübadiləsi prosesini intensivləşdirir, əhaliyə dünyanın ən müxtəlif ərazilərində istehsal olunmuş istehlak mallarından öz arzu, habelə zövqlərinə uyğununu seçib almağa real şərait formalaşdırır.

Planetin müxtəlif dövlətləri arasında genişlənib-dərinləşən dinamik beynəlxalq iqtisadi-ticarət əlaqələrinin inkişafında, 1948-ci ildən fəaliyyət göstərən «Tariflər və Ticarət üzrə Baş Saziş» təşkilatının mühüm rolu olmuşdur. 1994-cü ildən bu təşkilat Dünya Ticarət Təşkilatı (World Trade Orqanization, WTO) adı altında fəaliyyət göstərir və 150-yə yaxın ölkəni birləşdirir. Həmin təşkilatın əsas fəaliyyət prinsipləri aşağıdakılardır:

- müxtəlif ölkələr arasında xarici iqtisadi-ticarət əlaqələrində ayrı-seçgiliyə yol verilməməlidir;
- dövlətlər arasında razılaşdırılmış qarşılıqlı güzəşt və gömrükxana rüsumlarına əməl olunmalıdır;
- ölkələr arasında meydana çıxan müxtəlif səpgili maneələr, qeyri-tarif şərtləri ilə bağlı çətinliklər, ikitərəfli danışıqlar yolu ilə aradan qaldırılmalıdır;

- tədricən inkişaf etməkdə olan ölkələr qrupu, müasir dünyanın beynəlxalq ticarət əlaqələri sisteminə daha fəal surətdə cəlb olunmalı və onlar üçün müəyyən güzəştlər nəzərdə tutulmalıdır.

Müasir dünyanın iqtisadi inteqrasiya və vahid dünya təsərrüfat sisteminin qloballaşma əsasında formalaşmasının rəmzi sayılan Dünya Ticarət Təşkilatlarının fəaliyyəti, habelə «açıq iqtisadiyyat» prinsipləri, bir qrup iqtisadçılar, xüsusilə də inkişaf etməkdə olan ölkələr tərəfindən tənqidlə qarşılanır. Onlar göstərirlər ki, beynəlxalq ticarət əlaqələrinin liberallaşdırılması (sərbəstləşdirilməsi) xəttinin məhsulların keyfiyyət standartları, ekoloji cəhətdən təmizliyi (saflığı), əmək və iş şəraiti kimi müxtəlif şərtlərlə əlaqələndirilməsi, bir sıra ölkələr üçün əlverişli olmadığından, xarici ticarət əlaqələrinin məhdudlaşdırılması, habelə beynəlxalq ticarət dövriyyəsinin azalması ilə nəticələnə bilər. Eyni zamanda inkişaf etməkdə olan ölkələrin istehsalçıları öz məhsullarının ixracı üçün aşağı gömrük tarifləri qoyulmasını tələb etdikləri halda, yüksək inkişaf etmiş ölkələrin fermerləri, onlara dövlət subsidiyaları (əvəzsiz yardımlar) verilməsi əleyhinə çıxan Dünya Ticarət Təşkilatının mövqeyinə qəti etiraz edirlər.

Obyektiv və zəruri bir proses kimi davam edən beynəlxalq ticarət əlaqələrinin genişlənib-dərinləşməsi istiqamətində onun gələcək daha da sərbəstləşdirilməsi xəttinin perspektivləri, ayrı-ayrı milli iqtisadiyyatlar üçün müəyyən problemlər yaratsa da, şübhəsiz son nəticə etibarilə bütün dünyada insanların həyat səviyyəsinin yüksəldilməsinə yönəldilən, lakin çətinliklə reallaşdırılan mütərəqqi meyl kimi qiymətləndirilməlidir.

Beynəlxalq ticarət əlaqələrinin ***himayəçilik (protecsionism)*** istiqaməti yaxud forması, ölkənin daxili bazarının qorunub saxlanması, milli iqtisadiyyatın mənafeyinin müdafiə olunması və iqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədlərinə xidmət göstərir. Bu siyasət rəsmi qanunlar və qanunvericilik aktları vasitəsilə tənzimlənir. Himayədarlıq siyasətinin tənzimlənməsi və reallaşdırılması işində dövlətlərarası ticarət sazişlərinin bağlanmasında, müəyyən məhsullar üzrə məhdudiyyətlərin (kvotaların) qoyulmasında, tarif siyasətində dəyişikliklər edilməsində, patent və lisenziyalar sahəsində istifadə olunur. Ölkəyə idxal olunan məhsullara valyuta məhdudiyyətli, sərt antidempinq gömrük tarifləri tətbiq etməklə, daxili bazarda başqa dövlətlərin məhsul-xidmətlərinə qarşı bəzən aşkar, bəzən də üstüörtülü şəkildə ayrı-seçgilik, hətta qadağan tədbirləri həyata keçirilir.

«Açıq iqtisadiyyat», ticarət əlaqələrinin liberallaşdırılması və sərbəstləşdirilməsi xəttinin alternativi sayılan himayədarlıq siyasəti tədbirləri sırasında aşağıdakıları göstərmək olar:

- normal səviyyədən yüksək gömrük tariflərinin idxal məhsullarına tətbiq edilməsi;
- idxal olunan bir sıra məhsullara məhdudlaşdırıcı həddlər (kvota) qoyulması;
- müəyyən məhsullara yaxud məhsul qruplarına artırılmış tariflərin tətbiq edilməsi;
- bəzi məhsullar üçün qadağan qoyulması;
- qeyri-tarif (məhsulun keyfiyyətinə, təhlükəsizliyinə, qablaşdırılmasına dair yersiz iradlar) vasitələrindən istifadə olunması;
- güzəştli tariflər tətbiq etməklə, ölkədə istehsal olunmayan məhsulların idxalına şərait yaradılması.

Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, himayədarlıq siyasətinin iqtisadi-sosial nəticələri haqqında iqtisadçılar və mütəxəssislər arasında fərqli fikirlər vardır. Bir qrup, himayədarlıq siyasətini müdafiə edərək, bu tədbirin dövlətin iqtisadi təhlükəsizliyi, ölkədə

məşğulluğun təmin olunması baxımından zəruriliyini əsaslandırmağa çalışırlar. Onların fikrincə, məxtəlif ölkələrdə yeni sənaye və istehsal sahələrinin formalaşdığı mərhələdə, dövlətin himayədarlıq siyasəti məqsədəuyğundur.

Digər bir qrup isə dövlətlərin himayədarlıq siyasətini «ticarət müharibəsi» kimi qiymətləndirərək, zərbələrini rəqiblərindən daha çox özlərinə vurduqlarını qeyd edirlər. Onların fikrincə, xarici ticarətin idxal sahəsində himayədarlığa haqq qazandırmaq tərəfdarlarının ən çox əsaslandırmağa çalışdıqları ***«yeni yaradılan istehsal-xidmət sahələrinin qorunması»*** ideyasını, daha təsirli başqa yollarla da, məsələn dövlət subsidiyaları vasitəsilə həyata keçirmək mümkündür.

Ölkə iqtisadiyyatının milli təhlükəsizliyini, başqa dövlət, yaxud şirkətlərin qərəzli dempiq siyasətindən qorumaq məsələsinə gəldikdə, bu hal qısamüddətli bir proses olduğundan, həmin hərəkətlərə qarşı daimi tədbirlərin fəaliyyət göstərməsi xəttini düzgün hesab etmək olmaz.

Nəhayət, belə bir fakt nəzərdən qaçırılmamalıdır ki, öz milli istehsal sahələrinin «müdafiəsini» irəli sürən zəif inkişaf etmiş ölkələrin idxalı zəiflətmək tədbirlərinə baxmayaraq, onların illik artım templəri, yüksək inkişaf etmiş ölkələrlə müqayisədə xeyli aşağıdır.

Beynəlxalq ticarət əlaqələri sistemində dövlətlərin azad və himayədarlıq siyasət xəttinə üstünlük vermələri konkret şərait, tətbiq olunan tədbirlərin kəsginliyi, onların müddətlərilə bağlıdır. Ayrı-ayrı ölkələrin təsərrüfat həyat təcrübəsinin təsdiq etdiyi kimi milli iqtisadiyyatın mənafeyi naminə, dövlətlər həm azad, həm də himayədarlıq formalarından, yaxud bunların hər ikisinin qarışıq variantlarından faydalana bilirlər.

Müasir dövrün iqtisadi inteqrasiya prosesləri və vahid dünya təsərrüfat sisteminin formalaşması, azad ticarət üçün daha geniş inkişaf üfüqləri açır.

**30.3.** Beynəlxalq ticarət əlaqələrinin dinamik inkişafının təhlili göstərir ki, ölkələr arasında iqtisadi körpü və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri yaradan bu mühüm istiqamət, ötən əsrin ikinci yarısından başlayaraq özünün bir sıra xüsusiyyətləri, habelə meylləri ilə fərqlənmişdir. Həmin meyl və səciyyəvi xüsusiyyətlər sırasında aşağıdakıları qeyd etmək olar.

***Birincisi,*** müəyyən illər istisna olmaqla, XX əsrin ikinci yarısından başlayaraq XXI əsrin birinci onilliyinə qədər olan dövr, dünya iqtisadi-ticarət əlaqələrində yüksəliş mərhələsi kimi xarakterizə olunur. Ötən əsrin 40 ili ərzində (1900-1940) dünya ticarət dövriyyəsinin ümumi həcmi 2 dəfədən bir qədər çox artmışdısa, həmin əsrin ikinci yarısında bu artım 35 dəfə çoxalmışdır. 1970-ci ildə beynəlxalq ticarətin ümumi həcmi 0,3 trilyon dollar, 1980-ci ildə 2 trilyon dollar, 2000-ci ildə 10 trilyon dollar olmuşdusa, 2010-cu ildə bu rəqəm təxminən 30 trilyon dollar təşkil etmişdir.

Beynəlxalq ticarət əlaqələrinin belə görünməmiş bir sürətlə artması, ilk növbədə həmin dövrdə dünyadakı iqtisadi yüksəlişlə bağlı olmuşdu. II dünya müharibəsindən sonra Planetin siyasi-iqtisadi mənzərəsində baş vermiş köklü dəyişikliklər, beynəlxalq əmək bölgüsünün genişlənib-dərinləşməsi istiqamətindəki mütərəqqi meyllər, ölkələr arasındakı əlaqələrin zəruriliyi, bu münasibətlərin yüksələn bir xəttlə inkişafını təmin etmişdir.

***İkincisi,*** beynəlxalq ticarətin illik artım tempi ilə dünya ümumi məhsul-xidmətlər istehsalının artım tempi arasında, əvvəlki dövrlərdən fərqli nisbətlər formalaşmağa başlamışdır. 1913-1937-ci illərdə dünya ölkələrinin ümumi istehsalı 43 faiz, onların ixracı

19 faiz artdığı halda, sonrakı illərdə bu nisbət tədricən xarici ticarət əlaqələrinin xeyrinə dəyişməyə başlamışdır. 1954-1963-cü illərdə dünya ölkələrinin ümumi istehsalı 5,2 faiz, beynəlxalq ticarət əlaqələrinin həcmi 7,1 faiz; 1964-1973-cü illərdə müvafiq surətdə 5,7 və 8,7 faiz; 1974-1990-cı illərdə 4,1 və 9,4 faiz təşkil etmişdi.

XX əsrin sonlarında (1998-2000-ci illər) beynəlxalq ticarət əlaqələrinin artım tempi aşağı düşsə də, lakin XXI əsrin əvvəllərindən başlayaraq, beynəlxalq ticarət dövriyyəsinin artım tempi, dünya istehsalının ümumi artım tempini ötməyə başlamışdır. Son 10 ildə dünyada ümumi məhsul istehsalı hər il orta hesabla 2,5-3 faiz artdığı halda, beynəlxalq ticarət dövriyyəsinin artım tempi 4-5 faiz olmuşdur.

***Üçüncüsü,*** dünya ölkələri arasında genişlənən ticarət əlaqələri, əvvəlki dövrlərə nisbətən daha ***açıq, sərbəst və liberal*** bir xarakter almaqdadır. Bu isə ilk növbədə keçmiş Sovet İttifaqının və onun təsir dairəsində olan sosialist ölkələrindəki siyasi rejimlərin dağılması, habelə yeni meydana çıxmış müstəqil dövlətlərin beynəlxalq əlaqələrinin, dünya bazarı ilə münasibətlərinin prinsip etibarilə əsaslı surətdə yenidən qurulması ilə bağlı olmuşdur. Bu istiqamətdə müxtəlif beynəlxalq təşkilat və maliyyə-bank-kredit qrumlarının, o cümlədən Dünya Ticarət Təşkilatlatının rolu yüksək qiymətləndirilməlidir.

***Dördüncüsü,*** müasir beynəlxalq ticarət əlaqələrinin quruluşunda ciddi dəyişikliklər baş vermişdir. Bu struktur dəyişiklikləri, ilk növbədə ölkələrin xarici ticarət münasibətlərində xammal ilə hazır məhsullar və hazır məhsulların içində isə mütərəqqi texnika-texnologiyaya əsaslanan, elmtutumlu yüksək keyfiyyətli ixrac məhsullarının üstünlük təşkil etməsidir.

XX əsrin 50-ci illərində beynəlxalq ticarət əlaqələrində xammal, o cümlədən yanacaqla hazır sənaye məhsullarının nisbəti təxminən bərabər olmuşdu. XX əsrin sonlarında bu nisbət hazır məhsulların xeyrinə dəyişərək 70 faizin 30 faizə nisbəti kimi formalaşmışdır. Beeynəlxalq ticarət əlaqələrinin quruluşunda payı 50 faizdən 30 faizə enən ərzaq, xammal, yanacağın cəmi 5 faizini xammal, 25 faizini isə yanacaq materialları təşkil etmişdi. Dünyanın xarici ticarət əlaqələrində hazır məhsulların payı sürətlə artaraq, XXI əsrin əvvəllərində 50 faizdən 70 faizə çatmışdır.

Bu sürətli artıma səbəb: a) kimya sənayesinin inkişafı nəticəsində yeni xüsusiyyətlərə malik sintetik materiallardan geniş istifadə olunması; b) yerli materiallardan daha geniş istifadə edilməsi; c) istehsal-xidmət dairəsində resursqoruyucu texnologiyalardan yaradıcılıqla faydalanmaq xətti olmuşdu. Bu meyl indi də davam etməkdədir. Hazır ixrac məhsulları arasında maşın və avadanlıqlar, elektronika məhsulları, müxtəlif nəqliyyat vasitələri, kimya sənayesi malları üstünlük təşkil edir. Sonrakı yerləri qara və əlvan metallar, habelə toxuculuq məhsulları-parça, paltar, ayaqqabı və sairə tutur.

Beynəlxalq şirkətlərin, xüsusilə trans milli korporasiyaların çoxcəhətli fəaliyyət dairəsi onunla nəticələnmişdir ki, istehsalın ixtisaslaşması və kooperasiyası ölkələrin ticarət əlaqələrinə yeni bir təkan vermişdir. Hazırda dünyada milyonlarla adda məhsul istehsalı və xidmətlər göstərilməsi, beynəlxalq əmək bölgüsündə sahələrarası ixtisaslaşmadan, artıq sahələrdaxili ixtisaslaşmaya doğru meyllərin gücləndiyini təsdiq edir.

«Boniq-747» tipli təyyarənin istehsalı üçün on minlərlə hissə və material tələb olunursa, şübhəsiz bunları hər hansı bir istehsal sahəsində, hətta müəyyən bir dövlətdə hazırlamaq mümkün deyildir. Ona görə də ixtisaslaşma və kooperasiyanın genişlənib-

dərinləşməsi, ölkələrin ticarətini, habelə xarici iqtisadi əlaqələrini yeni əsaslar üzərində qurmağı irəli sürür.

Müasir beynəlxalq iqtisadi-ticarət əlaqələri sistemində intelektual məhsullar qrupunun həcmi və xüsusi çəkisi artmaqdadır. ABŞ, Almaniya, Fransa, Yaponiya, İsveçrə kimi yüksək inkişaf etmiş dövlətlərin xarici ticarət əlaqələrinin 20-30 faizini bu tipli məhsullar, xüsusilə mikroelektrika məhsulları təşkil edir. Dünya ticarətinin 60 faizi yüksək inkişaf etmiş ölkələrin öz aralarındakı əlaqələrin payı düşür.

Maraqlıdır ki, ABŞ-nın xarici ticarət dövriyyəsinin ümumi həcmində ixracın 30-35 faizini xammal və kənd təsərrüfatı bölməsinin (aqro-biznes sahəsinin) məhsulları, 65-70 faizini isə müxtəlif təyinatlı sənaye məhsulları təşkil edir. Ölkəyə idxal olunan sənaye məhsulları içərisində əsas yeri neft, avtomobillər, elektronika məhsulları, məişət avadanlıqlı, ayaqqabı, paltar tutur. Başqa yüksək inkişaf etmiş ölkələrdə olduğu kimi, ABŞ-ın da ixrac kvotası nisbətən aşağı həddə olub, ölkənin ümumi daxili məhsulunun 10-12 faizini təşkil edir. Hazırda dünyanın ümumi ticarət dövriyyəsində ABŞ-ın payı (xüsusi çəkisi) təxminən 10 faizdir. Ölkənin xarici ticarət dövriyyəsinin həcmi mütləq rəqəmlərlə artsa da, lakin faiz etibarilə azalmağa doğru meyl edir.

Yaponiyanın xarici ticarət əlaqələrinin quruluşu ABŞ-dan fərqli formalaşmışdır. Ölkənin idxalının 75 faizini xammal, o cümlədən 98-99 faizini neft-yanacaq məhsulları təşkil edir. Yaponiyanın ixracında yüksək elm və kapital tutumlu sənaye sahələrinin istehsalı olan avtomobillər, iri tutumlu tankerlər, televizorlar, kompüterlər, elektronika məhsulları mühüm yer tutur. Dünya xarici ticarət dövriyyəsində Yaponiyanın payı 7 faizdir. Ölkənin ixrac kvotası 10 faiz və idxal kvotası 11 faiz təşkil edir. Yaponiyanın əsas xarici ticarət tərəfdaşı ABŞ-dır.

Başqa ölkələrin dünya ticarət dövriyyəsindəki mövqe və roluna gəldikdə, Almaniyanın xüsusi çəkisi 8-9 faiz, Fransanınkı 4-5 faiz, İngiltərəninki 3-4 faiz, Çininki 4-5 faiz, Kanadanınkı 3-4 faiz, İtaliyanınkı 3-4 faiz, Rusiyanınkı 1-2 faiz, Azərbaycanınkı 0,05 faizdir. Son illərdə Çinin xarici ticarət əlaqələri sürətlə artmaqdadır.

***Beşincisi,*** tədricən beynəlxalq iqtisadi – ticarət əlaqələrində daha sanballı bir rol oynamağa başlamış inkişaf etməkdə olan ölkələr qrupu, öz ixrac məhsullarının 70 faizə yaxınını yüksək inkişaf etmiş dövlətlərə göndərirlər. Bu qrup ölkələrinin ənənəvi ticarət əlaqələrində, onların əsas xammal yaxud yarımfabrikatlar təchizatçısı kimi formalaşmış roluna, yeni vəzifələrin əlavə edilməsidir.

Yüksək inkişaf etmiş ölkələr çalışırlar ki, əvvəllər yalnız aqrar təyinatlı xammal təchizatçısı olmuş bu ölkələr, indiki mərhələdə əmək və material-tutumlu «kobud» sənaye sahələrini öz ərazilərində yerləşdirsinlər. Bu meyl, bir tərəfdən xammal və ucuz iş qüvvəsi amilləri ilə izah olunsa da, hazırda əsas etibarilə ekoloji cəhətdən zərərli istehsal-xidmət dairəsi sahələrinin yüksək inkişaf etmiş etmiş ölkələrdən kənar ərazilərdə yerləşdirilməsi xəttilə bağlıdır.

***Altıncısı,*** dünya təsərrüfat həyatının beynəlmiləl bir xarakter alması, inteqrasiya və qloballaşma prosesləri, ölkələrin bir-birindən qarşılıqlı asılılığını xeyli dərəcədə gücləndirmişdir. Hesablamalar göstərir ki, bütövlükdə istər yüksək inkişaf etmiş, istərsə inkişaf etməkdə olan, istərsə də postsovet və postsosialist ölkələrinin həm ixrac etdikləri məhsulların (ixrac kvotası), həm də idxal etdikləri məhsulların (idxal kvotası) artmağa doğru meyl etməkdədir. XXI əsrin ilk onilliyində, dünya ölkələrinin istehsal etdikləri

məhsul-xidmətlərin 20 faizdən 30 faizə qədəri ixrac edildiyi kimi, təxminən bir o qədəri də başqa dövlətlərdən idxal olunur.

***Yeddincisi,*** son dövrlərdə beynəlxalq ticarət əlaqələrində əvvəllərə nisbətən daha geniş yayılmış barter əməliyyatlarının aparılmasıdır. Qarşılıqlı ticarət əlaqəsinin bu formasında, alıcılar öz təchizatçılarından tələb edirlər ki, satdıqları məhsulların əvəzinə onların müxtəlif təyinatlı mallarını alsınlar. Həmin alınan məhsullar əvəzinə satılan mallar, ola bilər alanın özü tərəfindən istifadə olunsun, yaxud konkret məhsul üçün təklif olunan mallar başqalarına satılsın.

«Malı-mala» yaxud «başa-baş» sxemi üzrə həyata keçirilən bu natural əmtəə mübadiləsi, ekvivalentlik (bərabərlik) prinsipinə əsaslanır. Müasir beynəlxalq ticarət əlaqələri və əməliyyatlarının təxminən 20 faizdən 30 faizə qədəri barter, yəni qarşılıqlı sövdələşmələr vasitəsilə reallaşdırılır. Geniş yayılmış barter tipli ticarət əməliyyatlarına xidmət göstərmək üçün xüsusi şirkətlər yaradılır, banklarda və maliyyə qurumlarında şöbələr təşkil olunur.

***Səkkizincisi,*** hazırda dünya bazarında orta-xırda ixrac və idxalla məşğul olan şirkətlərin fəaliyyətlərinin məhdudlaşdırılması prosesi müşahidə olunmaqdadır. Tədricən xarici ticarət əlaqələrinin iri və nəhəng inhisar birliklərinin əlində mərkəzləşməsi güclənməkdədir. Bu sahədə istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda, beynəlxalq bazarda geniş əlaqələrə malik trans milli korporasiyaların rolu durmadan artmaqdadır. Hələ ötən əsrin 80-ci illərindən başlayaraq, TMK-lar ABŞ-ın ümumi ixracının 84 faizini və idxalının isə 60 faizini öz nəzarətləri altına ala bilmişdilər. Sonralar güclənməkdə olan bu proses hazırda təkcə ABŞ-da deyil, dünyanın başqa ölkələrində də müşahidə olunmaqdadır.

***Doqquzuncusu,*** indi beynəlxalq bazarda rəqabət mübarizəsinin ənənəvi metod və üsulları ilə yanaşı, dəyişmiş yeni şəraitə uyğun daha düşünülmüş, habelə səmərəli formalarından istifadə olunması meylləri geniş yayılmaqdadır. Əvvəllər rəqabət mübarizəsində həlledici rol oynamış qiymətlə rəqibi tədricən zəiflətmək və sonra tamamilə bazardan çıxarmaq taktikası, artıq ikinci dərəcəli amilə çevrilmişdir. Müasir elmi-texniki nailiyyətlərdən hərtərəfli istifadə, inteqrasiya və qloballaşma şəraitində rəqabət mübarizəsinin «ağırlıq mərkəzi», yüksək keyfiyyət, texniki yenilik, etibarlılıq, dizayn xüsusiyyətləri, məhsulun ekoloji cəhətdən saflığı kimi göstəricilərinin üzərinə keçirilir.

***Onuncusu,*** beynəlxalq ticarətin yeni meyllərindən biri də ondan ibarətdir ki, hazırda dünya bazarına vaxtilə olduğu kimi ayrı-ayrı dövlətlərin öz daxili tələblərindən «artıq məhsul» çıxarması dövrü başa çatmışdır. İndi ölkələr arasındakı ticarət əlaqələrində qabaqcadan razılaşdırılmış sifarişlər sistemi, bağlanmış sazişlər və müqavilələr, habelə onların dəqiq yerinə yetirilməsi başlıca şərtdir.

Müasir mərhələdə beynəlxalq ticarət əlaqələri sistemindəki yeni meyllər sırasında xidmət (servis) ixracının sürətlə artmasını, bacarıqla təşkil olunmuş reklam işini, satışdan sonrakı xidmətin səviyyəsini, dövlət sifarişlərinin rolunu, iqtisadi əməkdaşlıqdan siyasi məqsədlər üçün istifadə etmək taktikasını da nəzərə almaq lazımdır.

**30.4.** ***«Milli iqtisadiyyat»*** anlayışı iqtisadi sistemlə bağlı olub, onu daha da konkretləşdirir. Bu mənada milli iqtisadiyyat – hər hansı bir ölkədə istehsal proseslərinin, yaxud təkrar istehsalın (istehsal, bölgü, mübadilə, istehlakın) tarixən formalaşmış konkret təsərrüfat həyatı əlaqələrinin sistemidir. Sistem dedikdə isə müxtəlif ölkələrin ABŞ və

Yaponiyanın, Çin və Hindistanın, Rusiya və Azərbaycanın kompleks, tam, bütöv halda iqtisadiyyatı yaxud təsərrüfat həyatı nəzərdə tutulur.

Nobel mükafatı layrealtı Vasili Leontyev (ABŞ) ***«milli iqtisadiyyat»*** anlayışını belə səciyyələndirmişdir: «Milli iqtisadiyyat – bir-biri ilə əlaqəli, müxtəlif istehsal, xidmət, sosial sahələrin qarşılıqlı fəaliyyət və öz-özünü tənzimləyən sistemdir.»

Müxtəlif ölkələrin ziddiyyətli inkişaf yolu təcrübəsi göstərir ki, milli iqtisadiyyat ***müstəqil*** (sağlam, sivil, mədəni), ***asılı*** və ***yarımasılı*** vəziyyətdə ola bilər. Ayrı-ayrı dünya ölkələrinin nümunəsində milli iqtisadiyyatın ***tam açıq*** (liberal), ***nisbətən açıq, yarımqapalı*** və ***tam qapalı*** (avtarkiya xarakterli) tiplərinin fəaliyyəti mümkündür. Lakin, müəyyən istisnalarla, bütövlükdə müasir dünya ölkələrinin təsərrüfat həyatı, bazar münasibətləri iqtisadi sisteminin tələblərinə uyğun olan açıq iqtisadiyyat istiqamətlidir. Bu istiqamət isə Dünya Ticarət Təşkilatının (DTT) ölkələr arasında ticarət əlaqələrini genişləndirmək, bu əlaqələrdə ayrı-seçgiliyə yol verməmək, gömrük rüsumlarını aşağı salmaq, meydana çıxan mübahisələri danışıqlar yolu ilə həll etmək, sərbəst iqtisadi zonalar yaratmaq, sərhəddyanı ticarəti genişləndirmək, zəif inkişaf etmiş ölkələrlə iqtisadi-ticarət əlaqələrində müəyyən güzəştlərə getmək kimi prinsiplərinə uyğundur.

Hər hansı bir milli iqtisadiyyatın ilk vəzifəsi, onun quruluşundan və həcmindən asılı olmayaraq, ölkənin ictimai və əhalinin şəxsi tələbatlarının dolğun, habelə vaxtında ödənilməsidir.

Ayrı-ayrı ölkələr, xalqlar və dövlətlər hələ lap qədim dövrlərdən öz daxili tələbatlarını ödəməklə yanaşı, xarici bazarlara da müxtəlif təyinatlı məhsullar çıxarmış, eyni zamanda başqa ölkələrdən də ehtiyacı olan malları gətirmişdir. Bu mənada daxili (milli) bazarla, xarici (beynəlxalq, dünya) bazarları arasında həmişə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri olmuş, həmin iqtisadi-ticarət xəttinin bəzən yüksəlişinə, bəzən isə zəifləməsinə baxmayaraq, milli iqtisadiyyatları bağlayan tellər heç zaman qırılmamışdır.

Beynəlxalq əmək bölgüsü, ixtisaslaşma və kooperasiya prinsipləri üzərində formalaşan dünya iqtisadi-ticarət münasibətləri, indiki inteqrasiya, habelə qloballaşma prosesləri axarında xüsusi bir əhəmiyyətə malikdir. Milli iqtisadiyyatın genişlənən və dinamik surətdə artan xarici iqtisadi-ticarət əlaqəli, ölkəyə təkcə valyuta qazanmaq mənasında fayda gətirməklə kifayətlənməyərək, eyni zamanda onun beynəlxalq nüfuzunun yüksəlməsi işində də mühüm rol oynayır.

Ölkələrin xarici ticarət əlaqələri elmi-nəzəri prinsiplər və əməli-praktik səmərəlilik meyarları əsasında qurulduqda, şübhəsiz milli iqtisadiyyatın makroiqtisadi inkişaf göstəricilərinə, xüsusilə ümumi daxili məhsulun (ÜDM) artım templərinə müsbət təsir göstərəcəkdir. Təsadüfi deyildir ki, bir sıra təsərrüfat həyatı optimal quruluşda (strukturda) formalaşmış dövlətlərin ümumi daxili məhsulunda ixrac məhsullarının payı 10-20 faizdən (ABŞ, Yaponiya) başlayaraq, bəzilərində 25-35 faizə (Belçika, Macarstan, İspaniya, Rusiya, Almaniya, Fransa, İtaliya, Azərbaycan, Çexiya, Yeni Zellandiya) bəzilərində isə 40-60 faizə (Kanada, Hollandiya) çatır.

Bütövlükdə dünya ticarət dövriyyəsinin milli iqtisadiyyatların ümumi daxili məhsul istehsalında xüsusi çəkisi, müxtılif beynəlxalq təşkilatların və ekspertlərin hesablamalarına görə XX əsrin 70-ci illərində 22-25 faiz, 90-cı illərində 35-36 faiz, XXI əsrin birinci onilliyində isə 40-45 faiz təşkil etmişdir. Dünya əhalisinin hər nəfərinə düşən xarici ticarət dövriyyəsinin həcmi 4.000 dollara yaxınlaşdığı halda, ayrı-ayrı ölkələrdə bu rəqəm xeyli

fərqli olaraq, ABŞ-da 9-10, Almaniyada 15-16, Yaponiyada 6-7, Fransada 11-12, Rusiyada 1,2, İngiltərədə 11-12, Azərbaycanda 3 min dollar təşkil edir.

İqtisadi baxımdan ölkənin ixracı o zaman səmərəli sayılacaqdır ki, həmin məhsullara dünya bazarında ehtiyac olsun və beynəlxalq bazardakı satış qiymətləri onların istehsalına, habelə nəqlinə sərf olunmuş xərcləri ödəsin. Beynəlxalq ticarət qaydaları müəyyən ekvivalentlik, təxmini bərabərlik prinsiplərinə əməl olunmasını tələb edir.

Ayrı-ayrı dövlətlər müəyyən hallarda beynəlxalq bazarda mövqe tutmaq yaxud öz yerlərini itirməmək üçün müxtəlif təyinatlı məhsullarını daxili (milli) bazardakından daha ucuz qiymətə satmaq taktikasından istifadə edirlər. Buna ***dempinq siyasəti*** deyilir. Lakin rəqibləri sıxışdırmaq və onları bazardan uzaqlaşdırmaq üçün tətbiq olunan belə bir üsul, şübhəsiz ki, uzun müddət davam edə bilməz. Elmi-texniki nailiyyətlərin istehsal proseslərinə tətbiqi,yeni mütərəqqi texnologiyalardan istifadə əsasında aparılan rəqabət mübarizəsi, dempinq taktikasının təsir gücünü tədricən zəiflədərək heçə endirə bilir.

Düşünülmüş xarici iqtisadi-ticarət siyasəti yeridən və optimal təsərrüfat həyatı quruluşuna malik olan dövlətlər, öz səmərəli xarici ticarət əlaqələri (ixrac, idxal, bir ölkədən alıb digərinə satmaq, yaxud reeksport) vasitəsilə aşağıdakılara nail ola bilirlər:

- yeni iş yerləri açmaq imkanları yaranır;
- yüksək keyfiyyətli məhsullar hazırlanır;
- peşəkar və yüksək ixtisaslı mütəxəssislər yetişir;
- məhsul istehsalı və xidmətlər göstərilməsi imkanları artır;
- investisiya və sərmayə qoyuluşlarına imkanlar açılır.

Bütün bu amillər isə kompleks halında ölkənin ümumi daxili məhsulunun (ÜDM) dinamik inkişafına müsbət təsir göstərir.

Müasir inteqrasiya və qloballaşma reallığında milli iqtisadiyyatların xarici iqtisadi-ticarət əlaqələrinin dinamik inkişaf mənzərəsi, öz müsbət cəhətləri ilə yanaşı, eyni zamanda ayrı-ayrı ölkələr, habelə regional qruplaşmalar, xüsusilə də yüksək inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında bir sıra problemlər yaradır. Həmin problemlər arasında milli və beynəlxalq bazar qiymətlərinin fərqlənməsini, yerli istehsalın sıxışdırılmasını, ayrı-seçgilik hallarına yol verilməsini, daxili və xarici bazarın nisbətlərinin pozulmasını, xarici borcların artmasını, ekologiyanın korlanması və ətraf mühitin qorunmasına lazımı qədər qayğı göstərilməməsini qeyd etmək olar.

Belə bir cəhət də diqqəti cəlb edir ki, əvvəllər müsbət bir hal kimi qiymətləndirilən xarici ticarət dövriyyəsində ixracın idxala nisbətən üstünlük təşkil etməsi ideyası, hazırda inflyasiya yaradan amillər sırasına aid edilir. Xalis ixrac, yəni ümumi ixrac məbləğindən idxal məbləğini çıxdıqdan sonra qalan hissə səmərəliliyi, dövlətin fiskal siyasətində müəyyən çətinliklər yaradır. Eyni zamanda, milli valyutanın başqa ölkələrin valyutasına nisbətən məzənnəsinin qaldırılması (bahalaşması) da, xalis ixracın məbləğinin azalmasına səbəb olur.

Milli iqtisadiyyatın beynəlxalq ticarət və onun dəyişkən meylləri ilə bağlı rastlaşdığı problemlər, dövlətin tarazlı iqtisadi siyasəti, habelə tənzimləmə vasitələrilə aradan qaldırılır.

Müstəqillik dövründə Azərbaycan Respublikasının xarici ticarət əlaqələri yeni prinsiplər əsasında təşkil olunaraq, dinamik bir inkişaf və yüksəliş yolu keçmişdir.

1991-2010-cu illər ərzində ölkənin xarici ticarət dövriyyəsinin ümumi həcmi dəfələrlə artaraq 27,9 milyard dollara çatmışdır. Bu xarici ticarət dövriyyəsinin 21,3 milyard dolları ixracın və 6,6 milyard dolları isə idxal olunana məhsulların payına düşmüşdür. Son illərdə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi ixracın idxalı ötməsi reallığında, müsbət saldo ilə yekunlaşmışdır. İxracın quruluşunda neft-qaz bölməsi məhsulları üstün mövqe tutur.

Xəzər dənizinin neft-qaz ehtiyatlarının Bakı-Tiflis-Ceyhan əsas neft boru kəməri vasitəsilə Avropa bazarlarına nəqli; Bakı-Tiflis-Ərzurum qaz kəmərinin inşası; Bakı – Tiflis – Kars dəmir yolunun çəkilişi; qədim «İpək yolunun» – Avropa-Qfqaz-Asiya nəqliyyat dəhlizinin (TRASEKA) fəaliyyəti, respublikanın xarici ticarət əlaqələrinin müasir səviyyəsi və gələcək perspektivlərinin daha da uğurla inkişafına etibarlı zəmanət verir.

2011-ci ilin 1 yanvarına olan məlumatlara görə xarici ticarət dövriyyəsində MDB ölkələrinin payı 15 faiz, digər ölkələrin payı isə 85 faiz təşkil etmişdir.

Xarici ticarət dövriyyəsində respublikanın xüsusi çəkisinin illər üzrə dəyişmə dinamikası aşağıdakı kimi olmuşdur:

| **Ölkələr** | **İllər** | | | |
|---|---|---|---|---|
| | **1995** | **2000** | **2005** | **2010** |
| İtaliya | 2,2 | 27,1 | 16,5 | 25,6 |
| Fransa | 0,4 | 7,7 | 6,2 | 7,1 |
| Rusiya federasiyası | 14,4 | 11,9 | 11,7 | 6,9 |
| ABŞ | 1,1 | 3,8 | 2,2 | 6,6 |
| İsrail | 0,2 | 4,8 | 2,4 | 6,5 |
| Ukrayna | 5,1 | 2,0 | 3,1 | 4,8 |
| Türkiyə | 12,8 | 8,0 | 6,9 | 3,4 |
| Çin | 0,4 | 1,0 | 3,2 | 3,3 |
| Xorvatiya | - | 0,2 | 2,1 | 2,8 |
| Sinqapur | - | 0,5 | 5,9 | 2,4 |
| Almaniya | 3,7 | 2,6 | 3,4 | 2,2 |
| Gürcüstan | 4,9 | 2,9 | 3,1 | 1,7 |
| Koreya respublikası | 0,2 | 0,2 | 0,5 | 1,3 |
| Qazaxstan | 2,9 | 2,2 | 1,3 | 1,2 |
| Kanada | - | 0,2 | 0,2 | 1,2 |
| İngiltərə | 4,4 | 2,7 | 4,5 | 1,1 |
| Yunanıstan | 0,8 | 0,9 | 1,2 | 1,0 |

Gələcəkdə ölkənin xarici ticarət əlaqələrində neft-qaz və neft emalı məhsullarının mühüm yer tutması ilə yanaşı, qeyri-neft bölməsi məhsullarının daha sanballı bir mövqe tutması istiqamətində mühüm işlər görülməkdədir.

# Mövzu 31. Dünya valyuta sistemi və onun inkişaf mərhələləri

**31.1** Dünya valyuta sisteminin mahiyyəti
**31.2** Valyuta bazarının formalaşması və fəaliyyəti
**31.3** Valyuta məzənnəsi (kursu) və onun müəyyənləşdirilməsi
**31.4** Beynəlxalq iqtisadi-ticarət əlaqələrinin maliyyələşdirilməsi
**31.5** Beynəlxalq valyuta sistemləri
**31.6** Xarici ticarət dövriyyəsinin kəsiri (defisiti) və onun aradan qaldırılması yolları

**31.1.** Müxtəlif ölkələrin alıcıları daxili bazarda əmtəə-xidmətlərdən faydalanıb istifadə etdiklərinin əvəzini milli valyuta (manat, dollar, avro) ilə ödəyib hesablaşdıqları halda, başqa dövlətlərdə alqı-satqı əməliyyatlarında isə həmin ölkələrin rəsmi pul nişanəsi sayılan valyuta tələb olunur. Rusiyada rubl, Türkiyədə lirə, Hindistanda rupi, Yaponiyada iyen, İranda rial, Norveçdə kron, Misirdə funt, Qazaxıstanda tənqə milli valyutadır. Müasir inteqrasiya və qloballaşma şəraitində Planetin 200-dən artıq ayrı-ayrı ölkələri, habelə müxtəlif regionları arasında iqtisadi-ticarət əlaqələrinin genişlənib-dərinləşməsi, beynəlxalq valyuta-kredit münasibətlərinin normal fəaliyyətindən əhəmiyyətli dərəcədə asılıdır.

***Beynəlxalq valyuta münasibətləri*** dünya ölkələri arasında qarşılıqlı faydalı iqtisadi-ticarət əlaqələrinə xidmət edən və dünya pulu vəzifəsinin konkret fəaliyyəti ilə bağlı olan iqtisadi prosesdir. Bu mürəkkəb və ziddiyyətli münasibətlər sistemi, ölkələr arasında müxtəlif istiqamətli iqtisadi-ticarət əlaqələri genişləndikcə, dövrün tələblərinə uyğun olaraq təkmilləşir, habelə daha da inkişaf edir.

Beynəlxalq valyuta münasibətləri sahəsindəki müxtəlif konkret vəzifə və tədbirlər valyuta sistemi vasitəsilə həyata keçirilir. Bu beynəlxalq valyuta sistemi, milli qanunvericilik və dövlətlərarası sazişlər əsasında fəaliyyət göstərir. ***Milli valyuta sistemi*** isə ökə qanunvericiliyi əsasında, onun valyuta münasibətlərinin təşkili formasıdır.

«Valyuta» sözünün italyanca mənası «qiymət» yaxud «dəyər» deməkdir. Müasir anlamda valyuta, hər hansı bir dövlətin rəsmi pul nişanəsi olub, daxili bazarın alqı-satqı münasibətlərinə xidmət göstərir. Ölkələrin milli valyutaları və qiymətli kağızları (səhmləri, veksellləri, çekləri) beynəlxalq valyuta bazarında müəyyən qaydalar əsasında sərbəst surətdə bir-birinə dəyişdirilir, mübadilə olunur, alınıb-satılır.

Dövlətlər arasında formalaşmış beynəlxalq valyuta münasibətləri bilavasitə yaxud dolayı yollarla ***əmtəə-xidmətlər, kapital, iş qüvvəsi*** hərəkəti dairələrini əhatə edir. Bu iqtisadi və ticarət əlaqələr sisteminin fasiləsiz bir surətdə həyata keçirilməsində, beynəlxalq valyuta-kredit münasibətləri həlledici rol oynayır.

Vaxtilə A.Smit beynəlxalq valyuta sistemini «böyük bir çarxa» bənzədərək yazmışdı ki, o nə qədər nöqsansız işləsə, dünya ölkələri arasındakı beynəlxalq ödənişlər (hesablaşmalar) bir o qədər uğurla həyata keçirilə bilər. Bu fikir, müasir intensiv beynəlxalq iqtisadi-ticarət əlaqələri və əməkdaşlığı şəraitində daha aktual səslənir. Beynəlxalq valyuta sistemi, hazırda öz üzərinə düşən vəzifələri, ödəniş və köçürmə əməliyyatlarını vaxtında dəqiqliklə həyata keçirmək üçün fasiləsiz fəaliyyət

göstərməklə yanaşı, həm də iş prosesində onun mexanizminin həyatın dəyişkən tələblərindən irəli gələn zəruri təkmilləşdirmələr istiqamətində qurulmaqdadır.

Dünya valyuta sisteminin keçdiyi təkamül və formalaşması yolu, müxtəlif inkişaf mərhələləri keçərək indiki səviyyəyə çatmışdır. Bu yolda ***milli, regional*** (bölgə), ***ümumdünya*** (beynəlxalq) valyuta sistemlərinin formalaşması, tarixi bir prosesin ardıcıl məntiqi mərhələləri kimi səciyyələndirilməlidir. Beynəlxalq valyuta sistemi XIX əsrin ikinci yarısından başlayaraq, tədricən vahid dünya bazarının formalaşması nəticəsində yaranmışdır.

Beynəlxalq valyuta münasibətləri nisbi müstəqilliyə malik olub, tədiyyə (ödəniş) balansı, müəyyən olunmuş valyuta məzənnəsi, kredit və əmanətlər üzrə nağd, habelə qeyri-nağd hesablaşmalar vasitəsilə həyata eçirilir. Eyni zamanda müxtəlif ölkələrin ikitərəfli və çoxtərəfli iqtisadi-ticarət əlaqələrinin nizamlanıb-tənzimlənməsi işində, beynəlxalq valyuta münasibətləri mühüm rol oynayır.

Mütəxəssislərin hesablamalarına görə dünyada gündəlik nağd və qeyri-nağd sövdələşmə əməliyyatlarının ümumi həcmi 1,5-2 trilyon dollara, ildə isə 400-450 trilyon dollara çatır. Həm də bu əməliyyatların həcmi və əhatə dairəsi getdikcə artmağa doğru meyl edir.

Ölkələrin milli valyutaları beynəlxalq valyuta mübadiləsində iştirakına yaxud işlənmə qaydasına görə 3 yerə bölünürlər: a) ***tam çevrilən*** (dönərli) valyutalar; b) ***qismən dönərli*** (çevrilən) ***valyutalar;*** c) ***çevrilməyən*** (qeyri-dönərli, qapalı) ***valyutalar.***

***Tam çevrilən*** və sərbəst dönərli milli valyutalar, dünyanın istənilən ölkəsinin valyutasına heç bir məhdudiyyət qoyulmadan və əngəl yaradılmadan dəyişdirilə bilər. Bu proses valyutanın ***konvertləşdirilməsi*** adlanır. Hazırda Beynəlxalq Valyuta Fondunun üzvü olan 192 dövlətdən 60-nın valyutası tam çevrilə bilən milli valyuta sayılır. Həmin valyutalar sırasında ABŞ dollarını, Avropa Birliyi (İttifaqı) ölkələrinin vahid valyutası olan avronu, İngiltərənin funt-sterlinqini, Yaponiyanın iyenini və digərlərini göstərmək olar. Dünyada gedən iqtisadi inteqrasiya prosesləri, vahid dünya təsərrüfat sisteminin formalaşması, beynəlxalq miqyasda əmtəə-xidmətlərin, kapitalın, iş qüvvəsinin hərəkətinin intensivləşməsi, tədricən bütün ölkələrin milli valyutalarının dönərli olmasını və konvertləşdirilməsini tələb edir.

Dünya ölkələrinin təsərrüfat həyatı təcrübəsində bir sıra dövlətlərin, kollektiv valyutadan, məsələn Afrika ölkələrinin fransız frankından, Cənubi Amerika ölkələrinin amerika dollarından istifadə etmək nümunəsi olmuşdur. Hazırda Qərbi Avropanın bir sıra ölkələrində avro kollektiv valyuta rolunu oynayır. Beynəlxalq valyuta münasibətlərinin inkişafı və təkmilləşdirilməsində Beynəlxalq Valyuta Fondu, Dünya Bankı mühüm rol oynayırlar.

***Qismən çevrilən*** yaxud dönərli milli valyutalara, digər dövlətlərdə dəyişdirilməsinə müəyyən məhdudiyyətlər qoyulan milli valyutalar aid edilir. Bu tipli valyutalar yalnız müəyyən ölkələrin milli valyutalarına dəyişdirilə bilər. Obyektiv və subyektiv səbəblərlə bağlı valyuta əməliyyatlarına qoyulan məhdudiyyətlər, şübhəsiz beynəlxalq valyuta münasibətlərinin genişlənməsinə mənfi təsir göstərir.

***Çevrilməyən*** yaxud qapalı valyutalar yalnız bir ölkənin daxilində tətbiq edilib, işlədilən milli valyutalardır. Həmin valyutalar beynəlxalq bazarda, başqa ölkələrin milli

vahidlərinə dəyişdirilmədiyindən, onlar qapalı bir dairə, yəni ölkənin daxili bazarları hüdudlarında alıcılıq qabiliyyətinə malik olurlar.

**31.2.** Müasir dünyanın maliyyə bazarının ən böyük tərkib hissəsi sayılan valyuta bazarları, ölkələr arasında qarşılıqlı faydalı iqtisadi-ticarət əlaqələrinin aparılmasında mühüm rol oynayırlar. Beynəlxalq əlaqələr sisteminin genişlənməsi, iqtisadi inteqrasiya prosesləri, əmtəə-xidmətlərin, kapitalın, iş qüvvəsinin hərəkətinin getdikcə intensivləşməsi, xüsusilə turizm axınının artması, hər hansı bir ölkənin milli valyutasının başqa ölkələrin valyutasına dəyişmək zərurətini irəli sürür.

Beynəlxalq miqyasda dünya ölkələrinin milli valyutaları ilə bağlı əməliyyatların çevik və fasiləsiz surətdə həyata keçirilməsi üçün xüsusi valyuta bazarının fəaliyyət göstərməsi tələb olunur. Dünya ölkələrinin milli valyutaları, müxtəlif bank sənədləri, çekləri, veksellləri, akkreditivləri ilə təyinatı üzrə əməliyyatlar aparmaq məsələləri, iqtisadi münasibətlərin xüsusi bir dairəsini (sferasını), yəni ***beynəlxalq valyuta bazarını*** formalaşdırılmışdır.

Beynəlxalq valyuta bazarının konkret bir yeri və məkanı yoxdur. Çünki, müasir elmi-texniki imkanlar və rabitə-informasiya vasitələri şəraitində, dünyanın müxtəlif ölkələri ilə əlaqələr yaradıb, istənilən maliyyə-valyuta əməliyyatlarını həyata keçirmək mümkündür. Valyuta bazarlarında alqı-satqı əməliyyatlarını kommersiya bankları, valyuta komisiyonları və məntəqələri, Beynəlxalq Bank yaxud Milli Bank, onların filialları həyata keçirir. Milli Bank eyni zamanda valyuta bazarının ümumi fəaliyyətinə nəzarət vəzifəsini (funksiyasını) yerinə yetirir.

Bununla yanaşı, dünyanın ən iri maliyyə və valyuta bazarı mərkəzləri arasında Nyu York, London, Tokio, Cenevrə, Paris, Sinqapur, Çikaqo, Boston, Roma, Moskva, Şanxay, Bombey xüsusi bir yer tutur. Rəqabət və reklam prinsipi əsasında işləyən valyuta bazarı mərkəzləri, qitələrarası vaxt qurşaqları fərqini nəzərə almaqla, gündüz-gecə 24 saat ərzində fəaliyyət göstərirlər. Valyuta bazarları fasiləsiz olaraq, aşağıdakı vəzifələri yerinə yetirir.

- Beynəlxalq əmtəə-xidmət, kapital və iş qüvvəsinin hərəkətinə xidmət göstərir, bu işdə vasitəçilik edir;
- Dövlətin milli iqtisadiyyat çərçivəsində və onun hüdudlarından kənarda pul kredit, habelə xarici iqtisadi siyasətini həyata keçirməkdə mühüm rol oynayır;
- Valyuta bazarında yaranan tələb-təklifdən asılı olaraq, milli valyutanın məzənnəsinin formalaşmasına şərait yaradır, onun risq dərəcəsinin azaldılması üçün müəyyən müdafiə mexanizmi hazırlayır.

Müxtəlif dövlətlərin valyuta siyasətinin əsasını-ölkənin milli valyutasının sabitliyinin və alıcılıq qabiliyyətinin qorunub saxlanması təşkil edir.

Azərbaycan Respublikasında xarici valyutaların alqı-satqısı Milli Bankın müəyyən etdiyi qaydada, müvəkkil banklar vasitəsilə həyata keçirilir. Ölkədə valyuta bazarının fəaliyyətini tənzimləmək məqsədilə 1994-cü ildə «Valyuta tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur.

Həmin qanun, Azərbaycan Respublikasında valyuta əməliyyatlarının həyata keçirilməsi prinsiplərini və qaydalarını; valyuta tənzimi və valyuta orqanlarının səlahiyyətlərini, habelə vəzifələrini; hüquqi və fiziki şəxslərin valyuta sərvətlərinə sahib olmaq, eyni zamanda bu sərvətlərdən istifadə etmək, onlar haqqında sərəncam

vermək sahəsində hüquqlarını, funksiyalarını, nəhayət valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyətini müəyyən etmişdir.

Azərbaycan Respublikasında 1994-cü ildən valyuta bazarının mühüm ünsürlərindən biri sayılan Bakı Banklararası Valyuta Birjası (BBVB) təşkil olunaraq fəaliyyətə başlamışdır. Ölkənin Milli Bankı, hazırda respublikada milli və xarici valyutalara olan tələbi tənzimləyir, kommersiya banklarının xarici valyutalarla apardıqları əməliyyatlara nəzarət edir. Bu tənzimləmə və nəzarət prosesi isə kommersiya banklarının müxtəlif təyinatlı əməliyyatlarının risk dərəcəsini minimum səviyyəyə endirməyə imkan verir.

Valyuta bazarında əməliyyatların maliyyələşdirilməsi müxtəlif ölkələrin bankları vasitəsilə beynəlxalq valyuta hesablaşmaları əsasında aparıldığından, burada pul vahidləri bir-birinə əks istiqamətdə olan xüsusi müxbir hesablarında saxlanılır. ***Müxbir hesabı*** – müqavilə əsasında bir bankın tapşırığı ilə öz hesabına başqa bir bankın ödədiyi hesablaşmaların göstəricisidir. Beynəlxalq hesablaşmalara görə müxbir hesabları ***«nostro»*** və ***«loro»*** kimi 2 növə ayrılır.

Bank «nostro» hesablarını, yəni bizim müxbir-banklardakı hesablarımızı xarici müxbir-banklarda açır. Əksinə, «loro» hesabları isə xarici bankların bizim banklardakı hesablarının həmin müxbir-bankların adına acılması deməkdir. Beynəlxalq hesablaşmalara görə bir bankdakı «nostro» hesabı, eyni zamanda müxbir-bank üçün «loro» hesabı rolunu oynayır.

Beynəlxalq valyuta əməliyyatlarının həyata keçirilməsində, müxtəlif ölkələrin milli valyutalarına ***qiymət qoyulması,*** yaxud onların ***kotirovkası*** müstəsna əhəmiyyətə malikdir. Valyutalara qiymətqoyma prosesi, valyuta birjalarının qiymətqoyma orqanları kimi fəaliyət göstərən xüsusi komisiyalar tərəfindən müəyyənləşdirilib həyata keçirilir. Bu məlumatlardan bank, sənaye-ticarət şirkətləri, xarici valyuta sahibləri özlərinin müxtəlif təyinatlı maliyyə əməliyyatlarında geniş istifadə edirlər.

Xarici valyutalara qiymətqoymanın ***birbaşa*** və ***vasitəli*** kimi 2 forması olsa da, lakin beynəlxalq təcrübədə birbaşa qiymətqoyma daha geniş yayılmışdır. Xarici valyutaların birbaşa qiymətləndirilməsi zamanı, həmin valyutalar milli valyuta ilə ölçülüb ifadə olunurlar. Vasitəli qiymətqoymada isə milli valyuta vahidi xarici valyutalarla ifadə olunur.

Valyuta bazarlarının ***azad*** və ***qeyri-azad*** növləri də vardır. Azad valyuta bazarında, aparılan alqı-satqı və ikitərəfli əməliyyatlarda heç bir məhdudiyyət, habelə əngəl yoxdur. Qeyri-azad valyuta bazarında isə bu əməliyyatlarla yalnız həmin işlə məşğul olmaq üçün rəsmi icazəsi olan təşkilatlar, lisenziyası olan şəxslər fəaliyyət göstərə bilərlər.

**31.3.** Beynəlxalq iqtisadi münasibətlərin «əsəb qovşağı» kimi səciyyələndirilən ***valyuta məzənnəsi (kursu),*** bir ölkənin pul vahidinin digər ölkələrin pul vahidlərində ifadə olunmuş qiymətidir. Dünya Bankının metodikasına əsasən, valyuta kursu müəyyənləşdirilərkən, müvafiq 2 ölkənin bir qrup, məsələn 15 adda məhsulunun satış qiymətləri müqayisə edilərək, onun əsasında uyğun valyuta məzənnəsi hesablanıb müəyyənləşdirilir. Məsələn, son məlumatlara görə 1 dollar = 28 rus rublına, 1 avro = 1,2 dollara, 1 manat = 0,8 dollara, 1 funt sterlinq = 1,4 dollara və sairə.

Müxtəlif dövlətlərin milli valyutalarının məzənnəsinə təsir edən amillər sırasında aşağıdakıları göstərmək olar:

- Ölkədə inflyasiya prosesinin templəri;
- Ölkənin ödəniş (tədiyə) balansının vəziyyəti;
- Müxtəlif ölkələrin bank faiz dərəcələrindəki fərqlər;
- Valyuta bazarlarının fəaliyyəti;
- Dünya bazarında ayrı-ayrı milli valyutalara olan inam;
- Beynəlxalq borc və təəhhüdlərin ləngidilməsi;
- Əhalinin alıcılıq qabiliyyəti və onların davranışlarında, zövqlərində əmələ gələn dəyişikliklər.

Beynəlxalq iqtisadi-ticarət əməliyyatları həyata keçirilərkən, 2 növ qiymətlər, – ***daxili*** və ***xarici*** qiymətlər müqayisə olunub, tutuşdurulur. Daxili qiymətlər məhsul və xidmətlərin milli dəyərləri (xərclər, üstəgəl müəyyən mənfəət) əsasında yaranır. Xarici qiymətlər isə həmin məhsul və xidmətlərin beynəlxalq dəyərləri (xərcləri və digər amilləri) əsasında yaranır. Aydındır ki, obyektiv və subyektiv səbəblər üzündən hər hansı bir ölkədə istehsal olunmuş məhsulların, habelə göstərilən xidmətlərin daxili-xarici bazarlardakı qiymətləri bir-birindən fərqli, yaxud aşağı-yuxarı olacaqdır.

Deməli, ayrı-ayrı ölkələrin müxtəlif təyinatlı məhsulları beynəlxalq bazara çıxarıldıqda (neft, mis, kofe, çay, kürü, tütün) dünya bazarında tələb-təklif əsasında formalaşan qiymətlərə satılıb-alınırlar.

Valyuta bazarındakı gündəlik məzənnələr ***«cari»*** yaxud ***«həqiqi»*** məzənnə adlanır. Milli valyutaların ***«alış»*** və ***«satış»*** məzənnələri də olur. Alış məzənnəsi konkret rezident (ölkə) bankının xarici valyutanı milli pul vahidinə aldığı məzənnəyə deyilir. Satış məzənnəsi isə Milli (Mərkəzi) Bankın xarici valyutanı ölkənin pul vahidinə satdığı məzənnədir.

Milli valyutanın məzənnəsinin ***aşağı düşməsi*** (devalvasiyası) prosesi, son nəticə etibarilə ixraca stimul, imkan yaradır, əksinə idxalı məhdudlaşdıraraq, onun səmərəliliyini zəiflədir. Bu meyl, ixracın üstünlüyünü təmin etməklə, ölkənin xarici ticarət əlaqələrində ***müsbət balans*** (saldo) vəziyyəti yaradır. Milli valyutanın ***məzənnəsinin yüksəlməsi*** (revalvasiyası), birbaşa olmasa da, uzunmüddətli perspektivdə xoşagəlməz proseslər yarada bilər. Bu halda ixracın iqtisadi səmərəliliyi azalır, idxal genişlənir, ölkəyə xarici investisiyaların axını çoxalır, xarici borcların məbləği artır. İstər milli valyutanın məzənnəsinin artması, istərsə də azalması prosesi müəyyən problemlər doğurur ki, bunlar dövlətin iqtisadi siyasəti ilə tənzimlənir.

**31.4.** Qloballaşan dünyanın intensiv beynəlxalq iqtisadi-ticarət əlaqələri müxtəlif şərtlərlə verilən kreditlər, ikitərəfli və çoxtərəfli hesablaşmalar, habelə dəyişkən bazar qiymətləri, valyuta məzənnələri əsasında bank əməliyyatları vasitəsilə həyata keçirilir.

Beynəlxalq ticarət sövdələşmələri və əməliyyatları üzrə konkret hesablaşmalarda, banklar hər hansı bir ölkəyə məhsul-xidmət ixrac edən tərəflə (şirkət, korporasiya, dövlətlə), idxal edən tərəf arasında etibarlı bir əlaqə münasibətləri yaradırlar. Məlumdur ki, çox vaxt müxtəlif yaxın-uzaq ölkələrdə yaşayıb fəaliyyət göstərən ixracçılar və idxalçılar heç bir-birini şəxsən tanımır, müxtəlif dillərdə danışır, ayrı-ayrı dinlərə sitayiş edir, nəhayət ən başlıcası isə fərqli milli valyutalardan istifadə edirlər. Ona görə də, həmin satıcılarla alıcılar arasında vasitəçilik edərək, əlaqə körpüsü

yaradan banklar, şübhəsiz beynəlxalq xarici iqtisadi-ticarət əlaqələri sisteminin ayrılmaz tərkib hissəsi kimi bu proseslərin maliyyələşdirilməsində, əməliyyatların aparılmasında mühüm rol oynayırlar.

Dövlətlərin milli valyutaları ölkə hüdudlarından kənarda özünün vəzifələrindən biri sayılan ***ödəniş*** (tədiyə) funksiyasını, daxili bazarda olduğu kimi ***birbaşa*** (bilavasitə) yerinə yetirə bilmədiyinə görə, xarici iqtisadi-ticarət əlaqələrində bir valyutanın digər bir valyutaya çevrilməsi problemi qarşıya çıxır.

Beynəlxalq iqtisadi-ticarət əlaqələrində hesablaşmaların səciyyəvi xüsusiyyətlərindən biri ondan ibarətdir ki, xarici milli valyuta ödəniş vaxtı ***nağd pul kimi yox, bank və kredit ödəniş vasitəsi, teleqraf və poçt köçürmələri, çek və veksel əməliyyatları, faks, internet və peyk sistemləri*** ilə həyata keçirilir.

Beynəlxalq valyuta əməliyyatları vasitəsilə xarici iqtisadi-ticarət əlaqələrinin maliyyələşdirilməsində ***deviz, marj, kross məzənnə, sport*** (nağd) ***məzənnə, forvard*** (müddətli) ***məzənnə, akkreditiv forma, valyuta arbitraji*** kimi iqtisadi-maliyyə anlayışlarından istifadə olunur.

***Marj*** – məzənnə fərqi mənasında işlənir. Vədəli fond əməliyyatlarında qiymətli kağızların (səhmlərin, çeklərin, veksellərin) müqavilə bağlanan günə kimi və müqavilə həyata keçirilən gün (məsələn 1 oktyabrdan – 30 oktyabra qədər) üçün məzənnə fərqi marjdır.

***Kross*** – məzənnə dedikdə, iki ölkənin milli valyutasının nisbəti əsasında, üçüncü ölkənin milli valyutasının məzənnəsinin müəyyənləşdirilməsi başa düşülür. ***Spot*** məzənnə valyuta bazarlarındakı real gündəlik bazar məzənnəsidir. ***Forvard*** məzənnə isə ticarət və alqı-satqı əməliyyatlarının iştirakçıları tərəfindən, qarşılıqlı razılaşma əsasında müəyyən olunur.

Hesablaşmanın ***akkreditiv*** forması, alıcının istəyinə əsasən bankın müəyyən məbləği, müəyyən müddətdə ödəcəyi haqqında yazılı öhdəliyidir. ***Valyuta arbitrajı,*** valyutanı ucuz olan bir bazardan alıb, başqa bazarlarda satmağa deyilir. Bu əməliyyəat müxtəlif valyuta bazarları arasında əlaqə yaratmaq və onların vahid bazara çevrilməsi prosesinə xidmət etsə də, lakin sərt valyuta nəzarəti şəraitində buna yol verilmir.

Bütövlükdə beynəlxalq hesablaşmalar üçün nəzərdə tutulmuş xarici valyuta ilə ödəniş vasitələri isə ***deviz*** adlanır.

**31.5.** Beynəlxalq valyuta məzənnəsinin tarixən 3 fərqli sistemi olmuşdur:

- «qızıl standart» valyuta sistemi;
- Bretton-Vuds yaxud tənzimlənən valyuta sistemi;
- «üzən» yaxud enib-qalxan valyuta məzənnəsi.

«Qızıl standart» valyuta sistemi. XIX əsrin ikinci yarısından başlayaraq, XX əsrin 30-cu illərinə qədər (1879-1934) davam etmiş bu sistem, qəti müəyyən olunmuş valyuta məzənnəsinə əsaslanaraq, aşağıdakı şərtlərin gözlənilməsini tələb edirdi:

a) Ölkənin milli pul vahidinin qızıl tərkibinin (məzmununun) müəyyən olunmasını;
b) Ölkə daxilindəki nağd pul kütləsi (miqdarı) ilə onun qızıl ehtiyatları arasındakı nisbətin hökmən gözlənilməsini;
c) Qızılın ölkə daxilində sərbəst surətdə alınıb-satılmasını və onun idxal, habelə ixracına heç bir məhdudiyyət qoyulmasmaını;

Ayrı-ayrı ölkələrə gəldikdə, bəzən sabit valyuta məzənnəsi adlandırılan bu sistem İngiltərədə 1820-ci illərdə, Almaniyada 1870-ci illərdə, Rusiya və Yaponiyada isə 1890-cı illərdən fəaliyyət göstərmiş, sonralar isə başqa dövlətlər tərəfindən də qəbul olunmuşdur.

1914-cü ilə qədər İngiltərənin pul vahidi sayılan 1 funt-sterlinqin qızıl tərkibi (məzmunu) 7,322 qram, alman markası 0,385 qram, amerika dolları 2,322 qram, rus rubli isə 0,774 qram xalis qızıla bərabər olmuşdu.

Bu beynəlxalq valyuta sisteminin öz dövrü üçün müəyyən üstünlükləri olmuşdur. Əvvələn, bu sistem beynəlxalq valyuta münasibətlərində qeyri-müəyyənlik və risq kimi amilləri xeyli azaltmış, iqtisadi-ticarət əlaqələrinin normal inkişafına əlverişli şərait yaratmışdı. Sonra, qızıl standart sistemi, dünya ölkələrinin tədiyə (ödəniş) balansında kəsir (defisit) və aktiv saldo bölmələrinin tarazlığını təmin edə bilmişdi.

«Qızıl standart» sisteminin formalaşması prosesi hələ XIX əsrin 20-ci illərindən başlasa da, onun əhatəli fəaliyyəti əsrin sosuna təsadüf edərək, özünü daha dolğun surətdə göstərmişdir. Həmin sistemə daxil olan İngiltərə, Almaniya, ABŞ, İtaliya, Fransa, Danimarka, Rusiya, Norveç, Hollandiya, İsveç, Yaponiya kimi ölkələrdə kağız pullar (banknotlar) sərbəst şəkildə qızıla dəyişdirilmişdi. O dövrdə ingilis funt-sterlinqi, başqa dövlətlərin milli valyutaları arasında öz qızıl tərkibinə görə daha sanballı olduğundan, yüksək qiymətləndirilmişdi. Məsələn, 1 funt sterlinq təxminən 5 dollara dəyişdirilmişdi.

Lakin tədricən dünya ölkələri arasında iqtisadi-ticarət əlaqələrinin genişlənməsi, beynəlxalq kapitalın hərəkətinin intensivləşməsi, kredit və qeyri-nağd hesablaşmaların üstünlük təşkil etməsi, nağd pul kütləsinə olan tələbin artması obyektiv surətdə qızıl standart valyuta sisteminin əsaslarını sarsıtdı. Eyni zamanda müxtəlif ölkələrin qeyri-bərabər inkişafı, inflyasiya, I dünya müharibəsinin ağır iqtisadi-sosial nəticələri də, bu prosesi xeyli gücləndirdi. Xüsusilə, 1929-1933-cü illərin dünya iqtisadi böhranı, beynəlxalq valyuta münasibətlərində yeni bir sistemə keçməyi zəruri etdi.

***Bretton – Vuds valyuta sistemi.*** Razılaşdırılmış valyuta məzənnəsi sistemi kimi səciyyələnən bu sistemin tətbiqi, beynəlxalq aləmdə valyuta münasibətləri sahəsində yeni tarixi şəraitə uyğun dəyişikliklərin əsasını qoymuşdu.

1944-cü ildə ABŞ-ın Bretton-Vuds şəhərində keçirilmiş konfransda, Beynəlxalq Valyuta Fondu yaradılaraq qərara alınmışdır ki, indidən belə beynəlxalq hesablamalarda «dünya pulu» rolunu oynayan qızılla yanaşı dollar və funt sterlinq də ehtiyat valyuta kimi eyni hüquqlu valyuta rolunda tədavüldə iştirak etsin. Həmin konfransda razılaşdırıldı ki, dövlətlərarası ödəniş və hesablaşmalarda 1 unsiya (31,1 qram) qızılın qiyməti rəsmi olaraq 35 dollara bərabər tutulsun. Bu ikili standart (qızıl-dorrar) valyuta sistemi beynəlxalq hesablaşmalarda XX əsrin 70-ci illərinə qədər davam etmişdir. Bu yeni beynəlxalq valyuta sisteminin mahiyyəti aşağıdakılardan ibarət idi:

- Qızılın dünya pulu kimi rolu saxlanmaqla yanaşı, ABŞ və İngiltərənin milli valyutaları sayılan dollar və funt sterlinq də beynəlxalq hesablaşmalarda ödəniş (tədiyə) vasitəsi kimi işlədilmək hüququ qazandı.
- Bütün ölkələrin milli valyutalarının qızıl tərkibi və onların məzənnəsi dollar əsasında müəyyənləşdirilir, dollarla qızıl arasındakı nisbət isə 1 unsiya qızıl 35

dollara, yaxud 1 dolların qızıl tərkibi (31,1 qram: 35 dollar = 0,888 qram) təxminən 1 qrama yaxın müəyyən olundu.

- Beynəlxalq hesablaşmalar yalnız xarici bankların və dövlət orqanlarının (təşkilatlarının, idarələrinin) tələbi ilə aparıla bilərdi.
- Bu sazişi imzalayan dövlətlər öz üzərlərinə götürürdülər ki, milli valyutalarının məzənnəsini birtərəfli qaydada dəyişməyəcəklər.

Birləşmiş Millətlər Təşkilatının dünyanın maliyyə-valyuta münasibətləri mexanizminə dair Beynəlxalq Valyuta Fondunun tövsiyyələri əsasında ABŞ-ın Bretton-Vudss şəhərində müəyyənləşdirdiyi yeni prinsiplər, əslində beynəlxalq valyuta sisteminin dövlətlərarası tənzimlənməsinə yönəlmişdi. Beynəlxalq valyuta sistemini daha işlək və dəyişən dünyanın real tələblərinə uyğunlaşdırmaq məqsədinə yönəldilmiş bu addım, eyni zamanda ölkələr arasında ticarət əlaqələrinin genişləndirilməsini, dövlətlərarası hesablaşmaların asanlaşdırılmasını da nəzərdə tuturdu.

Şübhəsiz, Bretton-Vuds beynəlxalq valyuta sisteminə keçid, o zaman dünyanın qızıl ehtiyatlarının 1/3 hissəsinə malik olan ABŞ milli pul vahidi dolların mövqeyini daha da möhkəmləndirir və nüfuzunu xeyli yüksəldirdi. Təsadüfi deyildir ki, o zaman Sovet İttifaqı həmin sazişi imzalamamış və ona qoşulmamışdı.

Ötən əsrin 50-60-cı illərində dünya ölkələrinin iqtisadi-sosial inkişafının ümumi mənzərəsində baş verən köklü dəyişikliklər, əvvəlki müstəmləkə ərazilərinin müstəqil tərəqqi yoluna çıxması, iqtisadi-ticarət əlaqələrinin sürətlə genişlənməsi, kapitalın hərəkətinin intensivləşməsi prosesi, Bretton-Vuds valyuta sisteminin beynəlxalq təminatçılarından (qarantlarından) biri olan ABŞ-ın ümumi ödəniş (tədiyə) balansında ciddi çətinliklər, böyük kəsir (defisit) yaratmışdı. Tədricən başqa ölkələrdə toplanmış xeyli məbləğdə kağız pullardan ibarət dollar kütləsi və onların qızıla dəyişdirilməsi nəticəsində, ABŞ-dan qızıl axınını təhlükəli bir həddə çatdırdı.

Yaranmış və getdikcə kəsginləşən belə bir xoşagəlməz maliyyə vəziyyətinin perspektivdə daha mürəkkəb problemlər yaradacağının, habelə ABŞ-ın qızıl ehtiyatlarının başqa ölkələrə axınının qarşısını almaq üçün qəti tədbirlər həyata keçirildi. 1971-ci il avqust ayının 15-də ABŞ prezidenti Riçard Nikson, dolların qızıla bərabər tutulmasının qarşısını aldı. ABŞ hökuməti, dolların qızıla müəyyən nisbətdə bərabər (ekvivalent, paritet) tutulması qaydasından rəsmi imtina etdi. Beləliklə, 27 il davam etmiş 35 dolların 1 unsiya qızıla dövlətlərarası hesablaşmalarda sərbəst surətdə, rəsmi qaydada dəyişdirilməsi ləğv edildi.

Sonrakı 1971-1975-ci illərdə, Bretton-Vuds beynəlxalq valyuta məzənnə sistemi tamamilə dağıldığından dünya iqtisadi-ticarət əlaqələrində bir sıra çətinliklər yarandı.

Nəhayət, 1976-cı ildə Yamayka dövlətinin paytaxtı Kinqston şəhərində keçirilmiş beynəlxalq konfransda, rəsmi razılaşmalar əsasında beynəlxalq valyuta məzənnəsinin ***«üzən»,*** yaxud ***«enib-qalxan»*** yeni sistemi qəbul olundu. Bu sistemə əsasən qızılın qiyməti, adi əmtəələrdən biri kimi beynəlxalq bazarda, həmin qiymətli metala olan tələb-təklifdən asılı olaraq formalaşmalı idi. «Üzən», yaxud «idarə olunan» valyuta məzənnəsi sistemi Bu beynəlxalq valyuta məzənnə sisteminin tətbiq edilməsi, dünyanın dəyişmiş iqtisadi-ticarət və valyuta münasibətləri şəraitində, dövlətlərə daha çevik tədbirlər həyata keçirmək, ölkənin tədiyə balansının tarazlığını təmin etmək, milli maliyyə sistemlərinin işini təkmilləşdirmək imkanı yaradırdı.

Dollar və funt sterlinq kimi milli valyutaların qızıla uyğunlaşdırılması (bərabərləşdirilməsi) prinsipi ləğv edildikdən sonra Beynəlxalq Valyuta Fondunun üzvü olan dövlətlərin ümumi qızıl ehtiyatlarının 1/6 hissəsi həmin ölkələrə qaytarıldı. Eyni zamanda yerdə qalan qızılın 1/6 hissəsi valyuta hərracında satıldı. İlk vaxtlar bu hadisə sərbəst bazarda qızılın qiymətinin artmasına səbəb oldu.

O dövrdə Beynəlxalq Valyuta Fondunun təklif etdiyi metodikaya əsasən, beynəlxalq hesablaşmalar üçün sərbəst valyutanın dəyərininn quruluşu – ABŞ, Almaniya, Yaponiya, İngiltərə və Fransa kimi 5 aparıcı dövlətin «valyuta səbəti» əsasında, onların bütün ehtiyat aktivləri bazasında müəyyənləşmişdi. Bu ümumi valyuta səbətində ABŞ dollarının xüsusi çəkisi 42%, Almaniya markasının payı 14%, Yaponiya iyeninin payı 15%, İngiltərə funt sterlinqinin payı 12%, Fransa frankının payı 12% müəyyənləşdirilmişdi. Sonralar isə bu göstərici 4 ölkənin valyutası əsasında hesablanır və hazırda onların hər birinin xüsusi çəkisi təxminən belədir: dollar – 45%, evro – 29%, iyen – 15%, funt sterlinq – 11%.

***Beynəlxalq valyuta*** – dövlətlərarası hesablaşma vahidi hesab olunur. Bu valyuta Beynəlxalq Valyuta Fondu tərəfindən buraxılır və dövlətlərarası iqtisadi-ticarət əlaqələrində qeyri-nağd şəkildə, ölkələrin xüsusi hesablarına qeyd olunur. İndi SDR (Spesial Dravinq Riqths), yəni xüsusi əvəzləmə hüququ (XƏH) yaxud xüsusi borcalma hüququ eyni anlayış kimi istifadə olunur. Bu anlayış qızıl deviz standartı (qızılın dollarla ölçülməsi) əvəz etmişdir. Hazırda SDR (XƏH) dəyərcə təxminən 1,2-1,3 dollara bərabərdir.

«Valyuta səbəti» anlayışından, bir ölkənin valyutasının başqa ölkələrin valyutası ilə müqayisəsi üçün istifadə olunur. Deməli, valyuta səbəti bir ölkənin valyutasının müəyyən miqdarda digər valyutalarla müqayisədə, onun orta məzənnəsini hesablamaq üçün ölçü üsuludur.

Məsələn, 15 adda ərzaq və sənaye məhsullarının əldə olunması, yaxud müxtəlif ölkələrin 100 milli valyutasına hansı məhsullardan eyni miqdarda almağın mümkün olması, həmin ölkələrin valyutalarının hesablaşma nisbətinin şərti üsullarındandır.

Zaman keçdikcə, «üzən» yaxud «idarə edilən» beynəlxalq valyuta məzənnə sisteminin üstün cəhətləri ilə yanaşı, bir sıra nöqsanları da meydana çıxdığından, onu təkmilləşdirmək, dəyişmək, hətta tamamilə ləğv edərək yenidən əvvəlki sistemlərə qayitmaq haqqında elmi-nəzəri dairələrdə mübahisələr, indi də davam etməkdədir. Lakin, hələlik bu sistemdən beynəlxalq hesablaşmalarda istifadə olunmaqdadır.

**31.6.** Bütün dövlətlərin beynəlxalq əmək bölgüsünün prinsiplərinə və ölkənin zəruri tələbatlarının ödənilməsinə uyğun apardıqları xarici iqtisadi-ticarət münasibətləri, müasir inteqrasiya, habelə qloballaşma prosesləri şəraitində xüsusi bir əhəmiyyət kəsb edir. Beynəlxalq ticarət münasibətlərində:

– ixrac ölkə daxilində istehsal olmuş və onun hüdudlarından kənarda, xaricdə satılan əmtəə-xidmətlərdir.
– idxal xaricdə istehsal olunmuş və ölkəyə gətirilərək daxildə satılan müxtəlif təyinatlı əmtəə-xidmətlərdir.
– xalis ixrac ölkənin ixracının dəyəri ilə onun idxalının dəyəri (məbləği) arasındakı fərqdir ki, eyni zamanda ticarət balansı adlanır.

– ticarət balansı ölkənin ixracının məbləği ilə idxalının dəyəri (məbləği) arasındakı fərqdir ki, eyni zamanda xalis ixrac adlanır.
– ticarət kəsiri (defisiti) ölkənin idxalının onun ixracı üzərində artıqlığıdır.
– ticarət profisiti ölkənin ixracının onun idxalı üzərində artıqlığıdır.
– balanslaşdırılmış ticarət ixracın idxala bərabər (ekvivalent) olduğu haldır.

Ölkələrin beynəlxalq ticarət əlaqələrinin ümumi həcminə, onun idxalına, ixracına və xalis ixracına təsir edən bir sıra daxili, habelə xarici amillər vardır. Həmin amillər sırasında aşağıdakıları göstərmək olar: a) ölkə alıcılarının yerli (daxili) və xarici (başqa ölkələrdən gətirilən) əmtəələrə, habelə xidmətlərə olan marağı, zövqləri; b) yerli və xarici əmtəələrin, xidmətlərin qiymətləri; c) inhisarların-şirkətlərin (fiziki və hüquqi şəxslərin) milli və xarici valyuta ilə alış-veriş qərarına təsir edən valyuta məzənnəsinin səviyyəsi; ç) yerli və xarici alıcıların gəlirləri; d) əmtəələrin və xidmətlərin bir ölkədən digərinə daşınması xərcləri; e) dövlətin beynəlxalq siyasət xətti.

Bu müxtəlif amillər kompleksinin, ayrı-ayrı ölkələrin konkret timsalında dəyişməsi intensivliyi, beynəlxalq ticarətin həcmi dinamikasına, onun ixrac-idxal əməliyyatlarının qarşılıqlı nisbətinə bəzən müsbət, bəzən də mənfi təsir göstərir.

Hər hansı bir ölkənin xarici ticarət balansı ***tarazlı*** və ***aktiv*** istiqamətdə formalaşıb inkişaf edərsə, şübhəsiz bəzi istisnalarla bu hal, ümumiyyətlə yaxşı meyl kimi qiymətləndirilməlidir. Lakin ölkənin xarici ticarət balansında kəsir (defisit) yarandıqda və belə bir vəziyyət obyektiv-subyektiv səbəblərlə bağlı müvəqqəti deyil, uzunmüddətli prosesə çevrilərsə, şübhəsiz onu aradan qaldırmaq istiqamətində, dövlət tərəfindən müəyyən tədbirlər həyata keçirilməlidir.

Bu yolda ***ilk addım***, dövlətlərin öz daxili valyuta ehtiyatlarından istifadə etmələridir. ***Sonra*** dövlətlər beynəlxalq və xarici banklarda yerləşdirdikləri, əmanət kimi saxladıqları valyuta ehtiyatlarından, xarici ticarət dövriyyəsində yaranmış kəsiri ödəmək üçün faydalana bilərlər. ***Daha sonra,*** hər hansı bir ölkə öz xarici ticarət balansında yaranmış borcunu, kəsirini ödəmək üçün başqa dövlətlərdən, yaxud beynəlxalq maliyyə təşkilatlarından, ayrı-ayrı banklardan borc (kredit) ala bilər. ***Nəhayət,*** yaranmış konkret vəziyyəti hərtərəfli nəzərə alıb təhlil etmək əsasında, dövlət xarici iqtisadi-ticarət əlaqələrində müəyyən həvəsləndirici və məhdudlaşdırıcı (valyuta, gömrük, kvota, qadağan metodları) tədbirlər həyata keçirməklə, vəziyyəti tənzimləyir.

Həmin tədbirlər sırasında, dövlətin çevik gömrük siyasəti, gömrük rüsumları və tarif dərəcələrindəki dəyişikliklər mühüm rol oynayır. Dövlət rüsumlarındakı dəyişikliklər, ölkəyə idxal olunan məhsullar, yaxud müəyyən qrup əmtəə-xidmətlər üçün ödənişlərdəki enib-qalxmaları nəzərdə tutur. Tarif dərəcələri, müəyyən əmtəə-mal qrupları üzrə vergi ödənişlərində yaranmış vəziyyətlə bağlı dəyişiklikləri əhatə edir. Qadağan tədbirlərinə siyasi, iqtisadi, dini, sanitar-gigiena, mənəvi-əxlaqi səbəblərlə yanaşı, başqa ölkələrdən əmtəə-xidmətlərin idxalına sədd qoyulması amili də daxildir. Dövlətin kvota siyasəti, ölkənin ixrac-idxal əməliyyatları sahəsində müəyyən həcm məhdudiyyətləri qoyulması ilə bağlıdır.

Mütəxəssislər tərəfindən ayrı-ayrı ölkələrin həyata keçirdikləri bu tədbirlər sistemi birmənalı qiymətləndirilib qəbul olunmasa da, lakin ölkələrin əksəriyyəti lazım bildikdə həmin vasitələrdən faydalanırlar.

Normal inkişaf edən və düzgün xarici iqtisadi əlaqələr sistemini qurmuş dövlətlər üçün xarici ticarət balansındakı kəsir problemi xoşagəlməz bir hal olsa da, müasir dünyanın bir çox ölkələri, o cümlədən də ABŞ üçün səciyyəvi hadisədir. XXI əsrin birinci onilliyində ABŞ-ın xarici ticarət balansının kəsiri (- saldosu) 500 milyard dollara çatmış, hazırda isə 1 trilyon dolları ötür. Belə bir meylin yaxın gələcəkdə də davam edəcəyinin proqnozlaşdırılması, təkcə ABŞ-ın milli iqtisadiyyatı üçün deyil, qloballaşan dünyanın beynəlxalq iqtisadi-ticarət və beynəlxalq valyuta hesablaşmalarında müəyyən çətinliklər yarada bilər.

# Mövzu 32. Bəşəriyyətin qlobal sosial-iqtisadi problemləri

**32.1** Milli iqtisadiyyatların inteqrasiyası və vahid dünya təsərrüfat sisteminin formalaşması
**32.2** Bölgə (region) iqtisadi qruplaşmaları və onların formaları
**32.3** Bəşəriyyətin müasir sosial-iqtisadi problemləri və onların həlli yolları

**32.1.** XX əsrin sonları və XXI əsrin əvvəlləri milli iqtisadiyyatların yüksək templərlə irəliləyib inkişaf etməsilə yanaşı, eyni zamanda Planet miqyasında inteqrasiya meyllərinin xeyli güclənməsi, habelə tədricən vahid dünya təsərrüfat sisteminin formalaşması ilə səciyyələnir.

Müasir dünya təsərrüfatı vaxtilə olduğu kimi əsasən öz-özünü təmin etmək prinsipi üzərində deyil, getdikcə daha çox sıx iqtisadi əməkdaşlıq şəraitində qurulub fəaliyyət göstərməkdədir. Müxtəlif ölkələr arasında siyasi-diplomatik, iqticadi-ticarət, mədəni-mənəvi əlaqələr sistemi intensiv surətdə həm eninə, həm də dərininə inkişaf edərək, yeni-yeni sahələri əhatə etməkdədir. Bu çoxtərəfli əlaqələr və əməkdaşlıq sistemində, şübhəsiz iqtisadi münasibətlər aparıcı rol oynayır.

Milli təsərrüfatların iqtisadi əməkdaşlığı, ayrı-ayrı ölkələr arasında fasiləsiz surətdə davam edən qarşılıqlı faydalılıq əsasında normal surətdə əmtəə-xidmətlərin, kapitalın, iş qüvvəsinin hərəkətini (axınını) nəzərdə tutur. Bu mənada, müasir inteqrasiya və qloballaşma şəraitində fəaliyyət göstərən dünya iqtisadiyyatı, tam bir sistem yaxud kompleks, ***neoiqtisadiyyat, ekoiqtisadiyyat*** kimi xarakterizə olunur.

***İqtisadi inteqrasiya*** – ayrı-ayrı ölkələrin təsərrüfat həyatının (milli iqtisadiyyatların) əməkdaşlıq münasibətlərinin genişlənib-dərinləşməsi yolu ilə onların qismən, yaxud tam halda birgə fəaliyyətidir.

***Qloballaşma*** isə milli iqtisadiyyatların sıx qarşılıqlı əməkdaşlığı, onların bir-birilə qaynayıb-qarışması əsasında, vahid dünya təsərrüfat sisteminin formalaşması prosesidir.

Beynəlxalq əmək bölgüsünün dərinləşməsi, istehsal sahələrinin kooperasiyası və ixtisaslaşmanın təkmilləşdirilməsi, ölkələr arasında iqtisadi-ticarət, maliyyə-kredit münasibətlərinin geniş şəbəkəsinin yaradılması, bütün dünyada iqtisadi inteqrasiya proseslərini obyektiv tarixi zərurətə çevrilmişdir.

Xüsusilə son dövrlərdə Planet miqyasında vahid informasiya-məlumat və rabitə sistemlərinin yaradılması, ölkələrin iqtisadi-sosial inkişaf göstəricilərinin yaxınlaşması meyli, əmtəə-xidmətlərə vahid standartların tətbiq olunması, xammal-enerji ehtiyatlarının, iqtisadi resursların dünya miqyasında qeyri-bərabər yerləşməsi, iqtisadi-ticarət münasibətlərinin əvvəllərə nisbətən xeyli sərbəstləşdirilməsi (liberallaşdırılması), gömrük-vergi sahəsində müxtəlif çətinliklərin aradan qaldırılması istiqamətindəki irəliləyişlər, tədricən dövlətlərin «açıq iqtisadiyyat» modelinə keçməsi, şübhəsiz inteqrasiya, habelə qloballaşma proseslərinə yeni bir təkan vermişdir.

Hazırda yeni keyfiyyətlər, özünəməxsus cəhətləri ilə davam edən iqtisadi inteqrasiya və qloballaşma proseslərinin obyektiv təhlili göstərir ki, bu hadisənin müsbət meylləri ilə yanaşı, bütövlükdə milli iqtisadiyyatın təhlükəsizliyi, yerli istehsal sahələrinin rəqabət qabiliyyəti, daxili bazarla xarici bazarın optimal nisbətləri, ixrac-idxal imkanları, beynəlxalq bazarın dəyişkən konyukturası, enib-qalxan qiymətlərlə bağlı bir sıra

çətinlikləri də vardır. Bu ziddiyyətli, lakin qanunauyğun prosesin doğurduğu müxtəlif istiqamətli sosial-iqtisadi problemlərin ən optimal variantı, dünya ölkələrinin genişlənib-dərinləşən iqtisadi münasibətlərinin ekvivalentlik prinsipləri təməlində, qarşılıqlı faydalılıq istiqamətində qurulmasıdır.

Müasir dünyanın ***investisiya – istehsal – xidmət – təchizat – satış*** dairəsi sahələrində «iqtisadiyyatın hərəkətverici qüvvəsi» sayılan və təsərrüfat həyatının beynəlmilləl bir xarakter almasında transmilli korporasiyalar (TMK) həlledici rol oynayırlar. İlk addımlarını hələ XIX əsrin sonu və XX əsrin əvvəllərindən atmağa başlamış inhisarların bu forması, böyük bir inkişaf yolu keçərək, həqiqətən dünya iqtisadiyyatının ən güclü amilinə çevrilmişlər. Trans milli korporasiyalar beynəlxalq əmək bölgüsü və dünya miqyasında ixtisaslaşma əsasında, bir sıra xarici ölkələrdə aktivləri (vəsaitləri) olan beynəlxalq tipli inhisar birlikləridir.

BMT-nın təsnifat və meyarlarına görə TMK-ın ən azı dünyanın 6 ölkəsində filialı (şöbəsi) olmalı, illik satış-ticarət dövriyyəsinin həcmi 100 milyon dolları ötməli, istehsal etdiyi məhsul-xidmətlərin 15-20 faizi ixrac xarakteri daşımalıdır. TMK-ın investisiya, istehsal-xidmət, satış fəaliyyəti həmişə beynəlxalq aləmlə bağlı olmuşdur. Onlar dünyanın müxtəlif qitələrinin həm yüksək inkişaf etmiş, həm inkişaf etməkdə olan, həm də postsosialist və postsovet ölkələrində, o cümlədən Azərbaycan Respublikasında istehsal-xidmət dairəsinin müxtəlif sahələrində öz fəaliyyətlərini genişləndirirlər.

Transmilli korporasiyaların iqamətgahı hər hansı bir ölkədə, məsələn ABŞ və Yaponiyada, Almaniya və Kanadada, İngiltərə və Fransada, İtaliya və Rusiyada yerləşə bilər. Lakin onların fəaliyyət dairəsi bütün dünya ərazisi olduğundan, TMK-ın geniş yayılmış şəbəkəsini Planeti bürümüş «hörümçək toruna» bənzədirlər.

Son məlumatlara görə hazırda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən TMK-ın sayı 70 mindən, onların filiallarının sayı isə 850 mindən çoxdur. Bu korporasiya və onların fililiallarında işləyənlərin sayı 150 milyon nəfəri ötür. TMK-ın illik dövriyyələrinin ümumi həcmi trilyonlarla dollarlarla hesablanır. Bu beynəlxalq birliklər dünya sənaye məhsulu istehsalının 40 faizdən və ticarət dövriyyəsin 50 faizdən çoxunu öz nəzarətlərində saxlayırlar. Beynəlxalq bazarda buğda satışının 70 faizi, neft satışının 75 faizi, sink və qalay satışının 80 faizi, kofe və qarğıdalı satışının 90 faizi TMK-ın əlində, yaxud nəzarətindədir. «Ceneral Eliktrik», «Mikrosoft», «Royal Ditç Şell», «Nippon», «Toyota Motor», «Ekkson», «Coca-cola» kimi nəhəng TMK-ın kapitallarının ümumi həcmi və illik gəlirləri, bir sıra dövlətlərin ümumi daxili məhsulundan və büdcə gəlirlərindən çoxdur.

Müasir dünyanın iqtisadi inteqrasiya və qloballaşma proseslərinin fəal iştirakçısı, həm də aparıcı qüvvəsi sayılan TMK-ın geniş investisiya imkanları, texniki-texnoloji üstünlükləri, yüksək ixtisaslı peşəkar kadr potensialı, nizama salınmış təchizat-satış əlaqələri, zəngin idarəetmə təcrübəsi, gələcəkdə onların beynəlxalq aləmdə tədricən formalaşan vahid dünya təsərrüfat sistemində daha sanballı bir rol oynayacağını proqnozlaşmağa əsas verir.

**32.2.** Mürəkkəb və çoxcəhətli bir proses olan iqtisadi inteqrasiya 2 istiqamətdə aparıla bilər. ***Birinci istiqamət*** ərazi cəhətdən yaxın (həmsərhəd, qonşu) ölkələrin ayrı-ayrı şirkətlərinin, korporasiyalarının bir-biri ilə müəyyən razılaşmalar əsasında işdüzar

əməkdaşlığı və onların xaricdə öz filiallarını (şöbələrini) təşkil edərək, fəaliyyətə başlamalarıdır. ***İkinci istiqamət*** isə müxtəlif dövlətlər arasında, rəsmi səviyyədə olan inteqrasiya prosesləridir ki, bu müəyyən iqtisadi birliklər, yaxud qurumlar yaradılması və razılaşdırılmış iqtisadi siyasət vasitəsilə həyata keçirilir.

Dünyanın müxtəlif ölkələrinin istehsal və xidmət təyinatlı şirkətlərinin qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri, bu münasibətlərin gələcək perspektivləri dövlət, bəzi hallarda isə dövlətlərin tabeliyində olmayan, nisbətən müstəqil fəaliyyət göstərən qrumların yaradılması zəruriliyini irəli sürmüşdü. Bu istiqamətdə olan əməkdaşlıq xətti, ölkələr arasında ***əmtəə-xidmətlərin, kapitalın, iş qüvvəsinin*** razılaşdırlmış hərəkətinə daha əlverişli imkanlar yaradırdı.

Ölkələrarası çoxcəhətli əməkdaşlıq əlaqələrinin genişlənib-dərinləşməsi prosesi isə nəticə etibarilə region (bölgə) və daha iri ərazilərdə mühüm birgə əməkdaşlıq üçün güniş üfüqlər açır. Eyni zamanda ölkələr arasında yeni keyfiyyətləri ilə seçilən inteqrasiya prosesləri, təkcə iqtisadi fayda deyil, həm də xalqlara qarşılıqlı inam, vahid məkan psixologiyası aşılayaraq, onların gələcək iqtisadi, mədəni, siyasi birliyi üçün etibarlı bir zəmin yaradır. Beləliklə, milli dövlət (ölkə) mənafeyi regional mənafe xarakteri alaraq, qlobalı miqyasda, tədricən dünyanın (bəşəriyyətin) ümumi tərəqqisinə xidmət edir.

Beynəlxalq iqtisadi inteqrasiya qruplaşmaları dünyanın müxtəlif qitələrində ərazi prinsipi üzrə yaranaraq, müxtəlif formalarda meydana çıxmışdır. İqtisadi inteqrasiya prosesi öz tarixi təkamülündə aşağıdakı formalardan, yaxud inkişaf mərhələlərindən keçir.

**1.** İqtisadi inteqrasiyanın ən bəsit və sadə forması, ***sərbəst yaxud azad*** (xüsusi) ***ticarət zonasıdır.***

Bu formada birliyin üzvü olan ölkələr, həmin zona çərçivəsində öz aralarındakı ticarət üçün gömrük tariflərini ləğv edir və bu sahədə olan digər məhdudlaşdırıcı tədbirləri aradan qaldırırlar. İnteqrasiyanın bu forması vaxtilə Avropa İttifaqı (Birliyi) dövlətləri arasında həyata keçirilmişdir. Hazırda isə Amerika qitəsinin NAFTA və Cənub-Şərqi Asiyanın ASEAN iqtisadi inteqrasiya qruplaşmaları bu formadan istifadə edirlər.

**2.** İqtisadi inteqrasiyanın iknci forması ***gömrük ittifaqıdır.*** Bu forma, sərbəst ticarət zonalarının fəaliyyətilə yanaşı, birliyə daxil olan dövlətlərin üçüncü ölkəyə qarşı vahid gömrük və xarici iqtisadi siyasət xəttinin həyata keçirilməsini nəzərdə tutur. Qeyd etmək lazımdır ki, həm sərbəst ticarət zonası, həm də gömrük ittifaqı formalarında iqtisadi inteqrasiya prosesləri yalnız mübadilə, ticarət dairəsini əhatə edir.

**3.** ***«Ümumu bazar»*** bölgə (regional) iqtisadi inteqrasiya qruplaşmasının daha mürəkkəb və təkmilləşdirilmiş bir formasıdır. Bu forma, azad ticarət və vahid gömrük tarif dərəcələri ilə yanaşı, kapitalın, habelə iş qüvvəsinin bir ölkədən digərinə axınını, eyni zamanda ölkələrin razılaşdırılmış iqtisadi siyasət yeritmələrini nəzərdə tutur. «Ümumi bazar» forması, bu birliyə daxil olan dövlətlərin sosial və bölgə problemlərinə dair birgə fəaliyyət orqanları yaratmaq hüququnu, həmin orqanların idarəetmə, habelə nəzarət vəzifələrini də müəyyənləşdirir.

**4.** Dövlətlərarası iqtisadi inteqrasiyanın sonrakı forması ***iqtisadi və valyuta ittifaqıdır.***

Bu forma əvvəlkilərin bütün şərtlərini özündə birləşdirməklə yanaşı, ümumi iqtisadi, maliyyə-valyuta siyasəti yeridilməsi, habelə vahid pul vahidinin tətbiq edilməsi (avro) prinsiplərini nəzərdə tutur. Eyni zamanda iqtisadi inteqrasiya əməkdaşlığını uğurla həyata

keçirmək məqsədilə, müvafiq idarəçilik qurumlarının, məsələn dövlət başçıları şurası, mərkəzi bank və digərlərinin formalaşmasına zəmin hazırlanır.

**5.** Tam iqtisadi və siyasi inteqrasiya forması mərhələsində, ölkələr arasında artıq yaradılıb fəaliyyət göstərən vahid bazar məkanının, tədricən ***iqtisadi*** və ***siyasi məkana*** çevrilməsi prosesi nəzərdə tutulur. Bu mərhələdə təkcə müəyyən razılaşmalar deyil, qrup dövlətlərin iqtisadi siyasətində eynilik olması, qanunvericilik bazasının yaxınlaşması kimi şərtlər tələb olunduğundan, onun gələcəkdə həyata keçirilməsi, şübhəsiz müəyyən çətinliklərə bağlıdır. Bu forma, vahid federativ yaxud konfedrasiya tipli dövlət yaradılmasına aparan bir yol kimi qiymətləndirilməlidir.

Müasir mərhələdə, regional və bir qrup ölkələrin iqtisadi inteqrasiyası proseslərinə nümunə kimi aşağıdakıları göstərmək olar:

**a)** ***Avropa İttifaqı (Birliyi).*** XX əsrin 50-ci illərində ideyası irəli sürülmüş və ilk ünsürləri formalaşmağa başlamış Avropa ölkələrinin bu inteqrasiya birliyi, 1957-ci ildə rəsmiləşdirilmişdir. Həmin ilin mart ayında Romada, Avropanın 6 ölkəsi (Almaniya, Fransa, Belçika, Niderland, İtaliya, Lüksemburq) tərəfindən imzalanmış müqaviləyə əsasən Avropa İqtisadi Birliyi təşkil olunmuşdur. Bu müqavilə 1958-ci il yanvarın 1-dən etibarən qüvvəyə minmişdir. «Altılar İttifaqı» və «Ümumi Bazar» adlandırılan bu beynəlxalq inteqrasiya qrupuna sonralar müxtəlif vaxtlarda başqa dövlətlər də daxil olmuşlar.

1993-cü ilin 1 noyabrından Avropa İttifaqı (Birliyi) kimi tanınan bu iqtisadi qrupa hazırda 27 ölkə, o cümlədən Avropanın İngiltərə, Danimarka, İrlandiya, Yunanıstan, İspaniya, Portuqaliya, Avstriya, İsveç, Finlandiya, Malta, Kipr kimi dövlətləri ilə yanaşı, keçmiş sosialist ölkələri və sovet respublikaları (Polşa, Macarstan, Latviya, Litva, Estoniya, Çexiya, Slovakiya, Sloveniya, Ruminiya, Bolqarıstan) daxildir.

Öz inkişafında müxtəlif tarixi mərhələlər keçmiş və 2002-ci ilin 1 yanvarından tədricən vahid valyuta kimi qəbul olunmuş avronun tətbiqinə başlamış Avropa İttifaqı, müasir dünyanın iqtisadi həyatında mühüm bir rol oynayaraq, öz inkişafının siyasi birliyinə doğru irəliləyir. Son məlumatlara görə bu birliyin ərazisi 4,34 milyon kv.km., əhalisi 500 milyon nəfər, ümumi daxili məhsulunun həcmi 15 trilyon dollardan çoxdur.

**b)** ***Şimali Amerika azad ticarət birliyi. (NAFTA)*** ABŞ, Kanada, Meksika kimi dövlətlərin daxili olduğu bu iqtisadi inteqrasiya qrupu 1994-cü ildən fəaliyyətə başlamışdır. Uzun illərdən bəri Şimali Amerikanın 3 dövləti arasında şirkətlər və istehsal-xidmət dairələri sahələri səviyyəsində aparılmış çoxcəhətli iqtisadi-ticarət əlaqələri, həmin ölkələr arasında rəsmi saziş imzalandıqdan sonra artıq dövlətlər səviyyəsində həyata keçirilməyə başlanmışdır.

Bu inteqrasiya qrupunun fərqli cəhəti, ABŞ və Kanada kimi yüksək inkişaf etmiş ölkələrin, öz iqtisadi-sosial göstəricilərinə görə onlardan xeyli geridə qalan Meksika kimi bir dövlətlə birlik təşkil etməsidir. Lakin bu birliyə daxil olmuş ölkələrin ümumi maraqları ilə yanaşı, hər birinin xüsusi milli mənafe problemləri də olmuşdur. ABŞ regionda öz geosiyasi mövqeyini daha da möhkəmlətmək, Kanada isə Meksika vasitəsiylə Cənubi Amerika ölkələri bazarına çıxmaq məqsədi güdmüşdürsə, Meksika ilk növbədə istehsal-xidmət dairələrinin modernləşdirilməsində qonşu dövlətlərin investisiya imkanlarından faydalanacağı nəzərdə tutmuşdu.

Perspektivdə NAFTA daxilində əməkdaşlığı genişləndirməklə yanaşı, başqa Cənubi Amerika ölkələrini də cəlb etməklə, Kanadadan başlamış Çiliyə qədər uzanan Şimali,

Mərkəzi, Cənubi Amerika ərazisində Ümumiamerika (Panamerika) sərbəst ticarət zonası yaradılmalıdır.

NAFTA inteqrasiya qrupu ölkərinin ümumi ərazisi 21,2 milyon kv.km., əhalisi 450 milyon nəfər olub, ümumi daxili məhsulunun həcmi 16 trilyon dolları ötür.

**c) *Cənubi Amerika Ümumi Bazarı (MERKOSUR).*** Zəngin iqtisadi resurslara, geniş əraziyə malik olub, 34 müstəqil dövlətin yerləşdiyi Cənubi Amerikada iqtisadiyyatı dirçəldib yüksəltmək məqsədilə, hələ XX əsrin 60-cı illərindən müəyyən qruplaşmalar yaratmağa səylər göstərilmişdi. Latın Amerikası Azad Ticarət Birliyini, onun 1980-ci ildə Latın Amerikası inteqrasiyası Birliyinə çevrilməsini, Karib Azad Ticarət Birliyini, sonralar onu əvəz etmiş Karib Ümumi Bazarını və başqalarını bu istiqamətdəki addımlara nümunə göstərmək olar. Lakin bu xoşməramlı niyyətlərin heç biri, istər həmin ölkələrin sənaye-maliyyə əməkdaşlığında, istərsə də xarici iqtisadi-ticarət əlaqələrində dönüş yarada bilməmişdir.

Cənubi Amerikada inteqrasiya prosesləri real şəkildə 1991-ci ildə təşkil olunmuş və 1995-ci ildən rəsmiləşdirilmiş MERKOSUR-un (Cənubi Amerika Umumi Bazarı, yaxud Cənub Konusu) fəaliyyəti ilə bağlıdır. Bu regional inteqrasiya qrupuna Argentina, Braziliya, Paraqvay və Uruqvay daxildilər. Həmin dövlətlərdə Cənubi Amerika əhalisinin 45%-i yaşayır və bu regionun ümumi daxili məhsulunun 50%-dən çoxu istehsal olunurdu. Yüksək templərlə inkişaf edən bu region ölkələrinin beynəlxalq iqtisadi-ticarət əlaqələrində rol və əhəmiyyəti getdikcə artmaqdadır.

MERKOSUR iqtisadi inteqrasiya qrupuna daxil olan 4 ölkənin ümumi ərazisi 12 milyon kv.km., əhalisi 250 milyon nəfər, illik ümumi daxili məhsulunun həcmi 2 trilyon dollardan çoxdur.

**ç) *Cənub-Şərqi Asiya ölkələri birliyi (ASEAN),*** 1967-ci ildə yaradılmışdır. Bu regional iqtisadi inteqrasiya qrupuna hazırda 10 dövlət – İndoneziya, Malayziya, Filippin, Sinqapur, Tailand, Bruney, Vyetnam, Myama, Laos və Kamboca daxildir. Təşkilatın 1976-cı ildə elan etdiyi Bəyanatında göstərilmişdir ki, onun üzvləri bölgənin və dünyanın iqtisadi-ticarət məsələlərində birgə mövqelərdən çıxış edəcəklər.

Dünyanın başqa regionlarına nisbətən daha sürətli inkişaf yolu keçmiş bu iqtisadi birliyə daxil olan və «yeni sənaye ölkələri», yaxud «Asiya nəhəngləri» kimi səciyyələndirilən Sinqapur, Malaziya, daha sonra isə başqaları həmişə ABŞ, Yaponiya, Çin, Qərbi Avropa ölkələri ilə müxtəlif sahələrdə əməkdaşlığa üstünlük vermişlər. Son dövrlərdə əlverişli coğrafi mövqedə və nəqliyyat yolları üzərində yerləşən ASEAN iqtisadi inteqrasiya qrupu ölkələri təkcə Cənub-Şərqi Asiyanın deyil, dünyanın iqtisadi-maliyyə mərkəzlərindən birinə çevrilmişdir.

1997-1998-ci illərin maliyyə böhranı ASEAN qrupu ölkələri üçün müəyyən çətinliklər yaratsa da, lakin istehsal-xidmət dairəsi sahələrinin strukturu (quruluşu) ilə bağlı olmayıb, müvəqqəti xarakter daşımış bu hadisə tənzimlənə bilmişdir. Həmin dövrdə dünya maliyyə dairələrinin və xüsusilə Yaponiyanın ayırdığı 30 milyard dollar həcmində yardım mühüm rol oynamışdır.

ASEAN iqtisadi inteqrasiya qrupuna daxil olan ölkələrin ümumi ərazisi 4,5 milyon kv.km., əhalisinin sayı 600 milyon nəfər, ümumi daxili məhsullarının illik həcmi 1 trilyon dollardan çoxdur.

**d)** ***Asiya – Sakit okean iqtisadi birliyi (ATES)*** 1989-cu ildə təşkil olunmuşdur və hazırda bu regional iqtisadi qrupa dünyanın 20-dən artıq ölkəsi, o cümlədən Avstraliya, Çin, Yeni Zellandiya, ABŞ, Rusiya, Meksika, Kanada, Honkonq, Koreya Respublikası, Tayvan, Çili, habelə başqaları daxildir.

Bu təşkilatın səciyyəvi cəhəti, onun gömrük ittifaqı yaxud sərbəst iqtisadi-ticarət zonası olmamasıdır. Onun çoxtərəfli fəaliyyətinin əsas məqsədi, Asiya qitəsi və Sakit okean hövzəsində yerləşən ölkələrinin qarşılıqlı faydalı iqtisadi-ticarət münasibətlərinin genişləndirilməsinə əlverişli şərait yaratmaqdır. Həmin iqtisadi-ticarət əlaqələri sistemində istehsal olunan məhsulların müəyyən standartlara uyğunluğu, onların sertifikatlaşdırılması, gömrük ahəngdarlığı, xammal sahələrinin inkişafı, nəqliyyat, energetika və kiçik biznesə yardım göstərilməsi istiqamətləri başlıca yer tutur.

ATES ölkələri arasında ticarət dövriyyəsinin böyük bir hissəsi, dünyanın müxtəlif ölkələrinin, ilk növbədə isə Yaponiya, ABŞ,Kanada, Koreya Respublikası, Tayvanın bu regionda fəaliyyət göstərən transmilli korporasiyalarının (TMK) yerli filiallarının öz aralarında apardıqları daxili ticarət əlaqələrinin payına düşür. Son dövrlərdə dünya iqtisadiyyatında daha sanballı bir rol oynayan Çinin bu regionda təsir dairəsi və rolu xeyli güclənmişdir.

Perspektivdə Asiya-Sakit okean iqtisadi birliyi çərçivəsində daxili gömrük və müxtəlif rüsum əngəlləri olmadan, bu geniş ərazidə sərbəst ticarət zonası yaradılması nəzərdə tutulur.

**e)** ***Müstəqil Dövlətlər Birliyi (MDB)*** 1992-ci ildə yaradılmışdır və 12 dövlət (Azərbaycan, Qazaxıstan, Belorus, Ukrayna, Moldova, Özbəkistan, Ermənistan, Gürcüstan, Tacikistan, Türkmənistan, Qırğızıstan, Rusiya) bu təşkilatın üzvü olmuşdur.

Baltikyanı ölkələri çıxmaq şərtilə, keçmiş sovet respublikalarını birləşdirən MDB-nin təşkilindən məqsəd, Sovet İttifaqı dağıldıqdan sonra geniş postsovet məkanında formalaşmış müstəqil dövlətlər qrupunun tarixən təşəkkül tapmış iqtisadi-ticarət əlaqələrinin qorunub saxlanması, habelə digər sahələrdə də bu əməkdaşlığın davam etdirilməsi olmuşdu. Bu istiqamətdə addımlar atılması əvvəlki vahid xalq təsərrüfatı kompleksi daxilində formalaşmış ictimai və ərazi əmək bölgüsü, müxtəlif regionlar səviyyəsində istehsalın ixtisaslaşdırılması və kooperasiyası, texniki-texnoloji yaxınlıq kimi obyektiv amillər olmuşdu.

İlk mərhələdə müəyyən uğurlar əldə olunmasına və çoxsaylı qərarlar qəbul edilməsinə, müxtəlif sazişlər bağlanmasına baxmayaraq, MDB özünü dünyanın başqa regionlarında yaradılmış iqtisadi inteqrasiya qrupları ilə müqayisədə doğrulda bilmədi. Onun fəaliyyətini məhdudlaşdıran obyektiv-subyektiv səbəblər sırasında, müstəqillik əldə etmiş dövlətlərin öz suverenliyini itirmək təhlükəsi, ölkələr arasında hərbi münaqişələrin olması, onların iqtisadi-sosial inkişaf göstəricilərinin xeyli fərqlənməsi, siyasi iradənin çatışmaması, xarici təsir və təzyiqlər xüsusi rol oynamışdır.

Geniş imkanlara malik bu qrup ölkələrin gələcək iqtisadi-ticarət münasibətləri qarşılıqlı etimad, bərabərlik və faydalı əməkdaşlıq prinsipləri təməlində mümkündür.

Müasir dünyanın müxtəlif qitə və ərazilərində, o cümlədən Afrikada, Yaxın Şərqdə, Ərəb ölkələrində, Cənubi Amerikada, yuxarıda göstərilən iqtisadi inteqrasiya qruplarından başqa, digərləri də təşkil olunmuşlar. Bu təşkilatlardan 1975-ci ildə yaradılmış və 16 ölkənin daxil olduğu «Qərbi Afrika ölkələri iqtisadi birliyi»ni (EKOVAS), 18 dövləti əhatə

edən «Şərqi və Cənubi Afrika ölkələrində imtiyazlı ticarət zonası»nı (PTA), «Cənubi Afrika İnkişaf Komitəsi»ni (SADK), «Qərbi Afrika iqtisadi və valyuta İttifaqı»nı (EVOA), «Cənubi Afrika Gömrük İttifaqı»nı (SAKU) qeyd etmək olar.

Eyni zamanda Asiya qitəsində yaradılmış «Cənubi Asiya bölgə əməkdaşlıq birliyi»ni (SAARK), 1981-ci ildə Orta Şərqdə İran körfəzi ölkələrinin «neft altıları» təşkilatını, Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasını, habelə bir sıra başqalarını göstərmək mümkündür.

Bu iqtisadi inteqrasiya və əməkdaşlıq istiqamətli qrup, habelə təşkilatların bir hissəsi adlarını dəyişərək başqaları ilə birləşmiş, bəziləri iqtisadi-siyasi səbəblərlə bağlı öz fəaliyyətlərini məhdudlaşdırmış, yaxud tamamilə dayandlrmış, bir hissəsi isə hazırda qloballaşan dünyanın beynəlxalq iqtisadi ticarət əlaqələrində iştirak edirlər.

**32.3.** Dünya iqtisadiyyatı tədricən vahid bir təsərrüfat sistemi kimi formalaşmaq istiqamətində irəlilədikcə, bəşəriyyətin qayğı və problemləri də yeni məna kəsb edərək, ümumbəşəri yaxud qlobal xarakter alır. Planetimiz, burada yaşayan xalqların və millətlərin böyüklüyündən – kiçikliyindən asılı olmayaraq, onların iqtisadi-sosial inkişaf səviyyəsini, dini məsuliyyətlərini, siyasi-ictimai görüşlərini nəzərə almadan hamının ümumi evidir. Bu ümumi evdə yaşayanlar isə getdikcə daha çox sərhəd və ölkə tanımayan, hər birinin iqtisadi maraqları, sağlamlığı, mənvi-əxlaqi dəyərləri, təhlükəsizliyi ilə bağlı real qlobal problemlərlə üzləşirlər.

Müasir qlobal sosial-iqtisadi problemlər və bunların acılı-şirinli çoxcəhətli nəticələri əhəmiyyətinə, kəsginliyinə, həlli zəruriliyinə görə bütövlükdə cəmiyyətin indiki insanlarının, habelə onun gələcək nəsillərinin taleyi üçün həyati əhəmiyyət kəsb edir. Ona görə də bu problemlərin hamılıqla dərk olunub, həlli yollarının axtarışında, dünyanın bütün xalqlarının maraqları nəzərə alınmalıdır. Təsadüfi deyildir ki, XX əsrin 60-70-ci illərindən başlayaraq, bəşəriyyəti hədələyən qlobal problemlər barəsində geniş müzakirələr keçirildi, disskusiyalar aparıldı, görkəmli alim və mütəxəssislər «həyacan təbili» çaldılar. Ümumi fikir isə bundan ibarət oldu ki, qlobal problemlər bütün bəşəriyyətə aiddir, bunlar müasir sivilizasiya üçün təhlükə yaradır, həmin problemlər bir-biri ilə əlaqədardır, nəhayət həlli üçün dünya ölkələrinin birgə səyləri tələb olunur.

Mürəkkəb və ziddiyyətli proseslər doğuran qlobal iqtisadi-sosial problemlər, dünyanın ahəngdar inkişafı gedişini pozur, ayrı-ayrı ölkələrin qeyri-bərabər inkişafını dərinləşdirir, milli iqtisadiyyatların təsərrüfat həyatı idarəçiliyində sərt dəyişikliklər yaradır, istehsal amillərinin müəyyən qrupların əlində təmərküzləşməsini sürətləndirir, ətraf mühitin çirkləndirilməsi davam edir, beynəlxalq miqyasda dövlətlərə qarşı ikili siyasət, yaxud ayrı-seçkilik xətti yeridilir.

XX əsrin sonu və XXI əsrin birinci onilliyində, bəşəriyyətin qarşılaşdığı iqtisadi-sosial problemlər sırasında aşağıdakıları göstərmək olar:

1. Sülh, tərksilah və ümumi təhlükəsizliyin təmin edilməsi.
2. Ərzaq və yanacaq-enerji təchizatı.
3. Elm və texnika sahəsində birgə əməkdaşlıq.
4. Təbii fəlakətlərə qarşı birgə mübarizə.
5. Xarici borclar məsələsi.
6. Davamlı inkişaf və insan potensialından səmərəli istifadə.
7. Ətraf mühitin qorunması və ekologiya problemləri.

Bəşəriyyətin ümumi ***hərbi təhlükəsizliyinin təmin olunması, dünyada sülh və tərksilah, iqtisadiyyatın hərbiləşdirilməsinin (militaristləşdirilməsinin)*** qarşısının qətiyyətlə alınması, şübhəsiz müasir dövrün ən aktual, habelə insanları narahat edən qlobal sosial-iqtisadi problemlərindən biridir. Böyük iqtisadi resurslar, maliyyə vasitələri, intelektual imkanlar hesabına yaradılmış ən müasir kütləvi qırğın silahları arsenalı, bəşəriyyət və Planetin gələcəyini hədələyən ciddi təhlükədir.

Müasir dövrdə bəşəriyyətin yoxsulluq, işsizlik, kütləvi xəstəliklər, terrorçuluq, narkomaniya, ekologiya kimi sosial-iqtisadi problemlərlə üz-üzə dayandığı bir şəraitdə, dünya dövlətlərinin açıq və gizli mənbələr hesabına hər il hərbi məqsədlərə bir neçə trilyon dollar xərcləmələri, habelə silah ticarəti dövriyyəsinin 50 milyard dollar təşkil etməsi, Planetin gələcəyi üçün fəlakət törədə bilər. Çünki, adi bir təsadüf nəticəsində başlana biləcək münaqişələrin gələcək hansı böyük müharibələrə gətirib çıxaracağını, atom-nüvə silahlarından istifadənin zəncirvari hərbi, iqtisadi-sosial nəticələrini düzgün qiymətləndirməmək siyasi korluq, iqtisadi kütlük, mənəvi-əxlaqi pozğunluqdur.

Hazırda dünyanın 200-dən artıq ölkəsinin 140-a yaxınının nizami ordusu vardır. Mütəxəssislərin hesablamalarına görə 30 milyondan artıq əsgər və zabit hərbi qulluqdadır. Onların silah, ərzaq, paltar və digər təyinatlı məhsul-xidmətlərə təmin etmək üçün 60 milyon nəfər mülki vətəndaş müxtəlif sahələrdə çalışır. İndi dünyanın 10-dan çox ölkəsinin atom-nüvə tipli silahı və 20-yə yaxın dövlətinin isə bu cür silahları hazırlamaq üçün texniki, maliyyə, intelektual imkanları vardır.

Ölkənin hərbi xərclərini zəruri müdafiə həddində saxlayan Avstriya, İsveçrə, Yaponiya, İsveç, Finlandiya kimi ölkələrin təcrübəsi və onların əhalisinin həyat səviyyəsinin başqaları ilə müqayisəli təhlili göstərir ki, dövlətlərin hərbi xərclərinin artan həcmləri, iqtisadi-sosial problemlərin həlli yolunda ciddi maneədir.

***Ərzaq və enerji-yanacaq təchizatı*** bəşəriyyətin qlobal iqtisadi-sosial problemləri arasında mühüm bir yer tutur. Ərzaq və enerji-yanacaq məhsullarının istehsalı, bölgüsü, mübadiləsi, istehlakı müasir dünya təsərrüfat sisteminin normal inkişafının tərkib hissəsini təşkil edir. Əhalinin ərzaq və müxtəlif istehsal-xidmət təyinatlı məhsullarının ilkin mənbəyi sayılan kənd təsərrüfatı, enerji-yanacaq sahələri, eyni zamanda bu amillərin yer kürəsində qeyri-bərabər sürətdə yerləşməsi üzündən, beynəlxalq iqtisadi-ticarət əlaqələrini şərtləndirən səbəblər kimi səciyyələndirilir.

Son iki əsrdə dünya əhalisinin sayının 6-7 dəfə artması, insanların və bütövlükdə cəmiyyətin fərdi, habelə ictimai tələbatlarının yüksəlməsi qarşısında, Planet miqyasında əkin üçün yararlı olan torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsindən çıxarılması, onların erroziyaya uğraması, yollar salınması, tikinti üçün ayrılması, təbii olaraq əhalinin ərzaqla təminatında müəyyən çətinliklər yaratmışdı.

Qlobal miqyasda dünya ölkələrinin yanacaq-enerji təchizatına gəldikdə, bu mənbələrin 70 faizinin Şərq ölkələrində yerləşdiyi halda, istehlakının yarıdan çoxunun Avropa dövlətləri, ABŞ, Yaponiyanın payına düşməsi reallığı beynəlxalq münasibətlərin meyllərindən, dəyişkən bazar konyukturasından, siyasi-diplomatik gedişlərdən asılı olaraq, vaxtaşırı ciddi iqtisadi-sosial problemlər meydana çıxarır.

Elmi-texniki yeniliklərin və biologiya-fiziologiya sahələrindəki kəşflərin, nailiyyətlərin bilavasitə aqrar bölmədə təcrübədə tətbiqi, müstəqillik qazanmış ölkələrdə aparılan torpaq islahatları sayəsində yaranmış ***«yaşıl inqilablar»,*** XX əsrin ikinci yarısında

bu istiqamətdə müəyyən irəliləyişlər yaratsa da, lakin bütövlükdə problemin həllindən danışmaq çətindir.

BMT-nın məlumatlarına görə XXI əsrin birinci onilliyində dünya əhalisinin 1 milyard nəfərə yaxını ərzaq sarıdan daimi çətinliklər içərisində yaşayır, hətta aclıqla üzləşir, lazım olan kalori və keyfiyyət səviyyəsində, nəhayət ekoloji baxımdan təmiz məhsullarla təmin olunmurlar. Dünyanın ayrı-ayrı ölkələri əhalinin ərzaq məhsulları ilə ümumi və hər nəfərə düşən həcmi (miqdarı) cəhətdən fərqlənsələr də, bütövlükdə Planetin hər nəfərinə orta hesabla elmi qidalanma normalarına əsasən gündəlik 2.500-2.700 kalori nəzərdə tutulduğu halda, hazırda bu rəqəm təxminən 2000 kaloridir.

Dünya əhalisinin yarıya qədərinin gündə 2 dollar və 20 faizdən çoxunun isə 1 dollara yaşaması faktı, ümumi inkişaf, habelə tərəqqi meyllərinə baxmayaraq, müasir standartlar baxımından əhalinin yoxsullaşması prosesinin, şübhəsiz dəyişmiş yeni tələblər müstəvisində davam etdiyini göstərir. Xüsusilə dünya əhalisinin hər il 65-70 milyon nəfər artdığı və bu demoqrafik prosesin əsasən inkişaf etməkdə olan, o cümlədən nisbətən geridə qalmış ölkələrin payına düşdüyü nəzərə alınarsa, gələcəkdə prosesin daha da kəskinləşəcəyi proqnozlaşdırılır. Bu mürəkkəb ərzaq və xammal, enerji və yanacaq, mənzil və içməli su kimi qlobal sosial-iqtisadi problemlərin müasir vəziyyəti, habelə gələcək təhlükəli meyyələri, bütün ölkələrin birgə səylərini tələb edir.

***Elm və texnika sahəsində beynəlxalq əməkdaşlıq,*** qlobal iqtsadi-sosial problem kimi dünyanın müxtəlif ölkələrinin zehni-intelektual imkanlarını və mütəxəssis kadrlarının yaradıcılıq səylərini birləşdirməyi irəli sürür.

Kosmosun fəthi, dünya okeanları və dənizlərinin zəngin sərvətlərindən istifadə olunması, qeyri-ənənəvi enerji mənbəlri sayılan günəşin, dəniz qabarma-çəkilmələrinin, yeraltı qaynar suların (geotermal) enerjisindən faydalanmaq, tullantısız istehsal proseslərini təşkil etmək, elə qlobal əhəmiyyətli iqtisadi-sosial problemlərdir ki, bunlarsız bəşəriyyətin uğurlu gələcəyini təsəvvür etmək mümkün deyildir.

Aydındır ki, bu mürəkkəb, lakin bütövlükdə bəşəriyyət üçün ciddi sosial-iqtisadi əhəmiyyət kəsb edən qlobal problemlərin elmi-nəzəri cəhətdən əsaslandırılıb işlənməsi və tədricən həyata keçirilməsi küllü miqdarda maliyyə vəsaiti, mükəmməl maddi-texnika baza, xüsusi hazırlığa malik bacarıqlı kadr potensialı tələb etdiyindən, həmin istiqamətdə ayrı-ayrı dövlətlərin bir-birindən təcrid olunmuş səyləri, şübhəsiz optimal meyarlar baxımından səmərəli ola bilməz. Yalnız beynəlxalq əməkdaşlığa əsaslanan, birgə səylərlə və düşünülmüş, hərtərəfli əsaslandırılmış istiqamətlərdə aparılan elmi-nəzəri axtarış, habelə kompleksli tədqiqat işləri, bəşəriyyətin müasir dövrdə rastlaşdığı qlobal iqtisadi-sosial problemlərin gələcək uğurlu həllinə etibarlı zəmanət verə bilər.

***Təbii fəlakətlər və onların ağır nəticələrinə qarşı mübarizə üsulları*** tapılması, mümkün qabaqlayıcı tədbirlər sistemi hazırlanması, bəşəriyyətin qlobal iqtisadi-sosial problemlərinin tərkib hissələrindən birini təşkil edir.

Zəlzələ hadisələri, çay daşqınları, dağ selləri, qasırğalar, meşə yanğınları, yer çökmələri, erroziya prosesləri, vulkan püskürmələri, yaşıllıqların azalması, ərazilərin səhralaşması bəşəriyyəti hədələyən, insanların psixoloji-əsəbi gərginliyinə səbəb olan qlobal iqtisadi-sosial məsələlərdir.

Son dövrlərdə Cənubi Amerikada, Yaxın, Orta və Uzaq Şərqdə, Orta Asiyada, Qafqazda, Qərbi Avropada baş vermiş faciəli təbii fəlakətlər, istər həmin proseslərin

əvvəlcədən proqnozlaşdırılması, istərsə də baş vermiş hadisələrin real nəticələrinin aradan qaldırılması istiqamətində müxtəlif dövlətlərin birgə əməkdaşlığını zərurət kimi irəli sürür.

Dünya təcrübəsi göstərir ki, heç bir ölkə və xalq təbii fəlakətlərdən sığorta olunmamışdır. Qəflətən baş verən belə fövqəladə vəziyyətlərdə dövlətlərin bir-birinə köməyi sadəcə humanizm əlaməti kimi deyil, eyni zamanda onların siyasi-dini baxışlarından asılı olmayaraq, ümumbəşəri dəyərlərə sədaqətini, qloballaşan dünyanın qarşılaşdığı problemlərin bəşəriyyətin öz birgə səyləri ilə həll etmək əzmininin konkret ifadəsi kimi qiymətləndirilməlidir.

***Xarici borclar problemi*** ötən əsrin 60-cı illərindən başlayaraq dünyanın müxtəlif dövlətlərini, xüsusilə inkişaf etmədə olan ölkələr qrupunu düşündürən və yaranmış vəziyyətdən çıxış yolu tapmaq axtarışları ilə bağlıdır. Milli azadlıq və müstəqil inkişaf yoluna çıxmış inkişaf etməkdə olan ölkələrin daxili maliyyə resurslarının məhdudluğu, ticarət və büdcə kəsirləri onları öz iqtisadi-sosial problemlərini həll etmək üçün xarici dövlətlərdən, beynəlxalq maliyyə dairələrindən borc almağa məcbur etmişdi.

Bu işdə yüksək inkişaf etmiş ölkələr və beynəlxalq maliyyə təşkilatları, həmin ölkələrə yardım, habelə konkret layihələrin həyata keçirilməsi üçün güzəştli, aşağı faizlərlə xeyli məbləğdə kredit vermişdilər. XXəsrin 70-ci illərində dünya bazarında neftin qiymətinin kəsgin surətdə bahalaşması, inkişaf etməkdə olan ölkələrin xarici borclar məsələsində müəyyən dəyişikliklər yaratdı. Bir qrup neft ixrac edən ölkələrin xarici banklarda saxlanılan neftdollar ehtiyatları xeyli artdığı halda, inkişaf etməkdə olan ölkələrin əksəriyyətinin enerji daşıyıcıları və digər idxal məhsullarına sərf etdikləri xərclər xeyli çoxalmışdı.

Yaranmış belə bir vəziyyətdən bacarıqla istifadə edən beynəlxalq maliyyə qrumları və banklar, inkişaf etməkdə olan ölkələrlə aktiv kredit siyasəti həyata keçirərək, bank faiz dərəcələrini əhəmiyyətli dərəcədə artırdılar. Nəticədə, 1973-1982-ci illəri əhatə edən dövr ərzində inkişaf etməkdə olan ölkələr qrupunun xarici borclarının ümumi məbləği bir neçə dəfə artaraq, 130 milyard dollardan 700 milyard dollara çatmışdı.

İnkişaf etməkdə olan ölkələrin üzləşdikləri daxili iqtisadi-sosial problemlər düyünü, xarici iqtisadi-ticarət dövriyyəsindəki vaxtaşırı kəsir yaranması, xarici borcların qaytarılmasında böyük çətinliklər yaratmışdı. Xüsusilə bu ölkələrin beynəlxalq banklardan götürdükləri kreditin illik faizlərinin, vaxtında ödənilməməsi ilə bağlı yaranan problemlər, həmin ölkələrin onsuz da çətin olan maliyyə-valyuta vəziyyətini daha da mürəkkəbləşdirmişdi. Kreditlər və digər xidmətlər üzrə ödənilən faizlərin məbləği 1975-ci ildə inkişaf etməkdə olan ölkələrin ümumi daxili məhsulunun 8%-ni təşkil etdiyi halda, 1980-ci ildə 28-30%-ə, 1995-ci ildə 36%-ə çatmışdı. Ayrı-ayrı ölkələrdə, məsələn Meksikada bu rəqəm 63%, Flippində 66%, bəzi Afrika qitəsi dövlətlərində isə 70% olmuşdu. XX əsrin sonu və XXI əsrin ilk onilliyində bu rəqəm bir-neçə trilyon dolları ötür.

Xarici borcların artmasının inkişaf etməkdə olan ölkələrinin tədiyyəqabiliyyətli tələbinin azalmasına, dünya iqtisadi-ticarət əlaqələrini məhdudlaşdırılmasına, böyük həcmdə maliyyə resurslarından tam istifadə olunmamasına təsirini nəzərə alan müxtəlif beynəlxalq təşkilatlar və maliyyə qrumları, bir sıra təkliflər irəli sürmüş, habelə addımlar atmışlar.

İnkişaf etməkdə olan ölkələrin borclarının müəyyən hissəsinin ləğv olunması, əvvəlki kreditlər üçün faiz dərəcələrinin azaldılması, yeni kreditlərin daha əlverişli şərtlərlə

verilməsi istiqamətində işlərə başlansa da, qlobal iqtisadi-sosial xarakter daşıyan xarici borclar probleminin səmərəli və ədalətli sonu öz həllini gözləyir.

***Davamlı inkişaf və insan patensialından səmərəli istifadə,*** hazırda bəşəriyyətin qarşılaşdığı və həll etməyə çalışdığı mühüm sosial-iqtisadi problemlərdən biridir. İqtisadi inkişafın davamlı yaxud dayanaqlı inkişafı dedikdə, onun bütün istehsal və sosial dairələrinin kompleks halında ahəngdar, habelə tarazlı yüksəlişi nəzərdə tutulur. Bu iqtisadi inkişaf konsepsiyasının seçimində yanaşmaların fərqli cəhətlərinə baxmayaraq, həmin konsepsiya özündə, – ***iqtisadi, sosial, ekologiya*** kimi 3 mühüm istiqaməti birləşdirir.

«Davamlı inkişaf» anlayışı ilk dəfə 1987-ci ildə «Ətraf mühit və inkişafa dair Beynəlxalq Komissiya»-nın hesabatında işlədilmişdir. Bu hesabatda aydın və birmənalı şəkildə qeyd olunmuşdu ki, «davamlı inkişaf yalnız uğurlu və rəqabət qabiliyyətli iqtisadiyyatda mümkündür». Müasir dünyanın tanınmış iqtisadçı alim və mütəxəssisləri isə iqtisadiyyatın davamlı inkişafını, ***cəmiyyətdə əhalinin yoxsulluğunun, sosial ədalətsizliyin, işsizliyin*** aradan qaldırılmasında görürlər.

Lakin, təəssüflə qeyd etmək lazımdır ki, bəşəriyyətin tarixi inkişaf yolunun müxtəlif mərhələlərində əhalinin maddi-mədəni vəziyyətinin yaxşılaşdırılması, sosial ədalətsizlik meyllərinin aradan qaldırılması, işsizliyin azaldılması və məşğulluğun səviyyəsinin yüksəldilməsi yolunda rəsmi, habelə qeyri-rəsmi qurumların fəaliyyətinə baxmayaraq, bu problemlər hələlik öz tam həllini tapmamışdır.

Davamlı inkişaf konsepsiyasının əsas prinsiplərindən biri, hakimiyyət və onun idarəetmə orqanlarının sosial siyasət məsələlərinin irəli sürülüb əsaslandırılması, habelə onların ardıcıllıqla həyata keçirilməsi xətti ilə bağlıdır. Eyni zamanda davamlı iqtisadi inkişaf konsepsiyası insanların normal tələbatlarının, xüsusilə cəmiyyətin yoxsul təbəqələrinin yaşayışının təmin olunması ilə yanaşı, mövcud texnika və texnologiyanın ətraf mühitlə ahəngdar tarazlıq şəraitində yüksəlişini nəzərdə tutur. Başqa sözlə «davamlı inkişaf indiki nəslin ehtiyaclarını ödəməklə» yanaşı, gələcək nəsillərin də öz tələbatlarını ödəmək qabiliyyətini təhlükə altında qoymamalıdır. Bu müddəa insan cəmiyyəti ilə onun həmişə təmasda olduğu ***iqtisadi, sosial və ətraf mühit*** arasında düzgün münasibətlərin formalaşması, bütövlükdə bəşəriyyətin müasir mərhələdə qarşılaşdığı qlobal iqtisadi-sosial problemlərin həllində mühüm rol oynamalıdır.

Təsadüfü deyildir ki, son illərdə dünyanın bütün ölkələri öz iqtisadi siyasət xəttlərini məhz bu istiqamətdə qurub, həyata keçirməyə çalışırlar. Həmin siyasətdə isə insan kapitalı və onun potensial imkanlarına çox böyük diqqət yetirilir. Müasir dünyanın iqtisadi inkişaf və sosial-mədəni yüksəlişinin əsasında insan amili, onun fiziki – intelektual imkanlarının nə dərəcədə səfərbərliyə alınması, həmin potensial qüvvələrin özünü real şəkildə göstərməsinə necə şərait yaradılması, nəhayət hərtərəfli qayğı göstərilməsi bacarığı həll edir. İnsan amilinin yetişməsinə, təhsilinə, ixtisasının təkmilləşdirilməsinə, mədəni-əxlaqi tərbiyyəsinə yönəldilmiş xərclər, gələcəkdə özünün sosial-iqtisadi səmərəliliyi baxımından, başqa sahələrə nisbətən dəfələrlə səmərəli olduğunu, dünya ölkələrinin keçdiyi enişli-yoxuşlu ümumi inkişaf yolu, habelə ayrı-ayrı milli iqtisadiyyatların tarixi yüksəliş təcrübəsi təsdiq edir.

***Ətraf mühitin qorunması və ekologiya*** ilə bağlı məsələlər bəşər cəmiyyətinin çoxəsrlik tarixi boyunca insanla təbiət arasında yaranmış münasibətlərin yaşamaq uğrunda

mübarizə obyekti, habelə forması olmuşdur. Həyat nemətlərinin mənbəyi sayılan təbiət və torpaqla cəmiyyətin yaşayış tərzi, sosial-iqtisadi yüksəlişi, mənəvi-əxlaqi kamilliyi tarixən ziddiyyətli bir xarakter daşısa da, son 200 il ərzində, xüsusilə XX əsrin ikinci yarısından təhlükəli meylə çevrilmişdir.

Bu qlobal təhlükənin əsas istiqamətləri kimi:

a) əkin və təsərrüfatçılıq fəaliyyəti üçün yararlı olan torpaq sahələrinin obyektiv-subyektiv səbəblərlə bağlı korlanıb sıradan çıxmasını;
b) torpağa verilmiş güclü kimyəvi gübrələrin onun təbii quruluşunu pozması və əkinçilik, maldarlıq məhsullarının tərkibində insanların orqanizminə daxil olaraq, onların fiziki-psixoloji sağlamlığına mənfi təsir etməsini;
c) atmosferə və ətraf mühitə külli miqdarda zərərli qazların buraxılması və tullantıların atılmasını;
d) planet miqyasında həyat və yaşayış üçün əlverişsiz olan ərazilərin, insan sağlamlığına təhlükə yaradan zonaların sahələrinin genişlənməsini göstərmək olar.

Mütəxəssislərin hesablamalarına görə son 100-120 ildə bütün dünyada istehsalın həcmi 70-80 dəfə artmışdır. İlk baxışda təbii və mütərəqqi bir proses sayılıb bütövlükdə cəmiyyətin, habelə insanların müxtəlif təyinatlı tələbatlarının ödənilməsinə yönəldilmiş bu proses, eyni zamanda istehsal-xidmət sahələrinin intensiv inkişaf templərilə bağlı, təbiətlə cəmiyyət arasında tarazlığın pozulması ilə səciyyələnib, tədricən qlobal xarakterli iqtisadi-sosial problemlərə çevrilmişdir. Hər il atmosferə atılan zərərli tullantılar, onun qatlarında «ozon dəliyi» yaratmış, Planet miqyasında iqlim dəyişikliyi ciddi fəsadlar törətmiş, təbiətdə baş verən anormal hadisələrin sayını xeyli artırmış, insanların sağlamlığına və psixoloji durumuna zərərli təsir göstərmişdir. Bu proses indi də davam etməkdədir.

Ekoloji tarazlığın pozulması və ətraf mühitin korlanmasının indiki vəziyyəti və gələcək təhlükəli nəticələri Birləşmiş Millətlər Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilat, Dünya Ərzaq Təşkilatı kimi nüfuzlu beynəlxalq qurumların diqqət mərkəzində olmuş, habelə onlar tərəfindən konkret bir sıra addımlar atılmışdır. Ötən əsrin ikinci yarısından başlayaraq keçirilmiş bir sıra beynəlxalq məclislərdə qəbul olunmuş sənədlərdə, məsələn Monreal protokolunda (1987), Kioto sazişində (1995), Rio-de-Janeyro (2005) konfransının tövsiyyələrində dəfələrlə göstərilmişdir ki, müasir mərhələdə dünya ölkələrinin iqtisadi inkişaf templəri ilə bu proseslərin baş verdiyi ətraf mühit (ekoiqtisadiyyat) arasında düşünülmüş tarazlıq nisbətlərinin pozulması meylləri, şübhəsiz hazırda yaranmış qlobal iqtisadi-sosial problemlərin gələcəkdə daha ciddi, hətta faciəli yekunlarla nəticələnməsinə səbəb ola bilər.

Doğrudur, XX əsrin 80-ci illərindən sonra dünya miqyasında atmosferə buraxılan zəhərli qazların, ətraf mühiti çirkləndirən sənaye və kənd təsərrüfatı, habelə məişət xarakterli müxtəlif tullantıların miqdarı xeyli azalsa da, onların emalı texnologiyası əhəmiyyətli dərəcədə təkmilləşdirilsə də, lakin problemin kompleksli şəkildə həllindən danışmaq hələlik tezdir.

Ekologiya və ətraf mühitin qorunması ilə bağlı məsələlər, müasir qloballaşan dünyanın inteqrasiya proseslərində getdikcə daha fəal iştirak edən Azərbaycan Respublikası üçün də aktualdır. Hazırda ölkədə 300 mindən artıq əhalinin yaşadığı ərazi sel, sürüşmə və uçqun təhlükəsi altındadır. 200 mindən çox əhalinin məskunlaşdığı 45 yaşayış məntəqəsi, Xəzər dənizinin səviyyəsinin vaxtaşırı dəyişməsindən (enib-qalxması

hadisəsindən) maddi ziyan və mənvi əziyyət çəkir. Respublika ərazisindəki ümumi torpaq fondunun 30-35 faizi su və külək erroziyası nəticəsində korlanmaqdadır. Torpaqların şoranlaşması prosesi davam edir, hər nəfərə düşən əkin sahələri azalır, əhalinin ərzaq məhsullarına olan tələbatı müasir qidalanma normalarına uyğun ödənilmir.

Dünya Bankının yardımı ilə Azərbaycan Respublikasında qarşıya çıxan müxtəlif istiqamətli problemləri həll etmək məqsədilə, milli fəaliyyət Proqramı həyata keçirilir və ekologiya haqqında qanunun tələbləri ardıcıllıqla yerinə yetirilir.

XXI əsrin ilk onilliyində bəşəriyyətin rastlaşdığı qlobal iqtisadi-sosial problemlər sırasına, cəmiyyətin müasir siyasi-ictimai, iqtisadi-sosial, mənəvi-əxlaqi səviyyəsinin müəyyən cəhətlərini özündə əks etdirən beynəlxalq terrorçuluq; əhalinin iqtisadi-siyasi, mənəvi-sosial səbəblərlə bağlı könüllü, yaxud məcburi miqrasiyası; qaçqın və köçgünlər axını; vahid nəqliyyat-rabitə-informasiya şəbəkəsi yaradılması; kütləvi xəstəliklərə qarşı mübarizə aparılması; Planet miqyasında insanların hüquq və haqqlarının, habelə iqtisadi, siyasi sərbəstliyinin qorunması qayğıları da daxil edilməlidir

.

**«İqtisadi nəzəriyyə» – *Economics* kursu üzrə**
**(«Müasir beynəlxalq iqtisadi problemlər» bölməsi) test imtahanı sualları**

1. Dövlət və onun iqtisadi siyasəti
2. Dövlətin iqtisadi siyasətinin mahiyyəti
3. İqtisadi siyasətin məqsəd və vəzifələri
4. Büdcə siyasəti sahəsində dövlətin vəzifələri
5. Vergilər siyasəti sahəsində dövlətin vəzifələri
6. Sosial sahədə dövlətin siyasəti
7. Müstəqil Azərbaycan Respublikasının iqtisadi siyasət mərhələləri
8. Müasir mərhələdə Azərbaycan Respublikasının iqtisadi siyasəti
9. Antitrest (antiinhisar) qanunları və iqtisadi tənzimləmə
10. İstehsalın təmərküzləşməsinin müsbət və nöqsanlı cəhətləri
11. Şerman qanunu (1890-cı il)
12. Kleyton qanunu (1914-cü il)
13. Ticarət haqqında Federal Komissiyanın qanunu (1914-cü il)
14. Seller-Kefover qanunu (1950-ci il)
15. Antitrest (antiinhisar) qanunlarının iqtisadi nəticələri
16. İqtisadi tənzimləmə üsulları
17. Sosial tənzimləmə üsulları
18. Təbii inhisarçılıq və onun tənzimlənməsi
19. Azərbaycan Respublikasının antiinhisar siyasəti
20. Kənd təsərrüfatı və onun iqtisadi problemləri
21. Kənd təsərrüfatı iqtisadiyyatın mühüm sahəsidir
22. Kənd təsərrüfatı və ərzaq problemləri
23. Kənd təsərrüfatı və ölkənin xarici ticarət əlaqələri
24. Kənd təsərrüfatında qiymətləri qeyri-sabitliyi və gəlirlər
25. Kənd təsərrüfatı sahələrinin inkişaf meylləri
26. Kənd təsərrüfatının maliyələşdirilməsi problemiləri
27. Kənd təsərrüfatının qlobal problemləri
28. Şəhərlərin inkişafı və ekologiya problemləri
29. Şəhərlərin iqtisadi-sosial inkişaf problemləri
30. İri şəhərlərin müasir problemləri
31. İri şəhərlərin inkişafının iqtisadi-sosial nəticələri
32. Azərbaycan şəhərlərinin iqtisadi-sosial inkişaf problemləri
33. Gəlirlərin bölgüsü və qeyri-bərabərlik problemi
34. Yoxsulluq anlayışı və meyarları
35. Qeyri-bərabər gəlirlər anlayışı
36. Gəlirlərin qeyri-bərabərliyi meyllərinin səbəbləri
37. Dövlət və gəlirlərin yenidən bölgüsü
38. Gəlirlərin səviyyəsinin tənzimlənməsi sistemi
39. Sosial sığorta proqramalrı
40. Dövlət yardımları proqramları
41. Beynəlxalq ticarətin mahiyyəti və prinsipləri
42. Beynəlxalq ticarət formaları
43. Müasir beynəlxalq ticarət əlaqələrinin meylləri
44. Beynəlxalq ticarətin quruluşu (strukturu)
45. Ölkənin tədiyyə (ödəniş) balansı
46. Xarici ticarət əlaqələri və milli iqtisadiyyat
47. Xarici ticarətin ölkələrinin ümumi daxili məhsuluna təsiri

**48.** Beynəlxalq ticarət əlaqələrinin iqtisadi əsası
**49.** Sərbəst (azad) ticarət əlaqələri siyasəti
**50.** Xarici ticarət əlaqələrində himayədarlıq siyasəti
**51.** Dünya valyuta sistemi və onun əsas inkişaf mərhələləri
**52.** Valyuta bazarının formalaşması və fəaliyyəti
**53.** Valyutaların kurslarının müəyyənləşdirilməsi
**54.** Beynəlxalq ticarətin maliyyələşdirilməsi
**55.** «Qızıl standart» beynəlxalq valyuta sistemi
**56.** Azərbaycan Respublikasının valyuta siyasəti
**57.** Bretton-Vuds beynəlxalq valyuta sistemi
**58.** «Üzən» (enib-qalxan) beynəlxalq valyuta sistemi
**59.** Xarici ticarət dövriyyəsi kəsiri (defisit)
**60.** Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri
**61.** İnteqrasiya və qloballaşma anlayışlarını izah edin
**62.** Dünyanın bölgə (region) iqtisadi qrupları
**63.** Bəşəriyyətin müasir sosial-iqtisadi problemləri
**64.** Bəşəriyyətin qlobal problemlərinin həlli yolları
**65.** Azərbaycan Respublikasının müasir dünya iqtisadi inteqrasiya proseslərində iştirakı

**«İqtisadi nəzəriyyə» – *Economics***
**«Müasir beynəlxalq iqtisadi problemlər» (dördüncü bölmə) kursu üzrə dərs saatlarının bölgüsü**

| *Sıra №-si* | *Mövzuların adı* | *Saatların miqdarı* | | |
|---|---|---|---|---|
| | | *Mühazirə* | *Məşğələ* | *Cəmi* |
| 1 | Kursun məqsədi, vəzifələri və quruluşu | 2 | 2 | 4 |
| 2 | Dövlət və iqtisadi siyasət | 2 | 2 | 4 |
| 3 | Antitrest (antiinhisar) qanunları və təsərrüfat həyatının tənzimlənməsi | 4 | 4 | 8 |
| 4 | Kənd təsərrüfatı və iri şəhərlərin iqtisadi-sosial problemləri | 4 | 4 | 8 |
| 5 | Gəlirlərin bölgüsü, qeyri-bərabərlik və yoxsulluq | 4 | 4 | 8 |
| 6 | Beynəlxalq ticarət: mahiyyəti, formaları və meylləri | 4 | 4 | 8 |
| 7 | Dünya valyuta sistemi və onun inkişaf mərhələləri | 4 | 4 | 8 |
| 8 | Bəşəriyyətin qlobal iqtisadi-sosial problemləri | 4 | 4 | 8 |
| | Cəmi | 30 | 30 | 60 |

# NƏTİCƏ

Minillikləri əhatə edən və cəmiyyətin təsərrüfat həyatı, insanların əmək fəaliyyəti, gündəlik ehtiyacları, istehsal-bölgü proseslərindəki dəyişkən münasibətlərlə bağlı meydana çıxmış iqtisadi biliklər, öz ziddiyyətli inkişafında müxtəlif mərhələlər keçərək, hazırda vahid elm sisteminin mühüm tərkib hissələrindən birinə çevrilmişdir.

Ksenofont və Aristotel, Nəsrəddin Tusi və İbn Xəldun, U.Petti və F.Kene, A. Smit və K.Marks, A.Marşall və C.Keyns, P.Samuelson və M.Fridmen kimi nümayəndələrinin ideyaları, nəzəri baxışları, konkret xidmətləri, onların yolunun davamçılarının səyləri ilə təkmilləşən iqtisad elmi, obrazlı desək «elmlərin tacı» səviyyəsinə yüksəlmişdir.

Lakin mütəxəssislərin qeyd etdikləri kimi bu elm özünün uzun ömürlülüyü ilə öyünə bilməz. Həyat inkişaf edib irəlilədikcə, müxtəlif iqtisadi sistemlər bir-birini əvəz etdikcə, elm-texnika texnologiya sahəsindəki kəşflərin istehsal-xidmət dairəsinə tətbiqi genişləndikcə, yeni keyfiyyətlərə malik iqtisadi resurslar meydana çıxdıqca, iqtisadi inkişafın qeyri-sabitliyi meyli sürətləndikcə, istehsalın və insanların tələbləri, zövqləri dəyişdikcə, mülkiyyət münasibətlərinin transformasiyası baş verdikcə, daxili və xarici bazarlarda rəqabət mübarizəsi gücləndikcə, beynəlxalq əmək bölgüsü dərinləşdikcə, iqtisadi inteqrasiya prosesləri təkmilləşərək yeni, daha səmərəli formalar alduqca, şübhəsiz iqtisadi nəzəriyyənin (ekonomiksin) qarşısında duran problemlər fərqli düşüncə tərzi, yanaşma metodları, həll yollarının tapılmasını irəli sürür.

Bunlarla yanaşı iqtisadiyyatın əsas vəzifəsi-cəmiyyətin və onun üzvlərinin müxtəlif təyinatlı maddi-mədəni tələbatlarını ödəmək üçün istehsal-xidmət dairəsinin səmərəli fəaliyyətini təşkil etmək, habelə bazar münasibətlərini iqtisadi sistemin prinsipləri əsasında, sosial yönümlü inkişaf konsepsiyası strategiyasını ardıcıllıqla həyata keçirməkdən ibarətdir.

Aydındır ki, müxtəlif istehsalçılardan, çoxsaylı alıcılardan, ümumi və şəxsi maraqlardan, daxili və xarici amillər kompleksindən asılı olaraq, iqtisadi nəzəriyyə öz qarşısında duran vəzifələri uğula həll etmək yolunda obyektiv-subyektiv xarakterli maneələrlə rastlaşır. Ona görə də iqtisad elmi, bəşəriyyətin inkişafının müxtəlif mərhələlərində bu problemlərə cavab axtararkən bəzən həqiqi elmi-nəzəri nailiyyətlər yolu ilə irəliləmiş, bəzən obyektiv axtarış və tədqiqatlar istiqamətindən kənarlaşaraq, hətta uzaqlaşaraq subyektvizmə, doqmartizmə, volyuntarizmə meydan açmış, bəzən də vaxtı keçmiş, yeni dövrün tələblərinə, dəyişən dünyanın meyarlarına uyğun gəlməyən ideyaların əsiri olaraq qalmışdır. Qədim Şərq, Yunanıstan və Roma müdriklərinin, orta əsr müəlliflərinin, sonralar merkantilistlərin, fiziokratların, klassik siyasi iqtisad məktəbi nümayəndələrinin, marksistlərin, marjinalistlərin, neoklassiklərin, keynsçilərin, habelə digər iqtisadi nəzəriyyə istiqamətlərinin, cərəyanlarının öz dövrü üçün elmi tapıntı kimi orjinal fikirləri, ideyaları zaman keçdikcə əhəmiyyətini itirmiş, daha mütərəqqi nəzəri baxışların formalaşması proseslərini ləngitmişdir.

Xüsusilə mürəkkəb və ciddi ictimai-siyasi, beynəlxalq hərbi qarşıdurma, mənəvi-dini dəyərlərin toqquşduğu XXI əsrin ilk onilliyi başqa sahələrdə olduğu kimi iqtisadi nəzəriyyədə də yeni ideyaların irəli sürülməsini zəruri edir. 2007-ci ildən ilk əlamətləri görünmüş və tədricən dünyanın müxtəlif ölkəbrini əhatə etmiş ümumi böhran göstərdi ki, əvvəlki iqtisadi nəzəriyyə müddəalarından yaradıcılarla faydalanmaqla yanaşı

zəmanəmizin yeni iqtisadi konsepsiyalara, paradiqmlərə böyük ehtiyacı vardır. Qloballaşan dünyanın dəyişən tələb və təklifi, qiymətlərin enib-qalxması, ölkələrin və müxtəlif ictimai təbəqələrin yaşayış səviyyəsindəki fərqləri, investisiyaların istiqaməti, maliyyə-bank sisteminin fəaliyyətindəki ziddiyyətləri, milli valyutaların müqayisəli məzənnəsi, dövlətlərin daxili-xarici borcları, iqtisadiyyatın ayrı-ayrı bölmə və sahələri arasındakı nisbətin tarazlığı, büdcə kəsiri, hərbi xərcbrin getdikcə artması meyli, dövlətin iqtisadiyyatı tənzimləməsinin optimal hüdud variantları, açıq iqtisadiyyat şəraitində milli iqtisadiyyatların təhlükəsizliyi, transmilli korporasiyaların (TMK) hökm xarakterli fəaliyyəti, dövlət məmurlarının biznes - sahibkarlıq məşğuliyyəti, onların korrupsiya əməlləri, iqtisadiyyatın real bölməsi ilə maliyyə-pul bölməsi arasındakı yaranmış ziddiyyətli vəziyyəti, beynəlxalq iqtisadi ticarət əlaqələrinin, habelə makroiqtisadi göstəricilərin hesablanması metodikası kimi məsələləri, əvvəlki iqtisadi nəzəriyyə mövqelərindən izah etmək çətindir.

Tədricən aydın olur ki, istər milli iqtisadiyyatlar çərçivəsində, istərsə də beynəlxalq miqyasda iqtisadi hadisə və prosesləri öyrənib tədqiq edərkən, bu problemlərə yanaşma üsulu, hökmən sistemli, kompleksli və çoxamilli nəzəri-metodoloji prinsiplərə əsaslanmalıdır. Çünki, tarixi müqayisəlilik metodu və real təsərrüfatçılıq təcrübəsi sübut edir ki, artıq iqtisadi proseslərə birtərəfli, təkamül mövqeyindən yanaşma yolları özünü doğrultmur. Deməli, real iqtisadi hadisələrin nəzəri ifadəsi sayılan müxtəlif kateqoriyalara, proseslərin mahiyyətini açan müxtəlif iqtisadi qanunlara, fasiləsiz sürətdə davam edən proseslərə (tələb-təklif, qiymət, rəqabət, əmək haqqı, xərclər, mənfəət, böhran, işsizlik inflyasiya, milli iqtisadi təhlükəsizlik, qloballaşma və vahid dünya təsərrüfat sisteminin formalaşmasına) indi məhz hərtərəfli, eyni zamanda çoxamilli meyarlar mövqeyindən yanaşıb həll etmək metodu, son iqtisadi - sosial səmərəlilik baxımından elmi-nəzəri mülahizələr üçün daha etibarlı bir təməl yaradaraq, qarşıda duran mürəkkəb problemlərin həllini sürətləndirə bilər.

Müasir mərhələdə öz çoxcəhətliliyi ilə səciyyələnən, mahiyyəti ilə təzahür formaları arasında ciddi fərqlərlə xarakterizə olunan iqtisadi proseslərin gedişi və sosial nəticələrinin təhlili, təbiidir ki, təkcə ənənəvi, yəni sadədən mürəkkəbə, ayrı - ayrı hissələrdən tam bir sistemə, ilkin çıxış kateqoriyalarından hər hansı sistemin həlledici cəhətlərinə doğru irəliləməklə aparıla bilməz. Hazırda milli və qlobal miqyasda ziddiyyətli prosesləri hərtərəfli araşdıraraq ən səmərəli variantlar seçib onları iqtisadi siyasət səviyyəsində irəli sürmək-zamanın tələbidir. Bu mənada, iqtisadi nəzəriyyənin qarşısında bəşəriyyətin üzləşdiyi ümumi, qlobal, sistem xarakterli proseslərin məntiqi gedişi və proqnozlaşdırılan perspektivlərindən çıxaraq bir növ «əks istiqamətdə», yəni yuxarıdan aşağıya doğru ayrı-ayrı strukturlarını (quruluşlarını), müxtəlif formalarını, fərqli modellərini, seçim variantlarını, nəhayət pilləli silsilənin daxili ünsürlərini təhlil etmək tələbi irəli sürülür. Bəzən iqtisadi nəzəriyyənin tədrisinin makroiqtisadi təhlildən başlayaraq, sonra mikroiqtisadi məsələlərin öyrənilməsi ilə davam etdirilməsini təsadüfl hesab etmək olmaz.

Təbii olaraq belə bir sual qarşıya çıxır ki, iqtisadi nəzəriyyə istiqamətindəki yeni konsepsiyalar ilk növbədə hansı sahələrə, cəhətlərə, proseslərə üstünlük yaxud prioritet əhəmiyyət verməlidir. Geniş elmi müzakirə və diskussiyalardan sonra formalaşmış ümumi fikrə görə həmin məsələlər aşağıdakılar ola bilər:

- yeni axtarış və tədqiqatlar müxtəlif elmlərin qarşılıqlı əlaqə sintezi, xüsusilə iqtisadi təlimlər tarixi, dünya iqtisadiyyatı, iqtisadi tarix kursu materiallarının müqayisəli kompleks ümumiləşdirilməsi əsasında aparılmalı;
- istehsalla-istehlakın strukturunda gedən kəmiyyət-keyfiyyət dəyişiklikləri, maddi istehsal sahələri ilə xidmət dairəsinin indiki və gələcək nisbətləri dinamikasının xüsusiyyətləri, maddi istehsala nisbətən xidmət dairəsinin daha üstün templərlə artması reallığı, bununla yanaşı xidmət dairəsində əmək məhsuldarlığının aşağı olması, texniki nailiyyətlərin tətbiqinin nisbi məhdudluğu, fərdi əməyin geniş yayılması, eyni zamanda əhalinin məşğulluğu üçün imkanlar açılması, kiçik və orta biznes fəaliyyətinə əlverişli şərait yaratması məsələləri diqqət mərkəzində durmalı:
- mülkiyyət münasibətlərinin təkamülü, onun transformasıya xüsusiyyətləri, dövlət mülkiyyətinin dövlətsizləşdirilməsi və özəlləşdirilməsinin aspektləri, ölkənin təsərrüfat həyatında dövlət, xüsusi, bələdiyyə mülkiyyəti formalarının gələcək səmərəli nisbətlərinin meyarları, bu əsas formalarla yanaşı, müxtəlif törəmə mülkiyyət formalarına, xüsusilə geniş inkişaf imkanlarına malik qarışıq mülkiyyətlə bağlı yeni nəzəri ümumiləşdirmələrə, habelə elmi tövsiyələrə yer ayrılmalı;
- ekologiya və ətraf mühitin qorunması, bəşəriyyəti hədələyən bu real təhlükənin dünya ölkələrinin birgə səyləri ilə aradan qaldırılması yolları, iqtisadi resursların Planet ərazisində coğrafi cəhətdən qeyri - bərabər yerləşməsi reallığında onlardan səmərəli istifadə variantları ilə ekoloji tarazlıq arasındakı nisbətlərdəki ziddiyyətlər, milli iqtisadiyyatların ÜDM - un tərkibində istehlak və yığım fondları ilə yanaşı, ayrıca təbii resursların bərpası fondunun yaradılması kimi məsələlər hərtərəfli tədqiq olunmalı;
- Müxtəlif milli iqtisadiyyatların regional və dünya təsərrüfat sistemi səviyyəsində qarşılıqlı əlaqələrinin dinamikasında, hesablaşmalarında baş verən dəyişiklərin, beynəlxalq iqtisadi-ticarət əlaqələri templərinin dünya məhsul-xidmətlər həcminin artım sürətini ötməsi meylinin, bu proseslərin yerli sahibkarlığın, daxili bazarın maraqları baxımından real səmərəliyinin beynəlxalq səviyyədə tənzimlənməsi problemləri hərtərəfli öyrənilib araşdırılmalı;
- XX əsrin 20 - ci illərdən başlayaraq 90 - cı illərə qədər davam etmiş dünya kapitalist və sosialist sistemlərinin qarşıdurması, habelə bu sistemlərin hərbi, siyasi, diplomatik, ideoloji istiqamətlərlə yanaşı, iqtisadi - sosial sahələrdəki aşkar - gizli rəqabət mübarizəsinin yerini hazırda köklü surətdə dəyişmiş qüvvələr nisbəti reallığında başqa «olum ya ölüm» vasitələrinin tutması, iri inhisarların, TMK- ın sırf iqtisadi fəaliyyətlə bərabər, onların artan siyasi gücünün sosial - iqtisadi proseslərə də təsir dairəsinin tədricən genişlənməsi problemləri öyrənilməli;
- iqtisadi nəzəriyyənin dəyişən və yeniləşən, mürəkkəb ziddiyyətlərlə səciyyələnən dünyanın gələcək həm milli iqtisadiyyatlar çərçivəsində, həm də qlobal miqyasda problembrinin optimal həlli iqtisadçı mütəxəssislər arasından geniş dünya görüşünə malik gənclər seçilərək, iqtisadi nəzəriyyə ixtisası üzrə mütəxəssis kadrlar hazırlanmalıdır.

Hazırda və gələcəkdə bu istiqamətdə aparılan, habelə aparılacaq tədqiqatlar, yazılacaq kitablar, nəşr olunacaq dərsliklər, daxili - xarici aləmdə baş verən mürəkkəb iqtisadi prosesləri dünya təsərrüfat həyatı təcrübəsinin müqayisəli təhlili zəmində hərtərəfli

öyrənib həm milli iqtisadiyyatlar, həm də beynəlxalq miqyasda elmi-nəzəri konsepsiyalara əsaslanan ən optimal iqtisadi siyasət xəttinin hazırlanmasına xidmət etməlidir.

Cəmiyyətin perspektiv iqtisadi-sosial inkişaf mənzərəsinin üfüqlərini müəyyənləşdirməyə çalışan və iqtisadi nəzəriyyənin U.Petti, F.Kene, A.Smit, D.Rekardo, K.Marks, A.Marşall kimi əbədi örnək mənbəyi sayılan Ç.Keyns vaxtilə yazmışdı: «Gələcək illərin hadisələri, şübhəsiz cəmiyyətin siyasi həyat səthinin dəyişkən dalğaları üzərində fasiləsiz surətdə davam etsə də, lakin onun nəticələri təkcə dövlət xidmətlərinin şüuıiu hərəkətləri ilə deyil, ilk baxışda heç kəsin görə bilmədiyi gizli dərinliklərdəki iqtisadi axınlarla müəyyən olunacaqdır. Bu gizli axınlara, yaxud iqtisadi meyllərə isə təsir göstərməyin yalnız bir yolıı vardır: həmin yol bilik və təfəkkürün imkanlarından istifadə edərək, insanların keçmiş təsəvvürlərini, düşüncələrini dəyişdirməkdən ibarətdir. Deməli, əsl həqiqəti söyləmək, xülyaları dağıtmaq, nifrəti məhv etmək, insanların hiss və ağlını maarifləndirmək - bizim ən etibarlıı vasitələrimizdəndir».

Bu yolda cəmiyyətin iqtisadi bazisini təşkil edən mülkiyyət münasibətləri sistemi əsasında, ictimai - siyasi quruluşun rastlaşdığı çoxcəhətli problamlərin adi vətəndaşlardan baslayaraq, dövlət xadimlərinədək hərtərəfli öyrənilib düzgün dərk edilməsi səyləri, onları iqtisadi nəzəriyyənin obyektiv xarakter daşıyan qanunlarının, təməl prinsiplərinin tələblərinin hökmən gözlənilməsinə, ən başlıcası isə ardıcıllıqla həyata keçirilməsinə yönəltməlidir.

## Ədəbiyyat


1. Azırbaycan statistik göstəriciləri. Bakı, 2010
2. İqtisadi nəzəriyyə. Dərs vəsaiti. Bakı, 2004
3. İqtisadi nəzəriyyə. Dərslik. Bakı, 2001
4. İqtisadi nəzəriyyə. Mikroiqtisadiyyat – 1, 2. Dərslik. Bakı, 2009
5. ***M.Qreqori Mənkyu***. Economicsin əsasları. Bakı, 2007
6. Tətbiqi iqtisadiyyat. Dərs vəsaiti. Bakı, 2000
7. ***Д.Д.Сакс, Ф.Б.Ларрен***. Макроэкономика. М., 1996
8. ***К.Р.Макконнелл, С.Л.Брю***. Экономикс. Москва, 2008
9. ***Н.Грегори Менькю***. Макроэкономика. М., 1996
10. ***П.Самуэльсон, В.Нордхаус***. Экономика. Москва, 2008
11. ***Р.Пиндайк, Д.Рубинфельд***. Микроэкономика. М., 1997.
12. ***С.Н.Ивашковский***. Микроэкономика. М., 2002.
13. ***С.Фишер, Р.Дронбуш, Р.Шмалензи***. Экономика. Москва, 2001.
14. Экономика. Учебник. Под редакцией. А.С.Булатова. Москва, 2008.
15. Экономическая теория (политэкономия). Учебник. Под общей редакцией В.И.Видяпина, Г.П.Журавлевой. М.,2007.

Jurnallar:

1. «İqtisadiyyat və həyat»,
2. «Dirçəliş – XXI əsr»,
3. «Audit»,
4. «Təkamül»,
5. «Ekspert»,
6. «Вопросы экономики»,
7. «Экономика»,
8. «Мировая экономика и международные отношения»

# İqtisadiyyat üzrə Nobel mükafatı laureatları

Dövrümüzün ən nüfuzlu elmi mükafatı İsveç mühəndisi, ixtiraçısı və sənayeçisi ***Alfred Nobelin*** adı ilə bağlıdır. Onun vəsiyyətinə əsasən vəfatından sonra qalan kapitalın müəyyən hissəsi hesabına Nobel fondu yaradılaraq, banka yerləşdirilmişdir.

Nobel mükafatı 1901-ci ildən başlayaraq, ən görkəmli elmi kəşflər üçün verilir.

1968-ci ildə İsveç Dövlət Bankı təsis olunmasının 300 illiyi münasibətilə, iqtisadi elmlər sahəsində aparılan tədqiqatlara görə Nobel xatirə mükafatı verməyi qərara almışdır.

Mükafat A.Nobelin anadan olduğu gündə (21.10.1833) elan olunur və onun vəfatı günündə (10.12.1896) laureatlara Stokholm və Osloda keçirilən təntənəli mərasimdə təqdim olunur.

İqtisadiyyat elmləri sahəsində 1969-2011-ci illər ərzində Nobel mükafatına layiq görülmüş laureatlar aşağıdakı alim və mütəxəssislərdir:

**1969-cu il** – ***Yan Tinbergen (Hollandiya), Raqnar Friş (Norveç)***
İqtisadi proseslərin təhlilinin riyazi metodlarının işlənilməsinə görə

**1970-ci il** – ***Pol Samuelson (ABŞ)***
İqtisad elmində elmi təhlilin səviyyəsinin yüksəldilməsinə töhfəsinə görə

**1971-ci il** – ***Saymon Kuznets (ABŞ)***
İqtisadi artımın empirik tədqiqinə görə

**1972-ci il** – ***Kennet Errou (ABŞ), Con Hikk (Böyük Britaniya)***
Ümumi iqtisadi tarazlıq və rifah nəzəriyyələri üzrə əsərlərinə görə

**1973-cü il** – ***Vasiliy Leontyev (ABŞ)***
«Xərclər-buraxılış» («Sahələrarası balans») metodunun işlənilməsi və iqtisadi problemlərin təhlilində tətbiqinə görə

**1974-cü il** – ***Fridrix Fon Hayek (Avstriya, ABŞ), Qunnar Myurdal (İsvec)***
Pul nəzəriyyəsi, konyuktur dəyişiklikləri və iqtisadi, sosial və struktur hadisələrin qarşılıqlı asılılığının təhlili sahəsində işlərinə görə

**1975-ci il** – ***Leonid Kantoroviç (SSRİ), Tyallinq Kupmans (ABŞ)***
Resurslardan optimal istifadə nəzəriyyəsinin işlənilməsinə görə

**1976-cı il** – ***Milton Fridmen (ABŞ)***
İstehlak sahəsində tədqiqatları, monetar nəzəriyyə və pul tədavülü tarixinin işlənilməsinə görə

**1977-ci il** – ***Ceyms Mid (Böyük Britaniya), Bertin Ulin (İsveç)***
Beynəlxalq ticarət nəzəriyyəsi və kapitalın hərəkəti sahəsi üzrə işlərinə görə

**1978-ci il** – ***Herbert Saymon (ABŞ)***
İqtisadi təşkilatlarda strukturun və qərarlar qəbul edilməsi proseslərinin tədqiqinə görə

**1979-cu il** – ***Artur Lyuis (ABŞ), Teodor Şults (ABŞ)***
İnkişaf etməkdə olan ölkələrin problemlərinin tədqiqi üzrə işlərinə görə

**1980-ci il** – ***Lourens Kleyn (ABŞ)***
İqtisadi meodellərin yaradılması və onların iqtisadi siyasət və dövrü dəyişikliklərin təhlilində tətbiqi üzrə işlərinə görə

**1981-ci il** – ***Ceyms Tobin (ABŞ)***

Maliyyə bazarlarının istehlak, istehsal, məşğulluq və qiymətlərlə əlaqələrinin tədqiqinə görə

**1982-ci il** – ***Core Stiqler (ABŞ)***
Sənaye strukturlarınm öyrənilməsi, bazarların fəaliyyətinin təhlili və iqtisadiyyatın dövlət tənzimlənməsinin rolunun təhlilinə görə

**1983-cü il** – ***Jerar Debre (ABŞ)***
Ümumi iqtisadi tarazlıq nəzəriyyəsi üzrə işlərinə görə

**1984-cü il** – ***Riçard Stoun (Böyük Britaniya)***
Milli hesablar sisteminin yaradılması və statistik ölçmələrə görə

**1985-ci il** – ***Franko Modilyani (ABŞ)***
Maliyyə siyasəti problemlərinin tədqiqi üzrə işlərinə görə

**1986-cı il** – ***Ceyms Byukenen (ABŞ)***
Qərarlar qəbulu nəzəriyyəsinin saziş və konstitusion əsaslarının təhlili üzrə işərinə görə

**1987-ci il** – ***Robert Solou (ABŞ)***
İqtisadi artım nəzəriyyəsi sahəsində fundamental tədqiqatlarına görə

**1988-ci il** – ***Moris Alle (Fransa)***
İqtisadi tarazlıq nəzəriyyəsi, iqtisadi artımın, investisiyaların və faiz dərəcələrinin qarşılıqlı əlaqəsi üzrə tədqiqatlarına görə

**1989-cu il** – ***Tryuqve Haavelmo (Norveç)***
İqtisadi təhlil nəzəriyyəsinə töhfəsinə görə

**1990-cı il** – ***Harri Markovits (ABŞ), Merton Miller (ABŞ), Uilyam Şarp (ABŞ)***
Resursların bölgüsündə həlledici rol oynayan müasir maliyyə bazarları nəzəriyyəsinin işlənilməsinə görə

**1991-ci il** – ***Ronald Kouz (ABŞ)***
İnstitutsional strukturda və iqtisadiyyatın fəaliyyətində ictimai (transaksiya) xərcləri və mülkiyyət hüquqlarının mahiyyətinin açılmasına, müəyyənləşdirilməsinə görə

**1992-ci il** – ***Hari Bekker (ABŞ)***
Makroiqtisadi təhlilin tətbiqi sahəsinin genişləndirilməsi və insan kapitalı nəzəriyyəsinin işlənilməsinə görə

**1993-cü il** – ***Duqlas Nort (ABŞ), Robert Fogel (ABŞ)***
İqtisadi tarix sahəsində yeni istiqamət kimi iqtisadi statistikadan istifadə olunmasına görə

**1994-cü il** – ***Con Xarsani (ABŞ), Con Neş (ABŞ), Reynhard Zelten (AFR)***
Oyun nəzəriyyəsinin iqtisadi proseslərə tətbiqinə görə

**1995-ci il** – ***Robert Lukas (ABŞ)***
Səmərəli gözləmələr nəzəriyyəsinin işlənilməsi və tətbiqi, onun iqtisadi siyasətin işlənilməsində istifadəsinə görə

**1996-cı il** – ***Uilyam Vikri (ABŞ), Ceyms Mirrlis (Böyük Britaniya)***
İqtisadiyyatda kafı olmayan və təzadlı informasiya şəraitində stimullar nəzəriyyəsinin işlənilməsinə görə

**1997-ci il** – ***Robert Merton (ABŞ), Mayron Skoulz (ABŞ)***
Əsasında bütün maliyyə bazarlarının fəaliyyəti qurulmuş törəmə qiymətli

kağızların dəyərinin qiymətləndirilməsi düsturunun işlənilməsinə görə

**1998-ci il** – ***Amartia Sen (Hindistan)***
Əhalinin rifah halının iqtisadi təhlilinə verdiyi töhfəyə görə

**1999-cu il** – ***Robert Mendell (ABŞ)***
Açıq bazar iqtisadiyyatlı ölkəbrdə pul və maliyyə siyasəti sahəsində tədqiqatlarına görə

**2000-ci il** – ***Ceyms Hekmen (ABŞ) Daniel Maк Fadden (ABŞ)***
Sosial iqtisadi amillərin təhlili üçün metod və nəzəriyyələri inkişaf etdirdiyinə görə

**2001-ci il** – ***Corc Akerlof (ABŞ), Maykl Spens (ABŞ), Djozef Ştiqlits (ABŞ)***
Qeyri-simmetrik informasiyaların bazarda problemləri ilə bağlı işlərə görə

**2002-ci il** – ***Daniel Kaneman (İsrail), Vernon Smit (ABŞ)***
İqtisad elmində psixoloji metodların tətbiqi və alternativ bazar münasibətlərinin mexanizminin təhlili üçün apardıqları laboratoriya təcrübələrinə görə

**2003-cü il** – ***Robert Enql (ABŞ), Klayv Qrençer (Böyük Britaniya)***
Müvəqqəti iqtisadi tsikillərin təhlili metodlarının ümumi metodlar yolu ilə dəyişməsi sahəsindəki tədqiqatlarına görə

**2004-cü il** – ***Finn Kindland (Norveç), Edvard Preskot (ABŞ)***
Dinamik makroiqtisadiyyatda vaxt amilinin işgüzar tsiklləri idarə edən iqtisadi siyasət sahəsindəki tədqiqatlarına görə

**2005-ci il** – ***Robert Auman (İsrail), Tomas Sellinq (ABŞ)***
Oyunlar nəzəriyyəsinin təhlili yolu ilə münaqişə və əməkdaşlıq anlayışlarının mahiyyətinin dərinləşdirilməsi sahəsindəki tədqiqatlarına görə

**2006-cı il** – ***Edmund Felps (ABŞ)***
Makroiqtisadi siyasətdə qısa və uzunmüddətli effektlər arasında qarşılıqlı əlaqələrin tədqiqinə görə

**2007-ci il** – ***Leonid Qirvits (ABŞ), Erik Meskin (ABŞ), Rodjer Mayerson (ABŞ)***
Optimal mexanizmlər nəzəriyyəsinin əsaslarının yaradılmasına görə

**2008-ci il** – ***Pol Kruqman (ABŞ)***
Ticarətin strukturu və iqtisadi fəallığın yerləşməsinin təhlilinə görə

**2009-cu il** – ***Elinor Ostrom (ABŞ), Oliver Uilyamson (ABŞ)***
İqtisadi təşkilatlar sahəsində tədqiqatlarına görə

**2010-cu il** – ***Piter Daymond (ABŞ), Deyl Mortensen (ABŞ), Kristofer Pissaridis (Böyük Britaniya)***
Axtarış modelləri ilə bazarların tədqiqinə görə

**2011-ci il** – ***Tomas Sarcent, (ABŞ), Kristofer Sims (ABŞ)***
Makroiqtisadiyyatda səbəb-nəticə əlaqələrinin emprik tədqiqinə görə

# Əsas iqtisadi terminlərin izahlı lüğəti *(Qlossari)*

## A

***Abonement*** – Müəyyən müddət ərzində müxtəlif nemətlərdən və xidmətlərdən istifadə etmək hüququ verən sənəd.

***Abstraksiya*** – Hadisə və proseslərin təhlili gedişində istifadə olunan mücərrəd yanaşma metodu.

***Açıq bazar əməliyyatları*** – Dövlətin pul-kredit siyasətinin tərkib hissəsi kimi Mərkəzi Bankın qiymətli kağızları açıq bazarda alıb-satması.

***Açıq iqtisadiyyat*** – Milli iqtisadiyyatın dünya təsərrüfat əlaqələrində və beynəlxalq əmək bölgüsündə optimal iştirakı.

***Açıq inhisar*** – Bir şirkətin (korporasiyanın) müəyyən dövr ərzində bazarda tək istehsalçı və satıcı kimi fəaliyyət göstərməsi.

***Açıq səhmdar cəmiyyəti*** – Səhmləri qiymətli kağızlar (fond) bazarında sərbəst satılıb-alınan səhmdar cəmiyyəti.

***Agent*** – Başqalarının tapşırığı ilə müəyyən bir fəaliyyət növünü yerinə yetirən hüquqi və fiziki şəxs.

***Ailə büdcəsi*** – Ailənin müəyyən dövr üçün pulla hesablanan gəlir və xərcləri.

***Ailə (ev) təsərrüfatı*** – İqtisadi fəaliyyətin üç əsas (dövlət, sahibkar, ev təsərrüfat) iştirakçılarından (subyektlərindən) biri.

***Ajiotaj*** – Möhtəkirlik məqsədilə birjada qiymətli kağızların və əmtəə-xidmətlərin qiymətlərinin süni surətdə aşağı salınması, yaxud qaldırılması.

***Akkreditiv*** – Fiziki və hüquqi şəxsə müəyyən məbləğin ödənilməsi barədə bir bankın digərinə tapşırığı.

***Aksiya (səhm)*** – Sahibinə dividend (müəyyən faiz) almaq və aksiya sahiblərinin yığıncağında iştirak edib, səs vermək hüququnu təmin edən qiymətli kağız.

***Aksiz*** – Bəzi istehlak mallarına (spirtli içkilərə, tütün məmulatlarına, xammal növlərinə, zinət əşyalarına) qoyulan dolayı vergi.

***Akt*** – Hüquqi qüvvəyə malik olan rəsmi sənəd.

***Aktiv (aktivlər)*** – mülkiyyətçinin malik olduğu maddi və maliyyə resursları.

***Aqrar münasibətlər*** – Kənd təsərrüfatındakı iqtisadi münasibətləri əks etdirir.

***Aqrar-sənaye inteqrasiyası*** – Kənd təsərrüfatı ilə sənayenin əlaqəli sahələrinin birgə fəaliyyəti.

***Aqrar-sənaye kompleksi*** – Kənd təsərrüfatı məhsulları istehsal edən (I sahə), aqrar bölmə üçün maşınlar istehsal edən sənaye (II sahə), kənd təsərrüfatı məhsullarının emalı, saxlanması, istehlakçılara çatdırılması, habelə mütəxəssislərin hazırlanması (III sahə) fəaliyyətlərinin məcmusu.

***Aqrar siyasəti*** – Kənd təsərrüfatı məhsulları qiymətlərinin formalaşmasına, fermer təsərrüfatlarına kömək məqsədilə həyata keçirilən rəsmi siyasət xətti.

***Aqrobiznes*** – Kənd təsərrüfatı ilə bağlı olan digər sahələrin birgə kompleksi.

***Alıcı bazarı*** – Təklifə görə tələbin üstün olduğu bazar vəziyyəti.

***Alıcılıq qabiliyyəti pariteti*** – Hər hansı bir valyuta vahidinin başqa ölkələrdə hansı kəmiyyət nisbətində əmtəə-xidmətlər alacağını əks etdirən məzənnə konsepsiyası.

***Alyans*** – Müqavilə öhdəliyi əsasında yaradılan birlik.
***Amil*** – İstehsal fəaliyyətinin əsas səbəb və şərtlərindən (torpaq, əmək, kapital, sahibkarlıq qabiliyyəti) biri.
***Amortizasiya*** – Avadanlığın istifadəsi nəticəsində, onun dəyərinin tədricən azalması.
***Antiinhisar qanunları*** – İnhisarçılığa qarşı mübarizə məqsədilə dövlət səviyyəsində qəbul olunmuş qanunlar.
***Arbitraj*** – Qarşılıqlı müqavilə öhdəliyinin pozulması ilə bağlı yaranmış münaqişənin həlli variantlarından biri.
***Artım*** – İqtisadi göstəricilərin ilkin baza səviyyəsinə nisbətən dəyişmə dinamikası (artıb-azalması).
***Aşkar xərclər*** – Şirkətləri istehsal resursları ilə təchiz edənlərə bilavasitə pulla olan ödənişləri.
***Avropa İttifaqı (Birliyi)*** – Region iqtisadi əməkdaşlığın yüksək inteqrasiya forması olub, 27 ölkəni birləşdirir.
***Avro*** – 2002-ci il 1 yanvar tarixdən dövriyyəyə buraxılmış və bir sıra Avropa ölkələrinin istifadə etdikləri kollektiv pul vahidi.
***Avans (beh)*** – Müəyyən işlərin görülməsi və xidmətlərin yerinə yetirilməsi məqsədilə, əvvəlcədən ödənilmiş məbləğ.
***Avtargiya*** – Beynəlxalq iqtisadi əlaqələrdən və dünya bazarından təcrid olunaraq, öz-özünü təmin etmə siyasəti.
***Audit*** – Şirkət və müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil peşəkar mütəxəssislər tərəfindən obyektiv təhlili.
***Azad (sərbəst) iqtisadi zona*** – Ölkənin müəyyən ərazisində güzəştli vergi və gömrük şərtləri əsasında müxtəlif yerli-xarici şirkətlərin fəaliyyət göstərdiyi məkan.
***Azalan marjınal məhsuldarlıq*** – İstehsal amilinin kəmiyyətcə artması, onun marjınal (son faydalılıq) səviyyəsinin aşağı düşməsi.

**B**

***Bank*** – Müəyyən olunmuş müddətə pul əmanətlərini qəbul edən və kredit verən maliyyə təşkilatı.
***Banknot*** – Mərkəzi Bank tərəfindən buraxılan və ölkənin pul təklifinin bir hissəsini təşkil edən nağd kağız pul.
***Barter*** – Bir iqtisadi resurs və məhsul-xidmətin digərinə dəyişdirilməsi.
***Bazar*** – Əmtəə və xidmətlərin alınıb-satıldığı, ticarət sövdələşmələrinin aparıldığı yer.
***Bazar iqtisadiyyatı*** – Xüsusi mülkiyyətə, sərbəst sahibkarlıq fəaliyyətinə, rəqabətə, şəxsi maraqlara əsslanıb, dövlətin təsərrüfat həyatına təsirinin məhdud olduğu iqtisadi sistem.
***Bazar qiyməti*** – Alıcı və satıcı tərəfindən reallaşdırılan əmtəələrin-xidmətlərin satış qiyməti.
***Bazar sistemi*** – Qarşılıqlı əlaqədə olan çoxsaylı (müxtəlif) bazarların məcmusu.
***Bazar tələbi*** – Tələbin ümumi həcmi, fərdi tələblərin cəmi.
***Balans*** – Şirkət və təşkilatların müəyyən müddət ərzində gəlir-xərclərinin yekunu.
***Beynəlxalq Valyuta Fondu (BVF)*** – BMT nəzdində fəaliyyət göstərən və beynəlxalq miqyasda maliyyə-kredit tənzimlənməsi ilə məşğul olan təşkilat.
***Birja*** – Əmtəə-xidmətlərin, iş qüvvəsinin, kapitalın, qiymətli kağızların alqı-satışında vasitəçilik edən təşkilat.

***Beynəlxalq bazar*** – Müxtəlif dünya ölkələrinin daxil olduğu bazar.
***Bonus*** – Əlavə mükafatlandırma, saziş şərtlərinə uyğun olaraq, alıcının satıcıya güzəştləri.
***Broker (makler, dəllal)*** – Birjalarda alqı-satqı əməliyyatlarında vasitəçilik edən şəxs.
***Borc kapitalı*** – Geri qaytarılmaq və müəyyən borc faizinin ödənilməsi şərti ilə verilən pul kapitalı.
***Bölgü*** – İstehsal iştirakçılarının yaradılmış məhsuldan və gəlirdən istifadədə paylarının müəyyənləşdirilməsi.
***Böhran*** – Bazr münasibətləri iqtisadi sistemində vaxtaşırı təkrar olunan tsiklik (dövrü) inkişaf prosesi.
***Brend*** – Dünyada tanınmış ticarət markası.
***Bretton-Vuds valyuta sistemi*** – qızıl-dollar standartı əsasında beynəlxalq hesablaşmaların təşkili formalarından biri.
***Büdcə*** – Müəyyən müddət üçün dövlətin, müxtəlif idarə orqanlarının, ailələrin, ayrı-ayrı şəxslərin pul gəlirləri ilə xərclərinin balansı.
***Büdcə defisiti*** – İl ərzində dövlətin büdcə xərclərinin onun gəlirlərindən çox olması.
***Büdcə profositi*** – Vergi gəlirlərinin dövlət xərclərindən artıq qalan hissəsi.
***Büdcə xətti*** – Mövcud qiymətlərlə, alıcının iki əmtəədən ibarət dəstin müəyyən miqdar nisbətində əldə etməsinin üstünlüyünü qrafiklə əks etdirən xətt.
***Büdcə təşkilatları*** – Bütövlükdə yaxud qismən dövlət və yerli büdcədən maliyyələşdirilən təşkilatlar.

## C

***Canlanma*** – İqtisadi tsiklin (dövrün, fazanın, silsilənin) böhran və durğunluq vəziyyətindən sonra yüksəlişin başlanmasını göstərən mərhələ.
***Canlı əmək*** – İnsanın şüurlu, məqsədyönlü fəaliyyəti üçün sərf etdiyi fiziki-intelektual enerjisi.
***Cari bazar qiyməti*** – İndiki halda əmtəənin və xidmətin bazar qiyməti.
***Cari xərclər*** – İndiki anda edilən və ödənilən xərclər.
***Cari hesab*** – Şirkət və təşkilatların saxlanması, onların müxtəlif tədiyyələr üzrə nağdsız hesablaşmalar aparmaq üçün bankdakı hesabı.
***Cari valyuta siyasəti*** – Valyuta məzənnəsinin tənzimlənməsi məqsədilə Mərkəzi Bankın və Maliyyə Nazirliyinin həyata keçirdiyi tədbirlər.
***Cari əməliyyat balansı*** – Ölkədən ixrac olunan əmtəə-xidmətlərin həcmi ilə onların idxal həcmi arasındakı fərq.
***Cari proqnozlar*** – Proqnozlaşdırmanın bir növü olub, tələbin cari müddət üçün nəzərdə tutulan perspektivlərini nəzərdə tutur.
***Cəlb edilmiş vəsait*** – Müəssisəyə, şirkətə məxsus olmayıb, kənardan alınmış, lakin qaytarılana qədər istifadə edilə bilən vəsait.
***Cərimə*** – Mövcud qanunları, qaydaları, müqavilə və saziş şərtlərini pozanlara qarşı tətbiq edilən maddi tədbir, alınan müəyyən məbləğdə pul.
***Cinni əmsalı*** – Ölkə əhalisinin pul gəlirlərinin müəyyən qruplar üzrə bölgüsü.
***Coğrafi seqmentləşdirmə*** – Yaşadıqları yerdən asılı olaraq, istehlakçıların (alıcıların) müəyyən kateqoriyalara bölünməsi.

## Ç

***Çatışmazlıq*** – Tələbin həcminin təklifin həcmindən daha yüksək səviyyədə olduğu vəziyyət.
***Çap reklamları*** – Mətbəə üsulu ilə yerinə yetirilən reklamlar.
***Çarter*** – Nəqliyyat vasitələrinin sahibləri ilə sifarişçi (icarədar) arasında müəyyən müddətə bağlanmış müqavilə.
***Çek*** – Müəyyən olunmuş formada pul sənədə kimi fiziki, yaxud hüquqi şəxsin bankdakı vəsaiti (pulu) barəsində qəti sərancamı, əmri.
***Çeşid*** – Məhsul və xidmətlərin tərkibi, növləri, tipləri.
***Çevik iqtisadi siyasət*** – Dövlətin və şirkətin yaranmış konkret vəziyyətdən irəli gələn hərəkət xətti.
***Çevik kapital*** – Asanlıqla əvəz edilə bilən və dəyişdirilə bilən kapital.
***Çevik qiymət*** – Razılaşdırılmış, lakin əmtəələrin göndərildiyi və xidmətlərin göstərildiyi vaxt bazar qiymətlərinin dəyişkənliyindən asılı olaraq, yenidən baxılan kəmiyyət.
***Çevik valyuta məzənnəsi*** – Valyuta bazarındakı dəyişikliklərlə müəyyən olunan,yaxud «üzən» məzənnə.
***Çıxış qiyməti*** – Alıcının almağa, satıcının isə satmağa razı olduqları ən yüksək yaxud ən aşağı qiymət.
***Çoxtərəfli hesablaşma*** – Uç və daha çox ölkəni əhatə edən xarici ticarət, kredit, investisiyalar üzrə qarşılıqlı hesablaşmalar sistemi.

## D

***Daxili bazar*** – Ölkə daxilində, onun hüdudları çərçivəsində fəaliyyət göstərən bazar.
***Daxili dövlət borcu*** – Dövlətin təşkilatlara, şirkətlərə və ölkə əhalisinə olan borcları.
***Daimi (sabit) xərclər*** – Məhsul istehsalının həcmindən asılı olmayan və binaların saxlanması, uzunmüddətli icarəsi, inzibati-idarəetmə işçi heyətinə əmək haqqının ödənilməsi xərcləri.
***Dəyişən xərclər*** – İstehsalın həcmindən asılı olaraq, şirkətin ümumi xərclərinin artmasi yaxud azalması.
***Debitor*** – Şirkətə, təşkilata pul borcu olan hüquqi və fiziki şəxs.
***Devalvasiya*** – Valyuta məzənnəsinin rəsmi aşağı salınması.
***Diversifikasiya*** – İstehsal prosesinin şaxələnmiş (müxtəlif təyinatlı məhsullar buraxılışı) surətdə inkişafı.
***Denominasiya*** – Kağız pul vahidinin müəyyən edilmiş variantda iri pul vahidlərinə dəyişdirilməsi.
***Demoqrafiya*** – Əhalinin tərkib quruluşu, yerləşməsi və onun dinamikasında baş verən müxtəlif dəyişiklikləri öyrənən iqtisad elminin sahəsi.
***Demping siyasəti*** – Rəqabət formalarından biri olub, xarici bazarda müəyyən vaxt ərzində məhsulların istehsal xərclərindən ucuz satılması.
***Dəyər*** – İstehsalçıların əmtəədə təcəssüm olmuş və maddiləşmiş xərcləri.
***Dividend*** – Səhm sahiblərinin qoyduqları kapitala görə aldıqları pay.
***Diler*** – Fond birjasında müstəqil fəaliyyət göstərən işgüzar şəxs.
***Diskont*** – Buraxılmış qiymətli kağızın bazar qiymətilə nominal dəyəri arasındakı fərq.

***Dotasiya*** – Öz gəlirləri ilə öz xərclərini ödəyə bilməyən müəssisə və təşkilatlara, geri qaytarmamaq şərtilə dövlət tərəfindən verilən vəsaitlər.

***Dövriyyə fondları*** – Bir istehsal prosesi ərzində dəyərini hazır məhsulun üzərinə tam keçirən məhsuldar fondlar.

***Dövlətsizləşdirmə*** – Dövlət mülkiyyətində qalmaqla, istehsal və xidmət dairəsi obyektlərinin sahibkarlara, habelə əmək kollektivlərinə icarəyə, istifadəyə verilməsi.

***Dövlət borcu*** – Dövlətin daxili və xarici borclarının cəmi.

***Dövlət bölməsi*** – İqtisadiyyatın dövlət orqanları tərəfindən idarə edilən, dövlət mülkiyyətində olan hissəsi.

***Dövlət büdcəsi*** – Dövlətin pul vəsaiti fondunun əmələ gəlməsi və onun istifadə edilməsi istiqamətlərini müəyyən edən gəlir-xərclərinin ümumi smentası.

***Dövlət mülkiyyəti*** – Dövlətə məxsus olan və onun idarə etdiyi obyektlər.

***Dövlət xəzinəsi*** – Dövlət büdcəsinin pul vəsaitlərinin və dövlətin digər sərvətlərinin saxlandığı yer.

***Dövlət iqtisadi siyasəti*** – Dövlət adından hökumətin istehsal, bölgü, mübadilə, istehlak, yığım, ixrac, idxal sahəsində həyata keçirdiyi fəaliyyət xətti.

***Dövlət krediti*** – Ölkədə və xaricdə hüquqi və fiziki şəxslərdən dövlətin istiqraz formasında aldığı borc.

***Dövlət müavinəti*** – Dövlət büdcəsinin vəsaitləri hesabına və büdcədənkənar fondlar hesabına əhaliyə verilən müavinət.

***Dünya bazarı*** – Bir-biri ilə beynəlxalq əmək bölgüsündəki iştirakla bağlı olan ölkələr arasındakı əmtəə-pul münasibətləri sistemi.

***Dünya qiyməti*** – Dünya bazarında satılan müxtəlif məhsulların hər vahidinin beynəlxalq dəyərinin pul ifadəsi.

## E

***Ekstensiv inkişaf tipi*** – Əvvəlki texniki-texnoloji baza əsasında, əlavə xammal və iş qüvvəsi cəlb etməklə istehsalın həcminin artması.

***Elmi-texniki potensial*** – Elm və texnikanın inkişafını xarakterizə edən bütün göstəricilər kompleksi.

***Elastiklik*** – Tələb və təklifin həcminin onları müəyyən edən amillərdən (ilk növbədə qiymətlərdən) asılı olaraq dəyişməsi, həssaslığı.

***Elastik təklif*** – Elastiklik əmsalı vahiddən cox olan təklif ($E > 1$).

***Elastik tələb*** – Elastiklik əmsalı vahiddən çox olan tələb ($E > 1$).

***Elastiklik əmsalı*** – İqtisadi göstəricinin onun asılı olduğu amillərə həssaslığını səciyyələndirən göstərici.

***Elektron satışları*** – Xüsusi kompüter sistemləri (şəbəkəsi) əsasında geniş ərazini və alıcıları əhatə edən satışlar.

***Embarqo*** – Ölkəyə əmtəə-xidmətlər idxalı və ixracının qadağan edilməsi.

***Emissiya*** – Qiymətli kağızların, bank biletləri və kağız pulların hazırlanıb dövriyyəyə buraxılması.

***Emissiya bankı*** – Pulların emissiyasına cavabdeh olan orqan, ölkənin Mərkəzi Bankı.

***Erqonimika*** – İstehsal prosesində insanın imkanlarını hərtərəfli öyrənən və texnika-insan qarşılıqlı təsirini araşdıran elm sahəsi.

***Etalon*** – Ölçü nümunəsi, müqayisə üçün nümunə.
***Etiket*** – Məhsulun adını, təyinatını, qiymətini və digər parametrlərini göstərən yarlık (yaddaş vərəqi).
***Ev təsərrüfatı*** – İqtisadi fəaliyyətin üç əsas (dövlət, şirkət, ev təsərrüfatı-ailə) subyektlərindən biri.
***Evikasiya*** – Məhkəmə qərarı əsasında alıcının əldə etdiyi əşya və əmlakın onun əlindən alınması.

## Ə

***Ədalətli bazar dəyəri*** – Tələblə təklifin nisbəti ilə müəyyənləşən bazar dəyəri əsasında alıcı-satıcı arasında razılaşdırılan qiymət.
***Əhalinin alıcılıq qabiliyyəti*** – Əllərdə olan pula insanların müəyyən qiymətlər səviyyəsində əmtəə-xidmətlər əldə etməsi.
***Əhalinin pul gəlirləri və xərcləri balansı*** – Pul gəlirlərinin formalaşması mənbələrini və onlardan istifadənin əsas istiqamətlərinin əksi.
***Əhalinin-həyat səviyyəsi*** – Hər nəfərə düşən maddi nemətlərin və xidmətlərin kəmiyyət-keyfiyyət göstəriciləri.
***Əhalinin ödənilməyən tələbatı*** – Lazımi məhsul-xidmətlərin olmaması, yaxud onların keyfiyyətinin istehlakçıların tələblərinə cavab verməməsi üzündən həqiqi (real) ehtiyacın ödənilməyən hissəsi.
***Əhalinin natural gəlirləri*** – İnsanların özlərinin və ailə üzvlərinin istehlakı üçün şəxsi yardımçı, fermer təsərrüfatlarından, fərdi istehsaldan əldə edilən gəlir.
***Əlavə dəyər vergisi*** – Dolayı vergi növü olub, əmtəə və xidmətlərin reallaşdırılması zamanı onların dəyərinə edilmiş əlavə məbləğ.
***Əmək*** – İnsanın fiziki və intelektual qabiliyyətlərinin məqsədəuyğun surətdə əmtəə-xidmətlər istehsalına yönəldilməsi.
***Əmək bölgüsü*** – İstehsal prosesində işçilərin müəyyən sənət və peşələr üzrə ixtisaslaşması.
***Əmək birjası*** – İş qüvvəsinin alqı-satqısı sövdələşməsində iş verənlərlə (prinsipial) işə götürülənlər (agent) arasında vasitəçilik rolu oynayan bazarın bir növü.
***Əmək resursları*** – Fiziki cəhətdən yetişmiş, zehni qabiliyyəti və müəyyən biliyə malik olan əhali.
***Əmək haqqı*** – Müəyyən vaxt və gördüyü işin kəmiyyət-keyfiyyətinə görə işçinin əməyinə verilən qiymət.
***Əməyin elmi təşkili*** – Elmin və təcrübənin ən səmərəli üsulları əsasında əməyin təşkilinin daha da yaxşılaşdırılması.
***Əməyin intensivliyi*** – İstehsal prosesi gedişində əməyin gərginliyi və onun vaxt vahidi ərzində enerji sərfi.
***Əmək kooperasiyası*** – İstehsal prosesində ayrı-ayrı işçilərin, əmək kollektivlərinin əlaqələndirilmiş birgə əmək fəaliyyəti.
***Əmanət*** – Banklarda müəyyən şərtlər daxilində saxlanılan pul vəsaiti.
***Əmtəə*** – İnsanların öz istehlakları üçün deyil, bazar və satış üçün istehsal etdikləri məhsul.
***Əmtəənin dəyəri*** – Əmtəə istehsalçılarının əmtəədə maddiləşmiş ictimai dəyəri, istehsal xərcləri və faydalılıq həddinin məcmusu.

***Ənənəvi iqtisadiyyat*** – İqtisadi qanun və prinsiplər əsasında deyil, nəsildən-nəsilə formalaşmış adətlər, ənənələr üzrə fəaliyyət göstərən iqtisadiyyat.
***Əsas fondlar*** – İstehsal prosesində uzun müddət iştirak edən və öz dəyərini hazır məhsulun üzərinə hissə-hissə keçirən əmək vasitələri.
***Əsas fondların fiziki aşınması*** – Əmək vasitələrinin fiziki baxımdan köhnəlib sıradan çıxması.
***Əsas fondların mənəvi aşınması*** – Yeni texnika və mütərəqqi texnologiyaların yaranması nəticəsində əvvəlki istehsal vasitələrinin səmərəliliyinin aşağı düşməsi.

**F**

***Faiz risqi*** – Bazarda faiz dərəcələrinin bankın kredit-depozit əməliyyatlarından əldə etdiyi mənfəətinin azalmasına səbəb ola bilən dəyişkən bank risqi növü.
***Faydalılıq prinsipi*** – İnsanların ictimai nemət və xidmətlərdən aldıqları fayda əvəzində, onların müəyyən vergi ödəməli olduqlarının nəzərdə tutulması.
***Federal Ehtiyatlar Sistemi*** – ABŞ-nın Mərkəzi Bankı.
***Fermer problemi*** – İqtisadiyyatın digər sahələrinə nisbətən fermerlərin böyük bir hissəsinin gəlirlərinin aşağı olması və bu meylin artması.
***Fərdi istehsal*** – Vahid məmulat nümunəsi istehsal edən və xidmət göstərməsi ilə fərqlənən şirkət.
***Fərdi şirkət*** – Bir sahibkarın idarə etdiyi şirkət.
***Filips əyrisi*** – Qısa müddətli dövrdə inflyasiya ilə işsizlik arasındakı əlaqəni göstərən qrafik əyri.
***Fiskal siyasət*** – Dövlət xərcləri və vergilər sahəsində həyata keçirilən tədbirlər.
***Friksion işsizlik*** – İşçilərin öz zövq və bacarıqlarına uyğun iş axtarmasına sərf olunmuş vaxt baxımından meydana çıxan işsizlik.
***Fond birjası*** – Qiymətli kağızların alınıb-satıldığı bazar.
***Fondla silahlanma*** – İstehsal sahələrində işçilərin əsas fondlarla təmin olunmasını xarakterizə edən göstərici.
***Fondverimi*** – İstehsal fondlarından istifadə səviyyəsini xarakterizə edən ümumiləşdirici göstərici.
***Füuçers*** – Saziş bağlayan investorun müəyyən müddətdən sonra, razılaşdırılmış qiymətə öz qiymətli kağızlarını müştərisinə (kontragentə) satmaq, yaxud ondan almaq öhdəliyini üzərinə götürməsi.

**G**

***Geniş bazar*** – Qeyri-məhdud, açıq və liberal bazar.
***Geniş təkrar istehsal*** – Artan miqyasda təkrar istehsal prosesi.
***Gəlir*** – Müəyyən vaxtda pul və digər gəlirlərin kəmiyyəti.
***Gəlir vergisi*** – Ölkə vətəndaşlarından, fiziki və hüquqi şəxslərdən qanunvericilik əsasında tutulan vergi növü.
***Gəlir haqqında deklarasiya*** – Vətəndaşların və sahibkarlıq fəaliyyəti ilə məşğul olanların gəlirləri haqqında vergi orqanlarına təqdim etdikləri məlumat.
***Gəlirin indeksləşdirilməsi*** – Direktiv surətdə əhalinin gəlirinin istehlak tələbatına uyğun nisbi artırılması.

***Gəlirlilik*** – Qiymətli kağızların əsas keyfiyyət göstəricisi.
***Girov*** – Borc öhdəliyinin yerinə yetiriləcəyinə təminatvermə növlərindən (əmlakla, qiymətli şeylə) biri.
***Gizli razılaşma*** – Şirkətlərin qiymət, istehsal həcmi və satış bazarlarını bölmək üçün gizli razılaşmaları.
***Gömrük*** – Ölkənin iqtisadi sərhədlərinin mühafizə sistemi.
***Gömrük rüsumu*** – Xarici ölkə məhsulları milli sərhədləri keçdikləri vaxt, dövlət tərəfindən alınan müəyyən pul vəsaiti (vergi).
***Gömrük tarifi*** – Ölkədən çıxarılan və ölkəyə daşınan məhsulların, malların sistemləşdirilmiş qaydalar üzrə vergi norması.
***«Görünməz əl» prinsipi*** – Bazarın fəaliyyətinə dövlətin qarışmaması haqqında A.Smitin irəli sürdüyü fikir.
***«Gözləmə» nəzəriyyəsi*** – İstehlakçıları və şirkətləri perspektivdə nələr gözləyəcəyi, yaxud nələr ola biləcəyi haqqında konsepsiya.

**H**

***Hazır məhsul*** – Şirkətdə (birlikdə) standartların və müqavilənin tələblərinə tam cavab verən məhsulların hazırlanmasının son tamamlanması.
***Hesablama Palatası*** – Bir sıra ölkələrdə fəaliyyət göstərən ali dövlət maliyyə nəzarəti orqanı.
***Həyat səviyyəsi*** – Əhalinin maddi, sosial, mədəni və intelektual tələblərinin ödənilməsi.
***Həyat tərzi*** – İnsanların həyatının sosial-iqtisadi tərəfini səciyyələndirən ümumiləşdirici anlayış.
***Hərrac*** – Müəyyən edilmiş vaxtda və yerdə, müəyyən miqdarda əmtəələrin, əmlakın, əşyaların açıq satışı.
***Hərrac qiyməti*** – Əmlak və malın hərrac satışında alınan qiyməti.
***Himayədarlıq siyasəti*** – Milli iqtisadiyyatı xarici rəqabətdən qorumaq üçün gömrük, valyuta, kredit kimi vasitələrdən istifadəni nəzərdə tutan tədbirlər sistemi.
***Hiperinflyasiya*** – Ölkədə qiymət səviyyəsinin çox sürətlə artması.
***Holdinq şirkət*** – Başqa şirkət və müəssisələrin fəaliyyətini idarə edən, yaxud onlara nəzarət edən korporasiya, baş şirkət.
***Homo Economics*** – İqtisadi qərarların optimal variantını qəbul edən, yüksək iqtisadi biliyə malik adam.
***Hökumətin transfer ödəmələri*** – Hökumətin mübadilə və dövlət sifarişləri üçün xərclədiyi vəsait.
***Hökumət tədarükü*** – Mərkəzi və yerli halimiyyət orqanları tərəfindən əmtəə-xidmətlərin alqısı.
***Hüquqi şəxs*** – Qanunvericiliyə uyğun olaraq, hüquq və vəzifələrin müstəqil daşıyıcısı kimi çıxış edən təsərrüfat subyekti.

**X**

***Xalis idxal*** – Ölkə idxalının ümumi həcmi və ölkəyə idxal edilən məhsul növlərinin ixrac həcmi arasındakı fərq.
***Xalis ixrac*** – İxrac edilən malların ixrac və idxalı arasındakı fərq.

***Xalis kapital axını*** – Xaricə kapital axınının ümumi həcmi ilə xaricdən ölkəyə kapital axınının həcmi arasındakı fərq.

***Xalis milli məhsul*** – Ölkənin makroiqtisadi göstəricilərindən biri olub, ümumi milli məhsulun dəyər tərkibindən istehlak olunmuş istehsal vasitələrinin dəyəri və vergilər çıxıldıqdan sonra qalan hissə.

***Xalis satış həcmi*** – Kreditə satılmış malların dəyəri çıxıldıqdan sonra ilə müəssisəsinin satdığı mal və xidmətlərin ümumi dəyəri.

***Xalis vergilər*** – Əhalinin dövlətdən aldığı transfert ödənişlərinin çıxılması şərti ilə əhalinin dövlətə ödədiyi vergilər.

***Xalq təsərrüfatı*** – İctimai əmək bölgüsünün fəaliyyət göstərdiyi şəraitdə, qarşılıqlı əlaqə və asılılıqda olan sahələrin məcmusu.

***Xammal*** – İlk dəfə əmək prosesinə məruz qalan və müxtəlif mallar istehsalında istifadə edilən əmək predmeti.

***Xarici borc*** – Xarici dövlətlərə, beynəlxalq maliyyə qurumlarına, vətəndaşlara, şirkətlərə və təşkilatlara olan borc.

***Xarici rəqabət*** – Bir ölkə şirkətinin əmtəə-xidmətlər istehsal və idxal edərkən, başqa ölkələrin şirkətləri ilə toqquşması zamanı yaranan rəqabət.

***Xarici valyuta üzərində nəzarət*** – Hakimiyyət orqanları tərəfindən ölkə vətəndaşları və şirkətlərin xarici valyutaya və valyuta məzənnəsinə nəzarəti.

***Xarici ticarət defisiti*** – Dövlətin nəzərdə tutduğu ixracın kəsirdə qalması.

***Xəzinə*** – Dövlətin ümumi maliyyə ehtiyatı.

***Xəlvəti (gizli) bazar*** – Maddi nemətlə istehsalı və xidmətlər göstərilməsində qeyri-qanuni iqtisadi fəaliyyət növü.

***Xidmət dairəsi*** – Əhaliyə müxtəlif təyinatlı xidmətlər göstərməklə məşğul olan sahə, şirkət və təşkilatlar.

***Xidmətlər bazarı*** – İstehlak malları bazarının tərkib hissəsi.

***Xidmət müddəti*** – Müxtəlif məhsul və malların «həyat dövrü», yaxud «həyat tsikli».

***Xidmət tarifləri*** – Xidmət sahəsi obyektlərinin istehlakçılara, sifarişçilərə göstərdikləri xidmətlərin haqqı.

***Xüsusi müliyyət*** – İqtisadi münasibətlərin ifadəsi, mənimsəmənin xüsusi forması.

***Xüsusi sahibkarlıq şirkəti*** – Sahibinin fəaliyyətini öz maraqlarına uyğun idarə etdiyi, bütün mənfəətinə sahib olduğu, öhdəliklərinə görə məsuliyyət daşıdığı şirkət.

***Xüsusi (qızıl) səhm*** – Sahibi dövlət təşkilatı olan qiymətli kağız (səhm).

## İ

***İcarə*** – Əmlakın, torpağın, obyektin mülkiyyətçisi tərəfindən onun müəyyən şərtlər daxilində başqa şəxslərə istifadəyə verilməsi.

***İcarə haqqı*** – İcarəyə götürülmüş əmlak və torpaqdan istifadə üçün pul ödənişi.

***İcarə müqaviləsi*** – Mülkiyyətçi (sahibkar) ilə əmlakdan istifadə edən, yəni icarədarla icarəçi arasında razılaşma sənədi.

***İdxal*** – Xaricdən ölkəyə daşınan məhsullar.

***İqtisadi artım*** – İstehsalın maddi və şəxsi amilləri hesabına onun həcminin artması.

***İqtisadi blokada*** – Hər hansı bir ölkə ilə müxtəlif səbəblər üzündən iqtisadi-ticarət əlaqələrinin kəsilməsi, yaxud onun təklənməsi.

***İqtisadi model*** – Real iqtisadi hadisə və proseslərin abstrakt formada ümumiləşdirilməsi.
***İqtisadi tənzimlənmə*** – İqtisadi proseslərin gedişini şüurlu surətdə tənzimləmək fəaliyyəti.
***İqtisadi integrasiya*** – Milli iqtisadiyyatların daha çox əməkdaşlığı yolu ilə onların təsərrüfat həyatının yaxınlaşması, qovuşması prosesi.
***İqtisadi sistem*** – Cəmiyyətdə baş verən iqtisadi münasibətlər və təşkilat formalarının təşəkkül tapması.
***İqtisadi səmərə*** – Ən az (minimum) xərclərlə, məhsul-xidmətin keyfiyyətinə xələl gətirmədən, daha yüksək iqtisadi nəticələrə nail olmaq.
***İqtisadi tsikl*** – İqtisadiyyatın böhran, durğunluq, canlanma və yüksəliş mərhələlərini (fazalarını) əhatə edən dövr.
***İqtisadi strategiya*** – Dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olub, bu siyasətin uzunmüddətli məqsədlərini özündə əks etdirir.
***İqtisadi sanksiyalar*** – Razılaşmaları və müqavilə şərtlərini pozan şəxslərə, habelə şirkətlərə qarşı tətbiq olunan məhdudlaşdırıcı, yaxud qadağan xarakterli tədbirlər sistemi.
***İnnovasiya*** – Elmi-texniki tərəqqinin təmin edilməsi, istehsal-xidmət sahələrinin keyfiyyət göstəricilərinin yüksəldilməsi.
***İnvestiya*** – İstehsal-xidmət təyinatlı obyektlərin tikilməsinə, müasir avadanlıqlarla təchiz olunmasına və yenidən qurulmasına yönəldilən kapital qoyuluşu.
***İnhisar*** – Müəyyən məhsul-xidmət istehsalı və satışının əhəmiyyətli hissəsini öz əlində cəmləşdirən iri şirkət.
***İnhisar qiyməti*** – İnhisarların satış bazarlarında müəyyənləşdirdikləri qiymət.
***İnflyasiya*** – Tədavüldə tələbdən artıq pul kütləsinin olması.
***İnfrastruktur*** – İstehsal və qeyri-istehsal sahələrinə xidmət göstərən müxtəlif şirkətlərin, müəssisələrin məcmusu.
***İpoteka*** – Müəyyən məbləğdə kredit almaq məqsədilə, əmlakın və torpağın girov qoyulması.
***İstehlak büdcəsi*** – Ailənin gəlir və xərclərinin büdcəsi.
***İstehlak dəyəri*** – Əmtəənin faydalılığı, onun insanın hər hansı bir tələbatını ödəmək xassəsi.
***İstehsal amilləri*** – Torpaq, əmək, kapital, sahibkarlıq qabiliyyəti.
***İstehsal istehlakı*** – İstehlakın bir növü olub, bilavasitə istehsal prosesində xammalın, avadanlıqların istifadəsini nəzərdə tutur.

## K

***Kağız pullar*** – Dövlətin rəsmi qayda-qanunları əsasında, xüsusi formada çap olunmuş pul nişaniarı.
***Kalkulyasiya*** – Hər məhsul vahidinin xərc növləri üzrə maya dəyərinin hesablanması.
***Kartel*** – İstehsal inhisarçılığının formalarından olub, eyni təyinatlı məhsul istehsal edən şirkətlərin məhsulun həcmi, satış bazar, qiymətlər barədə razılaşması.
***Kapital*** – İstehsal amillərindən biri olub, geniş mənada mənfəət gətirmək qabiliyyətində olan hər şeyə aid.
***Kateqoriya*** – Obyektiv varlıq və proseslərin (iqtisadi hadisələrin) ən mühüm, ümumi cəhətlərini ifadə edən anlayış.

***Kapital ixracı*** – Mənfəət əldə etmək məqsədilə fiziki və hüquqi şəxslərin (vətəndaşların, şirkətlərin), dövlətin başqa ölkələrdə yerləşdirdikləri kapital.
***Kadastr*** – Obyektin (torpaq, bina, sahə) gəlirliyi və qiymətləndirilməsi haqqında məlumat verən sənəd (reyestr).
***Kapitalizm*** – Xüsusi mülkiyyətə, azad sahibkarlıq fəaliyyətinə, rəqabətə əsaslanan ictimai-iqtisadi quruluş
***Kliring*** – Dövlətlər arasında müxtəlif banklar vasitəsilə nağdsız haqq-hesabların həyata keçirilməsi.
***Kommersiya*** – Mənfəət əldə etmək məqsədilə ticarətlə məşğul olmaq.
***Konsern*** – Formal cəhətdən müstəqil, lakin üzərində maliyyə nəzarəti olan sənaye, ticarət nəqliyyat, bankların könüllü birləşmə əsasında fəaliyyəti.
***Koperativ*** – Vətəndaşların mülkiyyət payı əsasında yaratdıqları könüllü təşkilat.
***Korporasiya*** – Hüquqi və fiziki şəxslərin mövcud qanunlar əsasında könüllü təşkilatı (səhmdar cəmiyyət, müəssisə).
***Korrupsiya*** – Ölkədə dövlət səviyyəsində məmurların rüşvətxorluqla məşğul olması.
***Kredit*** – Borc kapitalının hərəkət forması.
***Kredit siyasəti*** – Makroiqtisadi səviyyədə pul tədavülünün sabitliyini qoruyub saxlamaq, inflyasiyaya yol verməmək tədbirlərini həyata keçirmək.

### Q

***«Qaçaqmal» əmtəəsi*** – Dövlət sərhəddindən gizli olaraq, gömrük nəzarətindən yayınmaqla keçirilmiş mal.
***Qaçırılmış divident*** – Səhmlər üzrə vaxtaşırı ödənilməli olan dividentlərin alınmaması.
***«Qadağanedici qiymət»*** – əmtəə-xidmətə tələbin sıfıra bərabər olduğu qiymət.
***Qadağan tarifi*** – Müxtəlif əmtəələrin ölkəyə gətirilməsi və aparılmasını məhdudlaşdırmaq məqsədilə tətbiq edilən yüksək gömrük tarifi.
***«Qara bazar»*** – Əmtəə satıcıları və alıcıları arasında qanunvericiliyin ziddinə olan iqtisadi münasibətlər; kölgə iqtisadiyyatının atributlarından biri.
***Qarışıq iqtisadiyyat*** – Bazar və inzibati-amirlik iqtisadi sisteminin ünsürlərini özündə birləşdirən cəmiyyət.
***Qapalı iqtisadiyyat*** – Əmtəə və xidmətlər ixrac etməyən ölkənin iqtisadiyyatı.
***Qeyri-bazar xərcləri*** – Şirkətin resurslarından istifadə olunmasının alternativ xərcləri.
***Qeyri-elastik təklif*** – Elastiklik əmsalının təklif vahidindən kiçik olması ($E<1$).
***Qeyri-elastik tələb*** – Elastiklik əmsalının tələb vahidindən kiçik olması ($E<1$).
***Qənaət rejimi*** – İstehsal-xidmət dairəsində canlı əməkdən, istehsal vasitələrindən qənaətlə istifadə edilməsi.
***Qərəzli müflisləşmə*** – Şirkət, yaxud sahibkar tərəfindən öz borcunu ödəməmək və maliyyə resurslarını gizlətmək üçün qəsdən elan edilən vəziyyət.
***Qəti qiymət*** – Müqavilə, saziş bağlandığı, yaxud ikitərəfli razılaşma əldə edildiyi zaman təyin edilmiş və bunların qüvvədə olduğu müddətdə dəyişməyən qiymət.
***Qəza*** – Əmlak və obyektin müxtəlif səbəblər üzündən sıradan çıxması, yaxud normal iş ahənginin pozulması.
***Qısamüddətli dövr*** – İqtisadiyyatda müddəti bir il olan dövr.

***Qısamüddətli proqnoz*** – Sosial, elmi-texniki, iqtisadi məsələlərlə bağlı, bir aydan bir ilə qədər olan müddət.
***Qızıl*** – Əmtəə istehsalı şəraitində ümumi ekvivalent vəzifəsini yerinə yetirən xüsusi növ əmtəə.
***Qız cəmiyyət*** – Bazar münasibətləri iqtisadi sistemində, baş (ana) şirkətin müəyyən nəzarəti altında fəaliyyət göstərən müəssisə (qurum).
***Qiymət*** – Əmtəə və xidmət vahidi üçün ödənilən pulun məbləği.
***Qiymət indeksi*** – Müəyyən dövr ərzində qiymətin bazis ilinə nisbətən dəyişməsini göstərən parametr.
***Qiymət liderliyi*** – İri şirkətlərin bazar qiymətlərinə təsir etmək, bəzi hallarda isə bu qiymətləri təyin etməsi.
***Qiymətin liberallaşdırılması*** – Bazarda qiymətlərin sərbəst formalaşması.
***Qiymətin tarazlığı*** – Rəqabət bazarında tələb və təklifin həcminin bərabərliyi şəraitində formalaşan qiymət.
***Qiymətli materiallar*** – Qızıl, gümüş, platin bu qrupa daxil.
***Qiymətlərin minimum (aşağı) həddi*** – Dövlət tərəfindən məhsul vahidinə müəyyənləşdirilə biləcək qiymət.
***Qloballaşma*** – Milli iqtisadiyyatların tədricən bir-birindən daha çox qarşılıqlı əlaqələrinin güclənməsi və vahid dünya təsərrüfat sisteminin formalaşması prosesi.

## L

***Laq*** – Vaxt baxımından müəyyən bir hadisənin (iqtisadi prosesin) onunla bağlı digər hadisəyə nisbətən geri qalması, yaxud onu ötüb keçməsini göstərən iqtisadi göstərici.
***Laffer əyrisi*** – Vergi daxil olmalarının müxtəlif səviyyəli vergi dərəcəsindən asılılığını əks etdirən qrafik sxem.
***Liberalizm*** – Sahibkarlıq fəaliyyətinin azadlığı və sərbəstliyi.
***Limit qiyməti*** – İstehsal və xidmət dairəsinin konkret bir sahəsinə rəqiblərin daxil olmasının qarşısını almaq üçün kartelin (birliyin) müəyyənləşdirdiyi qiymət.
***Limitləşdirmə*** – Nəyinsə miqdar həddi ilə məhdudlaşdırılması.
***Likvidlik*** – Şirkətin və sahibkarın maliyyə öhdəliklərini ödəmək qabiliyyətini əks etdirən göstərici.
***Limit*** – Məhsul və xidmətin miqdar məhdudiyyəti, yaxud son norması.
***Logistika*** – Maddi, əmək, enerji ehtiyatlarının hərəkəti, habelə məlumat-informasiya axınının idarə edilməsi, onlara nəzarət nəzəriyyəsi.
***Lokal bazar*** – Bir neçə yaşayış məntəqəsini birləşdirən yerli bazar.
***Lombard*** – Əhalidən daşınar əmlakı girov qəbul etməklə borc verən qurum.
***Lisenziya*** – Patent və ixtiralardan istifadə etmək hüququnu təsdiq edən sənəd.
***Lizinq*** – İstehsal təyinatlı texnika və avadanlıqların, onların sonradan icarəyə götürənin almasını nəzərdə tutan uzunmüddətli icarə forması.

## M

***Maaş, məvacib*** – Tutduğu vəzifəyə uyğun olaraq, işçiyə təyin edilmiş nominal aylıq əmək haqqı.

***Maddi xərclər*** – İstehsal xərclərinin bir hissəsi olub, məhsulun hazırlanmasına sərf olunmuş xammal, yanacaq, material və sairəni nəzərdə tutur.
***Maddi istehsal*** – Bilavasitə maddi nemətlərin və əşyaların hazırlanması ilə bağlı olan istehsal.
***Maddi-texniki baza*** – İstehsal proseslərində istifadə olunan istehsal vasitələrinin məcmusu.
***Mafiya*** – Təşkil olnmuş qrup cinayətkarlığı.
***Maya dəyəri*** – Məhsulun istehsal və satışı ilə əlaqədar olan xərclər.
***Makler*** – Birjalarda sövdələşmələrin bağlanması üzrə vasitəçilik edən şəxs.
***Marja*** – Əmtəə-xidmətlərin qiyməti, səhmlərin məzənnəsi, faiz dərəcələri və başqa göstəricilər arasındakı fərqi ifadə etmək üçün istifadə edilən meyar.
***Makroiqtisadiyyat*** – İqtisad elminin ölkənin təsərrüfat həyatının ümumi fəallığının öyrənilməsi ilə məşğul olan və bunun əsasında iqtisadi artım, işsizlik, inflyasiya kimi əsas göstəriciləri müəyyənləşdirib, təhlil edən sahəsi.
***Makroiqtisadi siyasət*** – İqtisadiyyatın tarazlı inkişaf səviyyəsi fəaliyyətinin tənzimlənməsinə yönəlmiş dövlət siyasəti.
***Manufaktura*** – Əmək bölgüsü və əl işi texnikasına əsaslanan sahibkar müəssissəsi.
***Maliyyə kapitalı*** – Pul kapitalı.
***Marketinq*** – Müxtəlif şirkətlərin bazarın tələblərinə, alıcıların tələblərinin öyrənilməsinə yönəldilmiş istehsal, satış fəaliyyətinin səmərəli təşkili, habelə idarə edilməsi sistemi.
***Menecment*** – İstehsalın gəlirliyini və səmərəliliyini yüksəltmək məqsədilə, idarəetmədə tətbiq olunan prinsip, üsul, forma və vasitələrin məcmusu.
***Merkantilizm*** – XVI-XVIII əsrlərdə Avropa ticarət burjuaziyasının mənafeyini əks etdirən və ölkənin sərvətini istehsalda deyil, əmtəə dövriyyəsi, pul kapitalının (qızıl, gümüş formasında) toplanmasında görən nəzəri baxışlar.
***Metod*** – Təbiətdə, cəmiyyətdə, insan təfəkküründə baş verən hadisə və qanunauyğunluqların öyrənilməsinə yanaşmağın qayda, və üsulları.
***Metodologiya*** – Hər hansı bir elm sahəsində tətbiq edilən tədqiqat üsullarının (metodlarının) məcmusu.
***Mənfəət*** – Ümumi gəlirdən istehsal xərclərini çıxdıqdan sonra qalan hissə.
***Məcmu təklif*** – Müxtəlif qiymət səviyyəsində, təklif oluna bilən əmtəə və xidmətlərin ümumi miqdarı (kəmiyyəti).
***Məcmu tələb*** – Müxtəlif qiymətlər səviyyəsində əmtəə və xidmətlərə olan tələbin ümumi həcmi.
***Məhsulun son həddi*** – Əlavə resurs vahidindən istifadə etməklə, istehsal olunan əlavə məhsulun ümumi həcminin dəyişməsinin, istifadə olunmuş resursların miqdarının bölgüsü zamanı bu dəyişmənin bərabər olması.
***Minimum əmək haqqı*** – Ölkədə qanunvericiliklə müəyyənləşdirilmiş əmək haqqının ən aşağı səviyyəsi.
***Minimum qiymət*** – Əmtəə-xidmətlərin satışında müəyyənləşən ən aşağı qiymət.
***Milli Hesablar Sistemi*** – Ölkə miqyasında tətbiq edilən milli uçot, statistika sistemi olub, iqtisadi-sosial inkişafın ÜMM, ÜDM, MG kimi ümumiləşdirici parametrlərini əks etdirir.
***Mikroiqtisadiyyat*** – İstehsal-xidmət dairəsi şirkətlərinin (subyektlərinin) təsərrüfat fəaliyyətinin təhlili, təşkili və idarəedilməsi problemlərini əhatə edir.

***Milli gəlir*** – Bir il ərzində yaradılmış ÜDM-un dəyərindən istehlak olunmuş istehsal vasitələrinin dəyəri çıxıldıqdan sonra qalan hissə (əmək haqqı, mənfəət, renta, faiz) .
***Milliləşdirmə*** – Dekret və qanunvericilik yolu ilə əmlakın, torpağın, obyektin xüsusi mülkiyyətdən dövlət mülkiyyətinə keçməsi.
***Milli sərvət*** – Millətin tarixən yaratdığı və hazırda malik olduğu bütün maddi və mənəvi nemətlər.
***Monetarizm*** – İqtisadi proseslərdə və təsərrüfatçılıqda, tədavüldə olan pul kütləsi (miqdarı) ilə əmtəə-xidmətlərin kəmiyyət arasındakı nisbətin həlledici rol oynadığı irəli sürən elmi konsepsiya.
***Mülkiyyət*** – Cəmiyyətdə fiziki və hüquqi şəxslərin müəyyən əmlaka (torpağa, kapitala) malik olması və bundan müxtəlif formalarda istifadə etməsi.
***Müsadirə*** – Məhkəmənin hökmünə əsasən, hər hansı bir şəxsin yaxud təşkilatın (şirkətin, birliyin) mal-mülkiyyətinin əvəzi ödənilmədən əlindən alınıb, dövlətə verilməsi.
***Mütləq üstünlük*** – Məhsul-xidmət sahəsi istehsalçılarının əmək məhsuldarlığına əsasən müqayisəsi.

**N**

***Natamam məşğulluq*** – Ölkə əhalisi arasında işləmək arzusunda olub, lakin iş yeri tapmayan şəxslərin olması, yaxud qismən işsizlik.
***Natamam rəqabət*** – azad rəqabət bazarından başqa digər bazarlar (inhisar, oliqopoliya, xalis inhisar).
***Natural göstəricilər*** – Əmtəə-xidmətlərin fiziki vəziyyətini əks etdirən vahidlərlə ölçülməsi.
***Natural təsərrüfat*** – Ehtiyacını özü istehsal etdiyi məhsullar hesabına təmin edən qapalı təsərrüfat tipi.
***Natural vergilər*** – Əmtəə, məhsul, mal formasında həyata keçirilən məcburi ödənişlər.
***Nemət*** – İnsanın tələbatlarını ödəməyə yararlı olan məhsul və xidmət.
***Neoklassik iqtisadi nəzəriyyə*** – Azad rəqabət ideyasını müdafiə edən və tələb, təklif, qiymət, elastiklik anlayışlarını faydalılıq mövqeyindən təhlil edən elmi-nəzəri istiqamət.
***Netti gəlir*** – Bütün xərclərdən sonra qalan gəlir.
***Netto qiymət*** – mal və məhsulun alqı-satqı yerindəki qiyməti.
***Nisbi göstərici*** – Mütləq göstəricinin baza kəmiyyətinə nisbəti.
***Nisbi qiymət*** – Əmtəənin müəyyən miqdarda başqa bir şeylə, yaxud məhsulla ifadə olunmuş qiyməti.
***Nisbi üstünlük*** – Müxtəlif ölkə istehsalçılarının eyni məhsul istehsalı üzrə xərclərinin fərqli olması.
***Nominal dəyər*** – Qiymətli kağızların (səhmlərin, banknotların) üzərində yazılan, göstərilən dəyər.
***Nominal əmək haqqı*** – İşçi və qulluqçuların aldığı əmək haqqının (pul vəsaitinin) məbləği.
***Nominal gəlir*** – Müəyyən vaxt ərzində hər bir fərdin, yaxud sosial qrupun əldə etdiyi pul gəliri.
***«Nou-hou»*** – hələ geniş yayılmamış, əmtəələrin-xidmətlərin istehsalının və reallaşdırılmasının təşkili üçün zəruri sayılan elmi-texniki biliklər, texnoloji yeniliklər.
***Normativ*** – Məhsulun hər vahidi üçün sərf olunan vəsait və materialların miqdarı.

***Normal mənfəət*** – Sahibkar gəlirinin müəyyən bir hissəsi.
***Nostro*** – Müəyyən bir bankın (kredit təşkilatının) digər müxbir bankda açdığı qarşılıqlı ödəmələr hesabı.
***Nulifikasiya*** – Ləğvetmə prosesi, bir şeyin etibarsız sayılması.
***Nümunə*** – Reklam məqsədilə, əmtəənin sərgilərdə alıcıları tanış etmək üçün istifadə olunan, yaxud göstərilən variantı.
***Nümunəvi bazar*** – Yeni məhsul-xidmət nümunələri satışının keçirildiyi yer
***Nümunəvi layihə*** – Çoxsaylı (kütləvi) obyektlər üçün həyata keçirilməkdən ötrü bir sıra icraçılar tərəfindən müxtəlif şəraitdə (yerlərdə) istifadə edilən layihə.

**O**

***Offşor mərkəzləri*** – Sahibkarlıq fəaliyyəti üçün əlverişli və güzəştli vergi şəraiti yaradılmış maliyyə-ticarət bazarları (əraziləri).
***Ofşor şirkət*** – Xüsusi güzəştlər təklif edən ölkələrin offşor mərkəzlərində qeydiyyata alınmış xarici şirkət.
***Ofis*** – Şirkət və birliyin rəsmi mənzil iqamətgahı.
***Oliqopoliya*** – Məhdud sayda, bir neçə şirkət və birliyin müəyyən əmtəələrin istehsalı-satışı, habelə xidmətlərin göstərilməsi sahələrində ağalığı.
***OPEK*** – Neft ixrac edən bir sıra ölkələrin təşkilatı.
***Opsion*** – Müəyyən vaxtlığa əmlak və qiymətli kağızların əvvəlcədən şərtləndirilmiş qiymətə alınıb-satılması hüququ.
***Optimal qiymət*** – Əmtəə-xidmətlərin xərc və gəlirlərinin obyektiv qiymətləndirilməsi əsasında formalaşmış qiymət.
***Orta əmək haqqı*** – Müəyyən dövr üçün işçi və qulluqçuların əmək haqqının orta həcmi (məbləği).
***Orta xərclər*** – İstehsal olunmuş hər məhsul vahidinə düşən xərclərin kəmiyyəti.
***Oyken qanunu*** – ABŞ iqtisadçısı A.Oykenin adı ilə bağlı olub, ölkədə işsizlik səviyyəsi ilə real istehsalın həcmi arasındakı asılılığı göstərir.
***Oyunlar nəzəriyyəsi*** – Müəyyən seçim və qərar qəbul edilməsilə bağlı, bazar (sövdələşmə) iştirakçılarının davranışını öyrənən elmi-nəzəri istiqamət.

**Ö**

***Ödəmə fondu*** – İctimai məhsulun istehsal prosesində istehlak olunmuş istehsal vasitələrinin ödənilməsi məqsədilə yaradılmış fond.
***Ödəmə qabiliyyəti*** – Dövlətin, hüquqi və fiziki şəxslərin tədiyələr (borclar) üzrə öhdəliklərini yerinə yetirmək qabiliyyəti.
***Ödəniş valyutası*** – Xarici ticarət əlaqələrində aparılan əməliyyatların ödənildiyi valyuta.
***Ölkənin sənayeləşdirilməsi*** – Ölkə iqtisadiyyatının sənaye əsasına keçirilməsi.
***Ölü renta*** – İstifadə olunmayan mülkə, əmlaka, torpağa görə ödənilən icarə haqqı.
***Özəl bölmə*** – Özəl (xüsusi) mülkiyyətdə olan, özəl kapitala məxsus iqtisadi obyektlər.
***Özəlləşdirmə*** – Dövlətə və ictimai mülkiyyətə məxsus müəssisə, şirkət, obyektlərin ayrı-ayrı vətəndaşlara, xüsusi mülkiyyətçilərə, eyni zamanda xaricilərə satılması.
***Öz xərcini ödəmə*** – istehsal olunan məhsulun satışı və göstərilən xidmətlər hesabına qazanılan gəlirlə öz xərclərini tam ödəməyə əsaslanan təsərrüfatçılıq prinsipi.

***Öhdəlik zəmanəti*** – Hüquqi və fiziki şəxsin öz üzərinə götürdüyü öhdəliyə əməl edəcəyini təsdiqləyən sənəd.
***Ölkə daxilində kapital yığımı*** – Milli gəlirin bir hissəsinin ehtiyat kapital kimi toplanaraq, istehsal fondlarının artırılmasına yönəldilməsi.

**P**

***Paradiqma*** – Müxtəlif istiqamətli elmi-tədqiqat məsələlərinin həlli üçün qəbul olunmuş nəzəriyyə.
***Paralel valyuta*** – Ölkədə tədavüldə olan ikinci valyuta, məsələn milli və xarici valyuta.
***Paritet*** – Tərəflərin nisbi bərabərliyi.
***Patent*** – İxtiraçının müəlliflik hüququnu təsdiq edən şəhadətnamə.
***Pərakəndə satış ticarəti*** – Ticarətin kütləvi satış forması.
***Pərakəndə satış qiyməti*** – Bazar qiymətinin bir forması olub, istehlakçılara satılan əmtəə və xidmətlərin son qiyməti.
***Potensial rəqib*** – Yüksək mənfəət götürən şirkətlərin fəaliyyət sahələrinə (dairəsinə) yenilərinin daxil olmaq imkanı.
***Prioritet*** – Müəyyən zaman kəsiyində istehsal və xidmət dairəsinin üstünlük verilən sahələri.
***Pul*** – Dəyərin ən inkişaf etmiş forması.
***Pul islahatı*** – Dövlət tərəfindən pul sisteminin qismən, yaxud tam dəyişdirilməsi üçün həyata keçirilən tədbirlər kompleksi.
***Pul kütləsi*** – Nağd və nağdsız pulların cəmi.
***Pul kapitalı*** – investisiya üçün nəzərdə tutulan və faiz formasında gəlir gətirən kapital.
***Pul sistemi*** – Ölkədə formalaşmış və müəyyən qanunlarla qorunan pul dövriyyəsinin təşkili forması.
***Pul tədavülü qanunu*** – Dövriyyə üçün lazım olan pul kütləsinin müəyyən edilməsi.
***Pul vəsaitləri*** – Dövlətin, şirkətlərin, əhalinin tez pula çevrilə bilən nağd və ya nağdsız formada toplanmış pulları.

**R**

***Rantye*** – İstehsalla məşğul olmayıb, pul və qiymətli kağızların gətirdiyi gəlir hesabına yaşayan şəxs, qrup.
***Rasional gözləmə nəzəriyyəsi*** – Əhalinin və sahibkarların gələcəklə bağlı iqtisadi proqnozlarının təkcə onların öz məlumatları, təcrübələri əsasında deyil, eyni zamanda dövlətin makroiqtisadi siyasətindən faydalanaraq optimal istiqamətdə qurması.
***Rasional tələbat*** – Sağlam həyat tərzi, şəxsiyyətin hərtərəfli inkişafı məqsədilə nemət və xidmətlərin istehlak normalarına dair elmin müəyyənləşdirdiyi tələbat.
***Rasionlaşdırma*** – İstehlakın səmərəli nisbətlərinin (məsələn, ərzaq məhsulları üzrə), rasionlarının müəyyənləşdirilməsi.
***Rayonlaşdırma*** – Ölkə ərazisinin təbii-inzibati, iqtisadi əlamət və xüsusiyyətlərinə görə bölünməsi.
***Razılaşdırılmış audit*** – Şirkət və təşkilat rəhbərliyinin tələbi ilə aparılan yoxlamalar.
***Razılaşdırılmış iqtisadiyyat*** – Müxtəlif idarəetmə və iqtisadi informasiya-məlumat göstəriciləri səviyyəsində birgə qərarların qəbul edilməsi prinsipi.

***Real əmək haqqı*** – Pulla alınan (nominal) əmək haqqının yaşayış vasitələri və xidmətlərdə ifadəsi.
***Real faiz norması*** – Ölkədə inflyasiyanın səviyyəsi nəzərə alınmaqla hesablanan faiz norması.
***Real gəlir*** – Özünü konkret yaşayış vasitələrində əks etdirən əhalinin alıcılıq qabiliyyəti.
***Real ümumi daxili məhsul*** – Müəyyən bir əvvəlki baza ilinin dəyişməz qiymətləri ilə hesablanan məhsul və xidmətlərin illik dəyərinin həcmi.
***Renta*** – torpaq mülkiyyətindən istifadəyə görə mülkiyyətçinin əldə etdiyi gəlir.
***Relkam*** – Şirkətlər tərəfindən alıcıların müxtəlif əmtəə-xidmətlərin keyfiyyəti, üstünlükləri, sərfəli qiymətləri haqqında məlumat çatdırmaq vasitəsi.
***Revalvasiya*** – Milli valyuta məzənnəsinin başqa ölkələrin valyutalarına nisbətən rəsmi yüksəldilməsi.
***Renovasiya*** – Fiziki və mənəvi cəhətdən aşınmış (köhnəlmiş) istehsal fondlarının yeniləri ilə əvəzlənməsi.
***Reeksport*** – Xaricdən gətirilmiş məhsulların emal olunmadan, başqa bir ölkəyə ixrac edilməsi.
***Reket*** – Hədə-qorxu və şantaj yolu ilə başqasından pul alan şəxs, yaxud qrup.
***Regional bazar*** – Müəyyən ərazini əhatə edən bazar.
***Regional qiymətlər*** – Ayrı-ayrı region bazarlarında əmtəə və xidmətlər üçün formalaşan qiymətlər.
***Rentabellik*** – Şirkətin və müəssisənin müəyyən vaxt (ay, il) ərzində istehsal fəaliyyətinin mənfəətliyini yaxud ziyanla işləməsini xarakterizə edən göstərici.
***Resurs*** – Maddi nemətlərin istehsalı üçün insanların istifadə edə biləcəyi maddi, əmək və təbii sərvətlərin məcmusu.
***Rəqabət*** – İqtisadi subyektlər arasında istehsal-xidmət dairəsi və satış bazarlarında üstünlük uğrunda mübarizə forması.
***Risk*** – İqtisadi fəaliyyət gedişində vəziyyətin əlverişsiz istiqamətdə dəyişməsi təhlükəsi.
***Royalti*** – Təbii ehtiyatlardan istifadə etmək hüququna görə müəyyən ödəniş haqqı (vergi ödənişi).

## S

***Sabitləşdirmə fondu*** – Pul və əmtəə ehtiyatları.
***Sabitləşdirmə siyasəti*** – Hakimiyyət orqanlarının ölkədə ümumi daxili məhsulun həcminin artması, məşğulluğun təmin olunması, inflyasiyanın aşağı həddə saxlanması, vergilər, dövlət xərcləri, pul təklifi həcmi vasitəsilə milli iqtisadiyyatın inkişafının stimullaşdırılmasına yönəldilmiş tədbirlər sistemi.
***Sabit vergi*** – Hər bir şəxs üçün eyni məbləğdə müəyyənləşdirilmiş vergi.
***Sabit məhsuldarlıq*** – İstehsal amillərinin artmasının, istehsal həcminin eyni səviyyədə artmasına uyğun olduğu hal.
***Saldo*** – Pul daxil olmaları ilə xərclər arasında yaranan fərq (balans saldosu).
***Sadə təkrar istehsal*** – İstehsalın əvvəlki həcdə təkrar olunması.
***Sahədaxili rəqabət*** – Eyni istehsal sahələrinin sahibkarları, yaxud şirkətləri arasında üstünlük uğrunda gedən rəqabət mübarizəsi.

***Sahələrarası rəqabət*** – Müxtəlif sahələrin, yaxud oxşar təyinatlı əmtəələr hazırlayan və xidmətlər göstərən şirkətlər arasında gedən rəqabət mübarizəsi.

***Sahibkar*** – Qanunlar və sosial ədalət prinsipləri əsasında fəaliyyət göstərərək, mənfəət əldə etmək məqsədilə hər hansı bir işlə məşğul olan şəxs.

***Sahibkarlıq inhisarı*** – Bazarda bir və ya bir neçə şirkətin eyni sahədə hökmranlığı.

***SDV*** – Sərbəsi dönərli valyuta.

***Sertifikat*** – Məhsulun keyfiyyətini təsdiq edən sənəd.

***Səhm*** – Səhmdar cəmiyyətinin Nizamnamə fonduna pul verdiyini və sahibinə səhmdar cəmiyyətinin mənfəətinin müəyyən hissəsini dividend şəklində almaq və cəmiyyətin idarə olunmasında iştirak hüquqi verən qiymətli kağız.

***Səhmdar cəmiyyəti*** – Təsərrüfat fəaliyyətini həyata keçirmək məqsədilə, Nizamnamə fondunu səhmlər buraxmaq yolu ilə formalaşdıran fiziki və hüquqi şəxslərin könüllü sazişi əsasında yaradılmış cəmiyyət.

***Səhmlərin nəzarət paketi*** – Səhmdar cəmiyyətinin bütün səhmlərinin yarıdan çoxunun (50% + 1) bir sahibin nəzarəti altında olması.

***Səhm kapitalı*** – Səhmdar cəmiyyətinin bütün kapitalı.

***Sənayeləşdirmə*** – Ölkədə maşınlı iri sənayenin yaradılması və iqtisadiyyatın sənaye əsasları üzərinə keçirilib inkişaf etdirilməsi.

***Sindikat*** – İnhisar forması olub, eyni təyinatlı əmtəələr istehsal edən şirkətlərin elə birliyidir ki, hazır məhsulların satışı ilə yaradılmış sindikat məşğul olunur.

***Senyoroj*** – Dövlətin pul emissiyasından əldə etdiyi gəlir.

***Son hədd xərcləri*** – Məhsulun əlavə istehsal olunan hər vahidinə sərf olunan xərclərin kəmiyyəti.

***Sosial təminat*** – Qocalara və əmək qabiliyyətini itirənlərə, habelə ana-uşaqlara maddi təminat, xidmət göstərilməsi üzrə sosial-iqtisadi tədbirlər sistemi.

***Staqnasiya*** – İqtisadiyyatda, istehsalatda, ticarətdə durğunluq vəziyyəti.

***Staqflyasiya*** – Ölkədə eyni vaxtda həm işsizliyin, həm də inflyasiyanın olması.

***Standart*** – Dövlətin səlahiyyətli orqanları tərəfindən təsdiq edilmiş etalon, nümunə, model.

***Struktur*** – Quruluş, yaxud vahid sistemi təşkil edən və bir-biri ilə qarşılıqlı əlaqədə olan bölmələrin, hissələrin toplusu.

***Strateji əmtəələr*** – Ölkənin milli təhlükəsizliyi naminə ixracı nəzarətə alınan, məhdudlaşdırılan, qadağan edilən məhsullar.

***Struktur işsizlik*** – İşsizliyin bir forması olub, yeni texnika və mütərəqqi texnologiyaların tətbiqi nəticəsində iş yerlərinin ixtisarı nəzərdə tutulur.

***Sığorta*** – Təbii fəlakətlər, qəza hadisələri zamanı şirkətlərə, vətəndaşlara maddi kömək göstərmək üçün yaradılan məqsədli pul vəsaitləri fondu.

***Subsidiya*** – Dövlət tərəfindən yerli hakimiyyət orqanlarına, hüquqi və fiziki şəxslərə, habelə başqa ölkələrə göstərilən əvəzsiz yardım.

***Sürünən inflyasiya*** – Nisbətən aşağı sürətlə gedən inflyasiya.

## Ş

***Şaquli birlik*** – Hazır məhsul istehsalının xammal və materiallardan başlamış son məhsul buraxılışına qədər bütün ardıcıl mərhələlərini həyata keçirən təsərrüfat vahidlərinin bir şirkət, yaxud korporasiya daxilində birləşməsi.

***Şans*** – Hansısa bir ideyanın reallaşdırılması, yaxud işin (iqtisadi prosesin) həyata keçirilməsi və uğur qazanması ehtimalı, mümkünlüyü.
***Şantaj*** – Konkret fayda əldə etmək məqsədilə xoşagəlməz və əxlaq normalarına zidd məlumatların, davranışların aşkarlanıb yayılacağı hədə-qorxusundan ibarət cinayət hadisəsi.
***Şef*** – Rəis, başçı, rəhbər.
***Şerman qanunu*** – İnhisarçılığa qarşı ABŞ konqresinin 1890-cı ildə qəbul etdiyi ilk qanun.
***Şəxsi gəlir*** – İşçinin əmək haqqından, dividendlər, faizlər, renta, mükafatlar, transferlər daxil olmaqla əsas və əlavə mənbələrdən yaranan pul gəliri.
***Şəxsi hesab*** – Mühasibat və banklar tərəfindən ayrı-ayrı şəxslərlə hesablaşmalar aparmaq üçün açılan hesab.
***Şəxsi istehlak xərcləri*** – Ev təsərrüfatlarının özləri üçün zəruri olan istehlak malları və xidmətlərə çəkdikləri xərclər nəzərdə tutulur.
***Şəxsi kapital*** – Sahibkarın təşkil etdiyi şirkətə qoyduğu özünə məxsus kapitalın həcmi, məbləği.
***Şəxsi gəlir vergisi*** – Ayrı-ayrı şəxslərin gəlirlərinə qoyulan vergi.
***Şəxsi yardımçı (yaradılmış) təsərrüfat*** – Xüsusi mülkiyyətin bir növü olub, şəxsi yaxud ailə əməyinə əsaslanan həyətyanı, habelə ayrıca torpaq sahəsində yaradılmış bağ-bostan nəzərdə tutulur.
***Şəxsi yığım*** – Əhalinin gəlirininistehlaka sərf olunmayıb, yığım məqsədilə saxlanılan hissəsi.
***Şəriklilik*** – Fiziki və hüquqi şəxslərin birgə iqtisadi fəaliyyət göstərmək üçün könüllü əməkdaşlığı.
***Şərti alıcı*** – Hər bir əmtəəni qaytarmaq şərti və hüququ ilə almaq.
***Şərti əmanət*** – Bir şəxsin başqa bir şəxsin adına qoyduğu pul əmanəti.
***Şərti rüsumsuz idxal*** – Ölkəyə idxal olunan məhsulların (məsələn, sərgi nümunələrindən yaxud eksponatlardan) nəzərdə tutulan müddətdə gömrük rüsumu və vergilərə cəlb olunmaması.
***Şirkət*** – Müxtəlif iqtisadi fəaliyyətin həyata keçirilməsi məqsədilə, hüquqi və fiziki şəxslərin müəyyən bir statusda könüllü birləşməsi; müəssisənin təşkilati-hüquqi forması.
***Şirkətin parçalanması*** – Hər hansı bir şirkətin öz əmlakını və fəaliyyətini başqa bir yaxud bir neçə şirkətə, korporasiyaya təhvil verməsi əməliyyatı.
***Ştat cədvəli*** – Şirkətin, müəssisənin, təşkilatın işçilərinin sayını, vəzifələrini, maaşlarını, ödəmə xüsusiyyətlərini göstərməklə təsdiq və qəbul olunmuş siyahı.
***Şübhəli hesablar*** – Vaxtında ödənilmə ehtimalı çox az olan hesablar.

## T

***Tacir*** – Gəlir məqsədilə əmtəə-mal alıb və satan şəxs.
***Talon*** – Sahibinin müəyyən nemət və xidmətlərdən istifadə etmək hüququnu təsdiqləyən sənəd.
***Tam məşğulluq*** – Ölkənin əmək qabiliyyətli bütün əhalisinin iş yerləri ilə təmin olması.
***Tarif*** – Müxtəlif təyinatlı xidmətlərə görə olan ödəniş norması.
***Tarazlaşmış bazar*** – Əmtəə-xidmətlərin ümumi həcmi və digər xüsusiyyətlərə görə tələblə-təklifin tarazlığı.

***Tarazlıq qiyməti*** – Bazarda tələbin həcminin təklifin həcminə uyğun (bərabər) olduğunu tənzimləyən qiymət səviyyəsi.
***Tender*** – Açıq və qapalı şəkildə keçirilən satışlar, sifarişlərin, layihələrin müsabiqə yolu ilə seçilməsinin xüsusi forması.
***Təbii resurslar (ehtiyatlar)*** – Əmtəə-xidmətlərin istehsalında istifadə edilməsi mümkün olan təbii sərvətlərin bir hissəsi.
***Tədiyə balansı*** – Müəyyən dövr ərzində ölkəyə valyuta daxil olmaları ilə onun valyuta xərcləri arasındakı nisbəti (fərqi) əks etdirən cədvəl.
***Tədavül*** – Əmtəə və xidmətlərin pul vasitəsilə mübadiləsi, yaxud alqı-satqısı.
***Təklif*** – Bazarda olan və oraya göndərilə bilən əmtəə-xidmətlərin cəmi.
***Təklif qiyməti*** – Rəqabətli bazarda satıcının təklif etdiyi qiymət.
***Təklif qanunu*** – Başqa-başqa şərtlər sabit qaldıqda, əmtəə-xidmətlərin qiymətinin dəyişməsi ilə təklifin dəyişməsi nisbəti arasındakı asılılığın ifadəsi.
***Tələb*** – İstehlakçının pul imkanı daxilində bazardakı əmtəə-xidmətlərdən faydalanmaq, yaxud olun alıcılıq qabiliyyəti.
***Tələb qanunu*** – Başqa şərtlər sabit qaldıqda, qiymətin dəyişməsi ilə bağlı tələbin dəyişməsi arasındakı asılılığın ifadəsi.
***Tələb qiyməti*** – Alıcının bazarda əmtəə-xidmətlər üçün təklif etdiyi qiymət.
***Tələbat*** – İnsanların ehtiyac duyduğu, malik olmaq istədiyi, istifadə etmək arzusunda olduğu əmtəələr və xidmətlər toplusu.
***Təkrar istehsal*** – İstehsal prosesinin vaxtaşırı təkrarı və fasiləsiz davamı.
***Ticarət*** – Hazır əmtəə-xidmətlərin istehsal dairəsindən istehlak dairəsinə hərəkətini təmin edən sahə.
***Torpaq*** – İstehsal prosesinin əsas amillərindən biri.
***Torpaq rentası*** – Torpaq mülkiyyətçisinin əldə etdiyi gəlir.
***Transaksiya xərcləri*** – Əsas istehsal və tədavül xərclərindən əlavə digər dolayı əməliyyat xərcləri.
***Transmilli korporasiya (TMK)*** – Beynəlxalq miqyasda əlaqələr şəbəkəsi olan müasir nəhəng korporasiya.
***Tsiklik işsizlik*** – İqtisadi böhranlar vaxtı istehsal səviyyəsinin aşağı düşməsi nəticəsində yaranan işsizlik forması.
***Trest*** – Qrup mülkiyyəti əsasında yaranan inhisar forması.
***TRASEKA*** – Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi.
***Trend*** – Müəyyən vaxt ərzində dəyişən hər hansı bir kəmiyyətin enib-qalxma meyli.

## U

***Uçot*** – İqtisadi proseslərin və obyektlərin idarə olunması göstəricilərinin müəyyən cədvəllərdə əks olunması.
***Ucuz pul siyasəti*** – Mərkəzi Bankın kredit faiz dərəcələrini aşağı endirmək yolu ilə kreditləşdirmənin genişləndirilməsinə istiqamətlənmiş tədbirlər sistemi.
***Uduşlu istiqrazlar*** – Gəlirin uduş formasında ödənildiyi istiqraz növü.
***Universal banklar*** – Bank əməliyyatlarının bütün əsas növləri (kredit, depozit, fond, hesablama və sair) üzrə xidmət göstərən kredit təşkilatı.
***Universal birja*** – Ən müxtəlif qiymətli kağızların alqı-satqısı ilə məşğul olan birja.

***Unsiya*** – 31,1 qrama bərabər qızılın çəki vahidi.
***Urbanizasiya*** – Əhalinin və iqtisadi fəaliyyətin şəhərlərdə cəmləşməsi prosesi.
***Utilləşdirmə*** – Hər hansı növ tullantının təkrar emalı sayəsində, ondan yenidən xammal yanacaq, gübrə kimi istifadə edilməsi.
***Uyğunsuzluq*** – Bazardakı əmtəə-xidmətlərin qiymətlərinin kəsgin dəyişməsi.
***Uzun dalğalar nəzəriyyəsi*** – N.D.Kondratyevin adı ilə bağlı iqtisadi inkişafın dalğavari uzun (45-60 il), orta (7-11 il), qısamüddətli dəyişmələrini əsaslandıran elmi konsepsiya.
***Uzunmüddətli borc*** – Bir ildən artıq müddətə verilmiş borc, ssuda.
***Uzunmüddətli istehlak əmtəələri*** – Əhaliyə uzun müddət xidmət göstərən istehlak və xidmət təyinatlı məmulatlar, əşyalar.
***Uzunmüddətli istiqrazlı*** – Ödəniş müddəti bir neçə ilə nəzərdə tutulan istiqrazlar.
***Uzunmüddətli proqnoz*** – İqtisadi, sosial və texniki sahələrdə perspektiv inkişaf proseslərinin irəlicədən müəyyənləşdirilməsi.
***Uzunmüddətli rəqabət tarazlığı*** – Bazarda tələb və təklifin həcminin bərabərliyi, yaxud tarazlığı vəziyyəti.
***Uzunmüddətli planlaşdırma*** – Həyata keçirilməsi gələcək bir neçə ilə nəzərdə tutulmuş planlar, layihələr, proqramlar.
***Uzunmüddətli vaxt dövrü*** – Makroiqtisadi səviyyədə ölkə miqyasındakı proseslərdə bir ildən artıq müddətə hesablanan dövr.
***Uzunmüddətli veksel*** – Ödəniş müddəti təqdim olunduğu gündən başlayaraq bir aydan az olmayan köçürmə veksel.

## Ü

***Üçüncü bazar*** – Birja üzvü olmayanların qiymətli kağızlarla birjadankənarda müxtəlif alqı-satqı əməliyyatları apardıqları bazar.
***Üfüqi birlik*** – Oxşar texnika-texnologiya əsasında, eyni təyinatlı məhsul istehsal edən şirkətlərin korporasiya daxilində birləşməsi.
***Ümumi xərclər*** – Şirkət və korporasiyanın məhsulun istehsalı, daşınması, satışı ilə bağlı olan bütün xərcləri.
***Ümumi daxili məhsul*** – Mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, ölkə ərazisində fəaliyyət göstərən şirkətlərin il ərzində istehsal etdikləri hazır əmtəələrin (məhsulların) və göstərilən xidmətlərin ümumi dəyər (pul) ifadəsi.
***Ümumi milli məhsul*** – Ölkədə və onun hüdudlarından kənarda milli iqtisadiyyatın resursları hesabına il ərzində istehsal olunmuş son hazır məhsulların (əmtəələrin), göstərilən xidmətlərin ümumi bazar qiymətləri ilə dəyər (pul) ifadəsi.
***Ümumi gəlir*** – Şirkətin, birliyin, korporasiyanın təsərrüfat fəaliyyəti nəticəsində əldə etdiyi gəlir.
***Ümumi mülkiyyət*** – Bir neçə sahibkarın, mülkiyyətçinin, bütövlükdə ictimaiyyətin mülkiyyəti.
***Ümumi rentabellik*** – Təsərrüfat vahidinin, sahənin iqtisadi fəaliyyətinin ümumi səmərəlilik meyarı, göstəricisi.
***Ümumi risq*** – İqtisadi fəaliyyətin bütün agentlərinə təsir göstərən risqlər.
***Ümumi sifariş*** – Müəyyən həcm və məbləğdə məhsulun konkret vaxt ərzində hazırlanmasını, lakin həmin məhsulun təhvil verilməsi vaxtının dəqiqləşdirilmədiyi sifariş.

***Ümumi tələbat*** – Cəmiyyətin və onun üzvlərinin bütün tələbatlarının məcmusu.
***Ümummilli reklam*** – Ölkə miqyasında tanınmış şirkətin ərzaq və sənaye mallarının yayılması üçün istifadə edilən reklam.
***Üzən faiz dərəcəsi*** – Orta və uzun müddətli kreditlər üzrə tətbiq edilən, lakin həmin səviyyənin kreditləşmənin bütün dövrünə tətbiq olunmayan faiz dərəcəsi.
***Üzən (axan) kapital*** – Daha yüksək iqtisadi səmərə əldə etmək məqsədilə, kapitalın bir bazar və sahədən digərinə keçirilməsi.
***Üzən valyuta məzənnəsi*** – Səviyyəsi konkret bazar vəziyyəti, konyuktura, tələb-təklif, habelə digər amillərlə enib-qalxan və sərbəst surətdə dəyişən valyuta məzənnəsi.

## V

***Va-bank*** – Böyük risq və təhlükə ilə bağlı olan hərəkət etmək.
***Vahid iqtisadi məkan*** – İqtisadi ittifaqda birləşmiş bir neçə dövlətin təşkil etdiyi təsərrüfat fəaliyyəti zonası.
***Vaxta görə əmək haqqı*** – Əmək haqqının iş vaxtının, iş saatlarının kəmiyyətindən asılı olaraq, işçinin əməyinin ödənilməsi forması.
***Vaxtı keçmiş kredit*** – Müəyyən edilmiş vaxtda banka qaytarılmamış kredit.
***Valyuta*** – Ölkənin milli pul vahidi (manat, dollar, avro) və beynəlxalq hesablaşmalarda haqq-hesab aləti.
***Valyuta məzənnəsi*** – Bir ölkənin pul vahidinin digər ölkənin pul vahidində ifadəsi.
***Valyuta bazarı*** – Müxtəlif ölkələrin valyutalarının alqı-satqısının aparıldığı birja və birjadankənar (banklararası) sahələr.
***Valyuta böhranı*** – Ölkələrin pul-kredit sisteminin böhranı.
***Valyuta tənzimlənməsi*** – Valyuta məzənnəsinin dövlət tərəfindən müəyyən bir səviyyədə saxlanması.
***Valyuta pariteti*** – Müxtəlif ölkələrin valyutaları arasında alıcılıq qabiliyyəti hesabilə müəyyənləşdirilmiş nisbət.
***Veksel*** – Borc ödənişi üçün müəyyən olunmuş formada tərtib edilmiş öhdəlik sənədi.
***Veksel krediti*** – Veksel sahibinin bankı tərəfindən kredit verilməsi formalarından biri.
***Veksel tədavülü*** – Tədəvül dairəsində veksellərin pul sənədləri kimi hərəkət edərək, ödəniş vasitəsi formasında bir əldən başqasına keçməsi.
***Vauçer*** – Qiymətli kağızların bir növü.
***Vergi*** – Dövlət tərəfindən vətəndaşlardan, şirkətlərdən, korporasiyalardan, təşkilatlardan tutulan məcburi ödəmələr.
***Vergi dərəcəsi*** – Müxtəlif vergiqoyma (sabit, mütərəqqi, enən) norması.
***Vergi sistemi*** – Ölkədə vergiqoymanın, tutulan vergilərin forma və metodlarının, vergilərin toplanması və istifadəsinin, habelə müvafiq vergi orqanlarının məcmusu.
***Vergi siyasəti*** – Vergi və vergiyəcəlbetmə sahəsində dövlətin həyata keçirdiyi tədbirlər sistemi.
***Vergi tənzimlənməsi*** – Vergi növləri və dərəcələrinin, vergi güzəştləri və cəlbolunmalarının müəyyənləşdirilməsi istiqamətində tədbirlərin hazırlanıb həyata keçirilməsi.
***Vergi yükü*** – Vergi ödənişləri ilə bağlı, iqtisadi məhdudiyyətlərin səviyyəsi.
***Vergidən azad olma*** – Ödənilən vergi məbləğinin qanuni yollarla azaldılması.

***Vergitutma bazası*** – Vergitutma obyektlərinin vergi tutulan hissəsinin kəmiyyətcə ifadəsi.
***Vergitutma obyekti*** – Qanunla müəyyən edilmiş vergiyə cəlb olunan bütün obyektlər.

**Y**

***Yan (kənar) təsir*** – Bir şəxsin əməl və iqtisadi fəaliyyətinin başqalarının maddi vəziyyətinə müsbət, yaxud mənfi təsiri.
***Yarımfabrikat*** – Müəyyən şirkətdə istehsal olunub və digər şirkətdə, korporasiyada hazırlanan daha mürəkkəb məhsulun tərkib hissəsi kimi istifadə olunan natamam (yarımçıq) məhsul.
***Yarlık (damğa, nişan)*** – Əmtəənin, malın üzərinə yapışdırılan, yaxud bərkidilən etiket.
***Yarmarka*** – Vaxtaşırı fəaliyyət göstərən yerli, regional, ölkə və beynəlxalq bazar.
***Yaşayış minimumu*** – İnsanların həyat fəaliyyətinin saxlanması və iş qüvvəsinin təkrar istehsalı üçün zəruri olan yaşayış vasitələri.
***Yığım norması*** – Gəlirin ümumi həcmindən yığım və investisiya məqsədləri üçün ayrılmış hissə.
***Yoxsulluq*** – Hər hansı bir ölkədə elmi cəhətdən əsaslandırılmış normalara uyğun yaşayış vasitələri olmayan əhalinin müəyyən hissəsinin sosial-iqtisadi vəziyyəti.
***Yoxsulluq zonaları*** – Ölkədə və dünyada əhalinin yoxsul hissəsinin daha çox cəmləşdiyi ərazilər.
***Yumşaq valyuta*** – Nominal dəyərinə və digər valyutalara qarşı dayanıqsız olan valyuta.
***Yüngül sənaye*** – Əhalinin yaşayışı və məişəti üçün zəruri olan istehlak malları istehsal edən sənaye sahələri.

**Z**

***Zamin*** – Müəyyən bir iş və fəaliyyət üçün zəmanət verən şəxs.
***Zay məhsul*** – Normal keyfiyyət tələblərinə və standartlara uyğun gəlməyən əmtəə-xidmətlər.
***Zəmanət*** – Müəyyən şəxs tərəfindən pul və əşya öhdəliklərinin yerinə yetirilməsinə dair məsuliyyət forması.
***Zərər*** – Təsərrüfat fəaliyyətində itgilər, gözlənilməyən xərclər, əmlakın və pulun itirilməsi.
***Zəhmətsiz gəlirlər*** – Faydalı əmək fəaliyyəti ilə əlaqəsi olmayan, konkret əmək xərcləri ilə ölçülə bilməyən və qeyri-qanuni yollarla əldə edilən gəlir.
***Zəruri əmək*** – İctimai əməyin bir hissəsi olub, işçinin öz iş qüvvəsini bərpa etmək və ailəsinin zəruri tələbatlarını ödəmək üçün lazım olan şeylərin istehlak dəyərinə uyğun sərf edilmiş əmək.
***Zəruri iş vaxtı*** – Ümumi iş vaxtının bir hissəsi olub, işçinin iş qüvvəsinin təkrar istehsalını təmin edə bilən zəruri məhsulun dəyərinin yaradılmasına sərf edilən vaxt.
***Zəruri məhsul*** – Maddi istehsal sahələrində çalışan işçinin yeni yaratdığı məhsulun bir hissəsi.

# MÜNDƏRİCAT


Ön söz ... 3

**«İqtisadiyyata giriş» (birinci bölmə) ... 4**

***Mövzu 1*** Kursun məqsədi, vəzifələri və əsas prinsipləri ... 5

***Mövzu 2*** İqtisadi nəzəriyyənin predmeti və metodları ... 22

***Mövzu 3*** İqtisadi problemlərə giriş ... 28

***Mövzu 4*** Xalis kapitalizm və gəlirlərin dövr etməsi ... 34

***Mövzu 5*** Fərdi bazarların təhlilli: tələb və təklif ... 44

***Mövzu 6*** Bazar münasibətləri iqtisadi sistemi ... 53

***Mövzu 7*** Dövlətin iqtisadi vəzifələri (funksiyaları) ... 62

***Mövzu 8*** ABŞ iqtisadiyyatinda xüsusi (özəl) və dövlət bölmələrinin fəaliyyəti ... 69

İmtahan-test sualları ... 80

Kurs üzrə dərs saatlarının bölgüsü ... 81

**«Mikroiqtisadiyyat» (ikinci bölmə) ... 82**

***Mövzu 9*** Kursun məqsədi, vəzifələri və quruluşu ... 83

***Mövzu 10*** Tələb, təklif, qiymət və elastiklik ... 87

***Mövzu 11*** İstehlakçı davranışı nəzəriyyəsi ... 98

***Mövzu 12*** İstehsal xərcləri və mənfəət ... 109

***Mövzu 13*** Sərbəst rəqabət və xalis inhisarçı rəqabət ... 119

***Mövzu 14*** İnhisarçı rəqabət və oliqopoliya rəqabəti ... 137

***Mövzu 15*** Əmək haqqı, renta, faiz və mənfəət ... 153

***Mövzu 16*** Ümumi tarazlıq nəzəriyyəsi və bazar iqtisadi sisteminin fəaliyyəti ... 171

İmtahan-test sualları ... 180

Kurs üzrə dərs saatlarının bölgüsü ... 181

**«Makroiqtisadiyyat» (üçüncü bölmə) ... 182**

***Mövzu 17*** Kursun məqsədi, vəzifələri və quruluşu ... 183

| | | |
|---|---|---|
| ***Mövzu 18*** | Ümumi daxili məhsulun həcminin ölçülməsi və qiymətlər səviyyəsi ....... | 189 |
| ***Mövzu 19*** | Makroiqtisadi qeyri-sabitlik: işsizlik və inflyasiya .................................. | 198 |
| ***Mövzu 20*** | Makroiqtisadi təhlil: məcmu tələb və məcmu təklif ................................ | 211 |
| ***Mövzu 21*** | Fiskal siyasət ........................................................................................... | 219 |
| ***Mövzu 22*** | Pul və bank işi. Baknlar necə pul yaradır ................................................ | 228 |
| ***Mövzu 23*** | Büdcə kəsiri və dövlət borcu ................................................................... | 245 |
| ***Mövzu 24*** | İqtisadi artım: mahiyyəti və tipləri .......................................................... | 253 |
| | İmtahan-test sualları .................................................................................. | 266 |
| | Kurs üzrə dərs saatlarının bölgüsü ......................................................... | 268 |
| | **«Müasir beynəlxalq iqtisadi problemlər» (dördüncü bölmə) .............** | **269** |
| ***Mövzu 25*** | Kursun məqsədi, vəzifələri və quruluşu .................................................. | 270 |
| ***Mövzu 26*** | Dövlət və iqtisadi siyasət ......................................................................... | 277 |
| ***Mövzu 27*** | Antitrest (antiinhisar) qanunları və təsərrüfat həyatının tənzimlənməsi | 287 |
| ***Mövzu 28*** | Kənd təsərrüfatı və iri şəhərlərin iqtisadi-sosial problemləri .................. | 299 |
| ***Mövzu 29*** | Gəlirlərin bölgüsü, qeyri-bərabərlik və yoxsulluq .................................. | 311 |
| ***Mövzu 30*** | Beynəlxalq ticarət: mahiyyəti, formaları və meylləri ............................ | 323 |
| ***Mövzu 31*** | Dünya valyuta sistemi və onun inkişaf mərhələləri ................................ | 335 |
| ***Mövzu 32*** | Bəşəriyyətin qlobal sosial-iqtisadi problemləri ....................................... | 346 |
| | İmtahan-test sualları .................................................................................. | 359 |
| | Kurs üzrə dərs saatlarının bölgüsü ......................................................... | 360 |
| | Nəticə ........................................................................................................ | 361 |
| | Ədəbiyyat ................................................................................................... | 365 |
| | İqtisadiyyat üzrə Nobel mükafatı laureatları ........................................... | 366 |
| | Əsas iqtisadi terminlərin izahlı lüğəti (*Qlossari*) .................................... | 370 |

***Əbdülsəlimzadə Qüdrət Yaqub oğlu***
**İqtisadi nəzəriyyə** – *Economics*
**(Dərs vəsaiti)**

| | |
|---|---|
| **Texniki redaktor:** | Qasımova Təranə Yusif qızı |
| **Üz qabığın dizaynı:** | İbrahimov Telman İsmayıl oğlu |
| **Kompyüter tərtibatı:** | Abışova Aysel İsmayıl qızı |
| **Nəşrə verilmişdir:** | 05.05.2012 |
| **Format:** | 60×90×1/8 |
| **Tiraj:** | 300 |

Qərb Universiteti Nəşriyyat-Poliqrafiya Mərkəzində çap olunmuşdur
Ünvan: AZ1001, İstiqlaliyyət küç., 27
Bakı, 2012